AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

ISSN 2218-4783

ELMİ ƏSƏRLƏR

İctimai və humanitar elmlər seriyası

№ 3

Jurnal 25 noyabr 2004-cü il tarixdə Azərbaycan Respublikası
Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir
(Şəhadətnamə № 1140)

Naxçıvan, "Tusi" – 2019, Cild 15

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА

2005-ci ildə təsis edilmişdir • Published since 2005 • Выходит с 2005 года

Jurnal AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin rəhbərliyi ilə nəşr olunur
The journal is published under auspices of the Presidium of ANAS Nakhchivan Branch Office
Журнал издается под руководством Президиума Нахчыванского Отделения НАНА

REDAKSİYA HEYƏTİ

Baş redaktor
İ.M.Hacıyev

İ.Ə.Həbibbəyli, N.M.Vəlixanlı, F.Y.Səfərli (baş redaktorun müavini), Y.M.Mahmudov, V.H.Əliyev, Ə.A.Quliyev (baş redaktorun müavini), Ə.X.Nuriyev, V.B.Baxşəliyev (məsul katib), Z.Ə.Şahverdiyev, N.H.Əhmədov, F.Y.Xəlilov

EDITORIAL BOARD

Chief editor
İ.M.Hajiyev

I.A.Habibbeyli, N.M.Valikhanli, F.Y.Safarli (assistant editor), Y.M.Mahmudov, V.H.Aliyev, A.A.Quliyev (assistant editor), A.Kh.Nuriyev, V.B.Bakhshaliyev (executive secretary), Z.A.Shahverdiyev, N.H.Ahmadov, F.Y.Khalilov

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

Главный редактор
И.М.Гаджиев

И.А.Габиббейли, Н.М.Велиханлы, Ф.Я.Сафарли (зам. главного редактора), Я.М.Махмудов, В.Х.Алиев, А.А.Гулиев (зам. главного редактора), А.Х.Нуриев, В.Б.Бахшалиев (ответственный секретарь), З.А.Шахвердиев, Н.Х.Ахмедов, Ф.Ю.Халилов

Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35, tel.: 544-69-84
Address: Nakhchivan, Haydar Aliyev av., 35, phone: 544-69-84
Адрес: Нахчыван, пр. Гейдар Алиева, 35, тел.: 544-69-84

© “Tusi” nəşriyyatı, 2019

MÜNDƏRİCAT

TARİX VƏ SİYASƏT

İsmayıl Hacıyev. Moskva müqaviləsi və Naxçıvanın Azərbaycanın himayəsində muxtar ərazi statusu.....9
Fəxrəddin Səfərli. Naxçıvanın müsəlman epiqrafikası abidələrinin tərtibatında istifadə olunan bəzi Quran ayələri və dini mətnlər.....17
Emin Şıxəliyev. Mifologiyanın "Böyük Ermənistan" ideologiyasında yeri.....25
İlhami Əliyev. Nadir şahın hakimiyyəti illərində Naxçıvanda siyasi vəziyyət.....31
Yaşar Rəhimov. Kollektivləşmə illərində Naxçıvanda repressiyalar.....37
Musa Quliyev. Polkovnik Əbülfət ağa Şahtaxtinski…….....45
Sara Hacıyeva. Naxçıvan diyarında torpaq mülkiyyət formaları (XVIII-XIX əsrlərdə)…….....52

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

Vəli Baxşəliyev. Ovçulartəpəsi mədəniyyətinin xüsusiyyətləri (e.ə. 4400-4000)…….....58
Zeynəb Quliyeva. Naxçıvanın Son Eneolit keramikasının mənşəyi.....67
Toğrul Xəlilov. Naxçıvandakı Son Tunc dövrünə aid arxeoloji abidələrdən aşkar olunmuş gil möhürlər haqqında.....74
Turan Həşimova. Qızılburun yaşayış yeri və nekropolunun boyalı keramikası.....81
Asəf Orucov. Naxçıvan şəhərinin maddi mədəniyyəti (XIX-XX əsr).....88
Şəhla Nuruzadə. Novruz adət-ənənələri (Cəbrayıl rayonunun və Naxçıvanın materialları əsasında).....94

AZƏRBAYCAN DİLİ

Firudin Rzayev. Qədim Oğuz türk damğa işarələrinin Naxçıvan ərazisində izləri.....104
Zülfiyyə İsmayıl. Naxçıvanın dialekt və şivələrində sintaktik yolla söz yaradıcılığı.....111
Nuray Əliyeva. Naxçıvan dialekt və şivələrindəki bəzi köhnəlmiş sözlərin etnolinqvistik təhlili.....117
Aysel Eminova. Oğuzların Büğdüz boyunun Qafqaz etnotoponimik arealındakı izləri və Böyükdüz toponiminin struktur-semantik təhlili.....124
Əhruz Mahmudova. Naxçıvan və Qars şivələrində işlənən xalçaçılıq leksikası.....129

FOLKLOR VƏ ƏDƏBİYYAT

Əbülfəz Quliyev. Hinduşah Naxçıvaninin "Əs-sihah əl-əcəmiyyə" əsəri və onun əlyazma nüsxələri haqqında bəzi qeydlər.....134
Fərman Xəlilov. Seyid Səbrinin şeirlərində vətənpərvərlik, təbiət gözəllikləri və məhəbbətin tərənnümü.....141
Ramiz Qasımov. Azərbaycan milli tənqidi realizmi və xalq lətifə ənənələri.....147
Aygün Orucova. Türk alimləri Baba Nemətullah Naxçıvaninin Quran təfsiri haqqında.....155

Nərgiz İsmayılova. Hüseyn İbrahimov romanlarında şərq və qərb vəhdəti (“Əsrin onda biri” və “Böhtan” əsasında).....162
Sahab Əliyeva. Cənubi Azərbaycan mövzusu Hüseyn Razinin yaradıcılığında.....169
Səbuhi İbrahimov. Naxçıvanda kitab və kitabxana mədəniyyəti.....176
Fəxrəddin Eylazov. AMEA Naxçıvan Bölməsi Əlyazmalar fondunda saxlanılan “təzkirə” nüsxələrinin oxşar və fərqli cəhətləri.....181
Kübra Vəliyeva. Azərbaycan və ərəb dillərində tibbi mətnlərin tərcüməsində çətinliklər və transliterasiya problemi.....186
Nicabət İslamova. Ərəb mənbələrində Osmanlı-Qaraqoyunlu və Teymuri münasibətlərinə qısa baxış.....191
Çinarə Rzayeva. Ramazan və orucluq mövzusunun Azərbaycan folklor mətinlərində yeri....199
Sitarə Əlizadə. Azərbaycan aşıqlarına həsr olunmuş tarixi poemalarda el sənətkarlarına poetik ehtiram.....204
Nurlanə Mustafayeva. Azərbaycan aşıq şeirinin Türkiyə ədəbiyyatşünaslığında tədqiqi məsələləri.....215
Aytən Cəfərova. Folklor motivləri Cəlil Məmmədquluzadə yaradıcılığı və “Molla Nəsrəddin” jurnalında milli oyanışa çağırış üsulu kimi.....221

İNCƏSƏNƏT

Əli Qəhrəmanov. Rza Təhmasib: Milli teatr və kinomuzun korifey sənətkarı.....228
Ələkbər Qasımov. Dünyaşöhrətli mahnının bəxtəvər bəstəkarı.....235
Fizzə Quliyeva. Ərtoğrol Cavidin həyatı və yaradıcılıq yolu.....241
Fatma Məmmədova. Ömrünü Naxçıvana bağlayan sənətkarın həyat və yaradıcılığı.....247
Nuray Bəktaşi. Azərbaycanda ilk musiqişünas Səfiyəddin Urməvinin yaradıcılığı.....253
Fəridə Əhmədova. Xalq rəssamı Hüseynqulu Əliyevin rəngkarlıq əsərlərində janr müxtəlifliyi.....259

İQTİSADİYYAT

Eltun İbrahımov. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında bank sisteminin vəziyyəti.....265
Həmdulla Məmmədov. Dövlət qulluğu dövlət idarəetmə mexanizminin mühüm elementi kimi.....271
Səbuhi Mehdizadə. Tullantıların idarə edilməsində davamlı inkişaf indikatorlarının rolu.....280

YUBİLEYLƏR

İsmayıl Hacıyev. Görkəmli alim, bacarıqlı elm təşkilatçısı.....290

CONTENTS

HISTORY AND POLİTİCS

Ismayil Hajiyev. The Moscow treaty and the status of autonomous area of Nakhchivan under the protection of Azerbaijan…….....9
Fakhraddin Safarli. Some ayats of the Quran and religious texts used in the design of muslim epigraphy monuments of Nakhchivan…….....17
Emin Shikhaliyev. The place of the mythology in the ideology of "Great Armenia"….....25
Ilhami Aliyev. The socio-political situation in Nakhchivan during the rule of Nadir shah.....31
Yashar Rahimov. The repressions in Nakhchivan in collectivization years…….....37
Musa Guliyev. Colonel Abulfat agha Shahtakhtinsky…….....45
Sara Hajiyeva. Land ownership forms in the Nakhchivan region in XVIII-XIX centuries.....52

ARCHAEOLOGY AND ETHNOGRAPHY

Veli Bakhshaliyev. Features of culture of the Ovçulartepe (4400-4000 bc)…….....58
Zeyneb Guliyeva. Genesis of Late Eneolithic ceramics of Nakhchivan….....67
Togrul Khalilov. About the clay seals found in archaeological monuments of Nakhchivan during the Late Bronze Age…….....74
Turan Hashimova. Painted ceramics of Gyzylburun settlement and necropolis…….....81
Asaf Orujov. Material culture of the Nakhchivan city (XIX-XX century)…….....88
Shahla Nuruzadeh. Novruz traditions (based on the materials of Nakhchivan and Jabrayil region).....94

AZERBAIJAN LANGUAGE

Firudin Rzayev. Traces of ancient Oguz Turkis' brand signs in the territory of Nakhchivan...104
Zulfiya Ismayil. Syntactic method of word-building in Nakchivan dialects and accents…....111
Nuray Aliyeva. Ethnolinguistic analysis of some archaic words in Nakhchivan dialects and accents.....117
Aysel Eminova. Traces of the Büğdüz oguz clan in the Caucasian ethnotoponymic area and the structural-semantic analysis of the Böyükdüz toponym….....124
Ahruz Mahmudova. Carpet weaving vocabulary in the local dialects of Nakhchivan and Kars.....129

FOLKLORE AND LITERATURE

Abulfaz Guliyev. Some notes about the Hindushah Nakhchivani's work "As-Aikhah al-Ajamiyeh" and its manuscript copies….....134
Farman Khalilov. Poetizing of patriotism, beauty of nature and love in the poems of Seyid Sabri….....141
Ramiz Gasimov. Azerbaijani national critical realism and folk anecdote traditions….....147
Aygun Orujova. Turkish scientists about baba Nematullah Nakhchivani and his interpretation of the Koran…….....155

Nargiz Ismailova. The unity of east and west in Hussein Ibrahimov's novels (on the basis of "A Tithe of the Century" and "Slander")….....162
Sahab Aliyeva. The theme of southern Azerbaijan in Hussein Razi's works….....169
Sabuhi İbrahimov. Book and library culture in Nakhchivan…….....176
Fakhraddin Eylazov. Similar and distinctive features of copies of "Tazkire" stored in the manuscript fund of the Nakhchivan branch of ANAS….....181
Kubra Valiyeva. Difficulties in the translation of medical texts in Azerbaijani and Arabic and transliteration problem.….....186
Nijabat Islamova. A brief overview of the relationship between the Karakoyunlu, Ottoman and Timurids' imperies in the Arab sources….....191
Chinara Rzayeva. The place of the Ramazan and fasting issues in Azerbaijani folklore texts.....199
Sitara Alizadeh. Poetic respect to national performers in the historical poems dedicated to Azerbaijani ashugs….....204
Nurlana Mustafayeva. Study of Azerbaijani ashiq poetry in the Turkish literary criticism.....215
Ayten Jafarova. Folklor motives as a way of appeal to national revival in Jalil Mammad-guluzadeh's creativity and in "Molla Nasraddin" journal.....221

ART

Ali Gahramanov. Rza Tahmasib: coryphaeus of national theater and cinema.….....228
Alakbar Gasımov. The lucky composer of the world-famous song.....235
Fizza Guliyeva. Life and creative development of Ertogrol Javid.….....241
Fatma Mammadova. Life and works of the artist who has connected his life with Nakhchivan...247
Nuray Bektashi. Creative work of Safiaddin al-Urmawi, the first musicologist of Azerbaijan.….....253
Farida Ahmadova. Creative development of peoples artist Huseyngulu Aliyev….....259

ECONOMICS

Eltun Ibrahimov. Banking system of the Nakhchivan Autonomous Republic in the years of independence.….....265
Hamdulla Mammadov. Civil service as an important element of public administration.....271
Sabuhi Mehdizade. The role of sustainable development indicators in waste management...280

JUBILEES

Ismayil Hajiyev. Prominent scientist, talented science manager.....290

СОДЕРЖАНИЕ

ИСТОРИЯ И ПОЛИТИКА

Исмаил Гаджиев. Московский договор и статус автономии Нахчывана под покровительством Азербайджана.....9
Фахреддин Сафарли. Некоторые аяты Корана и религиозные тексты, использованные при оформлении памятников мусульманской эпиграфики Нахчывана.....17
Эмин Шихалиев. Роль мифологии в идеологии «Великой Армении».....25
Ильхами Алиев. Обшественно-политическая ситуация в Нахчыване во времена правления Надир-шаха.….....31
Яшар Рагимов. Репрессии в Нахчыване в годы коллективизации.….....37
Муса Гулиев. Полковник Абульфат ага Шахтахтинский.….....45
Сара Гаджиева. Формы собственности на землю в Нахчыванской области в XVIII-XIX вв....52

АРХЕОЛОГИЯ И ЭТНОГРАФИЯ

Вели Бахшалиев. Особенности культуры Овчулартепеси (4400-4000 г. до н.э.).....58
Зейнеб Гулиева. Генезис позднеэнеолитической керамики Нахчывана.....67
Тогрул Халилов. О глиняных печатях, найденных в археологических памятниках позднего бронзового периода в Нахчыване.....74
Туран Гашимова. Расписная керамика поселения Кызылбурун и его некрополя.....81
Асеф Оруджев. Материальная культура города Нахчывана (XIX-XX вв).....88
Шахла Нурузаде. Обычаи и традиции праздника Новруз (на основе материалов Нахчывана и Джебраильского района).....94

АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

Фирудин Рзаев. Следы тавровых знаков древних тюрков-огузов на территории Нахчывана..104
Зульфия Исмаил. Синтаксический способ словообразования в нахчыванских диалектах и говорах.….....111
Нурай Алиева. Этнолингвистический анализ некоторых устаревших слов в нахчыванских диалектах и говорах.....117
Айсель Эминова. Следы огузского племени Бюкдюз в кавказском этнотопонимическом ареале и структурно-семантический анализ топонима Боюкдюз.….....124
Ахруз Махмудова. Ковродельческая лексика в говорах Нахчывана и Карса.….....129

ФОЛЬКЛОР И ЛИТЕРАТУРА

Абульфаз Гулиев. Некоторые заметки о произведении Хиндушаха Нахчывани «Ас-Сихах аль Аджамийе» и его рукописных экземплярах.….....134
Фарман Халилов. Воспевание патриотизма, красоты природы и любви в стихотворениях Сеида Сабри.….....141

Рамиз Гасымов. Азербайджанский национальный критический реализм и традиции народного анекдота….....147
Айгюнь Оруджова. Турецкие ученые о Баба Нематуллахе Нахчывани и его толковании Корана.....155
Наргиз Исмаилова. Единство востока и запада в романах Гусейна Ибрагимова (на основе “Одной десятой века” и “Клеветы”)…….....162
Сахаб Алиева. Тема Южного Азербайджана в творчестве Гусейна Рази…….....169
Сабухи Ибрагимов. Книжная и библиотечная культура в Нахчыване….....176
Фахреддин Эйлазов. Сходные и отличительные черты экземпляров «Тезкире», хранящихся в фонде рукописей Нахчыванского Отделения НАНА…….....181
Кубра Валиева. Сложности перевода медицинских текстов на азербайджанском, арабском языках и проблема транслитерации….....186
Ниджабат Исламова. Краткий обзор отношений между Каракоюнлу-Османами и Тимуридами в арабских источниках…….....191
Чинара Рзаева. Место темы Рамазана и поста в азербайджанских фольклорных текстах.....199
Ситаре Ализаде. Поэтический почет народным певцам в исторических поэмах, посвященных Азербайджанским ашугам….....204
Нурлана Мустафаева. Вопросы исследования азербайджанского ашугского стиха в турецком литературоведении.....215
Айтен Джафарова. Фольклорные мотивы как способ призыва к национальному пробуждению в творчестве Джалила Мамедкулизаде и журнале «Молла Насреддин»…….221

ИСКУССТВО

Али Гахраманов. Рза Тахмасиб: корифей национального театра и кино….....228
Алекбер Гасымов. Счастливый композитор всемирно известной песни.....235
Физза Гулиева. Жизненный и творческий путь Эртогрола Джавида….....241
Фатма Мамедова. Жизнь и творчество художника, связавшего свою жизнь с Нахчыраном.....247
Нурай Бекташи. Творчество Сафиаддина Урмави, первого музыковеда в Азербайджане.....253
Фарида Ахмедова. Творческий путь народного художника Гусейнгулу Алиева.....259

ЭКОНОМИКА

Элтун Ибрагимов. Банковская система Нахчыванской Автономной Республики в годы независимости….....265
Гамдулла Мамедов. Государственная служба как важный элемент государственного управления….....271
Сабухи Мехтизаде. Роль индикаторов устойчивого развития в управлении отходами...280

ЮБИЛЕИ

Исмаил Гаджиев. Видный ученый, способный организатор науки.....290

TARİX

UOT 94(479.24)

İSMAYIL HACIYEV

MOSKVA MÜQAVİLƏSİ VƏ NAXÇIVANIN AZƏRBAYCANIN HİMAYƏSİNDƏ MUXTAR ƏRAZİ STATUSU

Məqalədə XX əsrin 20-ci illərində Rusiya və Türkiyənin düşdüyü vəziyyət, imperialist dövlətlərinin bolşevik hakimiyyətinə və Türkiyəyə qarşı hazırladıqları təxribatlar, bunlara qarşı Rusiya və Türkiyənin yaxınlaşması və mübarizəsi araşdırılmışdır. Bu dövlətlər arasında yaxınlaşma imperializmə qarşı mübarizə aparmaq məqsədindən irəli gəlirdi. Rusiya-Türkiyə yaxınlaşması, danışıqların aparılması, sonda "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi ilə nəticələnmişdir.

Moskva müqaviləsinin bizim üçün ən mühüm əhəmiyyəti Azərbaycanın himayəsində Naxçıvan diyarına muxtariyyət statusu verməsi olmuşdur. Türkiyə nümayəndələrinin təhriki ilə Azərbaycan onu – Naxçıvanı üçüncü dövlətə verməməlidir. Müddətsiz bağlanan bu müqavilə beynəlxalq müqavilə statusundadır və onu birtərəfli qaydada ləğv etmək olmaz.

Açar sözlər: *Rusiya, Türkiyə, müqavilə, Moskva, muxtariyyət, himayəçilik hüququ, üçüncü dövlət.*

Naxçıvan Azərbaycanın tarixən formalaşmış ən mühüm regionlarından biridir. Tarixi inkişaf elə gətirmişdir ki, Azərbaycanın bölgələri içərisində yalnız Naxçıvan müasir tariximizdə muxtar qurum kimi ayrılmışdır. Bunun əsas səbəbi Naxçıvan diyarının 1918-1920-ci illərdə düşdüyü hərbi-siyasi vəziyyətdir. Muxtariyyət statusunu rəsmiləşdirən isə Moskva müqaviləsidir. Moskva müqaviləsi 1921-ci il martın 16-da "Dostluq və qardaşlıq müqaviləsi" adı ilə Türkiyə ilə Rusiya arasında bağlanmışdır (12, s. 24-34).

Ötən əsrin 20-ci illəri Rusiya, eləcə də Türkiyə üçün də çətin dövr olmuşdur. Rusiyada siyasi hakimiyyət hələ möhkəmlənməmiş, ölkədə vətəndaş müharibəsi və xarici hərbi müdaxilə baş vermiş, imperialist dövlətləri bolşevik hakimiyyətinə qarşı müxtəlif təxribatlar törədirdi. Bu fikirləri eyni ilə Türkiyəyə də aid etmək olar. Osmanlı imperiyası süqut etmiş, Mustafa Kamal Paşa Türkiyəni xilas etmək üçün mübarizəyə başlamışdı. Belə bir şəraitdə Rusiya-Türkiyə yaxınlaşması ortaya çıxdı.

Həmin dövrdə beynəlxalq münasibətlərdə və dünyada yaranmış şəraitlə əlaqədar Rusiya ilə Türkiyənin yaxınlaşmasına, onlar arasında isti münasibətlərin və son nəticədə bu dövlətlər arasında müəyyən müqavilələrin baş tutmasına gətirib çıxardı. Əslində bir sıra dövlətlər Rusiya-Türkiyə yaxınlaşmasını istəmirdilər. Çünki Birinci Dünya müharibəsində qalib gəlmiş böyük dövlətlər bir tərəfdən Türkiyəni məğlub edib, özlərindən asılı vəziyyətə salmaq, digər tərəfdən isə Rusiyada bolşevik hökumətini devirmək, inqilabi Türkiyənin köməyi ilə çevrilişlə Azərbaycanda hakimiyyətə gəlmiş bolşevik hökuməti ilə yaxınlaşmasına yol verməməyə çalışırdılar.

Bu illərdə Azərbaycanda, eləcə də Naxçıvan diyarında da baş verən hadisələr çox mürəkkəb, ziddiyyətli və çətin olmuşdur. Azərbaycanın düşdüyü daxili, qarşılaşdığı beynəlxalq vəziyyət elə ağır idi ki, bir sıra hallarda Naxçıvan bölgəsinə lazımi səviyyədə kömək göstərə bilmirdi. Bundan istifadə edən məkrli düşmənlərimiz bir sıra dövlətlərin himayəsindən, yardım və dəstəyindən istifadə edərək Naxçıvan diyarına hərbi basqınlar edir, qırğınlar törədir, şəhər və kəndləri dağıdır, yandırır, ağlasığmaz vəhşiliklər törədirdi.

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra da daşnak silahlı qüvvələrinin təcavüzkar hərəkətləri nəticəsində Naxçıvan diyarında gərginlik hələ də davam edirdi. 1920-ci ilin iyulunda Naxçıvan, Culfa və Ordubad əhalisi N.Nərimanova, S.Orconikidzeyə məktubla müraciət etdi. Müraciətdə deyilirdi: "Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur. Qızıl ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik" (15, s. 247).

XI Ordunun köməyi ilə 1920-ci il iyulun 28-də Naxçıvan diyarında Sovet hakimiyyəti quruldu və Naxçıvan SSR elan edildi, respublikanın ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi yaradıldı. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsi Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanova məktub göndərdi. Məktubda deyilirdi: "Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi hesab etmişdir" (5, v. 3).

Rusiya rəhbərlərinə gəldikdə isə onlar Türkiyə ilə diplomatik münasibətlər yaratmaq istəsələr də, Ermənistandan Türkiyəyə qarşı bir vasitə kimi də istifadə etməyə çalışırdılar. Ermənistan, Azərbaycan və Türkiyənin qarşılıqlı münasibətləri məsələlərinin həllində İ.Stalin Rusiyanın mənafelərindən çıxış edərək, həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. 1920-ci il noyabrın 9-da Bakıdakı çıxışında İ.Stalin demişdi: "Əgər bilmək istəyirlərsə ki, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə (daşnak hökumətinə – İ.H.) vermək olmaz, sovet hökuməti olanda vermək olar" (6, v. 30). İ.Stalinin bu çıxışından 20 gün sonra – noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti quruldu. Bu o demək idi ki, İ.Stalin və Rusiya rəhbərliyi də Zəngəzur və Naxçıvanı Ermənistana vermək istəyirdi. Ermənistan bolşeviklərin nəzarətinə keçən kimi Azərbaycan Hərbi İnqilab Komitəsinin sədri 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Həmin bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi, yəni Zəngəzur və Naxçıvan Ermənistana verilirdi (17, v. 6).

Məlum Bəyanatdan sonra Naxçıvan bölgəsində daxili vəziyyət xeyli mürəkkəbləşmiş, onun üstündə mübahisə və münaqişələr səngiməkdənsə xeyli kəskinləşmişdi. Naxçıvan məsələsi Rusiya-Ermənistan və Türkiyə-Ermənistan danışıqlarında mühüm yer tuturdu. Ermənistan Rusiya və Türkiyə arasında siyasi manevrlər edərək onların münasibətlərindən və yaranmış şəraitdən istifadə etməyə çalışırdı. Rusiyaya gəldikdə isə o, Türkiyə ilə yaxınlaşmaq xəttini yeritsə də ermənilərı də müdafiə etməsini gizlətmirdi. Ermənistan isə Naxçıvan və başqa ərazilərlə bağlı niyyətlərini həyata keçirmək üçün ən çox Rusiyaya ümid bəsləyirdi. Ermənistan 1920-ci il dekabrın 2-də həm Rusiya, həm də Türkiyə ilə müqavilə bağladı. RSFSR ilə Sovet Ermənistanı arasında bağlanan hərbi-siyasi sazişə görə keçmiş İrəvan quberniyasının Ermənistanın tərkibinə daxil olmasının Sovet hökuməti tərəfindən mübahisəsiz tanınması qəbul edilirdi (15, s. 298). Türkiyə ilə Ermənistan arasında bağlanan Gümrü (Aleksandropol) müqaviləsi Rusiya və onun təhriki ilə Ermənistan tərəfindən qəbul edilmədi. Lakin bununla belə, bu müqaviləyə görə, Naxçıvan bölgəsinin düşmən əlinə keçməməsi üçün "həmin ərazidə hələlik Türkiyənin himayəsində yerli hökumət yaradılması" qərara alınmışdır. Gümrü müqaviləsinin 2-ci maddəsində tərəflər Naxçıvan bölgəsi ilə bağlı razılığa qəlmişdilər ki, Ermənistan Naxçıvanla bağlı əraziyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara qarışmayacaq, indiki ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılacaqdır (11, s. 5). Müqavilənin 12-ci maddəsinə əsasən Türkiyə

hökuməti Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə tranzit işlərinin sərbəstliyinin təminatını öz üzərinə götürdü (12, s. 7-8).

1920-ci il dekabrın 28-də Ermənistan SSR Hərbi İnqilab Komitəsi bəyanat ilə çıxış edərək, Naxçıvan əhalisinə öz müqəddəratını azad surətdə təyin etmək hüququ verildiyini bildirdi. Lakin 1921-ci ilin əvvəllərindən başlayaraq heç bir bəyanat verməmiş kimi, yenə də Naxçıvana qarşı haqsız ərazi iddiaları irəli sürdü.

1920-ci ildə Türkiyə xalqı öz vətəninin müstəqilliyi uğrunda mübarizə aparırdı. Türkiyənin inqilabi hökuməti Sovet Rusiyası ilə dostluq əlaqələri yaratmışdı. 1920-ci il aprelin 26-da Türkiyə Böyük Millət Məclisi V.İ.Leninə müraciət etdi. Həmin ilin yayından başlayaraq Türkiyə hökuməti Rusiya ilə diplomatik münasibətlər qurmaq və iki ölkə arasında dostluq müqaviləsi imzalamaq üçün fəallığını artırdı və bunun üçün Bəkir Sami bəyin başçılığı ilə nümayəndə heyəti Moskvaya gəldi (13, s. 389). Danışıqlar nəticəsində sovet-türk müqaviləsinin layihəsi hazırlandı. RSFSR Xalq Xarici İşlər Komissarı G.Çiçerin danışıqlara Azərbaycanı və Ermənistanı da qatmaq istəyirdi. Burada onun məqsədi bu dövlətlərin xarici siyasətini öz əlində cəmləşdirmək və Türkiyəyə qarşı qoymaq, həm də gələcəkdə Güney Qafqazdakı niyyətlərini həyata keçirmək üçün zəmin hazırlamaq istəyirdi (13, s. 390-391).

Türkiyə bu təkliflə razılaşmadı. Onlar Azərbaycan, Gürcüstan və Ermənistanla müqavilə bağlamaq istəyirdi. Üstəlik Türkiyə bildirirdi ki, onların Azərbaycanla heç bir mübahisəli məsələsi yoxdur. Mübahisələr danışıqları dayandırdı.

1921-ci ilin fevral ayında Ankara hökumətinin yeni xarici işlər naziri Yusif Kamal bəyin başçılığı ilə Əli Fuad və doktor Rza Nurdan ibarət diplomatik nümayəndə heyəti Moskvaya gələrək yeni danışıqlara başladı (10, s. 423). Danışıqlarda Rusiya tərəfindən XXİK G.Çiçerin və RSFSR MİK üzvü C.Qorxmazov iştirak edirdi. Müzakirələr çox gərgin keçmiş və hətta danışıqlar bəzən pozulmaq həddinə çatmışdı. Bir sıra məsələlərlə yanaşı, danışıqlarda Naxçıvan məsələsinə də xüsusi əhəmiyyət verilmişdi. Türkiyənin bu məsələyə böyük önəm verməsi bölgənin strateji və geosiyasi mövqeyi ilə yanaşı, həm də Naxçıvanın Türkiyə-Azərbaycan əlaqələrində ən yaxın məsafədə yerləşməsi idi. Buna görə də Mustafa Kamal paşa Yusif Kamal bəyə Naxçıvanın türk qapısı olduğunu xatırlatmış və buna görə hərəkət edilməsini bildirmişdi. Y.Kamalın xatirələrindən bəlli olur ki, danışıqlarda Naxçıvana dair müzakirələr xeyli uzanmış, İ.Stalin "Naxçıvan üzərində nə üçün bu qədər israr edirsiniz?" sualına da "orası türk qapısıdır, ondan" cavabını almışdı (10, s. 426).

Moskva danışıqlarının bəzi iclaslarında Azərbaycanın Rusiyadakı səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski də iştirak etmiş və uğurlu nəticənin əldə edilməsində onun mühüm xidməti olmuşdur. Belə ki, o, 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi (9, v. 1). Lenin bunlarla tanış olduqdan sonra onu Siyasi Büroya göndərmişdi. B.Şahtaxtinskinin məktubu martın 16-da Stalinin, Çiçerinin və b. iştirakı ilə baxılmış və onun təklifləri nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvana muxtariyyət statusu verilməsi haqqında qərar qəbul olunmuşdu.

Bütün bunlar Moskva müqaviləsində ifadə olundu. Bir aya yaxın davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da imzalanmış "Dostluq və qardaşlıq haqqında" PSFSR-Türkiyə müqaviləsində öz əksini tapdı (8, v. 53-54).

Müqavilə ilə tərəflər onlara zorla qəbul etdirilən ikitərəfli və beynəlxalq müqaviləni rədd edirdilər. Türkiyə hökuməti tərəfindən qəbul edilməyən müqaviləni Rusiya hökuməti də rədd edirdi. Türkiyə Batum şəhərinə və limanına suverenlik verilməsinə razı olurdu. Bu şərtlə, ona qanuni idarəçilik, geniş muxtariyyət, vətəndaş hüququnun qorunması haqqı verilməli idi. Tərəflər Qara dənizin beynəlxalq statusu ilə bağlı razılığa gəlirdilər. Bu, Türkiyənin suverenliyinə, təhlükəsizliyinə, o cümlədən İstanbulun təhlükəsizliyinə xələl gətirməməli idi. Rusiya işğal rejiminin hər hansı ölkənin azad milli inkişafı ilə bir araya sığmadığını göstərirdi. Tərəflər bir-birlərinin ərazilərində hakimiyyətə gəlmək istəyən qrupların fəaliyyətinə yol verməməlidirlər. Bir ölkədən çıxıb digərində yaşayanlar yaşadıqları ölkənin qanunlarına tabe olmalı idilər. 1918-ci ilədək Rusiyaya məxsus olan ərazilərdə yaşayan vətəndaş öz əmlakı ilə köçüb Rusiyaya gedə bilərdi. Tərəflər 3-6 ay müddətində hərbi əsirləri və həbs olunmuş rus və türk vətəndaşlarını geri qaytarmalı idi. Tərəflər konsulluq münasibətləri qurmalı, iqtisadi və maliyyə məsələlərinə dair saziş imzalamalı idi. Onlar Qafqaz respublikaları qarşısında öhdəlik götürürdülər və s.

Moskva danışıqlarında Naxçıvanla bağlı əsas məsələlər danışıqların 10, 12 və 14 mart tarixli iclaslarında gərgin müzakirə olundu. Türk heyəti Naxçıvanın Türkiyənin himayəsində qalmasını istəyirdi. Onlar belə bir mövqedən çıxış edirdilər ki, Naxçıvan bölgəsi əhalisinin türk qoşunlarını dəvət və qəbul etməsi faktı onun Türkiyənin himayəsi altında olduğunu göstərir. Qeyd edək ki, Gümrü müqaviləsində də Naxçıvanın Türkiyənin himayəsi altında olduğu təsbit edilmişdir. Rusiya bunlarla razılaşmırdı. Belə olan təqdirdə türk heyəti bildirdi ki, Türkiyə bölgə üzərindəki bu himayəni Azərbaycanın üçüncü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürdüyü təqdirdə ona verməyə razıdır (1, v. 86).

Danışıqların martın 12-də keçirilən iclasında əsasən Naxçıvan dairəsi və Ermənistan arasında müəyyənləşdirilən sərhədlər ətrafında müzakirə aparıldı. Türkiyənin təkidindən sonra Şərur-Dərələyəz dairəsinin Naxçıvana keçməsi və İrəvan dairəsinin mübahisəli hissələrində sərhədin Kömürlü dağ (6930) və Saray Bulaq (8071) dağlarından, Ararat stansiyasından başlaması barədə razılığa gəlindi və bütün bu məsələlərin Azərbaycan, Ermənistan və Türkiyə nümayəndələrindən ibarət qarışıq komissiyanın razılaşdırılmasına verilməsi qərara alındı (8, v. 48-54).

Danışıqların martın 14-də keçirilən iclasında Naxçıvanın statusu tam olaraq müəyyənləşdirildi. Türk nümayəndələri göstərdiyi ciddi səylər nəticəsində Moskva konfransında Azərbaycanın ərazi bütövlüyünün qismən də olsa, qorunmasına nail ola bildi, Naxçıvanın heç bir dövlətə güzəştə gedilməməsi şərtilə Azərbaycanın tərkibində saxlanılması razılaşdırıldı (13, s. 399).

Moskva müqaviləsi əslində martın 18-də imzalandı. Lakin türk nümayəndə heyətinin təklifi ilə İstanbulun işğalının ildönümü günü olan 16 mart tarixinə görə Rusiyanın da razılığı ilə müqaviləyə 16 mart tarixi qoyuldu.

Müqaviləni Rusiya tərəfindən Georgi Çiçerin və Cəlal Qorxmazov, Türkiyə tərəfindən isə Yusif Kamal, Rza Nur və Əli Fuad Cəbəsoy imzaladılar. 16 maddə və 3 əlavədən ibarət olan "Dostluq və qardaşlıq" haqqında RSFSR-Türkiyə müqaviləsinin üçüncü maddəsində Naxçıvan məsələsinin həlli aşağıdakı kimi təsbit edildi: "Müqaviləni imzalayan tərəflər bu müqavilənin I (C) əlavəsində göstərilən sərhədlər daxilindəki Naxçıvan bölgəsinin, sahib olacağı himayə haqqını üçüncü bir dövlətə heç bir zaman güzəştə getməmək şərtilə, Azərbaycanın himayəsində muxtar bir ərazi təşkil etməsi ilə bağlı razılığa gəlirlər" (2, v. 3).

"Naxçıvan ərazisi" adlı I (C) əlavəsində isə bölgənin sərhədləri müəyyənləşdirildi: "Ararat stansiyası – Saray Bulaq dağı (8071) – Kömürlü dağ (6839) – (6930) – (3080) – Sayat dağ (7868) – Qurdqulaq kəndi – Həməsür dağı (8160) – Yüksəklik (8022) – Küküdağ (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin şərqi (12, s. 34).

Beləliklə, Rusiya hökumətinin ermənipərəst mövqeyinə və erməni kommunist riyakar siyasətinə baxmayaraq, Naxçıvan əhalisinin qətiyyətli, dönməz iradəsi, Türkiyənin prinsipial və ədalətli mövqeyi və Behbud ağa Şahtaxtinski kimi milli mənafelərdən çıxış edən siyasi xadimlərin səyləri ilə Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. V.İ.Lenin Türkiyə ilə sülh sazişindən danışarkən demişdi ki, bu "*bizi Qafqazdakı daimi müharibələrdən xilas edir*" (19, s. 127). Lakin bu sözlər özünü doğrultmadı. N.Nərimanov qeyd etmişdir ki, "*Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratlığı altında müstəqil respublika elan olunur. Orda bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik*" (15, s. 305). Yusif Kamal bəy isə yazmışdır ki, "*Naxçıvan müsəlmanları bir daha soyqırıma məruz qalacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdir*" (11, s. 6-7).

Moskva müqaviləsinin imzalanmasının böyük tarixi əhəmiyyəti vardır. İlk növbədə, bu müqavilə Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi, təbii müttəfiqə çevrildilər. Moskva müqaviləsi Azərbaycanın bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi. Bu müqaviləyə görə, qədim türk-oğuz yurdu olan Naxçıvana muxtariyyət statusu verilməklə Azərbaycanın himayəsində qaldı.

Bütün bunlarla bərabər, erməni daşnakları XX əsr boyu Naxçıvan iddialarından əl çəkməmiş, 90-cı illərin əvvəllərində buraya silahlı basqınlar etmiş, Moskva və Qars müqavilələrinin ləğv edilməsi üçün xeyli fəallaşmışlar. Son illərdə isə onlar bu barədə bir sıra dövlətlərə və beynəlxalq təşkilatlara müraciət etmişlər.

Erməni işğalına məruz qaldığımız, Naxçıvan Muxtar Respublikasına erməni iddialarının artdığı indiki zamanda Moskva beynəlxalq müqaviləsinin əhəmiyyəti daha aydın şəkildə nəzərə çarpır və Naxçıvanın muxtariyyətinin qorunmasında əvəzsiz rol oynayır. Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev 1992-ci ilin mart ayında Türkiyə Cümhuriyyətində olarkən Moskva və Qars müqavilələrini söhbət mövzusuna çevirmiş, bir sıra məsələləri dərindən açıqlamış (xüsusilə, muxtar respublikanın statusu məsələsi – İ.H.) və bu müqavilələrin xalqımızın həyatındakı tarixi rolunu yüksək qiymətləndirmişdir.

Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsinin 98 ili tamam olur. Bu, beynəlxalq Moskva müqaviləsi ilə rəsmiləşdirilib. Özü də müddətsiz dövr üçün. Bu müqavilənin müddətsiz bağlanması onun tarixi əhəmiyyətini daha da artırmış olur. Dövlətlərarası münasibətlər baxımından bu növ müqavilələr daimilik xarakterinə malikdir. Mübaliğəsiz demək olar ki, ifrat erməni millətçilərinin Moskva müqaviləsini qüvvədən salmaq üçün dəfələrlə müxtəlif hiylələrə əl atmalarına baxmayaraq, bu tarixi sənəd uzun illərdir ki, özünün həyat vəsiqəsini daşıyır və Naxçıvanın təhlükəsizliyini şərəflə qoruyur.

Naxçıvanın muxtariyyət statusu bu gün qüvvədə olan, imzalanmasından təqribən bir əsr vaxt keçən Moskva beynəlxalq müqaviləsi ilə təsdiqlənir. Bu muxtariyyət milli-etnik yox, sırf siyasi amillərlə, Naxçıvanın özünəməxsus geosiyasi və tarixi-coğrafi mövqeyi ilə şərtlənib. Müqaviləni imzalayan heç bir dövlət onu birtərəfli qaydada ləğv edə bilməz. Çünki bu beynəlxalq müqavilələr haqqında 1969-cu il Vyana Konvensiyasına, 1975-ci il Helsinki müşavirəsinin Yekun aktına münasibətdə saymazlıq kimi qiymətləndirilir.

Müqavilənin pozulması demək olar ki, mümkün deyil. Əgər olarsa, bundan ən çox itirən Rusiya və Ermənistan olar. Müqavilənin ləğv olunmasında maraqlı olan Ermənistan bilməlidir ki, bu, nəticə etibarilə Ermənistanın özünün əleyhinə işləyəcək prosesin başlanmasına səbəb ola bilər. Çünki bu ölkə Azərbaycanın ərazisində yaradılan qondarma dövlətdir. Bu dövlətin cəmi 100 illik tarixi var. Müqavilənin ləğv edilməsi Rusiyanın özünün də əleyhinədir: Rusiya özünü varisi elan etdiyi dövlətin imzaladığı sənədə hörmət etmirsə, bu, onun qlobal səviyyədə nüfuzuna xələl gətirə bilər. Onsuz da müqavilələrin (Moskva və Qars müqavilələri – İ.H.) ləğvi coğrafi baxımdan sərhədləri dəyişməyəcək. Çünki bu gün bütün sərhədlər BMT tərəfindən qəbul olunur. Həm də dövlətlər BMT-yə üzv olarkən bir-birinin ərazi bütövlüyünü qəbul ediblər.

Müqavilənin pozulması Azərbaycanın da maraqlarına toxunur. Müqavilənin şərtlərinə görə, Naxçıvan Azərbaycanın himayəsi altında muxtar ərazi statusuna malikdir. Habelə Azərbaycanın himayəsini üçüncü dövlətə güzəştə getməməsi barədə maddə də yer alıb. Bu müqavilənin müddəalarının icrası üçün 1921-ci il oktyabrın 13-də Qars müqaviləsi imzalanıb (10, s. 429-431; 13, s. 410-414). Türkiyə Naxçıvanın qarantı kimi çıxış edir. Moskva müqaviləsinin ləğvi Qars müqaviləsinin də ləğvi deməkdir. Qars müqaviləsi ləğv olunarsa, Azərbaycan Naxçıvanın təhlükəsizliyi ilə bağlı Türkiyə ilə ikitərəfli təhlükəsizlik müqaviləsi bağlaya bilər, Naxçıvanda hərbi bazanı qura bilər və s.

Ümumiyyətlə, Moskva müqaviləsi pozularsa yaranacaq durum Türkiyədən çox Rusiyanın maraqlarına toxunacaq. Çünki Türkiyə kimi, Rusiyanın da üzərinə götürdüyü öhdəlik və məhdudiyyətlər var. Həm də müqavilənin ləğvi və ya ona baxılması, bütün beynəlxalq normalara ziddir. Əgər bu müqavilə ləğv olunarsa, onda Rusiyanın imzaladığı bir sıra başqa müqavilələr gündəmə gələ bilər. Deməli, müqavilələrin ləğvi söhbəti ciddi deyil, sadəcə Türkiyəyə təzyiq etmək, hədə-qorxu gəlməkdir. Tarixin bir sıra dövrlərində belə hallar ortaya çıxıb. 2015-ci ilin noyabrın 24-də Türkiyə Hərbi Hava qüvvələri Rusiyanın SU-24 təyyarəsini vurduqdan sonra dövlətlərarası münasibətlər pisləşmişdir. Lakin hazırda Rusiya-Türkiyə münasibətləri normal səviyyədən də artıq inkişaf edir.

Ümumiyyətlə, "Dostluq və qardaşlıq müqaviləsi" adı ilə adlanan Moskva sazişi dövlətlər arasında qarşıdurmaya yox, dostluq və qardaşlığa, qarşılıqlı münasibətlərin daha da yaxşılaşdırılmasına xidmət etməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 28, siy. 1, iş 55.
2. ARDA, f. 28, siy. 1, iş 67.
3. ARDA, f. 28, siy. 1, iş 69.
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİ İSSA), f. 1, siy. 2, iş 18.
5. ARPİİSSA, f. 609, siy. 1, iş 6.
6. ARPİİSSA, f. 609, siy. 1, iş 24.
7. ARPİİSSA, f. 609, siy. 1, iş 71.
8. ARPİİSSA, f. 609, siy. 1, iş 94.
9. ARPİİSSA, f. 1022, siy. 1, iş 94.
10. Atnur İ.E. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: Əcəmi NPB, 2013, 496 s.

11. Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi. Tərtib edəni və ön sözün müəllifi İ.Hacıyev. Bakı: Elm, 1999, 36 s.
12. Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində). Naxçıvan: Əcəmi NPB, 2004, 140 s.
13. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, 475 s.
14. Mədətov Q. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı: Azərnəşr, 1958, 164 s.
15. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, 328 s.
16. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), f. 2, siy. 2, iş 9.
17. NMRDA, f. 314, siy. 5, iş 15.
18. NMRDA, f. 314, siy. 5a, iş 66.
19. Кулиев Дж. Б. К истории образования Второй Республики Азербайджана. Баку: Элм, 164 с.

AMEA Naxçıvan Bölməsi
E-mail: ismayil_haciyev@yahoo.com

Ismayil Hajiyev

THE MOSCOW TREATY AND THE STATUS OF AUTONOMOUS AREA OF NAKHCHIVAN UNDER THE PROTECTION OF AZERBAIJAN

The disadvantage of Russia and Turkey, the sabotages of imperialist states against Bolshevik governance and Turkey in the 20s of the XX century are investigated in the article. Approaching and struggling of Russia and Turkey against those states are also researched here. The approach of these states arose from the aim of struggling against imperialism. The Russian-Turkish approaching, their conducting negotiations ended with the sign of the Moscow treaty "of Friendship and Brotherhood".

The most significant importance of the treaty of Moscow for us is that it gave an autonomy status to Nakhchivan under the protection of Azerbaijan. Azerbaijan must not compromise Nakhchivan to the third state with the incitement of the Turkish representatives. This timeless signed treaty has the status of international treaty and it cannot be annulled neutrally.

Keywords: *Russia, Turkey, treaty, Moscow, autonomy, the right of protection, the third state.*

Исмаил Гаджиев

МОСКОВСКИЙ ДОГОВОР И СТАТУС АВТОНОМИИ НАХЧЫВАНА ПОД ПОКРОВИТЕЛЬСТВОМ АЗЕРБАЙДЖАНА

В статье исследованы положение России и Турции в 20-х годах XX века, провокации империалистических государств против большевистской власти и Турции, и сближение России и Турции для оказания сопротивления этому. Сближение этих двух

государств стало следствием совместной борьбы против империализма. В результате Россия и Турция после проведения переговоров заключили Московский договор «О дружбе и сотрудничестве».

Важным значением Московского договора для нас стало получение Нахчываном статуса автономии под покровительством Азербайджана. По инициативе представителей Турции был включен пункт о том, что Азербайджан не уступит эту автономию третьему государству. Данный договор является бессрочным и имеет статус международного соглашения, которое не может быть аннулировано односторонне.

Ключевые слова: *Россия, Турция, договор, Москва, автономия, право покровительства, третье государство.*

Daxilolma tarixi: **İlkin variant 05.07.2019**
Son variant 12.09.2019

UOT 94(479.24)

FƏXRƏDDİN SƏFƏRLİ

NAXÇIVANIN MÜSƏLMAN EPİQRAFİKASI ABİDƏLƏRİNİN TƏRTİBATINDA İSTİFADƏ OLUNAN BƏZİ QURAN AYƏLƏRİ VƏ DİNİ MƏTNLƏR

Məqalədə Naxçıvan Muxtar Respublikası ərazisində zəmanəmizədək gəlib çatan müsəlman epiqrafikası abidələrinin tərtibatında istifadə olunan bəzi Quran ayələri və dini xarakterli kəlamlardan bəhs olunur. Qeyd edilir ki, insana güclü psixoloji təsir edən dini mətnlər abidələrin dekorativ bəzəyini zənginləşdirməklə bərabər dövrün ideologiyasının Azərbaycan hökmdarlarının dini siyasətinin, İslam dininin insanların həyatında rolunun və s. məsələlərin öyrənilməsində mühüm rol oynayırlar. Həmçinin bu mətnlər üzərində yazıldığı abidələrin dağıdılmasının qarşısını alırdı.

Açar sözlər: *Naxçıvan, epiqrafik abidə, kitabə, surə, ayə, dini mətnlər.*

Naxçıvan Muxtar Respublikası ərazisində zəmanəmizədək çoxlu sayda müsəlman epiqrafikası abidəsi gəlib çatmışdır. Müsəlman Şərqi ölkələrinin ərazisində olan kitabələrin əksəriyyətində olduğu kimi Naxçıvan ərazisində də orta əsrlər zamanı yaradılan bu abidələrin də tərtibatında müqəddəs kitabımız Qurani-Kərimin ayələrindən və dini xarakterli kəlamlardan geniş şəkildə istifadə olunmuşdur. Məlum olduğu kimi müqəddəs Qurani-Kərim müsəlmanların əsas dini kitabıdır. Ona görə də müsəlmanlar Qurani-Kərimin hökmlərinə və tələblərinə sözsüz əməl edir, elmi və bədii əsərlərin yazılmasında, hətta müxtəlif məzmunlu kitabələrin tərtibatında onun surə və ayələrindən, Allaha aid kəlamlardan, dini xarakterli sözlərdən istifadə edirdilər. Çünki orta əsr memarlıq nümunələri və qəbirüstü xatirə abidələri üzərində həkk edilən, Allahın vahidliyini təbliğ edən, insanlara yüksək dini-əxlaqi keyfiyyətlər aşılayan islami dəyərlərin, xüsusilə Quran ayələrinin və dini xarakterli kəlamların psixoloji və həyəcanlandırıcı təsiri digər abidələrə nisbətən daha güclüdür. Bu qəbildən olan kitabələr insanlara böyük estetik zövq bəxş edir, güclü psixoloji təsir göstərirdi. Beləliklə, onlar insanlara vahid Allahın adı ilə insanpərvərlik, xeyirxahlıq, rəhmdillik, ədalət, bir-birinə hörmət və inam hissləri aşılayır (14, s. 4).

Həmçinin bu kitabələr ölkəmizdə İslam dininin yayılmasının, Azərbaycanın orta əsr hökmdarlarının, xüsusilə Səfəvi şahlarının din sahəsində həyata keçirdiyi siyasətin öyrənilməsi üçün çox böyük əhəmiyyət kəsb edirlər. Kitabələrin bu barədə təqdim etdiyi məlumatlar əsasında islam ideyalarının daşıyıcıları olan real qüvvələri, həmin ideyaların yayılması metodlarını, bu prosesin xronoloji çərçivəsini, feodal istismarının şiddətlənməsini, xalq kütlələrinin həmin istismara qarşı mübarizəsində islamın rolunu və s. məsələləri obyektiv və hərtərəfli tədqiq etmək mümkün olur (16, s. 9).

Kitabələrdə həkk olunan, insanlara Allaha inam, onun mərhəmətinə ümid etməyi, axirət dünyasına, cənnət və cəhənnəmə inam aşılayan Quran ayələri və dini xarakterli kəlamlardan islam ideyalarının təbliği üçün istifadə edilirdi. Bu məqsədlə Qurani-Kərimdən ayələr və dini kəlamlar bütün növ epiqrafik abidələrdə – inşaat və məzar kitabələrinin mətnində yerləşdirilirdi (18, s. 133; 17, s. 110). Beləliklə, orta əsrlər zamanı inşa olunan möhtəşəm memarlıq abidələri və mərhumların qəbirlərinin üstünə qoyulan xatirə abidələrinin üzərində ərəb əlifbasının müxtəlif xətləri ilə kitabələr yazılırdı. Bu zaman kitabələrin tərtibatında Qurani-Kərimdən götürülmüş surə və ayələrdən, dini xarakterli kəlamlardan, fikirlərdən istifadə olu-

nurdu. Kitabələrdə bəhs olunan hər hansı bir məsələ xarakterindən asılı olaraq Qurani-Kərimin müvafiq ayələri və dini xarakterli sözlər ilə əsaslandırılırdı. Həm də bu kitabələr xəttatlıq baxımından çox yüksək səviyyədə yazılır, abidələrin bədii tərtibatını zənginləşdirmək üçün canlı təsvirlərindən istifadə olunması təqdir olunmayan orta əsrlər dövründə abidənin gözəlliyini artırırdı. Çünki orta əsr sənətkarları ərəb əlifbasının müxtəlif xətlərindən, onun yuvarlaq və elastikliyindən məharətlə istifadə edərək kitabələri bəzək ünsürünə çevirir və gözəl sənət əsərləri yaradırdılar. Bunun ən parlaq nümunəsini Naxçıvan memarlıq məktəbinə məxsus memarlıq abidələrinin timsalında görürük.

Naxçıvan ərazisində indiyədək gəlib çatan kitabələrin mətnində müqəddəs Qurani-Kərimdən bütöv surələrə, böyük və kiçik ayələrə, dini xarakterli mətnlərə rast gəlinir. Məsələn, Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən 1162-ci ildə Naxçıvan şəhərində ucaldılan Yusif Küseyr oğlu türbəsinin qurşağında (frizində) Qurani-Kərimin 3-cü surəsindən 15-17-ci ayələr və 112-ci surə yazılmışdır (9, s. 372). Yaxud da, Azərbaycan memarlığının şah əsərlərindən olan, Əcəmi Naxçıvani tərəfindən 1186-cı ildə Naxçıvan şəhərində inşa edilən Möminə xatın türbəsinin on tağının kənarları boyunca Qurani-Kərimin 83 ayədən ibarət olan "Yasin" surəsi 2 dəfə – birinci dəfə I-V, ikinci dəfə VI-X tağların kənarları boyunca lentvari haşiyə şəklində yazılmışdır (9, s. 377). Həmçinin türbənin tağlarının hamısının baş tərəfində Qurani-Kərimdən 40-cı surənin 16-cı ayəsinin son hissəsi yazılmışdır: "Hakimiyyət tək və qüdrətli Allaha məxsusdur!" (7, s. 63; 9, s. 377).

Azərbaycan memarlığının möhtəşəm nümunələrindən olan Qarabağlar Türbə Kompleksində də biz Qurani-Kərimdən bir neçə ayənin yazılmasının şahidi oluruq. Kompleksə daxil olan qoşa minarələrin baş tərəfində Qurani-Kərimin 22-ci (əl-Həcc) surəsindən 28-29-cu ayələr yazılmışdır (8, s. 22). Kompleksin özəyini təşkil edən türbənin portallarının dördünün də baş tərəfində Möminə xatın türbəsində olduğu kimi Qurani-Kərimdən 40-cı surənin 16-cı ayəsinin son hissəsi – "Hakimiyyət tək və qüdrətli Allaha məxsusdur!" ayəsi yazılmışdır. Türbənin baş tərəfində – frizdə isə Qurani-Kərimin 67-ci (əl-Mülk) surəsindən I-VI ayələr qeyd olunmuşdur (8, s. 25).

Culfa rayonundakı Əlincəçay xanəgahı kompleksinə daxil olan birinci türbənin daxildən cənub divarında olan iki ədəd mehrabın üzərində də Qurani-Kərimdən surə və ayələr yazılmışdır. Mehrablardan birinin çərçivəsində müqəddəs kitabın 3-cü surəsindən 16-17-ci ayələr, 112-ci surə və 40-cı surənin 16-cı ayəsindən bir hissə qeyd olunmuşdur. İkinci mehrabın çərçivəsində isə Qurani-Kərimin 1-ci surəsindən I-V ayələr və "Allahdan başqa Allah yoxdur, Məhəmməd Allahın elçisidir!" doktrinası özünə yer almışdır (9, s. 382).

Müsəlman epiqrafikası abidələri içərisində daha geniş yayılan məzar kitabələrinin (epitafiyaların) da mətni tərtib olunarkən Quran ayələrindən və dini xarakterli sözlərdən geniş istifadə edilirdi. Bu ayələr və dini kəlamlar insanlara bu dünyanın fani, axirət dünyasının əbədi olmasını, ölümün labüdlüyünü çatdırmaqla bərabər, bir növ mərhumun ailə üzvlərinə, qohumlarına və yaxınlarına təsəlli vermək məqsədi daşımışdır. Naxçıvan ərazisində tədqiq etdiyimiz məzar kitabələrinin çoxunda Qurani-Kərimin 55-ci surəsinin 26-cı ayəsi həkk edilmişdir: "(Yer) üzündə olan hər kəs (hər canlı) fanidir (ölümə məhkumdur)!". Bu ayə bir qayda olaraq bütün növ qəbirüstü xatirə abidələrinin (başdaşıların, sənduqələrin, daş qoç və qoyun fiqurlarının) yuxarı, baş tərəfində, epitafiyanın birinci sətrində yazılırdı. Ancaq bəzən birinci sətirdə Allahın əbədiliyi, böyüklüyü, mərhəmətli, bağışlayan olması və s. ilə əlaqədar sözlər yazıldığı üçün həmin ayə sonrakı sətirə keçirilirdi. Məzar kitabələrinin çoxunda həmin ayə ilə birlikdə ondan sonrakı 27-ci ayə də həkk edilmişdir: "(Yer) üzündə olan hər kəs (hər

canlı) fanidir (ölümə məhkumdur). Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir!" (1, s. 531).

İnsanlara yalnız Allahın əbədi olması, ölümün labüdlüyü haqqında fikir aşılayan bu ayələr Naxçıvan Muxtar Respublikası ərazisində indiyədək qalan məzar kitabələri üçün xarakterikdir. Bu ayələrə Naxçıvan Muxtar Respublikası ərazisindəki abidələrdə, Azərbaycanın digər yerlərinə nisbətən daha çox təsadüf edilir.

Epitafiyalarda (məzar kitabələrində) rast gəldiyimiz Quran-Kərimin ayələrindən biri də 29-cu surənin 57-ci ayəsidir: "Hər bir kəs (hər bir canlı) ölümü dadacaqdır!". Qurani-Kərimin bu ayəsi yazılmış abidələr ən çox Ordubad şəhərində qeydə alınaraq tədqiq olunmuşdur. Azərbaycan epiqrafik abidələrində çox da geniş təsadüf edilməyən bu ayə Kuxistan məzar kitabələrinin əksəriyyətində qeyd olunmuşdur (12; 13). Hətta A.M.Muxtarov bu ayəni Kuxistan məzar kitabələrinin "mütləq ünsürü" kimi səciyyələndirmişdir (13, s. 9).

Qəbirüstü xatirə abidələri üzərində özünə yer alan Qurani-Kərim ayələrindən biri də Müqəddəs kitabın 2-ci surəsinin 255-ci ayəsidir: "Allahdan başqa heç bir tanrı yoxdur. (Diri, Zatı ilə qaim olan, kainatı yaradıb idarə edən) əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa (hamısı) Onundur. Allahın izni olmadan (qiyamətdə) Onun yanında kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir. Onlar Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. O, ucadır, böyükdür!" (1, s. 41). Tədqiqata cəlb etdiyimiz sənduqə və başdaşılar üzərində bu ayə adətən sənduqənin səthinin kənarlarında və yanında lentvari haşiyə şəklində yazılırdı. Az da olsa bu ayənin başdaşılar üzərində yazılmasına da təsadüf edilir. Naxçıvan şəhərində qeydə alınmış bir başdaşı (7, s. 85), Ordubad rayonunun Düylün kənd qəbiristanlığında (17, s. 45) tədqiq olunan bir neçə başdaşı üzərində də bu ayə həkk edilmişdir. Əsasən sənduqələr üçün xarakterik olan bu ayə yazılmış başdaşıya Azərbaycan xatirə abidələri içərisində çox geniş şəkildə təsadüf edilmir.

Ayəni qəbirüstü abidələr üzərində yazmaqda məqsəd nə olmuşdur? İslam dini ehkamlarına görə vəfat edən şəxs dəfn ediləndən sonra, camaat qəbirdən uzaqlaşan kimi dəfn olunanın qəbir əzabı başlayır. Ona görə də onun vəziyyətini yüngülləşdirmək üçün dua etmək, iki rükət namaz qılmaq təqdir olunur. Namazın hər rükətində fatihədən sonra Qurani-Kərimin 2-ci surəsinin 255-ci ayəsi 3 dəfə oxunmalıdır (19, s. 186). Dini ehkamlara görə bu ayə oxunduqdan sonra dəfn olunanın məzarı işıqlanır və o sorğu-sual zamanı qorxudan, həyəcandan xilas olur. Keçmişdə olduğu kimi müasir dövrdə də Naxçıvanda da mərhumun ailə üzvləri və ya yaxınları dəfnin birinci günü ölən adam üçün "Vəhşət" namazı qıldırırlar ki, həmin namazın da tərkibində 2-ci surənin 255-ci ayəsi, yəni "Ayətəl-Kürsü" oxunur. Bu namaz da yuxarıdakı məqsədə xidmət edir. Məhəmməd peyğəmbərin "Qurani-Kərimin ən əzəmətli ayəsi" (4, s. 224) adlandırdığı "Ayətəl-Kürsü"nün qəbirüstü abidələr üzərində həkk edilməsi ehtimal ki, həmin vəzifəni yerinə yetirmək, dəfn olunanın sorğu-sual zamanı vəziyyətinin yüngülləşdirilməsi arzusundan irəli gəlmişdir.

Ümumiyyətlə Qurani-Kərimin "Bəqərə" surəsindən götürülmüş bu ayəyə müsəlmanlar arasında böyük inam vardır. V.A.Qordlevskinin müşahidəsinə görə qadınlarda doğum ağrıları başlayarkən yaxın adamları mollanın yanına gedir və onun üçün "Ayətəl-Kürsü" yazdırırlar. Sonra həmin kağızı şüşə qaba salaraq üstünə su töküb qarışdırırlar. Həmin suyu xəstə qadına içirirlər ki, doğuş yüngül keçsin (10, s. 128). Şiələrin VI imamı Cəfər Sadiqin dilindən belə

bir hədis səslənmişdir: "Hər kim bir dəfə "Ayətəl-Kürsü"nü oxusa, Allah ona dünyanın min bəlasından (onların ən asanı kasıbçılıqdır) və min axirət bəlasından (onların ən asanı qəbir əzabıdır) nicat verər!" (2, s. 205). Məhz buna görə də xalq arasında "Ayətəl-Kürsü" qoruyucu, hifz edici bir ayə kimi qəbul edilir.

Tədqiq etdiyimiz məzar kitabələrində Qurani-Kərimin 28-ci surəsindən 88-ci ayənin mətninə də rast gəlinir: "Allahdan başqa hər şey məhvə məhkumdur!" (1, s. 395). Göründüyü kimi, bu ayə də insanlara ölümün labüdlüyünü, yalnız Allahın əbədi olmasını təlqin edir.

Məzar kitabələrində nadir hallarda Qurani-Kərimin 2-ci surəsinin 156-cı ayəsi də yazılırdı: "Biz Allaha məxsusuq və (vaxtı gələndə) Onun yanına (Onun hüzuruna) qayıdacağıq!" (1, s. 23). Bu ayə insanların Allah tərəfindən yaradılması və ölüb yenidən ona doğru qayıtmaları fikrini aşılayır. Ona görə də bu ayəyə xalq arasında "Qayıtma duası" da deyirlər. Şahbuz rayonunun Aşağı Qışlaq kənd qəbiristanlığında tədqiq olunan bir ədəd başdaşı üzərində yazılmış kitabə (17, s. 61) istisna olmaqla, bu ayə yazılmış başqa bir qəbirüstü abidəyə Naxçıvan Muxtar Respublikası ərazisində hələlik təsadüf edilməmişdir.

Bir neçə məzar kitabəsində "Tövbə" surəsi istisna olmaqla Qurani-Kərimin bütün surələrinin başlandığı "Bismilləhir-rahmənir-rahim!" ("Bağışlayan və mehriban Allahın adı ilə!") sözləri həkk edilmişdir. Müsəlman dünyasında bütün sənədlər, hətta dövlət fərmanları, dərman nüsxələri, məktublar və s. bu sözlərlə başlandığı, ümumiyyətlə hər bir işə başlanan zaman bu sözlər xatırlandığı üçün bəzən kitabələrin yazılmasında da bu üsuldan istifadə edilmişdir.

Xatirə abidələrindən əlavə inşaat kitabələrində də Qurani-Kərimdən götürülmüş ayələrə və dini mətnlərə rast gəlinir. Bu tip kitabələrdə yazılan dini mətnlər və Qurani-Kərim ayələri tikintinin hansı məqsədə tikilməsi və xarakterinə uyğun olaraq yazılırdı. Naxçıvan ərazisində öyrəndiyimiz inşaat kitabələrinin bir hissəsini məscid kitabələri təşkil edir. Tədqiqatçıların fikrincə, müsəlman Şərqində insanların həyatında böyük rol oynayan məscidlər üzərində qoyulan kitabələrdə əsasən Qurani-Kərimin aşağıdakı ayələri həkk edilirdi: "II-139,144; IX-28; X-26,27; XI-13; XII-9" (15, s. 49). Naxçıvan bölgəsində tədqiq olunan məscid kitabələrində isə əsasən Qurani-Kərimin IX surəsinin 18-ci və 72-ci surəsinin 18-ci ayələri həkk edilmişdir.

Ordubad rayonunun Dəstə kənd məscidində giriş qapısının baş tərəfində qoyulan kitabədə Qurani-Kərimin 72-ci surəsindən 18-ci ayə həkk edilmişdir: "Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahla yanaşı heç kəsə ibadət etməyin, (Allahdan) savayı heç kəsi çağırmayın, heç kəsə dua etməyin!" (1, s. 572). Bu ayə məscidlərin Allaha məxsus olduğunu elan etməklə onların toxunulmazlığını təmin edir. Dəstə məscidinin digər kitabəsində isə IX surənin 18-ci ayəsi həkk edilmişdir. Tədqiq etdiyimiz digər məscid kitabələrində, o cümlədən Ordubad şəhərindəki Mingis, Naxçıvan şəhərindəki Came (Cəfəriyyə) məscidlərində də Qurani-Kərimin həmin ayəsi həkk edilmişdir: "Allahın məscidlərini yalnız Allaha və qiyamət gününə iman gətirən, namaz qılıb zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar təmir edə (abadlaşdıra, tikə) bilərlər!" (1, s. 188). Bu ayə ilə məscidlərin təmiri və bərpası təqdir olunur. Buna görə də Azərbaycan ərazisində tədqiq olunan bir sıra məscid kitabələrindən məlum olur ki, məscidlər adətən ayrı-ayrı şəxslər və ya bütün camaat tərəfindən təmir etdirilir, yaxud tikdirilirdi (3, s. 307, 313).

Tədqiq etdiyimiz kitabələrdə Qurani-Kərimin ayələrindən başqa çoxlu sayda dini xarakterli yazılar da həkk edilmişdir. Bu yazılar da əsasən Allahın əbədi, mərhəmətli, rəhmli, bağışlayan olmasını, ölümün labüdlüyünü və s. vurğulayan fikirlərdən ibarətdir. Kitabələrin, xüsusi ilə xatirə abidələri üzərindəki epitafiyaların bir çoxunun baş tərəfində: "O əbədidir!", "Allah əbədidir!", "O bağışlayandır!", "Ey rəhmli!", "Ey mərhəmətli!", "Ey bağışlayan!",

"Ey Allah!", "Ey rəhmli!", "Ey mərhəmətli!", "Ey günahkarları bağışlayan!" və s. bu kimi Allahın əbədiliyini, rəhmliliyini təbliğ edən dini xarakterli sözlər həkk edilmişdir. Xatirə abidələri üzərində belə sözlərin yazılması insanların Allahın mərhəmətli, rəhmli, bağışlayan olmasına inamından irəli gəlmişdir.

Naxçıvan Muxtar Respublikasının müsəlman epiqrafikası abidələri üzərində islam dininin doktrinasına da rast gəlinir. Qarabağlar Türbə Kompleksinin gövdəsində firuzəyi kaşılı və qırmızımtıl rəngli kərpiclərin şaquli və üfüqi şəkildə ustalıqla hörülməsi ilə əmələ gətirilən rombların içərisində eyni üsulla dəfələrlə təkrarlanan "Allahdan başqa Allah yoxdur, Məhəmməd – Allahın ona salavatı olsun – Allahın elçisidir!" (8, s. 25) doktrinası yazılmışdır. Bu məzmunlu kitabələrə qəbirüstü xatirə abidələri üzərində də rast gəlinir. Bəzən həmin sözlərin ardınca İslam dininin məzhəblərindən biri olan şiəliyin doktrinası – "Əli Allahın dostudur!" fikri də özünə yer almışdır.

Ordubad şəhərindəki "Malik İbrahim" qəbiristanlığında tədqiq olunan Məhəmməd bəyin sənduqəsinin (5, s. 70) yanlarında, Mövlana Məhəmmədrzanın başdaşısının səthində (5, s. 72) şiə dünyasında 14 məsum (Məhəmməd peyğəmbər, qızı Həzrəti Fatimə və 12 imam) kimi tanınan müqəddəslərin adları qeyd edilmişdir. Bu mətnə Naxçıvan şəhərində tədqiq etdiyimiz Şərəf xanıma məxsus başdaşının kənar haşiyələrində də rast gəlirik: "Allahın salamı olsun peyğəmbərə və vəsisinə (Məhəmməd peyğəmbərin əmisi oğlu, kürəkəni, şiələrin I imamı, 656-661-ci illərdə xilafətə rəhbərlik etmiş IV xəlifə Həzrəti Əli nəzərdə tutulur –H.S.), Bətula (Məhəmməd peyğəmbərin qızı Həzrəti Fatimə nəzərdə tutulur – H.S.), nəvələrinə (Həsən və Hüseynə – H.S.) və əs-Səccada və əl-Baqirə və əs-Sadiqə və əl-Kazimə və ər-Rzaya və ət-Təqiyə və ən-Nəqiyə və əl-Əsgəriyə və əl-Mehdi əs-Sahib əz-Zamana – salavat" (7, s. 105-106). Bu da yerli əhalinin şiə olmasından irəli gəlmişdir. Bu mətn ayrı-ayrı abidələrdə cüzi fərqlərlə verilmişdir.

I Şah İsmayıl Səfəvi kimi, onun yaratdığı Səfəvilər dövlətinə rəhbərlik edən hökmdarlar da öz sələfləri kimi hakimiyyətlərini möhkəmləndirmək və genişləndirmək üçün İslam dininin bir qolu olan şiəlikdən məharətlə istifadə edirdilər. Şiəliyi ardıcıl təbliğ edən Səfəvi şahları, "Səfəviyyə" sufi cəmiyyətinin şeyxləri və onların tərəfdarları şiəliyin yayılması üçün bütün vasitələrdən istifadə edirdilər. Bu məqsədlə onlar müxtəlif təyinatlı abidələr üzərində yazılan kitabə motivlərindən də geniş şəkildə yararlanırdılar. Ona görə də təsadüfi deyildir ki, XVI əsrdən etibarən kitabələrin mətninə tez-tez Qurani-Kərim ayələri, hədislər və dini xarakterli yazılarla yanaşı, şiə aləmində çox böyük hörmətə və nüfuza malik olan14 məsumun adları da daxil edilirdi (15, s. 53).

Şiəliklə əlaqədar dini xarakterli yazılar içərisində mənzum parçalara – şeirlərə də təsadüf edilir. Ordubad rayonunun Nüsnüs kənd məscidində, Ordubad şəhərindəki Təkeşiyi məscidində və şəhərin "Malik İbrahim" qəbiristanlığındakı binada Möhtəşəm Kaşaninin şiələrin III imamı Hüseynə həsr etdiyi

"Bu Hüseyn kimdir ki, dünya onun divanəsidir?
Bu necə şamdır ki, ürəklər onun pərvanəsidir?"

beyti ilə başlanan şeirindən bir neçə sətir yazılmışdır (5, s. 64).

Tədqiq etdiyimiz bir neçə məzar kitabəsində ölümün labüdlüyünü, bütün yaranmışların mütləq öləcəyini təlqin edən "Ölüm kasasını (şərbətini) hər kəs içəcəkdir!" sözləri həkk edilmişdir. Ölümün labüdlüyünü bildirən bu sözlərə ümumiyyətlə müsəlman epiqrafikasında tez-tez təsadüf edilir. Azərbaycanın digər yerlərində (15, s. 29) Şimali Qafqazın epiqrafik abidələrində də bu sözlər həkk edilmişdir (11, s. 32, 34, 37). Bir ədəd epitafiyada isə "Bütün

doğulanlar ölüm kasasından zəhər içəcəkdir!" sözləri həkk edilmişdir. Ordubad şəhərində bu mətnin başqa bir variantına rast gəlinir: "Ölüm qapısına hər bir kəsin daxil olması şübhəsizdir!" (5, s. 70). Bu qəbil sözlər həkk edilmiş kitabələr əsasən Ordubad şəhərində qeydə alınmışdır.

Bölgə ərazisində indiyədək qalan bəzi məzar kitabələrində, o cümlədən Culfa rayonundakı Əlincəçay xanəgahında aşkar olunmuş və Əmir Şahmənsurun xatirəsinə hazırlanmış sənduqə formalı qəbirüstü xatirə abidəsinin yanında (6, s. 72), həmin xanəgahın şimal tərəfində yerləşən qəbiristanlıqda tədqiq olunmuş bir başdaşının üstündə (6, s. 75), Ordubad rayonunun Xanağa kəndindəki Xanəgah-pirdə bir ədəd başdaşı (6, s. 115; 14, s. 80) və s. üzərində "Ey bütün təklərin (bəzən qəriblərin) dostu!" sözləri həkk edilmişdir. Qəbirüstü xatirə abidələri üzərində həkk edilən bu sözlər Allahın həmişə təklərin, kimsəsizlərin, qəriblərin yanında olması, onların imdadına, köməyinə çatmasına, onlara sahib çıxmasına olan inamdan irəli gələrək yazılmışdır.

Tədqiq etdiyimiz məzar kitabələri içərisində bəzən nadir məzmunlu mətnlərə də rast gəlinir. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilən bir ədəd daşdan hazırlanmış qoç heykəlinin yan tərəfində yazılan epitafiyanın sonunda mərhumlar üçün qılınan meyid namazının duasından bir parça həkk olunmuşdur: "Allahım, əgər bu şəxs günahkarlardandırsa onu bağışla" (7, s. 103-104).

Naxçıvan şəhərində "Cəfəriyyə" məscidinin kitabəsində Məhəmməd peyğəmbər və dördüncü xəlifə, şiələrin birinci imamı Həzrəti Əli haqqında geniş mətn yazılmışdır (7, s. 82). Mətndə "Rəfrəfə minən axırıncı peyğəmbər" sözlərini işlətməklə həkkak Məhəmməd peyğəmbərin meracını xatırlatmışdır. Hədisin mətni Naxçıvan əhalisinin islamın şiəlik təriqətinə etiqad etdiyini göstərir.

Tədqiqatlarımız təsdiq edir ki, Naxçıvanın müsəlman epiqrafikası abidələrinin tərtibatında müxtəlif məzmunlu Quran ayələrindən və dini xarakterli mətnlərdən istifadə edilmişdir. Burada onların müəyyən hissəsi haqqında məlumat verməklə kifayətlənirik.

Abidələr üzərində Qurani-Kərimdən ayələrin və müxtəlif məzmunlu dini mətnlərin yazılması qeyd olunan səbəblərlə yanaşı, həm də abidələrin qorunması, dağıdılmasının qarşısının alınması zərurətindən də irəli gəlirdi. Ayrı-ayrı insanlar, yaxud da müharibələr zamanı əraziyə hücum edən müsəlman dövlətlərin əsgərləri həmin mətnlərin hesabına hər hansı abidəyə toxunmur, hətta ona hörmətlə yanaşırdı. Bu vəziyyət indiki zamanda da özünü göstərməkdədir. Ordubad şəhərindəki "Malik İbrahim" qəbiristanlığında dəfn zamanı köhnə qəbirlərin yanında yıxılıb qalmış, üzərində Qurani-Kərim ayələri olan başdaşıları hörmət əlaməti olaraq götürüb təzə qəbirin üstünə qoyurlar. Bəzən üzərində dini mətn olmayan, lakin epitafiya olan başdaşılardan da bu məqsədlə istifadə edirlər. Bu isə ərəb əlifbasının xalq tərəfindən müqəddəs hesab edilməsindən irəli gəlmişdir.

Ümumiyyətlə, tədqiq etdiyimiz epitafiyalar üzərində qeyd edilən dini xarakterli yazılar və Qurani-Kərim ayələrinin öyrənilməsi göstərir ki, onlar formaca müxtəlif olsalar da məzmunca təxminən eynilik təşkil edirlər. Abidələr üzərində Qurani-Kərimdən ayələrin və dini xarakterli mətnlərin qeyd olunmasında əsas məqsəd insanlara bu dünyanın fani, yalnız Allahın və axirət dünyasının əbədi olması, bütün yaranmışların ölümünün labüd olması və s. bu kimi fikirlərin aşılanması, bununla da yaxınları vəfat etmiş insanlara təsəlli verilməsi, islam ideyalarının təbliğ edilməsi olmuşdur.

ƏDƏBİYYAT

1. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi. Yenidən işlənmiş XVII nəşr. Ərəb dilindən tərcümə edənlər Z.Bünyadov, V.Məmmədəliyev. Bakı: Nurlar, 2015, 632 s.
2. Dehqan Ə. Qırx məclis, min hədis. Tərcümə edən: Ramil Əzimov, 2008, 352 s.
3. Nemətova M. Quba, Xaçmaz və Qusar rayonlarındakı bəzi epiqrafik abidələr haqqında. Azərbaycan SSR EA Tarix İnstitutunun Əsərləri. XIII c., Bakı, 1958, s. 305-343.
4. Seyyid Məhəmməd Rza Hüseyni. İstək duaları (Məfatihul-hacat). Mütərcim: Mayis Ağaverdiyev. Naşir: "Əhli-Beyt" məktəbi nəşriyyatı, 325 s.
5. Səfərli H. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: MBM, 2009, 192 s.
6. Səfərli H. Naxçıvanda sufiliklə bağlı mərkəzlər. Bakı: Elm və təhsil, 2013, 328 s.
7. Səfərli H. Naxçıvan şəhərinin epiqrafik abidələri. Naxçıvan: Əcəmi, 2019,152 s.
8. Səfərli F. Qarabağlar Türbə Kompleksi və onun kitabələri. Qarabağlar Türbə Kompleksi. Naxçıvan: Əcəmi, 2018, s. 19-27.
9. Алескерзаде А.А. Надписи архитектурных памятников Азербайджана эпохи Низами. В кн.: Архитектура Азербайджана. Эпоха Низами. Москва-Баку, 1947, с. 369-390.
10. Гордлевский В.А. Рождение ребенка и его воспитание (Материалы по Османской этнографии). Избр. соч., т. IV, Москва, 1968, с. 128-130.
11. Лавров Л.И. Эпиграфические памятники Северного Кавказа на арабском, персидском и турецком языках. Ч. II, Москва: Наука, 1968, 248 с.
12. Мухтаров А.М. Эпиграфические памятники Кухистана. Кн. I. Душанбе: Дониш, 1978, 306 с.
13. Мухтаров А.М. Эпиграфические памятники Кухистана. Кн. II. Душанбе: Дониш, 1979, 152 с.
14. Неймат М. Корпус эпиграфических памятников Азербайджана. Т. III. Баку: XXI – Yeni nəşrlər evi, 2001, 216 с.
15. Нейматова М.С. Эпиграфические памятники и их значение в изучении социально-экономической истории Азербайджана (XIV-XIX вв.). Автореф. дис. … докт. ист. наук. Баку, 1968, 96 с.
16. Нейматова М.С. Мемориальные памятники Азербайджана. Баку: Элм, 1981, 76 с.
17. Сафарли Ф.Я. Эпиграфические памятники Нахчывана. Нахчыван: Аджеми, 2017, 200 с.
18. Сафаров Ф.Я. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIX вв.) как историко-культурные памятники. Дисс. на соис. ученой степени канд. ист. наук. Баку, 1987, 179 с. НАИИ НАН Азербайджана. Инв. № 8383.
19. Цветков П. Исламизм. Т. III. Практические обязанности исламизма. Ашхабад, 1913, 418 с.

AMEA Naxçıvan Bölməsi
E-mail: hacifexreddin@yahoo.com.tr

Fakhraddin Safarli

SOME AYATS OF THE QURAN AND RELIGIOUS TEXTS USED IN THE DESIGN OF MUSLIM EPIGRAPHY MONUMENTS OF NAKHCHIVAN

The paper discusses some ayahs of the Quran and religious sayings used in the design of extant monuments of Muslim epigraphy of Nakhchivan. It is noted that religious texts that have a strong psychological influence on a person, along with the fact that they serve to enrich the decorative decoration of monuments, also play an important role in studying the ideology of their time, the religious policies of Azerbaijani rulers, the role of the Islamic religion in people's lives and other issues. Also, these texts prevented the destruction of the monuments on which they were written.

Keywords: *Nakhchivan, epigraphic monument, inscription, surah, ayah, religious texts.*

Фахреддин Сафарли

НЕКОТОРЫЕ АЯТЫ КОРАНА И РЕЛИГИОЗНЫЕ ТЕКСТЫ, ИСПОЛЬЗОВАННЫЕ ПРИ ОФОРМЛЕНИИ ПАМЯТНИКОВ МУСУЛЬМАНСКОЙ ЭПИГРАФИКИ НАХЧЫВАНА

В статье рассмотрены некоторые аяты Корана и изречения религиозного характера, использованные в оформлении дошедших до нашего времени памятников мусульманской эпиграфики Нахчывана. Отмечается, что религиозные тексты, оказывающие сильное психологическое влияние на человека, наряду с тем, что служат для обогащения декоративного украшения памятников, также играют важную роль в изучении идеологии своего времени, религиозной политики азербайджанских правителей, роли исламской религии в жизни людей и других вопросов. Также эти тексты предотвращали разрушение памятников, на которых они были написаны.

Ключевые слова: *Нахчыван, эпиграфический памятник, надпись, сура, аят, религиозные тексты.*

Daxilolma tarixi: **İlkin variant 24.06.2019**
Son variant 03.09.2019

UOT 94(479.24)

EMİN ŞIXƏLİYEV

MİFOLOGİYANIN "BÖYÜK ERMƏNİSTAN" İDEOLOGİYASINDA YERİ

Məqalədə "Hai-Taht" (ermənilərin milli davası) doktrinasını özündə ehtiva edən "Böyük Ermənistan" ideologiyasında mifologiyanın yeri tədqiq edilmişdir. Bu mifoloji iddialar aşağıdakılardan ibarətdir:

* Ermənilər Tanrı tərəfindən seçilmiş millətdir;
* Sivilizasiyanın beşiyi Ermənistandır;
* Nuh peyğəmbər erməni mənşəlidir və qədim erməni dilində danışmışdır;
* Şərqi Anadolu və bütün Qafqaz məhz Hz. Nuh tərəfindən ermənilərin əcdadı olan Haya vəd edilmişdir;
* Dünyanın ilk xristian milləti və dövləti ermənilər və Ermənistandır.

Məlum məsələdir ki, belə iddialar elmi obyektivliyə tamamilə ziddir və sadəcə mifoloji təxəyyüllərə əsaslanır. Məhz həmin bu iddiaların nəticəsidir ki, Ermənistanın günümüzdə də regionun qonşu dövlətləri ilə münasibətləri gərgin və problemli olaraq qalır.

Açar sözlər: *Mifologiya, ermənilər, Böyük Ermənistan ideologiyası, "Hai-Taht" doktrinası, Şərqi Anadolu, Azərbaycan.*

Giriş. Məlum olduğu kimi, hər bir millətin tarixində mifologiyalar böyük rol oynamışlar. Məsələn, italyanların "Mare Nostrum" (Böyük Dəniz), yunanların "Megalo Idea" (Böyük İdeya), türklərin "Qızıl Alma" kimi əfsanələri keçmiş və gələcək hadisələri açıqlayan qavramlardır. Şübhəsiz ki, bu mifologiyalar arasında "Böyük Ermənistan" əfsanəsinin də özünəməxsus yeri vardır. "Böyük Ermənistan" ideologiyası "Hai-Taht" (ermənilərin davası) doktrinasını özündə əks etdirsə də, mifologiyaya əsaslanır. Bu ideologiyanın mifologiyaya əsaslanması əslində anormal bir vəziyyət deyil, ancaq keçmişdəki bütün bədbəxt hadisələrin və fəlakətlərin səbəbinin təkidlə türklərdə axtarılması əsl psixoloji xəstəlikdir. Necə ki, nasistlər Almaniyanın uğradığı məğlubiyyətlərin və fəlakətlərin qaynağı olaraq yəhudiləri məsul tutmuşdularsa, bütün ermənilər də "Hai-Taht" ideologiyasının gerçəkləşməməsində və keçmişdəki fəlakətlərin baş verməsində türkləri ittiham edirlər. "Böyük Ermənistan" məsələsi bir çox konfrans və simpoziumların, kitab və məqalələrin mövzusu olmuşdur. Amma bu ideologiyanın mifoloji əsasları çox az tədqiq edilənlər sırasındadır.

Ermənilərin vəd olunmuş torpaqlar və Nuh peyğəmbərlə bağlı iddiaları. Erməni ideoloqları öz tarixlərinin "Nuh Tufanı"na qədər apararaq, guya Nuh peyğəmbərin nəvəsinin nəvəsi Hay və ya Hayk ilə başlandığını iddia etməkdədirlər. Bu düşüncəyə görə, Nuhun gəmisi Ağrı dağında lövbər salmışdır və məhz buna görə də Nuhun nəvəsinin nəvəsi Haydan törəyən ermənilərin ana vətəni Şərqi Anadoludur. Eyni zamanda Hay/Hayk 400 il yaşamış və öz ölkəsini Babilistana qədər genişləndirmişdir (bu barədə bax: 6, s. 12; 7, s. 12-16; 15, s. 100-101). Halbuki məsələyə fərqli aspektdən yanaşan erməni alimi Keğam Kerovpyan yazır ki, Hay və xələfləri tarixi simalar deyil, erməni xalqıyla qaynaşan müxtəlif millətlərin adlandırmalarıdır (9, s. 86). Belə bir vəziyyətdə Hayk əfsanəvi şəxsiyyət olduğuna görə onun Nuhdan törəməsi də uydurmadır.

Bu məsələdə xüsusilə bəzi məqamlara aydınlıq gətirməyin son dərəcə vacib olduğunu hesab edirik. Nədir bu məqamlar? Əsas məqam yəhudi ideologiyası ilə erməni ideologiyası arasında paralellik aparma və oxşarlıq yaratma siyasətidir. Yəhudi fəlsəfəsinə və onların müqəddəs kitablarına görə, guya Tanrı tərəfindən seçilmiş millət məhz İsrailoğulları, yəni yəhudilərdir və Tanrı (Yehova) Hz. İbrahimin yuxusuna girərək, "... Misir (Nil) çayından ta ... böyük çay olan Fərata qədər kənanilər, kənizilər ... və yəbusilərin məmləkətini sənin nəslinə verirəm", – demiş və Nildən Fərata qədər olan torpaqları İsrailoğullarına hədiyyə etmişdir (2, s. 7). Sonradan siyasi Sionizm fəlsəfəsinin meydana gəlməsi ilə yəhudi ideologiyasında dünya hakimiyyəti məfkurəsi təşəkkül tapmışdır.

Eyni siyasət erməni ideologiyasının da tərkib hissəsi kimi formalaşmışdır. Dünya ictimaiyyətinə çatdırmaq istədikləri şüar budur ki, guya Tanrı tərəfindən "seçilmiş olan millət" məhz ermənilərdir (12, s. 57). Yəhudilərdəki dünya hakimiyyəti məfkurəsinin əksinə olaraq ermənilər belə bir ideyanı reallaşdıra bilməyəcəklərini dərk etdiklərinə görə, sadəcə Şərqi Anadolu və Qafqaz bölgələri ilə kifayətlənməkdə və iddia etdikləri bu torpaqların bir zamanlar məhz Hz. Nuhun nəvəsinin nəvəsi olan Haya vəd edildiyini önə sürməkdədirlər. Məhz bu baxımdan erməni ideologiyası "ermənilərin seçilmiş millət, Nuh peyğəmbərin erməni mənşəli olması və onun nəvəsinin nəvəsi Haya vəd edilən torpaqlar" iddiaları üzərində yaranıb möhkəmlənmişdir.

Qatı millətçi fikirləri ilə tanınan Zori Balayan da "Ocaq" adlı kitabında, Nuh peyğəmbərin erməni olduğunu və bu dildə danışdığını iddia edir (3, s. 30). Erməni iddialarına görə, Ağrı dağına çıxaraq həyatda qalmağa müvəffəq olan qövm ermənilərin atalarıdır. Bu baxımdan Ağrı dağı ermənilər üçün müqəddəslik simvoludur. Bu müqəddəslik guya Nuh peyğəmbərin erməni mənşəli olması ilə əlaqədardır. Ermənilər bu inancla özlərini "seçilmiş millət" olaraq görməkdədirlər. Həm də elə bir millət ki, Tanrı onları Nuh Tufanı ilə sınağa çəkmiş, ermənilər də bu sınaqdan uğurla çıxmışlar (11, s. 41). Nuh Tufanı kimi çətin imtahan və hətta həyatda qalmaq üçün bütün çətinliklərin öhdəsindən gələ bilmə qabiliyyətlərinə və dözümlü olduqlarına olan inamları erməni kimliyinin bir parçası halına gəlmişdir. Bu baxımdan, ermənilər gəminin Ağrı dağında oturması səbəbi ilə vətənlərinin Şərqi Anadolu olduğunu iddia etməkdədirlər. Gəminin Naxçıvandakı Gəmiqayada dayanması ilə bağlı tədqiqatlar dərinləşdikcə, ermənilər belə bir yeni iddia ortaya atdılar ki, guya Nuh peyğəmbər erməni olduğuna görə, onun ayaq basdığı bütün torpaqlar ermənilərə məxsusdur. Məlum məsələdir ki, belə iddialar elm adına heç bir həqiqəti özündə əks etdirmir. Bütün bunlar mifoloji təxəyyüllərə əsaslanan əfsanəvi iddialardır. Məsələyə dini aspektdən yanaşsaq, Adəm peyğəmbər bəşəriyyətin ilk atası sayıldığı kimi, Nuh peyğəmbər də Dünya Tufanı səbəbiylə bəşəriyyətin ikinci atası sayılır. Belə bir vəziyyətdə, hər hansı milli mənsubiyyətdən söhbət gedə bilməz. Yox, əgər Hz. Nuh ermənilərin də iddia etdiyi kimi, ermənidirsə, o zaman ağla gələn ilk fikir budur: bəşəriyyət ermənilərdən törəmiş və bütün dillər erməni dili əsasında formalaşaraq, sonradan deformasiyaya məruz qalmışlar. Necə deyərlər, bax, budur müəmma!

"Sivilizasiyanın ilk beşiyi – Ermənistan" iddiaları və "Ararat – Ağrı dağı" ilə bağlı məsələlər. Hələ 1703-cü ilin mayın 27-də mifoloji təxəyyüllərlə yaşayan erməni nümayəndələri Rusiya imperatoru I Pyotra tam ciddiliklə yazırdılar ki, dünyanın yaranması bizim ölkədən başlanmışdır. Nuhun gəmisi Ararat dağında dayananda, Nuh o gəmidən çıxmış və dünya aləm bu gəmidən yaranmışdır. Çarlıqların çoxu bizim ölkənin tərkibindən ayrılmışdır. Bizim dövlətimiz bütün dövlətlərdən qədimdir, bütün dövlətlərin açarı bizim əlimizdədir (1, s. 63).

Hətta məşhur gürcü alimi İlya Çavçavadze 1902-ci ildə çapdan çıxan "Армянские ученые и вопиющие камни" (erməni alimləri və daşların fəryadı) adlı əsərində ermənilərin daha da irəli gedərək, Adəm peyğəmbəri də ermənistanlı kimi qələmə vermələri kimi avantürist ideyalarını bəzi xarici müxbirlər və mətbuatlar vasitəsilə bütün dünyaya yaymağa çalışdıqlarını göstərmişdir (4, s. 43).

Belə çıxır ki, sivilizasiyanın ilk beşiyi Ermənistan olmuşdur, dünyanın yaranması da Ermənistandan başlanmışdır. Bu bir həqiqətdir ki, hər bir millətin tarixin qaranlıq və qədim dövrləriylə əlaqəli əfsanə və dastanları vardır. Əfsanə və dastanlar mənəvi və psixoloji dəyərlər şəklində qəbul edilə bilər, ancaq elmi və tarixi həqiqət olaraq önə sürülə bilməz. Məsələ burasındadır ki, ermənilərin Adəm peyğəmbərə və Nuh peyğəmbərə tək başına sahib çıxmaları heç bir dastani məziyyətləri belə özündə əks etdirmir. Çünki yuxarıda da qeyd edildiyi kimi, Adəm peyğəmbər və Nuh peyğəmbər bütün bəşəriyyətin atası sayılırlar.

Burada "Ağrı dağı" barəsində müəyyən məsələlərə aydınlıq gətirməyi son dərəcə vacib hesab edirik. Bu dağın adı Bibliyada "Ararat" olaraq keçir. Lakin ermənilər bu adı mənimsəyərək ermənileşdirmişlər. Halbuki "Ararat" kəlməsinin ermənilərlə və erməni dili ilə heç bir əlaqəsi yoxdur. Əgər "Ararat" həqiqətən də ermənicə bir kəlmədirsə, o zaman nəyə görə bu millət "Ağrı dağı"nı "Ararat" deyil, "Masis" adlandırır? Məsələ burasındadır ki, "Ararat" kimi oxunan "RRT" əslində Urartu adının sami dilindəki yazılışıdır. Məlum olduğu kimi, Urartu tayfaları hay ola bilməzdilər, çünki onlar Asiya mənşəli xalq idi (bu barədə bax: 5, s. 11-12; 10, s. 37). Haylar isə Hind-Avropa dilli xalqdır. Digər tərəfdən, yuxarıda da qeyd edildiyi kimi, bu dağ Bibliyada "Ararat" şəklində yazılmışdır, halbuki Bibliyanın ortaya çıxdığı dövrlərdə erməni millətindən və dilindən söhbət gedə bilməzdi.

"Dünyanın ilk xristian etnosu və dövləti" əfsanəsi. Ermənilər arasında dərin kök salan ənənəvi psixologiyaya görə, dünyanın bütün xristian ölkələrinin ermənilərin haqq səsinə cavab vermələri və "Hai-Taht" ideologiyasına hərtərəfli dəstək vermələri zəruridir. Hər şeydən əvvəl ona görə ki, ermənilər xristianlığı ilk qəbul edən xalq, eyni zamanda xristianlığın "ilk şəhid milləti"dir. Erməni kilsəsinin iddiasına görə, İsa Eçmiədzinə (ermənilər Eçmiədzinin mənasını Allahın yeganə oğlunun yer üzünə endiyi məkan olaraq izah edirlər – E.Ş.) enərək erməni kilsəsini inşa etmiş, onu digər kilsələrdən fərqli olaraq daha müstəqil və ehtişamlı bir mövqeyə gətirmişdir (8, s. 19). Erməni iddialarına görə, bunun səbəbi erməni millətinin Tanrı tərəfindən seçilmiş olmasıdır. Buna görə də Tanrı seçilmiş olduqları səbəbiylə kilsəni məhz onların torpaqlarında qurmuşdur. Vatikan isə bu nəzəriyyəni rədd edərək, kilsənin ilk dəfə Romada inşa edildiyini və bu işin icrası üçün İsa tərəfindən müqəddəs St. Pierreyə tapşırıldığını irəli sürməkdədir. Katoliklərə görə, İsanın vəkili məhz bu şəxsdir (15, s. 126). Ermənilər 301-ci il tarixini ilk xristian dövlətinin quruluş ili olaraq qəbul edirlər. Bu tarixin ilk xristian dövlətinin quruluş ili kimi göstərmələrinin və eyni zamanda "dünyanın ilk xristian dövləti və milləti" şəklində önə sürdükləri iddiaların səbəbi tamamilə dini, siyasi mahiyyətdədir və qonşu ölkələr üzərində dini və mədəni üstünlüklər əldə etmək üçün aparılan təbliğatdır. Buradan belə bir sual doğur: əgər ermənilər həqiqətən də yer üzünün ilk xristian millətidirsə, nəyə görə sülhə tərəf ilk addım atmaqla öz inanclarını sübut etmirlər? Məgər Hz. İsa kini, nifrəti, terrorizmimi təlqin edirdi? Əlbəttə, intiqam hərəkətləri İsa peyğəmbər tərəfindən heç vaxt öyrədilməmiş və qəbul edilməmişdir. Əgər ermənilər həqiqətən də xristianlıq dininə bağlı millətdirsə, nəyə görə digər xristian inanclıların Ermənistana gəlib Hz. İsaya olan məhəbbətini bölüşmələrinə icazə verilmir? Qeyd edək ki, kilsə hər hansı bir ermənin digər xristian məbədlərində ibadət etməsini qadağan edir. Bu barədə "Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri" adlı

kitabında müəllif Səmyuel Uimz yazır: "*...Erməni kilsəsi digər xristian məbədlərində ibadət edən hər bir ermənini kilsədən uzaqlaşmış hesab edir. Erməni kilsəsi rəsmi kilsədən başqa digər kilsələrdə ibadət edən ermənilər cəhənnəm odu ilə lənətləyir...*" (14, s. 66).

Hz. İsanın prinsiplərindən uzaqlaşan və özünəməxsus bir yol cızaraq, millətçi partiyalara və terror təşkilatlarına öncülük edən erməni kilsəsi haqqında arxiyepiskop Qevond Turyan yazırdı: "*...Dini icmalar uzun zamanlardan bəri erməni partiyalarının inqilab ocaqları olmuş, ən şeytani proqramlar buralarda hazırlanmışdır. Dini mərkəzlər silah anbarlarına və inqilab komitələrinin qərargahlarına çevrilmişdir. Dini liderlər söz və yazı ilə xalqı üsyana təşviq edirlər. Artıq moizələrdə ibrətamiz sözlər və İncilin doktrinası zikr edilmir. Sədaqət və doğruluğun əksinə yalançılıq, humanizmin əksinə kin və intiqam, əxlaqın əksinə isə alçaqlıq və şərəfsizlik təlqin edilir... Dini liderlər komitələr tərəfindən təşkil edilmiş bayramlara, yığıncaqlara və mərasimlərə öndərlik edirlər...*" (8, s. 75).

Onu da qeyd edək ki, bu sözlərin müəllifi olan Qevond Turyan erməni millətçiləri tərəfindən təhdid edilmiş və 1922-ci ildə ABŞ-a köçmək məcburiyyətində qalmışdı. Nəhayət, 24 dekabr 1933-cü ildə Nyu-Yorkdakı dini ayini keçirmək üçün erməni kilsəsinə gəldiyi zaman o, daşnak terroristləri tərəfindən guya "Hai-Taht" ideologiyasına, yəni ermənilərin milli davasına xəyanət etməsi səbəbi ilə qətlə yetirilmişdir (13, s. 74-75).

Ümumiyyətlə, Erməni Kilsəsi siyasi və ictimai müzakirələrin mərkəzi olmuşdur. Millətin problemləri həmişə kilsəni dərindən düşündürmüşdür. "Böyük Ermənistan" dövlətini yarada bilmək üçün dünya ölkələrini hörümçək toru kimi saran kilsə erməni partiyalarını və terror təşkilatlarını ətrafına yığmış, müntəzəm bir şəkildə onları dəstəkləmişdir. "Xristianlığın ilk şəhid milləti" iddiası isə tamamilə dini təbliğat xarakteri daşıyır. İddiaya görə, dünyanın ilk xristian milləti olan ermənilər 1915-ci ildə müsəlman türklər tərəfindən şəhid edilərək soyqırımına uğramışlar. Əsl məqsəd dünyanın xristian dövlətlərindən dəstək almaq və bu sayədə "Böyük Ermənistan" düşüncəsini reallaşdırmaqdır. Onlar bu sayədə ortaya çıxan dindaşlıq cəhdlərini siyasi müstəviyə oturtmaqda, özlərini dünyada və Qafqazda xristianlığı mənimsəyən ilk millət kimi tanıtdırmaq və xristianlığın Qafqazdakı qalası kimi göstərməklə, eyni zamanda bu dinin yayılışındakı təzyiqlərə sinə gərən "şəhid millət" imici formalaşdırmaqla qonşu ölkələr üzərində dini, siyasi təzyiq qurmaqda, digər tərəfdən də sivilizasiyalar arasında meydana gələn qarşıdurmalardan məharətlə istifadə etməkdədirlər.

Nəticə. Məqaləni yekunlaşdıraraq belə bir nəticəyə gələ bilərik ki, ümumiyyətlə, ideologiya cəmiyyətin maraqlarını, dünyagörüşünü, ideallarını ifadə edən ideyalar sistemi, məqsədləri və hədəfləri olan inanc və fikirlərin bütünləşməsidir. İdeologiya özünü açıqlamaq üçün daha çox propaqandaya müraciət edər və istifadə etdiyi simvolların başında da şüarlar gəlir. İdeoloqlar məhz təbliğat vasitəsilə özünün, öz millətinin haqlı, qarşısındakının isə haqsız olduğuna inandırmağa çalışır. İdeologiya elmi izahlara əsaslanmaz. Bu baxımdan mifologiya ideologiyanın əsas ünsürlərindən sayılır. Mif hadisələrin keçmişdə necə olduğunu və gələcəkdə necə olması lazım gəldiyini göstərən zehni təsəvvürdür. "Böyük Ermənistan" ideologiyasının mifoloji əsasları da "Böyük Erməni tarixi"ni yaratmaq üçün ortaya atılan iddialardan ibarət olmuşdur. "Nuhun nəvələri və varisləri", "vəd olunmuş torpaqlar", "yer üzünün ilk xristian etnosu və dövləti" kimi iddialardan yola çıxan ermənilər öz tarixlərini real olaraq deyil, görmək istədikləri kimi dəyişdirməyə çalışmaqdadırlar. Bu cəhdlər ermənilərin tarixini əfsanə və mifologiyalarla necə sıx surətdə birləşdirdiyini ortaya qoyur.

ƏDƏBİYYAT

1. Abdullayev Ə., Kərimov Ş., Zahidov B. Beynəlxalq terrorizm: onunla cinayət-hüquqi və kriminoloji mübarizənin aktual problemləri. Bakı: Qanun, 2006, 403 s.
2. Armaoğlu F. Filistin meselesi ve arap-İsrail savaşları (1948-1988). Ankara: Türkiye İş Bankası Kültür yayınları, 1991, 591 s.
3. Балаян З.Г. Очаг. Ереван: Советакан грох, 1984, 424 с.
4. Чавчавадзе И.Г. Армянские ученые и вопиющие камни. Баку: Элм, 1990, 128 с.
5. Çetinkaya N. Iğdır tarihi (tarih, yer adları ve bazı oymaklar üzerine). İstanbul: Türk Dünyası Araştırmaları Vakfı yayınları, 1996, 402 s.
6. Gazigiray A.A. Osmanlı'dan günümüze kadar vesikalarla ermeni terörünün kaynakları. İstanbul: Gözen yayınları, 1982, 672 s.
7. Gürün K. Ermeni dosyası. Ankara: Türk Tarih Kurumu, 1985, 215 s.
8. İlter E. Ermeni kilisesi ve terör. Ankara: Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma və Uygulama Merkezi yayınları, 1996, 176 s.
9. Kerovpyan K. Mitolojik ermeni tarihi. İstanbul: Aras yayınları, 2000, 109 s.
10. Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 140 s.
11. Laçıner S. Türkiye-Avrupa ilişkilerinde kültür ve medeniyet: tarihsel ve ideolojik kökenler // Liberal Düşünce Dergisi, 1999, cilt: 4, № 13, s. 39-57.
12. Laçıner S. Ermeni kimlik bunalımı ve güç politikalarının bir ürünü olarak ermeni sorunu // 2023 Dergisi, 2002, sayı: 12, s. 56-61.
13. Lowry H.W. Nineteenth and twentieth century Armenian terrorism: Theads of continuity, international terrorism and the drug connection. Ankara, 1984, 156 p.
14. Uimz S.A. Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri. Bakı: OKA Ofset Azərbaycan-Türkiyə Nəşriyyat-Poliqrafiya şirkəti, 2004, 386 s.
15. Uras E. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: Belge yayınları, 1987, 798 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: emin.amea@yahoo.com

Emin Shikhaliyev

THE PLACE OF THE MYTHOLOGY IN THE IDEOLOGY OF "GREAT ARMENIA"

In this article was researched place of the mythology in the ideology of "Great Armenia" including in itself the doctrine of "Hai-Takht" (the national struggle of Armenians). These mythological claims are as follows:

* Armenians are the selected nation by God;
* Armenia is the cradle of civilization;
* The prophet Noah is of Armenian orign and he spoke in the Armenian language
* Eastern Anatolia and whole Caucasus are the heritage of the prophet Noah to Hay the Armenian ancestor;
* The first Christian nation and state of the world are Armenians and Armenia.

It's obvious, these claims are completely contrary to scientific objectivity and are the

conclusion of mythological imaginations. As a result of these claims, the relation of Armenia and the countries it borders is still very strained and probelmatic.

Keywords: *Mythology, the Armenians, the ideology of "Great Armenia", the doctrine of "Hai-Takht", Eastern Anatolia, Azerbaijan.*

Эмин Шихалиев

РОЛЬ МИФОЛОГИИ В ИДЕОЛОГИИ «ВЕЛИКОЙ АРМЕНИИ»

В статье было исследовано место мифологии в идеологии «Великая Армения», содержащей в себе доктрину «Хаи-Тахт» (национальная борьба армян). Эти мифологические претензии заключаются в следующем:

* Армяне – избранная Богом нация;
* Колыбель цивилизации – Армения;
* Пророк Ной армянского происхождения и говорил на древнеармянском языке;
* Именно пророк Ной обещал прародителю армян Хаю Восточную Анатолию и весь Кавказ;
* Армяне и Армения – первый христианский народ и государство в мире.

Разумеется, что такие претензии совершенно противоречат научной объективности и являются гнилым плодом мифологических представлений. Но именно в результате этих претензий на сегодняшний день отношения Армении с соседними государствами продолжают оставаться напряженными и проблемными.

Ключевые слова: *Мифология, армяне, идеология «Великая Армения», доктрина «Хаи-Тахт», Восточная Анатолия, Азербайджан.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 16.07.2019
Son variant 05.09.2019

UOT 94 (479.24)

İLHAMİ ƏLİYEV

NADİR ŞAHIN HAKİMİYYƏTİ İLLƏRİNDƏ NAXÇIVANDA SİYASİ VƏZİYYƏT

Məqalədə Nadir xanın şah seçilməsindən sonra ölkə daxili ictimai-siyasi vəziyyəti qaydaya salmaq üçün inzibati bölgü, vergi, aqrar və köçürmə siyasəti sahəsində dəyişikliklər etməsindən bəhs edilir. Qeyd edilir ki, onun bu siyasəti digər Azərbaycan bölgələri kimi, Naxçıvanda da ictimai-siyasi və iqtisadi vəziyyəti heç də müsbət istiqamətdə dəyişməmişdir. Müharibələr zamanı təsərrüfat sahələrinin dağıdılması, ağır vergi siyasətinin tətbiq edilməsi, yerli əhalinin bəzi təbəqələrinin köçürülməsi və s. hallar əhalinin iqtisadi vəziyyətini çətinləşdirirdi ki, bu da siyasi durumun gərginləşməsinə gətirib çıxarırdı.

Nəticədə XVIII əsrin 30-40-cı illərində Nadir şahın qurduğu Əfşarlar imperiyasının hakimiyyəti illərində digər Azərbaycan bölgələrində olduğu kimi, Naxçıvanda da gərgin ictimai-siyasi vəziyyət yaşanmışdır.

Açar sözlər: *Nadir şah, Naxçıvan, Əfşarlar dövləti, siyasi vəziyyət, inzibati bölgü.*

Cənubi Qafqazdakı Səfəvi torpaqlarını da işğaldan azad etdikdən və Dağıstana yürüşünü başa çatdırdıqdan sonra Nadir xanın növbəti işi dövlətin rəsmi şahı elan olunmaq üçün böyük bir toplantını keçirmək idi. Bunun üçün 1736-cı ilin yanvarında əvvəlcədən nəzərdə tutulmuş geniş Muğan düzündə qurultay çağırıldı.

Səfəvilər dövlətinin müxtəlif yerlərindən gələnlər, Osmanlı və Rusiya dövlətlərinin nümayəndələri və qoşun dəstələri də daxil olmaqla yüz minə qədər adamın iştirak etdiyi bu böyük toplantı 2 aya qədər davam etdi [5, s. 207; 9, s. 299]. Ayrı-ayrı vəzifə sahibləri, din xadimləri, hərbi başçıların şah seçilməsi ilə bağlı fikirləri dinlənildi [5, s. 211-212]. Bəzi adamlar – Ziyadoğlu nəslindən olan Gəncə xanı, Kəbirli, Otuz iki və Cavanşir tayfalarının başçıları, mollabaşı Mirzə Əbülhəsən və s. istisna olmaqla qurultay iştirakçılarının əksər hissəsi Nadir xanın şah seçilməsini dəstəklədi [1, s. 514; 6, s. 170-171]. Başqa seçim də yox idi. Çünki qəbul etməyənlər layiqli cavablarını dərhal alırdılar. Zahirdə Nadir xan özünü elə göstərirdi ki, sanki o, şah seçilmək istəmirdi. Bunun üçün də o, şahlıq taxtına çıxmağa bir neçə şərti qəbul etdirdikdən sonra razılaşdı. Birinci şərt belə idi ki, hec kim Şah II Təhmasibi və onun övladlarını taxt-tacın varisləri kimi qəbul etməsin, ikincisi şiə məzhəbi ilə yanaşı sünni məzhəbinə də hörmət edilsin, üçüncüsü isə Nadirdən sonra ölkə taxt-tacına onun övladlarından birinin sahib çıxması, yəni irsi hakimiyyət qəbul edilsin. Onun tapşırığı ilə yazılı "Vəsiqənamə" hazırlandı. Qurultayda iştirak edən xanlar, sultanlar, tayfa başçıları, əyanlar, kələntərlər, mirzələr, mustovfilər, din xadimləri bu "Vəsiqənamə"ni imzalayıb şəxsi möhurlərini vurdular [5, s. 214-215; 9, s. 304-305]. Bundan sonra 8 mart 1736-cı ildə Nadirin tacqoyma mərasimi keçirildi. Son Səfəvi şahı III Abbas isə Xorasana göndərildi, o, atası və qardaşı ilə birlikdə 1739-cu ilədək yəni, öldürülənə qədər orada qaldı [5, s. 224; 6, s. 179].

Beləliklə, Nadir xan bütün Səfəvi torpaqlarını işğaldan azad etdikdən sonra Səfəvi xanədanının yerində öz hakimiyyətini rəsmən təsdiqlətmiş oldu. Səfəvilər dövlətinin son 10 ilində o, öz ağlı, idarəçilik və sərkərdəlik qabiliyyəti ilə buna layiq olduğunu sübut etmişdi. Elə ona görə də şah seçilməsi Nadir xanın qazandığı haqqı idi.

Qarşıda Nadir şahı böyük bir imperiyanın idarə edilməsi gözləyirdi. Səfəvilərdən sonra ölkə daxili ictimai-siyasi vəziyyəti qaydaya salmaq üçün o, inzibati bölgü, vergi, aqrar və köçürmə siyasəti sahəsində dəyişikliklər etdi [3, s. 22].

İnzibati ərazi bölgüsünə etdiyi dəyişikliklərlə Səfəvilər zamanı tarixi Azərbaycan torpaqlarını əhatə etmiş Şirvan, Qarabağ, Çuxur-Səd və Azərbaycan bəylərbəyliklərini ləğv edib, onları mərkəzi Təbriz şəhəri olan vahid Azərbaycan vilayəti adı altında bir inzibati vahiddə birləşdirdi. Bu zaman Azərbaycan Osmanlı və Rusiya dövlətləri ilə sərhəddə yerləşdiyindən buranın idarəsini Nadir şah qardaşı İbrahim xana həvalə etdi [1, s. 514]. Nadir şahın taxta çıxma mərasimində iştirak etmiş Abram Kretasi bu haqda qeyd etmişdir ki, "Nadir şah öz qardaşını rəis və sərdar, yəni Azərbaycanın sərəsgəri seçdi. Naxçıvanı, Şirvanı və başqa yerlərin idarəsini qardaşına tapşırmaqla onu bəylərbəyi kimi bütün digər xanların başçısı təyin etdi" [11, s. 244].

Lakin Nadir şahın Osmanlı və Rusiya dövlətlərinin işğalına son qoymaqla hakimiyyətə gəlişi digər Azərbaycan bölgələri kimi, Naxçıvanda da ictimai-siyasi və iqtisadi vəziyyəti heç də müsbətə doğru dəyişmədi. Müharibələr zamanı təsərrüfat sahələrinin dağıdılması, ağır vergi siyasətinin tətbiq edilməsi və s. hallar əhalinin iqtisadi vəziyyətini çətinləşdirirdi ki, bu siyasi durumun gərginləşməsinə gətirib çıxarırdı. Bir sıra ənənəvi təsərrüfat sahələri tamamilə tənəzzülə uğramışdı. Məsələn, bunların arasında ipək istehsalını göstərmək olar ki, o tamamilə zəifləmişdi. Belə vəziyyət qədim zamanlardan bölgə əhalisinin məşğul olduğu ipəkçilik sahəsində də özünü göstərirdi [7, s. 316].

Vergilərin ağırlaşdırılması siyasətinə gəldikdə, Nadir şah hakimiyyətinin ilk günlərindən vergi toplanması işini qaydaya salmaq üçün vəzifə bölgüsü apardı [1, s. 514]. Onun əmri ilə bütün ölkə ərazisində, o cümlədən Naxçıvanda da dövlətin maliyyə işlərinə – mədaxilinə, məxaricinə və s. bu kimi işlərə nəzarət etmək üçün üç nəfər mirzə (vəkil) təyin edildi. Onlara aşağıdakı vəzifələr tapşırılmışdı: Birinci mirzə – vəkil digər iki mirzənin razılığı ilə dövlətin mədaxilinə, məxaricinə, maliyyə işlərinə rəhbərliyi həyata keçirirdi. İkinci mirzə – vəkil mədaxilin və məxaricin siyahısına nəzarət edir və bununla əlaqədar hazırlanan sənədləri özündə saxlayırdı. Üçüncu mirzə – vəkil mustofi adlanırdı və aparılan bütün maliyyə əməliyyatlarının, hesabların düzgünlüyünə nəzarət edirdi. Nadir şah yeni qaydaları tətbiq edərkən vergilərin yığılmasını qaydaya salmaq, bu sahədə intizamı artırmaq və dövlətin maliyyə məsələlərini, iqtisadi qüdrətini gücləndirmək məqsədini güdürdü [7, s. 316; 12, s. 34-35]. Maliyyə işlərinin ciddi nəzarətdə saxlanılması dövlətin gəlirini xeyli artırdı. Toplanan vergilər artıq ayrı-ayrı adamlar tərəfindən mənimsənilmir, xəzinəyə daxil edilirdi. Həmin vəsaitin çoxu başlıca olaraq ordunun saxlanmasına xərclənirdi. Nadir şah vergi toplanması sahəsində azacıq itaətsizlik göstərənləri tez bir zamanda cəzalandırırdı. Elə ilk günlərdən Naxçıvan hakimi Mirzə Rza, qoşun başçılarından Quba xan və Məsum xan maliyyə işlərinə kömək etmədikləri və yığılan vergilərin müəyyən hissəsini mənimsədikləri üçün şahın qəzəbinə düçar oldular [1, s. 514]. Belə ki, mənbələrdən məlum olur ki, Muğan qurultayından sonra Nadir şahın hüzurunda Abram Kretasi Mirzə Rzanın hərəkətlərini ifşa edərək demişdi: "Sən Naxçıvan torpağını məhv etmiş, rəiyyətlərdə mal-dövlət qoymamısan. Sən hazırda Naxçıvan vilayətindən 1000 tümən rüşvət almısan. Əgər şah əmr etsə, mən səndən hesabat tələb edərəm, çünki rəiyyətlərin pulu ya onlara qaytarılmalıdır, ya da şaha verilməlidir. Nə üçün sən o pulları mənimsəmisən?" Mirzə Rza həqiqətən Naxçıvanda özbaşınalıq edirdi. O, 82 kənddən vergi yığdığı halda, yalnız 32 kəndin 700 tümən həcmində vergisini xəzinəyə vermişdi. Nadir şah ona üç gün müddətində bütün vergilərin xəzinəyə təhvil verilməsini əmr etdi. Bununla kifayətlənməyən şah ona cəza verdikdən sonra vəzifədən kənarlaşdırdı [12, s. 35].

Nadir şahın həyata keçirdiyi vergi siyasəti dövlətin gəlirlərini artırsa da, yerli əhali bu

ağır vergilər üzündən çox çətin vəziyyətə düşmüşdü. Bu zaman kəndlilər əldə etdikləri bütün məhsulu, demək olar ki, tamamilə vergi şəklində xəzinəyə verməli olurdular. Vergiləri ödəməyənləri çox ağır cəzalar gözləyirdi. Nadir şahın saray tarixçisi Məhəmməd Kazımın verdiyi məlumatdan aydın olur ki, dövlət vergisini verməyənlərin gözləri çıxarılır, dili kəsilir, ixtişaşa təhrik edənlərin qulaqları, dili, burnu kəsilir, əmlakı əlindən alınırdı [1, s. 514-515; 4, s. 187]. Şahın həyata keçirdiyi bu siyasətin məntiqi nəticəsi idi ki, ölkənin bir çox yerlərində, o cümlədən Muğanda, Təbrizdə, Gəncədə, Qazaxda, Loridə, Gürcüstanda, Göyçə sahillərində, Qafanda, İrəvanda olduğu kimi, Naxçıvanda da vəziyyət son dərəcə pisləşmiş, aclıq, qəhətlik və bahalıq həddini aşmışdı. Buğda və arpanın 1 manı 9 yüz dinara qalxmışdı [15, s. 227].

Nadir şahın daxili siyasətindəki əsas addımlarından biri mərkəzi hakimiyyətin güclənməsinə və feodalların separatizminin qarşısının alınmasına yönəldilmiş aqrar siyasət idi. Tezliklə bütün ölkənin vəqf əmlakının dövlət tərəfindən alınması haqqında fərman verməklə yanaşı, Nadir şah elatları rəiyyətə çevirərək maldar tayfaları digər yerlərə köçürməklə onların əzəli torpaqlarını xəzinənin xeyrinə müsadirə etdirdi [3, s. 22-23]. Digər tərəfdən torpaqların abadlığı, becərilməsi üçün suvarma sistemlərininin qaydaya salınması haqqında fərmanlar verdi [15, s. 67].

Lakin bütün bunlara baxmayaraq apardığı çoxsaylı müharibələr nəticəsində artan hərbi xərcləri ödəmək üçün Nadir şahın əhalinin üzərinə yeni-yeni vergilər qoyması, əvvəlki vergiləri artırması [3, s. 24] nəinki təsərrüfatın canlanmasına kömək etdi, əksinə məhsuldar qüvvələrin dağılmasına, iqtisadi tənəzzülün daha da dərinləşməsinə səbəb oldu [4, s. 185]. Xüsusilə vergilər və onların toplanması qaydaları əhalinin haqlı olaraq narazılığına səbəb oldu. Digər Azərbaycan bölgələrində olduğu kimi, Naxçıvanda da əhalinin narazılığı artır və etiraz əlaməti olaraq onların bir hissəsi feodal istismarından yayınmaq məqsədilə doğma yurdlarını tərk edərək ucqar və əlçatmaz yerlərə qaçır və orada məskunlaşırdılar. Bölgənin qədim sakinlərindən olan Kəngərli tayfasının bəzi nümayəndələri isə mərkəzi hakimiyyətə tabe olmadıqları üçün şah tərəfindən uzaq yerlərə – Əfqanıstana köçürüldülər [13, s. 98]. Kəngərlilərin tabesizliyi Nadir şahda şübhə yaratdığı üçün bu tayfaya o qədər də etibar etməyib, başqa yerlərdən fərqli olaraq, Naxçıvanı idarə etmək üçün buraya iki hakim təyin etdi. Birinci Naxçıvan ölkəsinin hakimi, ikinci Naxcıvan tüməninin hakimi adlanırdı. Birinci vəzifəyə Mirzə Rza, ikinci vəzifəyə isə süvari dəstəsinin başçısı naib Ağa Həsən təyin edilmişdir. Naxçıvan ölkəsinin idarəsində vəkillər və tayfa ağsaqqalları da iştirak edirdilər. Bu dövrdə Naxçıvan ölkəsində Kəngərli tayfasının aşağıdakı qolları məşhur idi: Qızıllı, Sarbanlar, Ağabəyli, Qaradolaq, Əlixanlı, Qaraxanbəyli, Qarabağlar və b. [12, s. 36; 14, s. 62].

Qeyd edildiyi kimi, Nadir hələ hakimiyyət başına keçməmişdən qabaq, Kəngərli tayfasının nüfuzlu nümayəndələrinə şübhə ilə baxmış, onlara etibar etməmişdir. Buna görə də o, 1736-cı ildə Muğanda tacqoyma mərasimi keçirərkən oraya tayfa başçısı Vəliqulu xan Kəngərli yox, Naxçıvanın nümayəndəsi kimi mərkəzdən göndərilmiş və özünün qəddarlığı ilə seçilən Mirzə Rza dəvət edilmişdi. Lakin Mirzə Rza da şahın etimadını doğrultmadığı üçün vəzifəsindən azad edildikdən sonra cəzalandırılmış və bir daha Naxçıvana qayıtmamışdır. Böyük miqdarda rüşvət almış şahın qardaşı İbrahim xan onu gizlətmişdir [2, s. 29].

Mirzə Rzadan sonra Nadir şah Ağa Həsəni Naxçıvan ölkəsinin müvəqqəti olaraq tək hakimi təyin etdi [14, s. 62]. Lakin Ağa Həsən də yerli əhali ilə rəftarında Mirzə Rzadan fərqlənmədi. Bu da əhalinin səbir kasasını daşdırdı. Ağa Həsənin zülmündən cana gəlmiş əhali hətta silaha əl atmağa, üsyanlar qaldırmağa məcbur olurdu [8, s. 48; 12, s. 37].

1743-1746-cı illərdə Osmanlılarla Əfşarlar dövləti arasında münasibətlərin pisləşməsi

və yeni qarşıdurmaların baş verməsi ölkə daxili siyasi vəziyyəti daha da gərginləşdirdi. Bu zaman ölkədə baş verən daxili çaxnaşmalar, xüsusilə ordunun bir yerdən digər yerə hərəkəti də bütün ölkədə olduğu kimi Naxçıvanda da vəziyyəti ağırlaşdırırdı. Nadir şahın 1744-cü ildə Qarsa hücumu zamanı ordu birləşmələrinin Təbriz-Naxçıvan yolu ilə keçib getməsi [10, s. 104], bölgə əhalisinin vəziyyətini daha da pisləşdirmiş və narazılığını artırmışdı. Həmin vaxt Əfşarlar dövlətinin bir çox bölgələrində üsyanlar baş vermişdir. 1743-1744-cü illərdə Şirvan, Şəki, Təbriz, Xoy, Salmas və başqa bölgələrdə narazı xalq kütlələrinin hakimiyyətə qarşı mübarizəsi daha da güclü xarakter almışdı. Lakin Nadir şah bu üsyanları çox amansızcasına yatırırdı. Bu zaman o, Naxçıvanda əhalinin hakimiyyətə qarşı mövqeyini öyrənmək işini İrəvan xanına tapşırmış, ikinci apardığı gizli təftiş zamanı yerlərdə narazı adamların olduğunu öyrənmiş və şaha xəbər vermişdir. Nadir şah əmr etmişdi ki, onun siyasətindən narazı olanların gözləri çıxarılsın və əmlakları müsadirə edilsin [12, s. 38].

Lakin bütün bu güclu təqiblərə və cəzalandırmalara baxmayaraq aparılan siyasətə qarşı xalqın narazılığı durmadan artırdı və ölkədə silahlı üsyanlar dalğası daha da güclənirdi. 1743-1744-cü illərdə baş vermiş üsyanlar yatırıldıqdan sonra 1746-1747-ci illərdə Azərbaycanı, Gürcüstanı yeni üsyanlar bürüdü [2, s. 30].

1747-ci il mart ayının 15-də Muğanda olmuş Rusiyanın səfiri M.M.Qolitsin yazırdı ki, əyalətlərin hamısında qorxulu vəziyyət və böyük qarışıqlıq yaranmışdır. Gəncədə, İrəvanda, Naxçıvanda, Tiflisdə əhali pul cərimələrindən cana gəlmişdir. Kiçikdən böyüyədək, hətta yerli hakimlər qiyam qaldırır, var-dövlətləri və mal-qarası ilə dağlara çəkilirdilər [15, s. 225].

Nadir şah ölkənin iqtisadi vəziyyətini düzəltmək üçün Xorasanda özu üçün yeni mərkəz yaratmaq istəyirdi. O, Xorasanı dövlətin həm siyasi, həm də iqtisadi mərkəzi etmək fikrində idi. Ona görə də bir sıra Azərbaycan şəhərlərindən, o cümlədən Naxçıvandan Xorasana ailələri ilə birlikdə çoxlu sənətkar köçürdu. Bu da öz növbəsində həmin şəhərlərdə, həmçinin Naxçıvanda sənətkarlığın zəifləməsinə və ağır vəziyyətə düşməsinə gətirib çıxardı. Bütün bu narazılıqlar Nadir şahın 1747-ci ildə süi-qəsd nəticəsində öz yaxın adamları tərəfindən gecə ikən yatağında qətlə yetirilməsi ilə nəticələndi. Bununla da əfşarların 11 illik hakimiyyətinə son qoyuldu [7, s. 318].

Beləliklə, XVIII əsrin 30-40-cı illərində Nadir şahın qurduğu Əfşarlar imperiyasının hakimiyyəti illərində digər Azərbaycan bölgələrində olduğu kimi, Naxçıvanda da gərgin ictimai-siyasi vəziyyət hökm sürmüşdür. Müharibələr, inzibati bölgü, vergi, aqrar və köçürmə siyasəti sahəsində edilmiş dəyişikliklər yerli əhalinin iqtisadi vəziyyətini ağırlaşdırdığından bölgədə siyasi vəziyyət də sabit olmamışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək): Ali məktəblər üçün dərslik / Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsilə. Bakı: Azərnəşr, 1994, 680 s.
2. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, 120 s.
3. Hüseynov E. Azərbaycan Nadir şah Əfşarın dövründə: Tar. elm. nam. ... avt. Bakı, 2009, 30 s.
4. İsmayıl M. Azərbaycan tarixi. Bakı: Azərnəşr, 1993, 271 s.
5. Quddusi M.H. Nadir-namə / Nadir şah: Nadir şah Əfşarın həyatı. Bakı: Kitab klubu MMC, 2017, 324 s.
6. Lokkart L. Nadir şah (ruscadan tərcümə Nəriman Əbdürrəhmanlı). Bakı: Qanun, 2013, 552 s.

7. Naxçıvan tarixi: 3 cilddə, I c., Naxçıvan: Əcəmi, 2013, 452 s.
8. Səfərli H. Naxçıvan şəhərinin epiqrafik abidələri. Naxçıvan: Əcəmi, 2019, 152 s.
9. Süleymanov M. Nadir şah. Tehran: 2010, 741 s.
10. Halaçoğlu A. Afşarlı Nadir şah ve döneminde Osmalı-İran mücadeleleri. Doktora tezi. İsparta, 2001, 156 s.
11. Абраам Кретаци. Повествование. (Критический текст, пер. на русский язык и ком. Н.К.Корганяна). Ереван: Изд-во АН Арм ССР, 1973, 256 с.
12. Алиев Ф., Алиев М. Нахчыванское ханство (1747-1828). Баку: Кавказ, 2011, 276 с.
13. Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку: Элм, 1975, 230 с.
14. Алиев М.М. К предыстории образования Нахичеванского ханства // Известия Академии наук Азербайджанской ССР. Серия истории, философии и права, 1986, № 3, с. 58-64.
15. Арунова М.Р., Ашрафян К.З. Государства Надир шаха Афшара (очерки общественных отношений в Иране в 30-40-х годов XVIII века). Москва: Восточная литературы, 1958, 283 с.

AMEA Naxçıvan Bölməsi
E-mail: ilhamialiyev@yahoo.com.tr

Ilhami Aliyev

THE SOCIO-POLITICAL SITUATION IN NAKHCHIVAN DURING THE RULE OF NADIR SHAH

In the article it is dealt with making changes in the sphere of administrative division, tax, agrarian and transfer policy according to adjust the domestic socio-political situation by Nadir Khan, after his Shah election. It is noted that his policy had not changed the socio-political and economic situation positively in Nakhchivan, like other regions of Azerbaijan. The destruction of farming areas during the wars, the application of heavy taxation policies, the relocation of some parts of the local population and so on. The situation complicated the economic situation of the population, which led to the aggravation of the political situation.

As a result, during the rule of the Afshars empire, founded by Nadir Shah in the 30-40th years of the 18th century, there was a tense socio-political situation in Nakhchivan as well as in other regions of Azerbaijan.

Keywords: *Nadir shah, Nakhchivan, Afshar state, political situation, administrative division.*

Ильхами Алиев

ОБШЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ В НАХЧЫВАНЕ ВО ВРЕМЕНА ПРАВЛЕНИЯ НАДИР-ШАХА

В статье упоминаются изменения в административном делении, налоговой, аграрной и трансфертной политике с целью корректировки внутриполитической со-

циально-политической ситуации после выборов Надир-хана шахом. Отмечается, что его политика, как и в других регионах Азербайджана, не изменилась положительно в социально-политической и экономической ситуации Нахчывана. Разрушение сельскохозяйственных районов во время войны, применение жесткой налоговой политики, переселение некоторых частей местного населения и так далее. Ситуацию осложнило экономическое положение населения, что привело к обострению политической ситуации.

В результате, во времена правления империи Афшар, основанной Надир-шахом в 30-40-х годах XVIII века в других регионах Азербайджана, а также в Нахчыване сложилась напряженная социально-политическая ситуация.

Ключевые слова: *Надир-шах, Нахчыван, государство Афшар, политическая ситуация, административное деление.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 16.07.2019
Son variant 12.09.2019

UOT 94(479.24)

YAŞAR RƏHİMOV

KOLLEKTİVLƏŞMƏ İLLƏRİNDƏ NAXÇIVANDA REPRESSİYALAR

Xalqımızın tarixinin doğru-düzgün yazılmasında, tarixi hadisə və faktların obyektiv araşdırılmasında və tarixi həqiqətlərin üzə çıxarılmasında Azərbaycanın 20-30-cu illər tarixinin öyrənilməsinin mühüm elmi və siyasi əhəmiyyəti vardır. XX əsr Azərbaycan tarixinin tərkib hissəsi olan Naxçıvanın 20-30-cu illər tarixinə aid hər hansı bir elmi iş, tədqiqat əsəri, yazılmış monoqrafiya və kitab öz aktuallığı ilə tarixşünaslığımızda daim maraq doğurur. Bu illərdə həyata keçirilən repressiya və həbslər Naxçıvandan da yan keçməmişdir. Müəyyən qüvvələr Naxçıvanın hüquqlarını məhdudlaşdırmaq istəyirdilər. Muxtar respublikada çox ağrılı keçən 20-30-cu illərin repressiyaları müxtəlif peşə sahiblərindən, hətta hərbçi və generallardan yan keçməmişdir. Repressiyaların həyata keçirilməsində Naxçıvanda yaşayan ermənilər yalan ifadə və əsassız iddialarla həmyerlilərimizə cinayət işi açdırır və hökm çıxarırdılar.

Məqalədə belə bir nəticəyə gəlinmişdir ki, kollektivləşmə illərində Naxçıvanda baş verən repressiyalar, hər şeydən əvvəl, rejimin və sistemin mahiyyətindən irəli gəlirdi.

Açar sözlər: *repressiya, günahsız insanlar, Naxçıvan, 20-30-cu illər, ermənilər, kollektivləşdirilmə.*

70 il ərzində sovet xalqlarının beynəlmiləl qardaşlığından dəm vuran bolşevik ideologiyası insanların beyninə və şüuruna zəhərli təbliğat yeridərək ölkədə və respublikada zəngin cəmiyyətin qurulmasından ağızdolusu yazırdılar. Son nəticədə aydın oldu ki, Leninin vəd etdiyi, Stalinin möhkəmləndirdiyi kommunist cənnəti iflasa uğramışdır [1, s. 11]. Ümummilli lider Heydər Əliyev XIX-XX əsrlər tarixinin yenidən yazılmasını, o cümlədən ötən əsrin 20-30-cu illər tarixinin yeni konsepsiyada yazılmasını tarixçi alimlərin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab etmiş və bu məsələni öz nəzarətində saxlayacağını bildirmişdi. Azərbaycan tarixinin bütün dövrlərinin, o cümlədən 20-30-cu illər tarixinin yeni arxiv materialları ilə yazılmasına mühüm diqqət verən ulu öndər Heydər Əliyev deyirdi: "Bu sahədə tarixçilərimiz qarşısında çox böyük vəzifələr durur, onların üzərinə böyük məsuliyyət düşür… Biz tarixçilərimizdən Azərbaycan tarixini bu gün üçün, gələcək nəsillər üçün yaxşı əks etdirən əsərlər" [7, s. 11] gözləyirik. Bu baxımdan həmin dövrə aid hər hansı bir tədqiqatın mövzuları aktual səslənir və problemi öyrənməyin, dövrün mürəkkəb məsələlərini süzgəcdən keçirməyin, tariximizin ibrət dərslərindən məntiqi nəticə çıxarmağın çox böyük əhəmiyyəti vardır.

Hökumətin 20-ci illərin axırları-1930-cu illərdə irəli sürdüyü yeni siyasi xətt – kütləvi kollektivləşdirmə, inzibati amirlik sisteminin formalaşması və ondan doğan kütləvi repressiyalar SSRİ-nin bütün regionlarında olduğu kimi Azərbaycanda da əhalinin geniş təbəqələrinin narazılığına səbəb olurdu [4, s. 2]. 1928-ci ilin sonlarından qolçomaqların məhdudlaşdırılması siyasətinin həyata keçirilməsi, ona yüksək vergilərin qoyulması, onların əmlakının müsadirə olunması, kəndlilərdən artıq taxılın zorla əlindən alınması və s. mövcud rejimə və kollektivləşməyə qarşı kütləvi müqavimət hərəkatına gətirib çıxardı. Kollektivləşməyə qarşı çıxanlar qaçaq dəstələrində birləşir və silahlı mübarizə aparırdılar. Üsyançılara və qaçaqlara qarşı amansız mövqe tutan totalitar rejim çox sərt cəza tədbirlərinə, hətta güllələnməyə əl atmaqdan belə çəkinmirdi. Zəyəm əməliyyatında 366 nəfər, Naxçıvan MSSR-in Keçili kəndindən isə 70 nəfər adam güllələnmişdi [10, s. 143]. Start xəttini Moskvadan götürmüş repressiv aksiyalar muttəfiq respublikalarda, Azərbaycanda, o cümlədən Naxçıvanda baş vermiş və milli, mənəvi, əxlaqi dəyərləri məhv etməyə yönəlmişdi.

Əvvəlcə torpağı kəndlilərə paylayan bolşeviklər sonra onları müxtəlif vergi, ərzaq sapalağı və s. vasitələrlə istismar etməyə başladılar. 20-ci illərin sonu-30-cu illərin əvvəllərində kollektivləşmə və ortabab kəndlilərin qolçomaq adı ilə bir sinif kimi ləğv edilməsinə başlandı. Kəndlilərin mülklərinin əlindən alınması və həyasızcasına mənimsənilməsi kəndlilərin kütləvi çıxışlarına səbəb oldu [3, s. 4]. Hakim dairələr bu üsyanlarda iştirak edən kəndlilərə "bandit", "silahlı qolçomaq dəstələri", "quldur" və b. bu kimi adlar qoyub, üsyanlara müxtəlif nalayiq adlar verirdilər. Nəticədə siyasi orqanlar bu narazılıq və çıxışları silahla yatırmağa başladılar, özü də müasir silah və hərbi texnika tətbiq etməklə. Orqanların yaratdığı fövqəladə Üçlüklər Naxçıvan, Qarabağ, Şəki, Zaqatala, Quba, Lənkəran, Abşeron və b. yerlərin minlərlə sakinini güllələnməyə məhkum edir, sürgunə göndərirdilər; üçlüklər isə əsasən ermənilərdən ibarət idi [3, s. 4]. Cəllad Orbeliyanın fitnə fəsadı ilə Qazaxıstan çöllərinə və Sibirə sürgün edilən günahsız naxçıvanlılar öz dədə-baba yurdlarından didərgin salınaraq təhlükəsizlik orqanlarının daimi nəzarəti altında saxlanmışlar.

Cənubi Qafqazda antisovet elementlərin fəallaşması ilə əlaqədar Baş Siyasi İdarənin məxfi siyasi şöbəsinin ÜK(b) P-yə hazırladığı 245 saylı 15 oktyabr 1930-cu il tarixli arayışda göstərilirdi: "1930-cu il ərzində Azərbaycanın Gəncə, Nuxa, Zaqatala və Naxçıvan MSSR-in Qarabağlar rayonunda kütləvi silahlı üsyan baş vermişdir. Kollektivləşdirmə zamanı yol verilmiş nöqsanlar üsyanların başlanması üçün əsas səbəblərdən olmuşdur. Bu üsyanlarda yalnız kasıb və ortabablar deyil, həmçinin bəzi sovet işçiləri, partiyaçı və komsomolçular da iştirak etmişlər.

Sovet hakimiyyəti üçün əlverişli olmayan belə şəraitdə "qolçomaq"lar əhali arasında təxribatçı təbliğatlarını genişləndirirdilər. Onlar kəndlilərin əmlakının müsadirə ediləcəyi, qadınların ümumiləşdiriləcəyi, başlayacaq müharibədə sovet hərbi hissələrinin məğlub olacağı barədə şaiələr yaymaqda davam edirlər" [14, s. 673-674]. Kollektivləşdirmə siyasətinin həyata keçirilməsində yol verilmiş nöqsanları, səhvləri və onların yaratdığı narazılıqları siyasi şöbənin özü də etiraf etmək məcburiyyətində idi.

Təkcə banditizmin ləğv olunması ilə bitməyən 30-cu illərdə Azərbaycanda olduğu kimi Naxçıvan Muxtar Respublikasında da yüzlərlə insan günahsız repressiya qurbanı olmuşdur. Sənədlərə görə 30-cu illərin əvvəllərində keçmişi bəy və xan olmuş varlılara "kulak" damğası vurularaq 300-ə qədər naxçıvanlı öz yurdlarından sürgün edildilər. Çar Rusiyası dövründə polisdə işləyənlər, müavatçı olanlar, o cümlədən tacirlər, mollalar, neçə-neçə yoxsul kasıblar belə öz yurdlarından sürgün edilmiş və güllələnmişlər. Kim idi günahkar? İstintaq materiallarını vərəqləyərkən hər şey aydın olur. Vətən oğullarını rus, erməni və üzdəniraq "qeyrətli" azərbaycanlı istintaqçıları yuxarının göstərişi ilə azərbaycanlıları sürgün etdirmiş və güllələtmişlər [5, s. 26]. Muxtar respublikada sadə xalq nümayəndələri, müxtəlif peşə sahibləri daha çox təqiblərə və günahsız repressiyalara məruz qalmışlar.

1930-cu il yanvarın 3-də ÜK (b) P Cənubi Qafqaz diyar komitəsi antisovet ünsürlərin aradan götürülməsi məqsədilə kütləvi əməliyyatların keçirilməsi barədə qərar qəbul etdi. Qərarın icrası ilə əlaqədar olaraq yerlərdə "üçlüklər" və "beşliklər" yaradıldı. Buna görə də 30-cu illərin əvvəllərindən başlayaraq bu təqib və repressiyalardan yaxa qurtarmağa çalışan "qolçomaqlar" imkan düşən kimi İrana və Türkiyəyə qaçmağa çalışırdılar. Qeyd edək ki, 30-cu illərin əvvəllərində İttifaqda həyata keçirilən zorakı kollektivləşmədə ən çox azərbaycanlılara qarşı daha kobud və sərt tədbirlərə əl atılırdı. Bütün əmlaklarından məhrum edilən və "qolçomaq" damğası vurulan layiqli şəxsləri müxtəlif ərazilərə-Qazaxıstana və Sibirə sürgün

edirdilər. Xüsusilə İran və Türkiyə ilə sərhəddə yerləşən Azərbaycan kəndləri nəzarətdə saxlanılır, həmin kəndlərin sakinləri daha çox təqib və təzyiqlərə məruz qalırdılar. Buna görə Zəngibasarda, Vedibasarda, Naxçıvanda, Qəmərlidə yaşayan yerli sakinlərin üsyan və qiyamları baş verirdi. Həmin kəndli çıxışları haqqında ətraflı məlumatlar bülletenlərdə, jurnallarda, xaricdə çap olunan mühacir nəşrlərdə öz əksini tapırdı.

1930-cu ilin fevralında ÜİK (b) P-nin "Kənddə partiyanın sinfi xəttinin düzəldilməsi və qolçomaqların bir sinif kimi ləğv edilməsi şüarının həyata keçirilməsi" haqqında olan qərarının yerinə yetirilməsi ilə əlaqədar olaraq bütün Azərbaycan, o cümlədən Naxçıvan kəndlərində qolçomaq adı ilə minlərcə adam ailələrilə birlikdə vətəndən çox uzaqlara sürgün edilmişdi. "Antisovet ünsürlərin aradan götürülməsi" adı ilə hakim dairələr və xüsusən bunların kənd mahallarında olan rəsmi nümayəndələri zəhmətkeş kəndlilərin başına elə oyun açdılar və elə divan tutdular ki, buna vəhşilikdən başqa heç bir ad vermək olmaz [3, s. 21]. Repressiya illərinin istintaq materiallarına baxanda NKVD əməkdaşlarının tətbiq etdikləri cəza mexanizmləri (psixoloji cəzalar, fiziki cəzalar və s.) insanı dəhşətə gətirir.

Hələ ötən əsrin 20-ci illərində kənd təsərrüfatının kollektivləşdirilməsinə dair bir çox qərarlar qəbul edilmişdi. Məs: SSRİ MİK və XKS-in "Kolxoz sistemini möhkəmləndirmək haqqında" 1929-cu il 4 sentyabr tarixli qərarı, ZSFSR MİK Rəyasət Heyətinin həmin məsələyə dair qərarı, ÜİK (b) P-nin 1927-ci ilin dekabr ayında keçirilən XV qurultayı və s. Kollektivləşmə illərində Naxçıvanda da ziyalıların nümayəndələrinə münasibətdə müəyyənləşdirilmiş ümumi rəy yaradılmasına başlandı. Onların yeni həyata qoşulmaq, Vətənə xidmət etmək arzusu hiyləgərlik, kollektiv təsərrüfatlara daxil olmaları isə məkrli niyyət kimi təqdim edilirdi. Məs: Yunis xan Naxçıvanski "ümumiyyətlə təkcə xan olduğu üçün deyil, həm də ruhuna və dünyagörüşünə görə proletar hakimiyyəti və sovet idarəsi üçün yad ünsürdür" [2, s. 18]. Kəndin dirçəlməsində böyük əməyi olan varlı kəndli təsərrüfatlarına hücum dövlət səviyyəsinə qaldırıldı. Həmin müddətdə partiya və hökumətin göstərişinə əsasən kolxozların "yad elementlər"dən təmizlənməsi sahəsində aparılan iş nəticəsində 1932-ci ildə 257 nəfər (1931-ci ildə 37 nəfər) kollektiv təsərrüfatlardan kənarlaşdırıldı.

20-30-cu illərdə Naxçıvanda da qolçomaqların sayı və mövcud mövqelərinin – iqtisadi və ictimai-siyasi mövqelərinin tədqiqi belə deməyə əsas verir ki, onlar mövcud rejimə qarşı mübarizə aparan güclü siyasi qüvvə deyildilər. Respublikada elliklə kollektivləşmə siyasətinə keçidlə əlaqədar 1929-cu ildən başlayaraq qolçomaqların bir sinif kimi ləğvi siyasətinə keçid başlandı və bunun nəticəsində Azərbaycan kəndində sinfi mübarizə daha şiddətləndi [11, s. 109]. Partiya və hökumət tərəfindən qəbul edilmiş çoxsaylı qərarlar, verilmiş fərman və göstərişlər kəndin nisbətən varlı təbəqəsinə qarşı mübarizəni daha gücləndirdi. Həyata keçirilən bu siyasət ölkəmizin digər bölgələri kimi, Naxçıvana da təsirsiz ötüşmürdü. Azərbaycan SSR XKS-nin 1930-cu il 30 mart tarixli göstərişilə bütün İcraiyyə Komitələrinə və yerli sovetlərə qolçomaqların siyahısını tərtib etmək ixtiyarı veriləndən sonra qolçomaq obyektlərinin uçota alınmasının sovetlərin ixtiyarına verilməsilə [11, s.109] Sovetlər tam səlahiyyətlər əldə etdilər. Naxçıvanda olan "qolçomaq"lara qarşı çox sərt və repressiv tədbirlərə əl atılırdı. Naxçıvan Vilayət Partiya Komitəsinin qərarına əsasən Azərbaycan Ali Məhkəməsinin Naxçıvan şöbəsi tərəfindən 1933-cü il yanvarın 23-də keçirilmiş məhkəməsi Tumaslı, Noraşen, Şahtaxtı, Ələkli, Püsyan kəndlərindən, Şərur və Naxçıvandan gətirilmiş 25 nəfərin işinə baxmış, onlardan 5 nəfəri güllələnmə cəzasına, 11 nəfəri isə qolçomaq kimi müxtəlif cəzalara (əksəriyyəti 10 illik həbsə) məhkum olunmuşdular [13, v. 31]. Qolçomaqlar daha çox kənd təsərrüfatı ver-

gisi verirdi. “Kulak”lığı müəyyən edən amillər o qədər çox idi ki, orta kəndliləri asanlıqla bu siyahıya salmaq olurdu: illik gəliri 300 manatdan artıq olub, ticarətlə məşğul olan, kənd təsərrüfatı alətlərini, maşınları, binaları, dəyirmanları və s. icarəyə verən (qeyd edilənlərdən biri kifayət idi) hər bir kəndli “kulak” siyahısına salınırdı [8]. Naxçıvan MSSR-də müəyyən vaxtlarda xalq məhkəmələri tərəfindən mühakimə edilmiş 38 nəfərin 33-ü “kulak” (qolçomaq) siyahısına salınaraq müxtəlif şəkildə cəzalandırılmışlar. Ümumiyyətlə, muxtar respublikada 1932-ci ilin 18 dekabrınadək 128 qolçomaq məsuliyyətə cəlb olunaraq bu və ya digər dərəcədə cəzalara məruz qalmışlar. 20-ci illərin sonlarında Naxçıvan MSSR-də “kulak” edilən təsərrüfatların (varlı kəndli təsərrüfatlarının) sayı 3 faiz göstərilsə də, hesablamalara görə onların sayı 7 faizi ötürdü.

1931-ci ildə muxtar respublikada 295 “kulak” təsərrüfatı qeydə alınmışdısa (onlardan 45-i Naxçıvan rayonunda, 59-u Ordubad rayonunda, 8-i Culfa rayonunda, 20-si Şahbuz rayonunda, 16-sı Əbrəqunus rayonunda, 147-si Şərur rayonunda), bir ildən sonra – 1932-ci ildə rayonlarda olan bu təsərrüfatların sayı aşağıdakı kimi idi: Naxçıvan rayonunda 58, Ordubad rayonunda 58, Culfa rayonunda 5, Şahbuz rayonunda 14, Əbrəqunus rayonunda 13, Şərur rayonunda 28 təsərrüfat [13, v. 42]. Rəqəmlərdən göründüyü kimi, Naxçıvan rayonundan başqa muxtar respublikanın digər rayonlarında “kulak” təsərrüfatlarının sayı azalmışdı. 1930-cu ilin avqust ayından başlayaraq “təkcə qolçomaq deyil, ümumiyyətlə, bütün kəndli təsərrüfatının mülkiyyətinin qeydə alınması maliyyə nazirliyinə tapşırıldı, mülkiyyətini qeydə almaqdan imtina edən və dövlət vergisini vaxtında ödəməyən kəndlilərə qarşı inzibati aktlar tətbiq edilməsi zəruri” [8] hesab edildi.

1929-cu ildə respublikada ərzaq kartoçkaları meydana çıxdı. Çörək satışı qadağan edildi, taxılın kütləvi müsadirəsi başlandı. 1930-cu il fevral ayının 20-də qəbul edilmiş “İqtisadi cəhətdən geridə qalmış milli rayonlarda qolçomaqlarla mübarizə və kollektivləşdirilmə tədbirləri haqqında” fərmandan sonra idarəetmədən, aqrar və dini məsələlərdən narazı olanlara və “qolçomaq”lara qarşı repressiya tədbirləri gücləndirildi [15, s. 97]. Təbii ki, heç bir məntiqə sığmayan repressiya prosesi milləti köləliyə, kütləyə çevirmək üçün düşünülmüş surətdə atılmış addım idi. Milli-mənəvi əxlaqi dəyər və sərvəti məhv etməyə hesablanmışdı.

1930-cu il martın 2-də Stalinin “Müvəffəqiyyətdən baş gicəllənməsi” adlı məqaləsinin nəşrindən sonra kollektivləşmənin sonrakı gedişində (sürətində) durğunluq yarandı. Bundan sonra kəndlilərə kolxozlardan çıxmaq və xırda tək (fərdi) təsərrüfatlar yaratmaq üçün icazə verildi. Torpaqların və mal-qaranın kolxozçuların arasında bölüşdürülməsi göstəricilərin və tədarükün aşağı düşməsinə səbəb oldu. Kütləvi repressiyalar kəndlilərin kolxozlardan çıxmasına gətirib çıxarırdı [15, s. 97]. Yəni artıq möhkəmlənən totalitar siyasi rejim sərbəst şəkildə öz hökmlərini yerinə yetirirdi. Kənd təsərrüfatının müxtəlif sahələrinə qoyulan məhdudiyyətsiz limitlər də həyata keçirilən bu siyasətin tərkib hissəsi idi.

Kollektivləşdirmə siyasəti Stalin yenidənqurmasının ən faciəli tədbirlərindən biri idi. Burada məqsəd fərdi kəndli təsərrüfatlarını kolxoz və sovxozlarda birləşdirmək, dövlət idarəçiliyinə verməkdən ibarət idi. 1929-cu ilin ikinci yarısından etibarən başlanan bu proses çox ağrılı keçmiş və faciəli nəticələrə gətirib çıxarmışdı. Partiya və dövlətin qərar və qətnamələrində, göstəriş və əsasnamələrində kollektiv təsərrüfatların təşkilinin könüllülük prinsipləri əsasında həyata keçirilməsi vurğulanırdı. Lakin işdə onlar zorakı yolla təşkil edilirdi. Kolxoza üzv olmaq istəməyənlər qolçomaqlığa salınır, həbs edilir, istehsal vasitələrindən məhrum edilir, repressiyaya məruz qalır və sürgün olunurdular. Bu sahədə partiya

və komsomol fəalları, sovet və inzibati aparat işçiləri xüsusi canfəşanlıq göstərmişdilər. Onlar zorakı kollektivləşdirməni kütləvi yarış meydanına çevirmişdilər.

1929-cu ilin dekabrında Stalin qolçomaqların istismarçı meyllərini məhdud etməkdən onları bir sinif kimi ləğv etmək siyasətinə keçirildiyini elan etdi. Qolçomaqlar üç kateqoriyaya bölündülər. Birinci kateqoriyaya "əksinqilabi fəaliyyətlə" məşğul olanlar, ikinci kateqoriyaya sovet rejiminə fəal müqavimət göstərməyənlər, lakin "əksinqilaba kömək edənlər" daxil idilər. Bu iki qrupa daxil olan qolçomaqlar həbs olunub güllələnir və ya Sibir və Qazaxıstanın insan yaşamayan yerlərinə sürgün olunur, mülkləri müsadirə edilirdi. Üçüncü kateqoriyaya daxil olan qolçomaqlar vilayət daxilində bir yerdən digər yerə, əsasən becərilməyən torpaq yerlərinə köçürülürdülər.

Stalinizmin əsas məqsədi sovet sistemini nə yolla olursa olsun, qoruyub saxlamaqdan ibarət idi. Məsələn, həmişə ermənilərin tərəfində olan Stalin bizim torpaqlarımızla bağlı "mübahisəli ərazi" problemindən danışanda demişdi ki, əgər bilmək istəyirsinizsə ki, Zəngəzur və Naxcıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar.

S.M.Kirovun dəfnindən bir neçə gün keçməmiş Mərkəzi Komitənin qərarı ilə digər bölgələrdə olduğu kimi, Naxçıvanda da fövqəladə üçlüklər yaradıldı. Naxçıvanda sədri İbrahim Tağıyev, üzvləri 41-ci Naxçıvan sərhəd dəstəsinin rəisi Nikişev və Azərbaycan Dövlət Siyasi İdarəsinin Naxçıvan Vilayət şöbəsinin rəisi Yaqubov təyin edilən Fövqəladə Üçlük yaradıldı.

Azərbaycanda qanlı aksiyaları həyata keçirən Xalq Daxili İşlər Komissarlığı (XDİK) əməkdaşlarının əksəriyyəti erməni millətinə mənsub idi. Xalq arasında NKVD kimi tanınan Xalq Daxili İşlər Komissarlığının rayon şöbələrinin də əksəriyyətinə ermənilər rəhbərlik edirdilər. Naxçıvan MR-da Baqdasarov, İonesyan, Yevdiyan, Ağacanov Vartan və başqalarını buna misal göstərmək olar. Bu illərdə bölgədə yaşayan ermənilər özlərininiin "tarixi düşmənçilik" prinsiplərini əsas tutaraq, xüsusi canfəşanlıqla çalışaraq Naxçıvanda keçirilən repressiv tədbirlərə bilavasitə yardımçı olurdular.

Bolşeviklər kollektiv təsərrüfatları genişləndirmək siyasətini o qədər kəskin qoymuşdular ki, hətta həbsxanalarda, islah əmək düşərgələrində belə emalatxanaların, artellərin yaradılması göstərişi verilmişdi. Həmin göstərişlə Naxçıvan diyarındakı islah evlərində 2 artel (biri pambıqçılığı inkişaf etdirmək məqsədilə, digəri duz karxanasında) yaradılmışdı [12, s. 377-378]. Bölgənin müxtəlif yerlərində minlərlə ortabab kəndlilər də qolçomaqlığa salınmışdılar. Bəzi rayonlarda kolxoza girməkdən imtina etdiyinə görə ortabab kəndlilərin 40-43%-i qolçomaq əlaltısı kimi mühakimə olunmuş və onların əksəriyyəti repressiyaya məruz qalmışdır. 1930-1931-ci illərdə saysız miqdarda insanları əhatə edən minlərlə ailə xüsusi yaşayış yerlərinə sürgün edilmişdi.

Doğrudanmı repressiya dalğası Kirovun ölümü ilə başladı? Şübhəsiz ki, ondan da əvvəl var idi. 20-ci illərdə başlayan repressiyalar lokal repressiyalar idi. Bu repressiyalar sırf siyasi xarakter daşıyırdı. 30-cu illərdə isə repressiyalar kütləviləşdi. Həmin repressiyaların xarakteri, tərkibi də dəyişdi və cəmiyyətin bütün təbəqələri bu repressiyalara məruz qaldılar. Şübhəsiz ki, belə bir vəziyyət Naxçıvandan da yan keçmədi.

Sovet siyasətində bu "yuxarıdan inqilab" kimi qiymətləndirilmişdi. Bu siyasət nəticəsində təhlükəli hesab olunan qolçomaqlar güllələnir, uşaqdan tutmuş qadına və qocaya kimi bütün ailə üzvləri sürgün edilirdi. Minlərlə adamlar soyuq və yöndəmsiz vaqonlarda Urala, Sibirə, Qazaxıstanın şaxtalı ərazilərinə göndərilmişdilər. Onlardan ən "qatı düşmən" sayılanlar

isə konslagerlərə atılırdılar. 30-cu illərin ortaları üçün Naxçıvan MSSR-də kəndli təsərrüfatlarının xeyli hissəsi zorakı yolla kolleltivləşdirilmişdi. 1937-ci ildə kolxozlar kəndli həyətinin böyük əksəriyyətini birləşdirmişdi.

Kollektivləşdirmə ölkənin kənd təsərrüfatını ağır vəziyyətə salmışdı. 1932-1933-cü illərdə bir sıra iri rayonları, o cümlədən Naxçıvan MSSR-i bürüyən aclıq nəticəsində xeyli adam ölmüşdü. Kollektivləşdirmə kəndlilərin maddi marağını öldürürdü. Onlar əslində tarixən bağlı olduqları torpaqdan məhrum olunurdular. Fərdi kəndlini kolxozçu kəndli əvəz etmişdi. Kollektivləşdirmə kəndlini cəmiyyətin ən hüquqsuz sosial hissəsinə çevirmişdi. SSRİ-də 1932-ci ilin sonlarından etibarən həyata keçirilən pasportlaşma sistemi, bəzi bölgələr müstəsna (əsasən sərhəd rayonları) olmaqla, kəndlilərə tətbiq edilməməşdi. Pasportu və ya şəxsiyyətini müəyyən edən sənəd olmayan kəndli doğulduğu və yaşadığı yerdən kənara çıxa bilmirdi. Bu bir növ keçmiş çarizmin təhkimçilik ənənələrini yeni şəraitdə davam etdirmək idi.

Beləliklə, 1930-cu illərin əvvəllərindən başlayaraq kənd təsərrüfatının mərkəzləşdirilmiş kolxozlarda – kollektiv təsərrüfatlarda birləşdirilməsi, yəni təsərrüfatların məcburi və zorakı kollektivləşdirilməsi aparılırdı. Kolxozlar üçün dövlətə veriləcək böyük miqdarda kənd təsərrüfatı məhsulları planı qoyulurdu. Məhz bu planlar 1932-1933-cü illərdə baş vermiş kütləvi aclığa gətirib çıxarmışdı. 30-cu illərdə Naxçıvanda baş vermiş repressiyalar, hər şeydən əvvəl, rejimin, sistemin mahiyyətindən irəli gəlirdi. Rejimin mahiyyəti ondan ibarət idi ki, sosializm tam və qəti qələbə çalmalı idi. Tarixdən də məlumdur ki, sosializmin tam və qəti qələbəsi repressiyadan sonra müəyyənləşdi. Əslində bu repressiyalar sonralar da davam edəcəkdi. Amma İkinci Dünya müharibəsinin başlanması bunun qarşısını aldı.

ƏDƏBİYYAT

1. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1972, 276 s.
2. Bayramova R. Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər). Bakı: Elm, 2007, 196 s.
3. Bünyadov Z. Qırmızı terror. Bakı: Azərnəşr, 1993, 331 s.
4. Cəfərov C. Azərbaycan kəndində inzibati-amirlik sisteminin formalaşması // Journal of Qafqaz University, № 26, 2009, s. 2-9.
5. Cəfərov F. Naxçıvan polisi repressiya illərində (1930-1940-cı illər). Tarix və onun problemləri, Bakı-2007, № 4, s. 126-129.
6. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, 2001, 55 s.
7. Heydər Əliyev və Bakı Dövlət Universiteti. Bakı: BDU, 1997, 136 s.
8. Həsənov C. Kollektivləşmə və tarixi həqiqət. "Ədəbiyyat və incəsənət" qəz. 14 iyul 1989, № 28 (2371).
9. Hüseynbəyli N. Naxçıvanda repressiyalar və onun nəticələri / Tarix və onun problemləri, Bakı, 2003, № 2, 99-101.
10. Qaffarov T., Məmmədov İ, Məmmədov X. və b. Azərbaycan tarixi. Bakı: Çaşıoğlu, 2003, 376 s.
11. Məmmədov N. Hakimiyyət orqanlarının qolçomaqlara qarşı "düşmənçilik" siyasəti (XX əsrin 20-30-cu illəri) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2010, № 3, s. 107-113.
12. Naxçıvan tarixi: 3 cilddə, II c., Naxçıvan: Əcəmi NPB, 2014, s. 412-423.

13. Naxçıvan Muxtar Respublikası Mərkəzi Dövlət Arxivi: f. 221, siy. 1, sax. vah. 31.
14. ЦК RKP(б)-BKP (в) и нац.вопрос. Кн.1, 1918-1933 гг. Москва: РОССИЭН, 2005, 674 с.
15. Алиева С. Сталинский репрессий в Азербайджанской ССР// XX əsrdə türk-müsəlman xalqlara qarşı soyqırımı IV beynəlxalq elmi konfransın materialları (22-27 aprel 2017-ci il, Azərbaycan Respublikası, Lənkəran şəhəri), s. 95-107.
16. edebiyyatqazeti.az/news/muzakire/1248-repressiya-gizlin-ve gerçekler ile
17. http://www.moderator.az/news/239974.html

AMEA Naxçıvan Bölməsi
E-mail: yasarrahimov@yahoo.com.tr

Yashar Rahimov

THE REPRESSIONS IN NAKHCHIVAN IN COLLECTIVIZATION YEARS

The paper deals with repressions in Nakhchivan during the collectivization period. At the end of the 20th and in the beginning of 30th years of the last century the peasants and illegal gangs had passed hard and honorable fight way, they had not submitted to followed a policy and had fought against forced collectivization and collective-farm movement, had shown resistance to the government in Nakhchivan. During the Union government it had been forbidden to say a pleasant word about these brave patriots, it had begun to be forgotten their well-wisher and brave deeds. It must value as a struggle for real freedom and independence against colonialism and collective-farm policy, which had begun these discontents and revolts anti-government in Nakhchivan.

Hundreds of innocent people were victims of repression in the 20-30s of the last century in Nakhchivan. During those repressions, Russian and Armenian interrogator shot and deported the local residents.

Keywords: *repression, innocent people, the national leader, Nakhchivan, the 20-30th years, collectivization, peasant.*

Яшар Рагимов

РЕПРЕССИИ В НАХЧЫВАНЕ В ГОДЫ КОЛЛЕКТИВИЗАЦИИ

Статья посвящена репрессиям в Нахчыване в период коллективизации. В конце 20-х годов и в начале 30-х годов прошлого столетия в Нахчыване начался мощный протест сельских жителей против начавшейся насильственной коллективизации. Недовольные насильственной коллективизацией сельские жители, а также сформированные в результате этого недовольства банды начали вести достойную борьбу за свои права. Во времена Союзного правительства было запрещено вспоминать тех, кто своей мужественной борьбой защищал права и свободы сельских тружеников. И поэтому эти патриоты своей родины, их доблестные поступки и дела были преданы забвению.

Сотни невинных людей в Нахчыване стали жертвами репрессий в 20-30-х годах прошлого века. Во время этих репрессий российские и армянские следователи расстреливали и депортировали местных жителей.

Ключевые слова: *репрессия, невинные люди, национальный лидер, Нахчыван, 20-30-е годы, коллективизация, крестьянин.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 13.06.2019
Son variant 10.09.2019

UOT 94(479.24)

MUSA QULİYEV

POLKOVNİK ƏBÜLFƏT AĞA ŞAHTAXTİNSKİ

Məqalədə məşhur hərbçi, poliqlot və tərcüməçi polkovnik Əbülfət ağa Şahtaxtinskinin həyatından və hərbi fəaliyyətindən söhbət açılmışdır. İndiyədək Əbülfət ağa Şahtaxtinskinin elmi ictimaiyyətə məlum olan tərcümeyi-halını məqalədə xatırlatmaqla yanaşı, onun Rusiya Dövlət Hərbi-Tarix Arxivindən tapılmış xidmət kitabçasına əsasən hərbi fəaliyyəti əhatəli təsvir edilmişdir. Axtarışlar zamanı məlum oldu ki, polkovnik Əbülfət ağa Şahtaxtinski rus-yapon müharibəsində (1904-1905-ci illər) sinəsində gəzdirdiyi Quran kitabı Tiflisdə polkovnikin qızı Qonçabəyimin (Ketevananın) gürcü varislərində saxlanılırmış. Onlar qızıl çərçivəli, fransız dilində olan bu kitabı Azərbaycan Milli Tarix Muzeyinə hədiyyə vermişlər. Məqalədə polkovnikin bu kitabı haqqında da danışılır. Rusiyanın Moskvadakı Dövlət Hərbi-Tarix Arxivindən tapılmış xidmət kitabçası ilk dəfə elmi dövriyyəyə daxil edilir.

Açar sözlər: *Naxçıvan, Şahtaxtı, Nəcəfqulu ağa, Tiflis, Qori, Əbülfət ağa, Balabəyim xanım.*

9 mart 1913-cü il. O dövrün populyar ictimai, siyasi qəzeti olan "Kavkaz" üzücü bir xəbərlə Tiflis, İrəvan və Naxçıvan ziyalılarını, həmçinin hərbiçilərini çox kədərləndirdi. "Kavkaz" qəzeti rus dilində 1846-cı ilin yanvarından nəşr edilib. Tiflisdə nəşr edilən bu qəzet əvvəllər həftədə 2 dəfə, 1866-cı ildə həftədə 3 dəfə buraxılmışdır. 1877-ci ildən isə gündəlik qəzet kimi məşhurlaşmışdı. 9 mart şənbə günü idi. Şənbə günündə olan elanla bildirilirdi: "Ağır kədərdən sarsılmış Balabəyim xanım əziz və unudulmaz ərinin, Sadıq ağa, bacısı və qardaşları ilə birlikdə əziz atalarının qəflətən vəfat etdiyini öz doğmalarına və tanışlarına xəbər verirlər. Qoridəki 202-ci piyada polkunun polkovniki Əbülfət ağa Şahtaxtinski martın 6-da gündüz saat 12-də Kutaisi şəhərində qəflətən vəfat etmişdir. Mərhumun cənazəsi Şahtaxtıdakı ata malikanəsinə aparılacaq və orada martın 12-də dəfn ediləcəkdir. Cənazə martın 10-da axşam saat 10-da Tiflisdə olacaqdır" (7). "Kavkaz" qəzeti 10 mart "Bazar günü" nömrəsində bu kədərli xəbəri təkrar dərc edib. Əbülfət ağa Şahtaxtinskinin vəsiyyətinə görə onu Naxçıvanın Şahtaxtı kəndinə aparıb orada doğmalarının yanında, Şahtaxtinskilər nekropolunda (sərdabəsində) torpağa tapşıracaqdılar. Tiflisin nüfuzlu insanları, məşhur hərbiçiləri, nurlu ziyalıları və polkovnikin həmyerliləri – naxçıvanlılar perronda dayanıb Kutaisidən gələn zirehli qatarı gözləyirdilər. Qafqaz canişini cəsur sərkərdəni Naxçıvana aparmaq üçün zirehli qatar və silahlı əsgərlər ayırmışdı. Əbülfət ağa haqqında ASE-nin (Azərbaycan Sovet Ensiklopediyasının) X cildində (1987) də məlumat verilib (1, s. 480). Ancaq bütün məlumatlar yığcam və sovet ideologiyasına uyğundur. Cəsur polkovnik, Port-Artur qəhrəmanı Əbülfət ağa Şahtaxtinski ilə bağlı xeyli axtarışlarımız olub. Bir çox məsələlər aydınlaşıb. Çar hökumətinin 1831-ci ildə Naxçıvan şəhəri üçün tərtib etdiyi kameral siyahıdan aydın olur ki, Əbülfət ağanın atası Nəcəfqulu ağa 1828-ci ildə Şahtaxtı kəndində doğulub və Rusiya İmperiyasının hərbiçilərindən olub (8).

Nəcəfqulu Sultan dövrünün ən zəngin zadəganlarından olmuşdur. Onun Şahtaxtıda, Naxçıvan və İrəvan şəhərlərində mülkləri vardı. Naxçıvan diyarının kəndlərində isə miras torpaqları olmuşdur. Nəcəfqulu ağa vəzifəsi ilə əlaqədar olaraq Naxçıvanda və İrəvanda yaşadığından onun övladlarının bəzilərinin doğum sənədlərində həmin şəhərlərin adları qeyd edilib. Əbülfət ağanın babası Hacı İsa Sultan, həmçinin ulu babaları İmamqulu Sultan, Şah Sultan və digərləri dövrünün tanınmış hərbiçiləri olmuşlar. Dövrünün tanınmış ziyalısı və

hərbiçisi olan Nəcəfqulu ağa oğlu Əbülfət ağaya da ilk təhsili evdə vermişdi. Sonra isə Naxçıvan şəhərindəki rus məktəbində oxutdurmuşdu.

Polkovnik Əbülfət ağa Şahtaxtinskinin Rusiya Dövlət Hərbi-Tarix Arxivindəki xidmət kitabçasını (o vaxtlar xidmət siyahısı adlanırdı – müəllif) tapdıq: Ehtiyatda olan 259 №-li piyada polkunun podpolkovniki Əbülfət ağa Şahtaxtinskinin xidmət siyahısı. Xidmət siyahısı 22 oktyabr 1907-ci ildə tərtib edilib. Xidmət siyahısında yazılanlardan məlum olur ki, Əbülfət ağa Tiflisdə gimnaziyanı bitirən ili Sankt-Peterburqda hərbi məktəbə daxil olub. Bu isə sovet dövründə onun haqqında yazılanlarla ziddiyyət təşkil edir. Ona görə də biz yazımızda xidmət kitabçası tapılana qədər müəlliflərin yazdıqlarını da saxlamaqla, tarixlərdə düzəlişlər apardıq. Bəlkə də sovet hakimiyyəti illərində müəlliflər onun fəaliyyətinə inqilabçı ruh gətirməklə Əbülfət ağanı tariximizdə saxlamaq istəmişlər?! Hər halda 1975-ci ilədək onun oğlu Abbas bəy sağ olduğundan, yəqin ki, jurnalistlər (o illərdə əsasən qəzet yazıları var) onunla görüşüblər və Abbas bəy atası haqqında müəyyən məlumatları onlara danışıb. Bu gün onun varisləri bu haqda heç nə deyə bilmirlər. Onun haqqında indiyədək yazılanlara görə, 1871-ci ildə Nəcəfqulu ağa Əbülfət ağanı Tiflisə aparır və təhsilini davam etdirmək üçün onu realnı gimnaziyaya qoyur. Əbülfət ağa 1877-ci ildə gimnaziyanı uğurla başa vurub həmin ildə Peterburq Texnologiya İnstitutuna daxil olmuşdur. Ruhən azadlıq mücahidi olan Əbülfət ağa oxuduğu İnstitutda tələbə hərəkatına qoşulmuş, tələbələri qadağan olunmuş toplantılara təhrik etdiyinə görə 1879-cu ilin dekabr ayında institutdan xaric edilmişdir. Qeyd edək ki, Əbülfət ağa qafqazlı, əsasən azərbaycanlı və dağlı xalqları birləşdirən "İmdadiyyə" təşkilatının fəal üzvü olmuşdur. Bu təşkilatın qurucusu və ona rəhbərlik edən isə Azərbaycanın gələcək görkəmli dramaturqu Nəcəf bəy Vəzirov idi. Nəcəf bəy də həmin vaxtlar Moskvada tələbə idi. 3 mart 1878-ci ildə 20 yaşlı Əbülfət ağa Nəcəf bəy Vəzirova yazırdı: "İmdadiyyənin əsas müddəalarının müzakirəsini təxirəsalınmaz vəzifəmizə çevirir. Müzakirə ona görə lazımdır ki, biz ölkənin müxtəlif yerlərinə yollanarkən bir məqsəd uğrunda hərəkət edə bilək. Biz öz məqsədimizə nail olmaq üçün bütün vasitələri nəzərdən keçirməliyik. Həmin məqsəd kifayət qədər aydın və dəqiq şəkildə müəyyənləşdirilməlidir. Məqsədimiz sakitliyimizi pozan vicdan əzabının burjua rahatlığı naminə dəf edilməsi deyil. Məqsədimiz pisliyin kökünü yerli-dibli kəsmək üçün mümkün qədər çox işlək əl hazırlamaqdır. Biz vasitə və vəsait axtarırırq, deməli onda işçi əllər, ağırlığı öz üzərinə götürən qüvvələr tərbiyə etməliyik. Biz tərəqqipərvər adamlar kimi, nəzərlərimizi yalnız cəmiyyətin aşağı təbəqələrinə yönəltməliyik". Bu məktub Rusiya İmperiya Təhlükəsizlik İdarəsinin əlinə keçir. Onlar məktubu monarx II Aleksandra təqdim edirlər. Çar isə belə bir dərkənar yazır: "Göstərilən şəxslərin üzərinə diqqət hökmən gücləndirməlidir". Təqib edilən Əbülfət ağa institutdan qovulmuş və ona Rusiyanın ali məktəblərində oxumaq qadağan edilmişdi. 1879-cu ildə Əbülfət ağa Moskvaya gəlir və Lazarev adına Şərq Dilləri İnstitutunda oxumağa başlayır. Lakin bu şəxsi institut olduğundan o, burada da diplom ala bilmir. Əbülfət ağa təhsil almaq üçün Almaniyaya gedir və Heydelberq universitetində diplom işini 1880-ci ildə müdafiə edib bakalavr dərəcəsini alır. Sonra Rusiyaya dönən Əbülfət ağanı həmin diplomla qulluğa götürmürlər. Ona görə də Əbülfət ağa məcbur olur ki, dördüncü dəfə ali məktəbə daxil olsun. Onu hərbi iş daha çox maraqlandırdığından 1883-cü ildə Peterburq yunker məktəbinə imtahan vermiş və əla qiymətlərlə məktəbə daxil olmuşdu (3, s. 17-18).

Əbülfət ağanın təhsili ilə bağlı sovet dövründə yazılanlar belədir. İndi isə onun xidmət kitabçasında yazılanlarla tanış olaq. Əbülfət ağa Şahtaxtinskinin xidmət siyahısından isə məlum olur ki, o, Tiflisdə realnı məktəbi bitirən kimi Sankt Peterburqda birinci dərəcəli hərbi

məktəbə daxil olur. Yunkerlər hazırlayan həmin məktəbi bitirəndən sonra, yəni 1879-cu il sentyabrın 1-də hərbi xidmətə başlayıb. Hərbi xidmətini ürəkdən yerinə yetirən Əbülfət ağaya 20 sentyabr 1880-ci ildə unter-zabit rütbəsi verilir. Həmin ilin 22 dekabrında o, yunker kimi orduda fəaliyyətini davam etdirir. 1881-ci ildə podporuçik rütbəsini alan Əbülfət ağa avqustun 8-də Semyanovka saray qvardiyasına göndərilir. Bu zaman o, 23 yaşında idi. Əbülfət ağanın xidmət siyahısı çox zəngindir. 1881-ci ildən başlayaraq 1908-ci il də daxil olmaqla hər ay hərbi xidməti qeyd edilib. Buradakı məlumatlardan aydın olur ki, o Sankt-Peterburqda, Tiflisdə, İrəvanda, Ərdahanda, Gümrüdə, Bakıda, Kutaisidə, Qoridə, həmçinin İsveçrədə hərbi xidmətdə olub. Bütün bunlar hamısı onun xidmət kitabçasında ardıcıl yazılıb. Onun təhsil aldığı məktəb İkinci Konstantinovski hərbi məktəbi adlanırdı. Bu məktəb əsasən atıcılıq üzrə zabitlər hazırlayırdı. Hərbi məktəbi bitirəndən sonra həyatını ömrünün sonuna kimi ordu ilə bağlayır. Əbülfət ağa bacarıqlı zabit kimi saray qvardiyasının Semyanovsk polkunda hərbi xidmətə başlayır. 30 avqust 1884-cü ildə ona qvardiya podporuçik rütbəsi verilir. Nümunəvi xidmətinə görə saray qvardiyasının 8 avqust 1885-ci ildə Əbülfət ağa poruçik rütbəsi ilə təltif edilir. 1886-cı ildə məzuniyyət alaraq Rusiyaya, İrana və Türkiyəyə getməsi, həmçinin Şərq dilləri üzrə zabitlər üçün hazırlıq kurslarında oxuması haqqında da ətraflı məlumatlar xidmət siyahısında yazılıb. Bunların hamısını əhatə edən tarix 25 iyun-oktyabr ayı zaman aralığında qeyd edilib. Yüksək döyüş bacarığına görə 20 aprel 1887-ci ildə ştabs kapitan rütbəsi alıb. 7 avqust 1889-cu ildə kapitan rütbəsi alan Əbülfət ağa 6 il 3 ay rota komandiri olmuşdur. 1904-1905-ci illərdə rus-yapon müharibəsində polk komandiri vəzifəsini daşımış və məşhur Port-Artur döyüşlərində iştirak etmişdir. Əbülfət ağa Şahtaxtinskinin hərbi şücaətləri hökumət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 2-ci və 3-cü dərəcəli Müqəddəs Anna (qılınclarla, 15 yanvar 1906, 28 iyul 1900), 2-ci və 3-cü dərəcəli Müqəddəs Stanislov (qılınclarla, 21 mart 1907, 20 noyabr 1905) ordenləri ilə təltif edilmişdir. 1908-ci ildə onun orduda hərbi xidmətinin 25 illiyi tamam olur. Həmin münasibətlə onun hərbi hünərlərini yüksək qiymətləndirirlər. Əbülfət ağaya 4-cü dərəcəli Müqəddəs Vladimir ordeni verilir. Əbülfət ağa bunlardan əlavə digər yüksək hərbi mükafatların da kavaleri olmuşdur. O, Buxara əmirliyinin 2-ci dərəcəli Qızıl Ulduz (30 mart 1898) ordeni, İranın 2-ci dərəcəli (1903, 20 dekabr), 3-cü dərəcəli (1901, 5 yanvar), 3-cü dərəcəli (1903, 20 dekabr), 4-cü dərəcəli (27 sentyabr, 1889) ordenləri ilə mükafatlandırılıb. Əbülfət ağa 1912-ci ildə polkovnik rütbəsində Rusiya hökuməti tərəfindən İsveçrəyə göndərilmişdi ki, orada hərbi manevrləri müşahidə etsin. Rusiya çarının icazəsi ilə xarici ordenləri də sinəsində gəzdirməyə icazə verilmişdir. Əbülfət ağa bir sıra medallar da almışdır. O, Rusiya çarı III Aleksandrın 1883-cü ildə tacqoyma mərasimində mühafizə qoşununda olduğundan imperator həzrətlərinin Müqəddəs Tacqoymasının tünd bürünc xatirə medalı və həmçinin III Aleksandrın fəaliyyəti ilə bağlı sinədə gəzdirmək üçün gümüşdən hazırlanmış medalla (Aleksandr lentli) da təltif edilib. Əbülfət ağa həmçinin Fransanın Yuxarı Reyn çayında Sudan Xilasetmə Cəmiyyətinin də medalını almışdır. Əbülfət ağa Şahtaxtinski dünya şöhrətli alim-naşir Məhəmməd ağa Şahtaxtinskinin doğmaca əmisi oğludur və kürəkənidir. Əbülfət ağa ilə Balabəyim xanımın nikahından aşağıdakı övladları xidmət siyahısında qeyd edilib: 1) Qızı Qonçabəyim 31 mart 1885-ci ildə doğulub; 2) Oğlu Sadıq ağa 3 avqust 1889-cu ildə anadan olub; 3) oğlu Qasım ağa 19 yanvar 1894-cü ildə doğulub; 4) oğlu Nəcəfqulu ağa 22 iyul 1898-ci ildə doğulub; 5) oğlu Abbas bəy isə 13 mart 1905-ci ildə anadan olub (10).

Sadıq ağa Şahtaxtinski Petroqradda təhsil alırmış. 1918-ci ilin fevralında könüllülər dəstəsində Qırmızı Ordu sıralarına daxil olur. Axtarışlar zamanı məlum oldu ki, o, sovet ordusunun qərargah zabiti olmuş və komanda heyətinin idarə rəisi vəzifəsinədək yüksəlib. Onun

adına 1940-cı illərin istintaq işlərində rast gəlinir. Onun həbs edilib güllələnməsi haqqında məlumatlar var. Əbülfət ağanın ikinci oğlu Nəcəf Şahtaxtinski (1898-1937) Tiflisdə hərbi kadet məktəbini, sonralar Sankt-Peterburqdakı Mixaylovsk Artilleriya məktəbini bitirmiş və 1918-ci ilədək çar ordusunda xidmət edib. 1918-ci ildə Azərbaycana gəlmiş və Azərbaycan Xalq Cümhuriyyətinin ordusunda milli kadrların yetişdirilməsində yaxından iştirak edib. 1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra Artilleriya polkunda qərargah rəisi olub. 1931-ci ildən başlayaraq NKVD tərəfindən təqib olunmuş, həbsə və sürgünə göndərilmişdi. 1937-ci ilin dekabrında "troyka"nın (üçlüyün) qərarı ilə güllələnib (3, s. 19-20). Əbülfət ağanın 3-cü oğlu Abbas ağa 1920-ci ilin əvvəllərində Kreml yanındakı hərbi kursantlar məktəbini bitirib. İndiyədək Abbas ağanın haqqında bir məlumat olmasa da bir təsadüf nəticəsində öyrəndim ki, onun Teymur adlı oğlu Bakıda yaşayır. Çox çətinliklə olsa da Teymur müəllimlə əlaqə yaratmaq mümkün oldu. Söhbət əsnasında məlum oldu ki, Abbas ağa sovet hakimiyyəti illərində Yevlaxda və Bakıda yaşayıb. Amma iqtisadiyyat sahəsində işləyirmiş. Oğlunun dediyinə görə Abbas ağa 1975-ci ildə Bakıda vəfat edib. Abbas ağanın Veysəl, Teymur adlı oğlanları və Kamilə adlı qızı olub. Teymur Şahtaxtinskinin (1948-ci il 1 aprel) Samirə və Rüfət adlı övladları var. Teymur Şahtaxtinskinin dediyinə görə Abbas ağa 70 yaşına çatanda vəfat edib (2).

Çox qəribədir Əbülfət ağadan yazanlar elə bilirmişlər ki, Abbas ağanı da güllələyiblər. Teymur Şahtaxtinski mənə yadigar olaraq çox tarixi bir fotoşəkil verdi. Tiflisdə Barkanovların fotoatelyesində çəkilib. Əbülfət ağa, Balabəyim xanım və qucağında Abbas ağa (5 yaşında), Qasım ağa və qızı Qonçabəyim Sadıq və Nəcəf məktəbdə oxuduqlarından burada yoxdurlar.

Arxiv sənədlərində Əbülfət ağanın Qonçabəyim adlı bir qızının da olduğunu yazırlar. Hətta Əbülfət ağanın ölümündən sonra Şahtaxtının ona məxsus torpaq sahələrində Qonça xanımın da (onun adının gürcü variantını da qeyd ediblər – Ketevana – müəllif) adı çəkilir (6).

Qonça xanım haqqında az məlumatımız var. Maraqlıdır: necə olub ki, o, Ketevana adını daşıyıb və taleyini Mdivanilərlə bağlayıb. Amma fikrimiz var ki, onun Tiflisdə yaşayan varislərini axtarıb tapaq. Çünki onlar Əbülfət ağanın 1879-cu ildən ömrünün sonuna kimi gəzdirdiyi 11,5x17,5 sm ölçülü və qızılla bəzədilmiş "Quran" Azərbaycan Milli Tarix Muzeyinə göndəriblər. "Quran" muzeyin kolleksiyasında (invertar nömrəsi к.п.11420 фни № 3096) saxlanılır. Maraq üçün deyək ki, Əbülfət ağanın sinəsində gəzdirdiyi bu nadir müqəddəs kitab haqda Kostina maraqlı məqalə yazıb (9, s. 327-329). Polkovnikin sinəsində gəzdirdiyi şəxsi "Quran"ı fransız dilindədir. 1877-ci ildə M.Kaşimirski tərəfindən ərəbcədən fransızcaya tərcümə edilib və Parisdə nəşr olunub. "Quran"ın üz qabığı tünd göy rəngli dəridir. Üz qabığında "LE KORAN" qızılla həkk edilib və düzbucaqlı ikiqat çərçivəyə alınıb. Arxa tərəfində də belə çərçivələr var. Kitabın çərçivələri qızıldandır. Titul səhifəsindən öndə sağ tərəfdə yuxarıda Əbülfət ağa Şahtaxtinskinin 1879-cu ildə Peterburqda yazdığı avtoqrafı var. Titul vərəqində sağda aşağıda oval formada Əbülfət ağanın şəxsi möhürü vardır. "Quran" 523 səhifədən və əlifba göstəricisindən ibarətdir (9, s. 525-533).

Əbülfət ağanın qızı Qonça xanımın (Ketevananın) varislərinin muzeyə göndərdikləri (rus dilində) məktubun Azərbaycan dilində tərcüməsini də yazmağı məqsədəuyğun hesab etdik. Məktubda deyilir: "Bu Quran bizim babamız, məşhur Əbülfət ağa Şahtaxtinskinindir və bizim ailə mirasımızdır. Onu Bakı Dövlət Tarix Muzeyinə Tblisidə yaşayan varisləri-kötücələri Nikolay və Natali Mdivanilər tərəfindən hədiyyə veririk. Xahiş edirik ki, Quranı alandan sonra bizə yazılı məlumat verəsiniz. Ədalət naminə bu kitab digər tarixi eksponatlar arasında layiqli yer tutacaq. Bizim nənəmiz Nina İvanovna Stas Bakıdakı digər qohumları

axtarırdı, amma nəticəsi olmurdu. Ya məktublar gedib çatmırdı, ya da ki, ünvanları dəyişmişdilər. Məlum deyildi".

Əbülfət ağa Şahtaxtinskinin qızının qısaca şəcərə arayışı:

1. Əbülfət ağanın qızı Qonça gürcü zadəganı Varlam Mdivani ilə ailə qurmuşdu.

2. Əbülfət ağanın nəvəsi, Qonça və Varlamın oğlu Nikolay Mdivani 1904-cü ildə doğulub (həbs edilmişdi və 1937-ci ildə güllələnib) Nina Stas ilə ailə qurmuşdu. Nina Stas Quranı qoruyub saxlayandır. O, 4 sentyabr 2001-ci ildə 94 yaşında vəfat etdi.

3. Əbülfət ağanın nəticəsi, Nikolay Mdivaninin və Nina Stasın oğlu Georgi Mdivani 1933-cü ildə doğulub, 1997-ci ildə vəfat edib. Həyat yoldaşı Nane Gelaşvilidir. Hazırda sağdır.

4. Əbülfət ağanın kötücələri – Nikolay Mdivani (1961), Nataliya Mdivani (1971) – Georgi Mdivaninin və Nane Gelaşvilinin uşaqlarıdır.

14 mart 2002-ci il(5).

Qeyd edim ki, mən onları Tiflisidə axtardım. Köhnə ünvandan köçüblər. Axtarışımız davam edir. Polkovnik Əbülfət ağa biz düşündüyümüzdən də məşhur hərbiçi olub. Əgər belə olmasaydı, Kutaisidən zirehli qatar onu çarın və Qafqaz canişinin göstərişi əsasında Şahtaxtı kəndinə gətirməzdi. Onun dəfni haqqında heç vaxt ətraflı yazılmadığından bunu geniş təsvir etmək istərdik. Şahtaxtı kəndinin 100 ildən çox yaşamış ağsaqqallarından olan Əli Hacı Məmmədhüseyn oğlu və sonralar Böyükdüz kəndində yaşayan Qasım Əli oğlu dəfnin canlı iştirakçısı və şahidi olmuşdular. Vaxtı ilə onlardan öyrəndiklərimi yazmaq maraqlı olar. Zirehli qatar Şahtaxtı kəndinə gündüz saat 11-də gəlib yetişib. Dəmiryol vağzalında, import deyilən tarixi binanın önündə toplaşan insanların sayı-hesabı yox idi. İrəvandan, Naxçıvandan da çoxlu qonaqlar gəlmişdi. Zirehli qatarı kazaklar (Rusiya ordusunun əsgərləri – müəllif) qoruyurdular. Mart ayı olsa da hava soyuq idi. Rekviyemin sədaları altında cənazəni top lafetinin üstünə qoydular. Atlas balışlara onun aldığı hərbi mükafatları düzmüşdülər. Hətta, qılıncı da yanındaydı. Kortej vağzaldan kəndə tərəf irəliləməyə başladı. Kədərli musiqi çalırdılar. Hamısı hərbiçilər idi. Məhəmmədağa Şahtaxtinski də cənazənin yanında addımlayırdı. Əbülfət ağanı Şahtaxtinskilərin təpədə olan ailə sərdabəsində dəfn etməyə gətirirdilər. Özü belə vəsiyyət etmişdi. Burada onun ulu babaları İmamqulu Sultan, I İsa Sultan, əmisi Hacı Vəli ağa və digər doğmaları dəfn olunmuşdular. Onu torpağa tapşırandan sonra yaylım atəşi açdılar. Nitq söyləyənlər içərisində ağlayanlar da vardı. Naxçıvan böyük bir sərkərdəsini itirmişdi. Çar hökuməti onun xidmətlərini nəzərə alaraq Əbülfət ağanın sərdabəsi önündə fəxri qarovul qoyur. Bu, 1920-ci ilədək davam edib. Vağzaldakı hərbi zastavanın əsgərləri bu ehtiramı yerinə yetiriblər (4).

Tənha, dağıdılmış, kədərli bu məzarda uyuyan qəhrəman polkovnik Əbülfət ağa Şahtaxtinskinin keçdiyi elmi və hərbi yolu, bir də vətən təəssübü bütün yüzilliklərdə gəncliyimizə nümunədir.

ƏDƏBİYYAT

1. Azərbaycan Sovet Ensiklopediyası (ASE): Bakı, 1987, 608 s.
2. İnformator Teymur Şahtaxtinski Abbas ağa oğlu. 1 aprel 1948-ci ildə doğulub. Bakı şəhərində yaşayır.
3. Quliyev V. İsa Sultan Şahtaxtinskinin qəribə həyatı. Bakı: Ozan, 1999, 83 s.
4. Quliyev M. Polkovnik Əbülfət ağa Şahtaxtinskinin keçdiyi hərbi yol gəncliyimizə nümunədir. "Şərq qapısı" qəz., 21 yanvar 2010-cu il.

5. Məktub müəllifin şəxsi arxivindədir.
6. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA): F. 31, siy. 1, iş № 43, 206 v.
7. Газета «Кавказ», 9-10 марта, 1913, № 57-58.
8. Государственный Исторический Архив Азербайджанской (ГИААР): Ф. 24, опись 1, д № 353, 357 л. Посемейных списков в Камеральном описании г. Нахичевани 1831 г.
9. Костина И. Абульфат Ага Шахтахтинский и его личный Коран. "Azərbaycan Tarix Muzeyi" toplusu. Bakı: Elm, 2004, 366 s.
10. Российский Государственный Военно-Исторический Архив (РГВИА): Министерство Военного Главного Штаба. Послужной список подполковника 29-го драгунского полка Шахтахтинского. Составлен 22 октября 1907 года, 28 л.

AMEA Naxçıvan Bölməsi
E-mail: kuliyevm@ yandex.ru

Musa Guliyev

COLONEL ABULFAT AGHA SHAHTAKHTINSKY

In the article, the outstanding soldier, polyglot and translator – colonel Abulfat agha Shahtakhtinsky's life, education years and military activity are spoken about. Besides reminding Abulfat agha Shahtakhtinsky's biography in the research work that is known by the scientific world up to now, his military activity is described in detail according to the military service folder which was found from the Russian State Archive of Military History. While the investigations, it turned out that colonel Abulfat agha Shahtakhtinsky's Koran which he had carried on his chest during the Russo-Japanese War (1904-1905) were kept by his daughter Gonchabeyim's (Ketevana) Georgian successors. Then they bestowed that gold framed holy book in French to the National Museum of History of Azerbaijan. This holy book is also mentioned in the paper. The military service folder which was found from the Russian State Archive of Military History at Moscow is included in the scientific circulation for the first time.

Keywords: *Nakhchivan, Shahtakhti, Najafgulu agha, Tiflis, Gori, Abulfat agha, Balabeyim khanum.*

Муса Гулиев

ПОЛКОВНИК АБУЛЬФАТ АГА ШАХТАХТИНСКИЙ

В статье рассказывается о жизни, годах учёбы, военной деятельности знаменитого военного, полиглота и переводчика Абульфата Аги Шахтахтинского.

Наряду с упоминанием его биографии, известной научной общественности, также на основе его служебной книги, найденной в Российском Государственном Архиве, всесторонне описана его военная деятельность. Во время исследований стало ясно, что Коран, который полковник Абульфат ага Шахтахтинский хранил у груди во время русско-японской войны (1904-1905 годы), хранился в Тифлисе у наследников дочери полковника Гончабегум (Кетевана). Они эту книгу на французском языке в золотом

переплёте подарили Национальному Историческому Музею Азербайджана. В статье рассказывается об этой книге полковника. Впервые в научный оборот выпущена служебная книга полковника, найденная в Московском Государственном Военно-Историческом Архиве.

Ключевые слова: *Нахчыван, Шахтахты, Наджафкули ага, Тифлис, Гори, Абульфат ага, Балабегум ханум.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 01.07.2019
Son variant 09.09.2019

UOT 94 (479/24)

SARA HACIYEVA

NAXÇIVAN DİYARINDA TORPAQ MÜLKİYYƏT FORMALARI (XVIII-XIX ƏSRLƏRDƏ)

Məqalədə XVIII-XIX əsrlərdə Naxçıvan diyarında mövcud olan torpaq mülkiyyət formalarından bəhs edilmişdir. Qeyd edilmişdir ki, bəhs olunan dövrdə Naxçıvan diyarında bəzi istisnalar olmaq şərti ilə beş torpaq mülkiyyət forması mövcud olmuşdur. Həmin torpaq mülkiyyət formalarından demək olar ki, hakim təbəqənin nümayəndələri daha çox faydalanmışdılar. Lakin buna baxmayaraq kəndlilərə məxsus torpaq sahələri də olmuşdur. Dövrün çətinliklərinə baxmayaraq sadə əhali onlara məxsus olan torpaq sahələrindən istifadə edərək öz yaşamlarını müəyyən qədər təmin etmişlər.

Açar sözlər: *Naxçıvan, torpaq mülkiyyəti, xass, tiyul, mülk, vəqf, camaat.*

Hələ XVIII-XIX əsrlərdən öncə Şərqin müsəlman ölkələrində torpaq sahibliyinin beş əsas növü olmuşdur. 1) dövlət torpaqları - divani; 2) Şah ailəsinə mənsub torpaq sahələri – xassə; 3) yerli feodallara məxsus torpaq sahələri – mülk; 4) dini ocaqlara məxsus torpaqlar – vəqf; 5) kənd icmasının torpaqları – camaat torpağı [12, s. 222-247]. Lakin tədqiq olunan dövrdə bu torpaq mülklərinə şərti xarakter daşıyan soyurqal və tiyul kimi torpaq növlərinin də əlavə olunduğunu qeyd etmək olar. N.Süleymanov Səfəvilər dövrü torpaq mülkiyyət formalarını xarakterizə edərək qeyd edir ki, həmin dövrə aid torpaq üzərində mülkiyyətçilik hüququnun üç tələbi əsas götürülməlidir: 1. Sahiblik hüququ; 2. Sərəncamvericilik hüququ; 3. İstifadə hüququ. Alim bu yanaşma ilə hələ Səfəvilər dövrü torpaq mülkiyyət insitutlarını iki qrupa ayırmışdır. 1. Əsas; 2. Törəmə. Əsas adlandırılan qrupa dövlət, xassə, mülk torpaqları; Törəmə qrupa isə vəqf, icma, tiyul torpaqları aid edilmişdir. Əsas qrupa daxil edilən torpaqlar üzərində istifadə hüququ tam şəkildə təmin olunmuş, ikinci qrupda isə mülkiyyətçilik hüququ tam şəkildə təmin olunmamışdır [11, s. 55-56]. Əsas mülkiyyət əmlakı olan əvvəlki iki mülkiyyət forması olmuş dövlət və xassə əsasən dövlətə məxsus torpaq sahələri idi ki, bunlardan birincisi dövlətin mühafizəsi üçün, yəni ordu quruculuğu və dövlət aparatının saxlanmasına, ikinci isə şah və ya hakim təbəqənin ailəsinin saxlanmasına sərf olunurdu. Törəmə qrupda isə torpaqlar üzərində mülkiyyətçinin şərti qaydada sahiblik və istifadə hüququ olsa da, sərəncamvericilik – alqı-satqı, dəyişdirmə və s. imkanları yox idi.

Qeyd etmək lazımdır ki, tarixən torpaq mülkiyyəti və torpaqdan istifadə iqtisadiyyatın inkişafında mühüm amillərdən biri hesab edilmişdir. Səfəvilər dövlətinin də zəifləməsində və demək olar ki, tənəzzülündə bu amil əsas rol oynamışdır. Professor T.Mustafazadə araşdırmalara əsaslanaraq qeyd edir ki, Səfəvilər dövlətinin tənəzzülə uğramasında bir sıra tarixi amillər mühüm rol oynasa da, bu dövlətin dağılmasında əsas səbəblərdən biri də iri feodal torpaq mülkiyyətinin inkişafı nəticəsində imperiya daxilində mərkəzdənqaçma qüvvələrinin güclənməsi idi [6, s. 9]. Bu isə o deməkdir ki, ölkə əhalisinin kənd təsərrüfatı ilə məşğul olan əsas hissəsi və iri torpaq sahələrini əldə edən qüvvələr artıq hakim təbəqəyə tabe olmur və öz müstəqil siyasi-iqtisadi gücə malik olduqlarını iddia edirdilər.

Osmanlı hakimiyyəti dövründə də (1724-1736) Azərbaycanda, o cümlədən də Naxçıvan diyarında torpaq mülkiyyət formasında elə bir ciddi dəyişiklik baş verməmişdi. Həmin dövrdə divan və xass torpaqları ümumi dövlət torpaqları adı altında birləşdirilmişdi. Lakin Osmanlı

hakimiyyətini dəstəkləyən torpaq sahiblərinin mülkiyyət hüququna toxunulmurdu. XVIII əsrin əvvəllərində Osmanlıların ələ keçirdikləri ərazilərdə hərbi lenlər – timar və zəamət (Zəamət - İllik gəliri 20 mindən 99.999 ağçaya qədər olan torpaq sahibliyi) torpaqları da paylanırdı ki, bunların sahibləri sipahi adlanırdı. Divani və xass torpaqları vahid miri torpaqları kateqoriyasına daxil edilmişdi. Osmanlı hakimiyyətinə loyal münasibət bəsləyən mülkədar və tiyuldarların mülkiyyət hüququna toxunulmurdu. İtaətsizlik göstərənlərin torpaqları isə müsadirə olunub Osmanlı döyüşçülərinə paylanır, yaxud satılırdı [3, s. 371].

Naxçıvan sancağında əkin üçün yararlı torpaqların və eyni zamanda digər obyektlərin gəlirləri, illik gəlirinin həcmindən asılı olaraq "xass", (hərbi və mülki xidmətdə olan dövlətin yüksək vəzifəli şəxslərinə verilən torpaq sahibliyi) [8, s. 23] "zəamət" (Zəamət – İllik gəliri 20 mindən 99.999 ağçaya qədər olan torpaq sahibliyi) [8, s. 22] və "timar" (Tımar sistemi ilə dövlət bəzi məmurlarına və əsgərlərinə maaş verməz bunun yerinə bəzı torpaqların gəlirlərini xidmətlərinə qarşılıq olaraq verirdi) şəklində sultan, bəylərbəyilər, sancaqbəyilər, hərbçilər və digər əyalət məmurları arasında bölüşdürülmüşdü. Bu dövrdə Naxçıvan sancağında 135 zəamət və 543 timar qeydə alınmışdır [8, s. 18] Səfəvilər dövləti tənəzzül etdikdən sonra, Osmanlı idarəçiliyi və həmçinin xanlıqlar dövründə Azərbaycanda vahid siyasi hakimiyyət olmadığından vahid torpaq fondu da yox idi.

Bəhs olunan dövrdə dövlətin əsas torpaq mülkiyyətinə məxsus torpaqlar xəzinə torpaqları idi ki, belə torpaq mülkiyyətlərindən biri divani torpaqları idi. Belə torpaqlardan əldə edilən gəlirlər dövlət xəzinəsinə daxil olur və dövlət aparatının, ordunun saxlanılmasına, müxtəlif dövlət əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə məsrəf edilirdi. Dövlətə məxsus olaraq bu torpaqlar hərbi yürüşlər nəticəsində yeni ərazilərin ələ keçirilməsi hesabına, habelə cəzalandırılan feodalların mülklərinin ələ keçirilməsi yolu ilə də genişlənirdi.

Divanidən başqa dövlətə məxsus əsas torpaq mülkiyyət formalarından biri də xass torpaqlar idi. Hələ XI-XII əsrlərdən meydana gələn xass (tac) torpaq sahibliyi forması spesifik xüsusiyyətlərə malik idi. Səltənət başçılarının şəxsi mülkiyyətində olan bu torpaqlardan əldə edilən gəlirlər yalnız xanədanın ehtiyaclarına sərf olunur, digər məqsədlər üçün istifadə edilməsi qadağan edilirdi [4, s. 21]. Xass torpaqlarının miqdarı ayrı-ayrı hökmdarların siyasətindən, ələlxüsus iqtisadi siyasətindən asılı olaraq dəyişirdi. Nadir şahın hakimiyyəti dövründə xalisələrin həcmi əsasən vəqf və qismən mülk torpaqlarının müsadirə edilməsi hesabına hədsiz dərəcədə genişləndirilmişdi [4, s. 30].

Tədqiqatçıların verdiyi məlumatlardan aydın olur ki, divani ilə yanaşı xass torpaqları da birbaşa şahın özünə məxsus idi. İ.P.Petruşevski göstərir ki, divani və xass dövlətin böyük torpaq fondunu təşkil edirdi ki, həmin torpaqlar da şahın sərəncamında idi [12, s. 78]. XVIII əsrin ikinci yarısından Azərbaycan xanlıqlarında dövlət torpaqları tədricən əvvəlki əhəmiyyətini itirərək bir növ xanın şəxsi mülkiyyətinə çevrilmişdi. İ.P.Petruşevski Azərbaycanda feodal münasibətlərini öyrənərək belə qənaətə gəlmişdir ki, XVIII əsrin ikinci yarısında dövlət torpaqları ilə xan ailəsinin torpaqları birləşdirilib vəhdət təşkil etmiş və beləliklə də "... şəxsi torpaq sahibliyi divan torpaqları hesabına artmışdır" [12, s. 34]. Bu torpaqlar xanın və xan ailəsi üzvlərinin varlanmasına şərait yaradırdı. Əksər hallarda divan torpaqları xanın razılığı ilə hər hansı şəxsə bu və ya digər xidmətinə görə tiyul hüququnda istifadəyə verilirdi. Lakin müstəqil Azərbaycan xanlıqlarının meydana gəlməsilə dövlət torpaqları xan ailəsinə mənsub torpaqlarla birləşdirilmiş və "xan torpaqları" adlandırılmışdı. Bu torpaqlardan əldə olunan gəlirlər isə xan ailəsinin ehtiyaclarına sərf edilmişdir. Azərbaycanın digər xanları kimi, Naxçıvan xanları da bu torpaqlara istədikləri kimi sərəncam

vermək hüququna malik idilər [7, s. 58]. Xanlar ən iri torpaq sahibləri olmaqla bərabər, həm də suvarma şəbəkələrinin, meyvə bağlarının, üzümlüklərin, su dəyirmanlarının, dükanların və digər daşınmaz əmlakın mülkiyyətçisi kimi də böyük həcmdə gəlir götürürdülər [10, s. 185].

Feodallara və ayrı-ayrı şəxslərə məxsus olan torpaqlar isə mülk adlanırdı. Mülk torpaq sahibliyinin ən mühüm cəhəti sahibkarın həmin torpaqla bağlı hər cür hüquqi əməliyyat aparması idi. Mülklər irsən keçən, satıla, bağışlanıla və digər formada özgəninkiləşdirilə bilərdi. Mülk böyük və ya kiçik ərazini əhatə edən və burada sakin olan kəndlilərlə birlikdə satıla bilən və nəslə keçən torpaq üzərindəki xüsusi mülkiyyətin bir növü idi. Mülk torpaq sahələri çox kiçik sahələri əhatə etdiyi kimi, çox böyük sahəni də əhatə edə bilirdi. Bu torpaq sahibliyinə mənsub olan şəxslər, yəni mülk sahibləri malik və ya mülkədar adlandırılırdı. Maliklər öz əmlakı üzərində tam sərəncam vermə hüququna sahib idilər, yəni onu sata, bağışlaya, dəyişdirə, girov qoya və ianəyə verə bilərdilər. Bu torpaqlardan əldə edilən natural renta mülk sahibinə məxsus idisə də, onlar dövlət xəzinəsinə müxtəlif adlar altında müəyyən edilmiş vergiləri ödəməyə məcbur idilər [2, s. 625] Naxçivan xanlığının İran-Qacar dövlətinin hakimiyyəti altında olduğu 1797-1827-ci illərdə mülk torpaqlarının xarakterində müəyyən dəyişikliklər baş vermişdi. Bu dəyişikliyin kökündə Qacar hökumətinin iri torpaq sahibi olan yerli feodalların mövqelərininin zəiflədilməsi siyasəti dayanırdı. Belə feodalların güclənərək mərkəzi hakimiyyətə qarşı çıxacaqlarından ehtiyat edən Qacar hökuməti onların torpaq üzərində mülkiyyət və bu torpaqdan gəlir əldə etmək hüquqlarını xeyli dərəcədə məhdudlaşdırmışdı. İ.Şopenin verdiyi məlumatdan aydın olur ki, bəhs edilən dövrdə mülkədar özünü ona mülk şəklində verilmiş hər hansı bir kəndin, torpağın və yaxud onların sakinlərinin sahibi hesab edə bilməzdi, sadəcə olaraq onlardan əldə edilən gəlirin payçılarından biri hesab edilirdi. Mülkədarın özünəməxsus mülk torpaqlarından əldə etdiyi gəlirin həcmi isə toplanmış məhsulun cəmisi 1/10 hissəsini təşkil edirdi [13, s. 927]. R.Məmmədov qeyd edir ki, Naxçıvanda şəhər feodallarının əsas torpaq sahələri mülk kateqoriyasına daxil idi. Mülk sərbəst surətdə nəsildən-nəslə keçir, satılır, vəqfə verilir və dəyişdirlirdi. Bütöv kəndlər, ayrı-ayrı torpaq sahələri, suvarma mənbələri, dəyirmanlar, evlər, dükanlar və s. mülki ola bilirdi [5, s. 115]. XIX əsrin başlanğıcında Azərbaycanda əkinə yararlı torpaq fondunun, eləcə də otlaqların əhəmiyyətli hissəsi hakim sülaləyə çevrilmiş xanların ixtiyarında idi. 1827-ci ildə işğal edilmiş İrəvan və Naxçıvan xanlıqlarının yerində təşkil olunan "Erməni vilayəti"ndə yerli azərbaycanlı feodalların torpaq mülkiyyəti ilə bağlı çarizmin tədbirləri də yarımçıq və qeyri-ardıcıl idi. Qafqazdakı rus qoşunlarının komandanı general İ.F.Paskeviçin 15 may 1828-ci il tarixli sərəncamı ilə xanlıqlar dövründə torpaq və kəndlər üzərində sahiblik hüququ haqqında verilmiş sənədlərin toplanmasına başlandı. Lakin vilayət idarəsində toplanmış bu sənədlər əsasında yerli bəylərin torpaq sahibliyi hüququnu təsdiq edən hər hansı bir qərar qəbul edilmədi. Bəylərə keçmiş Naxçıvan və İrəvan xanları dövründə bağışlanmış torpaq və kəndlər onların irsi mülkiyyəti deyil, xəzinənin əmlakı elan edildi, bəylər isə həmin kəndlərin "müvəqqəti icaraçisi" hüququ aldılar [10, s. 85].

Rusiya hakimiyyət nümayəndələri bu yeni müstəmləkə əsarətinə saldıqları diyarda əsas sərvət mənbələrini ələ keçirməklə yanaşı, özünə sosial dayaq yaratmaq məqsədilə yerli feodal zümrəsinin mülkiyyət hüququnu, digər hüquq və imtiyazlarını qaydaya salmaq istiqamətində də addımlar atırdı. Rusiyanın Şimali Azərbaycanda işğallara başlaması sosial-iqtisadi həyatın bütün sahələrində, xüsusən də torpaq sahibliyi, vergi və mükəlləfiyyətlərin ödənməsi və miqdarı ilə bağlı məsələlərdə çox ciddi dəyişikliklərə səbəb olmuşdu. Bu, ilk növbədə divan,

xan ailəsi, çarizmə qarşı mübarizə aparan hakim zümrənin digər nümayəndələrinin torpaqlarının və digər əmlakının müsadirəsi və xəzinənin ixtiyarına keçirilməsində özünü aydın şəkildə göstərirdi.

Torpaq mülkiyyət növlərindən biri də tiyul torpaqları idi. XVIII əsrin ikinci yarısında şərti torpaq mülkiyyət forması kimi tiyul geniş yayılmışdı. Tiyul torpaqları da hüquqi baxımdan, həm də, soyurqalların bir qədər başqalaşmış formasını özündə ehtiva edirdi. Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Naxçıvan və İrəvan xanlıqlarında tiyulun iki növü daha çox yayılmışdı. Bunlardan biri hərbi xidmətə görə dövlət torpaqları hesabına yaradılırdı. Tiyulun digər növünü Qacar hakimləri iri feodalların mövqelərini zəiflətmək üçün yaradırdılar. Tiyul sahibi olan şəxs və ya tiyuldar ona verilən torpaqlardan toplanan vergilərin yiyəsi idi və götürdüyü məhsulun müəyyən hissəsini xəzinəyə göndərməli idi [9, s. 169]. Daha doğrusu, sərdarın sərəncamı ilə iri torpaq sahiblərinin mülk torpaqlarına sərəncam vermək hüququ müəyyən müddətə onların əllərindən alınırdı. Belə feodallara adətən digər ərazilərdə yerləşən bir neçə kənddən tiyul hüququ ilə vergi toplamağa icazə verilirdi [13, s. 929; 7, s. 60].

Naxçıvan xanlığında tiyulun özünə məxsus xüsusiyyətləri da var idi. Tiyulları olan şəxslər məhsulun 3,5 hissəsindən artığından istifadə edə bilməzdilər, evlərdən, mal-qaradan gələn gəlir isə xəzinənin sərəncamına keçirdi. Tiyuldarların Naxçıvan xanlığı üzrə götürdükləri gəlir barəsində başqa sənədlərdə də məlumat vardır. Naxçıvan xanlığında tiyul kimi təkcə kəndlər, torpaq sahəsi, qışlaqlar, yaylaqlar və s. deyil, şəhərin özündə olan torpaqlar da verilirdi. Bir çox Naxçıvan tiyuldarı öz tiyullarını şahzadə Abbas Mirzədən almışdı. Məsələn, XVIII əsrin lap sonlarında xan 24 bəyə 24 kənd, həmçinin, onların bəzisinə "taxıl əkini torpaqları" bağışlamışdı [1, s. 194]. Xidmət müqabilində verilən tiyul torpaqları Naxçıvan diyarında olan ümumi torpaq fondunun xeyli hissəsini təşkil edirdi. Əldə olunan materiallar göstərir ki, tiyul torpaqları daha çox dövlət torpaqları hesabına müvəqqəti yaradılırdı. Və elə buna görə də tiyul sahibinin – tiyuldarın onu satmaq, bağışlamaq hüququ yox idi. Belə torpaqlar yalnız o vaxt irsən keçə bilərdi ki, tiyul sahibinin tutduğu vəzifə atadan oğula keçmiş olsun [13, s. 92].

Qacarların hakimiyyəti dövründə Naxçıvan xanlığında tiyul torpaqlarının yaranma qaydası haqqında məlumat verən İ.Şopen yazırdı ki, ümumiyyətlə xidmət müqabilində hər hansı bir kəndin mülk sahibi əlahiddə qəhramanlıq göstərdikdə, həmin kəndin tiyulu ilə mükafatlandırılırdı. Lakin elə hallar da olurdu ki, sərdar hər hansı kəndin gəlirinin dövlət xəzinəsinə aid hissəsini öz məmurlarından birinə tiyul edir, eyni zamanda oranın mülkədarı tamam başqa adam olurdu [13, s. 928]. İ.Şopenin verdiyi bu məlumatdan belə nəticəyə gəlmək olur ki, Qacarların hakimiyyəti dövründə tiyul torpaqları yalnız dövlət torpaqları hesabına deyil, həm də mülk torpaqları hesabına yaradılırdı [7, s. 59].

Tarixi ədəbiyyatların verdiyi məlumatlara görə XVIII-XIX əsrlər dövrü əvvəlki torpaq mülkiyyət formalarının demək olar ki, hamısı olmuşdur. Lakin XVIII əsrdə soyurqal torpaq sahibliyi, həmin yüzilin sonu və XIX əsrin əvvəllərində isə şərti səciyyə daşıyan tiyul torpaq sahibliyi bir əmlak növü kimi aradan qaldırılmışdı [2, s. 625-626]. Türkmənçay müqaviləsindən sonra Çar hökuməti ermənilər Azərbaycan torpaqlarında yerləşdirmək məqsədilə tiyul torpaqlarını ləğv etmiş və həmin topaqlara ermənilər köçürmüşdür. Bunun üçün Baş komandan Paskeviçin 14 may 1828, 25 yanvar 1829-cu il əmri ilə bəylərin bu növ torpaqları yoxlanılmağa başlanılmış və sahiblik təliqələri təsdiq olunmayan torpaqlar alınıb xəzinəyə verilmişdi. Həmçinin 25 dekabr 1828-ci il sərəncamı ilə Naxçıvan və Ordubadın tiyul torpaqlarının ləğv edilməsi haqında qərar verilmişdi [2, s. 634].

Torpaq sahibliyi formalarından biri də vəqf adlanan və dini təsisatlar üçün ayrılan torpaq mülkiyyəti idi. Ruhani və xeyriyyə təşkilatlarının, məscidlərin ixtiyarında olan bu torpaq sahələrindən əldə edilən gəlirlər dini vəzifəli şəxslərin saxlanmasına, məscidlərin, mədrəsələrin, ruhani idarələrinin ehtiyaclarına və ictimai təyinatlı binaların, tikililərin inşa edilməsinə məsrəf edilirdi. Torpaq sahələri ilə yanaşı, dəyirmanlar, mədən yerləri, malikanələr, meşələr, otlaqlar və mədaxil verən hər bir müəssisə vəqf edilə bilərdi [4, s. 25].

Müsəlman məscidlərinə və digər dini idarələrə məxsus vəqf torpaqları ilə yanaşı, evlər, dükanlar, karvansaralar da vəqf ola bilərdi. Vəqf xan xəzinəsinə verilən vergi və mükəlləfiyyətlərdən azad idi. Səfəvilər dövründə geniş yayılmış vəqf torpaq mülkiyyətini Nadir şah hakimiyyət başına gəldikdən sonra (1736) xeyli məhdudlaşdı. Onun əmri ilə vəqf torpaqlarının xeyli hissəsi müsadirə olunub dövlət torpaqlarına qatıldı [3, s. 362].

Dövlət tərəfindən kənd icmalarına ümumi istifadə hüquqları ilə verilən və kənd icmalarının ixtiyarında olan torpaqlara icma və yaxud "camaat" torpaqları deyilirdi. "Camaat" torpaqlarına bəzən əkin yerləri, otlaq, meşə, bataqlıq və sair torpaq sahələri də daxil olurdu. Belə torpaqlar dövlətin xüsusi mülkiyyəti hesab olunurdu. Kəndlilər icma halında istifadə etdikləri bu torpaq sahələrindən xərac vergisini dövlətə birlikdə verirdilər.

Beləliklə, bəhs edilən dövrdə müxtəlif torpaq mülkiyyət formalarının mövcud olmasına baxmayaraq, həmin torpaq mülklərindən daha çox hakim təbəqənin nümayəndələri yararlanırdılar. Sadə kənd icmaları bu torpaqlar üçün müəyyən edilmiş ağır vergiləri verə bilmədiyi üçün dövlət kəndliləri içərisində təbəqələşmə sürətlənirdi, torpaq sahələrinin əhəmiyyətli bir hissəsinin varlı kəndlilərin – qolçomaqlarm əlində cəmləşməsi baş verirdi.

ƏDƏBİYYAT

1. Ağamalı F. XVIII əsrin II yarısı-XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarında sosial-iqtisadi münasibətlər. Dərs vəsaiti, Bakı: Bakı Universiteti, 2007, 280 s.
2. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər (S.Əliyarlının redaktəsi ilə). Bakı: Azərbaycan, 1996, 872 s.
3. Azərbaycan tarixi: 7 cilddə, III c. Bakı: Elm, 1999, 584 s.
4. İsmayılov X. XI-XIV əsrlərdə Azərbaycanda torpaq münasibətləri və vergi sisteminin bəzi cəhətləri. Bakı Universitetinin Xəbərləri, № 4, 2006, s. 20-33.
5. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
6. Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002¸ 372 s.
7. Muradov V. Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri). Bakı: Elm, 2017, 264 s.
8. Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H. Məmmədov. Bakı: Elm, 2001, 376 s.
9. Rəhimov Y. XIX əsrdə Naxçıvanda torpaq mülkiyyət formaları, vergi və mükəlləfiyyət. NDU-nun əsərləri, 2011, № (37), s 169-175.
10. Paşayev T. Azərbaycan tarixinin tədrisində tələbələrə iqtisadi biliklərin verilməsi yolları. Bakı: Mütərcim, 2008, 300 s.
11. Süleymanov N. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2006, 400 s.
12. Петрушевский И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград: Изд-во ЛГУ, 1949, 384 с.

13. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург: Типография императорской АН, 1852, 1231 с.

AMEA Naxçıvan Bölməsi
E-mail: hacyevasara@ yahoo.com

Sara Hajiyeva

LAND OWNERSHIP FORMS IN THE NAKHCHIVAN REGION IN XVIII-XIX CENTURIES

The paper deals with the land ownership forms existing in the Nakhichevan region in XVIII-XIX centuries. It was noted that during the reporting period there were five types of land ownership in the Nakhchivan region, with some exceptions. From the land ownership forms, almost all the representatives of the ruling class benefit more. However, despite this, villagers have had land plots. In spite of the difficulties of the period, ordinary people have provided their own lives with certain land plots that are owned by them.

Keywords: *Nakhchivan, land property, xass, tiyul, mülk, vaqf, camaat.*

Сара Гаджиева

ФОРМЫ СОБСТВЕННОСТИ НА ЗЕМЛЮ В НАХЧЫВАНСКОЙ ОБЛАСТИ В XVIII-XIX ВВ.

В статье рассматриваются формы собственности на землю, существовавшие в Нахичеванской области в XVIII-XIX вв. Было отмечено, что в течение отчетного периода в Нахчыванской области было пять видов собственности на землю, за некоторыми исключениями. От форм собственности на землю больше всего выигрывают все представители правящего класса. Однако, несмотря на это, у сельских жителей были земельные участки. Несмотря на трудности периода, обычные люди обеспечивали свою жизнь определенными земельными участками, которые принадлежали им.

Ключевые слова: *Нахчыван, земельная собственность, собственность, имущество, свойство, вакф, община.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 05.07.2019
Son variant 20.08.2019

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

UOT 902

VƏLİ BAXŞƏLİYEV

OVÇULARTƏPƏSİ MƏDƏNİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ (e.ə. 4400-4000)


Ovçulartəpəsi Şərur rayonunun ən mühüm Eneolit abidələrindən biridir. Son illər Naxçıvanda aparılan arxeoloji araşdırmalar, xüsusilə Naxçıvantəpə yaşayış yerinin tədqiqi Naxıvanın Eneolit abidələrininin, o cümlədən Ovçulartəpəsi yaşayış yerinin Cənubi Qafqaz və Azərbaycanın Eneolit abidələri arasındakı yerini müəyyən etməyə imkan vermişdir. Araşdırmalara əsasən demək olar ki, Ovçulartəpəsi mədəniyyəti Orta Eneolit dövrü mədəniyyətinin müəyyən xüsusiyyətlərini əks etdirir. Qabların xarici səthinin və daxilinin daraqşəkilli alətlə naxışlanması, relyef kəmər üzərindən vurulan barmaq basmaları, daraq basmaları və məməciklərlə naxışlama bu tip xüsusiyyətlərdən sayıla bilər. Lakin Ovçulartəpəsi mədəniyyətinin keramikası inkişaf edərək həm forma baxımından, həm də qabların naxışlanması baxımından yeni xüsusiyyətlər də qazanmışdır. Son Eneolit dövrünün Ovçulartəpəsindən sonraya aid mərhələsi Sirabçay vadisində aparılan araşdırmalar zamanı aşkar olunmuşdur. Keramika məmulatının təhlili və karbon analizlər Ovçulartəpəsinin Son Eneolit dövrünün erkən mərhələsinə aid olduğunu təsdiq edir.

Açar sözlər: *Ovçulartəpəsi, Naxçıvantəpə, Orta Eneolit, Son Eneolit, keramika.*

Ovçulartəpəsi Şərur rayonunun ən mühüm Eneolit abidələrindən biridir. Son illər Naxçıvanda aparılan arxeoloji araşdırmalar, xüsusilə Naxçıvantəpə yaşayış yerinin tədqiqi Naxçıvanın Eneolit abidələrinin, o cümlədən Ovçulartəpəsi yaşayış yerinin Cənubi Qafqaz və Azərbaycanın Eneolit abidələri arasındakı yerini müəyyən etməyə imkan vermişdir.

Ovçulartəpəsində aparılan araşdırmalar burada insanların e.ə. V minilliyin ortalarından başlayaraq məskunlaşdığını göstərmişdir. Şərur rayonunda Arpaçay vadisində yerləşən Ovçulartəpəsi yaşayış yerinin araşdırılması (2006-2013) qədim insanların bu dövrə aid iqtisadiyyatı və mədəniyyəti haqqında ətraflı məlumat əldə etməyə imkan verir (10, s. 53-100). Arxeoloji qazıntılar zamanı Eneolit dövrünə aid bir-birindən fərqli iki tikinti qatı aşkar edilmişdir. Birinci tikinti qatı üçün yarımqazma tipli evlər xarakterikdir. Bu tip evlər təpənin yamacı düzəldildikdən sonra 20-40 sm dərinlikdə xam torpaqda qazılan evlərdən ibarətdir. Bu tip evlərin yalnız döşəməsi və bir qisminin qalığı aşkar olunduğu üçün onların yerüstü hissəsinin necə olması haqqında kifayət qədər fakt yoxdur. Ehtimal ki, bu tip evlərin yuxarı hissəsi yüngül konstruksiyalı olmuş, palçıqla suvanmış şüvüllə inşa edilmişdir. Evlərin içərisində divara birləşik ocaq yeri və təsərrüfat quyusu aşkar olunmuşdur. Ovçulartəpəsinin torpağı qumsal olduğundan təsərrüfat quyuları 1,5-2 m dərinlikdə qazıldıqdan sonra, iç tərəfdən bir sıra çay daşları ilə hörülərək divarlara möhkəmlik verilmiş, sonra isə daş hörgü qalın suvaq qatı ilə suvanmışdır. Təsərrüfat quyularından müxtəlif gil qab və əmək alətləri aşkar edilmişdir. Evlərin döşəməsi qatqısı olmayan qalın gil təbəqə ilə suvanmışdır. Döşəmənin üzərində müxtəlif tipli sümük bizlər və keramika parçaları aşkar olunmuşdur. Ovçulartəpəsinin Eneolit dövrünə aid ilk tikinti qatını karbon analizlər əsasında (C 14) e.ə. 4350-4200-cü illərə aid etmək olar (9, s. 48). Ovçulartəpəsi keramikasının Fəratın yuxarı axarlarında yer alan Korucutəpə, Norşuntəpə, Tülintəpə kimi yaşayış yerlərinin keramikası ilə müqayisəli təhlili də bu tarixin doğru olduğunu göstərir (9, s. 31-87).

Ovçulartəpəsində e.ə. V minilliyin sonuna, e.ə. 4200-4000-ci illərə aid edilən ikinci tikinti qatındakı evlər daş təməl üzərində kərpiclə inşa edilmişdir (9, s. 38-43, şəkil 5). Evlərin bir qismi təpənin yamacında yerləşdiyindən torpaq axıntısının qarşısını almaq məqsədilə dəstək divarlar inşa edilmişdir. Evlər həmin divarlara birləşik şəkildədir. Daha doğrusu evlərin divarlarından biri dəstək divarlardan ibarətdir. Dördkünc tipli arxitektura hər iki tikinti qatı üçün xarakterikdir. Bu mərhələyə aid olan evlər başlıca olaraq çoxotaqlıdır. 2011-ci ilin araşdırmaları zamanı bəlli olmuşdur ki, bu mərhələyə aid evlər geniş həyət ətrafında yerləşən təsərrüfat komplekslərindən ibarət olmuşdur. Həyətdə anbarlar, ocaqlar, iş yerləri, təsərrüfatla bağlı digər maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. İkinci mərhələyə aid evlərin arxitekturası birincidən daha mükəmməldir. Ovçulartəpəsinin dördkünc formalı arxitekturası Cənubi Qafqazın, o cümlədən Naxçıvanın Neolit dövrünə aid dairəvi formalı evlərindən tamamilə fərqlidir. Ovçulartəpəsindəki evlərin memarlığı Azərbaycanın və Şərqi Anadolunun Son Eneolit dövrünə aid yaşayış yerlərindən aşkar olunan memarlıq qalıqları ilə uyğundur. Ovçulartəpəsinin Son Eneolit memarlığı ilə yaxın bənzərlik göstərən evlər Leylatəpə yaşayış yerindən aşkar olunmuşdur (9, s. 45).




Şəkil 1. Qabartma və darama naxışlı keramika (Ovçulartəpəsi).

Arxeoloji araşdırmalar Ovçulartəpəsi sakinlərinin iqtisadiyyatın müxtəlif sahələri ilə məşğul olduğunu göstərir. Əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq olmuş, buna uyğun olaraq iqtisadiyyatın digər sahələri dulusçuluq, metallurgiya, daşişləmə və digər sənət sahələri inkişaf etmişdir. İqtisadiyyatın əsas sahələrindən birini təşkil edən heyvandarlıqda xırdabuynuzlu heyvanlara (ovi-caprids) əsas yer verilmişdir. Şübhəsiz ki, bu Ovçulartəpəsi sakinlərinin həyat tərzi, köçmə maldarlıqla məşğul olması ilə bağlı olmuşdur. Heyvandarlıqda iribuynuzlu mal (Bos taurus) və ovçuluğa da müəyyən yer verilmişdir. Yabanı heyvanlar dağ keçisi və qırmızı maral ilə təmsil olunmuşdur. Ovçulartəpəsi yaşayış yerinin tədqiqi heyvanın təzəyindən ocaq və sobalarda yanacaq kimi də istifadə olunduğunu göstərir.

Əkinçilikdə daha tez yetişən arpaya üstünlük verilmişdir ki, bu da, ehtimal ki, insanların həyat tərzi ilə bağlı olmuşdur. Taxıl dənləri arpa (Hordeum) və az miqdarda buğda (Triticum)

ilə təmsil olunmuşdur. G. Willcoxun araşdırmaları taxıl məhsullarının yerli istehsala aid olduğunu təsdiq etmişdir. Çöl noxudu dənlərinin tapılması insanların yığıcılığa da müəyyən üstünlük verdiyini göstərir. Ovçulartəpəsinin çay kənarında yerləşməsi balıqçılığın inkişafına da müəyyən şərait yaratmışdır. Yaşayış yerindən aşkar olunan balıq sümükləri və tunc qarmaqlar da bunu təsdiq edir.

Ovçulartəpəsində müxtəlif daş cinslərindən və sümükdən hazırlanmış əmək alətlərinə rastlanır. Onların bir qrupu bazaltdan hazırlanmış həvəng və dəstələrdən ibarətdir. Qeyd etmək lazımdır ki, yaşayış yerində olduqca böyük ərazidə qazıntı aparılmasına baxmayaraq bu tip alətlər azdır. Əmək alətlərinin böyük qismi obsidian və çaxmaqdaşından hazırlanmış oraq dişlərindən ibarətdir. Bunlar arasında obsidiandan hazırlananlar üstünlük təşkil edir. Nukleusların az aşkar olunmasına baxmayaraq obsidian alətlərin olduqca müxtəlif tiplərinə rastlanmışdır. Oraq dişi, bıçaq və qaşovlar obsidian alətlərin geniş yayılmış tipləridir. Əmək alətlərinin hazırlanması üçün obsidian bir qədər uzaq məsafədən gətirilmişdir. Obsidian alətlərin analizi onların böyük qisminin Göyəm dağlarından gətirildiyini göstərir. Göyəm və onun ətrafındakı dağlar Naxçıvanda yaşayan əhalinin yaylaqları kimi son zamanlaradək istifadə olunmaqda idi. Odur ki, köçmə maldarlıqla məşğul olan Ovçulartəpəsi sakinlərinin Göyəm obsidianından istifadə etməsi tamamilə təbiidir. Ovçulartəpəsi obsidianları arasında Göyçə 74%, Zəngəzur 13%, Meydandağ 4%-dir. Şübhəsiz ki, bu, Ovçulartəpəsi sakinlərinin uzaq ərazilərlə iqtisadi-mədəni əlaqələrini göstərir.




Şəkil 2. Relyef kəmər üzərindən barmaq basqısı ilə naxışlanmış keramika (Ovçulartəpəsi).

İqtisadiyyatın əsas sahələrindən biri metallurgiya və metalişləmə olmuşdur. Ovçular təpəsindən körük ucluğu, xeyli metal əşya və 200-dən artıq metal əşya parçası aşkar olunmuşdur ki, bu da metalişləmənin geniş inkişaf etdiyini, metallurqların ikitərəfli və birtərəfli

qəliblərdə tökmə üsulunu mənimsədiyini göstərir. Ovçulartəpəsindən aşkar olunan metal əşyaların bir qismi mis-arsen qarışığından hazırlanmışdır.


Araşdırmalar Naxçıvanın (12, s. 16-29) və onun şimal sərhəddində yerləşən Zəngəzur dağlarının mis mədənləri ilə zəngin olduğunu göstərmişdir (13, s. 7-216). Məlum olduğu kimi, Eneolit dövründə Cənubi Qafqazda arsen (As) qarışığı olan misdən istifadə olunmuşdur (16, s. 57). İ.R.Səlimxanovun fikrinə görə arsen qədim metalların tərkibinə süni yolla qatılmışdır (17, s. 92). Cənubi Qafqazda ən zəngin arsen filizi mədənləri Naxçıvanda Culfa rayonu ərazisində yerləşən Darıdağdadır. İ.R.Səlimxanov Darıdağ filizinin Naxçıvan və Cənubi Qafqazın arsen qarışıqlı mis əşyalarının hazırlanmasında istifadə olunduğunu qeyd etmişdir (16, s. 57). Araşdırmalar Eneolit dövründə Naxçıvanda yerləşən mis mədənlərinin istifadə olunduğunu göstərmişdir (12, s. 77-81). Naxçıvanın Eneolit yaşayış yerlərindən aşkar olunan metal əşyaların və Naxçıvandakı mis filizi yataqlarından alınan nümunələrin analizi metal əşyaların hazırlanmasında yerli xammaldan istifadə olunduğunu göstərir (6, s. 530-550).



Şəkil 3. Sadə və darama naxışlı keramika (Ovçulartəpəsi).

Ovçulartəpəsi yaşayış yerində arxeoloji materialların əksəriyyəti keramika məmulatından ibarətdir (şəkil 1-3). Keramika məmulatı həm yaşayış yerinin dövrləşdirilməsi, həm də onun mədəni mənsubiyyətinin müəyyənləşdirilməsi üçün əhəmiyyətlidir. Ovçulartəpəsindəki gil qabların böyük bir qismi saman qarışıq olub, qırmızı rəngin müxtəlif tonlarında bişirilmişdir. Keramika məmulatı sadə, qabarıq gövdəli çanaqlar, çölməklər və küpələrdən ibarətdir (9, s. 48-54). Qablar məməciklər, daraqşəkilli alət, relyef kəmər üzərindən çərtmə və barmaq basqıları ilə naxışlanmışdır. Boya bəzəməli keramika azdır. Onlar başlıca olaraq qabların kirəmiti üzərinə qəhvəyi, ya da qara rənglə çəkilən naxışlardan ibarətdir. Keramika məmulatının az bir qisminin ağız kənarı yuvarlaq dəliklərlə naxışlanmışdır.

Yarımqazma evlərlə bağlı olan gil qablar başlıca olaraq sarı və boz rəngli, saman üzlü və saman qarışıqlı olub, saman üzlü effekt yaradır. Qabların səthi daraqlanmışdır. Gil qablar sırasına sadə kasalardan tutmuş böyük küpələrədək məməcikşəkilli çıxıntı, yaxud relyef halqaşəkilli ornamentlə naxışlanmış müxtəlif qablar daxildir. Yeddinci və səkkizinci kvadratlardan aşkar olunmuş bəzi kasalar xüsusilə maraqlıdır, onlar qaba qravürlərlə, başlıca olaraq iki "V" rəsmini xatırladan ornanentlə naxışlanmışlar. Ehtimal ki, onlar ustanın damğasını göstərir. Əldə olan faktlardan görünür ki, Ovçulartəpəsində Eneolit dövrünün erkən mərhələsində məməcikşəkilli çıxıntılarla bəzəmə məhdud olmuşdur (şəkil 1). Erkən mərhələ üçün xarakterik olan formalardan biri də darboğazlı üçqulplu küpələrdir. Onların biri 8-ci kvadratda yarımbasdırılmış vəziyyətdə aşkar olunmuşdur. İkinci yarımbasdırılmış küpə də 8-ci kvadratda evin döşəməsində (8052) sivri oturacağı olan digər küpə ilə birlikdə aşkar olunmuşdur. Kiçik həcmli küpənin ağzının kənarı beşdişli daraqla çəkilmiş maili ornamentlə naxışlanmışdır.



Şəkil 4. Keçi təsvirləri ilə naxışlanmış keramika (Ovçulartəpəsi).

Birinci mərhələyə aid iri həcmli küpələrin biri yuxarıda qeyd etdiyimiz kimi çevrə boyunca relyef keçi rəsmləri ilə bəzədilmişdir. Küpənin çiyni boyunca təsvir olunan keçilər bir yerdə üz-üzə durmuş vəziyyətdədir. Bu küplərin bəzi nümunələri yarımqazma tipli evlərin döşəməsinə basdırılmış şəkildə aşkar olunmuşdur. Bu tip təsvirlərin ikinci tikinti dövrünə aid çoxotaqlı evlərdən də aşkar edilməsi onlar arasında varisliyin olduğunu göstərir. Qeyd etmək lazımdır ki, Cənubi Qafqaz və Yaxın Şərqdə bu təsvirlərin yaxın bənzərlərinə rastlanmamışdır. Mesopotamiyanın bəzi abidələrində qarşı-qarşıya duran keçi rəsmlərinə rastlansa da onlar ikonoqrafik baxımdan xeyli fərqlidir. Üzəri qabartma keçi rəsmləri ilə naxışlanmış küplər sənətkarlıq baxımından olduqca diqqətəlayiqdir (şəkil 4). Bu küplərin paralelləri hələlik bəlli

deyil. Küplərin üzərində qarşı-qarşıya duran və çevrə boyunca yerləşdirilən keçi rəsimləri bir yandan Ön Asiya motivlərini, digər yandan isə Maykop mədəniyyətinin rəsmlərini xatırladır (10, s. 60-88, foto 4, tab. II).

Ovçulartəpəsinin çoxotaqlı kərpic tikintilər dövrünə aid olan gil qabları daha əvvəlki dövrün, yarımqazma tikintilər dövrünün keramikası ilə yaxından bağlıdır. Eneolit dövrünün əvvəlində olduğu kimi gil qabların hamısı sarı rəngli, saman qarışıqlı və saman üzlüdür. Keramika məmulatı başlıca olaraq sadə qabarıq kasalar, çölməklər və küpələrdən ibarət olub çiyin hissədə daraq və barmaq basqısı ilə naxışlanmış, halqavarı relyef çənbərlə əhatə edilmişdir (şəkil 2, 1, 4). Onlar erkən mərhələdə rastlanan daraqlanmış keramika, krem və qırmızı rəngli cilalanmış keramika ilə birlikdə aşkar edilmişdir. Lakin üç qulplu, darboğazlı küpələr aradan çıxır, belə küpələr kərpic tikintilər dövründən məlum deyil. Birinci kvadratda bütün tikinti dövrlərindən aşkar olunan keramika məmulatının araşdırılması göstərir ki, erkən və son mərhələnin keramikası arasında nəzərəçarpacaq dəyişiklik yoxdur. Əldə olan faktlar göstərir ki, qabların əksəriyyəti sivri ağız kənarlı sadə kasalardan yaxud ağız kənarı xaricə qatlanmış gen ağızlı küpələrdən ibarətdir. Halqaşəkilli relyef ornamentlə naxışlanmış və məməcikşəkilli çıxıntılarla naxışlanan qablar da vardır. Bu dövrə aid olan üzəri qabarıq keçi təsvirləri ilə naxışlanmış küpələr sənətkarlıq baxımından olduqca diqqətəlayiqdir. Onların regional paralelləri hələlik məlum deyil.

Ovçulartəpəsi yaşayış yerinin hər iki mərhələyə aid keramika məmulatında həm texnoloji, həm də morfoloji baxımdan heç bir kəsinti olmamış, keramika məmulatı ardıcıl inkişaf etmiş və eyni mədəniyyətə məxsus olmuşdur. Tədqiqatçılar bu mədəniyyəti Ovçulartəpəsi mədəniyyəti adlandırmışdır. Ovçulartəpəsinin saman qarışıq sarı, ya da qırmızı rənkli keramikası Cənubi Qafqaz və Naxçıvanda Neolit dövründən və Eneolit dövrünün erkən mərhələsindən məlumdur.

Nəhayət, etibarlı stratiqrafik kontekstləri olmayan, lakin mədəni əlaqələri və xronologiyanı müəyyən etmək üçün əhəmiyyətli olan bir neçə parçanı da xatırlamaq lazımdır. Saman qarışıqlı, üzərində damcışəkilli qara rəng izi olan miniatür kasanın paralelləri Urmiya hövzəsindən başlayaraq Şimali İraq və Yuxarı Fərat hövzəsinədək geniş ərazidə rastlanır. Faktiki olaraq Ovçulartəpəsinin gil qabları ilə yaxın paralellik təşkil edən abidələr Şərqi Anadoluda Norşuntəpə və Tülintəpədir. Ovçulartəpəsində aşkar olunan gil qabların forma və ornament tiplərinin əksəriyyəti Norşuntəpədən tapılmışdır. Ovçulartəpəsindən aşkar olunan boyalı qablar olduqca azdır. Lakin onlar texnoloji xüsusiyyətlərinə görə iki qrupa ayrılır. Birinci qrupdakılar birbaşa qabın hamarlanmış səthinə çəkilmiş, digərlərində isə boya naxış qırmızı rəng üzərindən çəkilmişdir. 2011-ci ildə aşkar olunan boyalı keramikanın Şimali Ubeyddən idxal olunduğu düşünülməkdədir.

Deyə bilərik ki, Naxçıvanın Eneolit keramikası saman qarışıqlı və qırmızı rənglidir. Bu tip keramika Arazın cənubunda, İranın şimal-qərbində və Urmiya hövzəsində yerləşən Azərbaycan abidələri üçün də xarakterikdir. İ.H.Nərimanovun fikrinə görə, qırmızı rəngli keramika yerli istehsalın məhsuludur (15, s. 163-164). Ovçulartəpəsində az miqdarda olsa da boyalı keramika tapılmışdır. 2011-ci ildə Ovçulartəpəsindən tapılan Ubeyd tipli keramika məmulatı Şimali Mesopotamiya ilə əlaqələrin olduğuna işarə etməkdədir (10, s. 76). Lakin keramika məmulatının əksəriyyəti və son illər Xələc, Şortəpə və Sirabçay abidələrindən tapılan Eneolit dövrünə aid boyalı keramika nümunələri boyalı qabların yerli istehsalının mənimsənildiyini göstərməkdədir (3, s. 28-39). Cənubi Azərbaycanın qədim yaşayış yerlərini araşdıran S.Krollun fikrinə görə, Neolit və Eneolit dövründə Azərbaycanın özünəməxsus mədəniyyətləri olsa

da, Son Eneolit dövründə Urmiya hövzəsi Ubeyd mədəniyyətinə aid xüsusiyyətlərin buraya yayılması ilə xarakterizə olunur (5, s. 71).

Arxeoloji materiallar arasında keramika məmulatı üstünlük təşkil etdiyindən Ovçulartəpəsi mədəniyyətinin dəyərləndirilməsi üçün olduqca əhəmiyyətlidir. Araşdırmalara əsasən demək olar ki, Ovçulartəpəsi mədəniyyəti Orta Eneolit dövrü mədəniyyətinin müəyyən xüsusiyyətlərini əks etdirir. Qabların xarici səthinin və daxilinin daraqşəkilli alətlə naxışlanması, relyef kəmər üzərindən vurulan barmaq basmaları, daraq basmaları və məməciklərlə naxışlama bu tip xüsusiyyətlərdən sayıla bilər. Lakin Ovçulartəpəsi mədəniyyətinin keramikası inkişaf edərək həm forma baxımından, həm də qabların naxışlanması baxımından yeni xüsusiyyətlər də qazanmışdır. Bu dövrdə qabların xarici səthinin daraqşəkilli alətlə naxışlanması geniş yayılmış, Son Eneolit dövrü üçün xarakterik olan yeni formalar ortaya çıxmış, qabların çeşidi xeyli artmışdır. Ovçulartəpəsinin keramikası Cənubi Qafqaz, o cümlədən Azərbaycanın Texut (14, s. 108), Sioni (4, s. 31), Arataşen (11, s. 67-73), Menteştəpə (7, s. 97-105) yaşayış yerlərinin keramikası ilə eyni dövrə aiddir. Ovçulartəpəsi keramikasının son mərhələsi Berikldeebi (8, s. 129, pl. IV), Böyük Kəsik (2, s. 59-96) kimi yaşayış yerlərinin keramikası ilə müəyyən bənzərliyə malikdir. Lakin Son Eneolit dövrünün Ovçulartəpəsindən sonraya aid mərhələsi Sirabçay vadisində aparılan araşdırmalar zamanı Zirincli, Yeniyol, Qələməbulaq, Şorsu və digər abidələrdən aşkar olunmuşdur. Bu abidələr arasında Yeniyol, Zirincli, Şorsu yaşayış yerləri geniş arxeoloji tədqiqatlarla öyrənilmiş və bu dövrə aid mədəniyyətin xarakterik cəhətləri müəyyənləşdirilmişdir.

ƏDƏBİYYAT

1. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi. Bakı: Elm, 2010, 156 s.
2. Müseyibli N. Böyük Kəsik. Eneolit dövrü yaşayış məskəni. Bakı: Nafta-Press, 2007, 228 s.
3. Bahşaliyev V. Late Chalcolithic Culture of Nakhchivan and Problems of Caucasian Archaeology / İnternational Symposium on East Anatolia South Caucasus Cultures. İnternational Symposium on East Anatolia-Sous Caucasus Cultur (10-13 October 2012). Ed. by Mehmet Işıklı and Birol Can. London. Cambridge Scholars Publishing, 2015, p. 28-39.
4. Connor S. and Sagona A., Environment and society in the late prehistory of southern Georgia, Caucasus // Les Cultures du Caucase (VI-III millenaires avant notre ere) Leurs Relations avec le Proche-Orient. Sus la direction Bertille Lyonnet. Paris: CNRS Editions, 2007, p. 21-36.
5. Kroll S. Der Kultepe bei Marand eine Chalkolithische siedlung in İranisch-Azarbaidjan // Archäologische Mitteilungen aus Iran, 1990, 23, p. 59-71.
6. Gailhard Nicolas, Michael Bode, Veli Bakhshaliyev, Andreas Hauptmann & Catherine Marro. “Archaeometallurgical Investigations in Nakhchivan, Azerbaijan: What Does the Evidence from Late Chalcolithic Ovçular Tepesi Tell Us about the Beginning of Extractive Metallurgy?” // Journal of Field Archaeology, 201742/6, p. 530-550.
7. Lyonnet B. and Guliyev F., Helwing B. and Aliyev T., Hansen S. and Mirtskhulava G. Ancient Kura 2010-2011: The first two seasons of joint field work in the Southern Caucasus // Archaologische Mitteilungen aus Iran und Turan, 2012, 44, p. 1-190.
8. Makharadze Z. “Nouvelles donnes sur le Chalcolithique en Georgie orientale”, Les Cul tures du Caucase (VI-IIIème millénaires avant notre ère). Leurs Relations avec le Proche-Orient / Sus la direction Bertille Lyonnet. Paris. CNRS Editions, 2007, p. 123-132.

9. Marro C., Bakhshaliyev V. and Ashurov S. Excavations at Ovçular Tepesi (Nakhchivan, Azerbaijan). First Preliminary Report the 2006-2008 seasons // Anatolia Antiqua, 2009, XVII: 31-87.
10. Marro C., Bakhshaliyev V. and Ashurov S. "Excavations at Ovçular Tepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: the 2009-2010 seasons" Anatolia Antiqua, 2011, XIX, p. 53-100.
11. Palumbi G.A. Preliminary Analysis on the Prehistoric Pottery from Aratashen (Armenia), Les Cultures du Caucase (VI-IIIème millénaires avant notre ère). Leurs Relations avec le Proche-Orient. Sus la direction Bertille Lyonnet. Paris. CNRS Edition, 2007, p. 63-76.
12. Бахшалиев В. Древняя металлургия и металлообработка на территории Нахчывани. Баку: Элм, 2005, 120 с.
13. Иессен А.А. К вопросу о древнейшей металлургии меди на Кавказе // Известия Государственной Академии Истории Материальной Культуры. Москва-Ленинград, 1935, 120, p. 7-216.
14. Мунчаев Р.М. Кавказ на заре бронзового века. Москва: Наука, 1975, 476 с.
15. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку: Элм, 1987, 260 с.
16. Селимханов И.Р. К истории развития металлообработки и горного дела в Азербайджане // Вестник АН СССР , 1958, 9, с. 57-58.
17. Селимханов И.Р. К исследовании металлических предметов из энеолитических памятников Азербайджана и Северного Кавказа, Советская археология, 1960, № 2, с. 89-102.

AMEA Naxçıvan Bölməsi
E-mail: velibahshaliyev@mail.ru

Veli Bakhshaliyev

FEATURES OF CULTURE OF THE OVÇULARTEPESI (4400-4000 BC)

The settlement Ovçulartepesi is one of considerable monuments of the Chalcolithic Age. In recent years archaeological researches in the territory of Nakhchivan, especially a research of the settlement of Nakhchıvantepe allowed to establish the place of Chalcolithic Age monuments of Nakhchivan, and especially settlements Ovçulartepesi among Chalcolithic Age monuments of South Caucasus, including Azerbaijan. Researches show what pottery of Ovçulartepesi reflects features of culture of an era of the Middle Chalcolithic Age. Ornaments with the comb print, a finger print over a relief hoop and papillary ledges, decoration of pottery with comb-like ornament belong to similar features. However, pottery of culture of Ovçulartepesi developing, gained new features in a form and on figuration. The last stage of the Late Chalcolithic Age is revealed by researches of monuments of the Sirabçay valley. Interpretation of pottery and analyses charcoal show that the settlement Ovçulartepesi treats the early period of the Late Chalcolithic Age.

Keywords: *Ovçulartepesi, Nakhchivantepe, Middle Chalcolithic Age, Late Chalcolithic Age, ceramics.*

Вели Бахшалиев

ОСОБЕННОСТИ КУЛЬТУРЫ ОВЧУЛАРТЕПЕСИ (4400-4000 г. до. н.э.)

Поселение Овчулартепеси является одним из значительных памятников эпохи энеолита. В последние годы археологические исследования на территории Нахчывана, особенно исследование поселения Нахчывантепе, позволяли установить место энеолитических памятников Нахчывана, а особенно поселения Овчулартепеси среди энеолитических памятников Южного Кавказа, в том числе Азербайджана. Исследования показывают, что керамические изделия Овчулартепеси отражают особенности культуры эпохи среднего энеолита. Орнаменты в виде оттиска гребня, оттиска пальца над рельефным пояском и сосковидных выступов, украшение керамических изделий гребенчатым орнаментом относятся к подобным особенностям. Однако, керамические изделия культуры Овчулартепеси, развиваясь, приобрели новые особенности формы и орнаментации. Последний этап позднего энеолита выявлен исследованиями памятников Сирабчайской долины. Интерпретация керамических изделий, а также анализы угля показывают, что поселение Овчулартепеси относятся к раннему периоду эпохи позднего энеолита.

Ключевые слова: *Овчулартепеси, Нахчывантепе, средний энеолит, поздний энеолит, керамика.*

Daxilolma tarixi: **İlkin variant 25.06.2019**
Son variant 10.09.2019

UOT 902

ZEYNƏB QULİYEVA

NAXÇIVANIN SON ENEOLİT KERAMİKASININ MƏNŞƏYİ

Məqalədə Naxçıvanın Son Eneolit keramikası tədqiq olunmuşdur. Qeyd edilmişdir ki, Cənubi Qafqaz regionunda çox sayda abidənin aşkar edilməsinə baxmayaraq, Son Eneolit mədəniyyətinin mənşəyi ilə bağlı məsələ bu vaxtadək tam həllini tapmamışdır. Bu, Eneolitin erkən və orta mərhələsinə aid abidələrin üzə çıxarılmaması ilə bağlı olmuşdur. Son vaxtlarda Naxçıvan ərazisində qeydə alınan Naxçıvantəpə, Uçan ağıl, Uzunoba abidələrinin arxeoloji materialları Son Neolitlə Son Eneolit dövrləri arasındakı boşluğu doldurmaqla yanaşı, həm də Son Eneolit mədəniyyətinin mənşəyinin öyrənilməsinə şərait yaratmışdır. Bu məsələnin həllində keramika məmulatı xüsusi əhəmiyyət kəsb edir. Ovçulartəpəsi, Yeni yol, Şorsu, Zirincli keramikasında əvvəlki dövrün ənənələrinə rast gəlinmişdir. Bu ənənələrdə 2 əsas istiqamət diqqət çəkir. Birinci istiqamət Son Neolitdən birbaşa Son Eneolitə keçən ənənələrlə bağlıdır hansı ki, ağız kənarları dairəvi deşiklərlə çevrələnmiş tava tipli qablarda əks olunmuşdur. Yeni yol və Şorsudan aşkar olunan bu tip qabların daha qədim nümunələri I Kültəpə, Xatunarx, Texutun neolit təbəqəsindən məlumdur. İkinci istiqamət isə Eneolitin erkən və orta mərhələsi ilə bağlıdır. Onlar özü də 2 qrupa bölünür. Birinci qrupa Son Neolitdən başlayaraq Eneolitin bütün mərhələlərində davam etdirilən ənənələr aiddir. Bu xüsusiyyətlər I Kültəpə, Naxçıvantəpə və Ovçulartəpəsinin ortaq elementlərindəndir. İkinci qrupa isə Eneolitin erkən və orta mərhələsində ortaya çıxaraq Son mərhələyə keçən ənənələr aiddir. Bu xüsusiyyətlərə əsasən Naxçıvantəpə və Ovçulartəpəsində, qismən də Yeni yolda rast gəlinir. Bütün bunlar Son Eneolit keramikasının mənşəyinin yerli ənənələrlə bağlı olmasından xəbər verir.


Açar sözlər: *Son Eneolit, Ovçulartəpəsi, Yeni yol, Naxçıvantəpə, I Kültəpə.*

Cənubi Qafqaz regionunda Son Eneolit dövrünə aid çoxsaylı abidələr aşkar olunsa da onunla bağlı bir çox problemlər hələ də tam həllini tapmamışdır. Onlardan biri bu mədəniyyətin mənşəyi ilə bağlı olub əsasən cənub təsiri (Mesopotamiya) ilə əlaqələndirilir [7, 67; 4,]. Uzun müddət ərzində regionda Eneolitin erkən və orta mərhələlərinə aid abidələrin aşkar olunmaması bu məsələnin dəqiqləşdirilməsinə imkan verməmişdir. Son dövrlərdə Naxçıvanda aşkar olunan Naxçıvantəpə, Uçan ağıl, Uzunoba yaşayış yerləri Son Neolitlə Son Eneolit arasındakı boşluğun aradan qaldırılmasına şərait yaratmışdır. Onların yaxınlığında qeydə alınan Son eneolit abidələrinin arxeoloji materialları Eneolitin mərhələləri arasındakı bağlılığı izləməyə imkan vermişdir. Onların içərisində keramika məmulatı Son Eneolitin mənşəyi ilə bağlı məsələlərə aydınlıq gətirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu xüsusiyyətlər keramikanın hazırlanma texnologiyasında, qabların formasında və ornamentasiyasında əks olunmuşdur.

Bu dövrün keramikası sarı, boz rəngli, saman tərkibli gildən olan lent şəkilli təbəqələrin birləşdirilməsi yolu ilə hazırlanmışdır. Saman tərkibli və saman üzlü keramikanın I Kültəpə abidəsi üçün xarakterik olması müxtəlif elmi ədəbiyyatlardan məlumdur [5; 2]. Qabların xarici səthi daraqlanmışdır. Bu texnologiyaya Eneolitin erkən və orta mərhələsini əks etdirən Naxçıvantəpə qablarının bəzən xarici səthi, yaxud içəri üzü, bəzən də hər iki üzündə rast gəlinmişdir [3, şəkil 55,2; 63,5; 73,3;]. Son Eneolit dövründə bu texnologiya daha geniş vüsət almışdır ki, bu da Cənubi Qafqazın Sioni, Şərqi Anadolunun Sarıgül, Çətənli [13, 164] və Arazın sağ sahilində yerləşən Culfa Kültəpəsi, Köhnə Paşqah təpəsi kimi abidələrdən aşkar olunan daraqlanmış keramika nümunələrində təsdiqini tapır [9, şəkil 15,4; 13,10].

Son Eneolit qablarının formasında və ornamentasiyasında 2 təsir özünü göstərir. Birincisi Son Neolit dövrü ilə birbaşa bağlıdır. Bu, ilk növbədə özünü qıfşəkilli ağızlı küpələrdə

göstərir. Ovçulartəpəsindən aşkar olunan bu küpə təkcə formasına görə deyil, eyni zamanda saman tərkibli olması və boğazını çevrələyən relyef qurşaqla da I Kültəpənin Neolit təbəqəsindən aşkar olunan qabla üst-üstə düşür (şəkil 1, 1,6)



Şəkil 1. Son Eneolit keramikasına Neolit dövründən gələn ənənələr (1,4: Ovçulartəpəsi, 2: Yeni yol, 3,5-Şorsu; 6-10: I Kültəpə).

Eneolit dövründə relyef qurşaqların bir qismi Son Neolit dövründəki kimi sadə formada davam etdirilsə də, digər qismi daraq basqısı, barmaq basqısı, yaxud çərtmə naxışlıdır. Belə ornamentlər Naxçıvantəpə, Uzunoba və Ovçulartəpəsi timsalında Eneolitin erkən, orta və son mərhələsində də varlığını sürdürmüşdür. Maraqlıdır ki, Eneolitin I-II fazasında müxtəlif çeşidlərlə təmsil olunduğu halda, III fazada-final mərhələnin Yeni yol, Şorsu, Zirincli kimi abidələrində rast gəlinmir. Bu abidələrdə Son Neolit ənənəsi özünü ağız kənarı dairəvi deşiklərlə çevrələnmiş kasalarda və tava tipli qablarda davam etdirilmişdir. Kasalar silindrik və konusvarı olub, qəhvəyi rəngli gildən hazırlanmış, yalnız Yeni yol kasalarının bəzisinin səthinə qara rəngli məhlul çəkilmişdir (şəkil 1, 2-3,7-8). Tava tipli qablarda diqqət çəkən xüsusiyyət onlara Son Eneolitin əvvəlki mərhələlərində rast gəlinməməsidir. Əsasən Yeni yolda və Şorsuda qeydə alınan bu tipli qabların I Kültəpədən aşkar edilən ən qədim nümunəsi də eyni ilə onlar kimi dayaz, qalın divarlı və konusvarı olmaqla, ağız kənarı dairəvi deşiklərlə çevrələnmişdir (şəkil 1, 5,10). Onların diametri 27/30 sm-dən 60/70 sm-dək dəyişir (KT-16, E-225; 218; KT-15, №F021; №G18). Hər iki mərhələdə bu tipli qablar saman və qum tərkibli

olub, xaricdən hislənmişdir. Bu da istər Son Neolitdə, istərsə də Son Eneolitdə onların funksiyasının dəyişmədiyini göstərir.

Son Eneolit dövrünə daxil olan Neolit ənənəsi özünü ornamentasiyada da biruzə verir. Məlum olduğu kimi, dairəvi deşiklərlə bəzəmə texnologiyası Neolit dövrünə aid abidələrdə geniş yayılmışdır. I Kültəpə qablarında olduğu kimi Son Eneolit qablarında da belə ornamentlərin qabların ağız kənarından gövdəsinə doğru yerdəyişməsi izlənilir (şəkil 1, 2-4, 7-9). Bu tip ornamentlərə I Kültəpə ilə yanaşı [5, tab. 19, 3], Şomutəpə [6, tab. 203, 10-458], Hacı Firuz [15, şəkil 74], Xatunarx və Ararat (Ağrı vadisi) vadisinin [12, şəkil 125, 2] keramikasında rast gəlinmişdir. Neolit dövründən tətbiq edilən bu ornamentlər Eneolit dövrünün müxtəlif mərhələlərində də varlığını sürdürmüşdür ki, bu da hər iki mədəniyyət arasındakı varislik məsələsini sübut edən faktlardan biri kimi əhəmiyyətlidir.


Son Eneolit qablarında izlənilən ənənəvi xüsusiyyətlərin ikinci qrupu Eneolitin erkən və orta mərhələsi ilə bağlı olmuşdur. Bu baxımdan Naxçıvantəpə və Ovçulartəpəsindən aşkar olunan küpələr diqqətə layiqdir. Onlar gilinin saman tərkibli olması, formaları və qulplarına görə bir-birinin demək olar ki, eynisidir (şəkil 2, 1,11). Ovçulartəpəsi, Köhnə Paşqah təpəsindən [11, şəkil 8,4] üzə çıxarılan kiçik ölçülü, qulplu küpələrin yaxın bənzəri Naxçıvantəpənin orta Eneolit təbəqəsində aşkar olunmuşdur (şəkil 2, 1,9). Belə qulplara Ovçulartəpəsinin küpə, kasa tipli qablarında rast gəlinmişdir [1, tab. XXV, 5; LVIII,4]. Onlar saman üzlü və saman tərkibli olub, yalnız həcmlərinə görə fərqlənir (şəkil 2, 2,12). Eyni oxşarlıq silindrik oturacaqlı qablarda, qabarıq, bikonik gövdəli küpələrdə də nümayiş olunur (şəkil 2, 2-4, 12-14).

Qabların naxışlanma texnologiyasında əvvəlki ənənələr relyef ornamentlər timsalında özünü göstərmişdir. Onları 4 qrupda sistemləşdirmək olar. Birinci qrupa Ovçulartəpəsi keramikasında izlənilən yuvarlaq və oval qabartmalar aiddir (şəkil 2, 5-6, 15-16). Belə ornamentlərin I Kültəpə, Şomutəpə, Aruxlo, İmirisqorada rast gəlinən nümunələri [8, tab. XXXIV, 1-2; XXXIX, 1-4] onların mənşəyinin son neolit dövrü ilə bağlı olduğunu təsdiq edir. Neolit dövründə sadə formalarla təmsil olunan relyef kəmərlər eneolit dövründə barmaq basqısı, daraq basqısı və çərtmələrlə naxışlanmış formada davam etdirilmişdir (şəkil 2,7, 17).

Tədricən belə çərtmə naxışlar qabların ağız kənarında tətbiq edilməyə başlamışdır. Naxçıvantəpənin orta eneolit təbəqəsində hələlik 1 qab üzərində rast gəlinən bu tipli ornament (şəkil 2, 8) Ovçulartəpəsində qabların ağız kənarının çərtmələnmə, daraq basqısı, dalğavariləşdirmə kimi müxtəlif üsullarla davam etdirilmişdir (şəkil 2,18). Qabların ağzının bu cür qravürlənməsi bəzi tədqiqatçılar tərəfindən ilk qeydə alındığı yerin adıyla "Sioni tipi" kimi xarakterizə edilməkdədir [13, şəkil 5.10,1]. Lakin Ovçulartəpəsində bu ornamentin saman tərkibli kasa və küpələr üzərində, həm də çox çeşidli olması onların yerli ənənələrlə bağlı olduğunu göstərir. Qabların səthinin daraqlanmasına Naxçıvantəpədə az nümunələrdə, lakin son eneolitin erkən mərhələsində isə çoxsaylı nümunələrdə rast gəlinir (şəkil 2, 9,19). Diqqət çəkən oxşarlıqlardan biri də Yeni yolun xarakterik qablarından olan tabaqlardır. Onların forma bənzərinə Naxçıvantəpədə rast gəlinir (şəkil 2, 10, 20). Yeni yoldan aşkar olunan belə qabların ağzının aşağı hissəsi dairəvi deşiklərlə çevrələnməsi ilə fərqlənir.

Naxçıvanın Son Eneolit keramikasının təhlili onların hazırlanma texnologiyasında, formasında və ornamentasiyasında əvvəlki dövrlərin bəzi ənənələrinin davam etdiyini göstərir. Onları 2 əsas qrupa bölmək olar. Birinci qrupa daxil olanlar Son Neolit ənənələrinin birbaşa Son Eneolitdə davamıdır. Onlar Eneolitin erkən və orta mərhələsində sanki yoxa çıxmış, son mərhələdə yenidən ortaya çıxmışdır. Ağız kənarı yuvarlaq deşiklərlə çevrələnmiş tava tipli qablar belə nümunələrdəndir hansı ki, I Kültəpə, Xatunarx, Texutun neolit təbəqəsində aşkar

olunmuş, bənzərləri Yeni yol, Şorsu kimi Son Eneolitin III mərhələsinə aid abidələrdə yenidən ortaya çıxmışdır.



Şəkil 2. Son Eneolit keramikasına Erkən və Orta Eneolitdən keçmiş ənənələr (1-8: Ovçulartəpəsi; 9-10: Yeni yol; 11-15,17-20:Naxçıvantəpə, 16:Uzunoba).

İkinci qrupa Eneolitin erkən və orta mərhələsindən gələn ənənələr aiddir. Onların da bir qismi Neolit ənənələrinin Eneolit dövrünün bütün mərhələlərində davam etməsini göstərən saman tərkibli gildən qabların lentşəkilli üsülla hazırlanma texnologiyasında, silindrik oturacaqlı konusvari kasalarda, bikonik formalı çölmək tipli qablarda, qabların boğazını çevrələyən sadə relyef qurşaqlar və yuvarlaq qabartma ornamentasiyada əks olunmuşdur. Digər qism ənənələr isə birbaşa eneolitlə bağlı olub, qabların səthinin daraqlanmasında, kiçik həcmli qulplu küpələrdə, oval qabartma və çərtmə ornamentasiyada özünü göstərmişdir. Hesab etmək olar ki, e.ə. V minilliyin I yarısında Dalmatəpə mədəniyyəti, II yarısında isə Ovçulartəpəsi mədəniyyəti kimi fərqli istiqamətlərin ortaya çıxmasına baxmayaraq, Naxçıvanın Eneolit tayfaları Neolit ənənələrini bəzi dəyişikliklərlə olsa belə, davam etdirmişlər. Bu faktlar Naxçıvanın Son Eneolit tayfalarının dulusçuluq mədəniyyətinin yerli ənənələr əsasında formalaşdığını göstərir.

ƏDƏBİYYAT

1. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi (2006-2008-ci il tədqiqatlarının ilk nəticələri). Bakı: Elm, 2010, 154 s.
2. Baxşəliyev V., Marro C., Berthon R., Quliyeva Z., Sarıaltun S. Kültəpə yaşayış yerində 2015-2016-cı illərdə aparılan arxeoloji araşdırmalar // Azərbaycanda arxeoloji tədqiqatlar 2015-2016, Bakı, 2017, 435-457.
3. Baxşəliyev V., Quliyeva Z., Baxşəliyev E., Həşimova T., Mehbalıyev K. Naxçıvantəpədə 2018-ci ilin arxeoloji tədqiqatları. Naxçıvan: Əcəmi, 2019,136 s.
4. Müseyibli N. Böyük Kəsik Eneolit dövrü yaşayış məskəni. Bakı: Nafta-Press, 2007, 228 s.
5. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
6. Ахундов Т.И. У истоков Кавказской цивилизации. Неолит Азербайджана. Шомутепе. Баку: Наука, 2012, 386 с.
7. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. (Эпоха энеолита VI-IV тысячелетиядон. э.). Баку: Элм, 1987, 260 с.
8. Энеолит СССР. Ответственные редакторы тома: Массон В.М., Мерперт Н.Я. Москва: Наука, 1982, 359 с.
9. Abedi, Khatib, Shahidi H., Chataigner Ch., Niknami K., Eskandari N., Kazempour M., Pirmohammadi A., Hoseinzadeh, J. and Ebrahimi Gh. "Excavation at Kul Tepe of (Jolfa), North-Western Iran, 2010: First Preliminary Report", Ancient Near Eastern Studies 51, 2014, p. 33-167.
10. Kuliyeva Z., Bahşeliyev V. Nahçivanın Kalkolitik Çağ Kültürü // TUBA-AR 23/2018, Ankara, 2018, s. 29-52.
11. Maziar S. "Excavations at Kohne Pasgah Tepesi, the Araxes Valley, the Northwest Iran: First Preliminary Report"Ancient Near Eastern Studies. 47, 2010, 165-193.
12. Palumbi G. 2007. "A Preliminmy Analysis on the Prehistoric Pottely from Aratashen (Armenia)", B. Lyonnet (ed.) Les Cultures du Caucase (ne - II~ millenaires avant notre ere). Leurs relations avec le Proche-Orient: 63-76. CNRS editions, Editions Recherches sur les Civilisations.
13. Sagona A., Zimansky P. Ancient Turkey. 2009, 420 p.

14. Trentin M.C. North-Western Uruk period pottery assemblages. Western Asiatic Depart ment Institute of Archaeology. 315 p.
15. Voigt M.M. Hajji Firuz Tepe, Iran: The Neolithic Settlement. Philadelphia: University of Pennsylvania, 1983, 396 p.

AMEA Naxçıvan Bölməsi
E-mail: zeynebquliyeva70@mail.ru

Zeyneb Guliyeva

GENESIS OF LATE ENEOLITHIC CERAMICS OF NAKHCHIVAN

The paper investigated the Late Chalcolithic ceramics of Nakhchivan. It was noted that, despite the fact that many monuments were found in the South Caucasus region, the question of the origin of the Late Eneolithic culture has not yet been resolved. This was due to the fact that the monuments of the Early and Middle Chalcolithic have not yet been discovered. The archaeological materials of the Nakhchivantepe, Uchan Agil, Uzunoba monuments, recently registered in Nakhchivan, filled the gap between the Late Neolithic and Late Chalcolithic periods, and also contributed to the study of the origin of the Late Chalcolithic culture. Ceramic products are of particular importance in solving this problem. The ceramics from Ovcultartepe Yeni Yol, Shorsu the traditions of the previous period were met. In these traditions, two directions attract attention. The first direction is connected with the traditions, passing from the Late Neolithic to the Late Chalcolithic, which were represented by frying pans surrounded by round holes. They were discovered in Yeni Yol, Shorsu, more ancient samples are known from the Neolithic layer of Kultepe I, Khatunarh, Tekhut. The second direction is associated with the Early and Middle stages of the Chalcolithic period. They are divided into 2 groups. The first group consists of traditions, which begins with the Late Neolithic continued through all stages of the Chalcolithic. These features are one of the common elements of Kültepe I, Nakhchivantepe and Ovchulartepe. The second group consists of traditions arising in the early and middle phases of the Chalcolithic. Such features are found in Nakhchivantepe and Ovchulartepe, partly in Yeni Yol. All this indicates that the origin of the Chalcolithic ceramics is associated with local traditions.

Keywords: *Late Chalcolithic, Ovçulartepe, Yeni Yol, Nakhchivantepe, Kultepe I.*

Зейнеб Кулиева

ГЕНЕЗИС ПОЗДНЕЭНЕОЛИТИЧЕСКОЙ КЕРАМИКИ НАХЧЫВАНА

В статье исследована позднеэнеолитическая керамика Нахчывана. Отмечено, что, несмотря на то, что в Южно-Кавказском регионе было обнаружено много памятников, вопрос о происхождении позднеэнеолитической культуры еще не решен. Это было связано с тем, что памятники раннего и среднего энеолита до сих пор не были обнаружены. Археологические материалы памятников Нахчывантепе, Учан агыл, Узунобы, зарегистрированных недавно в Нахчыване, заполнили разрыв между поздненеолитическими

и позднеэнеолитическими периодами, а также внесли вклад в изучение происхождения позднеэнеолитической культуры. Керамические изделия имеют особое значение в решении этой проблемы. В керамике Овчулартепе, Йени йол, Шорсу встречались традиции предыдущего периода. В этих традициях привлекают внимание два направления. Первое направление связано с традициями, переходящими от позднего неолита к позднему энеолиту, который были представлены сковородками, окруженными круглыми отверстиями. Они были обнаруженны в Йени йол, Шорсу, более древние образцы известны из неолитического слоя Кюльтепе I, Хатунарх, Техута. Второе направление связано с ранней и средней стадией энеолита. Они делятся на 2 группы. Первая группа состоит из традиций, которые, начинаясь с позднего неолита, продолжались на всех этапах энеолита. Эти особенности являются одним из общих элементов Кюльтепе, Нахчывантепе и Овчулартепе. Вторая группа состоит из традиций, возникающих в ранней и средней фазе энеолита. Такие особенности встречаются в памятниках Нахчывантепе и Овчулартепе, частично в Йени йоле. Все это указывает на то, что происхождение энеолитической керамики связано с местными традициями.

Ключевые слова: *поздний энеолит, Овчулартепе, Йени йол, Нахчывантепе, Кюльтепе I.*

(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 28.06.2019
Son variant 09.09.2019

UOT 902

TOĞRUL XƏLİLOV

NAXÇIVANDAKI SON TUNC DÖVRÜNƏ AİD ARXEOLOJİ ABİDƏLƏRDƏN AŞKAR OLUNMUŞ GİL MÖHÜRLƏR HAQQINDA

Naxçıvan Muxtar Respublikasının qədim və zəngin tarixi var. Qədim dövr tariximizin, maddi və mənəvi mədəniyyətimizin öyrənilməsində hər bir arxeoloji material elmi əhəmiyyət daşıyır. Onların hər birini dərindən tədqiq etməklə, mühüm elmi nəticələr əldə etmək olar. Əldə olunmuş yeni elmi nəticələr tariximizi daha dərindən öyrənməyə imkan verir. Belə arxeoloji materiallardan bir qismini Son Tunc dövrünə aid gil möhürlər təşkil edir. Onların funksional xüsusiyyəti və yayılma arealı ilə bağlı kompleks şəkildə araşdırma aparılmadığından tərəfimizdən öyrənilmişdir. Araşdırma zamanı bu dövrdə sosial bərabərsizliyin, mülkiyyətə sahiblik hüququnun olmasını, möhürlərin hamısının qəbir abidələrindən tapılmasını, say etibarı ilə nisbətən az olmasını və digər faktları əsas götürərək belə bir nəticə əldə olunmuşdur ki, dünyanın digər bölgələrində olduğu kimi Naxçıvanda da onlar mülkiyyətə sahibliyi, kimliyi bildirmək, təhlükəsizliyi təmin etmək üçün istifadə edilmişdir. Naxçıvana qonşu ölkələrdən gətirilməmiş, sifariş əsasında yerli sənətkarlar tərəfindən düzəldilmişdir. Onlar əsasən qəbir abidələrindən ona görə aşkar olunmuşdur ki, möhür sahibi öldükdən sonra başqasının əlinə keçməməsi üçün onu qəbirə qoymuşlar. Möhürlərin üzərindəki təsvirlərin bir qismi insaların dini-ideoloji görüşləri ilə bağlılıq təşkil etmiş, bəziləri damğa kimi istifadə edilmiş, möhür sahibinin soykökünü bildirmişdir.

Açar sözlər: *Naxçıvan, Son Tunc dövrü, gil, möhür, damğa.*


Naxçıvan Muxtar Respublikası zəngin tarixə malikdir. Qədim dövr tariximizin, maddi və mənəvi mədəniyyətimizin öyrənilməsində hər bir arxeoloji material elmi əhəmiyyət daşıyır. Belə arxeoloji materiallardan bir qismini Son Tunc dövrünə aid gil möhürlər təşkil edir. Onların funksional xüsusiyyəti və yayılma arealı ilə bağlı kompleks şəkildə araşdırma aparılmadığından tərəfimizdən öyrənilmişdir.

Naxçıvan diyarının Son Tunc dövrü abidələrindən aşkar olunmuş möhürlərin tipoloji və funksional təsnifatı ilə bağlı araşdırma apararkən qeyd olunan məsələyə ümumdünya kontekstindən yanaşmaq zəruri və aktualdır. Aparılan müqayisəli araşdırma zamanı məlum olur ki, dünyanın bütün bölgələrində möhürlərdən tarixən mülkiyyətə sahibliyi, təhlükəsizliyi təmin etmək üçün istifadə edilmişdir. Mülkiyyətə sahibliyi bildirən möhürlər hər hansı bir yükün, əşyanın, heyvanın (damğalar), təhlükəsizliyi təmin edənlər isə xəzinənin, müəyyən əhəmiyyətli obyektlərin üzərinə vurulmuşdur. Qədim dövrlərdə möhürlər daşdan, pastadan və sümükdən düzəldilmişdir. Pasta gildən olmuşdur. Onun gilinin tərkibində süni qrafit; kolloid, yarıkolloid qrafit, qrafit və karbonun digər mineral birləşmələri qatılmışdır (15).

Dünya arxeologiyasında möhürün insanların həyatına daxil olma tarixi Neolit dövründən götürülərək e.ə. 8000-5500-ci illə tarixləndirilmişdir. Ən qədim möhürlər Mesopotomiyadan (İkiçayarasından), Misirdən, Anadoludan aşkar olunmuşdur (10, s. 86; 6, s. 13; 14). Neolit dövrünə qədər möhürdən istifadə edilməmiş, insanlar möhürün nə demək olduğunu bilməmişlər. Bunun əsas səbəblərindən biri ondan ibarət olmuşdur ki, bu vaxta qədər insanlar yığıcılıqla, ovçuluqla məşğul olmuş, oturaq həyat tərzi keçirməmişlər. Neolit dövründə insanların həyat tərzində əmələ gələn dəyişikliklər sosial iqtisadi vəziyyətlərinə də təsir göstərmiş, mülkiyyətə sahiblik hüququ formalaşmağa başlamışdır. Mülkiyyətə sahibliyin formalaşması ilə ibtidai möhürlər yaranmışdır. İbtidai möhürlər gillə yanaşı daşdan və sümükdən də düzəldilmişdir. Onlar silindrik, ovalvarı, dairəvi formada olmuşdur. Möhürlər

kütləvi şəkildə düzəldilməmiş, sifariş əsasında hazırlanmışdır. Daş və sümüklə müqayisədə gildən möhürlərin düzəldilməsi daha əlverişli olmuşdur. Çünki, daş və sümükdən fərqli olaraq gildən möhür düzəldərkən onu istənilən formaya salmaq, üzərində müəyyən dekorativ işlər aparmaq asan olmuşdur. Hər bir tayfanın, hər bir dövlətin möhürü olmuşdur. Yazıdan istifadə edilənə qədər möhürlərin üzərində müxtəlif ornamentlərdən ibarət naxışlar çəkilmişdir. Onlar həndəsi, nəbati, zoomorf və antropomorf rəsmlərdən ibarət olmuşdur. Təsvirlər qazma və basma üsulu ilə çəkilmişdir. Qazma üsulu bir qayda olaraq daş möhürlərdə, basma üsulu isə əsasən gildən düzəldilənlərdə tətbiq edilmişdir. Hər bir möhürün üzərindəki təsvir təsadüfən çəkilməmiş, müəyyən məntiqi əsası olmuşdur.

Silindrik formalı möhürlərin ortasındakı deşik iki funksiyanı yerinə yetirmişdir. Birinci funksiya ondan ibarət olmuşdur ki, möhür sahibi onu yanında təhlükəsiz saxlamaq və itirməmək üçün ortasına ip keçirərək boynundan asmışdır. İkinci funksiya isə möhür vurma işi ilə bağlılıq təşkil edir. Möhürü vurarkən onun ortasındakı deşiyin diametrinə uyğun çubuq, sümük və ya metal keçirilmişdir. Sonra onu əldə tutaraq möhürü bir istiqamətdə səliqəli şəkildə diyirlətmişlər. Bu zaman möhürün üzərində tərsinə çəkilmiş işarələr və rəsmlər hər hansı bir əşyanın, yükün üzərində düz əks olunmuşdur (şəkil 1).



Şəkil 1. Möhürləmə prosesi.

Möhürlər əsasən iki qrupa bölünmüşdür. Birinci qrupa damğa, ikinci qrupa insanların dini-ideoloji görüşləri ilə bağlı olan möhürlər daxildir. Müəyyən daşlardan düzəldilən bu tip möhürlərdən bəzilərini insanlar amulet kimi də istifadə etmişlər. Dairəvi, ovalvarıd olanlarla müqayisədə silindrik formalılarla möhürləmə çətin olmuşdur. Bu gün dünyadakı muzeylərdə müxtəlif dövrlərə aid 20 mindən çox möhürün olduğu, silindrik möhürlərin bir qayda olaraq 1,2-5 sm hündürlükdə, 0,8-2,5 sm diametrdə düzəldildiyi haqqında mənbələrdə məlumatlar vardır (13).

Naxçıvan diyarının qədim dövr abidələri içərisində hələlik Son Tunc dövrü abidələrindən başqa heç birindən gildən düzəldilmiş möhür aşkar olunmamışdır. İndiyə qədər on bir ədəd möhür tapılmışdır. Onların onu Ordubad, biri isə Kəngərli rayonundakı arxeoloji abidələrdə qeydə alınmışdır. Ordubad rayonunda Muncuqlutəpə, Mərdangöl (şəkil 3), Dəlmətəpə, III Plovdağ, Kəngərli rayonunda Şahtaxtı nekropollarından tapılmışdır. Mərdangöl nekropolundan iki, Muncuqlutəpədən beş, Dəlmətəpədən bir (4, s. 14, şəkil 2-9), III Plovdağda iki (11, s. 157), Şahtaxtıdan bir ədəd gil möhür (9, s. 75, tab. III) aşkar edilmişdir. Onlar Milli

Azərbaycan Tarixi Muzeyində qorunub saxlanılır (şəkil 2, 5-10; 3). Azərbaycandakı Çardaxlı, Talış nekropollarından (1, s. 159), İkiçayarasından, Anadoludan (14; 13), Qafqazın və Ön Asiyanın bir sıra abidələrindən (7, s. 160-161; 8, s. 34-40) eyni formalı möhürlər aşkar olunsa da onlar üzərlərindəki ornamentlərə, naxışlanma üsuluna görə bir-birindən fərqlənmişdir (şəkil 2, 1-4).

Şahtaxtı nekropolundan aşkar olunmuş uzunluğu 2 sm, diametri 1 sm olan möhürün üzərində həyat ağacı, ağacın bir tərəfində saçları çiyninə tökülmüş insan, digər tərəfində isə başlarını arxaya çevirmiş iki keçi təsvirinin olduğu qeyd olunmuşdur (9, s. 75).


Mərdangöl nekropolundan aşkar edilmiş möhürlərdən birinin üzərində (uzunluğu 2,5 sm, diametri 1,2 sm) aşağı planda ayaqları qatlanmış, quyruqları çarpaz olan keçilər, keçilərin yanında quş qanadlı fantastik heyvan, yuxarı planda isə çarpaz xətlərdən ibarət naxış çəkilmişdir. Digər möhürün üzərində isə eyni formalı keçi təsvirinin yanında dal ayaqları üzərində duran şir və şiri saxlayan insan, quş təsviri qeydə alınmışdır (5, s. 52).

Üçüncü Plovdağ nekropolundakı 4 №-li qəbirdən tapılan uzunluğu 2,3, diametri 0,9 sm olan möhürün üzərində dizi üstündə oturaraq əllərini yuxarı qaldıran insan, insanın üstündə beş meyvədən ibarət həyat ağacı, aşağıda buynuzları haçalaşan, ayaqlarını qatlayaraq uzanmış vəziyyətdə iki heyvan (dağ keçisi və ya ceyran) çəkilmişdir. Uzunluğu 2,3, diametri isə 1,0 sm olan digər möhürün üzərində üç heyvan təsvir olunmuşdur. Onlardan ikisi ayaq üstdə qabaq ayaqları bir-birinə dayanmış vəziyyətdə, biri isə yerə uzanmış halda verilmişdir (11, s. 157).



1-Anadolu (https://www.evrensel.net/haber/316879/muhrun-tarihi-eski-mezopotamya-ve anadoluda muhur); 2-4 Sümer Silindir Mühürleri (https://tarihegitimi.blogspot.com/2018/03/sumer-silindir-muhurleri.html); 5-10-Xaraba Gilan arxeoloji abidələr kompleksinin möhürləri (Plovdağ, Mərdangöl, Muncuqlutəpə) tapılan möhürlərin fotosu (5- AF1391 inv. 27610; 6- AF 1393 inv. 27612 s/q 505; 7- AF1397 inv. 27614 s/q 405; 8- AF 1392 inv. 27611; 9-AF 1394 inv. 27613; 10-AF 1395 s/q 19)/

Şəkil 2. Silindrik möhürlərdən nümunələr.



(Seyidov, 2002)

Şəkil 3. Mərdangöl və Muncuqlutəpə nekropolundan aşkar olunmuş möhürlərin qrafik təsvirləri.

Naxçıvan diyarının Son Tunc dövrü abidələrindən aşkar olunmuş möhürlər haqqında tədqiqatçılardan H.F.Cəfərov, V.H.Əliyev, Q.Aslanov, S.Qaşkay, B.İbrahimli və digərləri məlumat vermişlər. V.H.Əliyev Şahtaxtı möhürünün Suriya-Fələstin və Kərkük tipləri ilə bənzər olduğunu, onun Naxçıvan ərazisinə Ön Asiyadan-Mesopotamiyadan gətirildiyini qeyd etmişdir (9, s. 81; 3, s. 189). Q.M.Aslanov, S.M.Qaşqay, B.İ.İbrahimli (2, s. 71), H.F.Cəfərov (7, s. 161) Şahtaxtı və Ordubaddan tapılmış möhürləri Xurrit və Fələstin dünyası ilə bağlayaraq, "Mitaniya tipli" möhürlər sırasına daxil etmişdir.

Tədqiqatçıların heç biri onların hansı məqsədlə istifadə olunması, üzərlərindəki ornamentlərin semantikası haqqında geniş fikir söyləməmişlər. Tərəfimizdən qeyd olunan məsələ ilə bağlı aparılan araşdırma zamanı məlum olur ki, qayaüstü təsvirlərin, keramika məmulatların, bəzək əşyaların, silahların üzərində olduğu kimi möhürlərdə də hər bir təsvir təsadüfən çəkilməmiş, müəyyən məntiqə əsaslanmışdır.

Heyvan, quş təsvirlərinin semantikası və yayılma arealı ilə bağlı aparılan araşdırma zamanı məlum olmuşdur ki, dünyanın bir çox yerlərində, bu haqda xeyli məlumatlar vardır. Anadolu mədəniyyətində qartalın gücü, qüvvəti, azadlığı, maralın yaxşılığı, qoyunun, qoçun bolluğu, bərəkəti simvolizə etməsini, Pazırık kurqanlarından aşkar olunmuş müxtəlif heyvan fiqurlarını (keçi, qartal, at, balıq və s.), Het mədəniyyətinə aid arxeoloji materialların üzərindəki təsvirləri, on iki heyvandan ibarət Türk təqvimini və digər arxeoloji materialları buna nümünə göstərmək olar (12, s. 33, 34, 48, 50).

Ağac təsvirinin semantikası ilə bağlı aparılan araşdırma zamanı məlum olur ki, ardıc, badam, şam, üzüm, kayın, dəfnə və digər ağaclar müqəddəs həyat ağacı hesab edilmiş, insanların onlardan törədiyinə inanc olmuşdur. Het, Şumer, Assur, Anadolu, Orta Asiya mədəniy-

yətində, mifologiyasında həyat ağacına olan inac müxtəlif şəkillərdə əks olunmuşdur. Het mədəniyyətində badam Tanrı Amisi simvolizə etmiş, üzüm Allaha yaxın bir bitki, Allahın bolluğunu, yaradıcı gücünü təmsil etmişdir. Uyğur əfsanələrindən birində onların (uyğurların) həyat ağacından törədiyi qeyd edilir. Altay türkləri kayın ağacına dua etmiş, onu həyat ağacı hesab etmişlər. Şamanlar ən çox kayın ağacına inanmış, onu həyat ağacı hesab etmişlər. Həyat ağacı Orta Asiya Türk mifologiyasında bərəkətin, yaşamağın ən mühüm simvolu olmuşdur. Yakut türklərinə görə ilk insan ağacdan yaranmışdır, onunla qidalanır. Buna görə də övladı olmayan kadınlar müqəddəs hesab olunan ağacların altında oturub ona dua edərlərsə övladları olar. Manas dastanında sonsuz qadınların müqəddəs alma ağacının altında oynayaraq dilək diləməsi ilə bağlı məlumatlara rast gəlmək olur. Uyğur əfsanələrinin birində qeyd edilmişdir ki, həyat ağacı dünyanın mərkəzində durur və göylə yer arasında əlaqəni yaratmaq üçün nərdivandır. Buna görə də o Allaha çatmanın ən mühüm vasitəsidir. Eyni fikir Altay türklərinin mifologiyasında bir qədər fərqli şəkildə əks olunmuşdur. Onların mifologiyasına görə göyün üzünə qədər bir şam ağacı ucalır. Bu həyat ağacı göyü dəlib keçmişdir. Onun təpəsində Tanrı Ülgen oturur. Ağacın bir tərəfində Ay, digər tərəfində Günəş durur. Tanrı Kutay onu budaqsız, qurumuş gördükdə buna doqquz dənə budaq bitsin demişdir, ilana və itə onun dörd budağının meyvəsindən yemək istəyənləri buraxmamağı tapşırmış, həyat ağacının doqquz dənə budağı olmuşdur. Anadolu əfsanəsinə görə dəfnə ağacında bir can və ruh vardır, o su pərisidir, sülhün simvoludur. Nar cənnəti, xaşxaş ölümü və əbədi yuxunu əncir, alma, zeytun bərəkəti və bolluğu, sərv ağacı ölümsüzlüyü simvolizə edir. Yakutlar kimi Anadolu türklərində də hələ də ağaca və gülün budağına parça bağlamaq, uşağı olmayanların və xəstələrin ağacdan dilək diləmək inancı qalmaqdadır (12, s. 3, 34, 50, 53, 54).

Naxçıvan diyarının Son Tunc dövrü abidələrindən aşkar olunmuş gil möhürlərin təyinatı, onların üzərindəki təsvirlərin semantikası ilə bağlı aparılan araşdırma zamanı bu dövrdə sosial bərabərsizliyin, mülkiyyətə sahiblik hüququnun olmasını, möhürlərin hamısının qəbir abidələrindən tapılmasını, say etibarı ilə nisbətən az olmasını və digər faktları əsas götürərək sonda belə bir nəticəyə gəlmək olar ki, dünyanın digər bölgələrində olduğu kimi Naxçıvanda da onlar mülkiyyətə sahibliyi, kimliyi bildirmək, təhlükəsizliyi təmin etmək üçün istifadə edilmişdir. Naxçıvana qonşu ölkələrdən gətirilməmiş, sifariş əsasında yerli sənətkarlar tərəfindən düzəldilmişdir. Onlar əsasən qəbir abidələrindən ona görə aşkar olunmuşdur ki, möhür sahibi öldükdən sonra başqasının əlinə keçməməsi üçün onu qəbirə qoymuşlar. Möhürlərin üzərindəki təsvirlərin bir qismi insaların dini-ideoloji görüşləri, düşüncə tərzi ilə bağlılıq təşkil etmiş, bəziləri isə damğa kimi istifadə edilmiş, möhür sahibinin soykökünü bildirmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. I c. (Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə), Bakı: Elm, 1994, 680 s.
2. Aslanov Q.M., Qaşqay S.M., İbrahimov B.H. Mərdangöl nekropolunun materialları // AA, 1999, № 3-4, s. 69-72.
3. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
4. Aslanov G., Kashkay S. Cylinderseals from the Nakhchivan District / Sulmu IV: Every day Life in Ancient Near East: Papers Presented at the International Conference, Poznan, 19-22 September, 1989, Seria Historia 182. UAM, 1993, Pages 13-19.

5. Асланов Г.М., Ибрагимов В.И., Кашкай С.М. Древние некрополы Хараба Гилана. Баку: Нурлан, 2003, 101 с.
6. Berna İ.A. Kimlik betimleyicı tasarımlar: mühürler. Yüksek lisans tezi. Sivas, 2007, 134 s.
7. Cəfərov H.F. Azərbaycan e.ə.IV minilliyin axırı-I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzəsinin materialları əsasında). Bakı: Elm, 2000, 187 s.
8. Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху бронзы и раннего железа. Баку: Элм, 1984, 106 с.
9. Əliyev V.H. Şahtaxtının Tunc dövrü abidələri // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, Bakı: 1974, № 4, s. 70-82.
10. Güler A. Gravür. İstanbul: Kale seramik sanat yayınları, 2000, 256 s.
11. İbrahimli B.İ., Qədirzadə H.Q., Əliyev Q.Ə., Xəlilov T.F., Əhmədova L.N. Üçüncü Plovdağ nekropolunda aparılmış arxeoloji qazıntılar // Azərbaycanda arxeoloji tədqiqatlar – 2013-2014, Bakı, 2015, s. 153-160.
12. Özlem A.K. (2009) Orta Asya'dan Anadolu'ya kültürel sembollere giriş. Ankara: Eflatun yayın evi, 80 s.
13. https://neferkaminanu.wordpress.com/2013/02/15/sumer-silindir-muhurleri. Sümer Silindir Mühürleri.
14. https://www.evrensel.net/haber/316879/muhrun-tarihi-eski-mezopotamya-ve-anadolu-da-muhur. Heval Bozba Mührün tarihi: Eski Mezopotamya ve Anadolu'da mühür.

AMEA Naxçıvan Bölməsi
E-mail: x.toqrul@gmail.com

Togrul Khalilov

ABOUT THE CLAY SEALS FOUND IN ARCHAEOLOGICAL MONUMENTS OF NAKHCHIVAN DURING THE LATE BRONZE AGE

The Nakhchivan Autonomous Republic has an ancient and rich history. Every archeological material carries great scientific importance in the study of our ancient history, material and spiritual culture. In-depth study each of them can produce important scientific results. The obtained new scientific results also give us a deeper understanding of our history. Part of such archaeological materials are made of clay stamps from the Late Bronze Age. They have been studied by us because they have no complex research on their functionality and range of propagation. At the time of the survey, it was concluded that social inequality, the right to own property, the seizure of monuments in the grave, relatively little, and other facts were obtained as in other parts of the world and also in Nakhchivan as well as in ownership was used to provide safety. The clay seals were not brought from neighboring countries to Nakhchivan, it was made by local artisans on the basis of the order. They are mainly found in the tomb monuments in so that the seals not taken by someone else after death. Some of the images on the seals were associated with the religious-ideological views of the people, some of which were used as stamps and reported root of the stamp owner.

Keywords: *Nakhchivan, Late Bronze Age, clay, seal, stamp.*

Тогрул Халилов

О ГЛИНЯНЫХ ПЕЧАТЯХ, НАЙДЕННЫХ В АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКАХ ПОЗДНЕГО БРОНЗОВОГО ПЕРИОДА В НАХЧЫВАНЕ

Нахчыванская Автономная Республика имеет древнюю и богатую историю. Каждый археологический материал имеет научную ценность в изучении древней истории, материальной и духовной культуры. Углубленное изучение каждого из них может дать значительные научные результаты. Новые научные результаты также позволяют нам глубоко изучить нашу историю. Некоторые из этих археологических материалов – глиняные печати, датируемые бронзовым веком. Поскольку всестороннее исследование их функциональности и диапазона распространения не проводилось ранее, мы изучили этот вопрос. Исследование пришло к выводу, что в течение этого периода социальное неравенство, права собственности, обнаружение всех печатей в могилах, относительно немногочисленных, и другие факты свидетельствуют о том, что, как и в других частях мира, собственность Нахчывана, идентичность, используется для безопасности. Они не были привезены в Нахчыван из соседних стран, а изготовлены местными художниками на основе заказов. В основном они были найдены в могилах, потому что владелец печати умер, так что ее нельзя было взять в руки кому-либо еще. Некоторые изображения на печатях были связаны с религиозными и идеологическими взглядами людей, некоторые их использовали.

Ключевые слова: *Нахчыван, поздний бронзовый век, глина, печать, штамп.*

(AMEA-nın müxbir üzvü Vəli Əliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 12.06.2019
Son variant 03.09.2019

UOT 902

TURAN HƏŞİMOVA

QIZILBURUN YAŞAYIŞ YERİ VƏ NEKROPOLUNUN BOYALI KERAMİKASI

Qızılburun yaşayış yeri və nekropolu Naxçıvanda Orta Tunc dövrünün ən mühüm abidəsidir. Yaşayış yerinin salamat qalmış sahəsi 2 hektardır. Qazıntı zamanı 2 m qalınlığında mədəni təbəqə tədqiq edilmişdir. Aşkar olunmuş keramika məmulatının əsas hissəsi boyalı qablardan ibarət olub, yüksək keyfiyyətlə hazırlanmış, üzəri qırmızı və sarı rəng üzərindən bəzən qara, bəzən isə qara və qırmızı rənglərlə naxışlanmışdır. Qızılburun nekropolu üçün daş qutu qəbirlər xarakterikdir. Yaşayış yeri və nekropoldan aşkar olunmuş keramika məmulatının bir qismi polixrom boyalı qablardan ibarətdir. Nekropoldan aşkar olunmuş materiallar tədqiqatçılar tərəfindən əsasən üç tipə bölünmüşdür. Bu materialların bir qismi Orta Tunc dövrünə aiddir. Materialların təhlilinə əsasən Qızılburunun Orta Tunc dövrünə aid polixrom boyalı qablarını e.ə. 1800-1700-cü illərə aid etmək olar. Qızılburun keramikasının Urmiya hövzəsi abidələrinin keramikası ilə oxşarlığı da bunu deməyə əsas verir. Boyalı qabların ornamentlərindəki lokal xüsusiyyətlər, o cümlədən Şahtaxtı polixrom boyalı qabları ilə bənzərlik bu keramika məmulatlarının yerli dulusçular tərəfindən hazırlandığını təsdiq edir.

Açar sözlər: *Qızılburun, yaşayış yeri, nekropol, Orta Tunc dövrü, polixrom boyalı keramika.*

Qızılburun yaşayış yeri və nekropolu Babək rayonunun Təzəkənd kəndi yaxınlığında, Araz çayının sol sahilində, Zəngəzur dağ silsiləsinin Araz vadisinə enən yamacında yerləşir. Burada Zəngəzur və Qaradağ silsilələri Araz vadisinə doğru uzanaraq dar boğaz əmələ gətirir. Ərazinin torpağı və qayalıqları qırmızı rəngdə olduğundan yerli əhali tərəfindən Qızılburun adlanır (6, s. 68). Adın tərkibindəki "qızıl" sözü bu ərazidəki torpağın qırmızı rəngdə olması, "burun" sözü isə Araz çayının dağın ətrafında əyilərək, ondan, bir növü burun əmələ gətirməsi, Araz çayının burada düzənlikdən çıxaraq dağların arasındakı dar dərəyə girməsi ilə bağlıdır (4, s. 8). Qızılburun yaşayış yeri Yaxın Şərq və Cənubi Qafqazı birləşdirən qədim ticarət yolu üzərində olub, strateji və coğrafi cəhətdən əlverişli mövqedə yerləşmişdir.

Yaşayış yeri 1926-cı ildə A.A.Miller tərəfindən qeydə alınmış və kəşfiyyat xarakterli araşdırmalarla öyrənilmişdir (6, s. 68). Yaşayış yerində ilk dəfə 1969-cu ildə O.H.Həbibullayev və V.H.Əliyev tərəfindən arxeoloji qazıntı aparılmışdır. Qızılburun yaşayış yerinin salamat qalmış sahəsi 2 hektardır. Qazıntı işləri 10x10 m sahədə aparılmışdır. Qazıntı zamanı 2 m qalınlığında mədəni təbəqə tədqiq edilmişdir. Abidədə tikinti qalıqları, daş, keramika, sümük məmulatı və əksəriyyəti xırdabuynuzlu heyvanlara aid sümük qalıqlarından ibarət maraqlı arxeoloji materiallar aşkar olunmuşdur (3, s. 22). Tədqiqat zamanı həmçinin, gildən hazırlanmış ocaq qalıqları da aşkar edilmişdir. Tikintilər olduqca pis saxlanılmış, əsasən dördkünc formada olub, çay daşı və qaya parçalarından inşa edilmişdir. Bərkidici maddə kimi gil məhlulundan istifadə olunmuşdur (6, s. 68). Qazıntıdan az miqdarda daş məmulatı, çaxmaqdaşından quraşdırma oraq dişləri, tufdan döndaşları və sürtgəclər, obsidian ox ucları, asmalar, toppuzlar əldə edilmişdir. Keramika əsasən çəhrayı rəngdə, bəzən isə boz və qara rəngdə bişirilmişdir. Onlar küpə, kasa, çaynik, vaza qırıqlarından ibarətdir. Sadə qablar dalğalı və düz xətlərlə cızma ornamentlə naxışlanmışdır. Keramika məmulatının əsas hissəsi boyalı qablardan ibarət olub, yüksək keyfiyyətlə hazırlanmış, üzəri qırmızı rəng üzərindən bəzən qara, bəzən isə qara və qırmızı rənglərlə naxışlanmışdır. Naxışlar əsasən həndəsi motivdə olub, dalğalı və düz xətlərdən torlu üçbucaq və romblardan ibarətdir (6, s. 68).

Qızılburun nekropolu eyni adlı yaşayış yerinin yaxınlığında yerləşir. Onun bir hissəsi orta əsr məbədi tikilərkən, digər hissəsi isə Naxçıvan-Culfa dəmiryol xətti çəkilərkən dağıdılmışdır. Nekropol 1895-ci ildə təsadüfən aşkar olunub. Torpaq işləri görülərkən bir neçə daş qutu qəbir dağıdılmış, qəbirlərdən sadə və boyalı qablar, qızıldan bəzək şeyləri, tunc silahlar və digər maddi-mədəniyyət qalıqları tapılmışdır. Tapıntılar içərisində qızıldan əşyalar olduğunu eşidən bəzi adamlar başqa qəbirləri də dağıtmağa başlamışdır. Hadisədən xəbər tutan sərhəd gözətçi dəstəsinin rəisi N.V.Fyodorov dağıntının qarşısını almış, aşkar edilmiş materialların bir hissəsini toplamış və onları Moskvaya göndərmişdir. O, İmperator Arxeoloji Komissiyasının tapşırığı ilə 1896-cı ildə burada arxeoloji qazıntı aparmış, əldə etdiyi materialları Moskva muzeyinə göndərmiş, lakin qazıntı haqqında hesabat verməmişdir (3, s. 6-7). Bu hesabatın mövcudluğu haqqında bəzi ehtimallar vardır (4, s. 10). Yalnız 1909-cu ildə A.A.Spisin bu materialları dərc etmişdir. Bununla da Qızılburun nekropolu elm aləmində tanınmış və arxeoloqların xüsusi diqqətinə səbəb olmuşdur. 1926-cı ildə İ.İ.Meşşaninov və A.A.Miller fərqli vaxtlarda Qızılburun nekropolunda arxeoloji tədqiqatlar aparmışlar. İ.İ.Meşşaninov yeddi daş qutu qəbir, A.A.Miller isə iki daş qutu qəbir öyrənmişdir. Bu qazıntılar zamanı aşkar edilmiş materialların bir hissəsi Azərbaycan Tarix Muzeyində, bir hissəsi isə Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır (6, s. 70).



Şəkil 1. Qızılburun yaşayış yeri və nekropolunun yerləşdiyi ərazi.

Qızılburun nekropolundan aşkar olunmuş materiallar tədqiqatçılar tərəfindən əsasən üç qrupa bölünmüşdür. N.V.Fyodorovun materialları birinci qrupa, İ.İ.Meşşaninovun materialları ikinci qrupa, A.A.Millerin əldə etdiyi tapıntılar isə üçüncü qrupa aid edilmişdir. Birinci qrupa aid edilən N.V.Fyodorovun topladığı polixrom boyalı qabların bir qismi Orta Tunc dövrünün sonlarına aiddir. Bu polixrom boyalı qablar kasa, küpə və çölmək tipli qablardan ibarətdir.

Kasa tipli qabın gövdəsi bikonik formalı, oturacağı yastı olub, ağzı genişdir. Üzəri qırmızı boya ilə örtülmüş, gövdəsinin yuxarı hissəsi sarı anqob üzərindən qara rənglə çəkilmiş torlu romblarla naxışlanmışdır. Naxışlar aşağıdan və yuxarıdan qara rənglə çəkilmiş üfüqi zo-

laqla məhdudlaşdırılmışdır (şəkil 2, 1). Bənzərləri Şahtaxtı (7, s. 105, çizim 20; 5-10; çizim 21, 4, 5), I Kültəpə (1, s. 116, şəkil 28, 2), II Kültəpə (1, s. 116, şəkil 28, 3), Qaratəpə (2, s. 138, foto 52), Qaziantep muzeyi (14, s. 13, şəkil 12), Van muzeyi (13, s. 19, № 44), Diyarbakır muzeyi (8, levha 62, 7), Dinkatəpənin IV D təbəqəsi (12, s. 199-203, tab. 12.1.1), Haftavantəpənin son VI B təbəqəsi (10, s. 185, şəkil 91,7; s. 187, şəkil 92, 2, 4, 13; s. 191, şəkil 94, 2, 14; s. 195, şəkil 96, 1, 6; s. 199, şəkil 98, 12, 14; s. 203, şəkil 100, 14; s. 205, şəkil 101, 11, 12), Göytəpənin D təbəqəsindən (11, s. 74, şəkil 19, 425; şəkil 21, 58, 87) məlumdur. Qızılburun polixrom boyalı qablarının oxşar xüsusiyyətlərindən biri ornamentlərin qoşa xətlər arasına çəkilməsi, rombşəkilli və üçbucaq ornamentlərin çoxluq təşkil etməsidir.

Küpələrdən biri gövdəsinin formasına görə digər Qızılburun küpələrindən fərqlənir (şəkil 2,2). Onun gövdəsi yarıyadək şarşəkilli, yarıdan aşağı konusvarıdır. Küpə indiyədək heç rastlanmayan orijinal naxışlanma stili ilə diqqəti çəkir. Naxışlar qoşa qara xətlər arasına alınmış torlu dördbucaq və onlara üfüqi vəziyyətdə birləşdirilmiş üçbucaqlardan ibarət olmaqla qırmızı və qara rəngdə çəkilmişdir. Küpənin boğazı və gövdəsinin aşağı qismi əlavə olaraq qara və qırmızı rəngli xətlərlə naxışlanmışdır (1, s. 74).

Silindir boğazlı, qabarıq gövdəli küpənin naxışlanmasında səliqəsizlik nəzərə çarpmaqdadır. O, qoşa xətlər arasına alınmış bir-biri içərisində yerləşdirilmiş üçbucaqlarla naxışlanmışdır. Naxışlar qara və qırmızı rənglərlə çəkilmişdir (şəkil 2, 4). Bənzərləri Şahtaxtı (7, s. 106, Çizim 21, 6; Çizim 23, 2), Ahlat muzeyi (8, res. 42, levha 47, 2), Van muzeyi (8, levha 99, 4; levha 100, 2), Haftavantəpənin son VI B təbəqəsindən (10, s. 241, şəkil 116; s. 351, şəkil 2) məlumdur.


Polixrom boyalı qabların müəyyən mərhələsində ortaya çıxan heyvan təsvirlərinə Qızılburun polixrom boyalı qablarında da rast gəlirik. Belə küpələrdən biri xaricə qatlanmış ağız kənarlı, qabarıq gövdəli, silindrik boğazlıdır. Gövdəsinin mərkəzi qismində torlu dördbucaq və quş rəsmi təsvir edilmişdir (şəkil 2,7). Naxışlar aşağıdan və yuxarıdan iki sıra qara rənglə çəkilmiş xətlərlə məhdudlaşdırılmışdır. T.B.Braunun fikrinə görə heyvan təsvirli polixrom boyalı keramika məmulatının Yaxın Şərq ölkələrində geniş yayılması e.ə. 1500-cü ilə aiddir. Haftavantəpənin son VI B təbəqəsinə aid olan bu tip keramika e.ə. 1600-1450-ci illərlə tarixləndirilmişdir (1, s. 93).

Qızılburun nekropolunda aşkar olunan qısa boğazlı, qabarıq gövdəli küpənin gövdəsinin mərkəzi qismi qara rəngli xətlər arasına alınmış bitişik romblarla, boğazının altı isə üç sıra qırmızı və qara rəngli xətlərlə naxışlanmışdır (şəkil 2, 6), (1, s. 74). Bənzərlərinə Şahtaxtı (7, s. 106, çizim 21, 4, 5; çizim 23, 1), II Kültəpə (1, s. 116, şəkil 28, 3), Dinkatəpənin IV D təbəqəsi (12, s. 199-203, tab. 12.1.1), Ahlat muzeyində (8, levha 47, 1) rast gəlinir.

Qısa boğazlı, qabarıq gövdəli küpənin birinin naxışları torlu romb və qoşa üçbucaq düzümlərindən ibarətdir (şəkil 2, 3). Bənzərləri Haftavantəpənin son VI B təbəqəsi (10, s. 181, şəkil 89, 9; s. 183, şəkil 90, 6, 8, 11; s. 187, şəkil 92, 15; s. 197, şəkil 97, 2, 13; s. 203, şəkil 100, 1, 4, 17; s. 205, şəkil 101, 8), Van muzeyi (8, levha 77, 1, 2, 3; levha 87, 1, 4), Qaziantep muzeyi (8, levha 87, 2), Ərzurum muzeyi (8, levha 66, 5; levha 87, 5), Ahlat muzeyi (8, levha 45, 1, 2; levha 88, 2), Çaygəldidən (15, şəkil 4, 5) məlumdur. Azərbaycanda isə bu tip bəzəmə stilini Həsənsu kurqanının (5, s. 90, tab. XVII, 2) boyalı qabları arasında görmək olur. Həsənsu kurqanından götürülən kömürün analizi e.ə 1750-ci ili göstərmişdir (5, s. 90).

Qızılburunda aşkar olunmuş bikonik gövdəli, qısa boğazlı çölməyin naxışlanma motivi digərlərindən fərqlənir. Onun boğazının altı qara və qırmızı rənglərlə çəkilmiş enli düz xətlərlə, gövdəsinin mərkəzi qismi isə sarı rəng üzərindən qoşa xətlər arasına alınmış bitişik romblarla

naxışlanmışdır (şəkil 2, 5). Bənzərləri Şahtaxtı (7, s. 105, çizim 20; 5-11; çizim 21, 1, 4, 5-7), Qaratəpə (2, s. 138, foto 52), Qaziantep muzeyi (14, s. 13, şəkil 12), Van muzeyi (13, s. 19, no 44), Diyarbakır muzeyi (8, levha 62, 7), Dinkatəpənin IV D təbəqəsi (12, s. 199-203, tab. 12.1.1), Haftavantəpənin son VI B təbəqəsi (10, s. 185, şəkil 91,7; s. 187, şəkil 92, 2, 4, 13; s. 191, şəkil 94, 2, 14; s. 195, şəkil 96, 1, 6; s. 199, şəkil 98, 12, 14; s. 203, şəkil 100, 14; s. 205, şəkil 101, 11, 12), Göytəpənin D təbəqəsindən (11, s. 74, şəkil 19, 425; şəkil 21, 58, 87) məlumdur. T.B.Braun N.V.Fyodorovun qazıntıları zamanı aşkar olunan Qızılburunun birinci qrupuna aid etdiyimiz boyalı qablarını Göytəpənin D və C dövrü ilə sinxron olduğunu qeyd etmişdir (11, s. 82). T.B.Braun Göytəpənin D və C təbəqəsindən aşkar olunmuş polixrom boyalı qabları e.ə. 2000-1700-cü illərə aid etmişdir (11, s. 82-91).



Şəkil 2. Qızılburundan aşkar olunmuş polixrom boyalı qablar.

Qızılburunda aşkar olunmuş küpələrdən biri naxışlarının kompozisiyasına görə fərqlənir. Küpə torlu üçbucaq və romblarla naxışlanmışdır. Küpənin gövdəsi bir-birinə bitişik və əsasları aşağıya olan iti üçbucaqlarla bir neçə yerdə məhdudlaşdırılaraq, onların arasındakı boş sahə torlu romb və iti üçbucaqlarla bəzədilmişdir. İki yerdə üçbucaqlar arasında geyimli kişi və qadın təsvirləri verilmişdir. Onlar qarşı-qarşıya durmuş, ayaqları dizdən qatlanmışdır. Qolları dirsəkdən bükülərək, yuxarıya qaldırılmış və yanlara aparılmışdır (3, s. 58, IV tab., 4-5-ci şəkil). Kişinin çuxası, şalvarı və çəkmələri qara, papağı və qurşağı isə qırmızı rənglə çəkilmişdir. Sol əlində qırmızı rəngli yaylıq tutmuşdur. Qadın rəsmi qırmızı rənglə təsvir edilmişdir. Onun qısa paltarı milli Azərbaycan geyimi olan küləçəyə oxşayır. Qadının çiyinlərinə sanki lələklər taxılmışdır. Burada qoşa rəqsetmə səhnəsi təsvir olunmuşdur (3, s. 58).

Qızılburun materiallarının içində diqqəti cəlb edən tapıntılardan biri də kişi fiqurudur. Bu fiqur N.V.Fyodorov tərəfindən qədim məbəd yerindən tapılmışdır. V.Əliyev fiquru belə təsvir edir: "Azərbaycanın digər qədim fiqurlarından fərqli olaraq realistik şəkildə hazırlanmış bu fiqurun içərisi boşdur, üzü yastı olub, gicgahı bir qədər qabarıqdır. Baş və bədən üzvləri çox mütənasib şəkildə yerləşdirilmişdir. Sol əl kəmərin üzərinə aparılmışdır. Hər iki qolunun yarısı qırılmışdır. Bu fiqurun bir üstünlüyü də paltarlı olmasıdır. Uzun, ağ arxalığı və ayaqqabısı vardır. Hündür papağına və qıçlarına qırmızı rəng çəkilmişdir. Arxalığı hər iki yandan ayağınadək uzanır. Yaxası və kəməri qabarıq verilmişdir. Bədən nazik xətlərlə, qara və qəhvəyi rənglərlə naxışlanmışdır. Hündürlüyü 20 sm-ə qədərdir" (3, s. 61-62, şəkil 7). Bu fiqur qədim dövrün geyimləri haqqında fikir yaratdığı üçün əhəmiyyətlidir. Qızılburunda aşkar olunan küpə üzərindəki kişi təsviri və tapılan kişi fiquru onu göstərir ki, Orta Tunc dövründə cəmiyyətdə kişilərin rolu üstün olmuşdur.

Araşdırmalara əsasən demək olar ki, Qızılburun yaşayış yeri strateji cəhətdən əlverişli mövqedə yerləşmiş, lakin qala divarları ilə əhatələnməmişdir. Orta Tunc dövrü üçün xarakterik olan tikinti texnikası burada da izlənir və yaşayış binaları dördkünc formada inşa edilmişdir. Naxçıvanda daş qutu qəbirlərə rast gəlinsədə, kollektiv dəfnlərə az təsadüf olunur. Qızılburun nekropolunda tədqiq edilmiş qəbirlərin isə demək olar ki, hamısı üçün kollektiv dəfnlər xarakterikdir.

Qızılburun boyalı keramikasının təhlili onu göstərir ki, qabların naxışlanmasında əsasən həndəsi motivlər (romblar, əsasları aşağıya və yuxarıya çevrilən, içəriləri torlu və bir-birinə bitişik üçbucaqlar) üstünlük təşkil edir. Bu materialların təhlilinə əsasən Qızılburunun Orta Tunc dövrünə aid polixrom boyalı qablarını e.ə. 1800-1700-cü illərə aid etmək olar. Qızılburun keramikasının Urmiya hövzəsi abidələrinin keramikası ilə oxşarlığı da bunu deməyə əsas verir. Boyalı qabların ornamentlərindəki lokal xüsusiyyətlər, o cümlədən Şahtaxtı polixrom boyalı qabları ilə bənzərlik bu keramika məmulatlarının yerli dulusçular tərəfindən hazırlandığını təsdiq edir.

ƏDƏBİYYAT

1. Baxşəliyev V.B. Naxçıvanın qədim əkinçi-maldar tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
2. Baxşəliyev V., Novruzov Z. Sirabda arxeoloji araşdırmalar. Bakı: Oskar, 2010, 160 s.
3. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 168 s.
4. İsmayılzadə Q., İbrahimli B. Qızılburun nekropolu. Bakı: Elm və Təhsil, 2013, 120 s.

5. Müseyibli N., Ağalarzadə A. Həsənsu kurqanı. Bakı: Nafta-Press, 2013, 92 s.
6. Seyidov A.Q., Baxşəliyev V.B, Novruzlu Ə.M, Babayev V.M. Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri. Bakı: Azərbaycan, 1995, 96 s.
7. Belli O., Bahşaliyev V.B. Nahçıvan bölgesinde Orta ve Son Tunc Çağı boya bezemeli çanak çömlek kültürü // Middle and Late Bronze Age Painted Pottery culture of the Nakhchivan Region. İstanbul: Arkeoloji ve Sanat, 2001, 120 s.
8. Özfırat A. Doğu Anadolu yayla kültürleri (m.ö. II. Binyıl). İstanbul: Arkeoloji ve Sanat, 2001, 224 s.
9. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
10. Burney C.A. Excavation in Azerbaijan, Haftavan VI Period. London, 1983, 364 s.
11. Brown T.B. Excavation in Azerbaijan. 1948, London, John Murray 1951.
12. http://www.academia.edu/21514089/Eastern_Anatolia_Before_the_Iron_Age_A_View_from_Iran
13. Arkeoloji_dergisi_v-2_p1-31_30adaa3b6e.pdf
14. http://www.dlir.org/archive/archive/files/arkeoloji_sanat_tarihi_dergisi_v-4_p5-18_d74f000585.pdf
15. 1113_dosya_1355509802.pdf

AMEA Naxçıvan Bölməsi
E-mail: turanheshimova@mail.ru

Turan Hashimova

PAINTED CERAMICS OF GYZYLBURUN SETTLEMENT AND NECKROPOLIS

Gyzylburun settlement and necropolis are the most important monuments of the Middle Bronze Age in Nakhchivan. The remaining area of the settlement is 2 hectares. During the excavation, a 2 m thick cultural layer was explored. The main part of the discovered ceramic products consists of painted vessels, made of high quality, and its surface decorated black over red, sometimes red over black. Stone box graves are characteristic for Gyzylburun necropolis. Ceramic products found in settlement and necropolis consists of polychrome painted pottery. The materials found in the necropolis are mainly divided into three groups by researchers. Some of these materials belong to the Middle Bronze Age. On the basis analysis of archaeological materials, the Middle Bronze Age polychrome-painted pottery of Gyzylburun may be dated to 1800-1700 BC. Similarities of Gyzylburun ceramics with ceramics Urmia basin monuments' gives also to speak about this matter. The local features of the ornaments on painted pottery, as well as the similarity with the Shahtakhty polychrome painted vessels, confirm that these pottery products are made by local potters.

Keywords: *Gyzylburun, settlement, necropolis, Middle Bronze Age, polychrome painted ceramics.*

Туран Гашимова

РАСПИСНАЯ КЕРАМИКА ПОСЕЛЕНИЯ КЫЗЫЛБУРУН И ЕГО НЕКРОПОЛЯ

Поселение Кызылбурун и его некрополь является значительным памятником эпохи средней бронзы на территории Нахчывана. Площадь сохранившейся части поселения составляет 2 гектара. Во время раскопок выявлен культурный слой толшиной 2 м. Основную часть археологических материалов составляют расписные сосуды, которые изготовлены очень качественно и расписаны черными и красными цветами по красному или же желтому фону. Для некрополя Кызылбурун характерны погребения типа каменного ящика. Определенную часть керамических изделий, выявленных из поселения и некрополя, составляет полихромная расписная керамика. В основном, материалы некрополя исследователями разделены на три типа. Определенная часть этих материалов относятся к эпохе средней бронзы. На основе интерпретации археологические материалы эпохи средней бронзы Кызылбуруна можно датировать 1800-1700 гг. до н.э. Керамические изделия некрополя Кызылбурун свои параллели находят среди материалов памятников Урмийского бассейна, которые также утверждают эти датировку. Локальные особенности расписной керамики Кызылбуруна, особенно сходство их с полихромной керамикой Шахтахты, позволяют утверждать, что они изготовлены местными мастерами.

Ключевые слова: *Кызылбурун, поселение, некрополь, эпоха средней бронзы, полихромная расписная керамика.*

(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 08.07.2019
Son variant 13.09.2019

UOT: 39 (4/9)

ASƏF ORUCOV

NAXÇIVAN ŞƏHƏRİNİN MADDİ MƏDƏNİYYƏTİ (XIX-XX əsr)

Məqalə XIX-XX əsr Naxçıvan şəhərinin tarix-etnoqrafik tədqiqinə həsr edilmişdir. Bəhs olunan dövrdə Naxçıvan şəhərinin adı dünyanın iri şəhərləri ilə birgə çəkildiyi qeyd edilmişdir. Araşdırmalardan məlum olmuşdur ki, Naxçıvan şəhəri tədqiq edilən və ya ondan əvvəlki dövrlərdə bir neçə dəfə xarici hücumlar nəticəsində dağılmış, sonrakı dövrlərdə yenidən bərpa edilmişdir. Məqalədə həmçinin Naxçıvan şəhərinin məhəllələri, hamamları, bazarları, şəhərin quruluşu və s. məsələlər də araşdırılmışdır. Naxçıvan şəhər məhəllələrinin XVI-XIX əsr məhəllələri əsrlər üzrə verilmiş, bu gündə həmin məhəllələrdən bəzilərinin mövcudluğu haqqında məlumat verilmişdir. Tədqiqata cəlb edilən dövrdə Naxçıvan şəhərində əhalinin təsərrüfat həyatında əsasən əkinçiliklə məşğul olduğu qeyd edilmişdir.

Açar sözlər: *Naxçıvan, şəhər, mədəniyyət, əkinçilik, bazar.*

Naxçıvan diyarı Azərbaycanın ən qədim şəhər məskənlərindən biridir. Bu diyarın baş şəhəri olan Naxçıvan isə Şərqdə və bütün dünyada ən qədim şəhərlərdən biri hesab olunur. Beş min ildən artıq tarixə malik olan Naxçıvan şəhəri sonralar Azərbaycanın iqtisadi, siyasi və mədəni mərkəzlərindən birinə çevrilmişdir. Antik dövrdə və eramızın ilk əsrlərində Naxçıvanda ictimai-iqtisadi və mədəni tərəqqi daha da sürətləndi. Şəhər xeyli genişlənərək Azərbaycanın əsas ticarət mərkəzlərindən biri olmuşdur. Tranzit yollar uzərində yer alan Naxcıvan, Şərq və Qərb ölkələri arasında bir keçid bölgəsi olmasından dolayı İran, Hindistan, Orta Asiya şəhərləri və Çin ilə yaxın bir ticarət əlaqələrinə girmiş, ortaçağın modern şəhərləri arasında yer almışdır.

Naxçıvan şəhəri tarixin müəyyən dövrlərində Naxçıvan şahlığının və Atabəylər dövlətinin paytaxt olmuş, buna görə də XII əsrdə Naxçıvan şəhəri özünün ən böyük iqtisadi və mədəni yüksəlişi dövrünü keçirmişdir.

R.Məmmədov Naxçıvanı Şərqin bir şox şəhərləri ilə müqaisə edərək, qeyd edir ki, XI-XII əsrlərdə şəhərin 150-200 min əhalisi olmuşdur [6, s. 61]. Tədqiqatçı M.Heydərov isə mənbələrə əsaslanaraq yazır: "Monqol dövrünə qədər Şərqin böyük şəhərlərinin bir-neçə yüz min əhalisi olmuşdur, bəzilərinin əhalisi isə milyonu aşırdı. Məsələn, Səmərqənddə əhalinin sayı 400 min, Bağdadda 200 min olduğu halda, Naxçıvan şəhərinin əhalisinin sayı 80-100 min idi" [12, s. 35].

XIII əsrin əvvəllərində isə fars dilində yazılmış müəllifi bilinməyən "Əcaib-əd dünya" adlı əsərdə Naxçıvan şəhərinin o dövrdəki vəziyyəti haqqında maraqlı məlumat verilmişdir: "Naxçıvan-Azərbaycanda böyük, əhalisi çox, hündürdə yerləşmiş möhkəm şəhərdir. Orada çoxlu köşklər (yəni şəhərkənarı yay sarayları), təntənəli eyvanlar, şəhər yaxınlığında daşdan tikilmiş qala və bu qalanın içərisində mədrəsə, məscidlər və qalada çox gözəl su bulaqları var idi. Şəhərin ətrafı çox gözəldir: burada bol axar su və yaşıllıq vardır. Araz nəhri şəhərin içindən keçir.... Eldənizin həşəmətli günlərində Naxçıvan ən əzəmətli şəkil aldı". Burada, "Əcaib-əd dünya" əsərində bəzi məsələlərə diqqət yetirək. Müəllifin yazdığı Araz nəhri şəhərin içindən keçir ifadəsi tamamilə yanlışdır. Çünki o dövrdə Naxçıvan şəhərinin indiki Naxçıvan şəhərinin yerində olması onu göstərir ki, Araz çayı ilə Naxçıvanın ortasından keçməsi mümkün deyildir. Bu çay çox güman ki, Naxçıvançaydır. Digər mənbədə isə yazılır: "Azərbaycanın ən çox möhkəmləndirilmiş şəhərlərindən biri Naxçıvan idi. Ətrafında möhkəm divar çəkilmiş bu

şəhər hərbi istehkama malik idi. Şəhər yüksəklikdə tikilmişdi ki, oradan şəhərin kənarında axan Araz çayının mənzərəsi açılırdı". Burada Araz çayının yeri dəqiqliyinən verilmişdir.

XIII əsrin ortalarından etibarən Naxçıvanda vəziyyət tamamilə dəyişməyə başlamışdı. Çünki artıq bu dövrdə Atabəylər dövlətinin varlığına son qoyulmuş, Naxçıvan Xarəzmşahların, sonra isə monqolların dağıdıcı basqınlarına məruz qalmışdı. Ancaq monqol işğallarının ağır nəticələrinə baxmayaraq Azərbaycanın digər şəhərləri kimi, Naxçıvan şəhəri də XIII əsrin sonlarından başlayaraq tədricən bərpa olunmağa başlamışdı. Bu inkişaf xüsusilə Qazan xanın hakimiyyəti dövründən başlayaraq yüksələn xətlə davam etmişdir. Həmdullah Qəzvini (1281-1346) Naxçıvan tüməninin 5 şəhərinin olduğunu, onlardan birinin də Naxçıvan şəhəri olduğunu qeyd edir. Həmdullah Qəzvini Naxçıvan haqqında yazmışdır ki, şəhər gözəldir və "Nəqşi-cahan" adlanır [10, s. 194]. Azərbaycan alimi Məhəmməd Hinduşah Naxçıvani şahidlik edirdi ki, "Bağdad və Təbrizdən sonra Naxçıvan kimi gözəl şəhəri göz görməmiş, qulaq eşitməmişdir".

Bütövlükdə XV əsr (əsrin əvvəli və sonunu nəzərə almasaq) Azərbaycanda şəhər həyatının nəzərə çarpacaq dərəcədə canlanması, şəhərlərin, o cümlədən Naxçıvanın ticarət-sənətkarlıq əhəmiyyətinin artması dövrü kimi qiymətləndirilə bilər. Şəhərlərin inkişafı həm daxili, həm də xarici bazarda əmtəələrə olan tələbatın artması ilə əlaqədar idi. Bunu dövrün qaynaqları da təsdiq edir. Əbdürrəşid əl-Bakuvi Naxçıvan şəhərindən bəhs edərək yazırdı: "Naxçıvan divarları və iç qalası olan Azərbaycan da gözəl şəhərdir. Bağlı-bostanlı, meşəli, meyvəli və çörəkli yerdir. Havası təmiz, suyu şirindir. Orada məşhur binalar, mədrəsələr və xanəgahlar var. Əhalisi nəqqaşlıqla və ağacdan qab-qaşıq və müxtəlif əşya düzəltməkdə mahirdir. Bütün bunlar müxtəlif ölkələrə aparılır" [2, s. 132].

XVII əsrdə Naxçıvanda olan türk səyyahı Ö.Çələbi də Naxçıvan şəhəri haqqında maraqlı məlumatlar vermişdir. Naxçıvana səfəri zamanı türk səyyahı Ö.Çələbi Naxçıvan şəhəri haqqında yazırdı ki, Naxçıvan şəhəri gözəldir, keçmişdə isə daha qəşəng olmuşdur, lakin monqollar bir çox tikililəri və Naxçıvan qalasını dağıdıb xarabaya çevirmişlər. Şəhərin Osmanlı-Səfəvi müharibələrindən qüvvətli ziyan çəkdiyini söyləmişdir. Naxçıvanda olarkən burada 10200 örtülü böyük torpaq ev, 70 cümə məscidi və ibadətxana, 20 mehmanxana, 7 gözəl hamam, 40 məscidi, təqribən 1000 dükan olduğunu bildirmişdir [3, s. 44]. Ö.Çələbinin verdiyi məlumata əsaslansaq həmin dövrdə Naxçıvanda 50000 əhalinin yaşadığı ortaya çıxır. Şəhərin əsas mərkəzi isə indiki Atabəylər memarlıq kompleksinin (Mömünə xatın məqbərəsinin ətrafı – A.O) yerləşdiyi meydan olmuşdur. XVI əsrin sonu-XVII əsrin əvvəllərində Səfəvi-Osmanlı müharibələrində şəhər xeyli dağıntıya məruz qalmışdı. XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Naxçıvan bölgəsində yalnız iki şəhər – Naxçıvan və Ordubad orta əsr şəhərləri kimi qalmışdı. Hazırda isə Naxçıvan Muxtar Respublikasında beş şəhər – Naxçıvan, Ordubad, Culfa, Şərur, Şahbuz vardır.

Naxçıvan şəhərində yerləşən tikililər əsasən yaşayış evlərindən, inzibati binalardan, məscid və mədrəsələrdən, ticarət obyektlərindən, hamamlardan, mehmanxanalardan ibarət olmuşdur.

Evlərin quruluşuna gəldikdə isə bəhs olunan dövrdə evlər əsasən bir mərtəbəli, yastı vəziyyətdə hörülmüşdür. Tikinti materiallarına gəldikdə evlərin tikintisində yerli materiallardan kərpicdən, gəcdən və palçıqdan istifadə edilirdi. Hətta belə evlər XIX-XX əsrin ortalarına qədər davam etmişdir. Hasarlar isə hündür idi. Sonraki dövrlərdə belə evlərin yerində və yaxud da boş sahələrdə 4-5, bəzi hallarda 9 mərtəbəli binalar, 2 mərtəbəli həyət evləri tikilməyə başlandı.

Suvarma sistemi əsasən iki çay vasitəsi ilə aparılırdı. XIX əsrdə Naxçıvanda olmuş V.Qriqoryev yazır ki, "şəhərin ortasından Naxçıvançaydan çəkilmiş xəndəklər (su kanalları) keçirdi ki, bunlar da şəhərdəki bağların və əkin sahələrinin suvarılmasına xidmət edirdi" [13, s. 70]. Həmin dövrdən bəhs edən K.Nikitin də şəhərin mərkəzindən axan və suvarmada istifadə edilən çay qolları və arxlardan bəhs etmişdir. O yazır: "Naxçıvanın ortasından arx keçir. Bu arx şəhər əkinlərini və bağlarını su ilə təchiz edir. Lakin bu arxın suyu şəhər təsərrüfatına kifayət etmirdi. Çünki Naxçıvan çayı boyunca yerləşən kəndlərin əhalisi əkinlərin becərilməsi üçün bu sudan istifadə edirdi. Digər tərəfdən yaz və yay vaxtları çayın suyu azalır, bəzən büsbütün quruyurdu. Bu da şəhər təsərrüfatında su çatışmazlığına gətirib çıxarırdı. Su çatışmazlığı çox zaman şəhər əhalisinin narazılığına səbəb olurdu" [14, s. 118-119]. Qeyd edək ki, şəhərin ortasından keçən Bazar çayı XX əsrin 60-cı illərinə qədər Naxçıvan şəhərinin içərisindən axırdı. Əsrin 60-cı illərində çayın üstü beton plitələrlə örtülmüşdür.

Naxçıvan şəhərinin məhəllələrinə nəzər saldıqda isə 1590-cı il tarixinə görə 12 məhəllədən ibarət olmuşdur. 1590-cı il dəftərinə görə Naxçıvanda əhalinin çox bir qismi böyük ölçüdə şəhər mərkəzində yaşadığı müəyyən edilmişdir. Şəhər əhalisinin sayı bütün əhali sayının 60% təşkil etmişdir. Bu da bizə o dönəmdə şəhərləşmənin sürətlə inkişaf etdiyini göstərir.

Məhəllələrin adlarına gəldikdə isə bir şəxsin adı ilə (Hüseyn, Əhmədi, Mirzə) uyğun məhəllə adının olduğu diqqət çəkməktədir. Burada diqqətimizi çəkən məsələlərdən biri də odur ki, digər mənbələrdən fərqli olaraq burda məhəllələrin sayı 12 götürülməyin səbəbi odur ki, burada Seyid Hüseyn məhəlləsini ayrı-ayrılıqda yəni, Seyid və Hüseyn şəkildə götürülüb. Ancaq bizim araşdırmalarımıza görə Seyid Hüseyn məhəlləsi bir olmalıdır, yəni ikisi bir məhəllənin adını bildirmişdir.

1727-ci ildə tərtib edilən Naxçıvan sancağının "Müfəssəl dəftər"ində Naxçıvan şəhərinin məhəlləsi barədə də dolğun məlumat vardır. Mənbədə yazılır: "Naxçıvan 11 məhəlləsi (Qaziyi-cahan, başqa adı Xacə Mirixan, Seyid Hüseyn, Molla Əhməd, Mirzəbəy, Şahab, Günbəz, başqa adı Nuri-Kamanlar, Bala, Hacıbəy, Xuzəmərək, Tizxiran, Qala, məhəlleyi-gebran) olan şəhər olmusdur". XIX əsrin birinci yarısında isə Naxçıvan şəhəri inzibati cəhətdən dörd məhəlləyə bölünmüşdür. Bunlar Əlixan, Şahab, Qurdlar, Sarbanlar (Sarvanlar – A.O) məhəllələri idi. İ.Şopen sonralar şəhərdə daha yeni məhəllələrin yarandığını qeyd edir və 13 məhəllənin adını çəkir [15, s. 477]. Bir məsələni vurğulamaq istərdik ki, istər XVIII, istərsə də XIX əsrlərdə adları çəkilən məhəllələrin bəziləri bugün də yəni, XXI əsrin əvvəllərində də mövcuddur və xalq arasında eyni adla bilinməkdədir.

"Müfəssəl dəftər"in tərtib edildiyi dövrdə Naxçıvan şəhərində 3 came (cameyi-Qızıl Arslan, cameyi-Məhmad kətxuda, Cameyi-şərif (bu came sultan III Muradın şərəfinə ucaldılmışdı) və 10 məscid var idi [8, s. 143]. Ancaq yuxarıda qeyd etmişdik ki, Ö.Çəlibinin Naxçıvana səyyahət etdiyi zaman burada 70 cümə məscidinin, 40 məscidin, ümumiyyətlə, 110 məscidin olduğunu gostərmişdi. Buradan bir sual ortaya çıxır ki, onda necə oldu ki, birdən-birə təqribən 80 ilə yaxın bir dövrdə 67 cümə məscidi, 30 məscid tamamilə dağıdıldı. Bizim fikirimizə görə Ö.Çələbi məscidlərin siyahısını düzgün verməmişdir. Çünki hələ XVII əsrin əvvəllərində Naxçıvan Səfəvi Osmanlı müharibəsinin ağır nəticələri ilə üzləşmişdi.

Orta əsr Naxçıvan şəhəri haqqında fransız səyyahı Şardənin də müxtəlif fikirləri olmuşdur. Şardən 12 aprel, 1673-cü ildə Naxçıvanda olmuşdur. O, qeyd edir ki, Naxçıvan səksən faiz dağılmış böyük bir şəhərdir: yaxud böyük və qeyri-adi viranə topasıdır. Bu şəhər yavaş-yavaş məskunlaşır və bərpa olunur. Şəhərin mərkəzi hal hazırda yenidən qurulmuş və

məskunlaşmışdır. Naxçıvanda beş karvansara, hamamlar, bazar meydanları, tütün və qəhvə verən iri mehmanxanalar və təxminən iki min ev vardır. Fars tarixçiləri əvvəllər orada qırx min ev olduğunu təsdiq edirlər [9, s. 45].

XVII əsr fransız səyyahı Taverniye də bu dağıntılar haqqında yazmışdı: "Naxçıvan çox böyük şəhərlərdən biri olmuşdur. O, Sultan Murad tərəfindən tamamilə dağıdılmışdır. Orada çoxlu miqdarda dağıdılmış gözəl məscidlərin xarabalıqları görünür. Bu məscidlər osmanlılar tərəfindən darmadağın edilmişdir". Onu da qeyd edək ki, J.Taverniyer iki dəfə XVII əsrin 30-60-cı ilərində (1634-1664) Naxçıvanda olmuşdur. Ancaq sonrakı dövrlərdə müvəqqəti yüksəlişinə baxmayaraq, Naxçıvan öz sabiq əzəməti və ehtişamını bir daha geri qaytara bilmədi. Təkcə əvvəlki dövrlərə nisbətən şəhərdəki evlərin və əhalinin miqdarındakı mühüm fərq bu fikri sübut etmək üçün kifayətdir [11, s. 94].

Bütün bunlara baxmayaraq, istər birinci, istərsə də ikinci Rus-Qacar müharibələrinin gedişi zamanı bütün ərazilər kimi Naxçıvan şəhəri də güclü dağıntıya məruz qalmışdır. Əhalinin bir hissəsi etiraz əlaməti olaraq şəhəri tərk etmiş və qonşu ölkələrə qaçmışdır. Nəticə də şəhər əhalisi kəskin şəkildə azalmış, orada evlərin sayı təxminən 700-ə enmişdi.

Naxçıvan şəhərində mövcud olan bazarlara gəldikdə isə Naxçıvan sancağının müfəssəl dəftərinə görə, 1727-ci ildə Naxçıvan şəhərində 5 bazar (Xətib bazarı, Şeytanbazar, Çanaq, Türangi, Meydan) olmuşdur [8, s. 10]. F.Əliyev tədqiqatında çox doğru olaraq göstərir ki, bazarlar şəhərin ticarət mərkəzi olmaqla yanaşı, eyni zamanda onun ictimai həyatının da mərkəzi idi. Ölkədə baş verən bir çox yeniliklər haqqında məlumat, son xəbərləri bazarda eşitmək olurdu. Bazar meydanında camaata carçılar vasitəsilə şəhər hakiminin, bəylərbəyinin və hətta şahın əmrləri belə çatdırılırdı [4, s. 48]. E.İsayev bazarlar haqqında yazır ki, "Naxçıvan bazarı böyük və izdihamlı olardı. Burada müxtəlif ölkələrdən gəlmiş tacirlərə təsadüf edilirdi" [5, s. 126]. Günümüzdə Naxçıvan şəhərində iki bazar (Cahan və yaxud 57 bazarı, Köhnə bazar – A.O) fəaliyyət göstərir. Bunlardan əlavə bir avtomobil bazarı da mövcuddur.

Orta əsr XVI-XVII əsrlərdə Naxçıvan şəhəri sənətkarlıq və ticarət mərkəzi olmaqla yanaşı onun iqtisadiyyatında bağçılıq, bostançılıq və əkinçilik, o cümlədən, buğda, arpa və çəltik əkini mühüm yer tuturdu [1, s. 50]. Ö.Çələbinin yazdığına görə hətta şəhərin mərkəzindəki geniş bir sahədə taxıl əkilirdi [3, s. 44].

R.Məmmədov yazır ki, şəhərdə kənd təsərrüfatı məhsullarının becərilməsi yerli hakimlərin mənafeyinə uyğun olduğundan onlar özləri bəzən bunun üçün şərait yaradırdılar. Bu da heç təsadüf olmayıb, qanunauyğun hadisə idi". Məlum olduğu kimi, Naxçıvan orta əsrlərdə tez-tez düşmən qoşunlarının hücumuna məruz qalır və mühasirədə olurdu. Qalaya heç bir vasitə ilə ərzaq məhsulları, xüsusilə taxıl gətirmək mümkün olmurdu. Belə vəziyyət, yəni taxıl və ərzaq məhsullarının çatışmaması, çox zaman şəhərin məğlubiyyətə uğramasına səbəb olurdu. Odur ki, Naxçıvanın yerli hakimləri şəhərin heç olmasa minimum dərəcədə taxılla təmin olunması üçün burada əkinçiliklə məşğul olanlara mane olmurdular [6, s. 107]. Naxçıvan şəhər kimi mövcud olsa da, ancaq təsərrüfat sahələrini özündə çəmləşdirmişdir. Yəni təsərrüfatın bütün sahələri burada mövcud olmuşdur. Onu da qeyd edək ki, topladığımız etnoqrafik çöl materiallarına görə XX əsrdə belə Naxçıvan şəhərinin mərkəzində indiki dram teatrın binasının yerləşdiyi yerdə taxıl əkilərmiş. XXI əsrin əvvəllərini də belə götürsək demək olar ki, şəhər əhalisində həyət evlərində yaşayan insanların bir çoxu öz həyatyanı sahələrində öz tələbatlarını ödəmək üçün pencər, xiyar, pomidor, bibər, lobiya və s. əkirlər.

Beləliklə, bütün bu tarixi faktlara əsaslanaraq demək olar ki, tarixin müəyyən dövrlərində Naxçıvan şəhəri böyük şəhərlər sırasına qədər yüksəlmiş, beynəlxalq aləmdə həmişə diqqət mərkəzində olmuş, müəyyən dövrlərdə isə dağıdılıb xarabazarlığa çevrilmişdir. Bütün bu hadisələr onun maddi mədəniyyətinə böyük təsir göstərmişdir.

ƏDƏBİYYAT

1. Babayev S. Səyyahlar Naxçıvan haqqında // Azərbaycan tarixində Naxçıvan. Bakı: Elm, 1996, s. 42-55.
2. Bakuvi Ə. "Abidələrin" xülasəsi və qüdrətli hökmdarın möcüzələri. Ərəbcədən tərcüməsi, müqəddimə və şərhləri akademik Ziya Bünyadovundur. Bakı: Elm, 1992, 176 s.
3. Çələbi Ö. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr). Türk dilindən işləyəni və şərhlərin müəllifi tarix elmləri doktoru S.Onullahi. Bakı: Azərnəşr, 1997, 92 s.
4. Əliyev F. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1964, 124 s.
5. İsayev E. Naxçıvan şəhər mədəniyyətinin formalaşması və inkişafında ticarət və sənətkarlığın rolu / Naxçıvan: ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: Əcəmi, 2013, s. 124-129.
6. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 160 s.
7. Nəcəfli T. Naxçıvan XVI-XVII əsrlərdə / Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Bakı: Nurlan, 2008, s. 86-97.
8. Naxçıvan sancağının müfəssəl dəftəri (27 avqus 1727). Giriş və tərcümənin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı, 1997, 336 s.
9. Şardən J. Səyahətnamə. Fransız dilindən tərcümə edəni Vaqif Aslanovdur. Bakı: Elm, 1994, 96 s.
10. Zeynəddin bin Həmdullah Qəzvini. Zeyl-e tarix-e qozide ("Seçilmiş tarixə" əlavə). Giriş, tərcümə, şərhlər və göstəricilər M.D.Kazımovun və V.Z.Piriyevindir. Bakı: Elm 1990, 212 s.
11. Tavernier Jean-Baptiste. Tavernier Seyahatnamesi, Hazırlayan: Ali Berktay, çev. Teo man Tunçdoğan. İstanbul: Kitap Yayınları, 2010, 343 s.
12. Гейдаров М. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку: Элм, 1982, 280 с.
13. Григорьев В.Н. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург: тип. Деп.внеш.торг., 1833, 264 с.
14. Никитин К. Город Нахичевань и Нахичеванский уездъ // Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК). Вып.2, Тифлис, 1882, с. 109-142.
15. Шопен И. Исторической памятник состояния Армянской области в эпоху её при соединения к Российской империи. Санкт-Петербург: Типография Императорской Академии Наук, 1852, 1231с.

AMEA Naxçıvan Bölməsi
E-mail: aseforucov@yahoo.com.tr

Asaf Orujov

MATERIAL CULTURE OF THE NAKHCHIVAN CITY (XIX-XX century)

The paper is dedicated to the historical and ethnographic survey of the city of Nakhchivan in the XIX-XX century. It is noted that the name of Nakhchivan city was taken together with large cities of the world. It has been discovered that the city of Nakhchivan has been researched or destroyed several times during foreign missions and has been restored in subsequent periods. The article also describes the neighborhoods, hammams, bazaars, city structure, etc. of Nakhchivan were investigated. The XVI-XIX centuries of Nakhchivan neighborhoods were given centuries, and today there are information on some of those neighborhoods. During the period involved in the study, it was noted that the population of Nakhchivan mainly engaged in agriculture.

Keywords: *Nakhchivan, city, culture, agriculture, bazar.*

Асеф Оруджев

МАТЕРИАЛЬНАЯ КУЛЬТУРА ГОРОДА НАХЧЫВАНА (XIX-XX вв)

Статья посвящена историко-этнографическому исследованию города Нахчывана в XIX-XX веках. Отмечается, что название города Нахчыван было взято вместе с крупными городами мира. Было обнаружено, что город Нахчыван несколько раз разрушался во время иностранных вторжений и был восстановлен в последующие периоды. В статье также описываются кварталы, бани, рынки, структура и т. д. города Нахчыван, эти вопросы также были расследованы. Некоторые кварталы Нахчывана были основаны в XVI-XIX веках, и сегодня есть сведения о некоторых из этих районов. За рассматриваемый период было отмечено, что население Нахчывана в основном занималось сельским хозяйством.

Ключевые слова: *Нахчыван, город, культура, сельское хозяйство, рынок.*

(Tarix elmləri doktoru Şirin Bünyadova tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 11.07.2019
Son variant 16.09.2019

UOT: 39(4/9)

ŞƏHLA NURUZADƏ

NOVRUZ ADƏT-ƏNƏNƏLƏRİ (CƏBRAYIL RAYONUNUN VƏ NAXÇIVANIN MATERIALLARI ƏSASINDA)

Novruz bayramı azərbaycanlıların tarixi yaddaşını, dünyagörüşünü, adət-ənənələrini, dini inanclarını, mifologiyasını əks etdirən özünəməxsus dəyərlər toplusudur. Novruz bayramı mərasimləri özündə qışın sona çatması, təbiətin yenilənməsi, təsərrüfat həyatı üçün əlverişli şəraitin yaranmasının başlanması haqqında təsəvvürləri, bu mərasimlərlə əlaqədar inancları əks etdirir. Məqalədə Cəbrayıl rayonunun Horovlu kəndinin Novruz bayramı mərasimləri ilə bağlı adət-ənənələri (sarımçak (yelləncək), yumurta boyama, məşəl yandırma və s.) və inancları lokal və ümumtürk kontekstində araşdırılır. Horovluların Novruzla əlaqədar ən vacib inanclarından biri də Xıdır Nəbi ilə əlaqədardır. Ümumiyyətlə, bütün türk xalqlarında olduğu kimi, cəbrayıllılarda da Xıdır Nəbi ilə əlaqədar bir sıra inanclar var idi. Azərbaycanın müxtəlif bölgələrində xeyirxah ruhlarla əlaqədar inam və etiqadlarda Xıdır Nədi, Xıdır İlyas (Xızır) obrazları xüsusi yer tutur. Adət-ənənələrin, inancların özünəməxsusluğu, lokallığı həmin bölgələrin sakinləri tərəfindən qorunur və nəsildən-nəsilə ötürülür. Azərbaycanın Ermənistanın işğalı altında olan bölgələrinin adət-ənənələrinin, o cümlədən Novruz adət-ənənələrinin, mərasimlərinin lokal xüsusiyyətlərinin tədqiqi məqalənin yazılmasında əsas məqsəd daşıyır.

Açar sözlər: *Novruz, çərşənbə, Xıdır Nəbi, Horovlu kəndi, milli-mənəvi dəyərlər.*

Xalqın milli-mənəvi dəyərlər sistemi onun tarixi inkişaf mərhələlərinin göstəricisidir. Novruz bayramı azərbaycanlıların tarixi yaddaşını, dünyagörüşünü, adət-ənənələrini, dini inanclarını, mifologiyasını əks etdirən özünəməxsus dəyərlər toplusudur. Novruz bayramı qışın sona çatması, təbiətin yenilənməsi, təsərrüfat həyatı üçün əlverişli şəraitin yaranmasının başlanmasıdır. Qədim dövrlərdən havaların istiləşməyə başlaması, bununla da torpağın oyanması, isti küləyin əsməsi, buzların, qarın əriməsi və bulaqlara, çaylara axan suların çoxalması ilə suyun təzələnməsi, günəş şüalarının çoxalması kimi hadisələr maldarlıq və əkinçiliklə məşğul olan insanlarda sevinc, bayram əhval-ruhiyyəsi oyadırdı. Səfəvi tarixçisi, şair və xəttatı İsgəndər bəy Münşi Türkman "Dünyanı bəzəyən Abbasın tarixi" (Tarixe-aləmaraye Abbasi) adlı əsərində yazır: "Qış sona yetdikdə aləmi işıqlandıran Novruz xoşbəxtlik (fərroxi) və mübarəkbadlığa başladı. Dünyanı işıqlandıran Novruzu gəlib yetişdi, cahanın işrətabad yerləri bahar (rəbi) mövsümünün qədəmlərindən tazə təravət tapdı... Qışın və şaxtanın şiddəti azaldığı üçün bahar şahı cahan gülüzarını öz qədəmləri ilə bəzədi, bahar nəsimi aləmin təravətini artırdı.

Şadlığa üz tutdu bahar yelləri,
Qızdı hava, etdi sevincək yeri.
Şeh o təhər qondu yerin üstünə,
Bağe-behist oldu çəmənlər yenə" [7, s. 506; 735; 750].

Orta əsr müəllifi əl Məsudi Novruzun yay fəslinin, Mehrikanın isə qış fəslinin başlanğıcı olduğunu yazırdı [4, s. 8]. Avesta təqviminin əsasını fəsil bölgüləri təşkil etmişdir. Avesta təqvimində il iki fəslə bölünür. Bunlardan biri yeddi ay davam edən "böyük yay", digəri isə beş aydan ibarət qış fəsli idi. Xızır adlanan hissə altı aylıq yay mövsümünün başlanğıcı sayılırdı. Xızır 28 apreldə, Qasım günü isə 26 oktyabrdan başlanırdı. Bir sıra orta əsr müəllifləri – Ə.Biruni, Qəzvini, Ə.Səmərqəndi Mehrikanı payızın başlandığı gün (mehr ayının 16-da) kimi qeyd etmişlər [12, s. 91]. Etnoqraf Məmməd Dadaşzadə "Azərbaycan xalqının

orta əsrlər mənəvi mədəniyyəti" adlı tədqiqat işində Mehrikan bayramının "bəzi yerlərdə regiondan asılı olaraq bir ay, yaxud bir həftə ərzində keçirildiyini" yazırdı.

Novruzda olduğu kimi, Mehrikan bayramında da hər evdə zəngin bayram süfrəsi açılır, qohum-qardaş, qonşular bir-birinin evinə gedib noğul-nabat, meyvə-şirniyyatla bir-birlərinin bayramlarını təbrik edirmişlər. Əgər Novruzda əhali ayazlı-şaxtalı qışdan qurtulduqlarını bayram edirdilərsə, Mehrikanda zəhmətlərinin bəhrəsini, məhsul bolluğunu təntənə ilə qeyd edirdilər [5, s. 91]. Fəsillərin bu cür bölgüsü bir sıra xalqlarda da mövcud olmuşdu. Məsələn, türklərdə ilin birinci hissəsi Xızır, ikinci hissəsi isə Qasım adlanırdır. Əkinçi və maldarlar üçün yazın gəlişi həmişə həyat, şadlıq və sevinc mənbəyi olmuşdur. Bir sıra xalqlarda olduğu kimi, Azərbaycanda da qədimdən yazın gəlişi ilin başlanğıcı bayram kimi qeyd edilmişdir. Azərbaycanlıların Novruz bayramı mərasimlərində türk xalqlarına xas inanclar, adət-ənənələr, dünyagörüşü özünü göstərir. İsgəndər bəy Münşi yazır: "Türklər (ətrak) və əcəm əhli üçün ilin başlanğıcı Novruzun başlanmasıdır. Novruzun başlanması isə aləmi bəzəyən baharın əvvəlidir. Yeni novruzun gəlməsindən ötrü gərəkdir ki, dörd fəsl bitmiş olsun və yeni il başlansın" [7, s. 659]. Göründüyü kimi, Novruz bayramının qeyd olunması ilin fəsilləri, gecə ilə gündüzün bərabərləşməsi, yazın gəlməsi ilə sıx əlaqəlidir.

Cəbrayılda isə əsasən beş çərşənbənin olması haqqında məlumat var. İlk çərşənbə – yalançı çərşənbə fevralın son həftəsinə təsadüf edir, daha sonra su, od, torpaq və yel çərşənbələri. İnama görə, su çərşənbəsində su təzələnir. İlaxır çərşənbədə, əsasən də su çərşənbəsində səhəngin suyunu yerə töküb səhər tezdən bulaqdan təzə su götürərdilər [19; 20; 21]. Bu inamda su ayini özünü göstərir. İnformatorların verdiyi məlumata görə çərşənbələrin hamısında odun üstündən (tonqaldan) tullanardılar. Hər bir ailə öz həyətində tonqal qalayardı və kənddə ümumi tonqal yandırılardı [19; 20; 21]. Hər bir ailənin öz tonqalının qalanması adəti Azərbaycanın bütün bölgələrində var idi. Hacı Qədir Qədirzadə "Milli-mənəvi dəyərlərimiz" adlı kitabında Naxçıvanda axşam, gün batanda həyətlərdə tonqal yandırıldığı və ailə üzvlərinin tonqal üzərindən atıldığı haqqında məlumat verir [9, s. 47]. Çərşənbə axşamında "azarım-bezarım burda qalsın" sözlərini deyib od üstündən yeddi dəfə tullanar, bununla da adamlar köhnə ilin azar-bezarını, dərd bəlalarını özlərindən qovub təzə ilə "təmiz" qədəm qoyacaqlarına, azar-bezardan qorunacaqlarına inanırlar. Bu mərasimdə od ayini, odun təmizləyici roluna inam özünü göstərir. İsgəndər bəy Munşi yazır: "Qış fəsli sona çatdı və bahar küləyi paklıq və yaşıllıq çağırışına (səla) başladı, bağ və bostanların işrət yerləri (eşrətsəra) güllərlə bəzəndi... Dey ayının şaxtası azalmağa başladığından ruzigarın məcazi təbii yüksəlişə başladı, yəni aləmi bəzəyən bahar havanı dəyişdi, adamların burunlarına bahar güllərinin ətri və ruzigar gülzarının müşk ənbər qoxulu nəsimi doldu, cahan bostanları paklandı və təravətləndi:

Cahan içrə elə oldu havanın təsiri ki,
Qoca dünya bu cahan şahı kimi oldu cavan...
Tazəhdi hər yanı bir də bahar yelləri,
Ruzigarın seyqəli eylədi rahət canı.
Yağdı yağış, tərtəmiz oldu çəmən büsbütün,
Bayrağı xoş novruzun sayələdi dünyanı
Bimar o nərgiz gülü öldü baxıb güllərə,
Oldu o azad süsən zülfi-yazın heyranı [7, 750; 761; 779].

Xalqın ənənəvi bayram və mərasimlərinin formalaşmasına müxtəlif amillər təsir etmişdir. Azərbaycanlıların bayram və mərasimlərinə ibtidai dini inancların və islam amilinin

təsirini xüsusilə qeyd etmək lazımdır. Məsələn, azərbaycanlılar Qara çərşənbə (Axır çərşənbədən əvvəlki) günündə qəbir üstünə gedərlər və qəbirin üstünə halva, müxtəlif növ şirniyyat və səməni aparılır. Müasir dövrdə isə insanlar həmin nemətləri qəbirin üstünə qoymaz, qəbiristanlıqda işləyən insanlara paylayarlar. Eyni zamanda ölülərin ruhuna Quran oxunar. Bir tərəfdən bu adətlə islamaqədərki mərasimlər yerinə yetirilir, digər tərəfdən də Quran oxunur. Bunun da öz qanunauyğunluqları mövcuddur.

Azərbaycanlıların ənənəvi bayram və mərasimləri regional xüsusiyyətləri də özündə birləşdirir. Cəbrayıl rayonunun Horovlu kəndinin Novruz bayramı mərasimləri ilə bağı adət-ənənələrinin bir çoxu aradan çıxmışdır. Bunun əsas səbəbi Cəbrayıl rayonun Ermənistan tərəfindən işğal olunması ilə əlaqədardır. Bayram günlərində yelləncəklər asılması, heyvan kəlləsindən (əsasən, qoyun kəlləsindən) məşəl hazırlanması adəti də aradan götürülmüşdür. Qeyd etmək lazımdır ki, informatorların verdiyi məlumata görə bu adət 1970-ci illərədək kənddə yerinə yetirilirdi [19; 20]. Bununla da, Novruz bayramı horovlular üçün öz lokal xüsusiyyətlərini tədricən itirir. Azərbaycanın digər bölgələrində olduğu kimi, Horovluda da bayramda kənd camaatı mütləq təzə paltar geyinərdi. Qadın və qızlar bayram günlərində qırmızı, yaşıl, göy rəngdə paltarlar geyinərdilər. Cəbrayılda bayram axşamı martın 21, bayram isə 22-də keçirilərdi. Ən çox təmtəraqla keçirilən bayram günləri İlaxır çərşənbə və Novruz bayramı axşamı və bayram günü idi. Bayram şənlikləri on gün davam edərdi. Horovlu kəndində Novruza hazırlıq zamanı ilk növbədə evlərdə, həyətlərdə təmizlik işləri aparılır, evlərin divarları əhənglənirdi [20; 21].

Novruz bayramının əsas rəmzi səməni dir. Səməni becərilməsi xalqın dünyagörüşünü, baharın gəlişi ilə təbiətin oyanmasını əks etdirən ayindir. Baharın gəlişi ilə təbiət oyanır, yeni ilin məhsuldar olması üçün keçirilən bir ayindir. Səməni göyərtmək yazın elçisi, Novruzun ən müqəddəs mərasimi sayılır. Taxıl, bərəkət həyatın, dolanacağın rəhnidir, insanların yaşaması üçün vacib olan maddi mədəniyyətin ən mühüm şərtidir. Qədim dövrlərdən bu əziz günlərdə sinilərdə, məcməilərdə buğda, arpa, noxud, mərci və digər taxıl məhsullarından səməni göyərdər, ona alqış-söz deyər, baxıb sevinər, fərəhlənərdilər:

Səməni, saxla məni,
hər yazda,
Sən yada sal məni.

Tədqiqatçıların fikrincə yazlıq əkin qabağı səməni cücərtmək ənənəsi xalqın çörəyə ehtiramı, səcdəsi kimi rəmzi mahiyyət daşımışdır [2, 33].

Ömər Xəyyamın "Novruznamə" əsərində bayram süfrəsində arpa göyərtisinin olması zərurrətindən söhbət açılır. İlin yaxşı, məhsuldar olub-olmamasını göyərdilmiş arpanın boy atması ilə müəyyənləşdirirdilər. Arpa şax və yaxşı göyərmiş olursa, demək, həmin il məhsul bol olacaq. Əksinə o, ölgün və boy atmazsa, qıtlıq, rahatlıq gözlənilmirdi. Rəsul (a.s.) belə buyurmuşdur: "Bəli, ən yaxşı un arpa unudur. Hər kəsi doyuran və məmnuniyyət verən mənim və digər peyğəmbərlərin "çörəyidir" (arpa unundan hazırlanmış çörək – Ş.N.) Yaşlı falçılar arpayla münəccimlik edərlər və fala baxarlar. Yaxşılıq və pislikdən xəbər verirlər [15, s. 163].

Bir çox xalqların mövsümi bayramlarının xüsusiyyətləri demək olar ki, oxşardır. Müxtəlif xalqlarda bir sıra bayramlar ümumi məna ifadə edir və onlarda bayram kompazisiyasının elementləri, rəmzlər sistemi, atributları, hətta ayinlərin mətnləri demək olar ki, üst-üstə düşür, bayram rəmzi kimi yumurta, od, su, ağac, buğda, şərbətlər, müxtəlif şirniyyat növləri və s. istifadə olunur. Məsələn, bir sıra xalqların mifoloji-poetik ənənələrində yumurta obrazı məlumdur. Yumurtanın kosmoqonik funksiyası onun məhsuldarlıq ayinlərində mühüm rolu

ilə əlaqədardır. Məsələn, şərqi slavyanların Pasxa ayinlərində yumurta onun əsas rəmzi kimi çıxış edir [17, 136]. Novruz bayramında da rənglənmiş yumurtalar bayramın əsas rəmzlərindən birini təşkil edir. İnama görə yumurta "başlanğıc", "həyatın davamı" mənasını daşıyır. Qeyd etmək lazımdır ki, müasir dövrdə yumurtanın rəmzi mənası insanlar üçün öz əhəmiyyətini itirmiş, hətta insanların böyük əksəriyyətinin demək olar ki, onun hansı məna daşıması haqqında məlumatı yoxdur. Bayramda yumurta boyanması və yumurta döyüşdürülməsi sadəcə bayram adət-ənənəsi kimi insanlar tərəfindən sevilir və qorunub saxlanır. Hər bir evdə ailə üzvlərinin sayına görə yumurta boyanır və bu, əsasən uşaqların sevincinə səbəb olur. Yumurta boyanması ayin mərasimi mənasını verirdi. Yumurta əsasən soğan qabığının suyu ilə boyanardı. Bu adətin ilkin mənası türk xalqlarda yumurta və soğanla əlaqədar inancları əks etdirir. Məsələn, türk mədəniyyəti xalqlarında Hal anasından qorunmaq üçün xəstənin yastığının altına sarımsak, soğan qoyulurdu. Soğanın da qara iyələrə (qüvvələrə) qarşı qoruyucu olduğuna dair bir çox məlumatlar var [12, s, 115-116; 13, s. 373]. Novruzda məhz yumurtanın soğan qabığının suyu ilə rənglənməsi adəti də ayin xarakterini daşıyır. Türk mədəniyyəti coğrafiyasında Xıdırelləz, Novruz kimi mövsümi mərasimlərdə yumurtalar soğan qabığı ilə qırmızı rəngə boyadılır [12, s. 116].

Novruz bayramı adətlərindən biri də "çillə çıxartmaq" adətidir. "Çillə" sözü dərd-bəla, ağrı-acı, çətinlik, müşkül anlamındadır. "Çillə kəsmək" dərd-bəlanı tökmək, ağrı-acını, xəstəliyi, müşkülü kəsmək, yox etmək anlamını daşıyır [11, s. 5]. Azərbaycanın bütün bölgələrində "çillə çıxartmaq", "çilləsini kəsmək" mərasimi yerinə yetirilirdi. Horovlu kəndində də İlaxır çərşənbədə və ya bayram günü güllə atıb "güllənin çilləsini çıxartmaq" adəti var idi. Azərbaycanın digər bölgələrində olduğu kimi, Cəbrayılda da böyürtkən kollarının təzə bitən və hər iki tərəfi torpaqda olan budaqlarının altından üç dəfə keçib çillə çıxardırdılar. Əsasən yeriməyən uşaqların "çilləsi çıxarması" üçün bu ayin keçirilirdi. İnama görə bu ayindən sonra uşaq yeriməyə başlayacaqdı [19; 20; 21].

İlaxır çərşənbədə gecə səhərə kimi bağlarda bayramlaşardılar. Qoyun kəlləsinə parça dolayıb neftə salıb məşəl kimi yandırardılar (Qeyd etmək lazımdır ki, informatorlar qoyun kəlləsindən məşəl düzəldilməsinin mənasını bilmədiklərini dedilər). Cavanlar bağlardakı şənliyə ciblərində və ya torbalarda qoz, qovurğa, üzüm qurusu aparıb bir-birini bayram münasibəti ilə təbrik edərdilər. Bayram günlərində havanın əlverişli olub-olmamasından asılı olmayaraq Horovlu kəndinin cavanları Orta kəhrizin yanındakı qədim çinardan və bağlarda qoz ağaclarından asılmış sarımçaklarda (yelləncəklərdə) yellənərdilər. Gənc oğlanlar əllərindəki çubuklarla qızların ayağına vururaraq onlardan nişanlısının və ya sevdiyi oğlanın adını deməsini tələb edirdilər. Belə bir vəziyyətdə sevgisinin qarşılıqlı olduğuna əmin olan qız onu çəkərdi [19; 20; 21]. Qarabağda "kuf" adı ilə, Ağdaş rayonunun Kürqırağı kəndlərində surmançaq, Cəbrayılda və Füzulidə uçuncaq, Qubadlıda və Zəngilanda kuf, kufgelli və s. adlarla tanınan bu oyun vaxtilə Azərbaycanda çox geniş yayılmışdı [11, s. 199]. Bu adət Anadoluda da var idi. Bayramın əsas elementlərindən biri bağlarda, meşələrdə gəzintiyə çıxmaq idi. Bayram gəzintiləri zamanı musiqi çalınır, müxtəlif oyunlar oynanılırdı. Qızlar yelləncəklərdə yellənirdilər. həmin gün yelləncək məcburi əyləncə hesab olunurdu. Məlum olduğu kimi, yelləncək əkinçi Avropa xalqları üçün xarakterik olan məhsuldarlıq ayininin elementlərindən biridir [18, s. 74, 78-79]. Kuf oyunu Qarabağda Novruz bayramının ayrılmaz bir elementi olmuş, vaxtilə hər ilin axır çərşənbəsində icra olunmuşdur. Burada oxunan mahnıların sözləri nişanlılıq, evlilik, sevgi ilə bağlı idi. Məsələn, Ağdaş rayonu Pirəzə kəndində qızları yellədən şəxs elə ki onların istədiyi oğlanın adını öyrəndi, həmin oğlanın adına yaraşdırıb bayatı deyərdi

[8]. Qeyd etmək lazımdır ki, bu adət "Kuf oyunu" adı ilə Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrinə daxil edilmişdir [1].

Horovluların Novruzla əlaqədar ən vacib inanclarından biri də Xıdır Nəbi ilə əlaqədardır. Ümumiyyətlə, bütün türk xalqlarında olduğu kimi, cəbrayıllılarda da Xıdır Nəbi ilə əlaqədar bir sıra inanclar var idi. Azərbaycanın müxtəlif bölgələrində xeyirxah ruhlarla əlaqədar inam və etiqadlarda Xıdır Nəbi, Xıdır İlyas (Xızır) obrazları xüsusi yer tutur. Xızı rayonun ərazisində "Beşbarmaq" adlanan dağ Xıdır kultu ilə bağlı "Xıdırzində" ("Ölməz Xıdır") ziyartgahıdır. İnama görə Xıdır peyğəmbər ən çox çətinlik anında insanlara köməklik edir. Qədim Azərbaycan və Anadolu türklərinin inamlarına görə qışın çətin dövründə, hazırlanmış qida, yanacaq və yem ehtiyatının azaldığı vaxt Xızır peyğəmbərin çağırılması onun yardımına böyük ehtiyacla bağlıdır. İnama görə, Xıdır (Xızır) gələndə havalar istiləşəcək, bununla da "qara qışa" son veriləcək. Qışın ağırlığını dərk edən xalq çətinliyə düşənlərə yardıma çatan Xızır peyğəmbəri çağırmaq üçün onun şərəfinə mərasim keçirir. Xıdır Nəbi bayramını "kiçik çillə" (31 yanvar-19 fevral) dövründə qeyd olunur. Bu mərasim Azərbaycanda "Xıdır Nəbi", Türkiyədə isə "Hıdırellez" adlandırılır. Bayram Xıdır peyğəmbərin şərəfinə keçirilir. Türk mövsüm mərasimlərindən biri olan Hıdırellez bayramı Anadolu bölgəsində hər il yazda, may ayının beşindən altısına keçən gecə keçirilir [18, s. 71, 72]. Xalq arasında Xızırın ölümsüzlük rəmzi olması haqqında da rəvayətlər var. Xıdır Nəbi ilə əlaqədar inanclarda boz at üzərində gələcək Xıdır Nəbinin əlində od olacağı güman edilərdi. Onun torpağı isidən, odla yanaşı günəş və su, adamlara sağlamlıq gətirəcəyi düşünülərdi [3, s. 35]. Görünür Horovlu kəndində Xıdır Nəbi üçün çöldə qapının ağzına un qoyulması ayini də həmin inamlarla əlaqədar idi. Həmin axşam unu axşamdan mis dəbriyə (siniyə) töküb üstünü sığallayardılar ki hamar olsun. Sonra onu çölə qoyardılar. Belə bir inam var idi ki, Xıdır Nəbi gələcək və atının dırnağını həmin una batıracaq. Sonra ilin, ruzinin bərəkətli olması üçün həmin undan (qovutdan) çörək bişirilirdi. Deyilənə görə onun yel qanadlı atı o qədər sürətlə gedir ki, əsən onun küləyidir. Həmçinin yel çərşənbəsində qovut bişirilməsi (Xızırın nalının izi düşdüyü və öz payını apardığı buğdadan) adəti də bu inancdan irəli gəlir [3, s. 60]. İnama görə Xıdır Nəbi baharın gəlməsinin müjdəçisidir və Xıdır Nəbi gələndən sonra torpaq isinir və əkilən toxum donmur. Deyilənə görə, Xıdır Nəbi qovut xəşilini çox sevir. Məsələn, Şuşa rayon sakinləri Xıdır Nəbi xəşilini qovutdan bişirirlər. İnama görə Xıdır Nəbi qovut xəşili bişirilən evə gələrsə həmin il o ailə üçün bərəkətli, uğurlu olacaqdı [6]. Horovlu kəndində İlaxır çərşənbədə qovut bişirilərdi. Buğda qovrulardı, içinə kirkirədə üyüdülmüş qovurğa (üyüdülmüş qovurğaya da qovut deyilirdi) və şərbət tökərək xəmir yoğrulardu. Həmin yemək qovut adlanırdı. Sonra həmin qovutdan dürmək hazırlayıb yeyərdilər. İnformator İsmayılova Elmira qovutun hazırlanmasının səbəbini belə izah edir: "anam deyərdi ki, qovutu yeyin qüvvətli olun" [13; 14]. İnama görə qovut bolluq rəmzidir. Xıdır Nəbi ilə əlaqədar inanclar, onun şərəfinə qovut hazırlamaq adəti cüzi fərqlərlə Naxçıvanda da geniş yayılmışdır. Q.Qədirzadə yazır: "Qovurğa kirkirə, əl daşı (dəstər) adlanan alətlə çəkilir və qovut hazırlanırdı. Quru qovutu yemək çətin olduğundan ona doşab, şəkər tozu əlavə edib ovurlar... Çəkilmiş qovutu bir qaba doldurub axşamdan yükün üstünə və ya taxçaya qoyurdular ki, Xızır peyğəmbər gecə ona əl basacaqdır. İnama görə belə qovut şəfaverici xüsusiyyətlərə malik olur" [9, s. 36].

Ümumiyyətlə, Cəbrayıl rayonunda Novruz bayramı günlərində təndirə südçörəyi, yağlı çörəklər yapardılar, əyirdək bişirərdilər. Əyirdək un, yağ və şəkərlə yoğrulur, romb şəklində kəsilib yağda qızardılırdı. İnama görə cərşənbə axşamı mütləq "ruzi verilən vaxt" (axşam saat

5-6 radələrində) – axşamçağı qovurğa qovrular və yumurta boyanardı. Bayram mərasimlərində əsasən sədri düyüsündən maşlı plov və ya sadə döşəmə plov (hinduşka, toyuq və ya balıq ətindən), qəvləli (ət və soğandan hazırlanan plov qarası) plov bişirilərdi. Plovun qazmağı yuxadan (lavaş) olurdu. Horovluda balıq olmadığından onu Qubadlıdan gətirib satardılar. İnformatorların verdiyi məlumata görə balıqla döşəmə plov bişirilərdi və "balığın üstünü yazıb" (balığın üstünü bıçaqla romb şəklində çərtilməsinə "üstünü yazmaq" deyilərdi) düyünün altına qoyardılar [19; 20].

Əsasən İlaxır çərşənbə və Novruz bayramı günlərində kəndin mərkəzində təşkil olunan müxtəlif oyunlar, bayram şənlikləri adətən bir həftə davam edərdi. Gənclər "eşşəkbeli", "qurşaqtutma", "gilədöymə" kimi xalq oyunları oynayardılar, pəhlivanlar bellərinə kəndir bağlayıb avtomobil dartaraq öz məharətlərini nümayiş etdirərdilər. Klounlar müxtəlif gülməli tamaşalar nümayiş etdirər, kəndirbazlar isə kəndirin üstündə öz məharətlərini göstərərdilər. Saz və zurna çalınardı, aşıqlar çalıb oxuyardılar. Cavan oğlanlar qadın paltarı geyinər, başlarını turna (yaylığın üstündən alın hissəsinə bağlanan yaylıq) və şal bağlayar, uzun tuman (ətək) geyinər, cavan qızlar isə oğlan paltarı geyinib, bığ yapışdırar, qapı-qapı gəzib şənlik edərdilər [19; 20]. Ömər Xəyyam "Novruznamə" əsərində də bayram günlərində səhnəciklərin, şənliklərin təşkil olunmasının ayin xarakteri daşıdığı haqqında məlumat verir: "Novruz günündə bayram edən və özünü xöşbəxt hiss edən hər kəsin digər Novruza qədər ömrü nəşə və xoşbəxtlik içində keçər" [14, s. 151].

Novruzun ayinlərindən biri də falabaxmadır. Orta əsr mənbəsində Novruz bayramı "fallı novruz" adlanırdı [7, s. 779]. Horovluda İlaxır çərşənbədə cavan qızlar, oğlanlar dörd yol ayrıcında açar topasını ayaqlarının altına qoyub dayanardılar. Yoldan keçən ilk adamın dediyi sözün əsasında niyyətlərinin yerinə yetib-yetməyəcəyini yozardılar. Novruzda keçirilən digər fal yumurta və qara kömür vasitəsilə icra edilərdi. İlaxır çərşənbədə gecə qapının çöl girəcəyinə yumurta və kömür qoyardılar. Səhər əgər yumurtanın üstünə qara kömür izləri aşkar olunardısa niyyətin yerinə yetməyəcəyi hesab edilərdi [19; 20]. Azərbaycanın digər bölgələrində də Axır çərşənbə günü pəncərə önünə qoyulan yumurtanın Xızır tərəfindən çizilərək işarətlənməsinə inanılır. Bu cizgilərdən qara xətt qıtlığa, qırmızı xətt isə bərəkətə işarədir [13, s. 372].

Azərbaycanın digər bölgələrində olduğu kimi, Horovluda da "qapıpusma" adəti bayramda keçirilən fal ayinlərindən biri idi.

İsgəndər Münşinin yuxarıda adı çəkilən əsərində də Novruzda ruhlara inamla əlaqədar inancların olması, falabaxma haqqında məlumat verilir: "İl başa çatdıqdan və doqquz yüz doxsan beşinci (miladi 1585) hicri ilinə bərabər olan it ilinin novruzu yaxınlaşdığından, bir həftə o şərafətli yerdə gözləyib, novruz günlərini işrət və şadlıqla keçirdi. İlahi dərgahı bəndə dualarının müstəcəb yeri olan həmin müqəddəs astanada üsyan və tüğyan edənlərin cəzalandırılmasını niyyət (məsələt) etdi, ilin başlanğıcında o müqəddəs adamların ruhlarından kömək istədi" [7, s. 561-562]. Göründüyü kimi, Novruz adət-ənənələrində müxtəlif dini inanclar, ruhlara inam, duaların qəbul edilməsi haqqında inamlar əks olunur. Aparılmış etnoqrafik tədqiqatlar bu inamların müasir dövrdə də adət-ənənələrdə qorunub saxlandığını göstərir. Məsələn, Horovlu kəndində gənc qızlar geyinib-bəzənər və Orta kəhrizin üstündəki Çinara (çinar ağacı pir hesab olunardı və onun yanında daim lampa yandırılardı), Sarı ocağa (deyilənə görə Sarı adında seyib olub) ziyarətə gedər və ocaqdan (pirdən) arzuların yerinə yetməsini diləyərdilər [19; 20; 21].

Novruz bayramı günlərində ölümlə, yasla bağlı mərasimlər də ruhlara inamla əlaqədardır. Azərbaycanda dəfn və yasla bağlı mərasimlər "yasdançıxma" mərhələsi ilə bitirdi. "Qara bayram" mərhumun qırxı çıxdıqdan sonra qarşıdan gələn ilk Novruz, Qurban və Ramazan bayramları ilə əlaqdar keçilirdi. Qeyd etmək lazımdır ki, Azərbaycanın bəzi bölgələrində, məsələn, Cəbrayıl rayonunda "Qara bayram" mərhumun "qırxı" çıxdıqdan sonra onun "ili"nədək (mərhumun vəfatının bir ili qeyd edilir) ilk Novruz bayramında, daha dəqiq desək, İlaxır çərşənbədən əvvəlki çərşənbədə qeyd olunurdu. Bütün kənd əhalisi həmin gün halva çalar və qəbir üstünə gedərdilər. Halva çalınması mərhumun ruhunun şad olması ilə sıx bağlıdır. Məsələn, xalq arasında belə bir deyim var: "evdən halvanın iyi çıxmalıdır ki, ölən adamların ruhu şad olsun". Bayrama bir və ya bir neçə gün qalmış qohumlar və ya yaxın qonşu qadınlar yığışıb qənd, çay, şirniyyat kimi bayram sovqatları ilə mərhumun evinə gedirlər. Qənd və çay, şiriniyyat yasdan çıxma rəmzi hesab edilirdi. Bu mərasim mərhumun xatirəsinin yad edilməsi ilə yanaşı, yas evinin yasdan çıxması və qarşıdan gələn bayramın urvatlı qeyd edilməsi məqsədi ilə keçirlirdi.

Novruz mərasimlərindən biri də bayram gəzintisinə (seyrə) çıxmaq adətidir. Azərbaycanın digər bölgələrində olduğu kimi, Horovlu kəndində də gənc qızlar bayram seyrinə çıxar, yeni çıxmış bənövşələri dərərdilər. Bayram gəzintisinə çıxmaq adəti Türkiyənin bölgələrində bu günədək qalmaqdadır. Məsələn, Anadoluda gənc qızlar Novruzda təbiətin qoynuna gəzintiyə çıxar və bahar çiçəklərini və peyğəmbərçiçəyini (açıq göy rəngli çöl çiçəyi) toplayıb bayram süfrəsinə qoyardılar [18, s.74]. Novruz bayramının əsas elementlərindən biri də bayram stolunun açılmasıdır. Horovluda əsasən İlaxır çərşənbədə və bayram axşamı bayram süfrəsi açılardı. Anadoluda da Novruzda bayram süfrəsinə bol yemək çeşidlərinin qoyulması ilin bərəkətli keçəcəyi haqqında inam var [18, s. 74].

Horovlu kəndində çərşənbə axşamı və bayram axşamı günü geniş yayılmış adətlərdən biri də qız qaçırtma adəti idi.

"Bahar novruz ilə gəldi cahana,
Döndərdi aləmi bir gülüstana.
Bülbül nəvaları tutdu hər yeri,
Başlandı eyş-işrət tərənələri [7, s. 779].

Burada deyildiyi kimi, baharın gəlişi, havaların istiləşməsi, eləcə də, Novruzun kənd camaatı üçün müqəddəs hesab olunması onların məhz İlaxır çərşənbədə və Novruz bayramı axşamında qız qaçırtma adətini əsaslandıra bilər. İnformator Elmira İsmayılova Xanəmir qızının verdiyi məlumata görə "bir-birini sevən gənclərin ailələri onların evlənməsinə razılıq vermədikdə Novruz bayramı əziz və müqəddəs hesab olduğundan məhz həmin günlərdə qız qaçırdardılar. Bununla da, yeni başlanğıcın, yeni ailənin uğurlu olacağına, ilk növbədə isə qızın ailəsinin cavanları bağışlayacağına inanardılar" [20; 21].

Novruz bayramı adət-ənənələri xalqın xeyirxahlıq, bir-birinin dərdinə şərik olmaq kimi müsbət xüsusiyyətləri əks etdirir. İnformatorların verdiyi məlumata görə bayram günlərində mütləq kasıblara, yetimlərə bayram payı aparılardı, hərə bir qab aş (plov), şirniyyat götürüb bir-biri ilə bayramlaşmaya gedərdilər [20; 21].

Azad Nəbiyev "Həccələr, Hüccələr" nəğməsində Novruzun əsas adətlərindən biri olan "torba atma" adəti haqqında yazır:

Həccələr, hüccələr.
Uzanar gündüzlər,

Sallanar torbalar
Bacadan,
uşaqlar pay istər
ucadan...” [10, s. 9].

Nəğmədən də aydın olduğu kimi, Novruzda uşaqlar və gənc oğlanlar bayram payı almaq üçün evlərin bacalarından torba sallayardılar. Bu adət Anadoluda da geniş yayılmışdı. Qarsda “baca baca gəzmə” adəti bu günədək var. Uşaqların qapı-qapı gəzib əsasən müxtəlif meyvələrdən pay yığmalarına “baca-baca gəzmə adəti” deyilir [14]. Görünür sonralar evtikmə sənətində gedən köklü dəyişikliklər bacaların ləğvinə gətirib çıxarmışdır. Məhz bu səbəbdən uşaqlar və gənclər qapılara torba əvəzinə papaq atar və bu adət “papaq atma” adəti kimi indiyədək geniş yayılmışdır. İnformatorların verdiyi məlumata görə Horovlu kəndində XX əsrin ortalarınadək evlərin bacaları olardı və gənc oğlanlar çərşənbədə bayram payı almaq üçün bacadan torba sallayardı [19].

Xalqın milli-mənəvi dəyərləri olan bayramlar, mərasimlər onun etnogenezini tədqiq etmək üçün qiymətli mənbələrdir. Bayram və mərasimlərin motivləri, onların əsas mövzusunu təşkil edən rəvayətlər, atributlar xalqın tarixi kökləri, inancları haqqında məlumat verir. Çərşənbələrdə, xüsusən də İlaxır çərşənbədə icra olunan oyun və mərasimlər bütövlükdə insanı saflaşdırma funksiyasını daşıyır və bu funksiya yeni ovqatın, yeni ruhun – yaz ovqatının, yaz ruhunun gəlişi və qarşılanması üçün psixoloji-estetik zəmin hazırlayır. Novruz süfrəsinə bol nemətlərin düzülməsi də yeni ildə xeyir-bərəkət, bolluq-firavan həyat diləmək arzu-istəyinin rəmzi ifadəsidir. 2009-cu il sentyabrın 30-da Novruz bayramı YUNESCO-nun “Qeyri-maddi mədəni İrsin” reprezentativ siyahısına daxil edildi [16]. Elə həmin vaxtdan 21 mart Beynəlxalq Novruz günü elan olundu. Novruz bayramı eyni zamanda Azərbaycanın qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrinə daxil edilmişdir [1].

Azərbaycanın Ermənitanın işğalı altında olan bölgələrimizin adət-ənənələrinin, o cümlədən Novruz adət-ənənələrinin, mərasimlərinin lokal xüsusiyyətlərinin tədqiqi məqalənin yazılmasında əsas məqsəd daşıyır. Adət-ənənələrin, inancların özünəməxsusluğu, lokallığı həmin bölgələrin sakinləri tərəfindən qorunur və nəsildən-nəsilə ötürülür. Dağlıq Qarabağ bölgəsinin əhalisinin məcburi olaraq erməni separatçıları tərəfindən öz yurdlarından didərgin düşmələri nəticəsində onların adət-ənənələrinin, xalq bayramlarının lokal xüsusiyyətlərinin tarixi yaddaşlarda qalması üçün həmin bölgənin hər bir kəndinin bayram və mərasimlərinin ayrıca tədqiq edilməsi vacibdir.

ƏDƏBİYYAT

1. Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestri /http://intangible.az/front/az/aboutExample/21981
2. Babayev T. El ocaq başına yığışar. Bakı: Azərnəşr, 1998, 204 s.
3. Babayeva X. Azərbaycan folklorunda Xızır Nəbi (İlyas) obrazı (türk folkloru kontekstində): monoqrafiya, Bakı, 2013, 174 s.
4. Dadaşzadə M. Azərbaycan xalq bayramları, oyun və əyləncələri. Bakı: Elm, 1995, 88 s.
5. Göyyallı X. Novruz: genezisi, tarixi transformasiyaları və mərasimləri. Bakı: Qanun, 2015, 232 s
6. Xıdır-Nəbi bayramı/http://intangible.az/front/az/aboutExample/16752

7. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe aləmaraye Abbasi). Bakı: Şərq-Qərb, 2010, 1144 s.
8. Kuf oyunu / http://intangible.az/front/az/aboutExample/21981
9. Qədirzadə H.Q. Milli-mənəvi dəyərlərimiz. Naxçıvan: Əcəmi, 2012, 128 s.
10. Nəbiyev A. Nəğmələr, inanclar, alqışlar, Bakı: Elm, 1986, 215 s.
11. Novruz bayramı ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008, 208 s.
12. Kalfat Y. Türk Halk İnançlarında Zile ve Çevresi Örnekleri ile Soğan. // Kültür Evreni. http://www.kulturevreni.com/ke10eng.html
13. Kalafat Y. Türk Kültürlü Halklarda Halk İnançları, Dedem Korkut Aşağı Eller, Ankara: Berikan yayınları, 2008, 466 s.
14. Kalafat Y. Türk Halk Kültüründe Ahır Çerşenbe Mitolojik Muhtevası. http://turkoloji.cu.edu.tr/HALKBILIM/yasar_kalafat_ahir_cersembe_mitoloji.pdf
15. Ömer Hayyam. Nevruz Name. http://dergiler.ankara.edu.tr/dergiler/18/2168/22453.pdf
16. Lists of intangible cultural heritage and Register of best safeguarding practices / http://www.unesco.org/culture/ich/index.php?lg=en&pg=00011
17. Мифы народов мира. Энциклопедия. В 2-х т., т. 2 / Под. ред. С.А.Токарева. Москва: «Советская Энциклопедия», 1991, 719 с.
18. Тенишева А. Празднование Невруза и Хыдыреллеза в Турции (конец XIX-начала XX в.) // Советская этнография. Москва, 1991, № 6, с. 71-80.

İnformatorlar

19. Əliyeva Dilarə İsmayıl qızı, 1939-cu il təşəllüdlü, Horovlu kəndi.
20. İsmayılova Elmira Xanəmir qızı, 1946 təvəllüdlü, Horovlu kəndi.
21. İsmayılova Zefira Xanəmir qızı, 1950 təvəllüdlü, Horovlu kəndi.

Bakı Slavyan Universiteti
E-mail: sh_nuruzade@yahoo.com

Shahla Nuruzadeh

NOVRUZ TRADITIONS (BASED ON THE MATERIALS OF NAKHCHIVAN AND JABRAYIL REGION)

Novruz holiday is a collection of unique values reflecting the historical memory, outlook, traditions, religious beliefs and mythology of Azerbaijanis. The ceremonies of the Novruz holiday reflect the beliefs about the end of winter, the renewal of nature, the creation of favorable conditions for farming. The article examines the Novruz holiday traditions of Horovlu village, Jabrayil region (swing, egg painting, torch burning, etc.) and beliefs in local and Turkish context. One of the most important beliefs people of Horovlu have about Novruz is related to Khidir Nabi. In general, as in all Turkic nations, there're some beliefs about Khidir Nabi in Jabrayil region as well. In different regions of Azerbaijan, the images of Khidir Nadi, Khidir Ilyas (Khidr) take an important place in beliefs related to kind spirits. The local peculiarities and uniqueness of traditions and beliefs are protected by the inhabitants of these regions and passed on from one generation to another. The main purpose of the article is to study the traditions of the occupied regions of Azerbaijan, including the Novruz traditions and the local features of ceremonies.

Keywords: *Novruz, Wednesday, Khidir Nabi, Horovlu village, national-moral values.*

Шахла Нурузаде

ОБЫЧАИ И ТРАДИЦИИ ПРАЗДНИКА НОВРУЗ (НА ОСНОВЕ МАТЕРИАЛОВ НАХЧЫВАНА И ДЖЕБРАИЛЬСКОГО РАЙОНА)

Праздник Новруз – это система ценностей. отражающих историческую память, мировоззрение, обычаи и традиции, религиозные верования и мифологию азербайджанцев. Ритуалы праздника Новруз отражают представления о конце зимы, обновления природы, появления благоприятной обстановки для хозяйствнной жизни и верования связанные с этими ритуалами. В статье исследуются обычаи и традиции связанные с ритуалами и верованиями праздника Новруз (сарымчак (качели), окрашивание яиц, зажигание факела) в селении Хоровлу Джебраильского района в локальном и общетюркском контексте. Основное верование населения Хоровлу, относящееся к празднику Новруз, связывают с Хыдыр Неби. В общем, как и у всех тюркских народов, у джебраильцев есть ряд верований, связанных с Хыдыр Неби. В разных регионах Азербайджана в верованиях, связанных с добрыми духами, образы Хыдыр Неби, Хыдыр Ильяса (Хызыр) занимают особое место. Своеобразие и локальность обычаев, традиций, верований в этих регионах сохраняются и передаются из поколения в поколение со стороны жителей. Основная цель статьи исследовать локальные особенности обычаев и традиций, в том числе обычаев и традиций праздника Новруз в регионах Азербайджана находящихся под оккупацией Армении.

Ключевые слова: *Новруз, чершенбе, селение Хоровлу, духовные национальные ценности.*

(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: **İlkin variant 01.07.2019**
Son variant 10.09.2019

AZƏRBAYCAN DİLİ

UOT 81 41;801.7

FİRUDİN RZAYEV

QƏDİM OĞUZ TÜRK DAMĞA İŞARƏLƏRİNİN NAXÇIVAN ƏRAZİSİNDƏ İZLƏRİ

Məqalədə türk tarixində xüsusi yeri olan Oğuz türk damğa işarələrinin Naxçıvan ərazisindəki izlərindən bəhs olunur. Tədqiqat zamanı Oğuz tarixinin m.ö. II minilliklərə söykəndiyi faktlar ilə sübut edilmiş, 22 oğuz boylarına məxsus damğaların daşıdığı mənalar da faktlar ilə izah olunmuşdur. Qədim türk əlifba işarələri ilə müqayisə olunan damğaların qədim türk mifik inancından gəldiyi ortaya çıxır. Bu damğa işarələrin qədim Naxçıvan ərazisinin Gəmiqaya, Nüvədi yazılarında da təkrarı elmi baxımdan bir daha əsaslandırılır. Öz izlərini ərazinin oykonimlərində də yaşadan Oğuz tayfa adları ərazinin türklərin ana yurdu olduğunu birmənalı təsdiq edir. Məqalədə Oğuz tayfa adları və damğalardakı mif Naxçıvan ərazisi oykonimik sistemi ilə də tam üst-üstə düşür.

Bir ittifaqda birləşmiş türk Oğuz boylarına məxsus bu damğaların xüsusi məna daşıdığı faktlarla təsdiq olunmuş, yeni elmi nəticələr əldə edilmişdir.

Açar sözlər: *Oğuz, Naxçıvan, oğuz tayfa qolları, damğa işarələr, türk əlifba işarələri.*

Prototürklərin ana yurdu olmuş Qədim Naxçıvan ərazisində, onların məskunlaşması, mövcud mədəniyyət abidələrinin yaranması dövrləri tam tədqiq olunmamışdır. Bu tayfalardan **Oğuz** türk tayfalarının da tarixdəki yeri uzun illərdir ki, mübahisəli qalmış, onların ərazilər də tam tədqiq edilməmişdir.

A.Bernştam, V.Bartold, M.Artamanov, V.Radlov, H.Araslı, X.Koroğlu, Ə.Dəmirçizadə, Ş.Cəmşidov, M.Təhmasib, İ.Kafəsoğlu, Y.Öztuna, F.Sumer, kimi xeyli tədqiqatçılar bu problemə müxtəlif yöndən yanaşmış, "Oğuznamə" və "Dədə Qorqud" dastanlarına əfsanə, qəhrəmanlıq dastanı kimi baxmış [9, s. 15, 44-45, 78-79; 3, s. 273], onların tarixi, dili, ərazilərinə dair müəyyən fikirlər söyləmişlər. Bu yazılarda oğuzların damğa işarələri və onların daşıdığı mənalar izah edilməmişdir.

K.Sərtkocalı tədqiqatçı A.Savvinə istinadən "saxa bayaattar", "saxa bayaan" boylarını bayat boyu kimi yazıb, onu VIII əsrə aid edir və yakutların özlərini "saxa bayaattar", "saxa bayaan" adlandırdığını göstərir [8, s. 158, 171]. Bu fikrə diqqət etsək, oğuzların Bayat boyu Gün xan soyundan gələn 3-sü nəslidir [7, s. 134].

A.Bernştam "Oğuz Kağan haqqında tarixi əfsanə" yazısında F.Rəşidəddinin "Oğuznəmə" əsərinə istinad edərək? Şərq tarixi prosesinin beş dövrü haqqında danışır və bu dövrləri "patriarxal münasibətlərin təşkili", "sinfi münasibətlərin formalaşması", "Hun, Mode-Mete dövrü", "VI-VIII əsrlər", "IX-XII əsrlər peçeneq-qıpçaq dövrləri" kimi müəyyənləşdirir [2, s. 33, 42, 43].

Türk mədəniyyəti tarixindən bəhs edən Emel Esin isə Səlcuq oğuzların Orta Asiyadan X əsrdə gələrək ağac kimi budaqlanıb, Türkiyə olub dövlətə çevrildiyini yazır və oğuzları "Türkiye türklerinin ataları" adlandırır [5, s. 22].

Fəxrəddin Kırzıoğlu da "Dede-Korkut oğuznameleri" kitabında oğuzların m.ö. İsgəndərdən qabaq Cenasdan-Doğu Türküstandan gələrək Azərbaycanın qərb bölgəsində (indiki

Gürcüstan) yerləşdiyini, türk tayfası cinlilərin-Orbelilərin oğuzlar olduğunu qeyd edir. O, bu əsərində Küçük Arşaklı-Arşakuni dövlətinin oğuzların Salvur boyu xanədanına aid olduğuna faktlar göstərir [10, s. 1]. Bu baxımdan Oktay Aslanapanın fikirləri də diqqəti çəkir. O, göytürklərin "təməlinin təşkilində" oğuzların böyük rolundan bəhs edir və onların İslamdan öncə "türkmən" adlandıqlarını yazır [15, s. 59]. Bu tarixi qədimlik L.Levinanın Sırdərya ətrafında apardığı arxeoloji tədqiqatlar zamanı aşkarlanan qədim oğuzlarla bağlı o dövrə aid xeyli sayda mədəniyyət nümunələri ilə də təsdiq edilir [13, s. 64-76].

Burada bir tarixi faktı da oxucuların nəzərinə çatdırmaqla fikrimizi bölüşmək istərdik. M.Kaşğari divanında 22 oğuz boyu və onların daşıdığı damğa işarələr yer alır. Əgər bu damğalara diqqət etsək, onların bir qismi qədim türk əlifba işarələrində təkrarlanmaqla bu işarə birliyində müəyyən məna ifadə edirlər. Təbii ki, apardığımız müqayisəli təhlillərin elmdə mütləq qəbul olunması qəsdində deyilik, sadəcə bu işarələrdəki olduqca yaxın eyniliyi və məntiqi uyğunluğu oxucularla bölüşməyi zəruri hesab edirik. Burada hər bir tayfaya məxsus damğaların daşıdığı mənalar, ümum dünya miqyasında hər bir xalqa məxsus bayraqlarda rəng və xüsusi işarələrin daşıdığı mənaların qədim siyasi işarə olduğunu təsdiq və təkrar edir. Azərbaycan dövlətinin bayrağında və xanlıqların bayraqlarındakı rəng və işarətlərdə də bu üçlüklər xüsusi mənaları özündə daşıyır.

1. Kınıq boyları. Bu damğa işarəyə diqqət etsək, burada **l** sütun işarəsi Ağ noqaylarda **kar+as** şəklində "coşqun+as" mənasında As tayfa adına aid işarədir. Aslar isə ərazilərimizdə ən qədim tayfalar olmaqla böyük güc kimi Ön, Kiçik, Orta Asiya ərazilərinə hakim olmaqla bu torpaqları öz adları ilə adlandırmış, 50-dən yuxarı qədim yazı nümunələrində türk boyu kimi qeyd olunmuşdur [11, s. 80]. Bu sütuna yanakı birləşən **Λ** işarəsi isə "yurd" işarəsi olaraq damğa bütövlüyündə, "As yurdu" mənasını verir. Təbii ki, bu bir təsadüf deyil, Kınıq boylarının rəmzi mənası olmuşdur. Qeyd edək ki, bu işarələrlə bərabər oğuzların bütün damğa işarələri As, Bastul Turdetan əlifbaları ilə yanaşı Gəmiqaya, Qobustan, Şamaxı, Təbriz, Nüvədi və digər ərazilərimizin qaya yazılarında da təkrarlanır ki, bu yazı işarələr m.ö. III minilliklərə söykənir [16, I s. 418-435] və Nüvədi də Naxçıvan ərazisi idi. Biz mənbələrdə qədim Naxçıvana aid ərazilərdə Kanaqer-Kınıq+ər məntəqə adına da rast gəlirik [6, s. 36] ki, ad "Kınıq ərləri" mənasındadır.

2. Kayı boyları. Əgər kayıların bu damğa işarələrinə diqqət etsək, burada **V** işarəsi qədim As türklərinin **U** saiti-"uruq-tikili" mənasında idi, eləcədə onu dövrələyən **I** işarə isə **İ** saitini bildirirdi ki, burada **İ**-"erdi", "nail oldu" və "iç" mənalarını daşıyırdı [14, s. 164; 16, I c., s. 463]. Bu isə, damğanın **uruq erdi-**"tikiliyə, oturaq həyata nail oldu", "yurd qorunur" mənaları daşıdığını bildirir və bu adda Naxçıvan ərazisində Kayni məntəqə adları qeydə alınır [6, s. 51, 178] ki, Kay+ni-"Kayilərin verdiyi", Kay+çı -"Kayı tayfası" mənalarındadır.

3. Bayandur boyları. Bayandurların bu damğa işarəsi **B**=Ꞵ şəklində Şamaxı işarələrində eyni formada altında xətt olmaqla **B**_Ꞵ kimi təsvir edilmişdir. Bu işarə Bastul-Turdetan əlifbaları, eləcə də ərazilərimizin Gəmiqaya, Alban, Gəncə, Nüvədi, Pirallahi və digər qaya yazılarında müəyyən cüzi fərqlərlə qeydə alınır. Bizim fikrimizcə, **B** hərfi qədim şumer və prototürklərdə işlənən "bəy" sözünü olduğu kimi təkrarlamaqla [16, I c., s. 469], yuxarı zümrəni təbliğ etmiş və Bayandur damğası əski kökdən bu mənaya xidmət etmişdir.

4. Yıva boyları. Oğuz boyunun bu damğasına diqqət etsək, burada Kınıq və Kayı

boylarının **V Λ** damğaları sanki bitişik şəkildə bir birini tamamlayır. Biz bu işarə birliyinə Bastul turdetanlarda **N,** As əlifbasında is **-E** səsləri kimi rast gəlirik ki, bu səs birləşməsi şumerlərdə və kassi türklərində **En/An**, En+kudi, An+u şəkillərində tanrı adları idi [16, I c., s. 17]. Ola bilsin ki, oğuzların bu qolu prototürklərin əski An/Anu tanrı inancını damğalarında saxlamışlar. Qədim Naxçıvan ərazisində Yıva oykonimi də [6, s. 49] bu taya adını özünə saxlamaqdadır.

5. Salqur boyları.  Biz bu damğada tuturqalarda **Λ** işarəsinin iç və çöldən **I** işarəsi ilə birgə görürük və bunun tərs yazılışı Gəmiqaya yazılarında təkrarlanır [16, II c., s. 213]. Burada işarələrin daşıdığı Λ "uruq, tikili" və I "nail oldu, erdi", eləcə də "iç" mənalarına istinad etsək, damğa "İç oğuz yurdu" mənasında olmuş və bu tayfa adı Alquri məntəqə adında [6, s. 179] öz izlərini qorumuşdur.

6. Afşar boyları.  Bu damğa işar As türklərində **t,** Basrul turdetanlarda isə **ı** kimi işlənmiş, Gəmiqaya, Şamaxı, Təbriz, Qobustan yazı işarələrində, Naxçıvanda Ofşaryeri məntəqə adında da təkrarlanmışdır [6, s. 42]. Əgər işarəyə diqqət etsək, burada I işarəsinin baş və ayaq tərəfini Λ-"ev" simvolik işarə ilə tamamlayır [16, II c., s. 213]. Bu oturaq həyatın çoxluğuna işarə kimi özünü təqdim edir.

7. Beqdilli boyları.  Bu damğa Dügər tayfasında "yurd", "bina" rəmzi, aslarda Ş səsi, bastullarda isə **Kİ** səs birləşməsi kimi özünü göstərir. Burada birinci işarə Nüvədi, Gəmiqaya, Kəlbəcər, Təbriz, Qobustan yazı işarələrində də təkrarlanır [4, s. 29-32]. **Ki/ku** qədim türklərdə "şan-şöhrət", Ş səsi isə, Şar günəş tanrı mənasını bildirirdi [16, I c., s. 17]. Bu mənalarla damğa "Şanlı Şar tanrısı yurdu" kimi simvolik işarədir. Naxçıvanda 2 Bəydilli məntəqə adı da bunu təsdiq edir [1, s. 77].

8. Buqdüz boyları. Bu damğa işarə əski əlifba sistemində yer almır. Onu işarə kimi qəbul etsək, Bastul-Turdetan, Ask-Osk, Təbriz, Nüvədi yazılarında bu işarənin alt hissəsi ≺ formasında **S** səsini, üstə birləşmiş işarəsi isə asların **E**, dik yazılışda **I** səsini bildirir [16, I c., s. 62]. Biz bunu ≺-"Şar tanrısı", **E**-"ev", **I**-"iç" mənalarında götürsək, damğa "Şar tanrısının iç yurdu" mənasını bildirir.

9. Bayatlar boyları.  Bu damğa işarə də 3 işarə birliyində mövcuddur. Birinci **I**-"iç", "nail oldu", ikinci **I** və baş tərəfi "yurd", üçüncü isə Bastul Turdetan əlifbasında baş tərəfi **Λ** şəklində "oymaq, el" mənasında hərf işarədir [16, II c., s. 214]. Bu mənalarla damğa işarə "İç yurd oymağı, eli" rəmzi mənasını daşımışdır.

10. Yazqır boyları. Bu tayfa damğasına diqqət etsək, 3 yanakı düz xətt Bastul Turdetan əlifbasında -Ş hərfini, sonuncu işarəsi onlarda **E**, As əlifbasında cüzi fərqlə **L** hərfini təkrarlayır [16, I c., s. 62, 425]. Biz Kınıq boylarının bu damğasına diqqət etsək, o yazqırların damğasından cüzi olaraq fərqlidir və Kara Asları bildirir. Biz **Ş** hərfinin Şar tanrı adı, **E** hərfinin "ev" mənasına istinadən, damğa işarənin "Şar eli" işarəsi olduğunu düşünürük.

11. Eymur boyları.  Eymurların bu damğa işarəsi Tanrıçılıq dinində hələ m.ö. II-I minilliklərdə bu dini təmsil etməklə dünyanın dörd cəhəti-tərəfi haqqında rəmzi işarə idi ki, xeyli yazılarda bu geniş şərh edilir [16, II, s. 483].

12. Karabölük boyları.  Bu damğa işarədə həm birinci işarənin Bastul Turdetan əlifbasında BU səsinin verdiyini [16, I c., s. 425], həm də çuvaldurların "oturaq həyat" işarəli damğasını bərabər görürük. Qeyd edək ki, qədim türklərdə **"bu"** sözü müasir dilimizdə də

bulaq, bulud, bulama kimi sözlərdə qaldığı kimi "su" mənasını və **"bi"** şəklində isə "bəy" sözünü ifadə edirdi. Biz damğa işarənin "Oturaq bəylər" mənasında rəmzi mənada olduğunu düşünürük.

13. Alkabölük boyları.  Maraqlı və mürəkkəb quruluşa malik bu damğa işarədə Kayı boylarının damğa işarələrindəki birinci tərəfin **IV** yanakı təsvirini görürük. Burada **V** As türklərinin **U** saiti-"uruq-tikili" mənasında, onu örtən **I** işarə isə **İ** saitini bildirirdi ki, bu **erdi**-"nail oldu" və "iç" mənalarında idi. Ona bitişik bu işarədə **O-**"oba, oymaq", **S** hərfi və düz xətt isə Bastul hərflərinin bir variantı idi. Bu işarələr damğanı "Şar tanrısı altında tikili yurd sahibləri" kimi izah edir.

14. İqdir boyları.  Oğuzların bir qolu olan iqdirlərə məxsus damğa Gəmiqaya, Şirvan yazı işarələrində qeydə alınmır. Bastul-Turdetan, Ask-Osk, Təbriz, Nüvədi yazılarında isə bu işarə tərs ≺ formasında **Ş** səsini bildirmişdir. Fikrimizcə, İqdir türklərində bu işarə birbaşa Şar tanrı adını simvolizə etmişdir ki, Şar tanrısı as, kassi, kuti, hürrü və s. türklərdə Günəş tanrısı idi [16, II c., s. 215].

15. Üregirlər boyları.  Biz bu damğa işarədə də birinci işarənin İqdir türk damğası ilə ≺ formasında eyniliyini görürük. Burada əlavə olaraq üç xətt qeyd olunur ki, yuxarıda da qeyd etdiyimiz kimi bir xətt **İ** saitini "iç" mənasında, iki xətt isə **E**-"ev" mənasında olmaqla "Şar tanrısının verdiyi iç yurdlar" mənasındadır.

16. Tutırka boyları.  Əgər bu damğa işarəyə diqqət etsək, biz **VΛ** eyni formanı qədim Turdu türklərinin əlifba sistemində **A** saiti kimi, As əlifbasında isə **-U** saiti olaraq görürük və bu qədim türk işarələrində "aul", "yurd" mənasını daşıyırdı [16, I c., s. 62, 425]. Bu ola bilsin ki, tuturqaların oturaq həyat bölgəsi idi.

17. Ulanyundluq boyları.  Əgər ulanyundluqların bu damğasına diqqət etsək, işarə qədim türk Bastul turdetanların **Ş** hərfini təmsil edir. Burada xətlərin biri nəzərə alınmazsa, iki xətli bu işarə **-E** hərfini göstərirdi. Ola bilsin ki, bu birləşik şəklində damğa qədim türklərdə **eş/es-** "ağıl", "zəka" mənalarını verirdi [16, I c., s. 476] ki, bu da tayfanın digər tayfalar arasındakı mövqeyindən irəli gələ bilərdi.

18. Tüger-Dügər boyları.  Bu damğa işarə də kayıların damğa işarələrini bir I işarə olmadan "yurd quranlar" mənasında təkrarlayır. Burada **V** "yurd" işarəsi altındakı **O**-"binə", örtülü yer simvolik işarəsi və **I**-"erdi" mənaları ilə damğanı "Örtülü yurd qurdular" mənasında izah edir. Fonemlərin ayrı mənalarda birləşib söz şəkli alması türk dilçiliyinə xas predikativliyə daha çox uyğundur ki, buradakı işarələr mühakimə obyektini-mübtədanı, yəni işarələrin nə ilə bağlılığını izah edir.

19. Peçeneq boyları.  Əgər diqqət etsək, bu damğa işarə Kayı türklərinə məxsus işarələrin yerdəyişimi şəklindədir. Qeyd edək ki, I dayaq işarə yazılarımızda göstərdiyimiz kimi Bastul Turdetan yazısında həm də **be** səsini verir ki, biz bunun şumer və prototürklərdə "bəy" mənası daşıdığı haqda faktlar göstərmişik [16, I c., s. 425]. Fikrimizcə, yanakı "yurd quranlar" işarəsinin bu söz işarə ilə birliyi "Yurd qurmuş bəylər" mənasında simvolik rəmz olmuşdur.

20. Çuvaldur boyları.  Bu türklərin damğa işarəsi də Bastul turdetanların yazısında bir qədər sivri bu şəkildə **tu** səsi kimi verilmiş, Şamaxıdan tapılan qədim yazı işarələrində də eynilə təkrarlanmışdır [16, II c., s. 216-217]. Əgər bu səsi əsas götürsək, damğa "tikili"

mənasında “yurda” sahibliklərini ortaya qoyur. Biz qədim şərq tarixinə dair məlumatlarda bunun **Λ** şəklində “ev” mənasında olduğuna təsadüf edirik ki, hər iki halda damğa oturaq həyata işarədir.

21. Çepni boyları. Bu damğa işarə Yazıçıoğlunun tərtibatında bir qədər sivri formada oğuzların 16-cı tayfası Çepni boyunun damğası kimi göstərilsə də, M.Kaşqaridə onlar 21-ci oğuz tayfasıdır. Bu damğa işarə sivri, görünən X formanın yanakı >< təsvirində, As əlifbasında **–tu** səsi “tikmək”, Bastul turdetan əlifbasında isə **-so** səsi “zəka ağıl” mənasında əks olunur [16, I c., 62, 425]. İşarə görünən V–“yurd” iki işarəsinin yan-yana sivri **><,** şəkildə təsviri olmaqla, çepnilərin iki dəfə böyüklüyü və ikiqat gücə, yurda sahibliyini ortaya qoyur.

22. Çaruk boyları. Bu boyların damğa işarələri yoxdur [14, s. 55-58].

Bütün göstərilən tarixi faktların nəticəsi kimi demək olar ki, oğuz boyları m.ö. III minillikdən başlayaraq kassitlərin, mitan, maday, manna və azərbaycanlıların, sonra alban, hun və göytürklərin arasında “Od tanrısı”nın övladları olmuş və sonda böyük gücə çevrilmişlər. Onlar bu ad altında Səlcuq hakimiyyəti dövrünə qədər gəlib çataraq, yenə də öz imperiyalarını yaratmışlar. Onlardakı bu inanc müasir azərbaycanlıların 5 min il öncə Tanrı, Günəş, Xuda inancının günümüzdəki yerini təkrarlayır. Bu tarixi proseslərin mərkəzi olmuş Naxçıvan ərazisində də bu siyasi prosesin izləri qalmışdır.

Hazırda türk ərazilərində Ayrım, Bəydilli, Təklə, Qaramanlı, Dügər, Şahsevənli, İnallı, Əfşar, Ustaclı, Qacar, Osallı, Sorsor, Baharlı, Udyuqlu, Qacar, və b. türk boyları əski Uz türklərinin günümüzə gəlib çatan varisləri olmuşdur. Bəydilli, Ayrım, Dügər, Əfşar, Qacar tayfa adları izlərinin Naxçıvan ərazisi toponimlərində təkrarı, bu prosesdə ərazinin bir mərkəz olduğunu da təsdiq edir.

ƏDƏBİYYAT

1. Bağırov A.N. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 333 s.
2. Бернштам А.Н. Историческая правда о легенде об Огуз-кагане // Советская этнография, Москва, 1935, № 6, s. 33, 42, 43.
3. Sümər F. Oğuzlar. Bakı: Yazıçı, 1992, 432 s.
4. Fərzəli Ə.Ə. Gəmiqaya-Qobustan əlifbası. Bakı: Azərbaycan milli ensiklopediyası, 2003, 292 s.
5. Esin E. Türk kültürü tarihi. Ankara: Atatürk Kültür Merkezi Yayınları, 1997, 87 s.
6. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
7. Kafesoğlu İ. Türk Milli Kültürü. Ankara: Türk Kültürünü Araştırma Enstitüsü, 1977, 245 s.
8. Сарткожаулы К. Обьединенный каганат тюрков в 745-760 годах. Астана: Фолиант, 2002, 220 с.
9. Короглы Х.Г. Огузский героический эпос: Монография. Москва: Наука, 1976, 240 s.
10. Kırzıoğlu M. Fahrettin. Dede Korkut-Oğuznameleri. I kitab, İstanbul: Burhanettin Erenler, 1952, 132 s.
11. Геродот. История / Перевод и примечания Г.А.Стратановского. Ленинград: Наука, 1972, 599 с.
12. Quliyev Ə.A. Qədim türk onomastikası. Bakı: ADPU nəşriyyatı, 2007, 184 s.
13. Левина Л.М. Керамика Нижней и Средней Сырдарьи в I тысячелетии н.э. Москва: Наука, 1971, 251 с.
14. Kaşğari M. Divanü lüğat-it-türk. I c., Ankara: Basımevi, 1985, 530 s.

15. Aslanapa O. Türk sanatı. İstanbul: Remzi kitabevi, 1984, 454 s.
16. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən (miladdan öncə VI-III minilliklər). I c., Bakı: ADPU-nun mətbəəsi, 2013, 528 s. II c. Bakı: ADPU, 2017, 588 c.

AMEA Naxçıvan Bölməsi
E-mail: firudinrzayev@gmail.com

Firudin Rzayev

TRACES OF ANCIENT OGUZ TURKIS' BRAND SIGNS IN THE TERRITORY OF NAKHCHIVAN

The article deals with ancient Turkic brand signs which take an especially place in Oghuz mythical thought and their traces in the toponyms of Nakhchivan territory. Although in other researches it shows that Oghuz Turks have nearest history but with many scientific facts we proved that they have an ancient history and goes to II millennium B.C. Untill our days the brand signs of these tribes haven't been investigated by Azerbaijan and Turkish scientists and their meanings are not explained. On the basis of scientific facts the trace of the meanings of ancient Oghuz Turkic brand signs exist in the territories of Nakhchivan have been investigated and explained. The article also lists the names of the Oghuz tribes and the myths on the stamps with the Nakhchivan territory. The trace of these brand signs in Nakhchivan geographical area are confirmed by facts.With many facts it is proved that the ethimoligical explanation Oghuz name are the same with the meanings of the brand signs.

These unions belonging to the Turkish Oguz tribes, united in an alliance, have been confirmed by facts that have special meaning, and new scientific results have been obtained.

Keywords: *Oghuz, Nakhchivan, oghuz tribes, brand signs, Turkic alphabet signs.*

Фирудин Рзаев

СЛЕДЫ ТАВРОВЫХ ЗНАКОВ ДРЕВНИХ ТЮРКОВ-ОГУЗОВ НА ТЕРРИТОРИИ НАХЧЫВАНА

В статье говорится о следах тавровых знаков тюрков-Огузов, занимающих особое место в тюркской истории, на территории Нахчывана. В ходе исследования с помощью фактов доказано, что история Огузов уходит корнями во II тысячелетие до н.э., также на основе фактов разъяснены значения тавровых знаков, принадлежавших 22 ветвям огузских племен. При сравнении тавро со знаками древнетюркского алфавита выясняется, что они берут начало в мифических верованиях древних тюрков. С научной точки зрения было еще раз обосновано повторение этих тавровых знаков в надписях Джемигая и Нуведи на территории древнего Нахчывана. Названия племен Огузов, сохранившие свои следы в ойконимах этой территории, однозначно подтверждают, что она является родиной тюрков. В статье показано, что названия огузских племен и мифология тавро полностью совпадают с ойконимической системой Нахчыванского региона.

Особое значение этих тавровых знаков, принадлежавших тюркским огузским племенам, объединенным в один союз, подтверждено фактами, а также получены новые научные результаты.

Ключевые слова: *Огуз, Нахчыван, ветви огузских племен, тавровые знаки, знаки тюркского алфавита.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 17.06.2019
Son variant 30.08.2019

UOT 81`28;81`286

ZÜLFİYYƏ İSMAYIL

NAXÇIVANIN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ SİNTAKTİK YOLLA SÖZ YARADICILIĞI

Məqalədə Naxçıvanın dialekt və şivələrində sintaktik yolla söz yaradıcılığı və onun əmələ gəlmə yollarından bəhs olunur. Naxçıvanın dialekt və şivələrində söz yaradıcılığı prosesinin maraqlı üsullarından biri də sintaktik üsuldur. Morfoloji üsulla söz düzəltməyə nisbətən daha az inkişaf etsə də, bu üsulla yaranan dil faktlarına da rast gəlinir. Azərbaycan dilinin Naxçıvan dialekt-şivə layı struktur-semantik, leksik-qrammatik, qrammatik formaları baxımından ədəbi dilə bənzəməsinə baxmayaraq, müəyyən derivatoloji məqamlar baxımından Azərbaycan ədəbi dilindən fərqlənir. Bu baxımından sintaksis və morfologiyanın münasibətlərini göstərən qiymətli, zəngin materiallarla qarşılaşırıq. Sintaktik üsulla yaranan leksik vahidlərə Naxçıvanın dialekt və şivələrindən toplanmış dil faktları nümunə gətirilir. Bu nümunələr dilin sintaktik imkanları əsasında əmələ gəlib. Bu yolla yeni söz yaradılarkən iki və daha artıq sözün birləşməsindən istifadə edilir.

Açar sözlər: *Naxçıvan, sintaktik yol, dialekt və şivə, söz yaradıcılığı.*

Dialekt və şivələrdə derivatologiya problemini tarixi və müasir planda araşdırmaq dilçilik elmi üçün mühüm əhəmiyyət kəsb edir. Bəllidir ki, Azərbaycan dilinin derivatologiya məsələlərindən bəhs edən tədqiqatçılar təsnifatlar aparmışlar. S.Ə.Cəfərov söz yaradıcılığında üç: a) leksik; b) morfoloji; c) sintaktik yolla sözlərin yaranmasından danışmışdır [4, s. 120-121]. H.Ə.Həsənov isə söz yaradıcılığının əsas tiplərinə a) leksik-semantik; b) morfoloji-sintaktik; c) leksik-morfoloji; ç) leksik-sintaktik üsulları daxil etmişdir [7, s. 295-304]. Başqa tədqiqatçılar da bu barədə təsnifatlar aparmışlar. Fikrimizcə, Naxçıvan dialekt və şivələrində rast gəlinən dil faktlarının təsnifatını Azərbaycan dilçiliyində söz yaradıcılığında ənənə kimi sabitləşmiş, leksik, morfoloji, sintaktik üsullar əsasında aparılmalıdır. B.B.Əhmədov dialekt və şivələrimizin materialları əsasında söz yaradıcılığı mövzusunu araşdırarkən cümlə-sözlərdən, yəni predikativ birləşmə və qrammatik vahidlərin leksikallaşmasından da ətraflı bəhs edərək yazır: "Cümlə quruluşlu predikativ vahidlərin söz kimi işlədilməsinin qədim tarixi vardır. Bu baxımdan Azərbaycan dilinin dialekt və şivələrində elə predikativ söz birləşmələri – cümlə strukturları var ki, onlar qrammatik vahidlər şəkilində olsalar da, semantik konversiya yolu ilə bir söz kimi də işlənirlər. Bu zaman hətta formal cümlələr belə bir söz mənasında işlənir, lüğəvi vahidin bütün xüsusiyyətlərini özündə əks etdirir. Bir növü cümlələr subsatntivləşir, əşyaviləşir. Yəni onlar öz cümlə əlamətlərini (avazlanma, fikir bitkinliyi, predikativliyi) itirir, əşya, hadisə, proses, adı kimi dildə bir leksik lay təşkil edir. Belə qrammatik vahidlərdən söz kimi istifadə edilir [5, s. 61]. Daha sonra müəllif Azərbaycan dilinin dialekt və şivələrində cümlə sözləri quruluş baxımından müxtəlif sadə modeli əsasında və mürəkkəb cümlə modeli əsasında formalaşanlar bölgüsünə ayıraraq təhlil edir [5, s. 62]. Naxçıvanın dialekt və şivələrində söz yaradıcılığı prosesinin maraqlı üsullarından biri sintaktik üsuldur. Sintaktik üsul morfoloji üsulla söz düzəltməyə nisbətən daha az inkişaf etsə də bu üsulla yaranan dil faktlarına da rast gəlinir. Azərbaycan dilinin Naxçıvan dialekt-şivə layı struktur-semantik, leksik-qrammatik, qrammatik formaları baxımından ədəbi dilə bənzəməsinə baxmayaraq, müəyyən derivatoloji məqamlar baxımından Azərbaycan ədəbi dilindən fərqlənir. Bu fərq sintaktik üsulla söz yaratmada da özünü büruzə verir. Dilin sintaktik imkanları əsa-

sında əmələ gələn yeni sözlərə sintaktik yolla yaranan sözlər deyilir. Ağamusa Axundov da söz yaradıcılığının ikinci üsulu, yəni söz kökünə söz artırmaq yolu ilə söz yaradılmasını dilçilik ənənəsində daha çox sintaktik yolla söz yaradıcılığı adlanır və bu haqda yazır: "Sintaktik yolla söz yaradıcılığının sözlərin miqdarına görə iki növü var: a) iki sözün birləşməsi ilə söz yaradıcılığı (istiot, düzbucaqlı, üzbəüz və s.); üç və daha artıq sözün birləşməsi ilə söz yaradıcılığı (əlüzyuyan və s.). Sintaktik üsulla yaranan sözlərə, quruluşuna görə mürəkkəb sözlər deyilir" [1, s. 160]. Yəni iki və daha artıq söz birləşərək bir leksik vahid yaradır ki, bu da mürəkkəb söz adlanır. Mürəkkəblik bütün xüsusi adlarda özünü göstərir. Sintaktik yolla iki sözün birləşməsindən ibarət yeni sözlər yaradılması dilimiz üçün daha xarakterikdir. Bu üsulla ad-söz yaradıcılığı Naxçıvanın dialekt və şivələrində çoxlu faktlara malikdir: Alacəngənəfəs, arakəsmə, taxtaçəpər; əmənköməncı və s.

Dilimizin söz yaradıcılığını təmsil edən bütün qayda və qanunları hər şeydən əvvəl dilin öz tərkibinə, öz quruluş xüsusiyyətlərinə əsaslanır. Daha doğrusu, onun təbiətini, quruluş xüsusiyyətlərini özündə əks etdirir. Aydındır ki, hər hansı bir dilin təbiəti onun quruluş xüsusiyyətləri, hər şeydən əvvəl həmin dilin qrammatikasında öz əksini tapır. Sintaktik yolla sözlərin əmələ gəlməsi prosesləri - söz yaradıcılığı prosesinin ən qədim növlərindən olan bu qayda Naxçıvanın dialekt leksikasının inkişafında da böyük rol oynayır. Bununla belə, söz yaradıcılığı prosesində lakonik müasir dövrdə olduqca zəngin və geniş bir sahəni təşkil edən morfoloji qaydalara nisbətən sintaktik yolla yeni sözlərin yaranması qaydası çox kiçik bir sahəni təşkil edir. O, get-gedə əhəmiyyətini itirərək öz funksiyasını leksik və morfoloji yolla olan söz yaradıcılığı prosesinə tərk etmək üzrədir. Sintaktik yolla söz yaradıcılığı prosesinin yaranması öz tarixi etibari ilə morfoloji prosesdən qədim olduğuna baxmayaraq, bu proses həmin proses əsasında yaranan sözlərin sürətlə dəyişilməsi və sadə sözlərə çevrilməsi və ya bir sözün şəkillənməsi ilə xarakterizə olunur. Odur ki, Naxçıvanın dialekt-şivə qatında mövcud olan mürəkkəb sözlərin etimoloji tarixi düzəltmə sözlərə nisbətən dilimizə daha yaxındır. Deməli, mürəkkəb sözlər dilin lüğət tərkibində daha sürətlə dəyişmə xüsusiyyətinə malikdir. Bu haqda Səlim Cəfərov belə yazır: "Mürəkkəb sözlərin tərkibində iştirak edən elementlərin ayrılıqda müstəqil məfhum ifadə edən sözlərdən ibarət olduğuna baxmayaraq, mürəkkəb söz problemi düzəltmə söz problemindən daha qarışıq və daha mürəkkəbdir" [4, s. 170]. Halbuki mürəkkəb sözlərin təşəkkülündə müəyyən qrammatik qaydaların iştirakı müəyyən bir qayda sayıla bilər. Başqa sahələrdə olduğu kimi, mürəkkəb sözlər də forma və məzmun münasibətində müxtəlif şəkillərdə müxtəlif dərəcələrdə təzahür edə bilər. Bu incə təbii bir məsələdir, çünki həmişə hər yerdə və hər zaman həm məzmun, həm də forma bir vaxtda bir qaydada meydana gəlir. Naxçıvanın dialekt və şivələrində müşahidə olunan mürəkkəb sözləri düzgün tədqiq etmək üçün bu sözlərin yaranmasını təmin edən bir sıra cəhətləri aydınlaşdırmaq lazım gəlir.

Naxçıvanın dialekt və şivələrində sintaktik yolla düzələn sözlərdə və bu tip sözlərin əmələ gəlməsində müxtəlif məqamlar, cəhətlər diqqət çəkir: məsələn, maddi əsas, komponentlərin məna xüsusiyyətləri, komponentlərin tipləri, forma və məzmun münasibətləri, komponentlər arasında əlaqə və s. Bu modellər əsasında yaranan sözlərə nəzər yetirək:

Naxçıvanın dialekt və şivələrində bir çox mürəkkəb sözlər eyni sözlərin təkrarı ilə əmələ gəlir. Məsələn: evcik-evcik, fincan-fincan, höləx'-höləx', qazı-qazı, molla-molla, ocaq-ocaq, qodu-qodu, kosa-kosa, məndə-məndə, baca-baca, yordu-yordu, aşıq-aşıq, qolçaq-qolçaq, xan-xan, günü-günü, gəlin-gəlin, lopuğ-lopuğ, yalax-yalax, qoz-qoz, qala-qala, oğru-oğru, qundağ-qundağ, maça-maça və s. göründüyü kimi eyni sözlərin təkrarı ilə daha çox uşaq oyunları və rəqs adlarını bildirən mürəkkəb etnoqrafizmlər sintaktik yolla əmələ gəlmişdir. Belə mürək-

kəb sözlərin komponentləri eyni nitq hissələrinə mənsub olduğu kimi, şəkil əlamətlərinə görə də məhdud olur.

Naxçıvanın dialekt və şivələrində eyni sözlərin təkrarı ilə düzələn mürəkkəb sözlərin bəzi dəyişiklikləri nəticəsində əmələ gəlmiş xüsusi bir formaya malik olan söz qrupuna – ikibaşlı sözlərə təsadüf edilir. Məsələn: ağac-uğac, axır-uxur, arıq-uruq, əyri-üyrü, əyri-burcuma, dar-dartış və s.

Naxçıvanın dialekt və şivələrində sintaktik yolla sözyaranması aşağıdakı qaydalar üzrə də əmələ gəlir:

a) funksiyaya görə. Burada mürəkkəb sözün əmələ gəlməsində əşyanın daşıdığı funksiya mühüm yer tutur. Məsələn: aşsüzən, mərküzçəkən, külçəkən və s.

b) əlamətə görə. Bu cür mürəkkəb sözlərdə əşyanın daşıdığı əlamət mühüm rol oynayır. Məsələn: şüşəbənd, aynabənd, qarnıyarıx, qaragöz, günəvər, kücüqurdu, danaburnu və s.

c) bənzətməyə görə. Bu cür mürəkkəb sözlərdə əşyanın, predmetin bənzədilməsi əsas götürülür. Məsələn: qazayağı, dəvədabanı, itburnu, dərəyarığı, quşəppəyi, çobanyastığı, quzuqulağı, ördəkburun, itburnu, daşarmud, çölarmudu və s.

d) mənsubiyyətə görə. Bu cür mürəkkəb sözlər mənsubiyyət əsasında əmələ gəlir. Məsələn: gəlinbacı, əmoğlu, gecəquşu, kirvədostu, əmdostu, dayıdostu, yeralması və s.

Naxçıvanın dialekt və şivələrində sintaktik yolla yaranan mürəkkəb isimlər, sifətlər, zərflər və fellər də müşahidə olunur. Nümunələrə diqqət yetirək:

Naxçıvanın dialekt və şivələrində sintaktik yolla yaranan mürəkkəb isimlər: qurtyeməz, quşqonmaz (tikanlı bitki), daşqalax-daş yığını, gəlinayıtdamaz (qatqat), sapdadurmaz və s.

Naxçıvanın dialekt və şivələrində sintaktik yolla yarana mürəkkəb sifətlər: döydümölməz, tükkeçirməz, malınıyeməz, acgöz, gicbəsər, vırhavır, döyhadöy, tuthatut, əliəyri, gözütox, laldinməz, üzbəsurat-üz-üzə, candərdi-məcburi//istəmədən, gözəyarı-təxmini, üzüyola, şinim-şəhrə-yara və s.

Naxçıvanın dialekt və şivələrində sintaktik yolla yaranan mürəkkəb zərflər: ört-basdır, dadardoymaz, düşər-düşməz və s.

Naxçıvanın dialekt və şivələrində sintaktik yolla yarana mürəkkəb fellər: karıxa-karıxa, çaşa-çaşa, aza-aza, bərələ-bərələ, gərilə-gərilə, vırnıxa-vırnıxa, qanı qurumaq, dili dolaşmaq, dala-qabağa, dil tökmək, gözdən düşmək, dildən düşmək, əldən düşmək və s.

Mürəkkəb sözlərin komponentləri arasında tabesizlik və tabelilik əlaqələrindən biri özünü göstərir. Deməli, mürəkkəb sözlər sintaktik yolla həm tabesizlik, həm də tabelilik əlaqəsi əsasında əmələ gəlir. Tabesizlik əlaqəsi əsasında mürəkkəb sözlərin dilimizdə əsasən aşağıdakı növlərinə təsadüf olunur:

- bir-birindən fərqli iki leksik vahidin birləşməsindən əmələ gələnlər: Məmmədqulu, Məmmədəli, Gülənaz və s.

- eyni sözün təkrarından əmələ gələnlər: dal-dala, dil-dilə və s.

- sinonim və yaxın mənalı sözlərdən əmələ gələnlər: alışdım-yandım, aşdı-daşdı, qırdı-qaşdı (etibarsız), tökülüb-itmək, tanış-biliş, hərbə-zorba-təhdid, söz-sov, zir-zibil, tir-tingə, şir-şitil, şitil-mitil, şaratdı//torbaatdı, parçakəsdi//parçabişdi və s.

- antonim sözlərdən əmələ gələnlər: acgöz-gözütox, adamaoxşamaz-gözəl-göyçək, yüngültaxtalı-ağırtaxtlı, cırtqoz-ağıryana, qarayandım-ağcavaz və s.

Naxçıvanın dialekt və şivələrində tabelilik əlaqəsi əsasında mürəkkəb sözlərin əsasən aşağıdakı növlərinə təsadüf olunur: məsələn: yanaşma əlaqəsi əsasında əmələ gələnlər: dar qursaq, dar-düdüh, dar-dartış, dar-darısqal, dar-macal, gicbəsər və s.; idarə əlaqəsi əsasında

əmələ gələnlər: quzuqulağı, ucdantutma, başabütün, qəlbidən-qəlbiyə, aralıdan-aralıya, təndirarası, əppəyarası, dəvədabanı-şirin bitki, sözgəlişi-elə-belə, başpapaxlı və s.

Azərbaycan dilçiliyində predikativ xarakterli sintaktik quruluşlu birləşmələr və qrammatik vahidlərin leksikallaşması faktları "cümlə-söz", "polisemantik xarakterli mürəkkəb isimlər", inkorporlaşma yolu ilə əmələ gələn mürəkkəb sözlər, "Predikativ xarakterli söz birləşmələrinin mənaca dəyişməsi, semantik cəhətdən sadələşməsi nəticəsində yaranan frazeolojiləşmə" hadisəsi və b. adlarla, terminoloji birləşmələrlə adlandırılır. Xüsusən, belə faktlar içərisində oyun adları burada əhəmiyyətli yer tutur. T.İ.Hacıyev bu barədə belə yazır: "Bir yerdə tələffüz edilən mürəkkəb isimlərə cümlə-sözlər daxildir. Bunlar ən çox oyun adlarını bildirən mürəkkəb isimlərdir ki, inkorporlaşma yolu ilə yaranır. Baş vurğu son sözün son hecası üzərinə düşür" [6, s. 99]. Əlbəttə, belə faktlara müəllifin xüsusi diqqət yetirməsi özlüyündə təqdir olunmalı olsa da, Azərbaycan dilində inkorporlaşma yolu ilə söz yaradıcılığının tam elmi izahı hələ də mübahisəlidir. Türk dillərinin türk, türkmən, tatar, noqay dillərində də göstərilən forma öz işləkliyi ilə seçilir. Türk dillərində geniş müşahidə olunan belə dil vahidlərindən Azərbaycan dilçilərindən bir çoxu bəhs etmişdir. Sintaktik yolla yaranan mürəkkəb sözün qovuşuğu çox vaxt morfoloji dəyişmə ilə nəticələnir. Məsələn, qaraqalpaq dilində ala at/alat, qırğız dilində kara at/karat, Azərbaycan dilində bu gün/böyün, əmi oğlu/əmoğlu və s. morfonoloji dəyişmə bu cür sözlərin yaranması türk dillərində geniş yayılmışdır və bu xüsusi isimlərdə qabarıq nəzərə çarpır: Əli Əsgər – Ələsgər, Əli Ağa/Əlağa, Hacı Ağa/Hacağa, Mirzə Əli/Mirzəli və s. mürəkkəb sözlərin sadələşməsi, yəni tərkib hissələrdəki asemantikləşmə prosesində özünü göstərən fonetik dəyişmələr morfonoloji ölçülər daxilində baş verir.

Naxçıvanın dialekt və şivələrində elə lüğəvi vahidlərə də rast gəlmək olur ki, onların sadə geniş cümlə modelinə uyğun gəlir. Belə qrammatik vahidlər artıq cümləyə əlamətləri itirərək əvəzinə sözə aid xüsusiyyətləri qəbul etmiş olur. Nümunələrə diqqət edək: topaldıqaç, ocaxyandısuqaynadı, keçibağagirdi, arayagirmə//ortayagirmə, qəyişəgirmə (oyun adı), hacıbəribax, dəyməgülümtökülər, buküçəmənədargəlir (parça adı), dayandoldurum (silah adı) və s. Bu adlar eyni quruluşlu cümlələrə oxşasa da, lakin bir mürəkkəb leksik vahid kimi işlədilir. Naxçıvanın dialekt və şivələrində sintaktik yolla yaranan belə lüğəvi qrammatik vahidlərin lüğəviləşməsinin müxtəlif səbəbləri ola bilər. Bəllidir ki, əşya və hadisələrin miqdarı sonsuzdur. Onları dərk etdikcə adlandırmaq zəruri olur. Bu zaman lüğət ehtiyatında onlara aid söz çatmadıqda qrammatik vahidlər və ya cümlə tipli birləşmələr əşyaviləşərək lüğəvi vahid kimi çıxış edir, yeni söz yaranır, dilin sözə ehtiyacı bu üsulla da ödənir. Naxçıvanın dialekt və şivələrində olan bu üsulla söz yaradıcılığı, əsasən dil yaruslarında birindən o birinə keçiddir. Belə keçid leksik, morfoloji-leksik səviyyələrdə olduğu kimi, sintaktik-leksik səviyyədə də baş verə bilir.

Nəticə olaraq qeyd edək ki, Naxçıvanın dialekt və şivələrində sintaktik yolla söz yaradıcılığının 2 forması daha çox müşahidə edilir: 1. Mənası fərqli olan iki sözün birləşməsi; 2. Mənası fərqli olan iki sözün mürəkkəb söz şəklində birləşməsi; Azərbaycan dilinin digər dialekt və şivələrində olduğu kimi Naxçıvan dialekt və şivələrində də sintaktik yolla söz yaradıcılığı, həmçinin sintaktik xüsusiyyətlər fonetik və morfoloji xüsusiyyətlərinə görə ədəbi dildən bir o qədər də fərqlənmir. Burada məhəllilik az müşahidə olunur. Buna baxmayaraq, Naxçıvanın dialekt və şivələrində digər dialekt və şivələrdə rast gəlinən sintaktik xüsusiyyətlərin bəzilərinə rast gəlinir. Belə ki, cümlədə söz sırasının pozulması, konkret və yığcam modeldə cümlələrin işlədilməsi, sadə cümlələrdə bəzən mübtəda və ya xəbərin buraxılması,

rabitəli nitqdə bağlayıcı və digər köməkçi sözlərin az işlədilməsi, sintaktik təkrarların çox olması, cümlələrin təkrarı, təyinin söz birləşmələrinin tərəflərinin dəyişməsi və s. Naxçıvanın dialekt və şivəsinin spesifik cəhətlərindəndir.

ƏDƏBİYYAT

1. Axundov A.A. Ümumi dilçilik. Bakı: Şərq-Qərb, 2006, 280 s.
2. Azərbaycan dilinin Dərbənd dialekti / Q.Ş.Kazımovun, E.İ.Əzizovun redaktəsi ilə. Bakı: Elm, 2009, 448 s.
3. Abdullayev Ə.Z., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. IV hissə: Sintaksis, Bakı: Şərq-Qərb, 2007, 424 s.
4. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. II hissə: Leksika, Bakı: Şərq-Qərb, 2007, 192 s.
5. Əhmədov B.B. Azərbaycan dili söz yaradıcılığında sadələşmə meyli (şivə materialları əsasında). Bakı: APİ-nin nəşri, 1990, 90 s.
6. Hacıyev T.İ. Azərbaycan dilinin Cəbrayıl şivəsi. Fil. üzrə fəl. dok. dis. Bakı, 1961, 187 s.
7. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1988, s. 295-304.
8. Hüseynzadə M.H. Müasir Azərbaycan dili. III hissə: Morfologiya, Bakı: Şərq-Qərb, 2007, 280 s.
9. Qurbanov A.M. Azərbaycan dilçiliyi problemləri. 2 cilddə, I c., Bakı: Bakı: Elm və həyat, 2010, 443 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: ismayilzulfiyye@yahoo.com

Zulfiya Ismayil

SYNTACTIC METHOD OF WORD-BUILDING IN NAKCHIVAN DIALECTS AND ACCENTS

The article deals with syntactic model of word-building in Nakchivan dialects and accents and the methods of its formation. One of the interesting methods of word-building in Nakchivan dialects and accents is the syntactic method. Although it is less developed than morphological method of word formation, but there are linguistic factors formed by this method. Although Nakhchivan dialectal layer of Azerbaijani language resembles literary language in terms of structural-semantic, lexical-grammatical, grammatical forms, it differs from literary language of Azerbaijan in terms of certain derivational aspects. Therefore, we encounter valuable, rich materials that display the relationship between syntax and morphology. Lexical units formed by syntactic method are sampled language facts collected from dialects and accents of Nakhchivan. These examples are based on the syntactic capabilities of the language. The combination of two or more words is used forming new words by this method.

Keywords: *Nakhchivan, syntactic method, a dialect and an accent, word-building.*

Зульфия Исмаил

СИНТАКСИЧЕСКИЙ СПОСОБ СЛОВООБРАЗОВАНИЯ В НАХЧЫВАНСКИХ ДИАЛЕКТАХ И ГОВОРАХ

В статье говорится о синтаксическом способе словообразования в диалектах и говорах Нахчывана и о процессе его возникновения. Одним из интересных способов словообразования в диалектах и говорах Нахчывана является синтаксический способ. Хотя он менее развит, чем морфологический способ словообразования, языковые факты, созданные этим способом, часто встречаются. Несмотря на то, что слой нахчыванских диалектов и говоров азербайджанского языка похож на литературный язык с точки зрения структурно-семантических, лексико-грамматических и грамматических форм, с точки зрения определенных дериватологических моментов он отличается от литературного языка. При этом мы сталкиваемся с ценными, богатыми материалами, которые показывают синтаксические и морфологические отношения. В качестве примеров лексических единиц, созданных синтаксическим способом, приводятся языковые факты из нахчыванских диалектов и говоров. Эти примеры образовались с использованием синтаксических возможностей языка. При образовании слов таким способом используется соединение двух и более слов в одно.

Ключевые слова: *Нахчыван, синтаксический способ, диалект и говор, словообразование.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 08.06.2019
Son variant 29.08.2019

UOT 81’28;81’286

NURAY ƏLİYEVA

NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏKİ BƏZİ KÖHNƏLMİŞ SÖZLƏRİN ETNOLİNQVİSTİK TƏHLİLİ

Naxçıvan dialekt və şivələrinin materiallarından seçilən müasir ədəbi dilimiz üçün arxaik sayılan ağırramax, alçax, arı, yaşmax, yazı, qanrılmax, pitik, əppək, yey, güz, dişətmək kimi leksik vahidlərin şivələrdə yaşaması dilin qədim tarixindən xəbər verir. İlk anadilli abidələrimizdə, qədim dastanlarımızda, folklor nümunələrimizdə, türk dillərinə aid qədim lüğətlərdə, türk dillərini araşdıran tədqiqatçıların əsərlərində bu sözlərin işlənməsi və semantikasının məhz bu gün Naxçıvanın ayrı-ayrı kəndlərində qeydə aldığımız kimi izah olunması onu göstərir ki, bütün dillərdə olduğu kimi Azərbaycan dilində də dialekt və şivələr dil tarixini özündə yaşadır. Belə ki, həmin sözlər qədim türk dillərində, “Kitabi-Dədə Qorqud” dastanında, Nəsiminin, Füzulinin, Xətainin əsərlərində, ilk anadilli məsnəvimiz olan “Dastani-Əhməd Hərami”də, Əlinin “Qisseyi-Yusif” əsərində eyni mənada işlənmişdir. Bu əsərlərdən nümunələr gətirməyimiz təsadüfi deyil. Çünki köhnəlmiş sözləri müəyyənləşdirərkən tarixilik prinsipinə əsaslanmaq, sözə tarixi baxımdan yanaşmaq vacibdir. Köhnəlmiş sözlər arxaizmlər və tarixizmlər kimi qruplara ayrılır. Arxaizmlər adları dəyişən, lakin özü bu gün də mövcud olan əşya və hadisələrin vaxtilə ifadə olunduğu sözlərdir. Ağırramax, alçax, arı, qaxmax, dirrik, qanrılmax kimi sözlər dialektdə işlənən arxaik sözlərə nümunə ola bilər. Tarixizmlər isə keçmiş həyat və məişətin dəyişməsi ilə əlaqədar əşya və ya hadisənin özü aradan çıxdığı üçün adını ifadə edən sözün də işləklikdən qalması ilə yaranan yaşmax, bəhrə, zəncirə, xıllıx kimi leksik vahidlərdir.

Açar sözlər: *dialektologiya, Naxçıvan dialekt və şivələri, leksika, arxaizmlər, tarixizmlər.*

Naxçıvan dialekt və şivələrinin lüğət tərkibinə nəzər saldıqda burada çoxlu miqdarda arxaik sözlərə rast gəlirik ki, onların bəziləri digər dialekt və şivələrimizdə də işlənir. Bəziləri isə yalnız adı çəkilən şivələrdə işlənir. Burada həmin sözlər digər türk dilləri və onların dialektləri, eyni zamanda dilimizin dialekt və şivələri ilə müqayisəli şəkildə etnolinqvistik tədqiqata cəlb olunacaq.

Məlumdur ki, bəzi anlayışlar şəraitlə əlaqədar olaraq köhnələrək fərdi tətbiq çərçivəsində qalır. Onların adları da ədəbi dildə arxaikləşir və yalnız künc-bucaqda, məhəlli danışıqda saxlanılır. Belə sözlər şivələrdə aktiv şəkildə işlənir və müasir dövrümüzdə ədəbi dilin zənginləşməsinə də xidmət edir.

Dialekt və şivələrdə işlənən hər hansı bir leksik vahidi arxaizm kimi qəbul edərkən hansı meyarlar əsas götürülməlidir? Müasir ədəbi dildə işlənməyən hər bir sözü köhnəlmiş söz kimi qəbul etmək mümkündürmü? Bu barədə dilçilik ədəbiyyatında müxtəlif mülahizələr mövcuddur. Yəni konkret bir fikir mövcud deyil. Lakin leksik vahidləri arxaik söz kimi qeyd edərkən müəyyən cəhətlərə fikir vermək lazımdır. Həmin məsələ ilə bağlı R.Rüstəmov yazır: “Məgər müasir Azərbaycan dilində işlənməyən, lakin dialekt və şivələrimizdə təsadüf edilən hər hansı bir sözü, bu sözün türk dillərinə aid qədim yazılı abidələrdə və lüğətlərdə, müasir türk dillərində mövcud olmağına baxmayaraq, arxaizm adlandırmaq olarmı? Bizə elə gəlir ki, bu şərtlər müəyyən sözü arxaizm adlandırmaq üçün kifayət deyildir, ikinci, üçüncü dərəcəli amillərdir. Bizcə, arxaizm adlandırılan bu və ya digər sözün konkret bir dilin əvvəlki dövrlərinə aid yazılı mənbələrində işlənməsi əsas şərt, əsas amildir. Bir halda ki, müəyyən bir söz konkret bir dilin yazılı mənbələrində işlənməyib, o sözü müasir ədəbi dil üçün arxaikləşmiş söz kimi necə və nəyə əsasən adlandırmaq olar” [13, s. 6]. Biz də bu fikirlə şərikik və ona

görə də haqqında danışacağımız arxaik sözlərə aid klassik ədəbiyyatımızdan, ilk anadilli əsərlərimizdən nümunələr gətirməyi vacib hesab edirik. Çünki köhnəlmiş sözləri müəyyənləşdirərkən tarixilik prinsipinə əsaslanmaq, sözə tarixi baxımdan yanaşmaq vacibdir. S.Cəfərov qeyd edir ki, köhnəlmiş sözləri arxaizmlər və tarixizmlər kimi qruplara ayıra bilərik [3, s. 66]. Arxaizmlər adları dəyişən, lakin özü bu gün də mövcud olan əşya və hadisələrin vaxtilə ifadə olunduğu sözlərdir. Tarixizmlər isə keçmiş həyat və məişətin dəyişməsi ilə əlaqədar əşya və ya hadisənin özü aradan çıxdığı üçün adını ifadə edən sözün də işləklikdən qalması ilə yaranır.

Qanrılmax. Naxçıvanda bu söz "dönmək, geri çevrilmək, dönüb baxmaq" mənasında işlənir: – Elə isdiyirdim qanrılam baxam kişiyə bi də baxdım yoxdu (Zeynəddin). –Xatalı kimin dünənnərim güya dala qanrılanda damarım atdanıp dərbəşəmmirəm (Culfa). Bölgəyə aid folklor nümunələrində də bu söz tez-tez işlənir:

Bulaq yolu qulaşdı
Yanı xanalı daşdı.
Qanrıldım geri baxdım,
Saç boynuma dolaşdı.

Naxçıvan dialekt və şivələrinin lüğət tərkibində eyni zamanda qanırmax sözü də vardır ki, bu da "arxaya çevirmək, burmaq" mənalarında işlənir. Azərbaycan dilinin İmişli şivələrində qaŋarılmax, Yerevan şivələrində qanqırmax, Qazax və Tovuzda qaŋrılmax "çevrilmək, dönmək" mənasında qeydə alınmışdır. Qazax, Tovuz, Gədəbəy, Çəmbərək şivələrində qaŋırmax//qaŋırtaxlamax, Şəki dialektində qantarmax "burmaq" [1, s. 305] mənasında işlənir.

Qədim türk yazılı abidələrində konqrulmak "qanrılmaq, çevrilmək" [6, s. 510] mənasında göstərilmişdir. M.Kaşğari eyni mənada kadhrıldı: –Anınq boynı kadhrıldı (Onun boynu büküldü, əyildi, qanrıldı), "sökmək, qanırmaq" mənasında isə konqur feilini qeydə almışdır [8, II c., s. 313].

"Kitabi-Dədə Qorqud" dastanında da bir neçə yerdə bu söz işlənir: – Aslan kimi duruşundan, qanrılıban baxışından, ağam Beyrəyə bənzədirəm ozan səni [9, s. 43].

Türk dillərinə aid lüğətlərdə, ilk anadilli ədəbiyyat nümunələrində bu sözə az rast gəldik. Lakin "Kitabi-Dədə Qorqud"da, M.Kaşğaridə də qeyd olunması göstərir ki, bu feil həmin dövrlərdə ədəbi dilimizdə işlənmiş, bu gün isə arxaikləşmişdir. Naxçıvan dialekt və şivələrində, o cümlədən dilimizin bəzi digər dialekt və şivələrində isə işlənməkdədir.

Bir qisim sözlər vardır ki, onlar ədəbi dilimiz üçün arxaikləşmiş, lakin Naxçıvan dialekt və şivələrində az da olsa işlənir. Bu sözlər daha çox köhnə quruluş, təsərrüfat formaları ilə bağlıdır. Onların bəzisi müəyyən məna dəyişikliyinə uğramış və bu gün fərqli mənada işlənir, bəziləri isə yalnız keçmişdən söhbət düşəndə işlənir. Belə sözlər keçmiş həyat və məişətlə bağlı əşyaların, məfhumların köhnələrək meydandan çıxması nəticəsində köhnəlir və arxaikləşir. Bu cür sözləri dilçilik ədəbiyyatlarında tarixizmlər adlandırırlar. Onlar köhnə həyatı canlandırmaq məqsədi ilə işlədilir.

Pitix'. Naxçıvan dialekt və şivələrində işlənən maraqlı leksik vahidlərdən biridir. Bu söz "kağız, məktub" mənasında şivələrdə işlənir: - Getmişdi Səmaya molla bir pitix' yazmışdı oğlana (Naxçıvan). –Yazginən bir pitiyə, ver aparım bir başıçıxan adama gösdərim, görüm nə deyir (Şahbuz). –Arvat yazmışdı bir pitiyə, unu da hara qoymuşam tapammıram (Culfa). Naxçıvana aid folklor mətnlərində də bu söz geniş şəkildə işlənir: –Bir dəfə təsadüfən pulun yubandığını görən arvadı Məsmə, – bəs biz neyniyəcəyix'? – deyə, Qəssaboğluya bir pitik yazır [12, s. 380].

Bəzən ədəbi dildə də cadu-piti//cadu-pitik birləşməsinin tərkibində işlənir. Maraqlıdır

ki, bu söz dilimizin Tovuz şivələrində tamamilə fərqli mənada, "qadın paltarında naxış, bəzək" [1, s. 457] mənasında qeydə alınmışdır.

Dil tarixinin tədqiqi göstərir ki, bu söz dilimizdə qədim vahidlərdən biridir. Bütün yazılı abidələrdə bit feilinin "yazmaq" mənasında işləndiyi qeyd edilir. Müxtəlif türk dillərində biti//biçi//bitiv//bitüv//bitik//bitiq "məktub, sənəd, kitab" mənasında işlənir [14, s. 157]. Hətta M.Fasmer rus dilindəki печать sözünün etimologiyasını izah edərkən belə bir mülahizə irəli sürür ki, ola bilsin ki, bu söz türk dillərindəki bitik sözündən yaranmışdır [5, s. 255]. "Qədim türk sözləri lüğəti"ndə bitig "kitab, əlyazma, sənəd", bitigçi "yazıçı" mənalarında, M.Kaşğaridə də bitik "məktub, yazı" kimi izah olunur. R.Əsgər yazır: "Divan"ın oğuz leksikasına aid olan sözlərinin bir qismi bu gün bizim üçün arxaik olsa da, oxucuda müəyyən assosiasiya yaradaraq təxminən anlaşılır. Məsələn: alp "bahadır", bitik "yazı, məktub" [8, IV c., s. 26]. "İbn-Mühənna lüğəti"ndə də bitikçi "yazıçı", bitikləmək "yazmaq" [7, s. 20] mənasında göstərilir. Müasir qırğız dilində biçik "kitab" deməkdir.

İlk anadilli abidələrimizdə də biti//bitik eyni mənada işlənir. "Dastani-Əhməd Hərami"də "nüsxə, dua" kimi izah olunur: – Güləndam aydır: imdi dur, görəsən, Bənə andan bitilər yazdırasan [4, s. 108].

Göstərdiyimiz nümunələrdən fərqli olaraq Naxçıvan dialekt və şivələrində bu söz pitix' variantında işlənir. b>p əvəzlənməsi hadisəsi regionda geniş yayılmış səs əvəzlənmələrindən biridir. Bu hadisəyə qapalı saitlərdən əvvəl söz önündə, bəzən də söz axırında təsadüf edilir: pişməx, piçənəx', şüpə və s. Bəzi müəlliflərə görə bu sözün pitik variantı daha qədim, bitik variantı isə sonradan yaranandır [14, s. 156].

Əpbəx'. Naxçıvan dialekt və şivələrində "çörək" mənasında işlənir: – Bir tikə əpbəyimiz, suyumuz var, bı günümüzə min şükür (Naxçıvan). – Bir nüsübətnən, yetimçiliynən yekəldılər bı uşaxlar, imdi əlləri əpbəyə çatıp ta (Bənəniyar). – Ay bala, əpbəyi gətirip sırfıya düzüp gözdətməzdər, günahdı (Cəhri). Qədimdən bu günə bu arxaik sözün inkişafını izləsək, görərik ki, onun ilk variantı ətmək olmuş, sonra səs əvəzlənmələri nəticəsində şivələrdə əpbəx'//əppəx' formasına düşmüşdür. Dilimizin bir çox digər dialekt və şivələrində də işlənməkdədir. Şəki dialektində bu söz epbex' formasında [1, s. 162], Ağdam, Çəmbərək, Goranboy, Mingəçevir, Tovuz, Yevlax şivələrində əpbəx', Oğuz şivələrində əpbəy, Dərbənd dialektində əppeg, Ağdaş, Göyçay, Kürdəmir şivələrində əppək [1, s. 174-175] variantında qeydə alınmışdır.

Bu qədim leksik vahidin "çörək" mənasında "İbn-Mühənna lüğəti"ndə ətmək, M.Kaşğaridə ətmək (Ol manqa ətmək sundı – O mənə çörək təqdim etdi, verdi)//əpmək (yağma, toxsı, oğuz və qıpçaq ləhcələrində) [8, II c., s. 55; 178] variantlarına rast gəlirik.

Əkmək//əpmək//ətmək//ötmək//ötpək formasında müxtəlif türk dillərində işlənmişdir. Tədqiqatçılara görə bu sözün ən qədim forması əpmək olmuşdur. Tatar dilində ipi, başqırd dilində əpəy də "çörək" deməkdir. Əkmək variantını isə qədim forma hesab etmək olmaz. Bu sözə ilk dəfə XVII əsrdə rast gəlirik. Araşdırdığımız qədim türk yazılı abidələrində də bu varianta rast gəlmədik. Xalq etimologiyasına əsaslansaq, bu söz ək feilindən yaranmışdır [14, s. 254-255]. Əpmək//ətmək ilkin formasından Naxçıvan dialektində tədricən əpbəx' forması yaranmışdır ki, burada yarımçıq irəli assimilyasiya nəticəsində pm>pb hadisəsi baş vermişdir. Naxçıvan dialekt və şivələrində bu hadisə çapba, qapba, çırpba, səpbə kimi sözlərdə də baş verir.

Naxçıvana aid folklor nümunələrində də bu söz tez-tez işlənir: Oğlan deyir: – İndi ala salginən əppəkyapanın üstünə, vur təndirə.

Əppək qaldı, su haray!

Su qaldı, molla haray!

"Yağlı əpbəy olup göyə çəkilməx", "əpbəyinin duzu olmamaq" kimi frazeoloji birləşmələrin tərkibində də bu leksik vahidə rast gəlirik.

Müasir Türkiyə türkcəsində ekmek "çörək" mənasında bu gün də ədəbi dil səviyyəsində işlənir. Türkiyə ağızlarında isə bu sözün emek, etmek, etmak, etmeh variantları da var. Başqırd və tatar türklərində "çörək" mənasını ikmək sözü ifadə edir.

İlk anadilli abidələrimizdə də bu söz ətmək variantında işlənmişdir. "Qisseyi-Yusif"də: – Yusif aydurur, siz duz-ətmək almadınız [10, s. 143].

Zəncirə. "Keçmişdə arxalığın ətəyinə tikilən bəzəkli gümüşü haşiyə" mənasında Culfa şivələrində və Ordubad dialektində qeydə alınmışdır: – Qəbaxlarda zəncirəli ərxalıx geyərdilər (Vənənd) – Zəncirə geşmişdə tikirdilər paltarın ətəyinə, indi day yoxdu (Ordubad) – Zəncirə ən çox varrıların paltarında olardı (Aza). Regiona aid folklor mətnlərində də həmin sözə rast gəlirik:

Qara tuman xarıldar, haxışta,
Zəncirəsi parıldar, haxışta,
Özgə məni sevirdi, haxışta,
Əmim oğlu mırıldar, haxışta.

Bədii ədəbiyyat nümunələrində də bəzən bu sözə rast gəlirik. M.S.Ordubadidə: Qırmızı çuxası, yaxa zəncirə; Ətəkləri uzun, sallanır yerə. İrəvan şivələrində "məxmər və zərli paltarın ətəyinə tikilən bəzəkli haşiyə" [2, s. 420] mənasında qeydə alınmışdır.

Məlumdur ki, arxalıq keçmişdə Qafqaz xalqlarında kişi və qadınların geyindiyi çox geniş yayılmış üst geyimi idi. Uzun, yaxası açıq, beli ensiz, bədənə kip yapışan gödəkçə formasında olan bu geyim növü müxtəlif növ parçalardan tikilirdi. 1920-ci illərə qədər istifadə olunmuşdur. Dilimizdə, o cümlədən digər türk dillərində bir çox türkmənşəli geyim adları vardır ki, bunlardan biri də arxalıqdır. Lakin bu gün həmin geyimlərin əksəriyyətinin adı arxaikləşmişdir. Arxalıq da belə geyimlərdəndir. Qadınların arxalıqları kişilərinkindən fərqli olaraq rəngarəng olur, müxtəlif naxışlarla, xəzlə bəzədilirdi. Arxalığa vurulan belə bəzəklərdən biri də zəncirə idi. Zəncirə arxalığın ətəyinə, bəzən isə yaxasına bir-birinə ilişmiş halqalar ardıcıllığı, yəni zəncir şəklində işlənmiş gümüşü və qızılı bəzəkdir.

Arxalıq müasir dövrümüzdə xalq arasında istifadə olunmur və geyim köhnəldiyi üçün onun adı da, ona vurulan bəzəklərin adı da dilimiz üçün arxaik hesab olunur.

Xıllıx. Ordubad dialektində "yundan hazırlanan yapıncı" mənasında işlənir. – Xıllığı geşmişdə çobannar giyərdi (Bist). – Xıllıx güzəmnən hazırrıyırdılar o vaxdı (Aza). Bu söz ədəbi dilimiz üçün xarakterik deyil. Digər dialekt və şivələrimizdə də rast gəlmədik. Xıllıx güzəmdən hazırlanan yapıncıdır. Çobanlar qoyun otaran zaman onu geyinirdilər. Qolsuz, uzun, enli geyim növüdür. Çöldə geyildiyi üçün əsasən qara rəngdə olurdu. Heyvandarlıqla məşğul olan əhali arasında çox geniş yayılmışdır. Lakin müşahidələrimiz göstərir ki, bu gün artıq çobanlar bu geyim növündən çox az istifadə edirlər, yaxud da etmirlər. Fikrimizcə, Ordubad rayonunda bu sözün xıllıx adlandırılmasının səbəbi onun güzəmdən hazırlanması ilə bağlıdır. Məlumdur ki, güzəm payızda qırxılan yundur və bu yun iri, saçaqlı deyil, balaca-balaca olur. Azərbaycan dilinin Kürdəmir şivələrində xılxa "yunun çıxarı, yunun irisini götürəndən sonra qalan xırdaları" [1, s. 243] mənasında işlənir. Xıllıx da balaca yundan hazırlandığına görə bu sözlər arasında semantik cəhətdən uyğunluq vardır. Bəzi dilçilərin fikrincə xıllıx yunan dilindən alınmış sözdür.

Zaman keçdikcə cəmiyyət alınma sözlərin bəzən dilə zərərli təsirini müşahidə edir və

beləliklə də milli sözlərə yönəlmə baş verir. Bu cür sözlər öz milli qarşılıqları ilə əvəz olunmağa başlayır. Burada isə əsas baza rolunu dialekt və şivələrin lüğət tərkibi təşkil edir. Nəticədə isə bir zamanlar arxaikləşərək dilin lüğət tərkibindən çıxmış sözlər yenidən dilə qaytarılır. Bu proses arxaizmlərin yenidən dirilməsinə, ədəbi dil üçün işlək sözə çevrilməsinə səbəb olur. Bu isə öz-özlüyündə dil üçün çox faydalı bir prosesdir və dilin leksikasının milliləşməsinə xidmət edir.

Naxçıvan dialekt və şivələri üzərində apardığımız tədqiqatlar bu nəticəyə gəlməyə əsas verir ki, bölgənin özünəməxsus dialekt xüsusiyyətləri var və bu xüsusiyyətlər çox qədim dövrlərdən formalaşmışdır. Onlar Azərbaycan dilinin tarixi inkişafını izləməyə imkan yaradır, bu dilin tarixinə aid çox maraqlı faktlar verir və onların öyrənilməsi dildə gedən bir sıra etnolinqvistik proseslərin şərh edilməsinə də yol açır. Naxçıvan dialekt və şivələrinin leksikasının əsasını təşkil edən və ədəbi dilimiz üçün arxaik sayılan sözlər daşıdığı semantik yük baxımından bir çox türk dilləri ilə eyniyyət təşkil edir. Dialektoloji müstəvidə bu cür müqayisəli tədqiqatların aparılması müxtəlifdilli xalqlar arasında dil münasibətlərinin səviyyəsini müəyyənləşdirmək baxımından çox əhəmiyyətlidir. Yekun olaraq deyə bilərik ki, müəyyən tarixi mərhələlərdə dillərarası inteqrasiyada dialekt və şivələrimizin lüğət tərkibi bir sıra dəyişikliklərə məruz qalmışıdır. Bu prosesdə dildə köhnələn sözlər dialekt və şivələrdə qorunub saxlanmışdır. Naxçıvan dialekt və şivələrindən toplanmış materiallardan dialektoloji lüğət və atlasların hazırlanmasında da istifadə oluna bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan dialektoloji lüğəti / M.Ş.Şirəliyev və M.İ.İslamovun redaktəsi ilə. Ankara: TDV Yayın Matbaacılık, 1999, 653 s.
2. Bayramov İ.M. Azərbaycan dilinin dialekt leksikası. Bakı: Elm və təhsil, 2011, 120 s.
3. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. II hissə: Leksika. Bakı: Şərq-Qərb, 2007, 192 s.
4. Dastani-Əhməd Hərami. Bakı: Şərq-Qərb, 2004, 120 s.
5. Фасмер М. Этимологический словарь русского языка: в 4-х тт. Т. III (Муза-Сять). Москва: Прогресс, 1987, 832 с.
6. Xudiyev N.M. Qədim türk yazılı abidələrinin dili. Bakı: Elm və təhsil, 2015, 596 s.
7. İbnü-Mühenna lügati / Tərtib edən: Battal A. İstanbul: İstanbul Devlet Matbaası, 1934, 105 s.
8. Kaşğari M. Divanü lüğət-it-türk: 4 cilddə. II c., 400 s.; IV c. (indeks), 752 s., Bakı: Ozan, 2006.
9. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər / Tərtib edəni S.Əlizadə. Bakı: Öndər, 2004, 376 s.
10. Qul Əli. Qisseyi-Yusif. Bakı: Şərq-Qərb, 2004, 216 s.
11. Quliyev Ə.A. Naxçıvan dialekt və şivələrinin bəzi leksik xüsusiyyətləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2006, № 4, s. 108-115.
12. Naxçıvan folkloru antologiyası: 3 cilddə. III c. Naxçıvan: Əcəmi, 2012, 765 s.
13. Rüstəmov R.Ə. Müasir Azərbaycan ədəbi dili üçün arxaikləşmiş feillər // Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri, 17 c., 1963, s. 5-37.
14. Этимологический словарь тюркских языков (Общетюркские и межтюркские основы на букву «Б»). Москва: Наука, 1978, 349 с.

AMEA Naxçıvan Bölməsi
E-mail: naliyeva22@mail.ru

Nuray Aliyeva

ETHNOLINGUISTIC ANALYSIS OF SOME ARCHAIC WORDS IN NAKHCHIVAN DIALECTS AND ACCENTS

The usage of the lexical units as ağırramax, alçax, arı, yaşmax, yazı, qanrılmax, pitik, əppək, yey, güz, dişətmək being chosen from Nakhchivan dialects and accents which are considered to be archaic for our literary language inform on the ancient history of the language. In our initial monuments of native language, old eposes, folk texts, old dictionaries of Turkish languages, in the researcher's works studying the Turkish languages explaining the usage and semantics of these words as just today we noted in separate Nakhchivan villages shows that as in all languages in the Azerbaijanian language dialects and accents keep the history of language in itself. Thus the very words had been used in the same meaning in the ancient Turkish languages, in "Kitabi-Dede Korkut" epos, in Nasimi's, Fuzuli's, Khatai's works, in the first distich in our native language "Dastani-Ahmad harami", in Ali's work of "Gissei-Yusif". It is not random that we cite examples from these works. Because, while determining the obsolete words it is necessary to base on the historicity principles, to approach the word in the historical point of view. The obsolete words are grouped as archaisms and historicisms. Archaisms are the words timely expressed the things and events that the names had changed but still exist today as well. The words as ağırramax, alçax, arı, qaxmax, dirrik, qanrılmax can be samples for archaic words used in dialect. And historicisms are the lexical units as yaşmax, bəhrə, zəncirə, xıllıx occuring whth the things and events being out of use as a result of their disappearance related in change of old living and mode of life.

Keywords: *dialectology, Nakhchivan dialects and accents, lexicon, archaism, historism.*

Нурай Алиева

ЭТНОЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ НЕКОТОРЫХ УСТАРЕВШИХ СЛОВ В НАХЧЫВАНСКИХ ДИАЛЕКТАХ И ГОВОРАХ

Существование в говорах таких лексических единиц, как ağırramax, alçax, arı, yaşmax, yazı, qanrılmax, pitik, əppək, yey, güz, dişətmək, выявленных в материалах нахчыванских диалектов и говоров и считающихся архаичными для современного языка, свидетельствует о древности истории языка. Употребление этих слов в письменных памятниках на родном языке, в древних эпосах, фольклорных образцах, древнетюркских словарях, в работах исследователей-языковедов в том значении, которое мы зафиксировали в разных селениях Нахчывана, еще раз показывает, что, как и во всех других языках, в азербайджанском языке диалекты и говоры хранят в себе историю языка. Эти слова употреблялись в одних и тех же значениях в древних тюркских языках, в эпосе «Китаби-Деде Коркут», произведениях Насими, Физули, Хатаи, в «Дастани-Ахмед Харами», первом произведении на нашем языке в жанре месневи, а также в произведении Кул Гали «Киссаи-Юсуф» были употреблены в тех же значениях. Мы привели примеры из этих произведений не случайно. А потому, что при выявлении устаревших слов надо опираться на принцип историзма, подходить к слову с исторической точки зрения. Уста-

ревшие слова делятся на архаизмы и историзмы. Архаизмы – это слова, которые вышли из употребления, хотя соответствующий предмет или явление до сих пор остаётся в реальной жизни. Такие слова, как ağırramax (баловать), alçax (подлец), arı (чистый, светлый), qaxmax (ударить), dirrik (огород), qanrılmax (поворачиваться), могут служить примерами архаизмов, употребляющихся в диалектах. Историзмы – это лексические единицы, которые выражают когда-то существовавшие, но вышедшие из обихода предметы и явления: yaşmax (яшмак), bəhrə (оброк), zəncirə (аграмант), xıllıx (бурка).

Ключевые слова: *диалектология, нахчыванские диалекты и говоры, лексика, архаизм, историзм.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 03.07.2019
Son variant 12.09.2019

UOT 81ʾ41; 801.7

AYSEL EMİNOVA

OĞUZLARIN BÜĞDÜZ BOYUNUN QAFQAZ ETNOTOPONİMİK AREALINDAKI İZLƏRİ VƏ BÖYÜKDÜZ TOPONİMİNİN STRUKTUR-SEMANTİK TƏHLİLİ

Məqalədə Oğuz tayfalarının 24 boyundan biri hesab edilən büğdüzlərin Qafqaz etnotoponimik arealındakı izləri – büğdüzlərlə bağlı yer adlarının tədqiqi məqsəd olaraq müəyyənləşdirilmişdir. Məqalədə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonu ərazisindəki Böyükdüz toponiminin struktur-semantik və etimoloji təhlilləri aparılmış, bu toponimin məhz büğdüzlərlə bağlı olaraq formalaşdığı elmi faktlarla əsaslandırılmışdır. Təhlillər aparılarkən yalnız alınan elmi nəticəni təsdiqləyən tədqiqatlara deyil, Böyükdüz toponiminin izahı ilə bağlı fərqli yanaşmalara da yer verilmişdir.

Eyni zamanda məqalədə Böyükdüz yer adı həm komonim, həm adonim, həm də oronim kimi təhlil edilmiş, söz struktur komponentlərə bölünərək təhlil edilmişdir.

Açar sözlər: *Qafqaz, türk, Oğuz, Böyükdüz, toponim, komonim, adonim, oronim.*

Müasir dövrdə ən aktual və əhəmiyyətli elm sahələrindən olan toponimika sürətlə inkişaf etməkdədir. Dilçilik, tarix və coğrafiya elmlərinin qovşağında formalaşan bu elm sahəsinin öyrənilməsi təkcə nəzəri deyil, həm də praktiki və siyasi əhəmiyyət daşıyır. Çünki uzun illər ərzində Azərbaycanın ayrılmaz tərkib hissəsi, tarixi və hüquqi ərazisi olan Naxçıvana qarşı qonşu xalqlar tərəfindən müxtəlif səviyyələrdə iddialar irəli sürülmüşdür və bu proses bu gün də davam etməkdədir. Halbuki, diyarın tarixən Azərbaycan türklərinə məxsusluğunu nəinki tarixi mənbələr, hüquqi sənədlər, bu diyarın adlar sisteminin özü də sübuta yetirir. Baxmayaraq ki, bu toponimlər əsrlər boyunca müxtəlif dəyişikliklərə məruz qalmış, illər boyunca isə məqsədli şəkildə dəyişdirilmişdir. XX əsrin 90-cı illərinin ortalarından etibarən Muxtar Respublikada hərtərəfli həyata keçirilən işlər nəticəsində tarixi yer adlarının bərpa istiqamətində də bir sıra addımlar atılmış, bu proses həyata keçirilərkən elmi əsaslara söykənilmişdir.

Məlumdur ki, Kəngərli rayonu Naxçıvan Muxtar Respublikasının ən gənc rayonudur. Lakin rayonun özünün yeni yaradılmasına baxmayaraq, bu rayon ərazisindəki yaşayış məntəqələri tarixi baxımdan ən qədim dövlətlərin izlərini özündə qoruyub saxlamaqdadır. Rayonun adının özü də məhz etnotoponimdir və Naxçıvan diyarının ən qədim sakinləri və idarəçiləri olmuş Oğuz-Peçeneq-Kəngərli tayfalarının adı ilə bağlıdır. "Kəngərli" adı etnonim olaraq ən müxtəlif tarixi mənbələrdə əksini tapmış və sözün mənası ilə bağlı müxtəlif təhlillər aparılmışdır. Bundan başqa çoxsaylı tarixi mənbələrdə rayon ərazisindəki Qarabağlar, Yurdçu, Asnı, Şahtaxtı, Qabıllı və digər toponimlər öz əksini tapmışdır. Kəngərli rayonunun ərazisində çoxsaylı etnik əlamətlərə malik xoronim, oykonim, komonim, adonim, oronim, hidronimlər qeydə alınmışdır. Rayon ərazisində qeydə alınmış Kəngərli, Qarabağlar, Asnı, Yurdçu, Bəydili, Cığallı, Qurdlar, Sunqulular, Turabxanlı, Qəcolar, Kəcli etnooykonim və patronimləri, Billici yurdu, Abasalı, Ağıllar, Böyük biçənək, Quzlar (Qazlar) dərəsi oronimləri, Asnı bulağı, Qarabağlar çayı, Asnı kəhrizi, Bəydili kəhrizi, Humaylar kəhrizi, Qazançı xan kəhrizi, Məclumlar kəhrizi, Tat gölü, Rus gölü kəhrizi, Tat kəhrizi hidronimlərini məhz etnotoponimlər kimi xarakterizə etmək mümkündür.

Kəngərli rayonu ərazisində mövcud olan toponimlər sırasında Böyükdüz oykonimi

(komonimi), Böyükdüz düzənliyi adonimi və Böyükdüz dağı oronimi xüsusi maraq doğurur. Tədqiqatçı A.Bağırov yazır ki, Böyükdüz adına 1918-1920-ci illəri əks etdirən xəritədə rast gəlinir [4, s. 78].

Böyükdüz komonimi uzun müddət elmi ədəbiyyatda kəndin yerləşdiyi düzənlik ərazi ilə əlaqələndirilmişdir. 1999-cu ildə nəşr edilmiş Azərbaycan toponimlərinin ensiklopedik lüğətində də qeyd olunur ki, kənd düz, nisbətən geniş ərazini əhatə etdiyinə görə belə adlandırılmışdır [1, s. 98]. Bu cür izahda toponimin leksik-semantik təhlilini aparsaq, onun mürəkkəb tərkibli toponim olduğunu və sifət+substantivləşmiş sifət və ya isim tərkibindən formalaşdığını söyləmək mümkündür. Sözün birinci komponenti olan "böyük" sifətdir. İkinci komponent isə "düzənlik" isminin qısaldılmış forması kimi izah etmək mümkündür. Lakin bu düzün qonşuluqda yerləşən düzənliklərlə müqayisədə heç də çox böyük olmaması müəyyən suallar doğurur.

S.Babayev, Ə.Tanrıverdiyev kimi bir sıra tədqiqatçılar Böyükdüz adını "Kitabi Dədə Qorqud" dastanında adı çəkilən Bəkdüz Əmən adlı oğuz qəhrəmanı ilə əlaqələndirmiş və bu toponimi antroponim kimi xarakterizə etmişlər [3, s. 91; 11, s. 90]. "Kitabi-Dədə Qorqud"da Bəkdüz Əmən Bayandır xanın və Qazan xanın yaxın silahdaşı kimi xatırlanır. Mənbələrdə yad edilən rəvayətlərə görə Bəkdüz Əmən Məhəmməd Peyğəmbərlə görüşmüş, oğuzlar içərisində ilk dəfə islamı qəbul etmiş və onu yaymışdır. Qeyd edək ki, Bügdüz Əmən, Bığı Qanlu Bügdüz Əmən şəxs adı "Kitabi-Dədə Qorqud" boylarında minbaşı, İç Oğuzdan Qazlıq Qoca oğlı bəg Yegnəyin dayısı, Daş Oğuz bəyi kimi təsvir olunmuşdur. Dastanın I, IV, VII, VIII və XII boylarında ad "Əmən" formasında 7 dəfə, "Bügdüz Əmən" formasında 2 dəfə, "Bin Bügdüz başları Əmən" formasında 1 dəfə, "Bığı qanlu Bügdüz Əmən" formasında 1 dəfə xatırlanmışdır. "Salur Qazanın evi yağmalandığı boy"da (II) oxuyuruq: "Varıban Peyğəmbərin yüzini görən, gəlübəni Oğuzda səhabəsi olan, acığı tutanda bığlarından qan çıqan Bığı qanlu Bügdüz Əmən çapar yetdi" [5].

"Bəkdüz Əmən" adında Bəkdüz hissəsini təsviri xarakterli titul kimi təhlil edən Ə.Tanrıverdiyev *bəg* komponentini bu gün də dilimizdə işlədilən bəy sözünün fonetik variantı kimi izah etmiş, "düz"ün isə "düz, bərabər, həqiqi, doğru, sədaqətli" mənalarında işləndiyini yazmışdır [11, s. 90]. Belə olan halda Bəkdüz adının isim+sifət tərkibindən yarandığı qənaətinə gəlmək mümkündür ki, bu da dilimizdə nadir rast gəlinən qrammatik (morfoloji) proseslərdəndir.

Lakin V.M.Jirmunski [12, s. 334], F.Sümər [10, s. 334], S.Əliyarov [6, 185-197], A.Bağırov [4, s. 79] kimi müəlliflərin tədqiqatları ilə tanışlığımız sübut edir ki, yuxarıda verilən birinci izah səthi təhlildən irəli gəlmişdir. İkinci izahda isə Böyükdüz toponiminin Bəkdüz sözü ilə bağlılığının müəyyənləşdirilməsinin doğru, onun antroponim hesab edilməsini isə qeyri-dəqiq hesab etmək olar. Qeyd etmək lazımdır ki V.M.Jirmunskinin hələ 1974-cü ildə nəşr edilmiş "Seçilmiş əsərlər. Türk qəhrəmanlıq eposu" adlı kitabında Bəkdüz adını təsviri xarakterli ad kimi deyil, tayfa adı kimi izah etmişdir [12, s. 609].

F.Sümər Əmən bəyin Büğdüzdən olduğunu və bu tayfa adının Türkiyə ərazisindəki bəzi toponimlərdə də əksini tapdığını göstərirdi. O yazır: "Büğdüzlərə aid Anadoluda 22 yer adı qeydə alınmışdır. Buna görə büğdüzlər Rəşidəddinin siyahısında olduğu kimi, bizim bu yer adları cədvəlində də son yerlərdə dayanır. Bununla bərabər bu yer adları büğdüzlərin də Anadolunun fəthi və məskunlaşdırılmasında digər qardaş boylarla yanaşı olduqca mühüm bir rol oynadıqlarını göstərir. Lakin həmin boya aid XVI əsrdə ancaq kiçik bir büğdüz oymağı mövcuddur. Hələb türkmənləri arasında görünən bu büğdüz oymağı 65 vergi evi qədərdir.

Dəftərdə bu büğdüzlərin Hama tərəflərində yaşadıqları yazılmışdır" [10, s. 334]. Tədqiqatçı A.Bağırov Böyükdüz adının mənşəyinin oğuzların Bəgdüz tayfa adı əsasında yarandığını göstərsə də [4, s. 79], sözün leksik-semantik təhlilini aparmamış, "Bəgdüz" sözünün hansı anlama gəldiyini izah etməmişdir. Qeyd etmək lazımdır ki, 2007-ci ildə nəşr edilən "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"ndə də 1999-cu ildən fərqli olaraq bu toponim etnooykonim kimi izah edilmişdir [2, s. 156].

F.Rzayevin tədqiqatlarında Büqdüzlərin ayrıca oğuz boyu olmaqla xüsusi damğa işarə daşıdıqları və bu damğanın As, Bastul-Turdetan türk əlifbasında xüsusi hərf, işarə olduğunu, "Şar" tanrısının iç yurdu mənasını daşıdığını faktlarla sübut etmişdir [9, s. 213].

Bizim fikrimizcə, Böyükdüz toponimi etnonim əsasında yaranmış etnooykomonimdir. İlk növbədə "Kitabi-Dədə Qorqud" dastanının özünə də diqqət yetirdiyimiz zaman görürük ki, bir yerdə dastan qəhrəmanının adı "Bin Bügdüz başları Əmən" formasında işlənmişdir. Buradan aydın olur ki, "Bügüz" qəhrəmanın adının bir hissəsi və ya titulu deyildir. Min nəfərlik bügdüzlərin başçısı olduğu üçün Əmən "Büğdüz Əmən" kimi xatırlanır. Bu hissədə qeyd etmək lazımdır ki, böyük ehtimalla "Bin Bügdüz başları" ifadəsi heç də bügdüzlərin min nəfərdən ibarət olduğunu göstərmir. Bu bügdüzlərin Oğuz ordusuna verdiyi döyüşçülərin sayının göstəricisi ola bilər. Qeyd etmək lazımdır ki, türklərdə inzibati ərazilərin min nəfərlik qoşun verən hissələr üzrə bölünməsi ənənəsi tarixən mövcud olmuşdur.

Mahmud Kaşğarlının "Divani lüğət-it türk" əsərində və Rəşidəddinin "Oğuznaməsi"ndə də oğuz boylarından biri kimi məhz bəkdüzlər göstərilmişdir [8]. Bügdüz//Bəgdüz adı F.Rəşidəddinin "Oğuznamə"sində "başqaları ilə mülayim olan, yumşaq davranan" mənasında verilmişdir [5]. Əbülqazi Bahadır xanın "Türkmənlərin şəcərəsi" əsərində Büqdüz Oğuz xanın altıncı oğlu kimi xatırlanır və bu sözün mənası "xidmət etmək" anlamında izah olunur. Bəzi mənbələrdə isə Bəkdüz sözünün mənası qədim türk dillərində "ruh" anlamında olduğuna dair məlumatlara da rast gəlirik.

Oğuzların Bəkdüz tayfasının adı ilə bağlı olan Böyükdüz toponimi Kəngərli rayonu ərazisində etnooykomonimlə yanaşı etnooronim dağ adı (Böyükdüz dağı) və adonim (Böyükdüz düzənliyi) kimi qeydə alınmışdır. Böyükdüz düzənliyinin mərkəzində Kor Osman tirəsinin suayırıcında yerləşən Böyükdüz dağının hündürlüyü 833 metrdir [7, s. 96]. Böyükdüz düzənliyi isə Araz çayının sol sahili boyu uzanır. Düzənliyin ümumi meyli Arazın yatağına doğrudur. Yarımsəhra təbiətə malik olan bu ərazidən qış otlağı kimi istifadə edilir. Müqayisə üçün qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun ərazisində Böyükdüz dağ adı olaraq da qeydə alınmışdır. Bu dağ Güznüt kəndindən 4,2 kilometr şimal-şərq istiqamətində yerləşir.

Beləliklə, yuxarıda apardığımız təhlillərdən belə bir qənaətə gəlirik ki, Böyükdüz toponimi Bəkdüz etnonimindən (tayfa adından) yaranmış, Bəkdüz etnoniminin özü isə Bəkdüz insan adından formalaşmışdır. Oğuz xanın oğlu Bəkdüzün nəslindən olanlar anlamındadır.

ƏDƏBİYYAT

1. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı: Azərbaycan ensiklopediyası, 1999, 588 s.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: 2 cilddə, I c. Bakı: Şərq-Qərb, 2007, 304 s.
3. Babayev S. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. Bakı: Yeni nəşrlər evi, 1999, 284 s.
4. Bağırov A. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 336 s.

5. Bügdüz Əmən, Bığı qanlu Bügdüz Əmən. "Kitabi-Dədə Qorqud" Ensiklopediyası. http://dede.musigi-dunya.az/b/bugduz_emen.html. 06.03.2019.
6. Əliyarov S. "Kitabi-Dədə Qorqud" əlyazmaları üzərində çalışmalar // Azərbaycan filologiyası məsələləri, III b., Bakı: Elm, 1986, s. 185-197.
7. Naxçıvan ensiklopediyası: 2 cilddə. I c., Naxçıvan, 2005, 360 s.
8. Oğuzlar. http://www.e-tarih.org/makaleler.php?sayfa=makaledetay makaleno=54, 01.03.2019
9. Rzayev F. Naxçıvan əhalisinin etnogenezi tarixindən: 2 cilddə. II c., Bakı: ADPU-nun mətbəəsi, 2017, 589 s.
10. Sümər F. Oğuzlar. Bakı: Yazıçı, 1992, 432 s.
11. Tanrıverdiyev Ə. "Kitabi-dədə Qorqud"da şəxs adları. Bakı: Elm, 1999, 157 s.
12. Жирмунский В.М. Избранные труды, тюркский героический эпос. Ленинград: Наука, 1974, 727 с.

AMEA Naxçıvan Bölməsi
E-mail: ayselmetinoguz@gmail.com

Aysel Eminova

TRACES OF THE BUGDUZ OGUZ CLAN IN THE CAUCASIAN ETHNOTOPONYMIC AREA AND THE STRUCTURAL-SEMANTIC ANALYSIS OF THE BOYUKDUZ TOPONYM

Research of "Bugduzs", which is considered as one of the Oguzs' 24 tribes, traces in Kafkaz ethnotoponymic area is purposed in the article. In the article structural-semantical and etymological analysis of Boyukduz toponyms in the territority of Nakhchivan Autonomous Republic's Kangarli district have been realised and it has been substantiated that this toponym's formation is related with bugduzs. During the analysis, researches which approve the scientific result were not only given place, different approaches which are related with the explanation of Boyukduz toponym were also given place.

At the same time in the article Boyukduz has been analysed as komonym, adonym and also oronym, this word has been separated into structural components and analysed like that.

Keywords: *Kafkaz, turkish, Oguz, Boyukduz, toponym, komonym, adonym, oronym.*

Айсель Эминова

СЛЕДЫ ОГУЗСКОГО ПЛЕМЕНИ БЮКДЮЗ В КАВКАЗСКОМ ЭТНОТОПОНИМИЧЕСКОМ АРЕАЛЕ И СТРУКТУРНО-СЕМАНТИЧЕСКИЙ АНАЛИЗ ТОПОНИМА БОЮКДЮЗ

В статье описываются следы в кавказских этнотопонимных ареалах, одного из 24-х огузских племен «бюкдюзов» и целесообразно исследованы названия местностей, связанные с бюкдюзами. В статье проводится структурно-семантический и этимологический анализ топонимов Бюкдюз в Кенгерлинском районе Нахчыванской Автономной

Республики, и научными фактами подтверждается связь этого топонима с бюкдюзами. Были анализированы не только результаты научных исследований, но и были включены различные подходы к объяснению Боюкдюзского топонима.

В то же время в статье анализируется название места Боюкдюз, как комонима, адонима, так и в качестве оронима, разбиваясь на структурные компоненты.

Ключевые слова: *Кавказ, тюркский, Огуз, Боюкдюз, топоним, комоним, адоним, ороним.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 14.06.2019
Son variant 10.09.2019

UOT 81’28;81’286

ƏHRUZ MAHMUDOVA

NAXÇIVAN VƏ QARS ŞİVƏLƏRİNDƏ İŞLƏNƏN XALÇAÇILIQ LEKSİKASI

Naxçıvan və Qars bölgəsində yaşayan insanlar tarix boyu bir-biri ilə sıx əlaqədə olmuşlar. Buna görə də hər iki bölgənin şivələrində oxşar cəhətlər mövcuddur. Bu oxşarlıqları nəzərə alaraq məqaləmizdə Naxçıvan və Qars şivələrində işlənən xalça adlarından bəhs etmişik. İstər Naxçıvan Muxtar Respublikasında, istərsə də Anadolunun Qars bölgəsində xalçaçılıq sənəti lap qədimlərdən inkişaf etmiş və indi də inkişaf etməkdədir. Bu sahə ilə bağlı çoxlu xalçaçılıq leksikası yaranmışdır. Ona görə də hər iki şivədə işlənən xalçalara verilmiş adların maraqlı xüsusiyyətləri var. Bu leksemlərin bəziləri digər dialekt və şivələrdə işlənən xalçaçılıq leksemləri ilə müqayisəli şəkildə araşdırılmışdır. Hər iki bölgədə işlənən leksemlər oxşar və fərqli xüsusiyyətlərə malikdir. Müqayisəli təhlillər zamanı maraqlı nəticələr əldə olunmuşdur.

Açar sözlər: *Naxçıvan, Qars, dialekt və şivə, xalçaçılıq sənəti, xalça adları.*

Naxçıvan və Qars şivələri bir çox ortaq xüsusiyyətlərə malik olmaqla əsrlərin sınağından çıxmış, günümüzədək inkişaf edərək zənginləşmişdir. Hər iki regionda yaşayan əhalinin eyni dil ailəsinə mənsub olması, başqa sözlə yaxın qohumluq əlaqələrinə malik olması da onların həyatının bir çox sahələrinin ortalıq və oxşarlıq təşkil etməsinə səbəb olmuşdur. Danılmaz faktdır ki, fərqli sərhədlər içərisində yaşamasından asılı olmayaraq Naxçıvan və Qars bölgəsində məskunlaşan insanlar arasında tarix boyu sıx əlaqələr olmuşdur. Məqaləmizdə haqqında söhbət açacağımız xalçaçılıq sənəti ilə bağlı leksik vahidlər də hər iki bölgənin dialekt leksikasında öz zənginliyi ilə diqqəti cəlb edir.

İstər Naxçıvanda, istərsə də Şərqi Anadolunun Qars vilayətində heyvandarlıq lap qədimlərdən inkişaf etdirilmiş və etdirilməkdədir. Hər iki regionun dağlıq, dağətəyi, həm də aran rayonlarında qoyun sürüləri saxlamışlar. Xammalın (yunun) bol olduğu ərazilərdə xalçaçılıq, keçəçilik kimi məşğuliyyət sahələri formalaşmışdır. Naxçıvan diyarında qədim dövrlərdən meydana gəlmiş xalçaçılıq erkən orta əsrlər dövründən başlayaraq müstəqil sənət sahəsinə çevrilib. Bu sənət ibtidai formada olsa da, Neolit və Erkən Eneolit dövrlərində formalaşıb. Bölgədə münbit şəraitin, xalçaçılıq sahəsində yaradıcı insanların olması Naxçıvan Muxtar Respublikasında daim xalçaçılıq sənətinin inkişaf etməsinə təkan vermişdir. Naxçıvan xalçalarının texniki və bədii xüsusiyyətlərini özündə ehtiva etdirən həsir, çətən, palaz, cecim, kilim, vərni, şəddə, zili, sumax, ladı və s. xovsuz texnika ilə toxunan xalçalara, xovlu texnika ilə toxunanlara isə xalı və xalçalar aid edilir.

Ta qədim zamanlardan insanlar öz ehtiyaclarını ödəmək, məişət şəraitini yaxşılaşdırmaq üçün toxunma əşyalardan istifadə edərək onları müxtəlif adlarla adlandırmışlar. Sözsüz ki, məmulatların bir çoxu dövrümüzə qədər gəlib çatmadığından adları da yaddaşlardan silinmişdir. Bu gün istifadəsinə ehtiyac duyduğumuz xalçaçılıq məmulatlarının adları dilimizdə mühafizə olunmaqdadır. Bunların bir çoxu həm ədəbi dilimizdə, həm də dialekt və şivələrimizdə işlənməkdədir ki, xalq arasında eyni və ya müxtəlif fonetik variantlarda rast gəlinir.

Naxçıvan və Qars şivələrinin dialekt leksikasında fərqli və oxşar cəhətlərinə görə (fonetik, leksik, qrammatik quruluş baxımından) xalçaçılıq leksikasına aid rast gəldiyimiz bəzi leksik vahidlərin müqayisəli təhlilinə baxaq.

Naxçıvan dialekt və şivələrində işlənən kilim//çilim – xovsuz toxunan xalça növü

[3, s. 219]. Kilimlər materialina görə iki cür olur: yun kilim, pambıq kilim. Qars şivələrində də eyni fonetik tərkibdə və leksik mənada işlənir. Araşdırmalardan bəlli olur ki, bölgədə müxtəlif naxışlı kilimlər toxunmuş, üzərinə quran ayələri yazılmış, Göytürk hərfləri və əski Türk damğaları işlənmişdir [8].

Vaxtilə Qarsın Sarıqamış bölgəsinin Bardız nahiyəsində toxunmuş, Ənvər Paşaya hədiyyə verilmiş və bu gün Ankara Etnoqrafiya muzeyində saxlanan kilim də maraq doğurur. Kilimin üzərində 1914-1918-ci illərin tarixi hadisələri kufi yazısı ilə əks olunmuşdur.

Qars bölgəsində Çiği kilim leksemi də işlənir. Sözün etnolinqvistik təhlili ilə bağlı bir sıra faktlara əsaslanaraq deyə bilərik ki, "Çiği" leksemi Anadoluya gəlib yerləşmiş ən qədim türk tayfalarının (boyunun) adından alınmışdır. Aparılmış tədqiqatlardan da bəlli olur ki, həmin tayfalar eramızdan əvvəl yaşamış, qədim kökü Çik//Çigil//Çiğil tayfalarından törəmiş olan və Göytürk və Karahanlılar dövlətlərinin idarə olunmasında mühüm xidmətləri olmuş Saka və ya İskitlərin (Skyth//Çikit) adı ilə bağlıdır [8].

Palaz//palas – döşəməyə salmaq üçün istifadə olunan toxuculuq məmulatı. Dialekt və şivələrimizdə materialına görə palazlar müxtəlif adlarla adlandırılır. Pambıq palaz, yarıqat palaz, qəzil palaz, garbıt//karbıt (böyük yun və ya pambıq palaz), yer palazı və s.

Babək, Şahbuz şivələrində palaz mənasını ifadə edən fərş//fəş leksemi [4, s. 261] işlənir. Bizdə həməşə fərşin altınnan da anam bir parçadan-zaddan açardı [4, s. 105]. Bərdə şivələrində də "palaz" mənasında fərş sözü işlədilir [1, s. 171]."Fərş" sözü omonimlik xüsusiyyəti daşıyaraq Ordubad dialektində "döşəmə" [3, s. 105], Kəngərli şivəsində "dərinlik" mənalarını bildirir. Ağdam, Borçalı, Qazax şivələrində palaz mənasında zili lekseminə [1, s. 561] rast gəlinir.

Leksemə təkcə bu bölgədə deyil, eyni zamanda müxtəlif fonetik tərkibdə müasir türkdilli xalqların terminologiyasında rast gəlmək mümkündür. Qars şivələrində də palaz mənasında zili [8] leksemi işlənməkdədir.

Cecim – yorğan-döşəyin üstünə örtülən xovsuz xalça məmulatı. Naxçıvan şivələrində yun cecim, şəddə cecim "ərişi pambıq, arğacı yundan olan və ya əksinə olan cecim", keçi cecim "materialına ipək qatılmış cecim" və s. işlədilir. Qars şivələrində də Çözgüyüzlü cecim lekseminə rast gəlinir [8].

Gəbə – xovlu texnika ilə toxunan xalça. Tədqiqatlardan bəlli olur ki, gəbə sözü qaba sözünün dəyişikliyə uğramış formasıdır. Qaba – yəni kobud, olduqca qalın mənalarını ifadə edir. Xovsuz xalçalarla müqayisədə xovlu xalçalar olduqca kobud və qalın olduğundan onu qaba və ya gəbə adlandırmışlar. Sözün işlənmə arealı həm Azərbaycan dilinin dialekt və şivələrində, həm də digər türk dillərində, qədim yazılı abidələrimizdə olduqca genişdir. "Gəbə" sözünə Azərbaycan şifahi xalq ədəbiyyatında, istər keçmiş, istərsə də bugünkü yazılı ədəbiyyatlarda da rast gəlinir. Azərbaycan dilinin bu günə qədər araşdırılan dialekt və şivələrində leksem çox yaxın fonetik tərkibdə işlənməkdədir. Məs: Bir qəşəx' əl gəbəm varımdı, açacam kəllə otağa (Kükü). Şahbuz şivələrində [4, s. 101] xalçaların hansı məqsədlə istifadə olunması ilə əlaqədar də adları vardır: difar//tufar gəbəsi, taxt qabağı//qarafat qabağı gəbə, taxtüsdü//qarafatüsdü, cənamazdıx//cenamazdıx gəbə, əyağaltı gəbə və s. Leksem Bakı dialektində eyni mənada qeydə alınmışdır. Sisyan şivələrində isə tamamilə başqa mənasında, "ot topası" leksik mənasını [1, s. 176] ifadə edir.

Türkiyənin bir sıra bölgələrində uzunsov böyük xovlu xalçaları gəbə (gəvə, qaba, qebe, kebe, kepe) adlandırırlar. Qarsda da xovlu toxunan xalçalara xalq arasında "geve" deyilir. Məlum olduğu kimi türk xalqları əvvəllər xovsuz xalçalar (palaz, kilim, cecim, sumax və s.) toxumuşlar ki, bu növ xalçalar olduqca yüngül, nazik və yumşaq idilər. Xovlu xalçalar isə

xovsuzlara nisbətən iki-altı dəfə qalın və ağır, sıx toxunuşlu, dözümlü idilər. Qeyd edildiyi kimi xovlu xalçalar xovsuz xalçalardan xeyli sonra yarandığından xovlu xalçaları xovsuz xalçalardan fərqləndirmək məqsədi ilə onu "qalın" adlandırmışlar [7].

Xalı//xəli – xalçanın bir növü. Yekə gəbələrə bizdərdə xəli deyəriy (Kəngərli, Təzəkənd). Naxçıvan dialekt və şivələrinin əksəriyyətində leksem işlənir. Bu leksik vahidin türk dilləri, onların dialekt və şivələrində işlənmə arealı və tarixi dilimizin qədim dövrlərinə təsadüf edir.

Bu gün dilimizdə xalı kimi işlənən söz vaxtı ilə dilimizdə və bütün türkdilli xalqların dilində də xali, qali və yaxud da qalı formasında rast gəlinir. Böyük xovlu xalçalar ərəb əlifbalı türk ədəbiyyatında "qalı" kimi yazılmış, müəyyən zaman ərzində "xalı" formasını almışdır. "Qalı" sözü qalmaq sözü ilə səsləşir ki, bu da xovlu xalçalara xas olan uzunömürlülük, davamlılıq mənasını ifadə edir. Bu gün də indiki İran ərazisində böyük xovlu xalçaları "qali" adlandırırlar [6]. Hal-hazırda Azərbaycanın Quba rayonunun ərazisində böyük olmayan xalı yerli əhalinin dilində "qalınça" (yəni xalça) adlanır [6].

Kanara//kənarə – uzun, lakin ensiz xalça [1, s. 249] Emmizdə kənarəni xalçanın yanınnan sallıx (Ordubad). Kənar sözündən yaranmış leksem xalçaların kənar hissəsinə salındığından şivələrimizdə bu cür adlandırılmışdır. Terminə Ordubad dialektində kanara [1, s. 146], Şərur şivələrində isə yol variantında təsadüf olunur.

Araşdırmaya cəlb olunan Naxçıvan dialekt və şivələrində toxuculuqda alət və dəzgahların, habelə onların hissələrinin adlarını bildirən söz və ifadələr işlənməkdədir. Həmin leksik vahidlərin bəzilərini təhlilə cəlb etmişik.

Toxuculuq məmulatlarının hazırlanmasında müxtəlif dəzgahlardan istifadə olunmuş və günümüzə qədər təkmilləşdirilmişdir. Bu dəzgahlarda xalça, palaz və s. toxuyarkən bir sıra alətlərdən də istifadə olunduğunu müşahidə etdik. Xalça – palaz toxunan alətə şivələrimizdə hana deyilir. Hana iki cür olur: göy hanası və yer hanası.

Göy hanası – xalça, kilim, palaz toxumaq üçün yerə perpendikulyar düzəldilən dəzgahdır. Bu dəzgahların yan ağacları yerə bərkidilir.

Yer hanası – hananın bir növü olan bu dəzgah əsasən açıq havada düzəldilir. Palaz və cecim toxumaq üçün istifadə olunur.

Naxçıvan və Qars şivələrində bu hanaların ayrı-ayrı hissələrinin də müxtəlif adları vardır: ox "hananın yan ağaclarını birləşdirən hissə", hər iki hanada iki ox olur. Bunlardan birinə alt ox, digərinə isə üst ox deyilir. Qars şivələrində ox mənasında alt və üst mərdanələr leksemləri işlənir. Gücü ağacı "hanada ərişlə gücünün ipini birləşdirən ağac", gücü çubuğu "gücü ağacı ilə birgə işlədilən və gücü ağacı uzunluqda çubuq", vərəngalan//varangəlan – Qars şivələrində varangelen "ərişi tənzimləyən ağac". Arqac keçmək üçün bu ağac ərişi aralı saxlayır, ləlәx'//leləx' "oxun uc hissəsi", zəhlə "hananın yan ağaclarında oxun keçirildiyi deşiklər", çilix' – hananın hissələrindən birinin adı və s.

Tədqiq etdiyimiz dialekt və şivələrdə darax//yun darağı – yunu təmizləmək və əlçimləmək, xalçanı toxuyan zaman xalının ilmələrini darayıb incəlməsi üçün istifadə olunan alət. Leksem Qars şivələrində azacıq fonetik fərqlə tarak adlandırılır.

Qayçı//qəyçi/qəçi – makas. Hər iki şivədə söz eyni anlamda iplərin kəsilməsində istifadə olunan alət.

Bıçaq//pıçax – bıçaq. İlmələrin kəsilməsində işlənir. Sapının uzun və ya qısa olmasından asılı olaraq iki cür olur.

Həvə – hananın iplərini vurub bərkitmək üçün dişli alət. Azərbaycan dilinin Ağcabədi, Basarkeçər şivələrində [1, s. 204] eyni anlamda, Qərb qrupu dialekt və şivələrində leksik

vahidə höə//hüə formasında [2, s. 247], Qax şivələrində isə tamamilə başqa leksik mənada – mərcimək mənasında işlənir.

Kirkit//girgid – xalçanın ilməsini bərkitmək üçün xalçaçılıqda istifadə olunan dəmirdən hazırlanan bir neçə dişi olan alət. Azərbaycan dilinin Qazax, Quba, Laçın dialekt və şivələrində eyni leksik mənada kirki//kirgid [1, s. 255], Zaqatala şivələrində qırqıt [1, s. 301] leksemləri işlədilir. Qars şivələrində kirkit formasında eyni leksik anlamda işlənir.

Bu gün həm Naxçıvan dialekt və şivələrində, həm də Qars şivələrində xalçaçılıq leksikası, o cümlədən toxuculuqda alət və dəzgahların adı ilə bağlı işlədilən sözlər çox zəngin və əhatəlidir. Məqalədə belə sözlərin bir hissəsini imkanımız daxilində tədqiqata cəlb etdik. Lakin qeyd etmək istəyirik ki, bu istiqamətdə işlərimiz bundan sonrakı araşdırmalarımızda da davam etdiriləcəkdir. Çünki qohum dillərin, xüsusilə onların dialekt və şivə sözlərinin qarşılıqlı müqayisə kontekstində, müasir dilçiliyin imkan və tələbləri daxilində öyrənilməsi olduqca zəruridir. Tədqiqat zamanı əldə olunan nəticələr göstərir ki, bu dillər arasında ortaq cəhətlər qədim tarixi köklərlə bağlı yaranmışdır. Düşünürük ki, bu cür araşdırmalar türk xalqlarının ortaq mədəniyyəti və dilinin öyrənilməsi baxımından da maraqlıdır.

Sonda onu da qeyd edək ki, keçmişlə bu günümüz arasında körpü rolunu oynayan, min illərdir öz əhəmiyyətini itirməyən xalçaçılıq sənəti müxtəlif mədəniyyətlərin təsirinə baxmayaraq, türk xalqlarının həyatında öz dəyişməz yerini qoruyub saxlamışdır. Xalçaçılıq sadəcə türk mədəniyyət tarixini deyil, bütövlükdə türk xalqlarının tarixini öyrənmək baxımından da zəngin bir xəzinədir.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007, 568 s.
2. Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri. Bakı, 1967, 281 s.
3. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərb. SSR EA-nın nəşriyyatı, 1962, 386 s.
4. Quliyev Ə.M. Azərbaycan dilinin Şahbuz rayon şivələrinin leksikası. Bakı: Elm və təhsil, 2013, 180 s.
5. Quliyev Ə.A., Əliyeva N.Y. Naxçıvan dialekt və şivələrinin lüğəti. Naxçıvan: Əcəmi, 2017, 296 s.
6. Керимов Л. Азербайджанский ковер. Т. II, Баку: Гянджлик, 1983, с. 64.
7. Керимов Л. Азербайджанский ковер. Т. II, Баку: Гянджлик, 1983, с. 55.
8. http://www.karsmanset.com/haber/karsta-hali-ve-kilim-dokumaciligi-17659.htm

Naxçıvan Müəllimlər İnstitutu
E-mail: e.mahmudova.64@mail.ru

Ahruz Mahmudova

CARPET WEAVING VOCABULARY IN THE LOCAL DIALECTS OF NAKHCHIVAN AND KARS

People living Nakhchivan and Gars regions possessed close relationship in the course of history. Therefore, similar aspects exist in both region accent. Taking into account these

similarities we dealt with carpet names used in Nakhchivan and Gars accents in the article. Either in the Nakhchivan Autonomous Republic or Gars region of Anadolu carpet making art developed from the ancient time and is developing at present as well. Many carpet making lexics connected with this branch were formed. Therefore names given to carpets used in both accents have interesting peculiarities. Some of these lexems were searched comparatively with carpet making lexemes used in other dialects and accents. Lexemes used in both regions possess similar and different peculiarities. Interesting were got during comporative analysis.

Keywords: *Nakhchivan, Gars, dialect and accent, carpet making, carpet names.*

Ахруз Махмудова

КОВРОДЕЛЬЧЕСКАЯ ЛЕКСИКА В ГОВОРАХ НАХЧЫВАНА И КАРСА

Люди, живущие в Нахчыванском и Карском регионах, исторически были в тесном контакте. Следовательно, между двумя говорами обоих регионов существуют определенное сходство. Учитывая это, мы рассматривали схожие и отличительные черты в названиях ковров, употребляемых в говорах Нахчывана и Карса. Ковроткачество в Нахчыванской Автономной Республике и в Карском районе Анатолии издревле развивалось параллельно и продолжает развиваться. В соседних говорах существует множество специальных слов в этой сфере. Установлено, что в названиях ковров в обоих говорах имеют место интересные особенности. Некоторые из этих лексем сравнивались с лексемами ковроткачества, используемыми в других диалектах и говорах. Лексемы, используемые в обоих регионах, имеют схожие и отличительные черты. Сравнительный анализ дал интересные результаты.

Ключевые слова: *Нахчыван, Карс, диалект и говоры, ковроткачество, названия ковров.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: **İlkin variant 19.07.2019**
Son variant 04.09.2019

FOLKLOR VƏ ƏDƏBİYYAT

UOT-81 (091)

ƏBÜLFƏZ QULİYEV

HİNDUŞAH NAXÇIVANİNİN "ƏS-SİHAH ƏL-ƏCƏMİYYƏ" ƏSƏRİ VƏ ONUN ƏLYAZMA NÜSXƏLƏRİ HAQQINDA BƏZİ QEYDLƏR

XIII əsrdə Elxanlılar dövləti zamanında yaşamış görkəmli Azərbaycan mütəfəkkiri Fəxrəddin Hinduşah əs-sahibi ən-Naxçıvani dövlət xadimi olmaqla bərabər, elmlə də məşğul olmuş, bir sıra ədəbi-fəlsəfi əsərlər yazmış, eyni zamanda ilk farsca-azərbaycanca lüğət tərtib etmişdir. Fars dilinin öyrənilməsində qiymətli mənbə olan bu əsər uzun müddət mədrəsələrdə dərs vəsaiti kimi istifadə olunmuşdur. Ona görə də onun indiyədək 100-ə qədər əlyazma nüsxəsi meydana çıxmışdır. Amma təəssüf ki, indiyədək "Əs-sihah ül-Əcəm" və onun müəllifi haqqında müxtəlif mülahizələr irəli sürülmüşdür. Bütün bunları nəzərə alaraq bu məqalədə bu qiymətli əsər, onun müəllifi, əlyazma nüsxələri, bu nüsxələrin nəşri haqqında məlumat verməyi qarşıya məqsəd qoyduq.

Açar sözlər: *Elxanlılar dövləti, Azərbaycan mədəniyyəti, lüğət, dilçilik, Hinduşah Naxçıvani.*

Çingiz xan ölümündən (1227) az əvvəl bütün maddi varlığını övladları-dörd oğlu arasında böldü. Çingiz xanın Toluy adlı oğlundan olan Hülakü İran, İraq, Qafqaz və Anadoluya hakim oldu (1256-1265). O, hökmdar olanda elxan titulunu aldı. Beləliklə, onun yaratdığı yeni dövlət (1256-1353) Elxanlı adını aldı. Elxanlı hökmdarları ilk əvvəl xristianlığa meyl göstərmələrinə baxmayaraq, Qazan xan dövründən (1295-1304) etibarən islam dinini qəbul etdilər. Müharibə və daxili qarışıqlıqlara baxmayaraq, tədqiqatçıların göstərdiyinə görə Elxanlılar dövründə ölkə çiçəklənmə dövrü yaşamışdır [4, s. 200-202]. Bu dövlətin zamanında astronomiya (nücum), riyaziyyat, tibb, fəlsəfə, tarix və coğrafiya kimi elm sahələrində tanınmış elm xadimləri yetişdi, möhtəşəm əsərlər yazıldı. Nəsrəddin Tusinin yaratdığı Marağa rəsədxanası şərqdə nücum elminin mərkəzinə çevrildi. Bu şəraitdə bir sıra elm adamları, tanınmış sülalələr məmləkətini tərk edərək şərqin məşhur mədəniyyət mərkəzi halına gəlmiş Təbrizə, Marağaya yerləşmişdilər. Bu sülalələrdən biri Səncər ibn Abdullah ən-Naxçıvani sülaləsidir. Nəvə Məhəmməd Naxçıvaninin bildirdiyinə görə, bu sülalə indiki Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin Kiran (indi Gilan şəklində işlənir) şəhərindən çıxıb. Səncərin beş oğlu və bir nəvəsi Elxanlılar dövründə görkəmli dövlət və elm xadimləri kimi tarixə düşmüşlər. Hər şeydən əvvəl, qeyd edək ki, Səncər oğulları öz adında "əs-sahibi" titulunu da daşımışlar. Son dövr araşdırmalarında təsbit edilmişdir ki, həmin titul görkəmli dövlət xadimi "Tarixi-Cihanquşa" əsərinin müəllifi Əlaəddin Atamәlik Cüveyniyə (1225-1283) hörmət əlamətinin təzahürüdür. Elxanlılar dövlətində "sahibi-divan" vəzifəsini daşıyan Cüveyni sonralar elm və mədəniyyət xadimi kimi tanınmış, eyni zamanda çox sayda elm adamı yetişdirmiş, onları himayə etmişdir. Bu adamlar Cüveyninin titulundakı "sahib" sözünü öz adlarına əlavə etmək vasitəsilə himayəçilərinə olan ehtiramlarını bildirmişlər [14, s. 19-20].

Səncər Naxçıvaninin üçüncü oğlu Fəxrəddin Əbülfəzl Hinduşah əs-sahibi dövrün filosofu, münəccimi, yazıçısı, tərcüməçisi, şairi, tarixçisi, dilçisi və s. kimi tanınmışdır. O, Əlaəddin Atamәlik Cüveyninin xidmətində yetişmiş, layiqli üləmalardan sayılmışdır. Hin-

duşah Naxçıvani Bağdadda Müstənsəriyə mədrəsəsində təhsil almışdır. Müəllif Müstənsəriyə mədrəsəsinin quruluşu və təhsil sistemi haqqında önəmli məlumatlar vermişdir [8, c. 347-349].

Hinduşah Naxçıvani otuz yaşlarında ikən Kaşan hakiminin naibi vəzifəsində işləmiş, sonralar Bağdadda Müstənsəriyə mədrəsəsində müdərris olaraq çalışmışdır. 1289-cu ildə həmin mədrəsə üçün Nəcməddin Əli ibn Ömər əl-Qəzvini əl-Katibinin məntiqə dair "Came əl-dəqaiq fi əl-həqaiq" əsərinin üzünü köçürmüşdür. Bu əlyazma nüsxəsi Qahirədə Ərəb İnstitutunun əlyazmalar bölümündə mühafizə edilməkdədir [5, c. 79].

Hinduşah Naxçıvaninin ölüm tarixi haqqında müxtəlif mülahizələr mövcuddur: onun 1327-ci ildə, 1330-cu ildə, hətta 1335-ci ildə vəfat etməsi haqqında fikirlərə təsadüf edilir. Oğlu Məhəmməd Naxçıvaninin 1328-ci ildə yazdığı "Sihah əl-fors" əsərində atasından "öz atam mərhum Fəxrəddin Hinduşah" [Sihah əl-fors, dibaçə, 11] deyə bəhs etməsindən məlum olur ki, Hinduşah Naxçıvani 1328-ci ildən əvvəl ölmüşdür.

Yuxarıda qeyd etdiyimiz kimi, Hinduşah Naxçıvani müxtəlif əsərlər vücuda gətirmiş, riyaziyyat və nücum elmləri ilə, fəlsəfə və ədəbiyyatla məşğul olmuşdur. O, müasiri Sədi Şirazi kimi fars dilində gözəl nəsr nümunələri yaratmışdır. Onun fars və ərəb dillərində yazdığı şeirlərdən parçalar, fraqmentlər oğlu Məhəmməd Naxçıvaninin "Dəstur əl-katib fi təyin əl-məratib" adlı əsərində günümüzə qədər gəlib çıxmışdır [9, s. 342]. Eyni zamanda oğlunun "Sihah ül-fors" lüğətində də ata Hinduşahın farsca şeirlərindən təxminən 50 beyt yer almaqdadır [7, s. 45-49; 10]. Dövrün görkəmli elm və dövlət xadimi kimi tanınmış Hinduşah Naxçıvani "fəxrəddin" (dinin fəxri) tituluna layiq görülmüşdür.

Hinduşah Naxçıvaninin zəngin elmi irsindən bizə "Təcarüb əs-sələf" və "Əs-Sihahül-əcəmiyyə" adlı əsərləri və 1307-ci ildə Təbrizdə ərəbcə olaraq yazıb bitirdiyi "Məvaridül-ərab" adlı antologiyası bəllidir.

"Təcarüb əs-sələf" Əməvi və Abbasi xəlifələri və vəzirlərinə həsr olunsa da, müəllif yeri gəldikcə zəmanəsinə aid məsələlərə toxunur, haşiyə çıxaraq öz dövrü barədə məlumat verir, müasirlərindən bəhs edir. Müəllif əsərdə Cüveyni ailəsinə böyük ehtiram bəsləyən Naxçıvanın Vənənd kəndində Şəmsəddin Məhəmməd Cüveyni tərəfindən layiqli xanəgah tikildiyini xəbər verir.

Hinduşah Naxçıvaninin digər bir qiymətli əsəri – "Əs-sihah əl-əcəmiyyə" lüğəti Azərbaycan lüğətçiliyi tarixində ilk farsca-azərbaycanca lüğət hesab olunur. Bu lüğət haqqında ilk dəfə XVII əsr Osmanlı müəllifi Katib Çələbi məlumat vermişdir. Lüğətin 1270-ci illərdə Təbrizdə qələmə alındığı ehtimal olunur. Azərbaycan sözləri farsca sözlər arasında sətirlər arasına yerləşdirilmişdir.

Hinduşah Naxçıvaninin "Əs-Sihahül-Əcəmiyyə" əsəri uzun müddət nəşr olunmamış və müxtəlif mübahisələrə səbəb olmuşdur. Əsər dilimizin ən qədim lüğət və qrammatikalarından biri hesab olunur. Burada Azərbaycan sahəsi xüsusiyyətləri üstünlük təşkil etdiyinə görə türk alimləri də bunu etiraf etmək məcburiyyətində qalmış, onun oğuz dili abidəsi olduğunu qeyd etmişlər [15, s. 243]. Fars dilini öyrənmək istəyənlərə kömək məqsədilə yazılmış əsər Azərbaycan, Yaxın Şərq, Türkiyə, Şimali Afrika, Volqaboyu və Balkanlarda dərs vəsaiti kimi geniş yayılmış və uzun müddət istifadə edilmişdir. Təsadüfi deyildir ki, bu əsərin Türkiyənin Samsun vilayətindəki Vəzirkörpü rayon kitabxanasında saxlanan əlyazmasının köçürülmə tarixi 1906-cı ilə (h.1324) aiddir.

Bu lüğət kitabının ayrı-ayrı adlar altında 100-dən artıq əlyazma nüsxəsi aşkara çıxarılmışdır. Bununla bərabər, əsərin əlyazma mətnlərində müəyyən dəyişikliklərin aparılması da diqqəti çəkir. Belə ki, əsərin XVI əsrdən sonra köçürülmüş əlyazmalarının bir çoxunda müəllif

Osmanlı müdərris və mütəsəvvüflərindən Birgivi Muhəmməd bin Pir Əli (ö. 1573), az bir qismində isə müəllifin oğlu Məhəmməd Naxçıvani qeyd olunmuşdur. Bunu əsərin əlyazmaları üzərində tədqiqat aparmış F.Turan da açıqca qeyd edir: "Nüsxələrin ortaya çıxardığı bir sıra problemlərlə də qarşılaşmaqdayıq. Bu problemlər arasında əsərin XVI əsrdən sonra Anadolu və Balkan şəhərlərində üzü köçürülən nüsxələrində ortaya çıxan yazarın adına dair qarışıqlıqlara əlavə olaraq farsca kəlmələrin sətir aralarında göstərilən türkcə qarşılıqlarının özəllikləri ilə əsərin sonunda olan qrammatika bölümünün yer-yer üstündən atlanması kimi xüsuslar sayıla bilər. Bununla birlikdə, əsərin ən qədim düzgün istinsahlarının önəmli bəzilərinin Süleymaniyyə və Türk Dil Qurumu kitabxanalarında olduğunu və hal-hazırda bu əsər üzərində apardığımız çalışmalarda bu istinsahları əsas mətnlər olaraq ələ aldığımızı dilə gətirməliyəm" [15, s. 243].

Əsərin əldə olan ən qədim nüsxəsi Ankara Milli Kitabxanasının Əlyazmalar Kolleksionunda 06 Mil Yz FB 33 kataloq nömrəsi və h. 704/1304 tarixi ilə qeydlidir. Digər nüsxələr böyük ehtimalla bu əlyazma əsasında tərtib olunmuşdur. Amma bu əlyazma kataloqa Hinduşah b. Səncər adı ilə deyil, Birgivi Məhməd Əfəndi b. Pirəli adı ilə qeyd olunmuşdur.

Əsərin Türkiyə Cümhuriyyəti kitabxanalarındakı digər nüsxələrindən bəzilərini qeyd etmək istəyirəm:

Süleymaniyyə Kitabxanası: Ayasofya K. 4697 (1473 miladi, 877 h.), Ayasofya k.4698 (1497 miladi, 901 h.), Halet Əfəndi 795/6, İsmixan Sultan 424/1, İzmir 674, Laləli 3571/1, Laləli 3572, Saliha Xatun 162 M., Şəhid Ali Paşa 2646, Tırnovalı 1805, Tırnovalı 1835, Serez, 3717/2 (1486 m., 891 h.)

Milli Kitabxana: 55 Hk 1072/3 (Samsun Vilayəti Xalq Kitabxanası Koleksiyonu), 55 Vezirköprü 881/2 (Samsun vilayəti Vəzirköprü rayon Xalq Kitabxanası Kolleksionu), 06 Mil Yz. A 9082/1 (Milli Kitabxana Əlyazmalar Kolleksionu), 06 Mil Yz. A 8731 (Milli Kitabxana Yazmalar Kolleksionu), 06 Mil Yz. A 9174 (Milli Kitabxana Əlyazmalar Kolleksionu).

Türk Dil Qurumu Kitabxanası: Yz. A 175 (1510 m. 916 h.), Yz. A 165, Yz. A 176, Yz. A 369/1, Yz. A 512, Yz. A 514-b/3 (1503 m. 909 h.).

İzmir Milli Kitabxanası Türkcə Əlyazmaları Kolleksionu: 1362/1, 1412/5. Bosniya Hersoqovina Qazi Xosrov Kitabxanası türkcə əlyazmaları: R-6714/1, R- 6727/1, R-5442, R-3181.37.

Əsəri elm adamları uzun müddət yanlış olaraq Hinduşahın oğlu Məhəmməd Naxçıvaninin "Sihah əl-fors" əsəri ilə eyniləşdirmişlər. Bunun bir neçə səbəbi ola bilər. Hər şeydən əvvəl, hər ikisi Naxçıvani nisbəsini daşıdığına görə qarışıqlıq yarana bilərdi. İkincisi, hər ikisi ərəb alimi əl-Cövhərinin üslubunda yazıldığına görə səhv düşə bilərdi. Amma 1973-cü ildə Azərbaycan şərqşünası H.Zərinəzadənin xidməti sayəsində əsərin əlyazma nüsxəsi təsbit edilib, gün işığına çıxarıldı və məlum oldu ki, bu əsər "Sihah əl-fors" deyil və onu Hinduşah Naxçıvani qələmə almışdır [17].

Bu əsərin adı müxtəlif mənbələrdə "Sihah əl-Əcəmiyyə", "Əs-sihah əl-əcəmiyyə", "Suhahi-əcəmiyyə", "Sihah əl-əcəm", "Sihahi-əcəm", "Lüğəti- Sihah əl-əcəm bil-lisanil-farsi" şəklində getmişdir. "Çox ehtimal ki, əsərin adındakı bu müxtəliflik lüğət haqqında məlumat verən kataloq müəlliflərinin və tədqiqatçılarının lüğətin özünə deyil, ondan bəhs edən mənbələrə əsaslanmalarından irəli gəlmişdir" [12, s. 3]. "Əs-Sihah ül-əcəmiyyə" lüğətinin müəllifi haqqında müzakirələrin uzanmasına səbəb olan amillərdən biri də əsərin bir çox nüsxəsində, onun müqəddimə hissəsində müəllifinin adının yazılmaması olub. Bu barədə tədqiqatçı Fikrət Turanın əsərin nüsxələri üzərində apardığı müşahidələr diqqəti cəlb edir. O yazır: "Süley-

maniyyə kitabxanasında görə bildiyimiz 14 nüsxədən sadəcə birində yazarın adı və kataloq bilgiləri Hinduşah bin Səncəri göstərir. Buradakı nüsxələrin bir qismində yazar adı qeyd edilməmişdir. Bosna-Hersek Qazi Xosrov Kitabxanasında mövcud olan 4 nüsxədən birisi (R-6714-1) orijinal yazarın adına qeydlidir (Ankara Milli Kitabxana Müştərək Əlyazmaları İnternet Kataloqu). Milli Kitabxana nüsxələri Birgivi və oğul Hinduşah adına qeydlidir. Yəni əsərin orijinal yazarı burada heç göstərilməmişdir" [15, s. 243]. Əsərin 1463-cü ildə üzü köçürülmüş Kembric nüsxəsində də onun Hinduşah bin Səncər tərəfindən yazıldığı göstərilmişdir. Kitabın "Əs-Sihah ül-əcəmiyyə" adlandırılmasının səbəbini müəllif özü eyni hissədə ərəbcə olaraq yazılmış bölmədə bu şəkildə açıqlayır: "Kitab Cövhərinin "Əs-sihah ül-ərəbiyyə" sinin üslubunda yazıldığı üçün onu "Əs-sihah ül-əcəmiyyə" adlandırdım" [12, s. 3]. Dəyərli bir lüğət xarakteri daşıyan bu əsəri ilk olaraq görkəmli Azərbaycan alimi Qulamhüseyn Beqdeli 1982-cü ildə Bratislava nüsxəsi əsasında çap etdirmişdir [11]. Q.Beqdeli H.Zərinəzadənin fikrini təsdiq edərək bu əsərin Hinduşah Naxçıvani tərəfindən qələmə alındığını vurğulamışdır. Beqdeli 1987-ci ildə yenə Tehranda əsərin Kazan nüsxəsini də nəşr etdirmişdir. Professor Q.Beqdeli lüğətin adı haqqında belə yazır: "Müəllif bu əsəri fars dilini yenicə öyrənən aşiqlərə hədiyyə etdiyinə görə onun digər adını "Tühfət əl-uşşaq" qoymuşdur" [11, s. 13]. Qeyd etmək lazımdır ki, əsərin müqəddiməsində "Töhfət-ül-uşşaq" adına təsadüf edilmir. "Sihah-əl Əcəm" və "Töhfət ül-uşşaq" müxtəlif dövrlərə aid olan, müxtəlif məzmunlu lüğətlərdən ibarətdir.

1993-cü ildə eyni əsərin üç əlyazma nüsxəsı əsasında – (Bratislava-1553), Leninqrad (indiki Peterburq-Ə.Q) (XV əsrin əvvəlləri), Berlin (XVII əsr) nüsxələri əsasında hazırlanmış elmi-tənqidi mətnini Bakıda Cəmilə Sadıqova və Təyyibə Ələsgərova nəşr etdirmiş və əsərin Hinduşah Naxçıvaniyə aid olduğunu xüsusi olaraq qeyd etmişlər [12, s. 3]. Əsərin müəllifi məsələsində ortaya çıxan problemi həll etmək üçün 1997-ci ildə bir yazı qələmə alan O. F. Akimuşkin, nüsxələr üzərində çox diqqətli bir araşdırma aparmış və əsərin Hinduşah bin Səncərə aid olduğu qənaətinə gəlmişdir [2, s. 31-32].

İstanbul universitetində hazırlanmış bir magistr dissertasiyasında əsərin Ankaradakı Milli Kitabxana və Süleymaniyyə kitabxanasındakı iki nüsxəsinin qarşılaşdırılması əsasında tədqiqat aparılmış və onun Hinduşah Naxçıvani tərəfindən qələmə alındığı göstərilmişdir [3].

Bundan əlavə, Lənkəran Dövlət Universitetinin dosenti A.Əliyev də "Əs-sihah-əl-Əcəmiyyə" lüğətinə aid müdafiə etdiyi filologiya üzrə fəlsəfə doktoru dissertasiyasında da əsərin Azərbaycan alimi Hinduşah Naxçıvani tərəfindən qələmə alındığını xüsusi olaraq vurğulamışdır [6].

Yuxarıda qeyd etdiyimiz kimi, Hinduşah Naxçıvaninin bu əsəri X əsr ərəb lüğətşünası Əl-Cövhərinin "Tac əl-lüğa və sihahül-ərəbiyyə" adlı izahlı lüğəti quruluşunda, üsulunda yazılmış və üç hissədən, yəni ərəbcə müqəddimə, farsca-türkcə lüğət və ərəbcə yazılmış fars dilinin qrammatikasından ibarətdir. Müəllif tərtib etdiyi lüğət haqqında yazır: "Mötəbər kitabların çoxunun farsca ilə yazıldığını və lüğət sahəsində bunlara maraq göstərənlərin çoxunun qeyri farslar olduğunu görüncə o güvənilir kitablarda olanlardan ondan yararlanmaq istəyən bütün taliblər üçün asanlaşdırıcı bir tərzdə topladım" [13, s. 50].

XII-XIII əsrlərdə tərtib edilmiş farsca-türkcə lüğətlərə nisbətən "Sihah ül-əcəmiyyə"nin leksik tərkibi çox zəngindir. 4500 leksik vahidin yer aldığı bu lüğət kitabında çox sayda türkcə sözdən istifadə edilmişdir. Əsər 31 bab, 393 fəsildən ibarətdir. Müəllif lüğətində fars mənşəli sözləri seçib verməyə səy göstərməsinə baxmayaraq, bir sıra türk mənşəli leksik vahidləri də fars bölməsinə daxil etmişdir.

Məsələn, türkcə umac – bir yemək növü; qulunc – xəstəlik adı; qazğan – qazan; küncüt – susam və s. fars söz kimi verilmişdir. "Sihah ül-əcəmiyyə" türk və fars leksik vahidlərinin geniş şəkildə tədqiqata cəlb edilməsi baxımından hər iki xalqın leksikologiyası tarixində ilk təşəbbüs olaraq diqqəti çəkir. Əsərdə əksəriyyətlə qədim türk mənşəli sözlər öyrənilmiş, sözün məna xüsusiyyətlərinin düzgün bir şəkildə açıqlanmasına diqqət göstərilmişdir. Türkcə sözlərdə x, f, j fonemlərinin istifadə edilməməsinə diqqət edilmişdir. Hinduşah Naxçıvani fars dilçiliyi tarixində farscanın morfoloji qanunlarını, xüsusilə feil sistemini tənzim edərək qələmə alan ilk türk dilçisi olaraq diqqəti çəkir.

Yuxarıda qeyd etdik ki, türk tarixçi və səyyahı Katib Çələbi "Əs-Sihah-ül-Əcəmiyyə" lüğəti haqqında məlumat verərək "Sihəh əl-fors"(1328) əsərinin də Hinduşah Naxçıvaniyə məxsus olduğunu iddia etmişdir. H.Zərinəzadə 1973-cü ildə yazdığı məqalədə bunların fərqli əsərlər olduğunu və fərqli şəxsiyyətlərə aid olduğunu sübut etmişdir [17].

Burada bir məsələni də qeyd etmək istəyirəm. Türkiyə alimi Yusuf Öz "Tarih boyunca farsça-türkçe sözlükler" (TDK yay, Ankara, 2010) əsərində Katib Çələbinin dediklərini tamamilə başqa şəkildə dəyərləndirərək Hinduşah Naxçıvaninin şəxsiyyətini inkar etmiş, "Əs-sihahül-Əcəmiyyə" (1467-68) lüğəti ilə "Sihahül-əcəm" (1467-1532) lüğətinin fərqli tarixlərdə, həm də Anadolu sahəsində qələmə alındığını iddia etmişdir [13, s. 145-147]. O, yazır: "…Farsca məsdərlərin türkcə qarşılıqlarının verildiyi, farscanın qrammatik qaydalarının türk dili ilə anladıldığı əsərdəki türkcənin XIV əsrin əvvəllərinə aid olması mümkünsüz olduğundan, daha sonraki bir dönəmdə qələmə alınan "Sihah əl-Əcəm"in Hinduşah əs-Sahibiyə və ya oğlu Məhəmmədə nisbət edilməsi yanlışdır" [13, s. 145]. Türkiyə tədqiqatçısı İsmayıl Aka da Yusuf Özün iddialarına əsaslanaraq "Sihah-əl-Əcəmiyyə" əsərinin Hinduşah Naxçıvaniyə aid olmadığını iddia etmişdir [1, s. 116-117].

Qeyd edək ki, bu lüğətdə bir sıra ortaq leksik vahidlər işlənmişdir. Lakin bu heç də o demək deyildir ki, bu lüğət Anadolu sahəsinə aiddir. Məsələn, lüğətdə qoz sözü işlənmişdir. Bu söz isə Qafqaz və Cənubi Azərbaycan coğrafiyasında yayılmışdır. Onu da qeyd etmək lazımdır ki, elə Türkiyədə yaşayan tədqiqatçılar, Yusuf Özün həmkarları da onun bu fikrinin qəbul edilməz olduğunu açıqca ifadə etmişlər. Bu baxımdan professor Fikrət Turanın aşağıdakı fikri çox önəmlidir. O yazır: "SA (Sihah əl-əcəmiyyə – Ə.Q) qələmə alındığı XIII əsrin sonlarından XX əsrin əvvəllərinə qədər Oğuzcanın hakim olduğu Azərbaycan və Osmanlı coğrafiyasında çox yayğın şəkildə istinsah edilərək dərs kitabı kimi istifadə edilən və özündən sonra yazılan farsça-türkcə lüğətlərə geniş olaraq təsir göstərən bir əsər olmasına rəğmən ətraflı şəkildə incələnərək dəyəri ortaya çıxarılmamışdır. Son dönəmdə farsca-türkcə lüğətlər haqqında nəşr etdiyi önəmli çalışmasında bu məsələ üzərinə qısa bir dəyərləndirmə yazan Öz, əlimizdəki ən qədim nüsxələrin XV əsrdə istinsah edildiyi və özündən sonra yazılan əsərlərdə müəllifin adının göstərilmədiyi fikrindən yola çıxaraq SA-nın XIII əsr sonlarında qələmə alına bilməyəcəyini qeyd edir. Bu məsələdə Katib Çələbinin yanıla biləcəyini və əsərin müəllifinin əslində bilinmədiyini irəli sürür. Buradan Özün əsərin Kembric nüsxəsində göstərilən bilgilərlə Akimuşkinin yazdığı məqaləni görmədiyi anlaşılmaqdadır. Kaşğarinin DLT-ü yazmasından iki yüz ildən daha uzun bir müddət sonra qələmə alınan belə bir lüğətin yazıla bilməsi üçün erkən olduğu şəklindəki bir fikri mövcud türk dili tarixi faktları ilə qəbul etmək çətindir" [15, s. 244].

Bir məsələni də qeyd edək ki, əsərdə Azərbaycan dili ifadəsi də işlədilmişdir. Doğrudur, tədqiqatçılar bu ifadənin hələ XI əsrdə Əbu Reyhan Biruni(973-1048) və Xətib Təbrizidə (1030-1109) də işləndiyini göstərirlər.

Beləliklə, Naxçıvan torpağının görkəmli yetirməsi Fəxrəddin Hinduşah əs-sahibi-ən-Naxçıvaninin "Əs-sihah əl-əcəmiyyə" dilçiliyimiz tarixində xüsusi yer tutur və bu əsərin əl-yazma nüsxələrinin tədqiqi Azərbaycan leksikoqrafiyasının tarixi üçün böyük əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. İsmail Aka. Hinduşah es-Sahibi. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi: 50 ciltte. C. XVIII, İstanbul, 1998, s. 116-117.
2. Akimushkin O.F. On the date al-Sıhāh al-'Ajamiyya's Composition // Manuscripta Orientalia, Petersburg, 1997 v. 3, № 2, s. 31-32.
3. Harun Altun. İlk farsça-türkçe sözlüklerden "Sihah'ül acem": karşılaştırmalı inceleme ve kelime dizini. İstanbul Universiteti, basılmamış yüksek lisans tezi, 2015, 180 s.
4. Босворт К.Е. Мусулманские династии. М., 1971, 230 с.
5. Бунятов З.М. Сведение Кемаледдина ибн ел-Фувати о представителях семьи Санджара ибн Абдаллаха ен-Нахчывани // Доклады АН Азерб. ССР, Баку, 1978, Т. 34, № 5.
6. Əliyev A.B. Fəxrəddin Hinduşah Naxçıvaninin "Əs-Sihah-ül-əcəmiyyə" əsərinin leksik və qrammatik xüsusiyyətləri: Filol. elm. nam. ... diss. avtoref. Bakı, 2007.
7. Quliyev Ə. Məhəmməd Naxçıvaninin "Sihah-əl-furs" əsəri və Azərbaycan dili // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2017, № 1.
8. Hinduşah Naxçıvani. Təcarüb əs-sələf / Hazırlayan Abbas İqbal. Tehran, 1344, 280 s.
9. Мухаммед бин Хиндушах Нахчивани. Дастур-эль катиб фи тайин эль-маратиб. Т. II, Москва, 1976.
10. Muhəmməd bin Hinduşah Naxçıvani. Sihah əl-fors / Hazırlayan Əbdüləli Taəti. Tehran, 1361.
11. Hinduşah bin Səncər sahibi əs-Nəxçivani. Sihah ül-əcəm / Hazırlayan Q.Begdeli. Tehran: Universiteti yayın mərkəzi, 1987.
12. Hinduşah Naxçıvani. Əs-sihahül-əcəmiyyə. Bakı: Şərq-Qərb, 1993, 336 s.
13. Öz Yusuf. Tarih boyunca farsça-türkçe sözlükler. Ankara: TDK yay, 2010, 450 s.
14. Piriyev V. Naxçıvan tarixindən səhifələr. Bakı, 2004, 170 s.
15. Turan F. Hinduşah bin Sancarın *Ṣıḥāḥü'l-ʿAcem* isimli eserinin EAT ve Osmanlı dönemi dilciliği bakımından önemi – Uluslararası Eski Anadolu Türkçesi araştırmaları çalıştayı bildirileri – İstanbul Universitesi (1-2 Aralık 2010), İstanbul, 2011.
16. Зеринезаде Г.Г. Сихах ал-аджам / Вопросы арабской филологии. Вып. II, Баку, 1971.
17. Zərinəzadə H.H. "Sihah ül-əcəm" və "Sihah ül-fors"un müqayisəsi / İran filologiyası məsələləri. II c., Bakı, 1973.

AMEA Naxçıvan Bölməsi
E-mail: ebulfezamanoglu@yahoo.com

Abulfaz Guliyev

SOME NOTES ABOUT THE HINDUSHAH NAKHCHIVANI'S WORK "AS-SIKHAH AL-AJAMIYEH" AND ITS MANUSCRIPT COPIES

The outstanding Azerbaijani thinker Fakhraddin Hindushah as-sahibi an-Nakhchivani, who lived during the Elkhanid state in the XIII century, was a statesman. He was also engaged in science, wrote some literary and philosophical works, and compiled the first Persian-Azerbaijani dictionary. This book, which is a valuable source in the study of the Persian language, has been used as a textbook for many years in the madrasahs. Therefore, up to now, there have been up to 100 copies of manuscripts. But, unfortunately, various considerations have been put forward on "As-Sihah ul-Ajam" and its author. In this article in view of all this, we aimed to present this valuable work, its author, manuscripts and publication of these copies.

Keywords: *Elkhanid state, Azerbaijani culture, vocabulary, linguistics, Hindushah Nakhchivani.*

Абульфаз Гулиев

НЕКОТОРЫЕ ЗАМЕТКИ О ПРОИЗВЕДЕНИИ ХИНДУШАХА НАХЧЫВАНИ «АС-СИХАХ АЛЬ АДЖАМИЙЕ» И ЕГО РУКОПИСНЫХ ЭКЗЕМПЛЯРАХ

Видный азербайджанский мыслитель Фахраддин Хиндушах ас-Сахиби ан-Нахчывани, живший в XIII веке во время государства Элханидов, был государственным деятелем, занимался наукой, написал ряд философско-литературных произведений, наряду с этим составил персидско-азербайджанский словарь. Эти произведения длительный период использовались в медресе как учебное пособие. Поэтому, до сих пор известно около ста рукописных копий. К сожалению, об этом авторе и о его книге «Ас-сихах уль-Аджем» выдвинуты разные взгляды. В этой статье, принимая внимание данный факт, мы поставили перед собой цель дать сведения об этом ценном произведении, о его авторе, о рукописных копиях и об их изданиях.

Ключевые слова: *государство Элханидов, азербайджанская культура, словарь, языкознание, Хиндушах Нахчывани.*

Daxilolma tarixi: **İlkin variant 07.05.2019**
Son variant 03.09.2019

UOT: 82.0

FƏRMAN XƏLİLOV

SEYİD SƏBRİNİN ŞEİRLƏRİNDƏ VƏTƏNPƏRVƏRLİK, TƏBİƏT GÖZƏLLİKLƏRİ VƏ MƏHƏBBƏTİN TƏRƏNNÜMÜ

Naxçıvan ədəbi mühitinin yetirməsi Seyid Səbrinin (1896-1974) bir sıra ictimai-siyasi məzmunlu şeirləri ilə yanaşı vətənin gözəlliyi və məhəbbəti tərənnüm edən əsərləri də vardır.

Məqalədə əsas diqqət şairin vətən, gözəllik və məhəbbət mövzusunda yazdığı şeirlərin təhlilinə yönəldilmişdir. Müəyyənləşdirilmişdir ki, bu şeirlər mövzu, məzmun və ideyasına görə klassik ənənələrlə bağlı olduğu kimi, müasir tələblərə də cavab verən əsərlərdir.

Müəllif irəli sürdüyü mülahizələri konkret bədii materiallarla əsaslandıraraq belə qənaətə gəlmişdir ki, S.Səbrinin bu mövzuda yazdığı şeirlər keçən əsrin 20-70-ci illərində Naxçıvan ədəbi mühiti üçün dəyərli nümunələr olmuşdur.

Açar sözlər: *Seyid Səbri, Naxçıvan ədəbi mühiti, klassik ənənələr, vətənpərvərlik, gözəllik, məhəbbət.*

Seyid Səbri Naxçıvan torpağında pərvəriş tapmışdı. Doğma vətənini qarış-qarış gəzdiyi üçün onun təbiətinə yaxşı bələd idi, insanlarını tanıyırdı, tərəqqi yollarını addımbaaddım izləyirdi. Məhz buna görə də o, şeirlərində Azərbaycan, xüsusilə Naxçıvanın keçmişi və bu günündən söz açırdı, lakin təəssüf ki, sovet yazıçılarının qarşısına qoyulan tələblərə uyğun olaraq keçmişi qara boyalarla təsvir edib, yaşadığı dövrün fərəhli və firavan günlərindən, azad vətəndə fəhlə və kəndlilərə bəxş edilmiş səadətdən mübaliğəli şəkildə bəhs edirdi:

Baxmışdı gözlərim keçmişə kor-koranə,
O zamankı qaranlıqdan yoxdur nişanə.
İndi şən həyat, əmək sənindir, sənin,
Cənnət bağçasına çevrilmişdir vətənin [1, s. 7].

Yaxud:

Zülmətdən daha çox qalmamış əsər,
Rusiyadan qalxan günəş bir səhər
İşıqlandırdı o kürreyi-ərzi,
Sənin də ölkəni etdi münəvvər [1, s. 23].

Naxçıvanın keçmişindən danışarkən onu razı salmayan nə idi? Bəy və xanların zülmü, zəhmətkeş kütlələrin kapitalistlər tərəfindən istismarı, insanların hüquqlarının tapdanması, qadınların cəhalət içərisində qalması və əzilməsi, savadsızlıq və nadanlıq, dini xurafatın törətdiyi rəzalətlər və s.

Bu məsələlərə toxunarkən Səbri sovet platformasından çıxış edən digər şair və yazıçılar kimi ifrata varsa da, Azərbaycanın şanlı tarixi keçmişində iz buraxan Koroğlu, Babək, Qaçaq Xancan, Kalbalı xan kimi igidlərin qəhrəmanlıqlarını, Yusif Məmmədəliyev, Cəlil Məmmədquluzadə və Hüseyn Cavid kimi elm, ədəbiyyat və mədəniyyət xadimlərinin xidmətlərini hörmət və ehtiramla yad edirdi:

Mirzə Cəlil, Hüseyn Cavid sənin sinəndə bəslənib,
Əməksevər qəhrəmanlar əməyinə həvəslənib,
O vəfalı Kalbalı xan və vəfalı igid Xancan,
Sənin doğma övladındır, sevgili yarım vətənim,
Ey qəhrəmanlar anası, nazlı nigarım vətənim [1, s. 19].

Səbri “Naxçıvan”, “Şuşaya gəlsin”, “Şuşanın yolları”, “Turşsu”, “İsa bulağı”, “Can Araz”, “Bahar”, “Azərbaycan dağları” və s. şeirlərində doğma vətənin təbii gözəlliklərindən vəcdə gələrək bu gözəllikləri əlvan boyalarla təsvir edirdi.

Azərbaycan dağları,
Səfalıdır bağları.
Səyyah olub gəzəydim,
Şəhərləri, dağları.

Azərbaycan torpağı,
Hasil edir neft-yağı.
İstirahət etməyə,
Var qışlağı, yaylağı [1, s. 87].

“Azərbaycan dağları” şeirindən nümunə gətirdiyimiz bu misralarda Səbrinin Azərbaycan təbiəti haqqında ümumiləşdirilmiş düşüncələri ifadə olunursa, “Naxçıvan” şeirində Azərbaycanın dilbər guşələrindən biri olan Naxçıvanın “laləzar dağları”, “gülü, bülbülü”, “səfalı ab-havası” tərənnüm olunur və etiraf edilir ki, o, həqiqətən “Nəqşi-cahan”dır:

Laləzar dağları, daşları, hər yan,
Hamıya olubdur əziz, mehriban.
Çün adı Naxçıvan, o, Nəqşi-cahan [1, s. 82].

“Can Araz” şeirində isə “coşub-daşan, axıb Kürə qovuşan” “Xan Araz” tərənnüm olunur.

Səbri ömrü boyu yaşadığı diyarda hər fəslin özünəməxsus gözəlliklərini dönə-dönə müşahidə etmiş və bu gözəlliklər də onun üçün ilham mənbələrindən biri olmuşdur:

Sən gələndə təbiətin üzü gülür, el gülür,
Böcəklər də yerdən çıxıb “gəl-gəl” deyə sürünür,
Yaşıl xalı düzə, döşə, yal-yamaca sərilir,
Qaranquşlar, durnalar da sən baharı arzular [1, s. 84].

“Haqqım var deyəm sənə mənim ürəyim Şuşa” - deyən Səbrinin Azərbaycanın ən səfalı məkanlarından biri olan Şuşa haqqında yazdığı silsilə şeirlər də təbiət mövzusuna həsr olunan dəyərli nümunələrdir.

Qarabağın gözəl bir mənzərəsin,
Arzu eyləyənlər Şuşaya gəlsin.
Dağlarında bitən gül, bənövşəsin
Ətrini alanlar Şuşaya gəlsin [1, s. 5].

Səbrinin Şuşaya həsr etdiyi şeirlərində “ceyranlar yaylağı” adlandırdığı bu gözəl diyarın “yamyaşıl meşələri”, “əlvan rəngli çəmənləri”, “ahu, maral gəzən düzləri”, “meyvəsi bol bağları”, “vüqarlı dağları” və “səfalı yaylaqları” böyük məhəbbət və heyranlıqla tərənnüm olunur. Səbri Şuşanın əsrarəngiz təbiətini vəsf etməklə yanaşı, onu həm də “şairlər və xanəndələr məskəni” adlandırır:

Hava gözəl, məskən gözəl, gözəl yurd,
Ey şairlər, xanəndələr məskəni.
Adın sənin xalq içində olub vird,
Sən ey Nəvvab, həm Natəvan vətəni [1, s. 6].

Başqa bir şeirində isə o, həm də “incəsənət məskəni” adlandırdığı bu torpağın qoynunda pərvəriş tapan digər məşhur sənətkarları xatırladır:

Üzeyrin, Fikrətin xoş bəstəsini,
Qaryağdı Cabbarın zümzüməsini,
Şuşalı Xanımın şikəstəsini,
Dinləmək istəyən Şuşaya gəlsin [1, s. 5].

Səbri təbiətin gözəlliyini insansız təsəvvür etmirdi. Onun fikrincə, "insandır təbiəti cana gətirən". "Dəstəbədəstə qonaq qarşılayan" İsa bulağına həsr etdiyi şeirində şair ceyrana bənzətdiyi gözəllərin bulaq başında "süzməsini" elə canlı boyalarla təsvir edir ki, oxucunun insan və təbiət gözəlliklərini vəhdətdə qavramasına güclü təsir göstərir:

İsa bulağında ceyranlar süzər,
Nazü qəmzələri qəlbimi üzər,
Al yanaq, bal dodaq, o qara gözlər,
Belə gözəllərin qadasın allam [1, s. 86].

Təbiət vurğunu olan bir şairin məhəbbət və gözəllik mövzusuna laqeydliyi müşahidə olunan bir hal deyil. Bu baxımdan Səbri də istisnalıq təşkil etmir. Onun qadın gözəlliyi və məhəbbətə aid yazdığı "Gözlərin", "Sən kəkliksən", "Qadan canıma", "Gözəlim", "Durnamsan", "İnsaf elə", "Gözəllərisən", "Şərafət olur", "Sən gəlirsən, mən gəlim?", "Təmənnası var", "Qaradı qaşın" kimi şeirləri müəllifinin ürəkdən gələn ülvi duyğularını ifadə edir.

Aşiqəm gözlərinə həsrətdəyəm,
Yanıram eşq oduna zillətdəyəm...

Elə bil almadır o gül yanağın,
Çox şirin, bal kimidir dil-dodağın.

Alnına qara telin düzmə, gülüm
Yazığam ürəyimi üzmə, gülüm.

Ələ al ayinəni, bax özünə
Səbri də aşiq olub gül üzünə [1, s. 90].

Səbri gözəlliyi və məhəbbəti tərənnüm edən şeirlərində həm klassik ənənələrə sadiq qalmış, həm də sovet yazıçısının qarşısına qoyulan tələbləri nəzərə almışdır. İki şeirinin müqayisəsi bu fikrimizi aydınlaşdırmaq baxımından maraqlıdır.

Klassik ənənəyə sadiqlik mövqeyindən qafiyəsi, rədifi və məzmununa görə M.Ş.Vazehin:

Nə qədər kim fələyin sabitü səyyarəsi var,
Ol qədər sinədə qəmzən oxunun yarəsi var –

beyti ilə başlanan qəzəlini xatırladan "Təmənnası var" şeirində aşiq məşuqəsinin nazü qəmzəsindən gileylənsə də, bunu təbii hal hesab edir, vüsala çatmaq üçün ümidini üzmür:

Qalmadı tabım, etmə qəmzə, səni tari,
Gəl qəlbimi yar, gör nə qədər yarası var.
Neçə illərdi salıbsan məni məhbəs damına,
Tab edər Səbri, çün hər məhbəsin öz xilası var [1, s. 78].

Sovet yazıçısının qarşısına qoyulan tələblər mövqeyindən:

O tapdanan haqqı kim qanacaq,
Gözdən axan qanı kim danacaq,

Mənfur çadranı başdan kim atacaq?
Əvvəldən belə məhzunsan, gözəlim [1, s. 89].

Bu cür meyillərinə baxmayaraq, Səbrinin məhəbbət və gözəllik mövzusunda yazdığı şeirlərində klassik ənənələrin davamı üstünlük təşkil edir. Bu şeirlərdə aşiqin məşuqəyə yalvarışı, hicran atəşinə yanması anının təsviri, "ahu gözlü", "gül üzlü", "süsən", "gülşən", "huri", "pəri", "bərrü biyaban" Fərhad, Şirin, Züleyxa, Məcnun, Kərəm kimi söz, ifadə, epitet və bənzətmələr klassik poeziyaya məxsus olan keyfiyyət və xüsusiyyətlərdir.

Gör bir necə eyləyib məni divanə gözlərin,
Alıb əldən qərarımı sənin məstanə gözlərin.

Sən güldükcə, danışdıqca bil qəlbimdə güllər açır,
Parə-parə edir qəlbim sənin ceyranə gözlərin.

Gəl süzdürmə çox naz ilə o şux xumar gözlərini,
Məcnun kimi salıb məni bərriü biyabanə gözlərin.

Fərhadın da başına çaldırdı Şirin tişəni,
Kərəm kimi çəkdirir mənə zəbanə gözlərin.

Qoy durum dolanım başına sübh olunca,
Bilirsənmi eyləyib məni pərvanə gözlərin?

Səbriyəm mən səbr edərəm ta nə qədər var nəfəs,
Sürünnəm arxanca çəksə hər yanə gözlərin [1, s. 74].

Səbrinin məhəbbət mövzusunda yazdığı şeirlərində intim, subyektiv və şəxsi hislər ifadə olunmur. Əksinə o öz ülvi duyğularını səmimi şəkildə bəyan edir. Bu da onun şeirlərinin ruhuna bir təbiilik, aydınlıq və sadəlik gətirir.

Səbri məhəbbətə və gözəlliyə aid şeirlərini həm əruz, həm də heca vəznində yazmışdır. Onun qəzəlləri kimi folklor janrlarını xatırladan heca vəznli şeirləri də dilinin sadəliyi, aydınlığı və axıcılığı ilə diqqəti cəlb edir.

"Durnamsan" şeirindən:

Qəlb yaradır eşqindən,
Ver yadigar telindən,
Əgər bir az geciksən
Səbri ölər hicrindən [1, s. 74].

"Sən gəlirsən, mən gəlim?" şeirindən:

Bağçalıyam, barlıyam,
Heyvalıyam, narlıyam,
Eşqindən mən əsirəm
Məhəbbətə bağlıyam
Ürəkdən yaralıyam.
Sevirsənsə, sevgilim,
Sən gəlirsən, mən gəlim? [1, s. 75].

"Qadan canıma" şeirindən:

Etmə sitəm Səbriyə sən,
Bağlanmışam zülfünə mən,
Ruhum uçar gedəndə sən,
İnsaf elə, gəl yanıma,
Qollarını sal boynuma,
Qadan gəlsin bu canıma [1, s. 88].

Səbrinin məhəbbət və qadın gözəlliyinə həsr olunan şeirlərini XX əsrin birinci yarısında Naxçıvan ədəbi mühitinə bəxş edilən layiqli töhfələr hesab etmək olar.

ƏDƏBİYYAT

1. Səbri S. Şeirlər dəftəri (1921-1968) / Naxçıvanın elm, mədəniyyət, ədəbiyyat və maarif xadimlərinin şəxsi arxivi. Seyid Səbri. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondu. Q-1, qovluq 1.

AMEA Naxçıvan Bölməsi
E-mail: fermanhalilov@yahoo.com

Farman Khalilov

POETIZING OF PATRIOTISM, BEAUTY OF NATURE AND LOVE IN THE POEMS OF SEYID SABRI

Seyid Sabri (1896-1974), a poet of Nakhchivan literary environment, has poets that praise the beauty of the motherland and amore along with a number of social and political poems.

The main focus of the article is on the analysis of the poet's poems about the motherland, beauty and amore. It has been determined that these poems are the works that meet the modern requirements as well as the classical tradition of subject, content and idea.

The author has argued that the poems he wrote on this subject were valuable examples for Nakhichivan literary environment in the 20s and 70s of the last century.

Keywords: *Seyid Sabri, Nakhchivan literary environment, classical traditions, citizenship, beauty, amore.*

Фарман Халилов

ВОСПЕВАНИЕ ПАТРИОТИЗМА, КРАСОТЫ ПРИРОДЫ И ЛЮБВИ В СТИХОТВОРЕНИЯХ СЕИДА САБРИ

Сеид Сабри (1896-1974), воспитанник нахчыванской литературной среды, наряду с социально-политическими стихотворениями также имеет ряд произведений, воспевающих красоту и любовь.

Основное внимание в статье уделяется анализу стихотворений поэта о родине, красоте и любви. Установлено, что эти стихи – произведения, связанные классической традицией, своей темой, содержанием и идеей отвечают современным требованиям.

Автор, обосновывая выдвинутые соображения конкретными художественными материалами, утверждает, что стихи, написанные С.Сабри на эту тему, были ценными примерами для нахчыванской литературной среды в 20-70-х годах прошлого века.

Ключевые слова: *Сейид Сабри, литературная среда Нахчывана, классические традиции, патриотизм, красота, любовь.*

Daxilolma tarixi: **İlkin variant 04.07.2019**
Son variant 06.09.2019

UOT 82.02

RAMİZ QASIMOV

AZƏRBAYCAN MİLLİ TƏNQİDİ REALİZMİ VƏ XALQ LƏTİFƏ ƏNƏNƏLƏRİ

Xalqa bağlı ideya-məfkurə platformasına malik olan, xalqçı mövqedən çıxış edən Azərbaycan milli tənqidi realizmi şifahi xalq ədəbiyyatı ənənələri və materiallarından geniş istifadə etmişdir. Azərbaycan tənqidi realizminin şifahi xalq sənəti və klassik ədəbi ənənələrə söykənərək xalq düşüncəsini ehtiva etdiyini qətiyyətlə deyə bilərik. Bu baxımdan xalq gülüşü və lətifələrindən də yaradıcılıqla istifadə edən Azərbaycan tənqidi realizmi xalq yumoru, gülüş tərzini XX əsrin yaradıcılıq manevrinə çevirmişdir. Bizim qəti fikrimizcə, XX əsrin Azərbaycan Molla Nəsrəddini (istər ədib, istər jurnal olaraq) adından tutmuş məzmunu və yaradıcılıq ənənələrinə qədər xalq yaradıcılığında dövrə, mühitə, zamana, varlığa realist və tənqidi yanaşmanın ən sanballı və dəqiq nümunəsi olan Molla Nəsrəddinin varisi və xələfi idi. Fikrimizcə, Molla Nəsrəddin lətifələri milli tənqidi realist düşüncə sistemi və rasional düşüncə tərzinin əsasını təşkil etdiyi kimi, XX əsrdə meydana gələn "Molla Nəsrəddin" jurnalı və tənqidi realist cərəyan da həmin düşüncə sisteminin məntiqi nəticəsi, davamı və onun varisi, xələfidir. Belə ki: 1. adına görə; 2. baş qəhrəmanı və obrazlar aləminə görə; 3. bədii-estetik keyfiyyətlərinə, o cümlədən mövzusu və tənqid hədəflərinə görə; 4. yaradıcılıq üsulu və ənənələrinə görə, xüsusilə gülüşün tənqid və islahedici xüsusiyyəti və istifadəsinə görə; 5. gülüş və üslubun əqli mühakimə məntiqinə və s. görə mollanəsrəddinçilik bir milli ənənə təşkil edir. Çoxsaylı nümunələr müasir Molla Nəsrəddin və tənqidi realist üslubun tarixi Molla Nəsrəddinin və xalq lətifəçiliyinin tam mənası ilə davamı və inkişafı olduğunu təsdiq edir.

Açar sözlər: *xalq yumoru, Molla Nəsrəddin lətifələri, Azərbaycan tənqidi realizmi, mollanəsrəddinçilik.*

Artıq məlum olduğu kimi, XX əsrin əvvəllərində daha etibarlı milli zəmin üzərində yaranan və yüksək ali ideallar irəli sürən tənqidi realizm ədəbi cərəyanı xalq yaradıcılıq ənənələri ilə yaxından bağlılıq nümayiş etdirirdi. Bu ənənədə "Molla Nəsrəddin" yumoru və lətifə yaradıcılığının təsiri də başlıca yerdə gəlirdi. Azərbaycan milli tənqidi realizminin yaradıcısı olan böyük ədib Cəlil Məmmədquluzadənin bədii yaradıcılığının ilk dövrlərini təzahür etdirən "Çay dəstgahı", "Danabaş kəndinin əhvalatları", "Kişmiş oyunu" kimi əsərlərində də "Molla Nəsrəddin" lətifələrindən gələn yumor tərzi və yaradıcılıq üslubu özünü aydın nümayiş etdirirdi. 1906-cı ildə əsası qoyulan "Molla Nəsrəddin" jurnalı isə adından tutmuş yaradıcılıq ənənələrinə qədər Şərq müdriki və onun yaradıcılıq tərzini daha da möhkəmləndirmiş, ədəbi üsluba çevirmişdi. Bu mənada XX əsrin milli tənqidi realizmi və onun cəbbəxanası hesab edilən "Molla Nəsrəddin" məktəbi qoca Şərqin müdrik ağsaqqalı və xalq yumorunun varisi və xələfi kimi çıxış edirdi.

Məfkurəsi və məqsədi Azərbaycan xalqının inkişaf yolu olan tənqidi realistlər bu amalın ideya-məfkurəvi mənbəyində də xalqı gördükləri kimi onun başa düşdüyü dildən, mətləblərdən və tərzdən danışmağı vacib hesab edirdilər. Təsadüfi deyildi ki, prof. Mir Cəlal bu xüsusda yazırdı: "...ədəbiyyat çox kəskin silah olmuşdu. ...bunun üçün təbii, mənalı xalq yumoru böyük və faydalı bir vasitə idi. Maraqlı üsullarla, zarafat yolu ilə yoldaşın səhv və nöqsanını yoldaşa göstərmək xalq ruhuna da çox uyğun idi" [4, s. 53-54]. Bu məqsədlə Azərbaycan tənqidi realizminin banisi və bayraqdarı Cəlil Məmmədquluzadənin bütün türk xalqları milli mənəvi düşüncəsini xəritələşdirən məşhur Molla Nəsrəddin lətifəçiliyi və bu xalq ədəbiyyatının nəhəng obrazına olan marağında da özünü göstərmişdi. Oxşar ideya-məfkurə yolçuları və ədəbi missiya daşıyıcılarını birləşdirməklə ədəbi cərəyana – Azərbaycan tənqidi realist ədəbi cərəyanına çevirən bir əbədiyaşar mətbuat orqanının adından tutmuş yazı üslubu, deyim tərzi, surətləri, tənqid hədəfləri və onun nəhəng qəhrəmanı Molla Nəsrəddinin özünün yaranmasına qədər bu xalq düşüncə və yaradıcılıq tərzi mühüm rol oynamışdı. Bu məsələyə geniş müstəvidə yanaşan Ə.Mirəhmədov yazırdı: "Məmmədquluzadə gülüşünün

qaynaqları sırasında şifahi xalq yumor və satirasının mövqeyi yazılı ədəbiyyatdakından heç də az deyil. ...Məmmədquluzadənin bədii təfəkküründə Molla Nəsrəddin surətinin cücərib təşəkkül tapması ...uzun zaman davam edən mürəkkəb bir prosesdir və onun həm bədii, yaradıcılıq əsasları, həm elmi-nəzəri, həm də sırf həyati, folklor kökləri vardır. ...Xalq bədii təfəkküründə Molla Nəsrəddin simasında cəmləşdirdiyi sifətlər Azərbaycan satira jurnalının məfkurəvi yaradıcılıq əsaslarının müəyyənləşməsində böyük iş görmüşdü" [3, s. 214, 219, 227]. Demək olar ki, "siyasi-ictimai məramından tutmuş, ayrı-ayrı mənəvi əxlaqi sifətlərinə qədər" [3, s. 228] tarixi Molla Nəsrəddinə əhəmiyyət verən müasir Molla Nəsrəddin onu özünə ehkam, yol və ideya-yaradıcılıq mənbəyi götürmüşdü. XX əsrin əvvəlləri ictimai-ədəbi mühitin görkəmli siması və Azərbaycan folkloru, ədəbiyyatının böyük bilicisi Firudin bəy Köçərli də bu mətləbdən bəhs edərək: "...Molla xalq müdrikliyinin və hazırcavablığının ifadəçisidir" deyə, bu bağlılığı doğru təshih etmişdi. Bu barədə Mollanəsrəddinçilərdən olan Hüseyn Minasazov və Salman Mümtazın fikirləri də deyilənləri təsdiq edir. "Adının xalqın qədim tarixi ilə, məzmunun müasir ictimai həyatla sıx bağlı" [2, s. 13] olduğunu yazan görkəmli mollanəsrəddinşünas F.Hüseynov da "məcmuənin və redaktorun "Molla Nəsrəddin" adı ilə fəaliyyətə başlamasının ...qədim və zəngin milli xalq ədəbiyyatı ənənələri ...ilə bağlılığını" [2, s. 13] birmənalı şəkildə qeyd edirdi.

Yüz illər sonra qoca Şərqin müdrik və hazırcavab obrazı olan Molla Nəsrəddinin XX əsrin əvvəllərində yenidən doğuluşu və şirin gülüş doğuran tənqid dolu səsi ictimai-mənəvi mühitə ciddi təsir göstərdi. Cəlil Məmmədquluzadə, artıq qeyd edildiyi kimi, öz məfkurəvi ədəbi yaradıcılıq yoluna başlarkən xalq müdrikliyinin simvolu olan Molla Nəsrəddinə müraciət etmişdi, çünki onların "xasiyyətləri arasında bir yaxınlıq, uyğunluq var idi" [13]. Hətta, fikrimizcə, felyeton janrının rişəsi, kökü və ilkin nümunəsi Molla Nəsrəddin lətifələrindən gəlirdi. Mollanəsrəddinsayağı tənqidi gülüş doğuran felyeton, tərs məntiqə xidmət edən atalar sözləri və hikmətli nəsihətlər, tapmaca, nağılları və dastanları xatırladan səyahətnamələr və s. şifahi xalq ədəbiyyatından yararlanmanın məntiqi nəticəsi idi. "Molla Nəsrəddin"in və mollanəsrəddinçiliyin proqram və manifesti kimi qəbul edilən "Sizi deyib gəlmişəm" başlıqlı məqalədəki vacib ədəbi, ideya-məfkurəvi tezislərdən olan "keçmiş günləri də bir xatırlamaq" [9, s. 8] məqsəd və məramını öz milli kimliyini, haqqını və gələcək taleyini müəyyənləşdirməyə çağırış kimi də qiymətləndirmək lazımdır.

Demək olar ki, tənqidi realizm üçün doğma olan Molla Nəsrəddin, Lağlağı, Hərdəmxəyal, Hophop, Sərsəm, Məşədi Sijimqulu, Cüvəllağı və başqa çoxsaylı imzalar əslində xalq yumoru ənənələrindən irəli gələn lətifəçiliyin Molla Nəsrəddin, Bəhlul Danəndə, Əbü Nüvas və b. kimi aparıcı qəhrəmanları idilər. "C.Məmmədquluzadənin Molla Nəsrəddin, Lağlağı imzaları ilə yazıb-yaratması, tanınıb məşhurlaşması həm də ədibin xalq ədəbiyyatındakı xəlqilik, müdriklik, hazırcavablıq, sadəlik kimi xüsusiyyətlərə sadiqliyinin ifadəsidir. ...Milli ədəbiyyatşünaslıq hələ 40-cı illərdə Mirzə Cəlili "Danabaşlar mühitinin Danəndəsi", "Ölülər" aləminin Xızırı, "Dəli yığıncağının üqəlası" adlandırmaqla onun xalq ədəbiyyatı ilə qaynayıb-qarışdığı qənaətini təsdiqləmişdir" [1, s. 339]. Bizim qəti fikrimizcə, Azərbaycan Molla Nəsrəddini (istər ədib, istər jurnal) adından tutmuş məzmunu və yaradıcılıq ənənələrinə qədər xalq lətifələrinin adını daşıyan "Molla Nəsrəddin"in və onun timsalında xalq müdrikliyinin və "türk milli tənqidi düşüncə sisteminin" [14] dost-doğma varisi və xələfi idi.

XX əsrin tənqidi realizmi, "Molla Nəsrəddin" ədəbi məktəbi məhz xalq ədəbi ənənələrini davam etdirməklə yeni əsrə "köhnə", amma doğma, xalqın məzacına uyğun fikir və üslubu təzahür etdirən yaradıcılıq üslubu meydana gətirdi. Bu cəhətdən "Əncir nübarı" lətifəsi

ilə Cəlil Məmmədquluzadənin "Poçt qutusu" əsəri çox xarakterikdir. "Əncir nübarı" lətifəsində göstərilir ki, xana əncirdən sovqat aparan Mollanı fərraşlar zindana salır. Zindanda qalan Mollanı necə olursa, bir gün Teymur görür və onu azad edir. Mollanın məqsədinin ona əncir nübarından sovqat gətirmək olduğunu bilən Teymur buna görə də Mollaya bəxşiş vermək istəyir və nə istədiyini soruşur. Molla balta istəyir. Bu istəkdən heyrətlənən Teymur bunun səbəbini soruşur. Molla əncir ağacını dibindən kəsəcəyini söyləyir ki, bundan sonra xana sovqat gətirmək fikrinə düşməyib də, zindanda yatmalı olmasın [10]. Mollanın Teymura sədaqətlə xidmət marağı, onun fərraşlar tərəfindən zindana salınması hadisəsi eynən İtqapan kəndinin sakini Novruzəlinin xanına sovqat aparmağı, xanın tapşırığı ilə onun məktubunu poçta salmaq istəməsi və poçtalyonun məktubu götürməsini görüb onunla dalaşması nəticəsində zindana düşməsi hadisəsilə tam eynilik təşkil edir. İtqapan kəndinin sakini Novruzəli də xanına təmənnasız xidmətin və qırılmaz sədaqətin nümayişi olaraq olanından pay tutub səbətdolusu xana sovqat aparır. Lakin xanın məktubunu poçta salmaq tapşırığını alan Novruzəli poçtun nə olduğunu bilmədiyindən məktubu poçtalyonun götürməsini onu "oğurlaması" kimi başa düşür, buna tab gətirməyərək onu kötəkləyir və üç ay həbsdə yatmalı olur. Göründüyü kimi, eyni xarakter, süjet və hadisə bu iki bədii parçanı bir-birinə bağlayır. Lakin lətifədə problem xalq müdrikliyi ilə həll olunur və özünün ideal həll yolunu tapır: Molla şahdan balta xahiş edib əncir ağacını kəsməklə şaha bir daha sovqat gətirmək və bunun da nəticəsində zindana düşmək dərdindən qurtulmaq istəyir. Lakin Cəlil Məmmədquluzadə bu hadisədən can qurtarmağın yolunu novella tələblərinə (eləcə də xalq müdrikliyi və Sokrat metodu adlanan bədii məntiq formuluna) uyğun olaraq oxucuların öz daxili məntiqinin, əqli mühakiməsinin ixtiyarına buraxır. Lakin sanki bu "qoca müəllif də" öz məntiqində Novruzəlini (və Novruzəlililəri) canlarını bəladan qurtarmağın yolunu C.Məmmədquluzadə özünün "Rişə" əsərində dediyi kimi, "gərək rişədən başlayasan", "rişəni baltalayıb, ona zəfər yetirməklə" [7, s. 393, 394] aradan götürmək yolunu nəzərdə tutduğu açıq-aydın görünür. Elə hər iki bədii materialda diqqəti cəlb edən məqam ağaya sədaqətlə xidmət düşüncəsinin tənqidi və ifşasıdır. Özünü xanına xidmətçi bilmək və ona sədaqətlə xidmət göstərmək psixologiyası Mollanın da, Novruzəlinin də aqibəti ilə inkar olunur. "Gör bədsuyum kimdi?" xalq lətifəsindəki hadisə və əhvalat isə bizi dərhal görkəmli ədibin məşhur "Xatiratım" əsərindəki xanın ziyarətə gedərkən tək səbir eşidib geri dönməsi əhvalatına götürür.

Mövhumata və avamlığa düşmən kəsilən hər iki aqil avamlıq və mənəvi əsarətin mənbəyi olan mövhumatçılıq və fanatizmi ciddi tənqid və ifşa etmişdir. "Duanın gücü" adlı lətifədə Molla evinə gəlmiş axmaq oğrunu inandırır ki, ayın işığından yapışıb içəri düşmək olar və axmaq oğru bunu edərkən damdan yıxılıb xurd-xəşil olur. C.Məmmədquluzadə isə bu məzmuna uyğun şəkildə deyirdi: "Həqiqətdə bir böyük xoşbəxtlikdir, əgər bir uca damın üstünə çıxıb təzə aya baxmaqla və bir neçə kəlmə dua oxumaqla sən zalimlərin zülmündən eymən olacaqsan. Ta bundan yaxşı şey nə ola bilər? Xalq xalqların zülmünün qabağını almaq üçün dəstə tutub mübarizəyə çıxır, zalım hakimlərin üzünə biədəblik edib ağ olur, hiyləgər ruhanilərin fəsad torlarını yırtıb o tordan çıxmaq üçün zəhmət çəkib dünya elmlərini təhsil eləyir, övladını məktəblərə göndərib fənni və ictimai biliklərə sahib olur, zalımların zülmündən xilas olmaq üçün çox-çox fədakarlıqları özlərinə rəva görür, amma sən bunların cümləsinin əvəzində təsbehi al əlinə, çıx damın üstünə və hilali-ramazanül-mübarəki görməyə cidd-cəhd elə və elə ki gördün, dəxi sahirlərin sehrindən bilmərrə xilas olacaqsan" [8, s. 45].

XX əsr tənqidi realizmi üçün səciyyəvi olan insan surətlərinin bədii portretini yaratmaq ənənəsinin xalq lətifələri ilə bağlandığını qətiyyətlə demək olar. "Fərzəli bəy" lətifəsindəki

portret yaradıcılığı Cəlil Məmmədquluzadənin məşhur Xudayar bəy bədii portreti ilə müqayisəyə daxil olur və hər iki aqili bir-birinə bağlayır. Xudayar bəyin yaşından tutmuş boy-buxunu, rəngi, burnunun çox pis əyriliyi, belinin donqarlığı və b. dəqiq çizimi Fərzəli bəy portretindən bir az irəli aparsa da, öz sələfi Molla Nəsrəddini heç də kölgədə qoymur. Eləcə də "Deyəsən padşahı istəyir" lətifəsində Molla Nəsrəddin xaricdən gələn elçinin dana əti yemək istəyini onu anlamayan saray adamlarına bildirərkən barmaqlarını başını qoyub dananı işarə eləməsini izah edərkən "deyəsən padşah həzrətlərini istəyir" [10, s. 17], – deyə cavab verməsi və Teymur Ləngi çox ciddi tənqidə məruz qoyması görkəmli tənqidi realist ədib C.Məmmədquluzadənin "Xudayar bəy" obrazının portretini yaratmaq istəyinin mənbəyində dayandığını qətiyyətlə demək olar. "Bir də bir ağıllı padşah", "Qorxulu dilənçi", "Teymur Ləngsən ki, varsan", "Kəndxuda" və b. lətifələrdə ağalar və ağalıq ciddi tənbeh edilmişdir. "Kəndxuda" lətifəsində kəndxudaların qanmazlığı tənqid olunduğu kimi, qanmazlarla özünə el arasında xüsusi bir təəssürat yaradan kəndxudalıq da ifşa edilmişdir. Xalq lətifələrinin bu məqsədi "Danabaş kəndinin əhvalatları", "Qurbanəli bəy", "Xanın təsbehi", "Danabaş kəndinin məktəbi" və b. əsərlərindəki bivec, zalım, qanmaz "bəy"lərin ifşası ilə birləşir.

Əlbəttə, lətifələrdəki qeyri-normal vəziyyətlərə, nöqsan və çatışmazlıqlara müdrik, mənalı cavablarla münasibət göstərmək xalq lətifələrinin səciyyəvi xüsusiyyətidir. Ümumiyyətlə isə, oyatmaq, başa salmaq, yol göstərmək, mövcud şəraitə etiraz, üsyan etmək, cəsarət və müdrikliklə mübarizə aparmaq hər iki mollanəsrəddinçiliyin başlıca səciyyəvi xüsusiyyətləridir. İki ədəbi istiqaməti bir-birilə ideya-məzmun cəhətdən yaxınlaşdıran məqamlardan biri kimi yarıtmaz, qəddar, laqeyd, fürsətgir və mənfəətgir hakimlərin tənqidi xüsusi yer tutmuşdur. Bu istiqamətdə maraq cəlb edən məqamlardan biri də "Şəhərin tükü", "Molla və əyanlar" lətifələri ilə "Mikroblar" felyetonunun bir-birilə təşkil etdiyi yaxınlıqdır. "Şəhərin tükü" lətifəsində Mollanın qala bürcünün üstünə yığışan hakimləri görərək: "Bir bax, gör, bir tükün üstünə neçə bit daraşıb" [10, s. 53], – deyə hakimləri tənqidlə qınaması elə Cəlil Məmmədquluzadənin "Mikroblar" felyetonunda hakimləri və din xadimlərini xalqın canına daraşan mikroblarla müqayisə etməsilə olduqca yaxınlıq təşkil edir. Elə "Mikroblar" felyetonunda da C.Məmmədquluzadə Molla Nəsrəddin sayağı xalqın canına daraşan bitlərdən, mikroblardan bəhs edərək yazır: "Qərinələrlə millətimizin şirin canına milyonlarca ac mikroblar daraşıb qanını sormaqdadır və məhz bu həşəratdır milləti xəstə edən, məhz bu mikroblardır onu bədnam edən. ...Lazımdır mikrobları millətin bədənindən kənar eləmək!" [6, s. 260]. Eləcə də Cəlil Məmmədquluzadənin "Təbiət" felyetonu bu cəhətdən adıçəkilən lətifə ilə tam bir məna-məzmun vəhdəti yaradır. Felyetonda deyilir: "Üfunətli bataqlıqlara cürbəcür həşəratın cəm olmağı təbii, çirkli bədənə qisim-qisim böcəklərin daraşmağı təbiidir. Məhz həmin qanunun xasiyyətindəndir ki, cəhalət qaranlığında qalmış insanların içindən müftəxor əmmaməli parazitlər əskik olmayır" [7, s. 109]. "Molla və əyanlar" lətifəsində isə Mollanın: "Bunların ki, indiyə kimi üfunətli-üfunətli eyiblərini görüb gizlətmişəm, heç bir yerdə deməyib ürəyimə salmışam, indi ürəyim o qədər dolub ki, iyi, qoxusu ağzımdan gəlir" [10, s. 24] dərin məna, ictimai yanğı dolu fikirləri bizi XX əsrin Molla Nəsrəddini Cəlil Məmmədquluzadənin: "Ax, Molla Nəsrəddin, lal ol, çox işlərə əl aparma! Çox sirləri açma, pərdələri qovzama ki, çox çirkləri qurdalama ki, üfunəti dünyavü aləmə yayılsın" fikirlərinə götürür və çox uzun əsrlərcə bir-birindən uzaqlıqda olan Molla Nəsrəddinləri vahid amal, fikir və məqsəddə birləşdirir, müdriklik və dərin ibrətamiz mənalar əxz edən yaradıcılıq tərzində bütövləşirlər.

"Kasıb çoxdur", "Biz də kiçiyik" kimi lətifələr XX əsr Azərbaycan tənqidi realizmi və onun problematikası ilə yaxından səsləşir. Kasıbların, "kiçiklərin" qayğısına qalmaq missiyası

baxımından bu lətifələr XX əsr Azərbaycan tənqidi realizmi ilə varisləşir və həmahəngləşir. Xüsusilə, "Biz də kiçiyik" lətifəsindəki "Sən böyüksənsə, biz də kiçiyik" [10, s. 38] fikrində xalq, ictimai varlıq, təşkilat "böyüklər"i, yəni hakimiyyəti və maddi nemətləri əlinə toplayan hakim qüvvələr və "kiçiklər", yəni məhkum və məhrum təbəqənin nümayəndələri şəklində öz mövcudluğunu tapır, bu tərəflər arasındakı münasibətlərdən irəli gələn mətləbləri bədii şəkildə ümumiləşdirib ortaya çıxaran ədəbiyyat, o cümlədən realist söz sənəti olan "Molla Nəsrəddin" lətifələri öz şirin dili və yumoristik ruhu ilə açığa çıxarır. "Biz də kiçiyik" lətifəsində "Yadından çıxartma ki, kirpinin də hər tərəfi tikandır, amma balaca qarışqa onun mədəsini yandırır" [10, s. 38] fikri özündə daşıdığı zəngin ictimai mətləb və məzmun etibarilə Azərbaycan tənqidi realizminin ana probleminə çevrilən xalq problemi, idealı və ideyası ilə çulğaşaraq ifadə etdiyi, daşıdığı başlıca ictimai yük etibarilə böyük Mirzə Cəlilin "Xeyir-dua", "Əsarətdə" məqalələrində öz ifadəsini tapan XX əsr Azərbaycan tənqidi realizminin nəzəri-estetik tezisi və səciyyəsinə də çevrilir. Əslində xalq müdriki Molla Nəsrəddinin adı-gedən lətifədəki zəngin kəlamı bizi C.Məmmədquluzadənin "Bütün ölkələrin proletarları, birləşin" [8, s. 128] və "onlar belə güclü, qabiliyyətli ola-ola niyə dilənçiliyə, aclığa və köləliyə yol verirlər!" [8, s. 129] kimi sadə adamları özünə inama, mübarizəyə və birliyə səsləyən fikirlərinə götürür.

Ümumiyyətlə, xalq ədəbiyyatı ilə tənqidi realizmi bir-birilə ideya-mövzu cəhətdən bağlayan istiqamətlərdən biri fürsətgir, mənfəətgir, yalançı din xadimlərinin, çürük etiqadların, yalançı iman və ibadətlərin tənqidi və ifşası məsələsidir. Molla Nəsrəddin lətifələrində dini fanatizm, mövhumat tənqid edilərək xalqın mənəvi əsarətinə qarşı çıxılır. Doğru qeyd edil-mişdir ki, "Molla Nəsrəddin lətifələrində süründürməçi məhkəmə sistemi, yalançı din xadim-ləri kəskin şəkildə satira atəşinə tutulur, məsxərəyə qoyulur" [12, s. 6]. Bu baxımdan "Allahın gözü", "Mollanın nəziri", "Niyə tökürsən?", "Samanlı palçıq", "Molla tayfası", "Üzünə tü-pürmək", "O, bizim eşşəyin quyruğudur", "İt duası", "Mollanın qurbanı" və başqa lətifələrdə hər şeyi Allahdan görmək, iman, etiqad və qismətdən asılı olmaq kimi xüsusiyyətlər tənqid edildiyi kimi, din xadimləri və ibadətkar adamların fürsətgirliyi, mənfəətgir və müftəxorluğu, etiqad və iman saxtakarlığı və s. xüsusiyyətləri ifşa hədəfinə çevrilmişdir. Habelə "Allahın qapısı", "Çapıb gəlmisən mənim üstümə", "Molla azan verir", "Allah adamı" və b. kimi lətifələrdə məhz din xadimləri, o cümlədən seyid və mollalar öz əməlləri fonunda ciddi tənqid və ifşa edilirlər. Bir çox lətifələrdəki ümumiləşdirilmiş fikir və ideyalar hətta böyük tənqidi realist, satirik yazıçı Cəlil Məmmədquluzadənin və M.Ə.Sabirin konkret əsərlərini yada salır və xatırladır. Hətta bəzi lətifələrə görə Sabirin məşhur:

Zahida, gəl soyunaq bir kərə paltarımızı,
Çıxaraq zahirə batindəki əfkarımızı.
Pişgahi-nəzəri-xəlqə dutaq harımızı,
Görüb onlar dəxi təhqiq eləsin varımızı,
Hər kimin ağı qara isə utansın, a balam,

Bəlkə illərcə yatanlar bir oyansın, a balam [11, s. 200] - satirik misrası daha çox yada düşür və məzmun etibarilə daha yaxından səsləşərək oyandırıcı xüsusiyyətini təzahür etdirmiş olur. Bunu da ayrıca qeyd etmək yerinə düşər ki, "Allahın qapısı", "Çapıb gəlmisən mənim üstümə", "Allah adamı" kimi lətifələrdəki deyim və ifadə tərzi, qəti və sərt pafos, açıq deyim və konkret ifadə, hətta "daha adını nə Allah qoymusan" [10, s.105] kimi konkret üsyanvarı ifadə üsulu Cəlil Məmmədquluzadənin bu mövzuda yazılmış əsərləri ilə, xüsusilə "Münacat", "Əsrimizin möcüzələri", "Bir qətrə göz yaşı", "Allah vardır", "Allahı çistka etmək olarmı?",

"Allah təalanın sifətləri", "Müsəlmançılıq", "Rişə" kimi felyetonları ilə çox yaxından səsləşir, demək olar, hətta üst-üstə də düşür. Habelə "Kitabdan kitaba salar", "Mollanın tərlanı", "O qara kitabı ver" kimi lətifələrdə təqdim olunan mətləb və göstərilən qazı obrazları bütün səciyyəsi ilə "Danabaş kəndinin əhvalatları"ndakı qazı surəti ilə eyni səciyyədədir. "O qara kitabı ver" lətifəsi isə başdan ayağa "Danabaş kəndinin əhvalatları"ndakı Qazının Xudayar bəyin Zeynəbi sığə etmək kimi arzusunu yerinə yetirmək təklifinə cavab olaraq "O qara kitabı bəri ver" [5] cavabını dərhal xatırladaraq saxta qanunları "qara kitab" adı altında ümumiləşdirdiyi kimi, qazıları da xarakter, əməl və davranış etibarilə eyni səciyyədə ümumiləşdirir.

Beləliklə, çoxsaylı faktlar göstərməklə qəti şəkildə demək olar ki, XX əsrin mollanəsrəddinçiliyi və tənqidi realizmi xalq müdrikliyinin təzahürü olan xalq qəhrəmanı Molla Nəsrəddin lətifəçiliyinin varisi və davamçısıdır. Azərbaycan milli tənqidi realizmi şifahi xalq sənətinə söykənərək milli ədəbiyyatımızın yeni inkişaf istiqamətini müəyyənləşdirmiş və onun ənənələrinin uğurla davamına və daha da güclənməsinə şərait yaratmışdır. XX əsr tənqidi realizmin görkəmli nümayəndələri olan C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, S.Mümtaz, Ə.Nəzmi, Ə.Qəmküsar və b. hər birinə xalq müdriki Molla Nəsrəddinin xələfi və varisi kimi baxmaq doğru olar.

ƏDƏBİYYAT

1. Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Naxçıvan: Əcəmi NPB, 2009, 424 s.
2. Hüseynov F. "Molla Nəsrəddin" və mollanəsrəddinçilər. Bakı: Yazıçı, 1986, 279 s.
3. Mirəhmədov Ə. Azərbaycan Molla Nəsrəddini. Bakı: Yazışı, 1980, 430 s.
4. Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917). Bakı: Ziya&Nurlan, 2004, 391 s.
5. Məmmədquluzadə C. Seçilmiş əsərləri: 4 cilddə. I c., Bakı: Lider, 2004, 688 s.
6. Məmmədquluzadə C. Seçilmiş əsərləri: 4 cilddə. II c., Bakı: Lider, 2004, 584 s.
7. Məmmədquluzadə C. Seçilmiş əsərləri: 4 cilddə. III c., Bakı: Lider, 2004, 480 s.
8. Məmmədquluzadə C. Seçilmiş əsərləri: 4 cilddə. IV c., Bakı: Lider, 2004, 472 s.
9. Molla Nəsrəddin (satirik jurnal): 10 cilddə. I c., Bakı: Şərq-Qərb, 2017, 660 s.
10. Molla Nəsrəddin lətifələri / Tərtib edəni və ön sözün müəllifi M.Təhmasib. Bakı: Öndər, 2004, 304 s.
11. Sabir M.Ə. Hophopnamə: 2 cilddə. I c., Bakı: Şərq-Qərb, 2004, 480 s.
12. Təhmasib M. Ön söz // Molla Nəsrəddin lətifələri. Bakı: Öndər, 2004, 304 s.
13. Habibbeyli İ. Nasrettin hocanın devamçısı // Milli folklor dergisi, 1997, № 31-32, s. 13-14.
14. Özdemir N. Mizah, eleştirel düşünce ve bilgelik: Nasreddin Hoca \\ htpp: ||www.millifolklor.com

AMEA Naxçıvan Bölməsi
E-mail: ramizasef@yahoo.com.tr

Ramiz Gasimov

AZERBAIJANI NATIONAL CRITICAL REALISM AND FOLK ANECDOTE TRADITIONS

The national critical realism of Azerbaijan, who has a ideology connected with the people, widely used the traditions and materials of oral folk literature. We can say with certainty that Azerbaijan's critical realism includes folk thought based on oral folk art and classical literary traditions. Therefore, the critical realism of Azerbaijan, which also uses folk laughter and anecdotes, has turned the style of folk humor and laughter into a creative exercise of the XX century. According to our final opinion, Molla Nasraddin of the 20th century in Azerbaijan (both as a writer and as a magazine) was the successor and follower of Molla Nasraddin, a realist and critical approach to the era, environment, and existence of the people, from its name to his content and creative traditions. In our opinion, Molla Nasraddin anecdotes form the basis of the national, critical realist thinking and rational thinking, as well as the critical realism ideological trend and the magazine "Molla Nasraddin", which appeared in the 20th century, is the logical consequence and continuation and successor and follower of these ways of thinking. So the style of Molla Nasraddin forms a national tradition according to the: 1. name; 2. the protagonist and the characters; 3. artistic-aesthetic qualities, including the subject and criticism of the magazine; 4. the way of creativity and its traditions, especially the critical and corrective features of laughter and its use; 5. the logic of intellectual discourse of laughter and style. Numerous examples confirm that modern Molla Nasraddin and the history of critical realistic style are the continuation and development of Molla Nasraddin and folk anecdote.

Keywords: *folk humor, anecdotes of Molla Nasraddin, Azerbaijan critical realism, the style of Molla Nasraddin.*

Рамиз Гасымов

АЗЕРБАЙДЖАНСКИЙ НАЦИОНАЛЬНЫЙ КРИТИЧЕСКИЙ РЕАЛИЗМ И ТРАДИЦИИ НАРОДНОГО АНЕКДОТА

Азербайджанский национальный критический реализм, который владеет идеологической платформой, связанной с народом, широко использовала традиции и материалы устной народной литературы. Можно с уверенностью сказать, что азербайджанский критический реализм, опираясь на устное народное искусство и классические литературные традиции, сохраняла в себе народную мысль. С этой точки зрения, азербайджанский критический реализм, использующий в творчестве народный смех и анекдоты, превратил в творческий маневр XX века юмор и смех народа. На наш взгляд, Молла Насреддин XX века (как писатель, так и журнал) являлся наследником и преемником Моллы Насреддина, самого достойного и истинного примера реального и критического подхода к жизни, среде, времени, существованию в народном творчестве. По нашему мнению, анекдоты Моллы Насреддина являлись основой национальной критической системы реалистического мышления и рационального мышления, журнал "Молла На-

среддин” XX века и критическое реалистическое направление стало логическим результатом продолжения и преемственности этой системы мышления.

Таким образом: 1. по названию; 2. по главному герою и миру образов; 3. по художественно-эстетическим качествам, в том числе по теме и критическим целям; 4. по творческому методу и традициям, особенно по критике и реформирующему характеру и использованию смеха; 5. по разумной логике рассуждения смеха и стиля, молланасреддинство составляет национальную традицию. Многочисленные примеры свидетельствуют о том, что современный Молла Насреддин и критический реалистический стиль является продолжением и развитием исторического Моллы Насреддина и народного анекдотства.

Ключевые слова*: народный юмор, анекдоты Моллы Насреддина, Азербайджанский критический реализм, молланасреддинство.*

(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 12.06.2019
Son variant 12.09.2019

UOT 82.0:001.121.18

AYGÜN ORUCOVA

TÜRK ALİMLƏRİ BABA NEMƏTULLAH NAXÇIVANİNİN QURAN TƏFSİRİ HAQQINDA

XV əsrin ortaları-XVI əsrin əvvəllərində yaşamış təsəvvüf alimi, müfəssir Baba Nemətullah Naxçıvani Azərbaycanın qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda dünyaya gəlmişdir. Əxlaq, fəzilət, elm və irfan nümunəsi Naxçıvani haqqında Azərbaycanda az tədqiqat aparılmışdır. Türkiyə alimləri isə "İslam Alimləri Ensiklopediyası", "İslam Məşhurları Ensiklopediyası", "Osmanlı Müəllifləri"nin müvafiq cildlərində, Ömər Rza Kəhhalənin, Süleyman Atəşin, Əbdülbaqi Turanın, Nəcdət Tosunun, Bursalı Məhməd Tahirin, Katib Çələbinin, Xəlil Çiçəyin, Ramazan Bayhanın, Yaşar Qurdun, Həmid Alqarın müvafiq tədqiqatlarında Baba Nemətullah Naxçıvanini və onun müqəddəs kitabı – təsəvvüfi təfsirini xatırlatmış, bu əsərin məziyyətlərindən ətraflı şəkildə bəhs etmişlər.

Məqalədə bu nəticəyə gəlinmişdir ki, bir çox türk alimləri müvafiq araşdırmalarında müqəddəs dini kitaba dair təsəvvüfi təfsir yazan naxçıvanlı alim Baba Nemətullah Naxçıvaninin həm şəxsiyyətini, həm də əsərlərini çox yüksək qiymətləndirmişlər. Naxçıvani təfsirinin özündən əvvəlki heç bir təfsir təkrarlamadan yazılması, özünəməxsusluğu, orijinallığı, bədii, qafiyəli bir elmi əsər olması, Quranın bütün surələrini əhatə etməsi, quruluşu etibarilə mükəmməlliyi və s. məziyyətləri Türkiyə alimlərinin diqqətini cəlb etmişdir.

Açar sözlər: *şərh, təsəvvüf, surə, Quran, təfsir, qafiyə.*

XV əsrin ortaları-XVI əsrin əvvəllərində yaşamış təsəvvüf alimi, Nəqşibəndiyyə (Xəlvətiyyə) arifi, müfəssir Baba Nemətullah Naxçıvani Azərbaycanın qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda dünyaya gəlmişdir. XV əsrin sonlarına qədər İranın şərqindəki türk məmləkətlərində, Anadolu, Rumelində "baba" ləqəbini daşıyan bir çox şeyxə rast gəlinir. "Sufilər şeyxi dərvişin mənəvi atası saydıqları və dərvişin təriqətə girişini ikinci bir doğuş olaraq qəbul etdikləri üçün şeyxə "baba" deyirdilər. Alimin anadan olma tarixi dəqiq məlum deyil, təqribən 1452-1454-cü illərdən birində anadan olduğu yazılmışdır: "1452/4-1514-cü illər arasında yaşamış və dövrünün məşhur türk sufisi hesab edilən Baba Naxçıvaninin anadan olmasından 560 il ötür" [1]. "Şeyx Əlvan", "Ulvanel-Ağşəhri", "Nemətullah Baba", "Nemətullah Sultan" və "Baba Nemət" adlarıyla tanınmışdır. N.Naxçıvaninin Anadoluya gəlməmişdən əvvəl yazdığı təsəvvüfi "Əl-Fəvatihul-İlahiyyə vəl-Məfatihul-Geybiyyə" adlı təfsiri və Beyzavi təfsirinə, Mühiddin Ərəbinin "Fususul-Hikəm" əsərinə, Şeyx Mahmud Şəbüstərinin farsca yazdığı "Gülşəni-Raz" adlı mənzum əsərə yazdığı haşiyəsi, "Hidayətül-İxvan" və s. əsərləri məşhurdur.

"Əxlaq, fəzilət, elm və irfan nümunəsi", "mənəvi elmlərdəki əngin bilgisi ilə təsəvvüfdə, ilahi sirlər dənizinin dalğıcı olmuş" [14] Naxçıvani haqqında Azərbaycanda az tədqiqat aparılsa da, Türkiyə alimləri "İslam Alimləri Ensiklopediyası", "İslam Məşhurları Ensiklopediyası", "Osmanlı Müəllifləri"nin müvafiq cildlərində, Ömər Rza Kəhhalənin əsərlərində, Süleyman Atəşin "İşari Təfsir Məktəbi", Əbdülbaqi Turanın "Baba Nemətullah Naxçıvani və "Əl Fəvatihül-İlahiyyə..." Adlı Təfsiri" [12, s. 61] və s. türk-Osmanlı mənbələrində ətraflı şəkildə bəhs etmişlər. Alimin son dərəcə sadə və təvazökar bir insan olmasını haqqında bəhs olunan bütün mənbələr təsdiq etmişdir. Yaradılanı Yaradanın eşqinə sonsuz məhəbbətlə sevmək və ona hörmətlə yanaşmaq alimin əsas mövqeyi olmuş, hətta ibadəti ilə belə öyünməyi ən böyük və bağışlanmaz günahlardan hesab etmişdir: "Günahlara bir dəfə, taətlərə isə min dəfə tövbə

etmək lazımdır. Yəni etdiyi ibadət və taətlərə baxıb özünü bəyənmək, o ibadəti heç etməmək günahından min qat daha pisdir. Bir kimsənin, Allah təalaya olan məhəbbətinin həqiqi olub olmadığının əlaməti; özündə dəniz misali cömərdlik, günəş misali şəfqət və torpaq misali təvazökarlıq kimi üç xislətin olmasıdır" [13].

Osmanlı dövründə yazılmış təfsir tarixindən, təsəvvüf tarixindən, təriqətlər tarixindən bəhs edən alimlər, tədqiqatçılar mütləq Baba Nemətullah Naxçıvanini və onun müqəddəs kitabı – təsəvvüfi təfsirini xatırlatmış və bu əsərin məziyyətlərindən və onun müəllifinin həqiqi Tanrı eşqindən böyük sevgiylə söz açmışlar. Türk alimlərindən Bursalı Məhməd Tahirin "Osmanlı Müəllifləri" əsərində, Katib Çələbinin "Kəşfüz-Zünun..."unda, Xəlil Çiçəyin "Nemətullah ən-Naxçıvani və Təfsirdəki Metodu" (Van, 1995), Ramazan Bayhanın "Nemətullah b. Mahmud Naxçıvani və əl-Fəvatihul İlahiyyə vəl-Məfatihul-geybiyyə" Adlı Əsərinin Təhlili" (Kayseri, 1996), Yaşar Qurdun hazırladığı "Naxçivani və Təsəvvüfi Təfsiri" adlı doktorluq dissertasiyasında (Samsun, 1998) məşhur sufi alimi və onun təfsiri haqqında məlumat verilmişdir. Həmid Alqar haqqında bəhs etdiyimiz əsəri möhtəşəm bir üslub gözəlliyinə sahib bir təfsir olaraq yüksək qiymətləndirmişdir. Osmanlı təfsir tarixində təsəvvüfi təfsir məktəbinin nəzəri təsəvvüfi, fəlsəfi təsəvvüfi (İbnül-Ərəbi), işarətli təfsir (Kəmaləddin Kaşani) və s. istiqamətlərinin hamısının əlamətlərini özündə əks etdirən sufi təfsir müəlliflərinin ən bariz nümayəndələrindən biri kimi Məhəmməd Abay Baba Nemətullah Naxçıvaninin adını qeyd etmişdir: "Bu şəxsiyyətlər təfsirə dair əsərlərində təsəvvüfi anlayışın, demək olar ki, hər istiqamətini ifadə etmişlər. Bəzi təfsirlər təsəvvüfi hekayələrlə zənginləşdirilərək təfsirə fərqli bir məzmun qazandırılmışdır" [2, s. 254]. M.Abayın tərtib etdiyi "Osmanlı dövründə yazılan təfsir ilə bağlı əsərlər biblioqrafiyası"nda 403 təfsir əsərinin adı qeyd olunmuş, əlifba sırası ilə şəxsiyyətlər sıralandırıldığından 66-cı şəxs olaraq "Baba Nemətullah b. Mahmud ən Naxçıvani" adıyla məşhur alimin iki təfsirinin adı çəkilmişdir:

Haşiyə ala Təfsiri-Beydavi
Əl fəvatihül-İlahiyyə vəl ... [2, s. 264]

Təfsiri Daşköprüzadə "Əş-Şəkaikun-Numaniyyə" adlı əsərində "bu təfsirdə fəsahət və bəlağət incəlikləriylə birlikdə çox insanın dərk etməkdən aciz qalacağı incəliklər və həqiqətlər vardır" [19, s. 356] – şəklində dəyərləndirmişdir. Dosent Əli Can "Əbu Səid əl Xadiminin Risalətül Bəsmələ" adlı əsərində on səkkiz elmə görə bəsmələ yozumu" adlı geniş həcmli məqaləsində Baba Nemətullah Naxçıvaninin müqəddəs kitabımız Qurandakı hər surənin əvvəlində gələn bəsmələyə özündən əvvəl yaşamış müfəssirlərdən fərqli yanaşdığını xüsusi olaraq diqqətə çatdırmışdır: "Ancaq daha ziyadə işarətli təfsir məktəbinə mənsub olan İmam Quşeyri (ö. 465), Naxçıvani (ö. 920/1514) kimi alimlər, surə başlarında yer alan hər bəsmələni ayrı-ayrı təfsir edərək, bu mövzuda özünəməxsus bir yaxınlaşma ortaya qoymuşlar" [5, s. 3-4].

Əbdülhəmid Birışıq və Üfüq Hayta "Həyatı və əsərləriylə Əbdülməcid B.Şeyx Nasuh Tosyevi və Cəvahirül-Quran və Zəvahirül-Furkan" adlı təfsir risaləsinin elmi dəyəri" məqaləsində Osmanlı təfsirinə dair elmi tədqiqatlardan danışarkən Baba Nemətullahla bağlı müstəqil elmi tədqiqat əsərlərini, məsələn: Yaşar Qurdun "Nemətullah Naxçıvani və təsəvvüfi təfsiri" (8) və Ramazan Bayxanın "Nemətullah bin Mahmud Naxçıvani və "Əl fəvatihül-ilahiyyə vəl məfatihül-qeybiyyə" adlı əsərinin təhlili"ni [3] yüksək qiymətləndirmişdir [4, s. 345].

İbnül-Meylakın "İxlas surəsi təfsiri" adlı əsərində ilk növbədə işarətli təfsir anlayışına, onun yaranması tarixi, inkişafı, əsas xüsusiyyətlərinin nədən ibarət olmasına aydınlıq gətirilmişdir. Müəllifin qənaətincə, işarətli təfsir "təsəvvüf əhlinin qəlblərinə doğan mənaları ver-

mələriylə Qurani-Kərimi təfsir etmə üsulları arasına girmiş"dir [7, s. 13]. Kitabın giriş hissəsinin "Bəzi məşhur işarətli təfsirlər" adlı hissəsində təfsir məktəbində ibn-Ərəbi, Əbdürrəzzaq Kaşani, Sədrəddin Konevi, Molla Fənari, Yazıçızadə Məhəmməd Bican, Əlaəddin Səmərqəndi və s. məşhur alimlərin rolunu yüksək qiymətləndirən müəllif onların işarətli təfsirlərində Qurandan, hədislərdən gətirilmiş dəlillərə əsaslandıqlarını vurğulamışdır. Müəllif təfsir elminin zənginləşməsində əsas rol oynayan yeddi təfsirdən birinin də Nemətullah Naxçıvaninin "Əl Fəvatihül-İlahiyyə..." əsəri olduğunu qeyd etmişdir [7, s. 22].

Baba Nemətullah Naxçıvaninin "Hidayətül-İxvan" əsərini türkcəyə tərcümə edən Orxan Musaxanov bu nəşrdə görkəmli təfsir aliminin həyatı və digər əsərləri haqqında ətraflı məlumat vermişdir. Müəllif dəyərli alimin türk olduğuna dair dəlillər kimi "Hidayətül-İxvan" əsərində bəzi sözləri təhlil edərkən farsca və türkcə qarşılıqlarından bəhs etməsi [10, s. 13], yaşamış olduğu Naxçıvan, Təbriz və Ağşəhərin türklərin məskun olduğu bölgələr olması, İran mənbələrinin iranlıların xüsusilə adlarını qeyd etdiklərinə baxmayaraq, onun milli mənsubiyyəti məsələsinə toxunmamalarını qeyd etmişdir. Musaxanov N.Naxçıvaninin təhsilini Ağqoyunluların qüdrətli sultanları Uzun Həsən və onun oğlu Sultan Yaqub zamanında Naxçıvanda aldığını, 1487-ci ildə Təbrizdə ölüm döşəyində olan Xəlvəti şeyxi Dədə Ömər Rövşənini ziyarət etdiyini yazır. Onun qeydlərindən əsərin "Əl fəvatihül-ilahiyyə vəl məfatihül-geybiyyə" adı ilə İstanbulda "əl-Mətbəətül-Osmani" mətbəəsində 1325 (1907)-ci ildə iki cilddən ibarət olmaqla, 1999-cu ildə Dar Rikabi tərəfindən "Ət təfsirüs-sufi əl-kamil lil Quranil-Kərim" adı ilə Misirdə nəşr olunduğunu öyrənirik. Əsərin "Təqdim" hissəsində Orxan Musaxanov Nemətullah Naxçıvaninin təsəvvüf tarixində əvəzsiz mövqeyə malik olmasını onun "Əl fəvatihül-ilahiyyə" əsəri ilə əlaqələndirir: "Mühyəddin İbnül-Ərəbiylə olğunlaşmış irfani əsərlər qələmə almış olan Naxçıvaninin təsəvvüf tarixindəki yeri təsəvvüfi təfsirlər içərisində Quranın bütün ayətlərinin təsəvvüfi üsula görə şərh edildiyi – günümüzə gəlib çatan ilk təfsirə sahib olmasıdır. "Hidayətül-İxvan" adlı ərəbcə əsər isə Naxçıvaninin düşüncəsinə ümumi bir giriş mahiyyəti daşımaqdadır [10, s. 7]. Bu təqdimatda diqqəti cəlb edən digər bir məqam Nemətullah Naxçıvaninin həqiqətə qovuşmadan şeyxlik edərək gün ruzisi qazananları şiddətli tənqid etməsi və özünün də əsla maddiyyat, şöhrət, var-dövlət qazanmaq üçün deyil, əksinə yaradana və yoxsullara xidmət üçün bu yolu seçdiyidir: "Nemətullah tənqid tərəfi üstün olan bir mütəsəvvif olmaqla bərabər özünü şöhrətlərdən və adətlərdən uzaq tutan, hər zaman və hər hali-karda özlərinə təcəlli edən dərviş və yoxsulların xidmətçisi və ayaqlarının tozu olaraq vəsf edər" [10, s. 8]. "Nemətullah Naxçıvani. Hidayətül İxvan" adlanan nəşr Baba Nemətullah Naxçıvani haqqında Türkiyədə ilk irihəcmli tədqiqat əsəri kimi dəyərləndirilir: "Əlinizdəki tərcümə "Nemətullah Naxçıvaninin "Hidayətül İxvanı" – mətn, tərcümə və incələmə" başlığı altında yazdığım elmi-tədqiqat işimin bir hissəsidir. ...tədqiqat müddətində dəstək və təşviqlərini gördüyüm Ərcan Alkan bəyə şükranlarımı çatdırıram. Sayəsində Nemətullah Naxçıvani haqqında ilk dəfə müstəqil bir tədqiqat nəşr olunacaq" [10, s. 9].

Məhməd Rıhtımın "XV-XIX əsrlərdə Azərbaycanda Nəkşibəndiyyə sufiləri" [11, s. 5] adlı məqaləsindən Naxçıvaninin təfsirini Təbrizdə yazmağa başladığı, 1497-ci ildə tamamladığı aydın olur. 1499-cu ildə II Bəyazid zamanında Təbrizdən Anadoluya köçdüyünü, 1500-cü ildə Ağşəhərə yerləşdiyini və 1514-cü ildə vəfat etdiyini öyrənirik.

Süleyman Atəş "İşarətli təfsir məktəbi" adlı əsərinin "Baba Nemətullah Naxçıvani: həyatı və əsərləri" adlı bölməsində ilk olaraq, təbii ki, bu təfsirdən bəhs edir və müəllifin müqəddimədə bu təfsiri "Əl-fəvatihül-ilahiyyə vəl-məfatihül-qeybiyyə əl-mudıha lil-kəlimil-Quraniyyə vəl-hikəmil-furkaniyyə" adlandığını və bu adın türkcəyə tərcüməsini – "Qurani

Kərimin kəlimə və hikmətlərini açıqlayan qeybin açarları və ilahi fəthlər" şəklində etmişdir. S.Atəş təfsirin 17 səhifəlik müqəddiməsində Baba Nemətullahın vəhdəti-vücud fəlsəfəsi baxımından mütləq varlıq və onun kainat şəklində təcəllisi, kainatın elə məhz mütləq varlığın ad və sifətlərindən ibarət olduğu, zahirdə müxtəlif şəkillərdə görünən hər şeyin daxilində Haqqın olduğunu, kamil insanın da Rəhmanın surətinin aynası olduğunu qeyd etmişdir. Süleyman Atəş təfsirin quruluşu haqqında ətraflı məlumat vermişdir. Belə ki, hər bir surənin onun əsas məzmununu ifadə edən giriş (fatihə) və bu surədən çıxarılacaq nəticəni ifadə edən nəticə (xatimə) adlı hissələrdən ibarət olduğunu yazmışdır. İbrahim Görənər isə hər surənin 2 yox, 3 hissədən ibarət olduğunu qeyd edir: "Naxçıvani təfsirinə ümumi baxıldığında ilk planda hər surənin üç hissədən ibarət olduğunu görə bilirik: Birinci hissə, bəsmələnin hər surəyə görə fərqlilik təşkil edən izahıdır. İkinci hissə, məmzuc şərh (Bu üslubda mətnin ibarəsi ilə şərh bir bütünlük təşkil edəcək şəkildə birləşdirilmişdir – İ. G.) üslubuyla yazılmış olan şərh hissəsidir. Xatimə adını verdiyi son hissə isə surənin xülasəsidir" [6, s. 6]. İbrahim Görənər surə təfsirlərinin, əsasən, ikinci bölümünü daha çox yeniliyinə, novatorluğuna görə təqdir etmişdir: "...əsasən elmli bir yaxınlaşma ilə ayətləri izah edir. Seçdiyi üslubda ayət ilə izahını bir-birindən ayırmaqdan ziyadə, bir məna bütünlüyü içərisində ikisini birdən təqdim edən bir quruluşa sahibdir" [6, s. 14]. Dosent Əbdülbaqi Turan isə bu iki hissənin hər surədə tamamilə fərqliliyi xüsusiyyətinə görə təfsiri "həqiqətən də orijinal" [12, s. 66] bir əsər adlandırır və təfsirin diqqətəlayiq orijinal istiqamətlərini belə ümumiləşdirir: "1. Müfəssirimiz heç bir təfsirə müraciət etmədən bu təfsiri yazmışdır. 2. Quşeyridən sonra ilk dəfə hər surənin başındakı bəsmələyə müxtəlif və o surəyə uyğun mənalar vermişdir. 3. Hər suraəni o surənin ruhuna və mənasına uyğun olaraq bir girişlə başlamış və yenə o surəyə uyğun olan bir nəticə ilə bitirmişdir. 4.Bu təfsir, başdan-başa səclidir və son dərəcə axıcı bir üslubla yazılmışdır, ayətlərlə onların təfsirləri arasındakı insicam hər növ təqdirə layiqdir. 5.Və bu təfsir, məqbul Sufi təfsirlərinin müxtəsər, mötəbər və hətta şahəsər bir nümunəsini təşkil etməkdədir" [12, s. 75-76]. Ə.Turan Baba Nemətullah Naxçıvaninin belə bir təfsir yazmaqda məqsədinin elmində gizli qalanı izhar etmək olduğunu və oxucularından əsərə təfəkkür və təsəvvür gözüylə deyil, sadəcə ibrət gözüylə; dəlil və bürhan gözüylə deyil, yalnız zövq və vicdan (iç duyğu) gözüylə baxmalarını arzuladığını qeyd etmişdir. Həmid Alqar hər surənin başında yer alan bəsmələnin, o surənin ilk ayətiylə məna baxımından əlaqəsi olduğunu, Orxan Musaxanov "təfsirin dipnotlarla, bəzi izahlar verilməsiylə digər təfsirlərdən ayrıldığını, təfsirdə səcə əhəmiyyət verildiyini" [10, s. 19], Süleyman Atəş isə ayətlər arasındakı təfsirlərin uzun-uzun deyil, qısa cümlələrdən ibarət olduğunu qeyd etmişlər.

Alimin vücudi-mütləq və onun təcəllisi haqqındakı görüşlərinə isə Orxan Musaxanov təfsirə əsaslanaraq belə aydınlıq gətirmişdir: "Vücudi-mütləqin təcəllisində təkrarın olmadığını, Vücudi-mütləqə nisbətdə kainat və içindəki varlıqların yox hökmündə olduğunu, ayrıca ibarənin yetməzliyi səbəbindən Vücudi-mütləqin halının anladılamayacağını, bunu kəşf, zövq sahibi ariflərin dadaraq biləcəyini və bu bilmənin də nəhayətinin olmayacağını geniş bir şəkildə izah edər" [10, s. 18].

Yaşar Qurd "Nemətullah Naxçıvani və təsəvvüfi təfsiri" adlı əsərində bu təfsiri sadə dili və üslubu, axıcılığı və s. məziyyətləri səbəbindən və məna dərinliyinə görə "ümman" adlandırmışdır: "Qısa, axıcı və anlaşılan bir üslubla yazılan, təfərrüata varmadan Allahın məqsədinin nə olduğunu çarpıcı ifadələrlə ortaya qoyan, müfəssirin könlündən daşan rəbbani füyuzatın təşkil etdiyi bir ümman olan bu təfsir, yazıldığı gündən etibarən insanların təvəc-

cühünə səbəb olmuşdur" [8, s. 82]. Fikrinin təsdiqi olaraq dəyərli alim əsərin Türkiyənin seçilmiş kitabxanalarında müxtəlif zamanlarda yazıya alınmış 7-dən çox nüsxəsinin olmasını göstərmişdir.

Əli İhsan Türcanın türk dilinə tərcümə etdiyi "Naxçıvani Təfsiri" 3 cilddən ibarətdir. Bu tərcümə nəşri haqqında professor Xəlil İbrahim Şimşək yazdığı resenziyada Kayseridə imam-hatif kimi fəaliyyət göstərən Əli İhsan Türcanın öz təşəbbüsüylə bu son dərəcə çətin və illər tələb edən işə girişdiyini və şəxsi imkanlarıyla əsərin tərcüməsini nəşr etdirdiyini öyrənirik. Professor Xəlil İbrahim Şimşəyin və professor Dilavər Gürərin fikrincə, Nemətullah Naxçıvaninin təfsirində 6 cilddə türk dilinə tərcümə olunmuş Əbdulqadir Geylaninin (ö. 1166) təfsirində olan bir çox çatışmazlıqlar təshih edilmişdir [9, s. 208].

Yuxarıda adlarını qeyd etdiyimiz və etmədiyimiz bir çox türk alimləri müvafiq araşdırmalarında müqəddəs dini kitaba dair təsəvvüfi təfsir yazan naxçıvanlı alim Baba Nemətullah Naxçıvaninin həm şəxsiyyətini, həm də əsərlərini çox yüksək qiymətləndirmişlər. Qısa adı "Əl Fəvatihül-İlahiyyə..." olan bu təfsirin özündən əvvəlki heç bir təfsirə əsaslanmadan yazılması, özünəməxsusluğu, orijinallığı, bədii, səcli, yəni qafiyəli bir elmi əsər olması, Quranın bütün surələrini əhatə etməsi, quruluşu etibarilə mükəmməlliyi və s. məziyyətləri ilə Türkiyə alimlərinin diqqətini cəlb etmişdir. Maddiyyatı deyil, mənəvi kamilliyi, yüksək təbəqələrə deyil, yoxsullara, kimsəsizlərə xidmət yolunu seçən, hər zaman Allahı anmağı özünün mənəvi borcu hesab edən Nemətullah Naxçıvani bənzərsiz bir şəxsiyyətdir və onun qələmə aldığı əsərlər bu dünya durduqca müraciət olunan dəyərli mənbələrdən olaraq qalacaqdır.

ƏDƏBİYYAT

1. Nəcəf Ə. "Gizlənən dərviş" – Baba Nemətullah Naxçıvani // http://xalqqazeti.com/az/-news/social/39586 13.11.2013.
2. Abay M. Osmanlı Döneminde Yazılan tefsir ile İlgili Eserler Bibliyografyası / Divan, 1999/1, s. 249-303.
3. Bayhan R. Nimetullah b. Mahmut Nahçıvani ve "el Fevatihül-İlahiyye vel Mefatihül-Gaybiyye" adlı Eserinin Tahlili (yüksek lisans tezi). Erciyes Universitesi. Sosyal Bilimler Enstitüsü, 1992.
4. Birışık A., Hayta U. Hayatı ve Eserleriyle Abdülmecid B. Şeyh Nasuh Tosyevi ve Cevahürül-Kuran ve Zevahirül-Furkan" adlı Tefsir Risalesinin İlmi Değeri // Uludağ Üniversitesi İlahiyat Fakultesi Dergisi, c. 16, № 2, s. 343-367.
5. Can A. Ebu Said el Hadimi`nin Risaletü`l Besmele Adlı Eserinde On Sekiz İlim Dalına göre Besmele Yorumu // Dicle Üniversitesi İlahiyat Fakültesi Dergisi, c. 14, № 1, 2012, 362 s.
6. Görener İ. İlmi Cazibe Yurdu Osmanlı'da Çok Yönlü Bir Müfessir: Nimetullah-i Nahcuvani. KTA03-ibrahim-gorener-pdf
7. İbnül-Meylak. İhlas suresi tefsiri. Mart, 2015, Çelik yayınevi. (Tercüme edeni Dr. Betül Güçlü) 45 s. -hlas-suresi-tefsiri-2542015-143755-31.pdf
8. Kurt Y. Nimetullah Nahçıvani ve Tasavvüfi Tefsiri (Basılmamış doktora tezi). 19 Mayıs Universitesi. Sosyal Bilimler Enstitüsü. Samsun, 1998.
9. Şimşek H.İ. Nahçivani Tefsiri // Hitit Üniversitesi İlahiyat Fakültesi Dergisi, 2014/1, c. 13, № 25, s. 207-21.

10. Nahçivani N. Hidayetül-İhvan (Sufilerin Kelamcıları ve Felsefecileri Eleştirisi). (Tercüme Orkhan Musakhanov). İstanbul: İlk Harf Yayınevi, 2012, 40 s. Hidayetul-Ihvan-1692013-144929-980.pdf
11. Rıhtım M. XV-XIX. Asırlarda Azerbaycan`da Nakşıbendiyye Sufileri // Qafqaz Universiteti Jurnalı, Bakı, 2008, № 22.
12. Turan A. Baba Nimetullah Nahçıvani ve "El-Fevatihül-İlahiyye vel-Mefatihül-gaybiyye. Baba Ni'metullahNahcivaniveel-Fevatihul-_lahiyyevel-Mefatihul-Gaybiyye__simli Tefsiri[#210789]-184711.pdf
13. Meşhurların son sözleri http://www.ehlisunnetbuyukleri.com/Menkibeler/Meshurlarin-Son-Sozleri/Detay/Baba-Nimetullah-Nahcivani/1647
14. Baba Nîmetullah Nahçivânî http://kitap.mollacami.com/evliyalar/konu-4024.htm

AMEA Naxçıvan Bölməsi
E-mail: orujovaaygun82@gmail.com

Aygun Orujova

TURKISH SCIENTISTS ABOUT BABA NEMATULLAH NAKHCHIVANI AND HIS INTERPRETATION OF THE KORAN

Scientist and interpreter Baba Nematullah Nakhchyvani was born in the middle of the 15th-end of the 16th centuries in Nakhchivan, one of the ancient scientific and cultural centers of Azerbaijan. The heritage of Nakhchivani, who was an example of morality, virtue, a pharos of science and education, hasn't been enough studied in Azerbaijan. Baba Nematullah Nakhchivani and his Sufi interpretation of the Holy Book are mentioned in the "Encyclopedia of Islamic scholars", "Islamic modern encyclopedia", in the relevant volumes of "Ottoman authors", Turkish scientists such as Omar Reza Kahhal, Suleyman Atesh, Abdulbaki Turan, Najdet Tosun, Bursaly Mahmoud Tahir, Katib Chelebi, Khalil Chichek, Ramazan Bayhan, Yashar Kurd, Hamid Algar considered in detail the merits of this work in their researches.

The paper concludes that many Turkish scientists highly appreciated in their research both the personality and the works of Nakhchivan's scientist Baba Nematullah Nakhchivani, who had written comments to the Holy Book. The interpretation of Nakhchivani has attracted the attention of Turkish scientists with such advantages as writing without reference to previous comments, uniqueness, originality, artistry, rhyming, but at the same time scientific character of the work, coverage of all suras of the Koran, perfection of the structure and so on.

Keywords: *commentary, Sufism, sura, Koran, interpretation, rhyme.*

Айгюнь Оруджова

ТУРЕЦКИЕ УЧЕНЫЕ О БАБА НЕМАТУЛЛАХЕ НАХЧЫВАНИ И ЕГО ТОЛКОВАНИИ КОРАНА

В середине XV-конце XVI веков в Нахчыване, одном из древних научных и культурных центров Азербайджана, родился ученый-толкователь Баба Нематуллах Нахчывани. В Азербайджане мало исследовано наследие Нахчывани, который являлся примером нравственности, добродетели, светочем науки и просвещения. Баба Нематуллах Нахчывани и его суфистское толкование священной книги упоминаются в «Энциклопедии исламских ученых», «Исламской современной энциклопедии», в соответствующих томах «Османских авторов», турецкие ученые Омар Рза Каххал, Сулейман Атеш, Абдулбаки Туран, Наджет Тосун, Бурсалы Махмуд Тахир, Катиб Челеби, Халил Чичек, Рамазан Байхан, Яшар Курд, Хамид Алгар подробно рассматривали достоинства этого труда в своих исследованиях.

В статье делается вывод, что многие турецкие ученые в своих исследованиях высоко оценивали как личность, так и труды нахчыванского ученого Баба Нематуллаха Нахчывани, который написал комментарии к священной книге. Толкование Нахчывани привлекло внимание турецких ученых такими достоинствами, как написание без ссылок на предыдущие толкования, самобытность, оригинальность, художественность, рифмованность, но одновременно и научность работы, охват всех сур Корана, совершенство структуры и так далее.

Ключевые слова: *комментарий, суфизм, сура, Коран, толкование, рифма.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 16.06.2019
Son variant 16.08.2019

UOT:82 (100)

NƏRGİZ İSMAYILOVA

HÜSEYN İBRAHİMOV ROMANLARINDA ŞƏRQ VƏ QƏRB VƏHDƏTİ ("ƏSRİN ONDA BİRİ" VƏ "BÖHTAN" ƏSASINDA)

Müstəqillik qazandıqdan sonra Azərbaycan Avropa mədəniyyətinə inteqrasiya ilə yanaşı, dünya mədəniyyətinin yaratdığı qiymətli nə varsa hamısından faydalanmağa, milli və mənəvi sərvətimizi bu nailiyyətlərlə zənginləşdirməyə çalışır. Naxçıvanda da milli mədəniyyətin bərpası ilə paralel şəkildə Şərq və Qərb mədəniyyətinə inteqrasiya meylləri görünür. Naxçıvan ədəbi mühitinin yetişdirdiyi tanınmış ziyalı və əhəmiyyətli romanlar müəllifi kimi tanınan Hüseyn İbrahimov Naxçıvan ədəbi mühitində özünəməxsus yer tutmağı bacarıb. Əsasən romanlarında yer alan Şərq və Qərb məsələlərinə, fərqli baxışbucağı ilə diqqəti çəkən Hüseyn İbrahimovun yaradıcılığı Naxçıvanda yaranan ədəbiyyatda yer tutan bu iki böyük qütbün təhlili məsələsində vacibli mərhələdir. Haqqında genişşaxəli tədqiqatlar aparılmasa da, H.İbrahimov yaradıcılığında yer alan romanlar dövrün mənzərəsini hiss etmək baxımdan son dərəcə əhəmiyyətli və aktualdır. "Əsrin onda biri", "Böhtan" romanları isə bu aspektdən H.İbrahimov yaradıcılığında xüsusi yer tutur. Hər iki romanda müəllif Şərq təmayülləri, mövzu və meylləri üzərində Qərb ənənələri ilə paralel şəkildə əsərin süjet xəttini inkişaf etdirməyi bacarıb. Hüseyn İbrahimov romanları bu kontekstdə Naxçıvanda yaranan ədəbiyyatda yer alan Şərq və Qərb meyllərini təhlil və tədqiq etmək baxımından aktualdır.

Açar sözlər: *Naxçıvan ədəbi mühiti, müqayisə, Şərq, Qərb, Hüseyn İbrahimov, roman.*

Avropa və Asiyanın qovuşuğunda yerləşən Azərbaycan hər iki qitədən həm maddi, həm də mənəvi cəhətdən təsirlənməyə bilməzdi. Bu səbəbdən mədəniyyətimiz qədim dövrlərdən Şərq mədəniyyəti üzərində inkişaf etmişdisə də, XIX əsrdən etibarən ölkəmizdə ədəbiyyatımızı və ictimai fikri Qərb ənənələri ilə sintez şəklində inkişaf edən görürük. Azərbaycan tarixinə, ədəbiyyatına, elm və mədəniyyətinə bir çox dahi şəxsiyyətlər bəxş etmiş Naxçıvan ədəbi-ictimai mühiti, sanballı liderlər, elm xadimləri, yazıçı və şairlər, ədəbiyyatşünaslar yetirmişdir. Həmin şəxsiyyətlər eyni zamanda Naxçıvan mühitini formalaşdırmış, siyasi fikrin, ədəbiyyat və mədəniyyətin inkişafında böyük xidmətləri ilə yadda qalmışlar. Onların əsərlərində Şərqin ədəbi-bədii düşüncə tərzi qorunmaqla yanaşı, Qərbin də bəzi ənənələri öz əksini tapmışdır. Naxçıvan ədəbi mühitində yaşayıb-yaradan görkəmli simalar da Qərb mədəniyyəti ilə tanış idilər. Bununla birlikdə müxtəlif vaxtlarda Şərq və Qərb ölkələrinin təmsilçiləri də Naxçıvanda yaşayıb işləmiş, ədəbi mühitdə müəyyən yer tutmuşlar. Beləliklə, Naxçıvanda Şərq tipli mədəniyyətlə birlikdə, Qərb mədəniyyəti də formalaşmağa başlamışdır.

Naxçıvan ədəbi mühitində yazıb-yaradan gözəl romanlar müəllifi kimi tanınan Hüseyn İbrahimov yaradıcılığında Şərq və Qərb ənənələrini paralel şəkildə inkişaf etdirən tanınmış qələm sahiblərindəndir.

"Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsində keçən təhsil illəri gənc jurnalist və yazıçı üçün ideya-mənəvi təkamül və yaradıcılıq səriştəsi baxımından xüsusi məktəb kimi çox əhəmiyyətli olmuşdur"(6).

"Müxtəlif dövlət vəzifələrində çalışmaq isə Hüseyn İbrahimova cəmiyyətin "hamı üçün görünməyən" tərəflərini də görməyə, öyrənəməyə imkan vermişdir.

Hüseyn İbrahimov ədəbi fəaliyyətə 1944-cü ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunan "O, düşməndə qoymadı anasının qanını" adlı şeirlə başlamışdır.

Çoxşaxəli nəsr yaradıcılığı ilə yanaşı, o hekayə janrına da bütün yaradıcılığı boyu müra-

ciət etmişdir. "Şirin xatirə", "Qumralın məktubları", "Təmiz adam", "Kənd həsrəti", "Arxayın Məmməd", "Madam Heruta", "Qadın nəfəsi", "Vicdan səsi", "Köhnə onluq", "Aləmzər" hekayələri son dərəcə maraqlıdır. Yığcamlığı ilə seçilən hekayələri müxtəlif dillərə tərcümə edilmiş, Türkiyədə nəşr olunmuşdur.

Onun "Günəş doğan yerdə" romanı sovet hakimiyyətinin qurulması uğrunda mübarizəyə həsr olunsa da, ideologiya ilə müqayisədə burada həyata dair məlumatlara daha çox diqqət çəkilmişdir. Bu barədə akademik İsa Həbibbəyli yazır: "Günəş doğan yerdə" romanını nəzərə almasaq, yaradıcılığının 40 ildən artıq dövrünü əhatə edən sovet hakimiyyətinin heç bir əlamətdar hadisəsi, tarixi günü və ya siyasi şəxsiyyəti haqqında onun bədii əsəri yoxdur. Hətta sovet hakimiyyətinin qurulması uğrunda mübarizəyə həsr olunmuş "Günəş doğan yerdə" romanında da müqayisədə həyat materialı ideologiyanın payından çoxdur. Əsərdəki kəşməkeşli taleyə malik olan igid, məğrur, keçid dövrünün çətinliklərini yaşayan, "bir igid bir eli saxlar" əqidəsinə sadiq olan Qüdrət obrazı və süjetdə geniş yer tutan qaçaqçılıq hərəkatının təsviri romana geniş və təbii həyat nəfəsi gətirir. Beləliklə, bədii nəsrimizin sərt rejim çərçivəsində ideoloji tələblərin məngənəsindən çıxıb həyata, insanlara, mənəviyyata yönəlməsi, yaxınlaşması və dirçəlişində Hüseyn İbrahimovun da özünəməxsus xidməti və zəhməti vardır" [2, s. 3].

Şərq əsasən İslam dini üzərində köklənən mədəniyyət münasibətlərindən ibarətdir. Bu səbəbdən Şərqi İslam dinindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Qərb dövlətləri tarixən Şərqi öyrənəndə İslam dininə rəğbətlə yanaşmamış və bu din üzərində ərsəyə gələn mədəniyyətə xor baxmışdır. Doğrudur, alman tədqiqatçıları bunun əksinə dair bir çox faktlarla çıxışlar etsələr də, indinin özündə belə Şərq və Qərb, islam və xristianlıq kimi anlayışlar dünyanı bir çox baxımdan hələ də məşğul etməkdədir.

Azərbaycanda Şərq ənənələrinə hər zaman xüsusi maraq olmuşdur. Həmçinin bu səbəbdən mühitdə yaranan memarlıqda, musiqidə, ədəbiyyatda da Şərq ənənələrinin izlərini asanlıqla tapmaq mümkündür.

Sovet dövründə isə ictimai-siyasi həyatla birlikdə, mədəniyyət sahəsi də əsaslı dəyişikliklərə məruz qaldı. Regionda formalaşan hər sahədə Şərq ənənələrinin əleyhinə siyasət yeridildi. Milli dərkin yox edilməsinə xidmət edən bu siyasət, daha çox Qərb mədəniyyətinin ölkəmizdə inkişaf etdirilməsinə kömək etdi. Repressiya siyasəti, mühacirlər və s. bu kimi bir çox faktorlar Sovet Rusiyasının Azərbaycanda mədəniyyətə zərbə vurmaq baxımından nə qədər amansız addımlar atdığının sübutudur. Azərbaycan milli ədəbi, mədəni mentalitetini, azərbaycançılıq ideallarını yorulmaq bilmədən qorumağa çalışan, ləyaqətlə təmsil və təbliğ edən, sovet imperiyası məngənəsində sıxılan ziyalılarımız isə Sovet hökuməti tərəfindən amansızca təqib edildilər.

Azərbaycan xalqının, xüsusən ziyalıların başına gətirilən müsibətlərə, həmçinin şər imperiyası adlandırılan Sovet İttifaqında yaşayan digər xalqların nümayəndələrinə qarşı kütləvi terror aktına dərin etiraz və hiddət hissi mövcud idi. 1917-ci ildə bolşeviklərin silah gücünə hakimiyyəti zəbt etdikdən sonra ölkə miqyasında aparılan təqiblər, həbslər, mədəniyyət, ədəbiyyat sahəsinə də ciddi zərbələr vurdu. Bu etiraz o zaman fəaliyyət göstərən sənətkarların əsərlərində də öz əksini tapmışdır.

Bu barədə Hüseyn İbrahimov "Böhtan" romanında yazır: "Onun "cinayət" işini araşdırıb ona hökm verənlərin imzaları ilə tanış olarkən dəhşətə gələn Cavid, bir an fikrə gedib, taleyini həll edənlərin soyadlarını yadına salmışdı [1, s. 162]: Klimençiç, Koqan, Sorokin, Elizarova.

Sarkisyan, indi də Markeyev… Görəsən daha kimlər?... Yazıqlar olsun sənə mənim sahibsiz millətim" [3, s. 62].

Sadəcə bu sətirlər belə o dövrdə oynanan gözlənilməz oyunların, ağır siyasi rejimin daxili simasını göstərmək üçün əyani sübutdur. Həmin vaxtlar Sovet hökumətinin təkidi ilə ədəbiyyata da ideoloji motivlər gətirilirdi. Bu isə ədəbiyyatın sənətə xidmət etmək funksiyasını əlindən aldı.

Hörmətli tədqiqatçımız Hüseyn Həşimli bu barədə qeyd edir: "Bu orijinal quruluşlu və maraqlı təhkiyə tərzinə malik olan roman Hüseyn İbrahimovun bütövlükdə 30-cu illər repressiya qurbanı olan sənət adamlarına, o cümlədən Hüseyn Cavidə, ədəbi ehtiramının çox dəyərli təcəssümüdür. Burada biz həm Cavidin şəxsi taleyini, faciəsini sənət dili ilə müşahidə edirik, eyni zamanda Hüseyn İbrahimov qüdrətli qələmi ilə bütövlükdə o illərin sosial-ictimai hadisələrini uğurla çatdıra bilib" [7].

Tarixi və müasir mövzularda yazılmış bir sıra romanların müəllifi kimi tanınan Hüseyn İbrahimov ədəbi yaradıcılığa 1940-cı illərin əvvəllərində şeirlə başlamışdır. İlk irihəcmli əsəri olan "Sabahın sorağında" (1966) romanı müəllimlərin həyatından bəhs edir. Romanda mənəvi kamilliyin qələbəsi təsdiq və tərənnüm olunur. Onun "Günəş doğan yerdə" (1976) romanında 1918-1919-cu illərdə Naxçıvanda baş verən hadisələrdən, "Bahar yağışı" (1983) romanında isə müasirlərimizin həyatından, "Əsrin onda biri" (1987) romanında Əcəmi Naxçıvani və Atabəylər dövlətindən, "Böhtan" (1998) romanında Hüseyn Caviddən, "Ölməz mahnılar" (1963) kinopovestində Üzeyir Hacıbəyovun ömür və sənət yolundan bəhs edilir.

Xalq yazıçısı Hüseyn İbrahimovun "Əsrin onda biri", "Böhtan", "Sabahın sorağında", "Bahar yağışı" romanları və povestləri müasir Azərbaycan nəsrinin nailiyyətlərindəndir. 100-ə yaxın hekayə, 8 povest müəllifi olsa da, o, əsasən istedadlı roman ustası kimi tanınır.

Əsərlərində əsasən Azərbaycan həyatını və Şərq mühitini təsvir edən sənətkar bəzən də dünyada baş verən hadisələrə diqqət çəkmişdir. "Əsrin onda biri" (1987) romanında Eldənizlər dövlətinin güclü hökmdarlarından olan Cahan Pəhləvanın Naxçıvanda keçirdiyi günlərə diqqət çəkən yazıçı burada memar Əcəmi surətini də yaratmışdır. Əsərdə baş verən hadisələrə Əcəmi vasitəsiylə münasibət bildirən ədib tarixi həqiqətlərə sadiq qalmamış, öz təxəyyülünə arxalanmışdır. Romanda ərəb sözlərindən istifadə edən sənətkar hadisəyə Hatib ibn Mübarəkin nitqi vasitəsiylə yekun vurur: "Əbubəkr oğlu bir cəhəti unutmamalıdır ki, Şərq aləmi bütövlükdə, o cümlədən, memarlığın tərəqqisində də xilafətə və islamiyyətə borcludu… [4, s. 60].

"Əsrin onda biri" romanından bir parça 1972-ci ildə "Şərq qapısı" qəzetində dərc olunmuş, əsərin özü isə tam halda 1987-ci ildə nəşr edilmişdir. Yazıçı əsərdə XII əsrin gərgin dramatik vəziyyətlərini, mədəni hadisələrlə zəngin olan on ilin (1175-1185) müasirlik baxımından əhəmiyyət kəsb edən səciyyəvi hadisələrini romanın əsas bədii materialına çevirmişdir. Atabəy Cahan Pəhləvanın hakimlik dövrünün ibrətamiz tarixi-siyasi hadisələri və dünya memarlığının şah əsərlərindən sayılan məşhur "Məminə xatın" məqbərəsinin yaradılması əsərdə öz geniş bədii əksini tapmışdır.

Romanın bir çox yerində hadisələrlə əlaqəli olaraq ərəb-fars atalar sözləri və məsəlləri işlədilib. Qureyş aqilləri deyiblər: "Qaddir fil əməl tunci minəzzəlal" (İşini ehtiyatlı gör ki, səhv etməyəsən) [4, s. 47], "La tərkəb farasə ğayrikə" (Özgə atına minən tez düşər) [4, s. 123]. Yaxud hökmdarın qızı Cəlaliyyənin dilindən deyilən "Əl kitəb nemələnis fi səatil vəhdə" (tək olduqda ən yaxşı yoldaş kitabdır) [4, s. 107], kimi ərəb atalar sözlərindən başqa, "Ma hiç, cahan hiç" (Biz də heçik, dünya da heç) [4, s. 110] fars dilindəki atalar sözlərindən də istifadə etmişdir.

Romanda "Xufdən söhbəti" adlı parçada belə bir hissə var: "Naxçıvan şəhərinin rəisi içəri girəndə baş şeyx Hatib ibn Mübarək başdan-ayağa xalı döşənmiş otağın ortasında əyləşib, qarşısındakı rəhilin üstünə qoyulan qalın kitabın növbəti vərəqini əlfəcinlə çevirdi, onu öpüb gözlərinin üstünə qoydu, sonra öz-özünə "Əşədü ənna lailahə illəlah, əşədü ənna Mühəmmədən rəsul allah" deyib pıçıldadı. O, rəisə özünü elə göstərmək istədi ki, guya Quran oxuyur. Əslində isə rəhilin üstündəki "Veys və Ramin" idi [1, s. 15]. F.Gurgani "Veys və Ramin" poemasını 1104-1105-ci ildə (h. 446) yazmışdır. Əsərin mövzusu İslam dinindən qabaq, parflar dövründə İran feodal-zadəgan hakim dairələrinin əxlaq və həyat tərzinə aiddir. Aşiqanə mövzuda yazılmış "Veys və Ramin" poeması pəhləvi dilində olan eyni adlı bir nəsr əsərinin tərcüməsindən nəzmə çəkilmişdir. Lakin, əsərin pəhləvi dilindən F.Gürgani yaxud başqası tərəfindən tərcümə olunması aydın deyildir [5, s. 19].

Nümunədən göründüyü kimi, Hüseyn İbrahimov "Əsrin onda biri" romanında müsəlman dünyasının reallıqlarından söz açmış, Şərq ədəbi nümunələrindən geniş şəkildə istifadə etmişdir. Əsərdə "Sizdə Hatəm səxavəti var, hökmdar [4, s. 310] sözləri ilə Şərqdə səxavət rəmzi kimi tanınan Hatəm, "Deyirlər Şərqdə təbabətin tacı sayılan "Əlqanun fittibb" kimi kitab bağlayan… min bir dərdin əlacı yollarını göstərən… Hüseyn Əbuləli öz dərdinə dərman tapmadı" [4, s. 334] sözləri ilə isə Avropada Avitsenna adı ilə tanınan böyük alim, həkim, şair, filosof dünya mədəniyyəti xəzinəsini zənginləşdirən Əli Hüseyn ibn Abdulla ibn Sina xatırlanır.

Romanda yer alan başqa hissədə isə Hüseyn İbrahimovun Şərqə dair düşüncələri yer alır: "Ətalət Şərqliləri min illərlə geriyə atan ətalət! Bir sıra böyük-böyük kəşfləri şərqlilərin əlindən alıb səxavətlə qərblilərə bəxş edən ətalət!... [4, s. 327].

Hüseyn İbrahimovun sonuncu romanı dahi mütəfəkkir, görkəmli dramaturq Hüseyn Cavidin kəşməkeşli taleyinə həsr olunmuş "Böhtan" romanıdır. Əsəri 1956-cı ildə yazılmağa başlasa da, 30 ildən sonra yazıçı ona yenidən qayıtmış, 1987-88-ci illərdə tamamlamışdır. Roman kitab şəklində 1998-ci ildə nəşr olunmuşdur. Əsər Hüseyn Cavidin həyatının müxtəlif məqamlarını əks etdirən 7 şərti nağıldan ibarətdir. Bu nağıllarda şairin doğulduğu Naxçıvan mühitinin özünəməxsus çalarları, dindarlar və ziyalılar aləmi, gələcək sənətkarın uşaqlıq və gənclik illəri, həyatının Təbriz və İstanbul dövrü, Tiflislə bağlılığı, yaradıcılığının Bakı dövrü, o cümlədən sürgün illərinin məşəqqətləri və həyatının son günləri təbii, real boyalarla təsvir olunmuşdur. Cavidin məhkumluq həyatından bəhs edən romanda, bəzən xəyali olaraq onun yaşadığı həyat canlandırılırvə bu romana xüsusi gözəllik qatır. Lakin Hüseyn İbrahimovun əsərlərində tarixə sadiq olmamaq meyli romanlarının təsir gücünü, fikrimizcə, azaldır.

"Böhtan" romanında Cavidin Sibirdəki məhkum yoldaşlarının müxtəlif millətlərin nümayəndəsi olması priyomu isə son dərəcə maraqlıdır. Bu yolla müəllif Cavidin dünya ölkələri haqqındakı düşüncələrini, baxış bucağını sərgiləyə bilib. Onun kalon dostu Aleksandr (İsgəndər), gürcü balası və şair belə obrazlardandır. 4 illik məhkumluq həyatında belə qətiyyətini itirməyən Cavidin "İblis" faciəsinin bir hissəsini məhkumlar üçün hazırlanan tədbirdə oxunması onun ən çətin günlərdə belə mübariz xarakterini ifadə edir. Cavid millətinin başına bu cür fəlakətləri gətirənləri "İblis" adlandırmaqdan çəkinmir. Hələ romanın əvvəlində Cavidin dilindən verilən aşağıdakı sözlər son dərəcə ibrətamizdir: "Lütsiferlər, Mefistofellər, Demonlar, Qanburunlar, İblislər nə qədər ki, var bəni-adəm rahat olmayacaq… Bu gün Şərqdə abidlik edən, yarın Qərbdə rahiblik edir… Zəmanə yaman xarab olub" [3, s. 343].

Göründüyü kimi, burada müxtəlif millətlərin nümayəndələrinin yaratdığı iblis obraz-

larına diqqət çəkilib, bu üsulla millətlərin bir-birinin başına açdığı fəlakətlər qınaq hədəfinə çevrilib. Hüseyn İbrahimov bu romanda Şərqin dahi filosoflarının, şairlərinin, peyğəmbərlərinin, dastanlarının adını çəkməklə ərəb və fars dillərində olan atalar sözləri işlətməklə, Şərqə olan bələdliyini nümayiş etdirib. Həm "Əsrin onda biri", həm də "Böhtan" romanında istifadə olunan bu kimi nümunələr yazıçının Şərq təfəkküründün bir parçasıdır.

Hüseyn Cavidin barak yoldaşı Aleksandrın dili ilə verilən "Bu nağıl deyəsən Şərq nağılları kimi çox uzun olacaq... "Min bir gecə" nağılları kimi…" [3, s. 344] ifadəsi Qərbin Şərqi tanıdığına diqqət çəkmək üçün vurulan eyhamdır.

Bundan başqa, Hüseyn İbrahimov riyakar, öz dinini bilməyən mollaları tənqid edərək İslam dinini düzgün qavramayanlara ironik dillə gülmüşdür. Şərqin geriləməsində ən böyük günahı mollalarda, xalqı cəhalətə sürükləyən İslama aid olmayan lakin İslam başlığı altında təbliğ olunan düşüncələrdə, ehkamlarda görən yazıçı buna Cavidin diliylə cavab verməkdən çəkinməmişdir: "Allahu Əkbər, bismillah rəhman rəhim. Hüvəllahü əhəd, allahüsəməd"… öz-özümə gülümsəyib fikirləşdim: "Gör ha, adını molla qoyub, dırmaşıb şərəfəyə, özü də sözləri düz demir… Ay molla "bismillah rəhman rəhim" yox "Bismillahir-rəhmanir-rəhim" [3, s. 363]. Bu ifadələrdən aydın olur ki, ziyalıları din düşməni kimi qələmə verən mollalar heç də dinimizi ziyalılarımız qədər mükəmməl bilmirdilər.

Hüseyn İbrahimov çox güman ki, cəmiyyətdə də bu cür hallarla rastlaşıb, özündən əvvəlki qələm yoldaşlarının ənənəsinə sadiq qalaraq tarixi roman fəndi ilə zəmanəsində hələ də qalan bu cür geriliyi tənqid atəşinə tutub. Böyük Mirzə Cəlilin dediklərini bir daha deyə bilib.

Hüseyn İbrahimov romanda fars-ərəb sözlərindən istifadə etməklə birlikdə Tofiq Fikrətin ədəbi irsindən nümunələr də vermiş, dahi Qərb yazıçısı Dostoyevskinin "Alçaldılmış və təhqir olunmuş insanlar" romanının da adını çəkmişdir. Hüseyn İbrahimovun Şərqə rəğbətinin daha çox ön plana çəkildiyi romanlarında Qərb epizodik çərçivəyə sığdırılıb.

Nəticə olaraq qeyd edək ki, Hüseyn İbrahimovun xüsusən tarixi keçmişimizdən bəhs edən əsərləri oxucular tərəfindən həmişə rəğbətlə qarşılanmış, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması işində əhəmiyyətli rol oynamışdır. Yazıçının yaradıcılığında Azərbaycan mədəniyyətinin görkəmli simalarının işıqlı obrazları parlaq bədii təcəssümünü tapmışdır. Tanınmış yazıçı yarım əsrdən artıq bir dövrü əhatə edən səmərəli ədəbi fəaliyyətinin məhsulu olan bu əsərləri ilə ədəbiyyatımızın inkişafına layiqli töhfələr vermişdir. Şərq və Qərb vəhdətinin xüsusi priyomlarla paralel vəhdəti Hüseyn İbrahimov yaradıcılığın bədii dəyərini yüksəldərək, komparativsitik təhlillər aparmağa imkanlar yaradır. Bir çox meyili, təmayülü, mövzunu və konteksti yaradıcılığında birləşdirən qüdrətli söz ustadının əsərləri xarici dillərə də tərcümə olunmuşdur.

ƏDƏBİYYAT

1. Axundlu Y.İ. Tarixi roman yeni mərhələdə. Bakı: Maarif, 1998, 13 s.
2. Həbibbəyli İ.Ə. Hüseyn İbrahimov – 90. Şəxsiyyətin və sənətin vəhdəti. "Ədəbiyyat" qəz., Bakı: 2009, 12 iyun, 3 s.
3. İbrahimov H.M. Böhtan. Bakı: Şərq-Qərb, 1998, 286 s.
4. İbrahimov H.M. Əsrin onda biri. Bakı: Avrasiya PRESS, 2005, 384 s.
5. Beqdeli Q. Şərq ədəbiyyatında Xosrov və Şirin mövzusu. Bakı: Elm, 2000, 84 s.

6. http://www.anl.az/down/meqale/edebiyyat/edebiyyat_iyun2009/82396.htm
7. http://www.kepeztv.az/news/id/3892

AMEA Naxçıvan Bölməsi
E-mail: ismayilovanargis@gmail.com

Nargiz Ismailova

THE UNITY OF EAST AND WEST IN HUSSEIN IBRAHIMOV'S NOVELS (ON THE BASIS OF "A TITHE OF THE CENTURY" AND "SLANDER")

Since Azerbaijan gained independence, besides integrating to European culture, it began to profit from everything belonging to the world culture which is valuable. It tries to enrich our national and spiritual wealth by these achievements. As well as the restoration of national culture, the integration trends towards East and West problems are observed in Nakhchivan. Huseyn Ibrahimov who is a well-known intelligent of Nakhchivan literary environment and popular as the author of significant novels has a specific place in Nakhchivani literary circle. Huseyn Ibrahimov's creativity is distinguished for its distinctive thinking to East and West problems in his novels. But his creativity is a significant level in the problem of analyzing the two great poles. Although H.Ibrahimov's creativity was not studied in detail, his novels are unreplaceable and topical to feel the scenery of the period. "A tithe of the century" and "Slander" novels have a special place from this aspect in H.Ibrahimov's creativity. In both novels, the writer succeeded in developing the plot of the work parallel with Western traditions over Eastern traditions, themes, and trends. In this context, Huseyn Ibrahimov's novels are urgent from the viewpoint of analysis and investigation of East and West trends that exist in the literature created in Nakhchivan.

Keywords: *Nakhchivani literary environment, comparison, East, West, Huseyn Ibrahimov, novel.*

Наргиз Исмаилова

ЕДИНСТВО ВОСТОКА И ЗАПАДА В РОМАНАХ ГУСЕЙНА ИБРАГИМОВА (НА ОСНОВЕ "ОДНОЙ ДЕСЯТОЙ ВЕКА" И "КЛЕВЕТЫ")

После завоевания независимости Азербайджан наряду с интеграцией в европейскую культуру старается воспользоваться всем тем ценным, что создала мировая культура, а также обогащению наших национальных и духовных ценностей за счёт этих достижений. В Нахчыване также параллельно с восстановлением национальной культуры, проявляются интеграционные процессы к культуре Востока и Запада. Выросший в нахчыванской литературной среде автор знаменитых романов Гусейн Ибрагимов смог завоевать специфическое место в нахчыванской литературной среде. Творчество Гусейна Ибрагимова, привлекающего внимание вопросами Востока и Запада в романах и своеобразным углом зрения, является важным этапом в изучении данных двух полюсов, занимающих место в нахчыванской литературе. Несмотря на то, что творчество Г.Ибрагимова не было подвержено всестороннему изучению, романы, занимающие место в

его творчестве, очень важны и актуальны в ощущении атмосферы того периода. В этом аспекте романы “Одна десятая века” и “Клевета” занимают особое место в творчестве Г.Ибрагимова. В обоих романах автор смог развить сюжетную линию на основе восточных тенденций, стремлений и тематики параллельно с западными традициями. Романы Гусейна Ибрагимова являются актуальными в анализировании и исследовании склонностей к Востоку и Западу в нахчыванской литературе.

Ключевые слова: *нахчыванская литературная среда, сравнение, Восток, Запад, Гусейн Ибрагимов, роман.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 07.05.2019
Son variant 03.09.2019

UOT 82.0:001.92

SAHAB ƏLİYEVA

CƏNUBİ AZƏRBAYCAN MÖVZUSU HÜSEYN RAZİNİN YARADICILIĞINDA

Məqalədə Hüseyn Razinin bədii yaradıcılığında Cənubi Azərbaycan mövzusu araşdırılmış, bu istiqamətdə qələmə alınan əsərləri tədqiqata cəlb edilmişdir. Qeyd olunmuşdur ki, Vətəninə, xalqına olan dərin sevgisini ən səmimi duyğularla ifadə edən şairin poeziyasında bütöv, bölünməz Azərbaycan ön plandadır. Məqalədə Cənubi Azərbaycanda baş verən hadisələr, bir-birindən ayrı salınmış insanların nisgil, kədər dolu duyğuları, bu ayrılığa səbəb olanlara qarşı nifrət, Azərbaycanın birliyi, vahidliyi uğrunda mübarizəyə çağırış ruhunda yazılmış "Sahil həsrəti" poemasının təhlilinə daha geniş yer verilmişdir. Həmin əsərin şairin bu mövzuda qələmə aldığı əsərlərindən öz çəkisi, sanbalı ilə seçildiyi, xalqımızın birlik duyğusunun, mübarizə əzminin, vətənpərvərlik hissinin şeir dili ilə ifadəsinin ən mükəmməl nümunəsi olduğu fikri də diqqətə çatdırılmışdır. Cənubi Azərbaycanda baş verən hadisələrin, Azərbaycanın tarixi keçmişinin, müəllifin vətənini bütöv görmək arzusundan doğan fikirlərinin tarixiliklə müasirliyin vəhdəti fonunda təqdim olunması şairin vətənpərvərliyindən, Azərbaycançılıq ideologiyasına sadiqliyindən qaynaqlanan cəhət kimi xarakterizə olunmuşdur. Nəticə olaraq belə qənaətə gəlinmişdir ki, Naxçıvan ədəbi mühitində Cənubi Azərbaycan mövzusunun işlənməsində şair-publisist H.Razinin xidmətləri öz səciyyəvi xüsusiyyətləri ilə müəyyən elmi əhəmiyyətə malikdir.

Açar sözlər: *Hüseyn Razi, Naxçıvan ədəbi mühiti, Cənubi Azərbaycan, bədii yaradıcılıq, milli-mənəvi bütövlük.*

XX yüzilliyin ikinci yarısında Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndələrindən olan Hüseyn Razi (1924-1998) zəngin yaradıcılığı ilə ədəbiyyatımızda özünəməxsus mövqe qazanmış, şair, nasir, dramaturq, publisist kimi məşhurlaşmış, bir çox şair və yazıçının formalaşmasında, ədəbi mühitdə parlamasında müəyyən rol oynamışdır. Yarım əsrə yaxın ədəbi, publisistik fəaliyyəti müddətində qələmə aldığı bədii əsərləri, məqalələrində dövrünün ən mühüm mətləblərini ustalıqla işıqlandıran, Vətəninə, xalqına olan dərin sevgisini ən səmimi duyğularla ifadə edən şair gördüyü haqsızlıqlara qarşı barışmaz mövqe tutaraq, xalqına, ədəbiyyatımıza sədaqətlə xidmət göstərmişdir. Qəlbi vətən eşqi ilə döyünən şairin məzmun etibarilə zəngin, həcmcə geniş və çoxşaxəli yaradıcılığının ana xəttini doğma Azərbaycanına olan sonsuz məhəbbəti təşkil edir. Professor Yavuz Axundlunun sözləri ilə desək, "vətənpərvərlik H.Razinin yaradıcılığının əsas məziyyətidir. Lakin onun vətənpərvərliyi bölgə sevgisiylə məhdudlaşmır. Şair Bakını, Qarabağı, Gəncəni, Təbrizi də eyni məhəbbətlə tərənnüm edir. Böyük Azərbaycan, bütöv Azərbaycan onun ilham qaynağıdır" [6, s. 5]. Doğrudan da, mayası torpağa olan sonsuz sevgi ilə yoğurulan, mənbəyini xalqdan alan H.Razi poeziyasında bütöv, bölünməz Azərbaycan ön plandadır. Onun istər şeir yaradıcılığında, istərsə də publisistikasında Cənubi Azərbaycan mövzusuna toxunulmuş, bölünmüş Azərbaycanın yanğılı səsi şairi daim düşündürmüşdür. Onun "Culfadan Təbrizə", "Yuxularda", "Şəhriyarla söhbət", "Qıfıl", "Yamandır" şeirlərində, bir neçə qəzəlində**,** "Sahil həsrəti" poemasında Vətənini bütöv görmək istəyindən qaynaqlanan fikirləri elə ustalıqla poetikləşdirilmişdir ki, onun doğma Vətəninin azadlığı və bütövlüyünə olan dərin inamına heyrət etməyə bilmirsən. Azadlıq aşiqi, bu yolda hər bir addımın labüd olduğunu vurğulayan həssas qəlbli şair Azərbaycanın bölünməsinə, həmvətənlərinin bir-birindən ayrı salınmasına laqeyd qala bilməmişdir. Tarixdən məlum olduğu kimi, 1828-ci il Türkmənçay müqaviləsi ilə Azərbaycanın tarixi torpaqları rus və fars işğalçıları arasında bölüşdürülmüş, bu gündən etibarən ikiyə parçalanan Azərbaycanın

ən ağrılı, nisgilli yaralarından birinə çevrilən Cənubi Azərbaycan bədii ədəbiyyatımızda zaman-zaman işıqlandırılmış, bu mövzuda çoxsaylı əsərlər qələmə alınmışdır. H.Razi yaradıcılığında da bu ayrılıqdan doğan həsrət, ağrı, nisgil təsvir olunmaqla "iki yerə parçalanmış Azərbaycan sanki bütövləşir, bütün tarixi keçmişi, qəhrəmanları ilə gözlərimiz qarşısında canlanır" [1, s. 80]:

İllər keçdi əsrin qıfılbəndinə,
Talelərin üfüqündə duman, çən.
Namərdliyin hiyləsinə, fəndinə
İki yerə parçalanmış bir vətən.

İki sahil aynasında bir çapıq,
Neçə fəsli yazılmamış kitabıq,
İki qəlbin bir yarımçıq nəğməsi.
Uyuşmayıb neçə sözü, cümləsi [6, s. 93].

Hər misrasında müəllifinin ağrı-acısı, bütün varlığı silkələyən etirazı duyulan "Qıfıl" şeirində olduğu kimi, "Yamandır"ın misraları da eyni ruha, eyni mərama köklənmişdir:

Boz yalanlar dumanında fanar olmaq,
Üzdən soyuq, içəridən yanar olmaq,
Güney sahil, quzey sahil həsrətindən
İki qəlbi bir eləmək fürsətindən
Zərrə qədər kənar olmaq yamandır [6, s. 94].

Onun ayrılıq, həsrət motivli şeirləri bununla yekunlaşmır. Poeziyamızda bu ağrı müxtəlif formalarda ifadə olunsa da, Azərbaycanın iki yerə bölünməsindən sonra şimal və cənub arasında sərhəd rolunu oynayan Araz çayına etiraz fonunda təqdim olunan nümunələr daha üstündür. H.Razinin də yaradıcılığında Araza ünvanlanan şeirlərə rast gəlmək mümkündür, lakin şairin şeirlərində Arazı günahlandırmadan çox, neçə-neçə qanlı qırğına şahidlik etdiyindən köksündə fırtınalar qopan, güclü küləklərə sinə gərən, qəlbi yetim Arazına təsəlli motivi daha qabarıqdır:

Araz üstündə bu gün bir günəşin şöləsi var,
Babamın ruhu kimi nuruna pərvanəsi var.

Burda Babək, Səfəvilər vətən uğrunda ölüb,
Eldəgizlər beşiyi, Çənlibel əfsanəsi var.

Yeri düşdükcə ona tənəli sözlər demişik,
Razi, bir gün deyəcəklər Arazın müjdəsi var [4, s. 138-139].

Başqa bir qəzəlində isə:

Köksündəki dağlar dayanıbdır necə məğrur,
Lakin Arazın qəlbi yetimdir, nigarandır.

Min sədd çəkələr, hər iki sahil vətənimdir,
Yadlıq məxəsindən nə axıb gəlsə yalandır.

Car çək bunu, Razi, nə qədər canda canın var
Vahid Vətənin birliyi hökmi-zamandır [6, s. 238]

– deyən şair ümidini itirməyərək Azərbaycanın gec-tez öz bütövlüyünə qovuşacağına əminliyini ifadə edir.

1989-cu ilin 31 dekabrında bir xalqı ikiyə bölən imperiya zəncirlərinin qırılması, sərhəd dirəklərinin sökülməsindən sonra Təbrizə səfər edən şairin sevincindən doğan hislərinin, vətənini bütöv görmək arzusundan qaynaqlanan şadlığının "Culfadan Təbrizə" şeirində böyük ustalıqla ifadəsinin şahidi oluruq:

Sanki yanar dağın kraterindən,
Mən od götürürəm kirpiklərimlə.
Qəribə sirrilər faş edirəm mən,
Vətəndən vətənə bu səfərimlə.

Ürək bir görüşün həyəcanında,
Sanki təbil səsi gəlir dərindən.
Elə bil döyüşlər burulğanında,
İgidlər şığıyır Xudafərindən [5, s. 111].

Şeirdə Azərbaycanın tarixi keçmişini gözü önünə gətirən şair, bu torpaqlarda qılınc çalan Babək, Koroğlu, Teymur, Xətayi, Səttarxan, Xiyabaninin qəhrəmanlıqlarını, Füzulinin ahından, Nəsiminin faciəsindən qəmginləşən dağların kədərini yada salmaqla hər daşına, torpağına vurğun olduğu Azərbaycanına dərin sevgisini bəyan edir:

Hicran atəşinin hərarətindən,
Zirvələr üstündə qar dənərləşib.
Bəlkə də Nəsimi soyulan gündən,
Bu dağlar bozarıb mükəddərləşib [5, s. 112].

Bu baxımdan onun "Şəhriyarla söhbət" şeiri maraqlıdır. Şeirdə Razi Vətəninə olan dərin məhəbbətini, ədəbiyyatımızın müxtəlif dönəmlərində yaşayıb-yaradan saz-söz ustalarının bu torpaqdan ilhamlandıqlarını "Od-alov əmmiş döşümdən yüz sənətkar, qəhrəman" deyərək poetikləşdirir. O taylı-bu taylı Azərbaycanın hər qarışına yüksək məhəbbətin izhar olunduğu şeirdə Razi Tomrisdən başlamış Hüseyn Cavidə qədər bir çox sənətkar və qəhrəmanlarımızı xatırlayaraq doğma vətənimizin ədəbiyyat və qəhrəmanlıq tarixinə dərin sevgisini ifadə edir:

Şeyx Nizami Gəncədən, Xaqani Təbrizdən baxıb,
Sanki bir səslə deyirlər ki, "İlahi, əlaman!"

Şah Xətayitək atam, Tomris anamtək məğruram,
Məsləkimdən dönmürəm, ey dost, halaldır eşqə can [5, s. 68].

Hər misrasından Cavanşirin, Xətayinin, Babəkin, Koroğlunun, Səttarxanın, Xiyabaninin nərəsi duyulan, Bakı, Təbriz, Gəncə, Maku, İsfəhan, Naxçıvanın birləşərək Şəhriyarın, Səbuhinin sözləri ilə xalqına məlhəm olduğu şeirdə birlik və bütövlüyə çağırış böyük sənətkarlıqla əks olunmuşdur:

Bakı eşqim, mənliyim, Təbriz beşikdir nəslimə
Şəhriyarın sözləri hər qəlbə olmuş mehriban.

Gəncə, Maku, İsfəhan tariximin bir parçası,
Əcəmi açarını qoynunda saxlar Naxçıvan.
Möcüzün, Səttar xanın ruhu mənim ruhumdadır,
Şeyx Məhəmməd öz məzarından qışqırır "Millət, oyan!" [5, s. 69].

O, bütöv Azərbaycan mövzusunda yazdıqlarını təkcə şeirləri ilə yekunlaşdırmır. Cənubi Azərbaycanda baş verən hadisələr, bir-birindən ayrı salınmış insanların nisgil, kədər dolu duyğuları, bu ayrılığa səbəb olanlara qarşı nifrət, Azərbaycanın birliyi, vahidliyi uğrunda mübarizəyə səsləniş ruhunda yazılmış "Sahil həsrəti" poeması şairin bu istiqamətdə qələmə aldığı nümunələrdən öz çəkisi, sanbalı ilə seçilir. Bu poema "ayrı düşmüş iki sahilin həsrət və mübarizə nəğməsi, illərlə vüsal həsrəti ilə qovrulan bir xalqın qəm dastanı kimi səslənir" [2]. 1975-1976-cı illərdə qələmə alınan poema SSRİ və İranın əməkdaşlığı ilə Arazın üstündə ucaldılan Su Elektrik Stansiyasının inşaatçılarına həsr edilsə də, müəllifin əsl məqsədi başqadır. Kiçik fəsillər və Məmmədhəsən adlı qocanın danışdığı yeddi söhbətdən ibarət olan poemada Azərbaycanın tarixi keçmişi, müəllifin vətənini bütöv görmək arzusundan doğan fikirləri geniş şəkildə əks olunmuşdur. Proloqunda stansiyanın tikintisindən duyduğu sevinci oxucularla bölüşən, "Salam, ana torpaq" fəslində bir qrup mühəndis, qəzetçi, fəhlə ilə birlikdə o taya səfərlərini, bu səfər zamanı hicranın kədərli, acı dadını bir daha dərindən duyan şairin vətəninin bütövlüyü timsalında bütün ayrı salınmış xalqların birliyinə olan dərin inamı zəngin misralarla öz poetik ifadəsini tapmışdır:

Baxıram arzumun üfüqlərinə,
Həsrət arzuları əriyib sönür.
Arazın körpüsü açılır mənə,
Vətən gözlərimə bütöv görünür.

Çıxdığım sahili, məngənəsində
Sıxsa da zülmətin iti dişləri,
Bir anlıq dünyanın xəritəsində
Mən bütöv görürəm bölünmüşləri [3, s. 224-225].

Poemanın "Dumanlar və gümanlar", "Ehtimallar və xəyallar" hissələrində Azərbaycanın keçmişinə, qəhrəmanlıqlarla dolu şanlı tarixinə nəzər salan şair, "Kövrək suallar" fəslində üst-başı tökülmüş, solğun bir qoca olan Məmmədhəsənlə söhbətlərini təqdim edir. İxtisasca hüquqşünas olan, ara-sıra şeirlər də yazan bu qoca hakimiyyətin çürüklüyü ucbatından hər iki sənətindən uzaqlaşmaq məcburiyyətində qalaraq fəhləlik etməklə gündəlik yaşayışını təmin edir. Qocanın uzun sürən ayrılıqdan sonra həmvətəni ilə görüşündən duyduğu məmnunluq, səsində, baxışlarında olan kədər, nisgil, ağrı şairi mütəəssir edir:

Deyir: Dilimiz bir, vətənimiz bir,
Fəqət yollarımız bağlı qalıbdır.
O sahil doğmalıq beşiyindədir,
Bu sahil başqa cür ünvanlanıbdır [3, s. 230].

Poemada qocanın şeir dəftəri ilə də tanış oluruq ki, bu dəftərdə illərlə vüsal həsrəti çəkən xalqımızın nisgil dolu duyğuları ifadə olunur:

Hər kəs dərk eləyib duyur özünü,
Ocaqlar saxlayır odun közünü.
Yad dili bilsək də, ürək sözünü
Bu dilin gücünə danışmaq olmur [3, s. 232].

"Sədalar və nidalar", "Məzar daşında yazı", "Sahil düşüncələri", "Nisgilli nəğmələr", "Dilsiz cavablar" fəsillərinin hər birində qocanın danışdıqları fonunda sanki Azərbaycanın keçmişinə səyahət edirik. Hər bir kəlməsindən igid bahadırlarımızın nərəsi, söz-sənət adamlarımızın nəfəsi duyulan misralar böyük ustalıqla qələmə alınmışdır:

Hər səhər üfüqə döşənəndə zər,
Hər axşam solanda lalə şəfəqlər,
Culfa körpüsündən Təbrizə qədər
Qarabağ xalısı sərmək istərəm [3, s. 241].

Qocanın danışdıqlarından təsirlənən şair onun şeir dəftərində yer alan, hər biri bir mövzu ilə bağlı olan yeddi söhbəti təqdim edir. "Qocanın can yanğısından, qəlb ağrısından doğulmuş poetik söhbətlərdə həsrət notları ümid, inam xalları ilə həmahəng səslənir" [2]. Birinci söhbətdə öz taleyindən şikayətlənən qocanın şahlara, şahzadələrə, xanlara olan nifrəti, insan hislərinin heçə sayılmasına olan münasibəti təsvir olunmaqla bərabər, Vətənə, torpağa olan sonsuz sevgi də tərənnüm olunur:

Dünyanı dolaşsam mən qarış-qarış,
Qürbətdə yaşamaq fərəh deyildir.
Vətən dağlarını seyrə dalmamış
Mənə ay daşları gərək deyildir [3, s. 249].

İkinci söhbətdə insanın daha böyük arzu və istəklər uğrunda mübarizə aparması, bu yolda daha cəsur olması kimi fikirlər vətənə sədaqətlə xidmət amalının fonunda təqdim olunmuşdur:

Elim haray çəksə, hayına gəlləm,
Məsləkim uğrunda vuruşub ölləm,
Köpürən sel kimi tüğyana gəlləm,
Daha mən lal axan Araz olmaram [3, s. 251].

Üçüncü söhbətdə səmimi, pak duyğulara önəm verməyi, xəyanətdən, adi, cılız fikirlərdən uzaqlaşmağı məsləhət görən şair, minnətsiz yaşamağı, hünərlə, ağılla hər şeyə nail olmağın mümkünlüyünü diqqətə çatdırır:

Hünər nərdivandır hər çətin yola,
Hünərlə şumlanar dağlar, dənizlər.
Yüz il ayaq üstə yuxusuz qala,
Hünər sahibləri mürgüləməzlər [3, s. 254].

Dördüncü söhbətdə şairin nisgil dolu duyğuları, ayrılıqdan, həsrətdən gündə yüz dəfə baxdığı sahillərin bir-birinə yaxınkən əlçatmaz dərəcədə uzaqlaşdırılmasına olan münasibəti, doğma Vətənində qarşılaşdığı təzyiqlər, uzun illər bir-birindən ayrı salınan qardaş-bacılarının, doğmalarının ürəkparçalayan həsrəti böyük ustalıqla poetikləşdirilmişdir:

Gərək bütövləşsin bu qədim diyar,
Arzu qocalmasın, ümid ölməsin.
Culfa körpüsünə yan alan qatar
Hər iki sahildə ləngidilməsin [3, s. 256].

Bütöv Azərbaycan həsrətindən qəlbində fırtınalar qopan şairin üsyankar səsi beşinci söhbətdə daha qabarıqdır. Razi sanki bütün dünyaya üsyan edir, bu məsələyə etinasız yanaşanlara poetik dillə etirazını çatdırır. Hər misrasından müəllifinin qəlb ağrısı, etiraz dolu fikirləri duyulan söhbət Cənubi Azərbaycan dərdinin şeir dili ilə ifadəsinin ən mükəmməl nümunəsidir:

Ali məclislərdə, söyləyin barı,
Mənim diplomatım, vəkilim hanı?
Niyə yer üzünün havadarları
Unudub Cənubi Azərbaycanı?! [3, s. 258].

Altıncı söhbətdə şairin "xalqın müstəmləkə əsarətində ağır həyat şəraiti və buna qarşı etiraz hissi, xoş gələcəyə ümidi ümumiləşdirilmişdir" [1, s. 133]. Sonuncu söhbətdə Araz üzərindəki stansiyanın tikintisindən duyduğu sevinc hislərini, xoş həyəcanını oxucularla bölüşən şair, Azərbaycanın bütövlüyünə qovuşacağına, xalqının bu yoldan dönməyəcəyinə əminliyini ifadə edir:

Gün gələr istiqbal təranəsini
Oxuyar Bakıyla yanaşı Təbriz.
Bir elin bütövlük salnaməsini
Yazarıq müqəddəs eşqimizlə biz [3, s. 267].

"Sahil həsrəti" poeması Cənubi Azərbaycan mövzusunda yazılmış ən sanballı əsərlərdən biri kimi xalqımızın birlik duyğusunun, mübarizə əzminin, vətənpərvərlik hissinin şeir dili ilə ifadəsinin ən mükəmməl nümunəsidir. Poemada Məmmədhəsən qocanın söylədikləri əsasında Cənubi Azərbaycanda baş verən hadisələrin təsviri, Azərbaycanın tarixi keçmişi, müəllifin vətənini bütöv görmək arzusundan doğan fikirləri tarixiliklə müasirliyin vəhdəti fonunda təqdim olunmuşdur. Azərbaycançılıq ruhunda qələmə alınmış, hər bir misrası öz axıcılığı, yüksək ideya-bədii keyfiyyətləri ilə seçilən poemada xalqımıza xas milli-mənəvi dəyərlər, tariximiz, mədəniyyətimiz, mənəviyyatımız yüksək vətənpərvərlik duyğusu ilə təqdim olunmuşdur.

Nəticə olaraq belə qənaətə gəlmək olar ki, H.Razi yaradıcılığında Cənubi Azərbaycan mövzusuna xüsusi həssaslıqla yanaşmış, əsərlərində milli-mənəvi bütövlüyümüzün, birliyimizin tərənnümünə daha geniş yer ayırmaqla vətənpərvərliyini, Azərbaycançılıq ideologiyasına sadiqliyini nümayiş etdirmişdir. Onun şeirləri, xüsusilə də "Sahil həsrəti" poeması nəinki Naxçıvan ədəbi mühitində, bütünlüklə Azərbaycan ədəbiyyatında bu mövzuda qələmə alınan ən mükəmməl ədəbi nümunələrdəndir.

ƏDƏBİYYAT

1. İsmayılov N. Hüseyn Razinin yaradıcılıq yolu. Bakı: Elm, 2003, 248 s.
2. Qasımov A. Sahil həsrəti. "Sovet Naxçıvanı" qəz., Naxçıvan, 1986, 16 oktyabr.
3. Razi H. Sahil həsrəti. Bakı: Yazıçı, 1985, 292 s.
4. Razi H. Ayrılmaram. Bakı: Yazıçı, 1981, 241 s.
5. Razi H. Gözün aydın. Bakı: Azərbaycan, 1996, 232 s.
6. Razi H. Ömür keçdi... Bakı: Elm, 2011, 304 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: sahabaliyeva89@gmail.com

Sahab Aliyeva

THE THEME OF SOUTHERN AZERBAIJAN IN HUSSEIN RAZI'S WORKS

In the article, the theme of Southern Azerbaijan has been studied in the artistic direction of Hussein Razi and his works written in this direction have involved in the research. It has been noted that the poet expressed his deep love for his homeland and people with the most sincere feelings and the whole, indivisible Azerbaijan is in the forefront of his poetry. In the

article, the analysis of the poem "Longing for the coast" written in the spirit of events taking place in South Azerbaijan, the feelings of people separated from each other, the hatred against those who caused this separation, the call for the struggle for unity and the unity of Azerbaijan has been broadly analysed. This poem has been distinguished for its position and influence among poet's other works and sense of unity of our people, determination of struggle, sense of patriotism in the poetic form has been the perfect example. The presentation of the events in southern Azerbaijan, the historical past of Azerbaijan, the author's ideas arising from the desire to see the homeland as a whole in the background of the unity of historicity and modernity has been characterized as the poet's loyalty to the ideology of azerbaijanism. As a result, it was concluded that poet-publicist Hussein Razi's role in the development of the theme of South Azerbaijan in literary environment of Nakhchivan has certain scientific importance by its specific features.

Keywords: *Hussein Razi, literary environment of Nakhchivan, Southern Azerbaijan, the artistic direction, national-moral integrity.*

Сахаб Алиева

ТЕМА ЮЖНОГО АЗЕРБАЙДЖАНА В ТВОРЧЕСТВЕ ГУСЕЙНА РАЗИ

В статье изучена тема Южного Азербайджана в художественном творчестве Гусейна Рази, а также были вовлечены в исследования его произведения написанные в этом направлении. Было отмечено, что в поэзии поэта, выражающего самыми искренними чувствами глубокую любовь к Родине, народу, весь, неделимый Азербайджан находится на переднем плане. В статье более широкое место отведено анализу поэмы "Тоска по побережью", написанной в духе событий произошедших в Южном Азербайджане, печальных чувств разлученных друг от друга людей, ненависти к тем, кто способствовал этой разлуке, призыва к борьбе за единство Азербайджана. Было доведено до внимания, что это произведение выделяется своей весомостью среди других произведений написанных по этой теме, а также что оно является лучшим примером выражения чувства единства, борьбы, патриотизма нашего народа посредством языка поэзии. Представление на фоне единства историзма и современности событий, происходящих в Южном Азербайджане, исторического прошлого Азербайджана, мыслей автора о желании видеть родину в целом, характеризовалось как черта, исходящая от патриотизма поэта, его преданности идеологии азербайджанства. В результате был сделан вывод о том, что заслуги поэта-публициста Г.Рази в развитии темы Южного Азербайджана в литературной среде Нахчывана со своими характерными особенностями имеют определенное научное значение.

Ключевые слова: *Гусейн Рази, Нахчыванская литературная среда, Южный Азербайджан, художественное творчество, национально-духовная целостность.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: **İlkin variant 23.05.2019**
Son variant 13.08.2019

UOT 13

SƏBUHİ İBRAHİMOV

NAXÇIVANDA KİTAB VƏ KİTABXANA MƏDƏNİYYƏTİ

Məqalədə Naxçıvan mühitinin min illərlə yaratdığı kitab və kitabxana mədəniyyəti haqqında araşdırmalar aparılmış və onun zəngin tarixi keçmişi barədə məlumatlar əldə edilmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Naxçıvana dair əlyazma mətnləri Azərbaycanda yaranan kitab və kitabxana mədəniyyətinin əsasını təşkil etmişdir. Azərbaycanın ən qədim əlyazması hesab edilən "Qurani-Kərim"in orta əsrlərdə yazılmış nüsxəsi Azərbaycan Atabəyləri dövlətinin hakimiyyəti illərində Naxçıvanda üzü köçürülmüş qiymətli sənət əsəri buna bariz nümunədir.

Həmçinin elmi araşdırmada "Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti" anlayışı qədim insan məskəni olan Naxçıvan mədəniyyət və ədəbiyyat tarixinin tərkib hissələrindən biri kimi qiymətləndirilmişdir.

Açar sözlər: *Naxçıvan, kitab, kitabxana, mədəniyyət, tarix, əlyazma, mətn.*

Ta qədimdən tədqiqat prosesi üçün "kitab" və "kitabxana" ilə bağlı oxşarlıqlardan əldə edilən kateqoriyalar, insanların "kitab" və "kitabxana" anlayışlarına dair istifadə etdikləri və ya inkişaf etdirdikləri oxşarlıqlar, onların ümumi xüsusiyyətləri və təhlili baxımından bir neçə başlıq altında təsnif edilmişdir. Aşağıdakı bu kateqoriyalar qismən də olsa təhlil olunaraq müvafiq oxşarlıqlarla təqdim edilmiş və sitatlarla dəstəklənərək müəyyənləşdirilmişdir.

İctimai cəmiyyətdə mütəfəkkirlər tərəfindən ta qədimdən bu günə qədər kitabı adlandırmaq üçün "məlumat damcısı", "məlumat dostu", "məlumat dünyası", "məlumat kainatı", "məlumat xəzinəsi", "məlumat qutusu", "məlumat okeanı", "məlumat şəlaləsi", "məlumat küpü", "məlumat yuvası", "bilik mənbəyi", "bilik evi", "informasiya maşını", "informasiya cəmiyyəti", "informasiya yeri" kimi ifadələr və terminlərdən istifadə etmişlər:

"Kitab həyat kimidir. Çünki kitabın içində həqiqətləri yaşayırıq, doğrunu və yanlışı ayırd edə bilirik".

"Kitab işıq kimidir. Çünki oxusaq bizi işıqlandırar".

"Kitab müəllim kimidir. Çünki onları zəiflətməyimizə baxmayaraq, hələ də bizə istiqamət verir".

"Kitab günəş kimidir. Çünki bizi nurlandırır, məlumatlandırır".

"Kitab ağac kimidir. Çünki kölgəsində bir çox biliyə çatmaq üçün otururuq".

Kitab anlayışı ilə bərabər insanlar kitabxana anlayışını da müxtəlif növdə xarakterizə etməklə "bilgi adası", "bilik sandığı", "məlumat", "məlumat vasitəsi", "məlumat bankı", "məlumat cənnəti", "məlumat yuvası", "məlumat sarayı", "məlumat sinfi", "informasiya cəmiyyəti", "informasiya yeri", "informasiyanın əsas yolu", "informasiya bağçası", "informasiya otağı", "informasiya sahəsi", "komputer", "elm", "binanın təməli" kimi müxtəlif ifadələr və terminlərdən istifadə etmişlər.

"Kitabxana ev kimidir. Çünki girsən içində qızınarsan, girməsən üşüyərsən".

Belə ki, orta əsrlərdən başlayaraq Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyətinə maraq müasir günümüzdə də öz aktuallığını bir daha büruzə vermişdir. Vaxtilə Şərqin kitabxanalarını bəzəyən, zənginləşdirən Naxçıvan alimlərinin əlyazma kitabları zaman-zaman dövlətimizin göstərdiyi diqqət və qayğı nəticəsində alimlərimiz tərəfindən tədqiqata

cəlb edilmiş və onlar üzərində filoloji və tekstoloji araşdırmalar aparılmışdır. Naxçıvana dair əlyazma mətnləri, kitab və kitabxana mədəniyyətinin yaranması, onların yaşamasını zəruri edən dini ocaqlar, məscidlər və xüsusən də mədrəsələrdə dərsliklərin, Azərbaycan, türk, ərəb və fars dillərində bir çox kitablar, toplular, cünglər, təzkirələr əlyazma kitabları şəklində köçürülüb çoxaldıldığı haqqında məlumat verilmişdir. Həmçinin islami dəyərlərlə bağlı dünyanın bir çox ölkələrinin müzey və kitabxanalarında saxlanılan qiymətli əlyazma əsərləri, xüsusən Azərbaycanın ən qədim əlyazması hesab edilən "Qurani-Kərim"in orta əsrlərdə yazılmış nüsxəsi Azərbaycanın Atabəylər dövləti hakimiyyəti illərində Naxçıvanda üzü köçürülmüş qiymətli sənət əsəri Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti abidələrinin zəngin xüsusiyyətlərindən xəbər verir.

"Tariximizin qədimliyini göstərən arxeoloji qazıntılar, əldə edilmiş maddi-mədəni nümunələr, xaraba şəhər və qəsəbələr Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvanda hələ daş dövründən istifadə edilən duz mədəni və buradan tapılmış daş baltalar, buradakı duz müalicəxanası çox uzaq keçmişimizin mədəni səviyyəsindən xəbər verir. Bütün bunlar Azərbaycan xalqının hələ miladdan əvvəl mədəniyyətə, yazıya, oxuya, sistemli təlim-tərbiyə mədəniyyətinə, müalicə üsullarına sahib olduqlarını təsdiq edir" (3, s. 9).

2018-ci il üçün Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi münasibətilə keçirilən açılış tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: "İslam elm, mədəniyyət, sülh və mərhəmət dinidir. Mənəvi saflığa və ədalətə çağırışdır. Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində İslam təhsilinin, elminin və mədəniyyətinin böyük rolu vardır. Bunun sayəsində qədim Naxçıvan şəhərində də zəngin tarixi-mədəni irs formalaşmışdır".

Məhz bu baxımdan da islami dəyərlərdə ilk olaraq "oxu!" (1, s. 597) əmr edilən "Qurani-Kərim"in bəşəriyyətə buyurduğu söz, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 avqust 2017-ci il tarixi sərəncamı ilə bir daha aktuallaşmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən "Oxunması zəruri olan kitabların siyahısı" bir daha təsdiq edir ki, Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti fəlsəfəsi anlayışı nə qədər dərin və zəngindir. Tövsiyə olunan kitablar arasında haqlı olaraq Naxçıvan mühitinin yetirdiyi görkəmli şəxslər sırasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, Nəsirəddin Tusi, Hüseyn Cavid, Mirzə Cəlil, Məhəmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi kimi tanınmış simaların əsərləri öz layiqli yerini tapır.

Eyni zamanda ölkə rəhbəri Cənab İlham Əliyevin verdiyi sərəncama əsasən Respublikanın bütün bölgələrində kitabxana sisteminin yenidən elektron formada hazırlanması mühüm əhəmiyyət kəsb etmişdir. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2019-cu il tarixli sərəncamında deyilir: "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində yeni, mütərəqqi və ölkənin bütün ərazisini əhatə edəcək kitabxana sisteminin yaradılması, habelə mədəniyyət və təhsil xidmətləri göstərən qurumların (mədəniyyət mərkəzləri, klublar, musiqi məktəbləri, rəsm qalereyaları və s.) fəaliyyətində səmərəliliyin artırılması məqsədilə təkliflər hazırlanması üçün aşağıdakı tərkibdə Komissiya yaradılsın". Bu sərəncam ölkəmizdə kitab və kitabxana mədəniyyətinə verilən ən yüksək dəyərin aşkar nümunəsidir.

"Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti" anlayışı Naxçıvan mədəniyyət və ədəbiyyat tarixinin tərkib hissələrindən biridir. Dünyanın ən qədim xalqlarından biri olan Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ictimaiyyətinin özünəməxsus çox qədim və zəngin bir mədəniyyəti olmuşdur. Bu mədəniyyət tariximizin çox

erkən dövrlərində yaranmış, tədricən inkişaf edib təkmilləşmiş, dünya mədəniyyətinin nailiyyətlərindən istifadə edərək zənginləşmişdir. Naxçıvan mədəniyyəti dünyanın sivil xalqlarının mədəniyyətindən bəhrələndiyii kimi, yeri gəldikcə Naxçıvan əhalisinin mədəniyyətindən dünya xalqları da bəhrələnmişlər. Məhz buna görədir ki, xalqımızın mədəniyyəti milli olmaqla həm də ümumbəşəri əhəmiyyətə malikdir. Ümumiyyətlə Azərbaycan mədəniyyətinin mühüm tərkib hissələrindən biri kitab və kitabxana mədəniyyətidir.

Yazının meydana gəlməsi, əlifbanın yaranması, kitabın təşəkkülü və inkişafı, kitabxanaların yaranması xalqımızın mədəniyyət tarixinin inkişafında və formalaşmasında xüsusi yer tutur. Azərbaycan xalqının qədim tarixini vərəqləyərkən belə bir tarixi həqiqət ortaya çıxır ki, bu xalq hələ tarixin erkən çağlarından başlayaraq təhsilə, elmə, kitab və kitabxanalara çox böyük dəyər vermiş, onu qoruyub saxlamış, elm və mədəniyyətin inkişafı üçün əlindən gələni etmişdir. Dünya sivilizasiyasının başlanğıcı olan Şumerlərlə qonşu olmaq, onlarla mədəni əlaqələr yaratmaq erkən qədim Azərbaycan dövlətlərində elmin, mədəniyyətin inkişafına olduqca böyük müsbət təsir etmiş, yazı, kitab və kitabçılıq işinin əsası qoyulmuş, xalqımıza məxsus kitablar və kitabxanalar meydana gəlmişdir. Məhz buna görədir ki, Azərbaycanın ən qədim insan məskəni olan Naxçıvan çox qədim və qiymətli kitabları, zəngin kitabxanaları olan bir ölkə kimi tarixdə silinməz izlər qoymuşdur. Bu izlər bizi çox qədimlərə aparmaqla yanaşı eyni zamanda, Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti dünya şöhrətindən soraq verir. Xalqımızın yaratmış olduğu, bəşəri kitab xəzinəsinin bəzəyi olan "Avesta", "Kitabi-Dədə Qorqud" və s. kitablar göz önünə gəlir. Belə ümumbəşəri əhəmiyyətə malik kitabları yaratmış xalqın ölməzliyi və müdrikliyi insanı valeh edir. Orta əsrlərdə də Naxçıvan mühitinin yaratdığı kitab mədəniyyəti böyük nailiyyətlər əldə etmişdir. Xalqımız bəşəriyyətə Nizami Gəncəvi, İmadəddin Nəsimi, Qətran Təbrizi, Əsədi Tusi, Nəsirəddin Tusi, Əkməleddin Naxçıvani, Hinduşah Naxçıvani, Nemətullah Naxçıvani kimi yüzlərlə böyük mütəfəkkir şairlər bəxş etmişdir ki, onların əsərləri bəşər mədəniyyətinin inciləri sırasına daxil edilmiş və bir neçə yüzilliklərdir ki, bəşəriyyətə xidmət edir. "Nemətullah Naxçıvaninin ölməz əsərləri, elmi fəaliyyəti və fəlsəfi fikirləri doğma Naxçıvanımızın bu günü və gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Məkan və zaman baxımından yazan tanınmış tədqiqatçı alimlərin verdiyi əsas mənbələrin axarını B.N.Naxçıvanidən bəhs edərkən onu "möhtəşəm üslub gözəlliyinə sahib təfsir alimi" və "rəbbani elmlərdə mütəbahhir bir mütəsəvvüf" kimi tanıdırlar" (4, s. 11).

Xalqımızın yaratmış olduğu bu qiymətli tarixi, ədəbi-bədii, elmi, fəlsəfi yadigarların, milli sərvətimiz olan kitabların toplanıb saxlanılmasında, nəsildənnəslə çatdırılmasında kitabxanalarımız əvəzsiz rol oynamışdır. Gil lövhələrindən ibarət olan kitabları, papirus kitabları, perqament kitabları və nəhayət, kağız üzərində yazılmış kitabları öz fondunda toplayıb saxlayan kitabxanalarımız böyük tarixi yol keçmiş zəmanəmizə qədər gəlib çıxmışlar.

Dünya kitab və kitabxana tarixindən məlum olduğu kimi, insan yaradıcılığının daşıyıcıları yazı materiallarından asılı olaraq öz formasını dəyişməyə məcbur olmuşdur. Bizim eradan 4 min il əvvəl piramidalar ölkəsi olan Misirdə yazının kəşfi dünya sivilizasiyasının, dünya mədəniyyətinin inkişafı tarixində böyük inqilabi hadisə kimi qarşılandı. Yazının kəşfi insan zehninin, düşüncəsinin, yaddaşının əbədiləşdirilməsi, mənəvi sərvətlərin qorunub saxlanması, nəsildən-nəslə çatdırılması, dünya elminin tərəqqisi üçün əvəzsiz bir vasitəyə çevrildi. Qədim insanlar yazını kəşf etdikdən, yazmaq texnikasına yiyələndikdən sonra nəyin üzərində və necə yazmaq haqqında da düşünməyə başlamış və əsrlər keçdikcə yeni-yeni yazı materialları kəşf etmiş, tarixi təkmilləşmə prosesində bu mühüm işi tədricən inkişaf etdirməyə

müvəffəq olmuşlar. "Xatırlayaq ki, insanın təşəkkülündən yazının meydana gəlməsinə qədər 3 milyon il keçmişdir. Yazıdan çapa keçmək 5 min il müddətində olmuşdur. 500 il ərzində səsli yazı və televizor yaranmışdır. Bu mərhələdən kompüter səviyyəsinə küçmək üçün cəmisi 40 il kifayət etmişdir. Beləliklə, XX əsr ərzində bəşəriyyətin əvvəlki tarixində olduğundan çox elmi kəşflər edilmiş və daha çox texniki qurğular yaradılmışdır" (5, s. 399-400).

"Naxçıvanda uçuq evin divarı içindən çıxarılmış perqamen yazı qalıqlarının mənşəyi hələ də dəqiqləşdirilməmişdir. Naxçıvanda tapılan bu nadir əlyazma nümunəsinin ayrı-ayrı vərəqləri AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır" (2, s. 38). Bu cür qiymətli perqamen yazıların tapılması ilə yenə də Naxçıvan ərazisində kitabxanaların təşkili çox qədim zamanlara gedib çıxdığından ilk kitabxananın nə vaxt və harada yaranması haqqında məlumat vermək çəlindir. Naxçıvan ərazisində orta əsrlərdə hökmdarların saraylarında, dini tədris müəssisələrində zəngin kitabxanaların yaranması və fəaliyyəti haqqında, həmçinin görkəmli alimlərin şəxsi kitabxanaları haqqında qiymətli faktlar vardır. Bu kitabxanaların tarixinin tədqiq edilib öyrənilməsi mədəniyyətimizin daha da zənginləşməsinə səbəb olan amillərdəndir. Məhz buna görədir ki, milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxana tarixinin tədqiq edilib öyrənilməsi mədəniyyət və kitabxana tarixçilərimizin qarşısında duran mühüm vəzifələrdəndir. Kitabxana tarixi mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsi olduğu kimi kitabxanaşünaslığın da strukturuna daxildir. Ona görə də kitabxana tarixi həm mədəniyyət tarixçiləri tərəfindən ümumi planda, həm də kitabxana tarixçiləri tərəfindən xüsusi, daha geniş həcmdə tədqiq edilib öyrənilir. Bu gün böyük məmnuniyyətlə xalqımızın tarixinə və mədəniyyət tarixinə dair qiymətli əsərlər yazmış, xalqımızın tarixini yaratmış bu unudulmaz insanlara, elm və mədəniyyət xadimlərinə öz dərin minnətdarlığımızı bildirməliyik. Həmçinin bu araşdırmaları apararkən əsərlərindən geniş surətdə bəhrələndiyim görkəmli alimlərimizdən akademik Z.Bünyadov, akad. İ.Həbibbəyli, AMEA-nın müxbir üzvü, prof. Ə.Mirəhmədov, akademik N.Vəlixanlı, akad. T.Kərimli, akad. M.Nağısoylu, AMEA-nın müxbir üzvü, prof. H.Səfərli, prof. S.M. Onullahi, prof. Y.Yusifov, prof. C.Zeynalov, prof, A.Allahverdiyev, prof. K.Şərifli, prof. M.Adilov, prof. S.İbrahimov, prof. A.Xələfov və başqalarına öz minnətdarlığımı bildirir və dünyasını dəyişənlərə isə Allahdan rəhmət diləyirik**.**

Həqiqətən yaşadığımız dünyada hər hansı bir mütailəyə ehtiyacımız olduğu kimi yeri gələndə kitaba da möhtac oluruq. Çünki kitab həyat kimidir, kitabın içində isə həqiqətləri yaşayırıq, doğrunu və çatışmamazlığı ayırd edə bilirik. Şəxsi kitabxana üçün kitab seçilməsinə böyük əhəmiyyət verən V.Q.Belinski dostu A.Q.İvanova yazırdı ki: "Öz kitabxananı ancaq çoxlu kitab sahibi olmaq üçün deyil, əqlini maarifləndirmək, ürəyini gözəlləşdirmək, ruhunu böyük dahilərin yaradıcı əsərləri ilə yüksəltmək üçün çoxaltmalısan" (6, s. 284).

Məntiqi araşdırmalardan belə hasil olur ki, Naxçıvanda kitab və kitabxana mədəniyyətinin yaranması anlayışı Naxçıvan ədəbi mühitinin yaranması tarixinin tərkib hissələrindən biri olmuş, dünyanın ən qədim xalqlarından biri olan Azərbaycan və onun tərkib hissəsi hesab edilən Naxçıvan ictimai mühitinin özünəməxsus qədim və zəngin bir mədəniyyəti olmuşdur.

ƏDƏBİYYAT

1. "Qurani-Kərim" (tərc. Bünyadov Z., Məmmədəliyev V.) Bakı: Elm, 1992, 714 s.
2. Adilov M.İ. Azərbaycan paleoqrafiyası. Bakı: Elm, 2010, 224 s.
3. Hüseynzadə R.L. Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikir. Bakı: MBM, 2005, 256 s.

4. İbrahimov S.M. Nemətullah Naxçıvani: XV əsrin görkəmli təsəvvüf və təfsir alimi. Naxçıvan: Əcəmi, 2018, 104 s.
5. İmanov H.R. Fəlsəfə, (mühazirə kursu) Bakı: Turan evi, 2005, 420 s.
6. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. 2 hissədə. I hissə. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004, 328 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: s.ibrahimov71@mail.ru

Sabuhi İbrahimov

BOOK AND LIBRARY CULTURE IN NAKHCHIVAN

The article examines the book and library culture created by Nakhchivan in the millennium and have been received information on its rich history. As a result of the investigations it became clear that the manuscript texts on Nakhchivan form the basis of the book and library culture in Azerbaijan. The medieval version of the Quran, considered to be the oldest manuscript in Azerbaijan, is a vivid example of this valuable artistic work depicted in Nakhchivan in the years of the Atabeyler state of Azerbaijan.

The concept of "book and library culture created by the Nakhchivan environment" was also considered as an integral part of Nakhchivan's culture and literature history, an ancient human settlement.

Keywords: *Nakhchivan, book, library, culture, history, manuscript, text.*

Сабухи Ибрагимов

КНИЖНАЯ И БИБЛИОТЕЧНАЯ КУЛЬТУРА В НАХЧЫВАНЕ

В статье рассматривается литературно-библиотечная культура, созданная Нахчываном в тысячелетии, и получена информация о ее богатой истории. В результате исследований выяснилось, что рукописные тексты о Нахчыване составляют основу книжной и библиотечной культуры в Азербайджане. Средневековая версия Корана, которая считается самой древней рукописью в Азербайджане, является ярким примером этого ценного художественного произведения, изображенного в Нахчыване в годы государства Атабейлер в Азербайджане.

Понятие «книжная и библиотечная культура, созданная нахчыванской средой» также рассматривается как неотъемлемая часть истории и литературы Нахчывана, древнего человеческого поселения.

Ключевые слова: *Нахчыван, книга, библиотека, культура, история, рукопись, текст.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 12.06.2019
Son variant 11.09.2019

UOT 801.73

FƏXRƏDDİN EYLAZOV

AMEA NAXÇIVAN BÖLMƏSİ ƏLYAZMALAR FONDUNDA SAXLANILAN "TƏZKİRƏ" NÜSXƏLƏRİNİN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ

Təzkirələr Azərbaycan ədəbiyyatşünaslığının ilk nümunələridir və klassik irsin toplanması, yayılması və təbliği, ayrı-ayrı yazıçılar haqqında müxtəlif xarakterli məlumatların qorunub saxlanması sahəsində böyük iş görmüşdür. Təzkirə Azərbaycan ədəbiyyatşünaslığının ən uzun ömürlü və həm də ən kütləvi şəkillərindən biridir.

Məqalədə elmi-ədəbi janr olaraq təzkirənin yaranması və formalaşması tarixini nəzərdən keçirmək, Azərbaycan təzkiraçiliyini Yaxın və Orta şərq kontekstində öyrənmək, Azərbaycan təzkiraçiliyinin keçdiyi inkişaf mərhələlərini müəyyənləşdirmək, hər mərhələnin özünəməxsus cəhətləri və təzkirə ənənəçiliyi ilə ortaq xüsusiyyətlərini üzə çıxartmaq, ədəbiyyat məsələlərini öyrənmək və bütövlükdə təzkirənin ədəbiyyat tariximizdəki yerini müəyyənləşdirmək. Təzkirələrin tədqiqi tarixi buradakı klassik irsin araşdırılması ilə eyni vaxta düşür. Lakin təzkiraçiliyin inkişaf tarixinin elmi şəkildə öyrənilməsinə 1960-cı illərdən başlanılmışdır. Günümüzədək bu sahədə müxtəlif tədqiqatlar aparılmış, "Məcməül-xəvas", "Gülşənüş-şüəra", "Atəşkədə", "Təzkireyi-Nəvvab", "Riyazül-aşiqin" təzkirələrinin ədəbiyyat tariximiz üçün məziyyətləri və qiymətləri müəyyənləşdirilmişdir.

Açar sözlər: *Mətnşünaslıq, Naxçıvan, Təzkirə, Riyazül-aşiqin, Təzkireyi-Nəvvab, ədəbiyyat tarixi.*

XIX əsrdə Azərbaycanda yazılan təzkirələr bir çox cəhətdən orta əsr mənbələrindən fərqlənirdi. Belə ki, bu təzkirələrin bir çoxu məhəlli xarakter daşıdığından, adı yaşadığı qəzadan kənarda tanınmayan şairlər də orada öz əksini tapa bilirdi. Məsələn, Nəvvabın öz təzkirəsinə daxil etdiyi səksəndən artıq şairin hamısı XIX əsr Şuşa və onun ətraf kəndlərindəndir. Əlbəttə, bu şairlərin çoxunu Şuşadan kənarda tanıyan yox idi. Bu dövr təzkirələrinin xüsusi cəhətlərindən biri də xalq şeiri üslubunda yazanları da əhatə etməsidir. Bu dövrədək tərtib olunan mənbələrdə Yaxın Şərqin müxtəlif xalqlarının nümayəndələrinə rast gəldiksə, XIX əsrin ikinci yarısında yazılan bir çox təzkirələrdə, demək olar ki, ancaq Azərbaycan sənətkarları haqqında məlumat verilir [10, s. 79]. Məhəlli xarakterli təzkirələrin bariz nümunəsi olan "Təzkireyi-Nəvvab" nəinki Mir Möhsün Nəvvabın əsərləri içərisində, həmçinin ədəbiyyat tarixçiliyimizdə də xüsusi əhəmiyyət kəsb edir. Bu təzkirənin yazılması XIX əsr Azərbaycan, ən əsas isə Şuşa ədəbi mühiti ilə sıx bağlı olub. Bu dövrdə Şuşa şəhərində iki ədəbi məclis – "Məclisi-üns" və "Məclisi fəramuşan" fəaliyyət göstərirdi. Mir Möhsün Nəvvab da "Məclisi fəramuşan"a rəhbərlik etmişdir. Klassik irsin araşdırılması, poeziya və ədəbi nümunələrin təhlili, başqa ədəbi məclis üzvləri ilə şeirləşmə, bu şeirləşmələrin nəticələrinin təhlili "Təzkireyi-Nəvvab" kimi bir əsərin meydana gəlməsinə səbəb olur. Mir Möhsün Nəvvab təzkirənin müqəddiməsində etiraf edir ki, bu əsəri yaxın dostlarının təhriki ilə 1891-ci ildə yazmağa başlamış və 1892-ci ildə bitirdikdən sonra da üzərində işləmişdir. Bunu təzkirədə olan qeydlər və boş buraxılmış səhifələr də sübut edir. Təzkirənin bütün nəsr hissəsi və şeirlərinin böyük qismi fars dilindədir. Əsər iki hissədən ibarətdir. Birinci hissədə Vaqif, Vidadi, Kərbəlayi Şəfi Vazeh, Qasım bəy Zakir, Cəfərqulu xan Arif Nəva, Məhəmməd bəy Aşiq, Aşıq Pəri, Abdulla bəy Asi və başqaları daxil olmaqla otuz beş, ikincisində isə Natəvan, Mehdiqulu xan Vəfa, Fatma xanım Kəminə, Həsənəli xan Qarabağı, Mirzə Rəhim Fəna, Məmo bəy Məmai, Mirzə Həsən Yüzbaşov, Mir Abbas Ağah, Mir Mehdi Xəzani və başqalarından ibarət əlli səkkiz şair haqqında məlumat verilir. Bu şairlərin birinci qismi müəllifin zamanında artıq

öz dünyasını dəyişmişdi. İkinci qismini isə Nəvvab yaxından tanıyırdı, onlarla şəxsi və ədəbi əlaqəsi var idi. Bu şairlər müasirləri idilər. Təzkirənin sonunda verilən qısa qeydlər və adlar isə onu göstərir ki, müəllif təzkirəyə Qarabağdan kənarda olan şairlər haqqında bir fəsil də daxil etmək fikrində olmuşdur. Nəsrəddin Qarayev təzkirədə olan mühüm bir məsələyə öz münasibətini bildirərək yazır: "Burada diqqəti cəlb edən başlıca məsələ Nəvvabın Vidadi haqqında qeydidir. O, yazır: "Mirzə Vəli Bayram xan oğlu Baharlıdır. Baharlı isə Qarabağın Şuşaya tabe olan bir kəndinin adıdır. O, Baharlıda anadan olmuşdur. Tərəkəmədir və Molla Pənah Vaqifin müasiri idi. Məlum olduğuna görə, Molla Vəli Qarabağın hakimi mərhum İbrahim xan Cavanşirin sarayında ona yaxın adamlardan biri idi. Təsadüfən İbrahimxəlil xan bir iş üçün onu İrana, Fətəli Şahın hüzuruna göndərir. Molla Vəli Fətəli Şahın hüzurunda sərt danışır. Şah onun sözlərindən qəzəblənir, fərman verir ki, Molla Vəlini topun ağzına bağlayıb atəş açmaqla öldürsünlər. Molla Pənahla rəqib idilər, həmişə onunla müşavirə etmiş və bir-birinə həcv etmişlər…". Doğrudan da Vaqif İbrahim xanın sarayında baş vəzir olanda Baharlı kəndindən Mirzə Vəli bir neçə elçi ilə Fətəli Şahın sarayına göndərilmiş və orada qətlə yetirilmişdir. Lakin Molla Pənah Vaqif Baharlı kəndindən olan Molla Vəli ilə yox, öz həmyerlisi – qazaxlı Molla Vəli Vidadi ilə şeirləşmişdir. Molla Vəli Vidadinin şeirlərini Baharlı Molla Vəliyə aid etməkdə səhvə yol vermişdir" [10, s. 84]. Təzkirənin maraqlı, diqqətəlayiq cəhətləri çoxdur. Məsələn, bir çox şeirlərin nə münasibətlə yazılması o dövrün ədəbi prosesini izləmək, şairlərin həyat və yaradıcılığını ətraflı öyrənmək baxımından olduqca dəyərlidir. "Təzkireyi-Nəvvab"ın diqqətəlayiq cəhətlərindən biri də indiyədək təzkirələrin heç birində rast gəlmədiyimiz avtoqraf toplamaqdır. Təzkirəni yazarkən müəllif bir çox şairləri yanına dəvət etmiş və şeirlərini xatirə olaraq avtoqraf kimi həmin kitaba yazdırmışdı. Bu mümkün olmadıqda isə şairlərdən avtoqraf vərəqləri alaraq təzkirəsinə tikmişdir. Əkrəm Bağırov isə təzkirəni sənətkarlıq baxımından belə xarakterizə edir: "Nəvvabın gözəl müşahidə qabiliyyəti, təhlil bacarığı imkan vermişdi ki, o, öz təzkirəsində hər bir şəxsin qısa, lakonik ədəbi portretini, görüş və maraq dairəsini çox məharətlə təsvir edib əsərinə qiymət verə bilsin" [2, s. 5]. Azərbaycan təzkiraçiliyi tarixinə öz yeniliyi ilə daxil olan əsərlərdən biri də Məhəmmədağa Müctəhidzadənin "Riyazül-aşiqin" təzkirəsidir. 1912-ci ildə İstanbulda çap olunmuş "Riyazül-aşiqin" təzkirəsinin orijinal əsər və ya tərcümə olması barədə də fikir ayrılığı mövcuddur. Məhəmmədəli Tərbiyətin "Danişməndani-Azərbaycan" əsərində bu təzkirənin "Təzkireyi-Nəvvab"ın türk dilinə tərcüməsi olması fikrini irəli sürməsi tədqiqatçıların nəzərini hər iki əsərin ortaq və fərqli xüsusiyyətləri üzərinə yönəltmişdir. Aljira Topalova "Riyazül-aşiqin" təzkirəsinin tədqiqinə həsr olunmuş namizədlik dissertasiyasında bu məsələni aydınlaşdırmağa çalışaraq yazır ki, hər iki təzkirəni müqayisə etdikdə məlum oldu ki, təzkirələrdə yalnız otuz beş müştərək şairin bioqrafiyası özünə yer almışdır. Gətirilən şeir nümunələri arasında da xeyli fərqlər vardır. Nəvvabın təzkirəsində doxsan bir şair haqqında məlumat olduğu halda, Müctəhidzadə təkcə I cilddə yetmiş səkkiz şairin barəsində məlumat verir. Verilən məlumatların dəqiqliyinə görə də Müctəhidzadə Nəvvabı xeyli qabaqlamışdır. Məsələn, Vidadi haqqında danışarkən, Nəvvab onun Şuşanın Baharlı kəndində anadan olduğunu söyləyir. Halbuki Vidadi, Qazaxda doğulmuş, sonralar Qarabağa köçmüşdür. Müctəhidzadə onun haqqında dəqiq və dolğun məlumat vermiş, Vaqiflə dostluğundan və həyatının başqa cəhətlərindən geniş danışmışdır. Nəvvab öz təzkirəsində şairlərin fiziki və mənəvi xüsusiyyətlərindən danışdığı halda, Müctəhidzadə bu kimi cəhətlərə çox da fikir verməmiş, əsasən onların təhsil və savad dərəcələrindən, sənətkarlıq xüsusiyyətlərindən bəhs etmişdir. Hər iki əsərdə özünə yer tapan

ortaq şeir nümunələri çox azdır və onların sayı iki və ya üçü keçmir. Hətta bu nümunələrin özündə də variant müxtəlifliyinə təsadüf etmək mümkündür. Bütün bunlar göstərir ki, Müctəhidzadə uzun illər ərzində axtarışlar apararaq orijinal bir əsər yaratmışdır və ağır zəhmətin bəhrəsi olan bu əsər heç vəchlə Nəvvab təzkirəsinin tərcüməsi hesab oluna bilməz [8, s. 64]. Azərbaycan dilində yazılan "Riyazül-aşiqin" təzkirəsi də XIX əsr milli-məhəlli təzkirələr üçün xarakterik olan bir formada – iki hissədə yazılmışdır. Birinci hissədə təzkirə yazılarkən artıq dünyasını dəyişmiş şairlər haqqında, ikinci hissədə isə müəllifin müasiri və həyatda olan ədiblər haqqında olan məlumatlar, onların əsərlərindən nümunələr verilmişdir. Əsərin müqəddiməsindən məlum olur ki, təzkirə İskəndər bəy Rüstəmbəyovun sifarişi ilə yazılmışdır. Əsər hicri qəməri 1325-ci ildə müəllif tərəfindən sona çatdırılmışdır. Bu barədə müəllif müqəddimədə məlumat verərək yazmışdır: "Qərəz, şu təmənnamın surəti miratizəmirimdə cilvəgər idi. Tainki hicrətin min üç yüz iyirmi beşində bir gün cənabisəckar İskəndər bəy Rüstəmbəyov ki, cümleyi-əyani-vilayətdən və Təzkirənin müqəddiməsində yazırdı. "Riyazül-aşiqin" iki mövqeyə və bir bağçaya məqsun olundu". Bu ifadədən anlaşılır ki, təzkirə iki cild şəklində planlaşdırılmışdır. Darayi-zəkavətü-mərifət idi və iqlimu danişü qiyasətdə vaqiəh İskəndərü-zəmanü zülmati-Qarabağ içrə abən cəddi çün abi-həyat mənbəyi-cudü ehsan idilər hüzuruna müşəvvəf olub ayineyi-qəlbimdə müsəvvər olan müddəanı nişan verib və şəraiti-bəndəliyi yerinə yetirdim". Göründüyü kimi, Müctəhidzadənin Türkiyədə təhsil alması və əsərin İstanbulda nəşri onun qrammatik prinsiplərinə təsirsiz qalmamışdır. Təzkirədə şairlərin sıralanması onların vəfat tarixləri üzrə olsa da, bu qaydaya hər zaman əməl olunmamışdır. Bu cür düzülüş əsas etibarilə 1255-ci ildən sonraya aiddir. Təzkirələrdə bu uyğunsuzluğun səbəbi isə şairlərin bioqrafiyasında ölüm tarixlərinin göstərilməsi ilə bağlı olur [8, s. 60]. "Riyazül-aşiqin" təzkirəsinin ən yadda qalan cəhəti isə Azərbaycan təzkirə ənənəçiliyində ilk dəfə olaraq şairlərin avtoqraflarının verilməsidir. Əkrəm Bağırov bu təzkirəni Nəvvab təzkirəsi ilə müqayisə edərək üstünlüyü növbə ilə gah Nəvvaba, gah da Müctəhidzadəyə verərək yazır: "Lakin hər iki halda "Riyazül-aşiqin" təzkirəsi XIX əsr Azərbaycan ədəbi mühitini, onun inkişaf rəngarəngliyini öyrənmək baxımından ilk mənbə kimi olduqca maraqlı bir əsərdir" [9, s. 5]. XIX əsr təzkirəçilərindən Qarabağinin təzkirəsində də, əsasən, Qarabağda yaşamış şairlərdən bəhs edilmişdir. O, Vaqif və Vidadinin həyatına aid bütün mənbələrdən daha artıq məlumat vermişdir. Qarabağı Sarı aşıqdan ilk dəfə danışan təzkirəçidir. Lakin o, heç bir şairin əsərini şərh etməmişdir [1, s. 6].

AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda mühafizə olunan 3 ədəd təzkirədə (Riyazül Arifin, Rizaqulu xan Hidayət, Tehran, 1305 h.q., 368 səh. fars dilində ornamentlidir [4]. Riyazül Aşiqin, Müştəri Müstəhidzadə Qarabağı, 1328 h.ş., İstanbul, 278 səh., fars dilində[5] və Təzkireyi Nəvvab, Mir Möhsün Nəvvab, Bakı, 1913, 248 səh., fars dilində [6]). 5 Naxçıvanlı müəllifin (Əbu Əli Ordubadi, Molla Abbas Vənəndi, Müslüm Vənəndi, Hüseyn Çakər, Mirzə Muxtar) həyat və yaradıcılığından bəhs olunmuşdur. Bu təzkirələrdə verilən məlumatlar bir mənbə kimi çox qiymətlidir.

Orta əsrlər və XIX əsr Azərbaycan təzkirələrini nəzərdən keçirdikdən sonra belə bir nəticəyə gəlirik ki, XIX əsrdə təzkiraçilik orta əsr ənənəçiliyindən və Şərq kontekstindən ayrılaraq milli məhəlli xarakter qazanmaqla yanaşı şairlərin şəxsiyyəti və əsərlərinin sənətkarlıq xüsusiyyətləri üzərindəki görüşlərini mümkün qədər əhatəli çatdırması ilə müasir ədəbiyyatşünaslıq elminə bir addım daha yaxınlaşmışdır. Bununla yanaşı təzkirələrin araşdırılması regionun orta əsrlər dövrü üzrə tədqiqatların dərinləşməsində istifadə edilə biləcək yeni mənbə kimi qiymətlidir. Bu da öz növbəsində orta əsrlər dövrü elmi mühitini yaxından izləmək

üçün əsaslı zəmin yaradır. Bununla yanaşı orta əsrlər dövründə regionun ədəbi dili, kitabçılıq sənəti, katiblik, təzkirəçilik və digər sahələrin öyrənilməsində əsaslı qaynaq kimi istifadə oluna bilər.

ƏDƏBİYYAT

1. Muradova M. Sadıq bəy Sadiqinin həyat və yaradıcılığı. Bakı: Elm, 1999.
2. Nəbiyev B. Firudin bəy Köçərli. Bakı: Gənclik, 1984.
3. Mümtaz S. Təzkirələr. 2 vərəq, fond № 24. inv. siyahı 1, saxlama vahidi № 414.
4. Rizaqulu xan H. Riyazül Arifin. Tehran, 1305 h.q., 368 s. AMEA Naxçıvan Bölməsi, Əlyazmalar Fondu, şifr: B 84/164.
5. Müstəhidzadə M.Q. Riyazül Aşiqin, 1328 h.ş., İstanbul, 278 s., AMEA Naxçıvan Bölməsi, Əlyazmalar Fondu, şifr: B 85/165.
6. Mir Möhsün N.Təzkireyi Nəvvab, Bakı, 1913, 248 s., AMEA Naxçıvan Bölməsi, Əlyazmalar Fondu, şifr: B 86/166.
7. Tərbiyət M. Danişməndani-Azərbaycan. Bakı: Azərnəşr, 1987, 464 s.
8. Topalova A. Ədəbiyyat tarixinin öyrənilməsində təzkirələrin rolu və Ağa Məhəmməd Müctəhidzadənin "Riyazül-aşiqin" təzkirəsi: Filol. elm. nam. ... diss. Bakı: Elm, 2001.
9. Бакыханов А. Гюлистани-Ирам. Баку, 1991, 219 s.
10. Крымски А.Е. Низами и его современники. Баку, 1981, 364 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: eylazov.f@gmail.com

Fakhraddin Eylazov

SIMILAR AND DISTINCTIVE FEATURES OF COPIES OF "TAZKIRE" STORED IN THE MANUSCRIPT FUND OF THE NAKHCHIVAN BRANCH OF ANAS

Memoirs are the first examples of Azerbaijani literary criticism and have done a great work in the field of collecting, disseminating and propagating classic heritage, and preserving different types of information about individual writers. Memoir is one of the long living and most massive types of Azerbaijani literary criticism.

The article aims to examine the history of the emergence and formation of the scientific-literary genre, to study Azerbaijan's history in the context of Middle and Middle East, to identify the developmental stages of the Azerbaijani memoir tradition, to identify the distinctive features of each stage and its commons with memoir tradition, to learn literary matters and to determine the place of memoir in our history. The investigation history of memoirs coincides with the research of classical heritage here. However, the scientific study of the development history of memoirs began in the 1960s. Different researches have been conducted in this area so far, as well as the virtues and values of the memoirs like "Majmuul-hawas", "Gulshanush-shuara", "Ataşkhada", "Tazkireyi-Navvab" and "Riyazul-ashiqin" has been determined.

Keywords: *Text study, Nakhchivan, Memoir, Riyazul-ashiqin, Tazkireyi-Navvab, history of literature.*

Фахреддин Эйлазов

СХОДНЫЕ И ОТЛИЧИТЕЛЬНЫЕ ЧЕРТЫ ЭКЗЕМПЛЯРОВ «ТЕЗКИРЕ», ХРАНЯЩИХСЯ В ФОНДЕ РУКОПИСЕЙ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАНА

Тезкиры являются первыми примерами азербайджанского литературоведения и проделали большую работу по сбору, распространению и пропаганде классического наследия, защите различных сведений об отдельных писателях. Это одна из самых продолжительных и самых массовых форм литературоведения в Азербайджане.

В статье рассматривается история возникновения и формирования тезкире как научно-литературного жанра, изучается азербайджанское тезкиреведение в контексте Ближнего и Среднего Востока, определяются этапы развития азербайджанского тезкиреведения, раскрываются особенности каждого этапа, общие с самобытностью свойства, изучаются вопросы литературы, и в целом определяется место тезкире в истории нашей литературы. История изучения тезкире совпадает с изучением здесь классического наследия. Однако научное изучение истории развития тезкире началось с 1960-х годов. На сегодняшний день проведены различные исследования в этой области, определены достоинства и значение литературных тезкире «Меджмаул-Хавас», «Гюльшануш-Шуара», «Атешке», «Тазкирейи-Навваб», «Риязул-ашигин» в нашей истории.

Ключевые слова*: Текстоведение, Нахчыван, Тезкире, Риязул-ашигин, Тезкиреи-Навваб, история литературы.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 30.05.2019
Son variant 29.08.2019

UOT 81:002

KÜBRA VƏLİYEVA

AZƏRBAYCAN VƏ ƏRƏB DİLLƏRİNDƏ TİBBİ MƏTNLƏRİN TƏRCÜMƏSİNDƏ ÇƏTİNLİKLƏR VƏ TRANSLİTERASİYA PROBLEMİ

Tibbi tərcümə elmi-texniki tərcümənin bir qolu və tərcümənin çox mühüm bir növüdür. O eyni zamanda professional tərcümənin ən aktiv növlərindən biridir.

Tibbi terminologiyada tibbi mətnlərin məxəz və hədəf dillər arasında tərcüməsi və müqayisəli şəkildə araşdırılması vacib olan problemlərdən biridir. Məlumdur ki, linqvistika nöqteyi-nəzərindən transliterasiya sözlərin və ya mətnin uyğun qaydalara əsasən başqa əlifbaya hərfbəhərf çevrilməsidir. Məruzədə tibbi mətnlərin tərcüməsi zamanı yaranan çətinliklər və eyni zamanda məxəz və hədəf dilə tibbi terminlərin transliterasiyası zamanı qarşıya çıxan problemlərdən bəhs olunur.

Müəllif burada tibbi mətnlərin tərcüməsi zamanı yaranan çətinliklərin və transliterasiya probleminin Azərbaycan və ərəb dillərində müqayisəli şəkildə tədqiqi və təhlili istiqamətində araşdırmalara üstünlük vermişdir.

Beləliklə, belə elmi qənaətə gəlinmişdir ki, Azərbaycan və ərəb dillərində tibbi mətnlərin müqayisəli təhlilində, mətnlərin mükəmməl tərcüməsinə nail olmaqda və həmçinin transliterasiya işində tərcüməçinin bu sahəyə xas elmi bilik və təcrübəsinin olması yarana biləcək problemlərin həllində müəyyən elmi əhəmiyyətə malikdir.

Açar sözlər: *transliterasiya, tərcümə problemi, Azərbaycan dili, ərəb dili, tibbi terminologiya.*

Tərcümə dillər və mədəniyyətlər arasında ünsiyyətdə əsas rol oynayır. Tərcüməni dilin hüquqi, dini, ədəbi və s. sahələrinə tətbiq etmək olar. Bu sahələr arasında elmi və texniki ixtisasları əhatə edən elmi və texniki tərcümə növləri vardır. Elmi anlayış və məzmunları ifadə etmək terminlərin arxasında dayanan ideyaların başa düşülməsini və dəqiqliyini tələb etdiyindən çətin və ciddi prosesdir. Elmin çətinlikləri əsasən elmin və texnologiyanın özünün xarakterik terminologiyası səbəbindən qaynaqlanır.

Elmi və texniki tərcümənin insanların həyatına təsiri çox mühümdür. Buna görə də texniki tərcüməçi ümumi dil bacarığından əlavə, uyğun sahədə xüsusi ekspert biliyinə sahib olmalıdır. Tərcüməçinin tərcümə zamanı uyğun ekvivalentə nail olmaqdakı uğursuzluğu əksər sahələrdə yanlış anlaşılmalara gətirib çıxarırsa, tibb sahəsində çox ciddi problemlərə səbəb olar. Buna görə də, tərcüməçi tərcümə prosesi zamanı hər iki dildə qarşılaşdığı tibbi terminlərin anlaşılmasının əhəmiyyətindən və əsas fikrin həssaslığından xəbərdar olmalıdır.

Tətbiqi dilçiliyin bir sahəsi olan tərcümə sonralar müstəqil bir elm sahəsi kimi inkişaf etmişdir. Tədricən tərcümə sahəsində ön plana çıxması ilə o, mətn növləri ilə əlaqələndirilmiş, tərcümənin mətn növlərinə görə edilməsi vacib sayılmışdır. Mətnlər mütəxəssislər tərəfindən dildəki əsas funksiyalarına görə qruplaşdırılmışdır.

Tibbi mətnlərin tərcüməsi zamanı qarşılaşılan problemlər, sosial elmlər və digər təbiət elmləri mətnlərinin tərcüməsindəki problemlərlə eynilik təşkil edir. Beləliklə, elmi mətnlərin linqvistik xüsusiyyətləri də oxşardır. Ümumiyyətlə, əsas mövzu linqvistik xüsusiyyətlər bir növ texniki quruluş olaraq qəbul edilir. Bu növ mətnlərdə əsasən məchul növ, birinci şəxsin cəmi, indiki və keçmiş zaman, xüsusi konseptual metaforanın istifadəsi ilə özünə məxsus texniki forma əsas məsələdir. Mətnlərdə istifadə olunan texniki dil isə öz daxilində akademik, professional və məşhur olmaqla qruplaşdırılır.

Tibb elmi tarixi baxımdan ən qədim sahələrdən biridir və mövzu etibarilə qlobaldır.

Tibbi mətnlərdə ən çox diqqət çəkən xüsusiyyət, özünə məxsus terminologiyasının fərqli dillərdən əmələ gəlməsidir. "Tibbi mətnlərin əsasən yunan və latın sözlərindən əmələ gəlməsi, tərcüməçi üçün xüsusi olaraq bu dillərə məxsus terminologiyanı bilmək, bu dillərin kök, şəkilçi kimi söz xüsusiyyətlərindən xəbərdar olması lazımdır. Bu xüsusiyyətinə görə tibbi mətnlərin tərcüməsi ixtisaslı mütəxəssis olmağı tələb edir" [4, s. 77]. Belə ki, bu mövzuda tərcüməçiliklə məşğul olan şəxslər ya səhiyyə sahəsində işləyənlər, ya da bu mövzuda ixtisaslaşmağa çalışan tərcüməçilərdir.

Tibbi mətnlərin tərcüməsi tərcümənin xüsusi bir məqsədə istiqamətlənmiş fəaliyyətidir. Funksional yanaşma ilə izah edilən tərcümə fəaliyyətində məqsəd məxəz mətndəki tərcümənin hədəf dildə də qarşılıq tapmasıdır.

"Məlumatın ötürülməsi əsas məsələ olduğu zaman məxəz dildəki məlumatın məqsədinə uyğun formada hədəf dilə ötürülməsi tərcümə fəaliyyətinin məqsədinə uyğun reallaşdırılması mənasını verir. Belə ki, elmi mətnlər sahəsində maarifləndirici mətn növündə daxil etdiyimiz tibbi mətnlər mənaları ilə müəyyən bir məqsədi olan mətnlərdir" [6, s. 128].

Tərcümədə məxəz və hədəf dil mətnlərinin arasındakı əlaqənin təbiətini və ölçüsünü müəyyənləşdirmək üçün istifadə etdiyimiz "ekvivalentlik" termini istifadə olunur. Tərcümə vasitələrinin qarşılaşdırılması yolu ilə ənənəvi üsulla tərcümə mətnin linqvistik quruluşlarla sınanması tibbi mətnlərdə məsələ deyildir. Belə ki, müəyyən bir təsiri və tərkibi olan elmi mətnlərdə məxəz mətnlə hədəf mətn arasındakı ekvivalentlik əlaqəsi fərqli bir yolla qiymətləndirilir.

"Tərcümənin məqsədinə uyğun edilməsi məxəz mətnin məxəz dildəki istifadəsinin hədəf dilə ötürülməsi deməkdir" [3, s. 121].

Tərcümənin məqsədinə uyğun yerinə yetirilməsi yuxarıda qeyd edildiyi kimi elmi mətnlərin tərcüməsində xüsusilə vacibdir. Beləliklə, nəzəri mənada funksional və nəticə mərkəzli tərcümə işi həyata keçirilir. Funksional tərcümənin reallaşdırılması üçün tərcüməçinin bu sahədə ixtisaslaşarkən tibbi mətnlərin tərcüməsinin ümumi problemlərini və diqqət edilməsi lazım olan vəziyyətləri bilməsi vacibdir.

Tibbi tərcümə məxəz mətnin hədəf dilə ötürülməsində yüksək dərəcədə məntiqilik və dəqiqlik tələb edir. Tibbi terminlərin tərcüməsi adətən bir çox çətinliklər yaradır. Baxmayaraq ki, bir çox tibbi terminlər heç bir çətinlik olmadan tərcümə edilə bilir, bəziləri isə tərcümə etmək üçün olduqca çətindir.

Başqa dillərdə olduğu kimi Azərbaycan və ərəb dilləri arasında da tibbi mətnlərin tərcüməsi ilə məşğul olarkən tərcüməçi bir sıra tərcümə problemləri ilə üzləşir. Bunlara ekvivalentlik (mədəni ekvivalentlik, qeyri-ekvivalentlik, qrammatik ekvivalentlik), neologizm, eynimənalılıq, çoxmənalılıq, terminoloji uyğunsuzluq, akronim və eponim, simvollar, transliterasiya və s. misal göstərmək olar.

Tibbi tərcümədə rast gəlinən əsas problemlərdən biri də transliterasiya problemidir.

"Transliterasiya" latın sözü olub, mənası "hərflər vasitəsilə yazmaq" deməkdir. Transliterasiya bir əlifba sistemi ilə yazılan sözlərin, söz birləşmələrinin, heca və səsin başqa əlifba sisteminə məxsus hərflərlə verilməsidir.

Transliterasiya 2 yolla həyata keçirilir:

– dildəki vahidləri simvollarla əvəz edərək;

– verilmiş dil vahidlərini digər dil vahidlərilə əvəz edərək.

Transliterasiya başqa xalqlara məxsus şəxs adlarını, familiyaları, kənd, şəhər, yer, çay və digər coğrafi adları ana dilində əks etdirmək məqsədini güdür. Transliterasiya bir xalqa

məxsus olan xüsusi adları və digər terminləri başqa dillərdə əks etdirərkən həmin adların tələffüzünə və orijinal yazı formalarına əsaslanır. Odur ki, transliterasiya olunan və transliterasiya edilən şəxs və terminlərdə orijinal mənbənin tələffüz xüsusiyyətləri və yazılışı ilə ana dilinin fonetik və qrafik sisteminin imkanları nəzərə alınır.

"Mənbə dildəki sözün tələffüzünün hədəf dildə fonetik transkripsiya edilməsi prosesi transliterasiya adlanır" [1, s. 105]. Tibb sahəsində bunun bir çox nümunəsi vardır: Məsələn,

xloroz – كلوروز
karbohidrat – كربوهيدرات
keratin – كريئتين
thalessemiya – ثلاسيمية
proteyin – بروتين
adrenalin – ادرينالين
xolesterol – كولِستِرول

Bir qrup ərəb alimi bu metodu faydalı metod hesab edirlər. Xüsusilə də xarici adların, farmakoloji vahidlərin və etiketlərin xarici dildən ərəb dilinə tərcüməsi zamanı. Amma, digər ərəb alimləri bu metodu kasıb metod adlandırır və iddia edirlər ki, bu tərcümənin ən pis və ən kasıb metodudur və xarici sözlərin ərəb dilinə daxil olmasına icazə verir [7, s. 49; 5, s. 55]. Buna görə də, iki hal istisna olmaqla tərcüməçilər bu metoddan istifadə etməkdən çəkinməlidirlər:

– Xarici dildəki terminə ərəb dilində hələ də ekvivalent tapılmadığı halda.

Məsələn, vitamin فيتامين. Belə bir vəziyyətdə ərəb dilində ekvivalent tapılana qədər müvəqqəti olaraq bu sözlərdən istifadə edilə bilər:

virus فيروس \ جرثومة və s.

– Nəyisə ixtira edən şəxslərin adını xarici dildə yazarkən.

Transliterasiya zamanı bəzi dillərdə bəzi hərfləri ifadə etmək problem olduğu üçün bu işi yerinə yetirmək asan deyil. Məsələn, ərəb dilində "g" səsinin üç ekvivalenti vardır:

"ج", "غ" və "ق". Bundan əlavə "p" səsinin ərəb dilinə transliterasiyası problem yaradır, çünki ərəb dilində bu səs mövcud deyil. Məsələn, parkinsonizm بركينسونية.

Həmçinin ərəb dilində [f və v] səsləri arasında ərəb dilində heç bir fərq yoxdur. Onlar hər ikisi "ف" hərfi vasitəsilə transliterasiya olunur. [u və o] səsləri ancaq "و" səsi ilə çevrilə bilər.

Azərbaycan və ərəb dillərində qarşılıqlı tibbi tərcümədə ərəb qrafikasında transliterasiya olunan beynəlxalq tibbi terminlər Azərbaycan dilinin qrammatik strukturuna uyğun olaraq tərcümə olunurlar. Məsələn:

فبرينوجين – fibrinogen
غليكوجين – qlikogen
هيموغلوبين – hemoqlobin
غلوكوما – qlaukoma
أسيتون – aseton
بلازما – plazma
ديميدرول – dimedrol

Ümumiyyətlə, transliterasiya tibb sahəsində geniş yayılmış bir prosesdir. Bir çox terminlərin ərəb dilində ekvivalenti olmasına baxmayaraq, onlar yenə də transliterasiya olunurlar. Məsələn:

leykemiya – لُوكِيمِيَا
sarkoma – سَرْكُومَة
anemiya – أنيميا

Bu sözlərin həmçinin ərəb dilində ekvivalenti vardır, amma transliterasiya olunmuş versiyası daha çox işlənir.

leykemiya – سَرَطان الدَّم \ لوكِيميَا
sarkoma – وَرَمٌ لِحُمِّي \ سَرْكُومَة
anemiya – فقر الدَّم \ أنيميا

Ərəb tərcüməçiləri müxtəlif səbəblərdən transliterasiyaya meyl edirlər:

– Bəzi tibbi terminlərin, şəxslərin adlarının, düsturların və bəzi yerlərin ərəb dilinə tərcümə olunması mümkün olmadığından;

– Onlar xarici termin üçün ərəb dilində ekvivalent tapa bilmədikdə transliterasiyaya güvənirlər.

Bu problemdən həlli üçün hədəf dil oxucusuna tanış olmayan alınma sözlərin izahını vermək faydalıdır. Məsələn, tripanosomiya sözü "مرض النوم – التريبانوسومية الإفريقية" kimi ərəb dilinə çevrilə bilər. "Transliterasiya olunmuş terminin izahını vermək terminin nəzərdə tutulmuş mənasını başa düşmək üçün hədəf dil oxucusuna kömək edəcək" [2, s. 23].

Nəticə olaraq demək olar ki, bəzi terminoloji uyğunsuzluqlar, neologizmlər, çoxmənalılıq və ekvivalentin olmaması tibbi terminologiyada problemlər yaradır və bunlar hələ də mövcuddur.

Yaxşı bir tərcümə məxəz dildən hədəf dilə informasiyanı çatdıran, yazıçı və oxucu və ya danışan və dinləyən arasında dil baryerlərini qaldıran vasitədir. Tərcümə Azərbaycan və ərəb dilləri kimi müxtəlif mədəniyyəti, əlifbası və quruluşu olan iki dillə əlaqəlidirsə bu, asan iş deyildir. Azərbaycan və ərəb dilləri arasında bir çox linqvistik fərqlər vardır. Ərəb və Azərbaycan tərcüməçiləri məxəz və hədəf dildə eyni mənanı ifadə edən yaxşı tərcümə ortaya çıxarmaq üçün bu fərqlərdən xəbərdar olmalıdırlar.

ƏDƏBİYYAT

1. Argeg M.G. The problems of Translating Medical Terms from English into Arabic. Durham: Durham University Press, 2015, 265 p.
2. Baker M. In other Words: A Course-book On Translation. London: Routledge, 2011, 352 p.
3. Berk Ö. Çevribilim Terimcesi. İstanbul: Multilingual Yay, 2005, 218 s.
4. Erten A. Tıp terminolojisi ve Tıp Metinleri çevrisi. Ankara: Seçkin Yayıncılık, 2007, 246 s.
5. Ghazalla H. Translation as Problems and Solutions. Valita: LGA Publication.
6. Oğuz D. Translation problems in medical texts // The Journal of International Social Research, s. 127-134.
7. Mattlub A. Harakat al-tarib fi al-iraq. Baghdad: Markaz dirasat wa buhuth al-lugha al-ara biyya, 1983.

AMEA Naxçıvan Bölməsi
E-mail: kubra.valiyeva@yahoo.com

Kubra Valiyeva

DIFFICULTIES IN THE TRANSLATION OF MEDICAL TEXTS IN AZERBAIJANI AND ARABIC AND TRANSLITERATION PROBLEM

Medical translation is a branch of scientific and technical translation and is a very important form of translation. It is also one of the most active types of professional translation.

Translation and comparative research of medical texts between source and target languages in medical terminology is one of the major problems. It is known that from the linguistic point of view, transliteration is a literal rendering process of words or text into another alphabet according to the relevant rules. The report focuses on the problems that arise in the translation of medical texts, as well as the problems faced in the transliteration of medical terms from source language into target language.

The author prefers research on the comparative analysis and analysis of problems in translating medical texts and transliteration problem in the Azerbaijani and Arabic languages.

Thus, she has come to such a conclusion that in the comparative analysis of medical texts in Azerbaijani and Arabic, achieving the perfect translation of medical texts and also the process of transliteration, having the relevant knowledge and experience has certain scientific importance in solving the problems than can be faced.

Keywords: *transliteration, translation problem, the Azerbaijan language, the Arabic language, medical terminology.*

Кубра Валиева

СЛОЖНОСТИ ПЕРЕВОДА МЕДИЦИНСКИХ ТЕКСТОВ НА АЗЕРБАЙДЖАНСКОМ, АРАБСКОМ ЯЗЫКАХ И ПРОБЛЕМА ТРАНСЛИТЕРАЦИИ

Медицинский перевод является основной ветвью научно-технического перевода и очень важной формой перевода. Он также относится к самому активному виду профессионального перевода.

В медицинской терминологии важной проблемой является перевод и сравнительное изучение медицинских текстов, как в языке оригинала, так и в целевых языках. Известно, что с лингвистической точки зрения, транслитерация это побуквенная передача знаков одной письменности знаками другой в соответствии с правилами. В докладе рассматриваются проблемы, возникающие при переводе медицинских текстов, а также проблемы при транслитерации медицинских терминов на исходныйи целевой языки.

Автор здесь уделяет внимание сравнительному исследованию и анализу проблем перевода медицинских текстов и проблеме транслитерации на азербайджанском и арабском языках.

Таким образом, он пришел к такому выводу, что знание и опыт переводчика имеет определенное научное значение для решения проблем, которые могут возникнуть при сравнительном анализе медицинских текстов на азербайджанском и арабском языках, совершенном переводе текстов, а также в транслитерации.

Ключевые слова: *транслитерация, проблема перевода, азербайджанский язык, арабский язык, медицинская терминология.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: **İlkin variant 15.07.2019**
Son variant 12.09.2019

UOT 94 (479.24)

NİCABƏT İSLAMOVA

ƏRƏB MƏNBƏLƏRİNDƏ OSMANLI-QARAQOYUNLU VƏ TEYMURİ MÜNASİBƏTLƏRİNƏ QISA BAXIŞ

Qaraqoyunlu dövləti XIV əsrin əvvəllərində yaranmışdır. Hələ yarandığı ilk dövrlərdə bu dövlət artıq qonşu dövlətlərlə əlaqələr yaratmağa başlamışdır. Bu dövlətlər arasında Osmanlı dövlətinin özünə məxsus yeri var. Qaraqoyunlu və Osmanlı dövlətləri arasında olan münasibətlər tarixi faktlarda öz təsdiqini tapmışdır. Dövrün əlyazma əsərlərində də bu iki dövlət arasında olan dostluq əlaqələri haqqında məlumatlar almaq mümkündür. Həm Qaraqoyunlu, həm də Ağqoyunlu dövlətləri öz ortaq düşmənlərinə qarşı həmişə bir-birlərinə dəstək olmuşdurlar.

Açar sözlər: *Qaraqoyunlu, Osmanlı, diplomatik əlaqələr, Teymur, Bəyazid.*

XIV əsrin sonlarında Azərbaycan ərazisində yaranmış qeyri-sabitlik yadelli işğalçıların buraya hücumlarını həyata keçirməsi üçün əlverişli şərait yaradırdı. Bu ərazilərdə həmişə gözü olan Teymur və Toxtamış da onlar üçün əlverişli olan şəraitdən çox böyük bacarıqla istifadə etdilər. Yadellilərin hücumları da Osmanlı ilə Qaraqoyunlu arasında olan münasibətləri daha da yaxınlaşdırdı. Həmin dövrdə Qaraqoyunlu, Osmanlı və Teymurilər arasında olan münasibətlərə nəzər salsaq görərik ki, Teymurilərin hücumlarına qarşı bu iki dövlət həmişə bir-birlərinə dəstək olmağa çalışmışdırlar.

Ərzurum, Xoy, Naxçıvan ərazisində güclənən Qaraqoyunlu tayfa birliyi Teymurun hücumlarına qarşı ciddi müqavimət göstərməyə başlamışdır. Bu da qonşu dövlətlərin onlara qarşı olan diqqətini artırırdı. Xüsusilə Osmanlı dövlətinin Qaraqoyunlulara qarşı olan rəğbətini xeyli artırmışdır. Qaraqoyunlu tayfası get-gedə güclənərək öz ərazilərin genişləndirdi. Bu isə Osmanlı sultanlığına Teymurun zülmündən xilas olmağa vaxt qazandırırdı. Məhz buna görə də Osmanlılar Qaraqoyunlulara rəğbət bəsləyir, onlara dəstək verirdilər. Amma buna baxmayaraq Osmanlılar Qaraqoyunluların çox güclü olmasının da tərəfdarı deyildilər. Bunu aşağıdakı faktla da təsdiq etmək olar. Osmanlı əmirləri Qara Məhəmmədin Malatya qalasını ələ keçirməsindən qorxurdular Şeyx Həsən adlı bir nəfərin Bəyazidə göndərdiyi məktubda deyilir ki, "Məntaş Malatya qalasını qorumaqda acizdir. Onu başqasıyla əvəz etmək lazımdır. Əgər mənin fikrim qəbul olunmazsa və ya təxirə salınarsa qala Qara Məhəmmədə və ya başqa birisinə təslim olacaqdı." [5, s. 154].

Hicri 802 (miladi 1400)-ci ildə Azərbaycanda baş vermiş hadisələrə nəzər salsaq görərik ki, Teymurun bu torpaqlara gəlməsi Qara Yusifin Van gölü ətrafından Mosula doğru çəkilməsi ilə nəticələnir. Teymurun yenidən Azərbaycanda görülməsi təkcə Qara Yusifi deyil, həmçinin Cəlayir sultan Əhmədi də təşvişə salmışdı [1, VI, s. 44]. Bu səbəblə o ətrafında çox az adam olduğu halda gizlincə şəhərdən çıxaraq Mosulda olan Qara Yusifin yanına gəldi. Qara Yusif Sultan Əhmədi yaxşı qarşılayaraq ona qarşı çox böyük qonaqpərvərlik göstərdi. Bir müddət Mosulda qonaq qalan Əhməd Qara Yusiflə birlikdə Bağdada dönməyi təklif etdi. Sultan Əhməd Qara Yusif ilə birlikdə Bağdada gələrək heç bir çətinlik çəkmədən Bağdada hakim oldu [2, 101; 10, s. 203].

Teymurun Anadolunu zəbt etməklə onlara arxadan zərbə vuracağı mülahizəsini yürüdən müttəfiqlər Məmlük sultanının yanına getməyi qərara aldılar [2, s. 101; 3, s. 59a; 1, VI, s. 44-45].

Hicri 802 (miladi 1400)-ci ilin sonlarına doğru sultan Əhməd və Qara Yusif Məmlük sultanı Fərəcə elçi göndərərək şəhərə girməyə izn verməsini xahiş etdi [10, s. 203]. Hələb şəhərinin yaxınlığına çatdıqları vaxt Hələb naibi Dəmirdaş qarşılarına çıxdı. Hicri 802 (miladi 1400)-ci ildə Hələb yaxınlığında baş vermiş döyüşdə Dəmirdaş ağır məğlubiyyətə uğradı [1, VI, s. 45]. Müharibədən sonra sultan Əhməd və Qara Yusif Sultan Fərəcə məktub yazaraq baş vermiş hadisəyə Dəmirdaşın səbəb olduğunu bildirdilər. Lakin, Hələb naibinin sultan Əhmədə və Qara Yusifə qarşı belə münasibət göstərməsində Sultan Fərəcin dəstəyi olduğunu ehtimal etmək olar. Baş vermiş bu hadisədən sonra Məmlük dövlətinin köməyindən ümidlərini kəsən Əhməd Cəlayiri və Qara Yusif İldırım Bəyazidin yanına getməyi qərara aldılar [10, s. 203].

803-cü ildə Qara Yusif və Əhməd bin Üveys Rum ölkəsinə getmək üçün Hələb istiqamətinə yol aldılar. Hələb naibi Dudaş onlara mane oldu. Əhməd bin Uveys qaçdı Qara Yusiflə birlikdə Malatyaya girdilər. Əhməd bin Uveys Sivasa döndü sonra Bursaya getdi. İbn Osmanla görüşdü. Əhməd İbn Uveysdən bir az müddət sonra Qara Yuluk Sivasa gəlib buranı mühasirə etdi. Bu hadisə məhərrəm ayında baş verib. Sivas xalqı ondan aman (imdad) istədi. O da onlara aman verdi [4, c I, s. 143 b, 803-cü il].

وفى اولها وصل قرا يوسف و احمد ابن اويس الى جهه حلب طالبين بلاد الروم فصدهما دودان
نائب حلب عن ذلك فهرب احمد و نهب و توجه هو و قرا يوسف الى ملطية ثم ان بعض الجند فصح احمد
و عرفه ان قرا يوسف يريد الغدر به فلما تحقق ذلك فرمنهم فنهب ما خلفه و اما فى حق اخته و زوج
احمد بن اويس الى سيواس ثم توجه الى برصة و اجتمع ابن عثمن و من بعد وصول احمد بقليل وصل
قرا يلك الى سيواس فحاصرها و ذلك فى المحرم و طلبوا الامان فامنهم .

Lakin, yolda bu iki müttəfiq arasında narazılıq yaranmış və bunun nəticəsində də Qara Yusif Əhməddən ayrılaraq öz ölkəsinə geri dönmüşdür [4, s. 106 b]. Lap əvvəldən onların hər bir hərəkətini addım-addım izləyən Teymur tək qalmış Əhməd Cəlayirinin üzərinə qoşun göndərmiş, onu dəhşətli məğlubiyyətə uğradaraq bacısı, həyat yoldaşı və qızlarını əsir aldı. Çox böyük çətinliklə canını qurtaran Əhməd Cəlayiri İldırım Bəyazidə sığındı [4, s. 106 b]. Teymurun Suriya istiqamətinə getdiyini eşidən Qaraqoyunlu bəyi də çox keçmədən ətrafında olanlarla birlikdə İldırım Bəyazidin yanına gəldi [8, s. 34]. Osmanlı tarixçiləri Qara Yusifin səkkiz və ya doqquz ay burada qonaq qaldığını qeyd edirlər [6, s. 391, s. 393]. Teymurun Suriyaya səfər etdiyi vaxt İldırım Bəyazid Qara Yusif və sultan Əhmədlə birlikdə Ərzincan hakimi Mütəharatənin üzərinə hücum etdi. Baş vermiş döyüşdə Ərzincan hakimi ağır məğlubiyyətə uğradı. Osmanlı tarixçilərinin yazdıqlarına görə, İldırım Bəyazid Ərzincanı Qara Yusifə vermişdi [6, XV, s. 382; 7, s. 391, s. 393; 10, s. 242]. Lakin, Qara Yusif şəhər xalqı ilə münasibət qura bilmədi. Buna görə də 6 gün şəhərdə hökmranlıq etdikdən sonra öz istəyi ilə buranı tərk etdi [10, s. 242]. İldırım Bəyazid həm onun, həm də Ərzurum xalqının xahişi ilə şəhəri Mütəharatənə geri qaytardı [9, s. 309; 10, s. 242]. Lakin Mütəharatənin ailəsinin padşah tərəfindən Bursaya sürgün olunması onun ürəyini kinlə doldurmuşdur [10, s. 242]. Digər tərəfdən Osmanlı sultanının bu hərəkəti İldırım Bəyazidin üzərinə getmək istəyən Teymur üçün bəhanə oldu. Cığatay hökmdarı Osmanlı hökmdarına təhdidlərlə dolu məktub göndərir. Məktubun mətni belə idi: "Ey diyari-Rumda məlik olan İldırım Bəyazid. Bil ki biz nəsr təyidlə mənsur və müzəffər bir sultani cədidiz. Xəlayiqin cümləsi bizə qul olmuşdur. Mütənəbbeh ol ki, Qara Yusif və Sultan Əhməd bizim qılınclarımızın sətvətindən əsgərlərimizin heybətindən qaçdılar. Sənə xəfi deyildir ki, bu adamlar maddeyi-fəsad olub təxribi-bilad və tədmiri-ibad edirlər, bunlar Firon və həmin kimi ülüvə və istikbaddə kafirdirlər. Əgər kəndi idbarini

istəmirsənsə onları qəbul etmə, bunlar məiyyətləri xalqi ilə sizin diyarınızda himayət görmüşlər. Onlar haraya hulul etsələrsə, nə hüsət və şəamət dəxi oraya hülul edər. Haşa bu misilli adamlar Məliki-Rumun cinahi təhtində olmamalıdırlar. Onların himayətindən həzər ediniz, bəlkə onları ixrac ediniz, hər nərədə bulursanız əxz həsr ilə qətl ediniz. Sakin bu əmrimizə müxalifət etməyiniz. Zira o halda qəhrimiz sizin üzərinizə vaqe olur, bizə müxalif olanlar ilə təbəə və cəmaətlərinin əhvalını mütləqa eşitmişsiniz, əlhasil aramızda qilu-qal çoxaltmayınız, hələ cidal və qitali heç gözə aldırmayınız. İştə biz sizə bu burahini ənban və məsəllər zərb elədik. Bunun zimnində ənvai-təhdid və təxvif dəxi daxil biliniz, vəssəlam...” [8, s. 36]. Bundan başqa Teymur həmçinin Mutəharatənin ailəsinin həbsdən azad olunmasını və Kəmah qalasının açarlarının ona göndərilməsini itəyir [10, s. 251]. İldırım Bəyazid bu məktubu aldıqdan sonra yaranmış vəziyyəti müzakirə etmək üçün dərhal məclis çağıraraq Teymura qarşı hücuma keçməyin qaçınılmaz olduğunu bildirir. Lakin, sərkərdələrindən biri olan Əli Paşa “dövlətli Sultanım, nə hacətinə ləşkərimizə zəhmət verəlim. Qoyalım gəlsin vilayətə girsin, onlari şöylə qıralım ki, kəndi vilayətlərinə xəbərlərini biz göndərəlim” dedi. Məclisdəki digər sərkərdələr Əli Paşanın fikrini bəyənərək ölkənin daxilində Teymura qarşı mübarizə aparmaq üçün hazırlıq işləri görməyə başlayırlar. İldırım Bəyazid Teymura məktub göndərərək ondan qorxmadığını və öz ölkəsində qonaq olan Qara Yusif və Sultan Əhmədə qarşı heç bir hörmətsizlik etməyəcəyini bildirən təhqirlərlə dolu məktub göndərdi [10, s. 287]. Bu vaxt Teymur Qarabağda idi [7, s. 393]. Cığatay hökmdarı İldırım Bəyazidin məktubunu alan kimi bütün qüvvələrini səfərbər edərək Türkiyə üzərinə qəti hücuma keçdi. Ankara yaxınlığındakı Çubuqabad adlı yerdə iki qoşun arasında döyüş oldu. Bu döyüşdə Teymur qalib gəldi. Döyüş zamanı İldırım Bəyazid əsr alınır. Onun Teymurun hüzuruna çıxarılması “Tacul-təvarix”-də belə yazılır: “İldırım Bəyazid Teymurun hüzuruna gətirilərkən Teymur onu qapıda qarşılamış, hal-əhval tutaraq hörmət göstərmişdir. Bundan sonra Bəyazid oğlu Mustafa Çələbinin itkin düşdüyünü bildirərək onun tapılmasını xahiş etmişdir. Teymur Mustafa Çələbinin axtarılmasını əmr etmişdir. Bu hadisədən 2 gün sonra Mustafa Çələbi tapılaraq Teymurun hüzuruna gətirilmişdir. Teymur gənc şahzadəyə öz övladlarına göstərdiyi sevgini göstərərək ona atasının çadırının yanında əzəmətli çadır qurulmasını əmr etmişdir [10, s. 287]. Osmanlı qoşunu darmadağın edildi. İldırım Bəyazid əsr alınaraq Teymurun hüzuruna gətirilir [8, s. 37].

وفيــه كانت وقعة الطاغية تيمور كَوْركان ملك الشرق مع خوند كار
أبي يزيد بن مراد بن عثمان ملك [الروم].وملخص ذلك أنه سار من العراق إلى
جهة بلاد الروم ، فجمــع ابن عثمان عساكره وعرضهم على مدينــة آقشهر
ـ يعنى المدينة البيضاء ـ تبلغ عدد الفرسان نحو السبع مائة ألف فارس؛ وثلثمائة
ألف راجل : ومات يوم العرض تحت الأقدام من الدوس فى الأزدحام خمسة
وعشرون رجــلا . وسار يريد لقــاءه نحو الخمسة عشر يوماً . فبعث إليــه
تَمُــرلنك يخدعه ويقــول : « أنت رجل مجاهد غازى فى سبيل الله ، وليس
غرضى قتالك ، ولكنى أريد منك أن تقنع بالبــلاد التى كانت مع أبيــك
وجدك؛ وآخذ أنا بلاد الأمير أَرْطُغْلْ أمير الروم أيام السلطان أبى سعيد». فانخدع
لذلك ومال إلى الصلح ، فلم يشعر إلا بالخبر قد ورد عليه أن تمرلنك نزل
على كماخ، وقتل أهلها وسبأهم، وخربها. فعلم أنه ما أراد إلا خداعه؛ وسار

إليه حتى قرب منه، فكاده تمرلنك ورجع ، فظن أبو يزيد أنه قد خافه. وإذا به سلك طريقاً من وراء أبي يزيد ، وساق فى بلاد الروم مسيرة ثمانية أيام ، ونزل على عمورية — ويقال لها اليوم أنكورية — وحاصرها ، وألقى فيها النيران، فبلغ ذلك ابن عثمان فساق فى عساكره إليه مدة ثمانية أيام ، إلى أن أشرف عليه ، وقد جهده التعب ، وتقطعت عساكره ، وتلفت خيولهم . فعندما وصل ركب تمرلنك إلى حربه فى أول يوم من المحرم هذا ، وقد علم أنه وعساكره فى غاية التعب ، فلم يجد بدأ من محاربته ، فاقتتل كل منهما مع الآخر فى يوم الأحد خامسه من أول النهار إلى العصر ، وتمرلنك مشرف على مكان مرتفع يرتب عساكره : وثبت كل من الفريقين حتى قُتل بينهما على ما قيل نحو الثمانين ألفاً ، وتعين الغلب للروم على عساكر تمرلنك ، حتى هموا بالهزيمة . فلما كان فى آخر النهار خرج كمين لتمرلنك ، فيه نحو المائة ألف ، وصدم الأمير سلمان بن أبي يزيد بن عثمان ، فانكسر ولحق بأبيه فى ثلث العسكر ، فانكشفت الميمنة ، وانقلبت على القلب ، ففر الأمير سلمان فى نحو مائة ألف يريد مدينة برصا تخت الملك . وأحاطت عساكر تمرلنك عند ذلك بابن عثمان ومن ثبت معه ، وأخذوه أسيراً ، وجاءوا به إلى تمرلنك ، وقد تفرقت جائعه ، وتمزقوا كل ممزق ، فلو لم يحل بينهم الليل، لما أبقى الغربة منهم أحداً ، ولما جيء بابن عثمان إلى تمرلنك أوقفه وأبنه ، ثم وكل به . وبعث من الغد فى تتبع المنهزمين ، فأحضر إليه من الجرحى نحو الثلاثة آلاف. وتفرقت الغربه فى بلاد الروم ، تعبث وتفسد وتنهب، وتنوع العذاب على الناس ، وأحرقوا مدينة برصا . ومكثوا ستة أشهر يقتلون ويأسرون وينهبون ويفسدون : وعدى الأمير سلمان بن أبي يزيد بن عثمان إلى بر القسطنطينية .

Lakin ərəb mənbələri bu hadisəni başqa cür təsvir edir. Burada göstərilir ki, “İbn Osmanın qoşunu Ağşəhər ətrafında düşərgə qurdular. Teymurləng isə İraqdan çıxaraq Anadolu istiqamətində yola çıxdı. İbn Osmanın qoşununda süvarilərin sayı 700 min, piyadaların sayı isə 300 min idi. Teymur belə bir taktika işlədərək İbn Osmanın fikrini yayındırmağa çalışdı. O əvvəlcə məktub göndərdi. Məktubun mətnində deyilirdi: “Sən Allah yolunda cihad edən bir şəxssən. Mənim istədiyim sənlə döyüşmək deyil. Mən istəyirəm ki, sən atandan və babandan qalan torpaqlarla qane olasan. Mənim məqsədim Rum əmiri Sultan əbu Səidin zamanındakı əmir Əritnanın torpaqlarını almaqdır”. Bu məktubdan sonra əvvəlcə sülh imzalamaq fikrinə düşən İbn Osman Teymurun Kəmaha girib oranın əhalisini qarət etməsini eşitdikdən sonra bu fikrindən vaz keçərək ona hücum edir. Teymur əvvəlcə geri çəkilir, sonra hiylə işlədərək ona hiss etdirmədən İbn Osmanın arxasından Anadolu məmləkətində 8 gün yol getdikdən sonra Amuriyyəyə çatır və buranı mühasirə edir. Bunu eşidən İbn Osman tez yola çıxaraq 8 gün yol gedib həmin əraziyə çatır. Artıq bu vaxt həm onun qoşunu həm də özü çox yorğun düşmüşdür. Bunu döyüş üçün çox əlverişli olduğunu bilən Teymur Osmanlı qoşununa hücum edir. 80 min nəfər həlak olana qədər ayrı-ayrı yerlərdə döyüşlər olur. Bu döyüşlərdə Rum-Osmanlı tərəfi qalib gəlirdi. Bunu görən Teymur hiyləyə əl atır. Əmir Süleyman bin əbu Bəyazid bin Osmanın əsgərlərinin böyük bir hissəsi döyüşdə həlak olur. Bundan sonra Süleyman yüz min əsgərlə birlikdə taxtı ələ keçirmək üçün Bursaya gəldi. Teymurləngin

əsgərləri İbn Osmanın olduğu yeri və yanındakı əsgərləri mühasirəyə aldılar. İbn Osmanın əsgərləri məğlub oldular. Onu tutub Teymurləngin hüzuruna apardılar. İbn Osmanı Teymurun hüzuruna gətirildiyi vaxt Teymur onu ayaq üstə saxladı ağır sözlərlə onu təhqir etdi. O biri gün Teymurləng məğlub olmuş ordunun adamlarının arxasınca adam göndərdi. 300 yaralı gətirildi. Teymurləngin adamları Anadolu torpaqlarına səpələnərək hər yerdə vəhşət törətdilər. Bursanı yandırdılar. Bu vəziyyət 6 ay boyunca davam etdi. Əmir Süleyman bin əbu Bəyazid bin Osman Konstantiniyyə torpaqlarına keçdi 1402-1403-cü il [3, c. 6, s. 81-82]".

[ومات] خوندكار أبو يزيد بن الأمير مراد [ابن] الأمير أوره خان
ابن الأمير عثمان ملك بلاد الروم ؛ وهو فى الأسر عند تمرلنك فى ذى القعدة.

"Osmanlı sultanı Hünkar əbu Bəyazid bin. əl-Əmir Murad bin. əl-əmir Orxan zilkaddə ayında Teymurləngin yanında vəfat etdi" 1402-1403-cü il [3, c. III, s. 1109].

Tarixçilər Bəyazidin Qara Yusifi və Sultan Əhmədi müdafiə etməsində hansı məqsədlər güddüyü haqqında müxtəlif fikirlər irəli sürürlər. Z.V.Toğanın fikrincə, burda məqsəd Elxanilərin ərazilərini ələ keçirmək olmuşdur. Belə ki, o bu yolla Qara Yusifin və Sultan Əhməddən öz mənafeyi üçün faydalanmaq istəyirdi. Y.Öztunaya görə isə Osmanlı sultanının bunda məqsədi Teymura qarşı mübarizədə Qara Yusifin və Sultan Əhmədin qüvvələrindən faydalanmaq idi [5, s. 156].

Teymurun ölümündən sonra Qara Yusif Cığatay hökmdarının varisləri arasında gedən hakimiyyət uğrunda mübarizədə istifadə etdi. O, Teymuri şahzadələrini məğlubiyyətə uğradaraq onların bu torpaqlarda olan hegemonluğuna son qoya bildi və Azərbaycan Qaraqoyunlu dövlətini yarada bildi. Mərkəzi Təbriz olan bu dövlət Qara Yusifin dövründə xeyli gücləndi. Lakin Ağqoyunluların Teymuri Şahruxu Qara Yusifin üzərinə hücum etməyə təhrik etməsi Cığatay hökmdarının bura hücumunu qaçınılmaz edirdi. Şahruxa qarşı mübarizədə Osmanlı sultanı I Mehmetlə ittifaq yaratmağın zəruri olduğunu düşünərək ona məktub yazmışdır. Məktubda Şahruxun məktubunu aldığını və bu məktubda Cığatay hökmdarının Qara Yusifdən Azərbaycanı onun vəkillərinə təslim etməsini istədiyini bildirir. Həmçinin Şahruxun qoşun çəkərək Qəzvinə yaxınlaşdığını da qeyd edir. Bununla yanaşı həmçinin bildirir ki, Qaraqoyunlu qoşunu müdafiə məqsədi ilə dağın ətəyində düşərgə salıb gözləyir. O, həmçinin Xaccə Bəhram Naxçıvanini də hər şey haqqında daha geniş məlumat vermək üçün onun yanına göndərdiyini də qeyd edir [5, s. 157, s. 158].

Sultan I Mehmed də ona cavab verərək bildirmişdir ki, çalışsın ki, hər şey sakitçiliklə həll olunsun [5, s. 158]. I Mehmedin İsgəndərə yazdığı məktubda da aydın görünür ki o problemin diplomatik yolla həll olunmasına üstünlük verirdi (5, s. 158) Şahruxa qarşı mübarizədə Osmanlı sultanı Qara Yusifə kömək göstərməmişdir. Məktublarında onu dəstəkləsə də birbaşa hərbi cəhətdən kömək göstərməkdən çəkinmişdir. Qara Yusifin ölümündən sonra Şahruxun I Mehmedə göndərdiyi məktubda Qara İsgəndərin Qara Osmanla döyüşdüyünü və Rum istiqamətinə gələrsə onu tutub göndərməsini istəmişdir. I Mehmed Şahruxa cavabında bildirmişdir ki, Qara İsgəndərin Rum tərəfə keçməsi bizi çox məyus etdi. O tərəfin adamlarına fərman verdik ki, ondan xəbər tutsalar vaxtlı-vaxtında ona hücum etsinlər [5, s. 160]. Bütün bunlardan da bir daha aydın olur ki, Sultan Bəyazidin varisləri onun özündən fərqli olaraq Teymurilərlə münasibətləri pisləşdirməyə istəməmiş və buna görə də Şahruxa qarşı mübarizədə Qaraqoyunlulara kömək eləməmişdir.

Ümumilikdə götürdükdə bu iki dövlət arasında İldırım Bəyazidlə Qara Yusifin dövründə olan isti münasibət onların xələfləri olan II Murad və İsgəndər tərəfindən də davam etdirilmişdir. Buna görə də ağqoyunlularla və cığataylarla olan müharibələr nəticəsində əsgərlərinin yorulduğunu görən İsgəndər məhz Osmanlı dövlətinə üz tutdu. Ərəb tarixçilərinin verdiyi məlumata görə Osmanlı torpaqlarına girən İskəndər II Muradın yanına elçi göndərərək qışı Tokadda keçirmək üçün izn istədi [3, s. 165 b; 4, s. 255a]. II Murad da öz razılığını bildirərək Amasiya valisi Yurguc Paşaya İskəndərə layiq olduğu hörməti göstərməsini əmr etdi. Bundan əlavə hörmət əlaməti olaraq Qaraqoyunlu bəyinə qiymətli hədiyyələr, həmçinin atlar, silahlar, cariyələr və s. göndərmişdir [3, s. 165 b;4, s. 255a]. Qarşısına çıxardılan bütün maneələrə baxmayaraq İsgəndərin Osmanlı torpaqlarına girməyə müvəffəq olduğunu görən Şahrux Şeyx Nurəddin Məhəmməd bin Mürşüduddin Cüneydi Qazərunini Osmanlı hökmdarı II Muradın yanına göndərərək İsgəndərin yaxalanaraq ona göndərilməsini rica etdi. Lakin II Mudad onun bu xahişini yerinə yetirməkdən imtina etmişdir. Qışı Tokadda keçirən İsgəndər yay gəldiyi vaxt Osmanlı torpaqlarını tərk etmək məcburiyyətində qaldı. Buna səbəb isə Qaraqoyunlu əsgərlərinin həmin ərazidə yaşayan əhalini talan etməsi olmuşdur [3, s. 165b]. Bu hadisənin özü üçün xoşagəlməz nəticələr verəcəyini görən II Murad İsgəndərə Osmanlı torpaqlarını tərk etməsini Qaraqoyunlu şahzadəsi üçün daha məqsədəuyğun olacağını bildirdi.

İsgəndərin ölümündən sonra hakimiyyətə gələn Cahanşahın dövründə də Qaraqoyunlularla Osmanlalar arasında dostluq əlaqələri daha da sıx olmuşdur. T.Nəcəfli İ.H.Uzunçarşılıya əsasən yazır ki, Osmanlı hökmdarı ilə Cahanşah arasında çox səmimi məktublar mübadiləsi olmuşdur. A,A.Arayancan isə bildirir ki, Cahanşah Sultan II Murada göndərdiyi məktublarda "Qazilər və mücahidlər Sultanı, islam sərhədlərinin qoruyucusu " kimi sözlərlə ifadə etmişdir. Sultan II Murad da Cahanşaha göndərdiyi cavab məktublarında ona "Ən böyük padşah, Əcəm ölkələrinin Sultanı, zamanının Xaqanı" kimi ifadələrlə müraciət etmişdir [5, s. 163].

Qaraqoyunlu-Osmanlı münasibətləri II Mehmedin hakimiyyəti dövründə daha da inkişaf etmişdir. Cahanşah Fateh II Mehmedə "oğlum" deyərək müraciət edirdi. II Mehmed də Cahanşaha "atam" deyə müraciət edirdi.

Qaraqoyunluların Teymuri Əbu Səid üzərindəki qələbəsindən sonra bu iki dövlət arasında münasibətlər daha da sıxlaşdı. Həmin dövrdə II Mehmed Ağqoyunlu dövlətinin güclü müqaviməti ilə qarşılaşırdı. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin bir-biri ilə düşmən olmasını da göz önünə gətirən II Murad Qaraqoyunlularla olan münasibətini daha da sıxlaşdırırdı. Bütün bunlar II Muradın Trabzon üzərinə hücumu ərəfəsində Cahanşah yazdığı məktubda da öz əksini tapmışdır. Məktubda yazılırdı "Əziz atam Cahanşah tərəfindən Mövlana Şükürullahla bizim dərgahımıza göndərilən kitabətin çatdı... Biz Trabzona yollanırıq... Əgər bu hücumla əlaqədar olaraq bizim məktublaşmamız bir qədər təxirə düşərsə, başqa şey haqda düşünməyib məktublaşma qapılarını qapamayın [5, s. 166].

Ümumilikdə götürdükdə həm bəhs etdiyimiz dövrün, həm də müasir dövrün türk tarixçiləri Ağqoyunlu hökmdarlarından fərqli olaraq Qaraqoyunlular haqda müsbət fikirlər söyləmişdirlər.

Bu tarixçilər başda Uzun Həsən olmaqla bütün digər Ağqoyunlu hökmdarının mənfi tərəflərini ortaya qoymaqla onların görkəmli sərkərdələr olduqlarını gizlətməyə çalışsalar da əksinə Qaraqoyunlu hökmdarlarının igidliklərini qabarıq şəkildə bildirmişdirlər. Bunun da əsas səbəbi ondan ibarətdir ki, nə Qaraqoyunlu, nə də Osmanlı hökmdarları bir-birlərinin tabeliyində olan əraziləri işğal etməyə cəhd etməmişdirlər.

Bunu da qeyd etmək lazımdır ki, heç də həmişə Qaraqoyunlu hökmdarları Osmanlı

hökmdarlarının köməyinə məruz qalmamışdırlar. Əksinə Qaraqoyunluların Teymurilərə qarşı apardıqları mübarizə Osmanlıların möhkəmlənməsində çox böyük rol oynamışdı.

Qara Yusifin Teymurun varisi olan Əbu Bəkrin üzərində qələbə çalması nətıcəsində Cığatayların tabeliyində olan ərazilərin böyük bir hissəsi Teymurun varislərinin əllərindən çıxdı. Bu ərazilərdə isə Qaraqoyunlu dövləti quruldu. Teymuri şahzadəsi Qaraqoyunlular üzərində tam qələbə qazana bilmədiyi üçün Osmanlılara qarşı da həlledici hücuma keçə bilmədi. Bu da Osmanlının möhkəmlənməsinə zəmin yaratdı. Çünki, həmin vaxt Teymuri hökmdarları Anadolu bəyliklərindən bəzilərinə himayədarlıq edərək onları dövlətə qarşı qoyurdular. Bu daxili münaqişələr də dövlətin zəifləməsinə səbəb olurdu.

Bütün bunlardan belə bir nəticəyə gəlmək olar ki, bu iki türk dövləti həmişə çətin günlərində bir-birlərinə dəstək olmuşlar. Bacardıqları qədər bir-birlərinə kömək etməyə çalışmışlar. Cığatay hökmdarlarının birbaşa hücumuna məruz qalmayan Osmanlı hökmdarları yuxarıda qeyd etdiyimiz dövlətə qarşı çıxan bu Anadolu bəyliklərini aradan qaldıraraq Osmanlı İmperatorluğunu qura bilmişdirlər.

ƏDƏBİYYAT

1. ابو محاسن جمال الدين يوسف ابن تغربردى العتاباي اليشبظاوى الظاهر. "حوادث ظهوار في مد الأيام و الشهور". برکلی۱۹۳۳، جلد۱٤، ٦٧٨ص.
2. ابو محمد محمود احمد بن موسى بن احمد بن حسين بن يوسف بن محمد بدر الدين العينى. "عقد الجمان فى تاريخ اهل الزمان". استانبول، ۱۳۰۸، جلد ۱۰، ٦٩٦ص.
3. احمد بن على (المقريزى). "كتاب السلوك لمعرفة دول الملوك". قاهرة، ۱۹۵۸-۱۹۳٤، ۲جلد ٦ جز، ۳-٤ جز، جز۳- ۱۱۸۲ص، جز ٤-۱۱۸۰ص
4. احمد بن على بن محمد بن محمد بن على بن احمد شهاب الدين ابو الفضل العسقلانى المصرى القاهرى (إبن حجر). "إنباء القمر بأبناء العمر". القاهرة ،۱۹۷۲، جلد ۳، ۳۷۰ص
5. Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, 2000, 197 s.
6. İslam Alimleri Ansiklopedisi. Türkiye Gazetesi, c XVII, 384 s.
   AMEA-nın Tarix İnstitutunun elmi arxivi, inventar № 5066.
8. İbrahimov C. Qaraqoyunlu dövləti. Bakı: Azərnəşr, 1948, 86 s.
9. Сеидбейли М. Научно-культурная жизнь Азербайджана второй половины XIII-начала XIV в. По материалам сочинений Ибн ал-Фунати “Талхис маджам ал алалкаб”. Баку: Чашыгоглы, 1999, 140 с.
10. Hoca Saddedin Efendi. “Tacul-tevarih”, Ankara: Kültür bakanlığı, 1979, 383 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: islamovanecbet77@gmail.com

Nijabat Islamova

A BRIEF OVERVIEW OF THE RELATIONSHIP BETWEEN THE KARAKOYUNLU, OTTOMAN AND TIMURIDS' IMPERIES IN THE ARAB SOURCES

The Karakoyunlu government is created in the beginning of XIV century. The Karakoyunlu government is developed the diplomatic relations between other countries. Between these countries we can notise (show) the Otoman empaire.

The historical facts can prove the friendship between Karakoyunlu and Otoman empire.

The article has more information about two countries. It is possible to get information about friendship relations between these two countries in the manuscripts of that time.Both Karakoyunlular and Agqoyunlular always supported each other against common enemies.

Keywords: *Karakoyunlu, Otoman, diplomatic relations, Taymur, Bayazid.*

Ниджабат Исламова

КРАТКИЙ ОБЗОР ОТНОШЕНИЙ МЕЖДУ КАРАКОЮНЛУ-ОСМАНАМИ И ТИМУРИДАМИ В АРАБСКИХ ИСТОЧНИКАХ

Государство Карагоюнлу была создана в начале XIV века. Это государство с начала своего существования создала дипломатические отношения с рядом государств. Среди них особо надо отметить примерные отношения с государством Османлы. Дружные отношения между государствами Османлы доказывают и исторические факты. И в рукописях эпохи можно получить сведения о дружеских отношениях между этими двумя государствами. И Карагоюунские и Акгоюнские государства всегда поддерживали друг-друга против общих врагов.

В статьё даются сведения обо всем этом.

Ключевые слова: *Каракоюнлу, Османлы, дипломатические отношения, Теймур, Баязит.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: **İlkin variant 03.06.2019**
Son variant 28.08.2019

UOT 398; 801.8

ÇİNARƏ RZAYEVA

RAMAZAN VƏ ORUCLUQ MÖVZUSUNUN AZƏRBAYCAN FOLKLOR MƏTİNLƏRİNDƏ YERİ

Məlumdur ki, islami dəyərlərin qorunması, təbliğ edilməsi Azərbaycan üçün önəmli məsələlərdəndir. Demək olar ki, islama xas olan bütün dəyərlər folklorda ya bir başa, ya da dolayı yolla əks olunub. Məqalədə Ramazan və orucluq mövzusunun folklor mətnlərində işlənməsi araşdırılmış bir sıra nümunələr verilmişdir. Nümunələr atalar sözlərindən, andlardan, tapmacalardan seçilərək verilmişdir. Verilən nümunələrdən aydın görünür ki, bu müqəddəs ay folklor mətnlərində də öz müqəddəsliyini qorumuşdur.

Məqalədə həmçinin Ordubad rayonunda keçirilən orucun 15-i mərasimi geniş şəkildə verilmişdir. Bundan başqa məqalədə Azərbaycanın digər rayonlarında orucluqla bağlı keçirilən fərqli mərasimlər də yer almışdır.

Tədqiqat göstərir ki, islami dəyərlər ta qədim zamanlardan bu günə kimi folklorumuzda yaşayıb və bundan sonra da yaşayacaqdır.

Açar sözlər: *Azərbaycan, Naxçıvan, folklor, islami dəyər, ramazan.*

İslama görə müqəddəs kitabımız olan Qurani-Kərim Ramazan ayında nazil olmuşdur. Bu ay öz müqəddəsliyi ilə digər aylardan daha çox seçilir. Hamıya məlumdur ki, Ramazan ayı hicri təqviminə görə 9-cu aydır. Bu ayda oruc tutulur, fitrə verilir. Ramazan ayının 29-30 gün olduğu hədislərdən müəyyənləşmişdir. Bu bir ay ərzində oruc tutanlara gün çıxmadan axşam günbatana qədər yeyib içmək qadağan edilmişdir.

Bu ayda islam dininin banisi, filosof, qanunşünas, böyük islahatçı, cəsur sərkərdə, müsəlmanlar üçün Allahın elçisi, peyğəmbərlərin sonuncusu Məhəmməd peyğəmbərə (s.a.v) Quranın ayələri enməyə başladı. Bundan başqa Ramazan ayının bir gecəsi qədr gecəsi adlanır ki, bu ayda Qurani-Kərim nazil olur. Qurani-Kərimdə Qədr surəsinə nəzər salsaq bu deyilənləri aydın şəkildə görə bilərik.

Rahman və Rəhim olan Allahın adı ilə
Biz Quranı qədr gecəsində Peyğəmbərimizə nazil etdik.
Qədr gecəsinin nə olduğunu bildirdik.
Qədr gecəsi min aydan yaxşıdır.
O gecədə mələklər və ruh işləri yerinə yetirməyə nazil olarlar.
O gecə fəcrin açılmasına qədər səlamətlikdir.

Surənin ilk üç ayəsində qədr gecəsindən bəhs edilir.

Orucluq ayı kimi də bilinən Ramazan ayı öz dəyəri və savabı ilə digər aylardan hər zaman seçilmişdir.

İslam aləmi üçün müqəddəs sayılan orucluq ayı ta qədim zamanlardan bu günə kimi xalq üçün dəyərli olmuşdur. Bunu xalqın yaratdığı folklor nümunələrində də aydın görmək olur. Məsələn, Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində Ramazan ayı ilə bağlı bir sıra mərasimlər keçirilir. Onlardan biri "Orucun 15-i" adlanır. Bu mərasim adından da göründüyü kimi orucluğun 15-ci günü keçirilir. Yəni 15-ci gün axşam iftardan sonra uşaqlar qapılara papaq və ya torba atmağa gedirlər. Qeyd edək ki, bu mərasimə əvvəlcədən hazırlıq görülür, şirniyyatlar bişirilir, kökələr hazırlanır.

Uşaqlar həmin gün qapıları döydükcə deyirlər:

Orucun on beşidir, gəldik sizə,
Orucun niyazın verin bizə,

Xanım, ayağa dursana,
Boşqabı doldursana.
Rəbbi gəlir, dinmə gəlir,
Boşqabı doldurub gəlir.
Verənin oğlu olsun.
Verməyənin son beşiyi qız olsun [7, s. 68].

Qapını açan ev yiyəsi uşaqların papağını və ya torbasını dolduraraq onları sevincli halda yola salırlar. Həmçinin "həmin günün axşam iftarını zəngin süfrə ilə açırlar, sonra nişanlı qız evinin valideynləri bəyi görmək üçün oğlan evinə gəlirlər. Ailənin üzvlərinə, xüsusilə bəyə müxtəlif hədiyyələr gətirirlər" [5, s. 56].

Azərbaycan folklor antologiyasının XIII cildində (Azərbaycanın digər bölgələrinin folklorunda) Ramazan ayını digər bir fərqli mərasimlə qeyd edirlər. Həmin kitabdan aldığımız məlumata görə "həmin ayda hamı bir-birinə çörək paylayır. Yəni bir evdə otuz çörək bişirilir, otuz evə paylanır" [1, s. 33]. Həmçinin bayramın əvvəl günü uşaqlar qohum-qonşunu gəzib yumurta yığırlar. Sonra isə aşağıdakı nəğməni oxuyurlar.

Həsərəm, hüsərəm
Yumurta verməyəndən küsərəm.
Yumurta verənə oğlan olsun,
Verməyənə qız olsun,
Adı da Fatma olsun,
Qaşdarı çatma olsun.
Baxtı da qara olsun.

Beləliklə də ev sahibi çıxıb uşaqlara yumurta verib sevindirir. Sonra anaları həmin yumurtanı soğan qabığında bişirir. Yumurtalar da qırmızı olur. Bununla da səhəri uşaqlar, cavanlar bayram edirlər.

Nümunələrdən də göründüyü kimi, xalqımız Ramazan ayını müqəddəs sayır. Bu mərasimlərin keçirilməsi həmin ayın necə qiymətli, əziz olduğunu bir daha sübut edir. Məhz bu ayda böyüklərin kiçikləri sevindirməsi, qapıya gələni əliboş geri göndərilməməsi, süfrələrin zəngin olması Ramazan ayının müqəddəsliyinin, dəyərli olmasının göstəricisidir.

Folklorun qədim janrlarından olan nağıllarda xalqımızın milli xüsusiyyətləri, adət-ənənələri əks olunur. Məsələn, "Ax-vax" nağılını oxuduqda görürük ki, qədim zamanlardan bəri xalqımız oruc tutmuş, namaz qılmışdır. Nağıldan aldığımız həmin parça:

"Qonşumuzda bir namaz qılıb, oruc tutan adam var idi. Onun altı-yeddi yaşında bir gözəl qızı var idi. Kişini çağırıb dedim ki:

-İldə sənə bu qədər pul verərəm, bu qızı gərək elə saxlayasan ki, nə bir kişi görməyə, nə də bir kişi sözü eşitməyə" [2, s. 181].

"Tülkü və qurd" nağılında da rast gəlirik:

Tülkü deyər:
– Qurd qardaş, buyurun. Quyruq odu, bax.
Qurd deyər:
– Sən buyur.
Tülkü deyər:
– Mən orucam, nəzirim vardır.

Qurd yerir ki, yesin, ağzı düşər tələyə. Quyruq atılar eşigə, tülkü bir səlavət çevirər, yeyər, qurd deyər:

– Tülkü qardaş, bə sən orucudun?
Deyər:
– Ayı gördüm.
Qurd deyər:
– Bə mən nə vəqt ayı görəcəyəm? (11)

Ramazan və orucluq folklorumuzun bir çox janrlarında özünü göstərir. Onlardan biri də tapmacalardır. "Folklorun maraq doğuran və geniş yayılmış janrlarından biri olan tapmacalar insanın məntiqini, zehni qabiliyyətini, ağlının çevikliyini yoxlamaq məqsədilə yaradılmışdır" [9, s. 65]. Hamıya məlumdur ki, tapmacada bir əşyanın, hadisənin, əlamətin hər hansısa bir keyfiyyəti açıqlanmamış formada deyilir, digər xüsusiyyətləri gizli olaraq qalır. Elə aşağıda verəcəyimiz nümunədə də orucun dəyəri üstü örtülü verilmişdir.

İldə bir dəfə olar,
Çoxları bilməz onu.
Qədrin bilənlər tutar (orucluq). [8, s. 412]

Başqa bir tapmacada:

A Yel baba, dur, gedək,
Madyanını sür gedək,
Bir qapının qıfılın
Min qapıya vur, gedək (orucluq). [10, s. 165]
Dınqır ələk, dınqır saz,
Əlim xəmir, qamım ac [10, s. 170].

Ramazanla bağlı fikirlərə folklorumuzun kiçik ancaq zəngin və dərin mənaya malik olan atalar sözlərində də rast gəlirik. "İnsan həyatını etik normalar çərçivəsinə salan, etik sərhəddə mənimsənilən atalar sözləri ta qədimdən məişətimizə daxil olmuş, bu gün də qiymətli söz inciləri kimi öz dəyərini itirməmişdir" [3, s. 8]. Bu gün də öz dəyərini qoruyub saxlayan atalar sözlərinin içərisində Ramazan ayı ilə bağlı olanlar da az deyil. Həmin atalar sözlərindən bir neçəsinə nəzər salaq:

Ramazanda yalan deyən bayramda üzü qara çıxar [4, s. 203].
Ayı gör, oruc tut, ayı gör, bayram et [3, s. 60].
Oruc tutma, namaz qılma, işin belə rast gəlsin?!
Oruc tutmayanın oğluna Ramazan adı qoyarlar.
Oruc yediyini görmüşəm, namaz qıldığını görməmişəm.
Orucumdan çox razıyam, şənbəsini də tuturam [3, s. 335].
Min evli Kəsəmənə bir ay oruc, yeddi evli kəndə də bir ay oruc [3, s. 316].
Həmişə Şaban, bir dəfə də Ramazan [3, s. 208].

Nümunələrdən də aydın görünür ki, ulularımız zamanında bu müqəddəs ayla bağlı dəyərli kəlamlar söyləmiş və bu kəlamlar günümüzə kimi də öz ağırlığını, öz sanbalını, öz dəyərini itirməmişdir.

Orucluq andlarda da əks olunub. Bildiyimiz kimi andlar şifahi xalq ədəbiyyatının ən qədim janrlarından biridir. Andlar insanların müqəddəs hesab etdiyi varlıqlara olan inamı əsasında yaranmışdır. İnsanlar da Ramazan ayını, orucluğu müqəddəs bildikləri üçün and içirlər. Məsələn:

"Tutduğum oruca and olsun" [5, s. 326].

Folklorumuzda orucluğun yer aldığı mətnlər bu sadaladıqlarımızla bitmir. Həmçinin Oruc ad kimi də folklorumuzda yer alıb. Sancmalarda "Ülgüc əhvalatında" Oruc adına rast gəlirik:

Öz adın Əlidi, nə gözəl addı,
Demə ki, dünyada nələr qahaddı,
Bayram oğlu Həsən özü şahaddı,
Zülmünən apardı Oruc ülgücü [6, s. 322].

Bundan əlavə Tala mahnılarında da yer alan Oruc adına nəzər salaq:

Ay Oruc, arabanı,
Asta çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı [1, s. 140].

Folklor janrlarına nəzər saldıqda Ramazanın şəxs adı kimi işlənməsi də rastımıza çıxır. Məsələn:

Çox gəzən, çox bilər, belə məsəl var,
Sahildə yanına gələr qocalar.
Gün-günə elmin şöhrəti artar,
Ramazan yazıqdı, az, özün danış [1, s. 398]

Bu nümunələrin sayını istənilən qədər artırmaq olar.

Verilən nümunələrdən də aydın görünür ki, Ramazan – Orucluq ayı folklor mətnlərində xüsusi ilə vurğulanır, dəyər verilir və qiymətlənir. Folklor mətnlərindən də göründüyü kimi, ta qədim zamanlardan "hər bir müsəlman gəlişini böyük sevinclə qarşıladığı Qurban və Orucluq bayramlarını müqəddəs borcunu layiqincə yerinə yetirməkdən doğan daxili rahatlıq hissi ilə öz evində, ailəsində, gizli olsa da, qeyd etmişdir" [5, s. 49]. Bu gün isə bu bayramlar xalq tərəfindən geniş və açıq şəkildə, rahatlıqla qeyd edilir.

Aparılan tədqiqatlar bir daha sübut edir ki, qədim və böyük tarixə, eləcə də zəngin mədəniyyətə, folklora sahib olan Azərbaycanda islam dininə və bu dinə aid dəyərlərə böyük hörmət göstərilmişdir. Bu mənada islami dəyərlər bütün zamanlardan bu günə kimi yaddaşımızda, tariximizdə yaşadılmış və bundan sonra da yaşadılacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan folklor antologiyası. Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən, folkloru, XIII c. Bakı: Səda, 2005, 549 s.
2. Azərbaycan nağılları: 5 cilddə. II c., Bakı: Şərq-Qərb, 2005, 296 s.
3. Atalar sözləri. Bakı: Nurlan, 2013, 476 s.
4. Atalar sözü / Tərtib edəni C. Bəydili. Bakı: Öndər, 2004, 264 s.
5. Azərbaycan etnoqrafiyası. III c., Bakı: Şərq-Qərb, 2007, 568 s.
6. Naxçıvan folkloru antologiyası. I c., Naxçıvan: Əcəmi, 2010, 513 s.
7. Naxçıvan folkloru antologiyası. II c., Naxçıvan: Əcəmi, 2011, 496 s.
8. Naxçıvan folkloru antologiyası. III c., Naxçıvan: Əcəmi, 2012, 560 s.
9. Rzayeva Ç.V. Türk xalqlarının ortaq folkloruna müqayisəli baxış. Naxçıvan: Əcəmi, 2017, 120 s.
10. Tapmacalar. Bakı: Şərq-Qərb, 2004, 208 s.
11. http://azkurs.org/azerbaycan-milli-elmler-akademiyasi-folklor-institutu-v5.html?page=10

AMEA Naxçıvan Bölməsi
E-mail: cinarerzayeva@yahoo.com.tr

Chinara Rzayeva

THE PLACE OF THE RAMAZAN AND FASTING ISSUES IN AZERBAIJANI FOLKLORE TEXTS

It is known that the protection and propagation of islamic values is one of the important issues for Azerbaijan. Almost all values inherent in Islam are reflected in folklore directly or indirectly. The article provides a number of examples of the study of Ramadan and the subject of fasting in folklore texts. Examples are given from the proverbs, pagans, and psalms. It is clear from the examples given that this sacred month preserved its holiness in folklore texts. The article also features a large variety of fasting ceremonies held in the Ordubad district. In addition, the article also covered different ceremonies on fasting in other regions of Azerbaijan.

From the examples given, it appears that Islamic values have existed in our folklore ever since ancient times and will exist after this.

Keywords: *Azerbaijan, Nakhchivan, folklore, Islamic value, ramazan.*

Чинара Рзаева

МЕСТО ТЕМЫ РАМАЗАНА И ПОСТА В АЗЕРБАЙДЖАНСКИХ ФОЛЬКЛОРНЫХ ТЕКСТАХ

Известно, что защита и распространение исламских ценностей является одним из важных вопросов для Азербайджана. Практически все ценности, присущие исламу, прямо или косвенно отражаются в фольклоре.В статье приведен ряд примеров изучения Рамадана и темы поста в фольклорных текстах. Примеры даны из пословиц, язычников и псалмов. Из приведенных примеров ясно, что этот священный месяц сохранил свою святость в фольклорных текстах. В статье также представлено большое количество постов, проводимых в Ордубадском районе. Кроме того, в статье также освещались различные церемонии поста в других регионах Азербайджана.

Из приведенных примеров видно, что исламские ценности существовали в нашем фольклоре с древних времен и будут существовать после этого.

Ключевые слова: *Азербайджан, Нахчыван, фольклор, исламская ценность, рамазан.*

(Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: **İlkin variant 24.06.2019**
Son variant 09.09.2019

UOT: 82-3. 512.162

SİTARƏ ƏLİZADƏ

AZƏRBAYCAN AŞIQLARINA HƏSR OLUNMUŞ TARİXİ POEMALARDA EL SƏNƏTKARLARINA POETİK EHTİRAM

Məqalədə Azərbaycan aşıqlarına həsr olunmuş M.Rahimin "Sarı Aşıq", H.Arifin "Dilqəm" və İ.Səfərlinin "Ələsgər" tarixi poemalarında el sənətkarlarına poetik ehtiram problemi araşdırılır. Əsaslandırılır ki, bu tarixi poemalarda aşıq sənətinin görkəmli nümayəndələrinin şəxsiyyəti, taleyi, mühiti, müasirləri, dünyagörüşü, yaradıcılığı barədə müəlliflərin poetik qənaətlərinin, lirik-epik düşüncələrinin araşdırılması və qiymətləndirilməsi aktuallıq kəsb edir. Tədqiqatda aşıq sənətinin inkişaf edib təkmilləşməsində görkəmli rol oynamış aşıqların bədii obrazının canlandırılmasında müəlliflərin sənətkarlıq xüsusiyyəti təhlil edilmiş, ədəbiyyatşünaslıq mənbələrindən istifadə edilmişdir.

Açar sözlər: *tarixi poema, Sarı aşıq, Dilqəm, aşıq Ələsgər, aşıq sənəti, bədii obraz, poetik ehtiram, sənətkarlıq xüsusiyyəti, ədəbi dil vasitələri.*

Azərbaycan tarixi poemalarında xalqımızın tarixən yaratdığı zəngin bədii düşüncə nümunələri içərisində özünəməxsus sənətkarlıq xüsusiyyətləri ilə fərqlənən aşıq yaradıcılığına və bu qədim sənətin ən görkəmli nümayəndələrinin poetik obrazının canlandırılmasına da yer ayrılmışdır. Azərbaycan aşıqları, onların rəngarəng yaradıcılığı ədəbiyyatımızın ən görkəmli bədii söz ustalarının şeirlərində vəsf edilərək, onlara poemalar qoşulmuşdur. Məmməd Rahimin "Sarı Aşıq", Hüseyn Arifin "Dilqəm", İslam Səfərlinin "Ələsgər" adlı tarixi poemalarında el sənətkarlarının şəxsiyyəti, taleyi, mühiti, müasirləri, dünyagörüşü, yaradıcılığı barədə əsər müəlliflərinin poetik qənaətlərinin, lirik-epik düşüncələrinin araşdırılması və qiymətləndirilməsi aktuallıq kəsb edir.

Xalq şairi Məmməd Rahim (1907-1977) XVII əsrdə yaşayıb yaratmış el sənətkarı, "cinaslı xalq bayatılarının məharətli ustadı" [3, s. 192] kimi ad çıxarmış Sarı Aşığa eyni adda poema həsr edərək geniş elmi-mədəni ictimaiyyətə o qədər də məlum olmayan aşığın həyat və yaradıcılığını tanıtdırmağa cəhd etmişdir. Qeyd edək ki, müxtəlif mənbələrdə Sarı aşığın adı, təvəllüdü, yaşadığı yer, həyatı, yaradıcılığı, təxəllüsü ilə bağlı folklor bilicilərinin aşığın yaradıcılığı və haqqındakı rəvayətlər əsasında gətirdikləri məlumatlar folklorşünas alim M.Qasımlı tərəfindən ümumiləşdirilmiş və dəqiqləşdirilmişdir [9].

"Sarı Aşıq" lirik-epik poemasında [12] hadisələr əsər müəllifinin fikir və hisslərini ifadə edən epik qəhrəman ətrafında cərəyan edir. Əsərin qəhrəmanı Sarı aşıq poemanın ilk bölmələrində baş verən hadisələri sanki kənardan izləyir, ancaq qəddarlığı ilə xalq arasında gizlincə Yaman bəy adlandırılan Kərim bəyə, xalqın igid oğulları Qələndərə, cıdırda Kərim bəyə qalib gələn Zəfərə onun münasibəti fonunda, xüsusilə sevgilisi Yaxşı ilə görüşlərdə həmişə müəllifin diqqət mərkəzində dayanır.

M.Rahim Sarı aşıq haqqında yazacağı poemanın ideya məzmununu və süjetini qəhrəmanlıq və məhəbbət dastanlarına xas elementlərdən istifadə etməklə elə qurmuş, elə poetik nəqlolunma formasına üz tutmuşdur ki, əsərin ayrı-ayrı bölmələrində danışılan əhvalatlar, obrazların qarşılıqlı münasibətləri ustad aşığın fəaliyyətini, yaşadığı ağır dövrü, xalqın dağlardan ağır siqlətlini, bəylərin zülm və özbaşınalığını, heç nədən insanı qətlə yetirmələrini, iki sevən gəncin məhəbbətini faciyəyə çevirmələrini, "gül əkib vay dərən" aşığın kədərini tam dolğunluğu ilə oxucuya çatdıra bilsin.

M.Rahim Sarı aşığı xalqın sevimlisi, onun qəlbinə, ürəyinə yaxın olan sənətkar kimi təqdim edir, aşığın xalq arasında hörmət və məhəbbətlə qarşılandığını, xalqın şən və qəmgin günlərində hamı ilə birlikdə sevinib kədərlədiyini önə çəkir. Müəllifin təsvirinə görə Sarı aşıq xalqın dərdi ilə, kədəri ilə, onun sevinc və fərəhi ilə bağlı şəxsiyyət olmuşdur. Xalqın aşığa olan sevgisini ifadə etmək üçüm müəllif onun bayatılarından və qoşmalarından yeri gəldikcə, mətnin ruhuna uyğun olaraq istifadə edir:

Mənalı söz kimi cavahir hanı?
Sarını dinləyib qulaq asdıqca
Döstlar unudurdu geniş dünyanı [12, s. 233].

Əsərdə əsas diqqət Sarı aşıqla sevgilisi Yaxşının çox az davam edən xoşbəxt anlarına yönəlir:

Eşqdir aləmin əzəl mayası.
Eşqin məftunudur qoca təbiət.
Eşq ilə silinir qəlblərin pası.
Var olsun dünyada təmiz məhəbbət... [12, s. 236]

Burada Sarı aşığın sevgisi, iztirabları, məşuqəsinə olan sonsuz eşqi, ülvi məhəbbəti müəllif tərəfindən aşıq poeziyası ruhunda, incə hisslərlə ifadə olunmuşdur. M.Rahim Sarı aşığın sevgisindən qaynaqlanan ruh yüksəkliyinin onun yaradıcılığına necə təsir etdiyini "Dəvət" bölümündə Təbrizdən gələn qonaq aşıqla deyişməsində sonuncunun:

...İndi verim sənə yalnız bir sual
Araz gözəllikdə cahanda təkdir.
Fikir dünyasına qəvvas olub dal!
Söylə, onun suyu neçə sənəkdir? [12, s. 237]

sualına cavabında:

– Sən çağır Arazı dayansın bir az.
Səslə, qulaq asıb axmasın Araz
Neçə sənəkdir o, sayıb deyərəm,
Verdiyin sualı həll eləyərəm [12, s. 237-238].

deməsilə Sarı aşığın üstün olması, məğlub qonağın öz sazını qalib aşığa uzatması, cavabında ondan

Belə iş tutmaram mən heç bir zaman
O, sənin sazındır götür yenə, al
Ürəkdən qoşma de, bir "Kərəmi" çal.
O, sənin olmuşdur, yenə sənindir [12, s. 238].

eşitməsi aşığın yüksək əxlaqi keyfiyyət sahibi, geniş dünyagörüşlü, hazırcavab olduğunu göstərir. Deyişmədən sonra vəcdə gələn Sarı aşıq:

Yalnız gözəlliyə, hüsnə qailəm.
Gözümdə şux gözəl pərvardigardır.
Allahım sənəmdir, ona mailəm.
Kəbəm, Kərbəlam da sənəmdir ancaq [12, s. 239].

deyə bəyan edir, bu sözlər onun daha bir xarakter çalarını göstərir.

Poemanın sonrakı bölmələri Yaman bəyin Sarı aşığın bu sözlərini bəhanə edib onu sevgilisi Yaxşıdan ayırmasına ("Yaman bəyin yanında"), onun tədbirilə Zəfərin öldürülməsinə ("Nakam cavan", "Son mənzil", "Dəfn"), bütün bu faciələrin səbəbkarı kimi ictimai quruluşun və dövranın ittihamına həsr olunmuşdur. Dövranın qəlbini sal buza, qatil dünyanın günahını

dəryaya bənzədən müəllif yoxsul kəndli oğlunun qətlinə üsyan edir, ədalət axtarır, ümidsizliyini ürək yanğısı ilə dilə gətirir:

Ey insan, onu sən heç axtarma gəl,
Qüvvət də, qüdrət də varlılardadır.
Baş vurma heç yerə, nahaq varma, gəl,
Əsirdir ədalət, çoxdan dardadır [12, s. 242].

Əsərdə Sarı aşıqla Yaxşının nakam məhəbbəti də zəmanənin fitnə-fəsadı, insan hüquqsuzluğunun təzahürü kimi qiymətləndirilir. İki sevən gəncin azad və bərabər olmaq tələbi, könül və sevgi dünyasında qovuşmaq istəyi, ən ali insan hissinin ifadəsi o dövrün mövcud gerçəklikləri fonunda iztiraba, nisgilə, dözülməz dərdə çevrilir. Elə buna görə də M.Rahim ədəbi qəhrəmanını dərd, kədər, göz yaşı, nisgil, zəmanədən, fələyin gərdişindən şikayət motivləri ilə tərənnüm etmişdir.

Qəhrəmanlıq dastanlarında olduğu kimi, "Sarı Aşıq" poemasında da ədalətsizliyə, zülmə qarşı etiraz səsini ucaltmaq, namus, vicdan uğrunda haqlı tələblərlə çıxış etmək, düşməndən qisas almaq kimi motivlərə də yer verilmişdir. M.Rahim Zəfərin dostu, intiqam hissilə yanıb tutuşan Qələndərin dilindən "Namərdəm, intiqam almasam əgər" [12, s. 243], - deyir və əsərin "Qələndərin qisası" bölməsində Qələndərin Güləbirdi tərk edib dağlara çəkildiyini, lakin Yaxşının aləmə göz yumduğunu, dostu Sarının halının pərişan olduğunu eşitdikdə dağlardan enib kəndə gəldiyini, bəydən qisas aldığını təsvir edir:

Açıldı yer-yerdən atəş dalbadal
– Bu, nakam Zəfərin qisasıdır, al!
Bu da ki, Yaxşının, aşıq Sarının.
Bu da anaların göz yaşlarının... [12, s. 251]

Zəfərin qətlindən özünə gələ bilməyən aşıq Yaxşının görüşə gəlməməsindən daha da sarsılır, qonşu qızından:

– Fələk güldürmədi iqbalınızı.
Yaxşının atası demiş sözünü:
"Sarı məqsədinə yetməyəcəkdir.
Qızımdan bir yolluq çəksin gözünü..." [12, s. 245]

xəbərini eşidəndə isə sanki həyatı sönür. Sarı aşığın ağri-acısını ifadə edərkən müəllif aşığın "gəlmədi" rədifli qoşmasını xatırladır. Zülm ilə sevgililərin ayrılması, təmiz arzuların məhv olunması dövrün səciyyəsi kimi səslənir:

Niyə bəxti qara yaranmışam mən?
Açılır qəlbimdə sağalmaz yara.
Zaman zərbə vurur eşqə, ilqara;
Fəlakət nə yaman çıxır taxtına!? [12, s. 247]

Poemanın sonrakı bölmələri ("Yaxşını qaçırdılar", "Yaxşı xəstədir", "Ölüm rüzgarı") rəzalətin yenə də taxta çıxaraq bu dəfə Yaxşının baxtına qılınc çalmasına, təmiz sevdanın zorla pozulmasına, zavallı qızın əsarətə düşməsinə həsr olunmuşdur. Eşqi dara çəkilən Yaxşı sevgilisindən xəbər tuta bilmir, dərdə tutularaq boran vurmuş təzə gül kimi solub məhv olur, əbədi olaraq həyata göz yumur.

Müşkül görməmişəm bu müşkül kimi.
Dilindən uçduqca ürək sözləri,
Onun hər kəlməsi Sarıdan olmuş.
Nəhayət, yumulmuş qara gözləri

Yerlər qan ağlamış, göylər tutulmuş... [12, s. 249]

"Sındırılan saz", "Son ziyarət", "Vida" bölmələrində M.Rahim bu ağır fəlakətin Sarı aşığa təsvirini, onun Yaxşının qəbri üstə keçirdiyi hissləri təsvir edir. Bu gen dünyada tənha qalan, doğma vətəndə qəribə çevrilən Sarı aşığın həyatından üz döndərməsi bir insanın dünyaya – cəmiyyətə üsyanı kimi qəbul olunur. Çarəsizliklə:

Getdin qoyub məni yalnız arada,
Neyləyim indi bu matəmsərada?.. [12, s. 252]

nidasını dilə gətirən, alışıb yanan aşığın gücü yalnız ona yetir ki, zalım fələyə:

Mənim əvəzimə səndən əminəm
Şeirlərim alar intiqamımı... [12, s. 253]

söyləsin. Dünya gözlərində zülmətə dönən Sarı aşıq vəsiyyət kimi

Mən aşıq tərsinə qoy,
Tər təni tərsinə qoy,
Yaxşını qibləsinə,
Aşığı tərsinə qoy [12, s. 253].

bayatısını yazır, nifrət etdiyi zalım dünyaya qarşı etiraz olaraq zəhər içir və çəkdiyi zülmə son verir. Xalq aşığın vəsiyyətinə əməl edərək onu Yaxşının yanında dəfn edir, ruhuna rəhmət diləyir və adına dastan qoşur. Aşıqların dilindən düşməyən "Yaxşı və Aşıq" dastanı folklorumuzda yeni hadisə kimi qiymətləndirilir, ustad sənətkarlar haqqındakı dastan yaradıcılığı üslubunu qorumaqla "Qurbani", "Abbas və Gülgəz" və s. tipli dastanlar silsiləsini zənginləşdirir" [2, s. 10-11].

Beləcə müəllif ədəbi qəhrəmanının acı taleyini ictimailəşdirir, Sarı aşığın həyatının, yaradıcılığının və dövrünün hər bir epizodu müəyyən məna daşımaqla bütövlükdə əsərin məzmununu təşkil edir. Poema nikbin sonluqla bitir, M.Rahim Sarı Aşıq və Yaxşının timsalında eşq hünərinin məğlubedilməzliyini, ellərin bu sevgini dastan etdiyini, onların saf məhəbbətini yaşatdığını təsdiqləyir.

Öz yaradıcılığı ilə şifahi xalq ədəbiyyatına, aşıq sənətinə yaxın olan Hüseyn Arif (1924-1992) ötən əsrin 60-cı illərindən başlayaraq "Dilqəm" poeması üzərində işləmiş, 1972 [6], 1978 [7] və 1984-cü ildə [1] əsərdən parçalar dərc etdirmişdir. Poemanın son variantının bölmələri ilə tanışlıq onu göstərir ki, gerçək adı Yəhya bəy olan, sevgilisinə ömürlük həsrət qalandan sonra Dilqəm kimi tanınan aşığın iztirablarının kədərli hekayətini tərənnüm etməyə başlamazdan əvvəl H.Arif aşıq poeziyasının tarixi inkişaf yolunu öyrənmiş, daxilən özündə güc toplayaraq Dilqəmin faciəsini qələmə almışdır. Əsərin ilk misraları da şairin fikrinin, düşüncələrinin bütövlükdə "Dilqəm"lə məşğul olduğunu göstərir:

"Dilqəmi" üstündə köklənib sazım
Qəlbimdə Dilqəmdir, başımda Dilqəm [1, s. 47].

"Dilqəm"i yaratmağa bütün varlığı ilə aludə olan H.Arifin axtarış coğrafiyası çox genişdir. Şairin yaradıcılıq axtarışları Babəkin ocaq çatdığı daşda, Cavanşirin döyüş meydanında, Giziroğlunun şeşpərinin izində, Koroğlunun Qıratı oynatdığı yerdə, Nəbinin, Kərəmin yağıları bir-birinə qatdığı döyüş səhnəsində aparılmış, xalq yaddaşının dərin qatlarına baş vurulmuşdur. Müəllif Azərbaycan torpağını çəmən-çəmən, çeşmə-çeşmə, meşə-meşə dolaşmış, Kürdən, Arazdan keçmiş, Babadağın, Şah dağının, Murovun, Qoşqarın, Kəpəzin çənindən soruşmuş, aşıq Alının, Abbasların, Əmrahların, Qurbanların sorağını almışdır. Sirri dərin bir aləmi axtara-axtara

Nə müddətdir
Dilqəm məni buraxmayır,
Mən Dilqəmi axtarıram [1, s. 51].

bəyan edən şair məqsədini açıqlayır, Dilqəmin timsalında bir xalqın kədərini – qəm dastanını yazır, kitablar vərəqləyir, təvəllüdü, vəfatı bəlli olmayan sənətkar haqqında soraq gəzir. Bir çox digər el aşıqları kimi Dilqəmdən də xəbər almaq asan olmur.

Buludlar arxasında
İtən ulduzlar kimi
Soraqsızdır özləri.
Nə yazı var, nə sənəd [1, s. 54].

H.Arif poemanın "Dilqəmi Dilqəm ağladar" bölməsində ədəbi qəhrəman Yəhya bəyə üz verən müsibətin dərinliyini – qonur gözlü Telli xanımın geri dönməməsinin ağrısını, ardınca xallı Dilqəm atının bu kədərə dözməyərək ölməsini, indiyədək görünməmiş, eşidilməmiş faciəni, ömürdən ömür alan dəhşəti kəskin hisslərlə təsvir edir. Ədəbiyyatda atın, itin sahibinə vəfasına dair, dar məqamda onun köməyinə çatmasına, çətinlikdən qurtarmasına, yaralanmış igidin yanını kəsdirməsinə aid nümunələr çoxdur. Lakin sahibinin dərdindən qəhr olan, göz yaşı axıdan, yanıb külə dönən, sıxıntıdan bağrı çatlayan at obrazının yaradılması H.Arifin poetik tapıntısı kimi qəbul edilməlidir:

Dözməyib bu müsibətə,
Boğulub, sıxıldı Dilqəm.
Son dəfə fəğan qoparıb,
Əbədi yıxıldı Dilqəm [1, s. 59].

Vəfalı atı qarşısında diz çökərək gözlərindən qan-yaş tökən Yəhya bəy

Götürüb xatabənd sazı,
Bir söz söylədi o gecə.
Dilqəm! – deyə ləqəbini
Bəyan eylədi o gecə [1, s. 60].

Həmin gündən Telli dağı yalan olur, Dilqəmi Dilqəm ağladır. Mövzuya uyğun olaraq əsərdə qüssə, kədər üstünlük təşkil edir. Bu xüsusda professor Camal Mustafayev yazır: "Şairin (H.Arifin – S.Ə.) başladığı bu poema kədərli bir hekayətə çevrildi. Ona qədər şerinə xas olmayan qəm motivləri gətirdi" [11, s. 7]. Qeyd edək ki, həqiqətən, əsərdə Dilqəmdən istifadə olunmuş şeirlər də müəllif poeziyası ilə həmahəng səslənir, poemanın qəm ruhunu daha da qüvvətləndirir, oxucuda yetərincə hiss-həyəcan yaradır:

Könül həmdəmini itirən kəsi
Nə ocaq qızdırır, nə od isidir.
Dünyanın dünyadan ağır itkisi
Ailə itkisi, yar itkisidir [1, s. 64].

H.Arif Dilqəmi daim düşünən, dərdlərini şeirlə mahir ifadə edən el sənətkarı kimi təqdim edir, insanın alışıb yanan çağında şairliyin, söz qoşub dərdini dilə gətirməyin haraya çatdığını vurğulayır. Söz demək, saz çalmaq, dərdini bəyan etmək, fəğanını, fəryadını elə çatdırmaq istəyini Dilqəm sazbəndə bildirir, ona saz düzəltməsini xahiş edir.

Söz-sənət dünyasına "xoş xəbər şairi" kimi gələn H.Arifin taleyində və qismətində vaxtsız oğul itirmək də varmış. Bir şair kimi öz kədərini də Dilqəmin qəminə qatan müəllif poemaya sonradan əlavə etdiyi, ədəbi qəhrəmanına hesabat ruhunda yazdığı "Qınama, ustad" bölməsində özünü "kədər şairi" adlandırır, haqlı olaraq təsdiqləyir:

Yaralı Dilqəmə yanmaqdan ötrü
Ürək yanmalıydı, can yanmalıydı.
Yüz nakam aşiqi anmaqdan ötrü
Bir kədər şairi yaranmalıydı [1, s. 71].

"Kədər şairi" bir xalqın kədərini, "Dilqəm" dastanını qərinələrdən keçirərək bugünkü nəsillərə çatdıra bildi. Rastlaşdığı müsibətdən sonra bədbinləşən şair dünyanın sevinc və həvəsini unudur, özünü dar qəfəsdə hiss edir. Bir müddət yaradıcılıq susqunluğu, həyatdan üzü dönüklük yaşayan H.Arif sazını yenidən Dilqəm eşqinə, Arif eşqinə dilləndirir, bir şair kimi "özünü "Dilqəm" də tapır".

Ədəbiyyatda nəğməkar şair adını qazanmış İslam Səfərli (1923-1974) ürəyinin dərinliklərindən baş qaldıran duyğularıyla lirik şeirlərlə yanaşı bir neçə poema da yazmışdır. Onun 1959-1962-ci illərdə qələmə aldığı "Ələsgər" poeması [13] aşıq poeziyasının bütün növlərində oxucuları ovsunlayan əsərlər yaratmış ustad aşıq Ələsgərə həsr olunmuşdur. İ.Səfərlinin dilimizin zəngin ədəbi-bədii vasitələrindən məharətlə istifadə edərək aşıq şeiri formalarında ecazkar nümunələr yaratmış gözəllik vurğunu, həyat aşiqi, saf və ülvi hisslər ustadı dədə Ələsgər yaradıcılığına müraciət etməsi, ona nəsillərin yaddaşında əbədiyaşar söz abidəsi ucaltması tam qanunauyğun haldır. Çünki əsil xalq poeziyasına xas olan sadəlik və dərin məna, şirinlik və axıcılıq, səmimi poetik duyğular və gözəlliyin tərənnümü kimi bədii-yaradıcı söz keyfiyyətləri İ.Səfərli poeziyası ilə haqq aşığı Ələsgər müdrüklüyü arasında birbaşa səsləşmə təşkil edir. Buna görə də "İ.Səfərli məhz aşığın (Ələsgərin – S.Ə.) yaradıcılığının ümumi mənzərəsini göstərmək məqsədilə aşıq şeiri şəkillərindən bol-bol istifadə edib. Poema boyu bir neçə qoşma, gəraylı, bayatı ilə yanaşı Aşıq Ələsgərin müəllifi olduğu şeirlərdən də bəhrələnmişdir" [10, s. 140].

Poemanın yazılmasında başlıca məqsəd Ələsgərin doğulduğu, böyüyüb boya-başa çatdığı, məclislər qurduğu Göyçə mahalını, onu dilə gətirən, sazında-sözündə dillənən dövrün poetik mənzərəsini yaratmaqdan, qeyri-adi istedad sahibi olmuş, aşıqlıq sənətinin zirvəsinə ucalmış aşıq Ələsgərin bədii obrazını yaratmaqdan ibarət olmuşdur. Söhbətə aşığın dünyaya gəlişilə başlayan, yaşadığı illərinin ağrı-acı ilə dolu tablosunu yaradan, ayağı yer tutandan söz qoşub oxumasından danışan şair ilk sətirlərdən Ələsgərin fitri istedadının qaynağını müəyyənləşdirir, onun atasının dilindən bu sözləri dilə gətirir:

Babamın sözqoşan olub keçmişi,
Şeirlər deyərdi hərdən dədəm də.
Deyincə sözünü Alməmməd kişi
Oğlunun şən səsi axdı bu dəmdə [13, s. 104].

XIX əsr Azərbaycanının tipik sosial-iqtisadi vəziyyəti, hələ gəncliyindən Ələsgərin el şənliklərində məclislər aparması, dinləyiciləri heyran etməsi, ailəsinin kəskin ehtiyacı üzündən Kəblə Qurbanın evində nökərçilik etməsi, Səhnəbanuya qarşı faciəli məhəbbət macərası, dövrün ziddiyyətlərilə üz-üzə gəlməsi əsərin inkişaf xəttini təşkil edir.

Bəzən min acıya tablaşır ürək,
Neçin hakim olur insan insana?
Ələsgər düşündü: "Daha neyləmək,
Gedim nökər olum Kəblə Qurbana".
İnsan öz bəxtini gərək sınaya,
Ələsgər ağadan donluq da aldı.

Onun təkcə qızı Səhnəbanuya
Günlərin birində meylini saldı [13, s. 107-108].

Ələsgərin taleyi dövrün, tarixin yaratmış olduğu acı reallıqlarla sıx vəhdətdə verilir, ustad aşıq obrazını yaradarkən poema üzərində işləyən İ.Səfərli əsərə dövrün ruhunu gətirmək üçün Göyçə mahalını gəzib dolaşmış, aşığın şagirdləri, müasirləri, tanışları ilə görüşmüş, material toplamışdır. Nəticədə aşıq Ələsgərin fərdi bioqrafiyası, yaradıcılıq göstəricilərilə kifayətlənməyərək dövrün poetik salnaməsini yarada bilmişdir. Poemanın sənətkarlıq xüsusiyyətlərini dəyərləndirən xalq şairi Qabilin gəldiyi qənaətə görə, "əsər ("Ələsgər" poeması – S.Ə.) xalq ruhunda, canlı, sadə dildə, doğma şeirimizin qırılmaz, pozulmaz ahəngində yazılmışdır. Buradakı əksər ifadələrdə, obraz və təşbehlərdə oxucuda konkret təsəvvür yarada bilən bir əyanilik vardır" [8]. Əsərin təkcə iki səhifəsindən gətirilən nümunələr deyilənlərə misaldır. Müəllif Pullu Məhərrəmin alverdən döndüyünü görən qulluqçuların çaxnaşmaya düşdüyünü əks etdirdiyi "mis qazan kimi" (O evə çatmamış qulluqçu-nökər / Dəydi bir-birinə mis qazan kimi, s. 112), yaxud lirik qəhrəmanın Səhnəbanunu vəsf edərkən işlətdiyi "Zərrin bir tac kimi" (Qədəmin dəydikcə gül bitirir yer, / Zərrin bir tac kimi cilalanmısan", s. 113) təşbehləri oxucuda müvafiq olaraq narahatçılıq və heyranlıq hissləri və əhvalı yaradır.

On üç hissədən ibarət yazılmış poemada Ələsgərin Səhnəbanuya olan sevgisindən danışılması əsas yer tutur. Pencər yığan qızların dağ döşünə çıxmaları, gözəlləri görən axar suların kiriməsi, Ələsgərin də saz alıb onlara qoşulması, şux gözəllərin birdən ağ yelə dönüb sevgililərdən uzaqlaşmaları, iki sevən könlün görüşməsi ülvi hisslərlə verilir, dərdə düşmüş aşığın dərdinin üstünə dərd gəlir, müəllif bu dərdi ifadə etməkdə acizləşir:

Bu gözəllik ilahəsi
Ələsgəri qul eylədi.
Əskilmədi dərdi-səri,
Bol dərdini bol eylədi.
Ağlamadı onun gözü.
Yaş çıxanda dərd azalar.
Mənim gücüm heyf çatmır,
Kaş bu hissi bir yazalar... [13, s. 118]

İ.Səfərli yaradıcılığa ilk məhəbbəti Səhnəbanuya olan eşqini tərənnüm etməklə başlayan Ələsgərin yaşadığı dövrün ictimai quruluşundakı ədalətsizliyə, çar məmurlarının və onların yerli əlaltılarının amansızlığına qarşı çıxdığını, xalqın mənafeyini müdafiə edərkən heç kimdən çəkinmədiyini göstərməklə aşığın əsil vətəndaş mövqeyini ortaya qoymuşdur. Pullu Məhərrəmin pristavın şərəfinə düzəltdiyi məclisdə saz çalıb, söz demək fürsəti əldə edən aşıq Ələsgər cəsarətlə "çıxıbdır" rədifli qoşmasını söyləyir, pristavın, naçalnikin, qazının, axundun, koxanın, kəttanın "zatı çıxıbdır" deməkdən çəkinmir, xalqın dözülməz vəziyyətinə, yoxsulluğun son həddə çatmasına, artan vergilərin onsuz da ağır olan həyatı daha da ağırlaşdırdığına etiraz səsini ucaldır.

Bu söz ildırımtək vurdu məclisi,
Bir an heç kimsənin çıxmadı səsi.
Deyir, söz şilləsi yaman tərs olar.
Yerində mıxlanıb qaldı qonaqlar [13, s. 124].

Aşıq Ələsgərin telli sazına, şeiriyyətinə, mənalı sənətinə, məhəbbətinə alqış dastanı

söyləyən poema müəllifi əsərinin əsas ideyasını belə ifadə etmişdir:

Saz necə dilləndi gör sinəsində,
Güldü, telli sazın telləri güldü.
Aşıq Ələsgərin zənguləsində
Sanki Azərbaycan elləri güldü [13, s. 134].

Fikrin davamında qəlbinin telinə tel bağlayan İ.Səfərli ilhamının gücüylə aşığı vəsf edir, Səhnəbanunun zorla əmisi oğluna yar edilməsi xəbəri dəhşətli ildırım kimi Ələsgərin məhəbbətini odlara yaxır, sevgilisi də qara bağlayır. İş o yerə çatır ki, aşığı Səhnəbanunun toy məclisində çalıb-oxumağa çağırırlar. Bu yerdə aşıq Ələsgərin məşhur "gedibdir" rədifli qoşmasını xatırladan müəllif aşığın dərdini "gedir" rədifli qoşmasında bəyan edir:

Gəl, gəl! Ürəyini ərit şam kimi,
Gözün baxa-baxa yar əldən gedir.
Kükrə bu meydanda gur ilham kimi,
Kaman əldən gedir, tar əldən gedir [13, s. 140].

Poemada aşıq Ələsgər obrazını yaradarkən müəllif onun qəlbini məngənətək sıxan zəmanəyə qarşı kəskin mövqeyindən danışaraq haqq aşığının dövrün mərd igidlərinin qəhrəmanlığını dastana çevirdiyini də yaddan çıxarmır. Aşıq Ələsgərin Göyçə mahalında igidliyilə ad-san qazanmış Dəli Alıyla münasibəti xalqın dərdinin çəkilməsi baxımından əsərdə vəhdət yaradır və təsirli, yaddaqalan verilir. Xalq şairi Qabil də təsdiqləyirdi ki, "Əgər Ələsgər xalqın incə zövqünü, sözünün və musiqisinin qüdrətini təmsil edirsə, Dəli Alı onun vuran qolunu, haqq-ədalət yolunda hər cür vuruşa qadir olduğunu göstərir" [8]. Elin Alıya, Alının isə elə bağlılığının hikmətini yaradan İ.Səfərli xalqın igid oğlunu çətin sınaqlar anında təsvir edir. Toy məclisindən Səhnəbanunu qaçırdıb aşıq Ələsgərə qovuşmasını əvvəlcədən düşünən Dəli Alı məclisin gedişində aşığa həqarət gördükdə:

Öpün Ələsgərin durduğu yeri!
Kim səcdə etməsə bu sənətkara,
Anası bu toyda geyəcək qara!..
Birinci pristav baş əysin buna,
Yoxsa bələd deyil Dəli Alının
Kim olduğuna?!, - deyir [13, s. 143].

Toy mağarı alt-üst edilir, lakin aşıq Ələsgərin eşqini dövrün bəlasından qorumaq mümkün olmur, Səhnəbanunun gəlin köçərkən namərdcəsinə öldürülməsi iki sevən ürəyin birini əbədi söndürür, Ələsgərin qan-yaş tökməsindən Göyçə də qara bağlayır, ana torpaq boynuna sarılaraq Səhnəbanunu öz mehriban qoynuna alır. İlk məhəbbətinin aci təsirindən ayrıla bilməyən aşıq Ələsgər at minib, saz götürüb ölkəni dolaşır:

Ələsgərim diyar-diyar,
Oba-oba gəzər oldu.
Göz yaşları Göyçə gölü,
Dərya eşqi Xəzər oldu [13, s. 147].

Tezliklə aşığın şöhrəti hər tərəfə yayılır, o, aşıqlarla deyişir, dərdini, kədərini yollara səpə-səpə ağızlarda dastan olur, neçə aşıq məclisinin məhəbbətini qazanır, yüz sehrli qıfıl-bəndin mənasını yozur, nakam gedən eşqini salamlayıb Göyçəyə dönür. XX əsrin əvvəllərində, 1905 və 1918-ci illərdə erməni fitnə-fəsadı ilə xalqımızın tarixində baş vermiş faciələr yüz yaşını haqlamaqda olan dədə Ələsgəri sarsıtmış, üç il qaçqınlıq taleyi yaşamış aşıq yenə də

zəmanədən acı-acı şikayətlənməli olmuşdur. Lakin poemada buna münasibət bildirilməmiş, əksinə, hakim ideologiyanın tələbinə uyğun olaraq ermənilərlə dostluq daha geniş tərənnüm edilmişdir. Mövcud vəziyyət baxımından bu faktın əsərin mənəvi dəyərinə təsirsiz ötüşmədiyini qeyd etməmək mümkün deyil.

Baxmayaraq ki, bədii qəhrəmanının qalan dövrünün poetik mənzərəsini yaradan İ.Səfərli ustad aşığın həqiqətən elin havadarı olduğunu, milli zəmində düşmənçilik edən, bir dəyirmanı olan iki kəndin bu dəyirmandan istifadə etməsi üçün el ağsaqqallarının məsləhətilə hamının hörmətini qazanmış dədə Ələsgərin elin sözünü yerə salmayaraq bir müddət dəyirmançılıq etdiyinin, xalqın o ağır günlərində, həm də o yaşında bu əziyyətə qatlaşdığının səmimi ifadə olunması əsərin yaxşı işlənmiş hissələrindəndir:

– Ah, oxuyan Ələsgərdi!
Demək, daha yol açıqdı.
Ağlaşmadı arvad-uşaq,
Tövşümədi bir sinə də,
Sanki Göyçə mahalının
Qəlbi vurdu bir sinədə [13, s. 153].

Zəmanənin çətin sınaqlarından şərəf və mətinliklə çıxmış aşıq Ələsgərin kamillik dövrü yaradıcılığının təsviri poemada bununla bitir. El sənətkarının müxtəlif dastanlarda dövrün tanınmış aşıqları ilə deyişmələri, onun aşıqlıq sənətinin zəngin xüsusiyyətlərini əks etdirən sonrakı fəaliyyəti açıqlanmır. Poema 105 il ömür sürmüş, sazı və sözü ilə 80 ildən artıq aşıq sənətinə xidmət etmiş, "min illik bir ənənənin axarında öz sözünü demiş, heç kəsi təkrar eləməmiş, qeyri-adi bir söz sənəti yaratmış" [4, s. 20] haqq aşığı dədə Ələsgərin əbədi var olacağının təsdiqlənməsilə sona çatır:

Əlində telli saz, alnında vüqar,
Ağ günlər eşqinə coşdu Ələsgər.
Dünyada necə ki, saz var, şeir var,
O da yaşayacaq dünyalar qədər!... [13, s. 154]

Oxucuları qarşısında bu fikrin əminliyini ifadə edən, "Ələsgər" poemasını da "Janr baxımından şeirlərini ənənəvi poetik formaların yaradıcı şəkildə davam etdirilməsi əsasında" [5, s. 6] yaradan İ.Səfərli Azərbaycan aşıq sənətinin ən nəhəng simalarından olan, uzun ömrünün sevinci damlanı, kədəri isə dəryaları xatırladan, şeiriyyatı və söz səltənətilə nəsilləri heyrətə gətirən aşıq Ələsgərə poetik ehtiramını bildirmişdir.

Belə qənaətə gəlmək olar ki, M.Rahimin, H.Arifin və İ.Səfərlinin araşdırdığımız tarixi poemalarında Sarı aşıq, Dilqəm, aşıq Ələsgər kimi el sənətkarlarımıza poetik ehtiram bir tərəfdən tarixi poemalarda xalqın mədəni həyatında parlaq xarakteri ilə seçilən yaradıcı şəxslərin şəxsiyyəti və yaradıcılığına məhəbbətlə bağlıdırsa, digər tərəfdən, dərin məzmunlu zəngin sənət növü kimi ayrı-ayrı aşıqlarımızın həmişə öz milli xüsusiyyətlərini qoruyub saxlayan sənətkarlıqları ilə əlaqədardır.

ƏDƏBİYYAT

1. Arif H. Dilqəm. Şeirlər və poemalar. Bakı: Yazıçı, 1984, 240 s.
2. Azərbaycan xalq dastanları / Tərt. ed. Ə.Axundov, red. A.Nəbiyev. Bakı: Yazıçı, 1980, 250 s.

3. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı: Pedaqoji institutların tələbələri üçün dərslik. Bakı: Maarif, 1981, 404 s.
4. Ələsgər İ. Haqq aşığı / Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.
5. Həbibbəyli İ. Romantik pafosdan lirizmə. "Azərbaycan" qəz., 2013, 7 mart, № 52 (6327).
6. Hüseynzadə H. Söylə, yadındamı? Bakı: Gənclik, 1972, 205 s.
7. Hüseynzadə H.A. Ömür gözləsə. Bakı: Gənclik, 1978, 352 s.
8. Qabil. El şairinin surəti. "Ədəbiyyat və incəsənət" qəz., 1963, 26 yanvar, № 4 (1205).
9. Qasımlı M. Bayatılarımızın heyrət heykəli. "Ədəbiyyat" qəz., 2015, 5 sentyabr, № 49 (5004), s. 20-21.
10. Məmmədov E. İslam Səfərli poeziyasında folklor // Naxçıvan. İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal, Naxçıvan, 2013, № 26, 296 s.
11. Mustafayev C. Hüseyn Arif şerinin cazibəsi / Hüseyn Arif. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 224 s.
12. Rahim M. Məhəbbət dastanı. Şeirlər və poemalar. Bakı: Azərnəşr, 1974, 260 s.
13. Səfərli İ. Əbədi beşik. Şeirlər və poemalar. Bakı: Yazıçı, 1978, 225 s.

Naxçıvan Dövlət Universiteti
E-mail: alizadesitare@yahoo.com

Sitara Alizadeh

POETIC RESPECT TO NATIONAL PERFORMERS IN THE HISTORICAL POEMS DEDICATED TO AZERBAIJANI ASHUGS

In the article, the author investigated the issue of poetic respect to national masters in historical novels "Sari Ashug" by M.Rahim, "Dilgam" by H.Arif, and "Alasgar" by I.Safarli. It is substantiated the study and evaluation of poetic views, lyric-epic ideas of the authors about identity, fate, environment, outlook and creativity of prominent representatives of ashug art are topical. In this research the authors' mastery characteristics have been analysed in the reflection of artistic images of ashugs who played a great role in the development and improvement of ashug art and literary sources were used.

Keywords: *historical poem, Sari ashug, Dilgam, Ashug Alasgar, art of ashug, artistic image, respect, mastery characteristics, literary linguistic means.*

Ситаре Ализаде

ПОЭТИЧЕСКИЙ ПОЧЕТ НАРОДНЫМ ПЕВЦАМ В ИСТОРИЧЕСКИХ ПОЭМАХ, ПОСВЯЩЕННЫХ АЗЕРБАЙДЖАНСКИМ АШУГАМ

В статье рассматривается проблема поэтического почтения народным певцам в исторических поэмах М.Рагима «Сары Ашуг», Г.Арифа «Дильгем» и И.Сафарли «Алескер». Обосновывается мысль, что актуальным представляется исследование и оценка в данных исторических поэмах поэтических заключений и лиро-эпических раздумий авторов о личности, судьбе, среде, современниках, мировоззрении, творчестве видных

представителей ашугского искусства. В исследовании анализированы особенности мастерства поэтов в воссоздании художественного образа ашугов, сыгравших видную роль в развитии и усовершенствовании ашугского искусства, использована источники литературоведения.

Ключевыем слова: *историческая поэма, Сары ашуг, Дильгем, ашуг Алескер, ашугское искусство, художественный образ, поэтическое почтение, особенности мастерства, средства литературного языка.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 04.06.2019
Son variant 02.09.2019

UOT 821 (091)

NURLANƏ MUSTAFAYEVA

AZƏRBAYCAN AŞIQ ŞEİRİNİN TÜRKİYƏ ƏDƏBİYYATŞÜNASLIĞINDA TƏDQİQİ MƏSƏLƏLƏRİ

Məqalədə türk ədəbiyyatşünaslarının Azərbaycan aşıq yaradıcılığı ilə bağlı araşdırmaları təhlil edilir. Qeyd olunur ki, türk ədəbiyyatşünaslarının aşıq yaradıcılığı haqqında tədqiqatlarında müqayisəli araşdırma başlıca yer tutur. Bu istiqamətdə İsmayıl Hikmət, Məhməd Fuad Köprülü, Pərtəv Naili Boratov, Ənvər Aslan, Əli Duymaz, Ənver Uzun, Nail Tan, Əli Kafkasiyalı və başqa tədqiqatçıların elmi-nəzəri əsərlərində problemə yeni istiqamətdən yanaşmaları Azərbaycan ədəbiyyatşünaslığını da zənginləşdirməkdə müəyyən rol oynamışdır. Bu araşdırmalarda türk ədəbiyyatşünasları həm bədii mətni təhlil edir, həm də Azərbaycan ədəbiyyatşünaslığındakı fikir və mülahizələrə münasibət bildirirlər. Bu araşdırmalardan aydın olur ki, Türkiyə və Azərbaycan aşıqları arasında bir doğmalıq, yaxınlıq da mövcuddur.

Açar sözlər: *aşıq yaradıcılığı, ədəbiyyatşünaslıq, Türkiyə, müqayisəli araşdırma.*

Türkiyə ədəbiyyatşünaslarının mütəmadi olaraq araşdırdığı problemlərdən biri Azərbaycan aşıq şeiridir. Bu problemin Türkiyə ədəbiyyatşünaslığında tədqiq edilməsi məsələyə fərqli aspekt-dən yanaşmağı, bir çox hallarda isə müqayisəli şəkildə araşdırmağı zəruri etmişdir. Bu istiqamətdə İsmayıl Hikmət, Məhmət Fuad Köprülü, Pərtəv Naili Boratov, Ənvər Aslan, Əli Duymaz, Ənver Uzun, Nail Tan, Əli Kafkasiyalı və digər tədqiqatçıların elmi-nəzəri əsərlərində problemə yeni istiqamətdən yanaşmaları Azərbaycan ədəbiyyatşünaslığını zənginləşdirməkdə müəyyən rol oynamışdır. Hələ XX əsrin 20-ci illərində İsmayıl Hikmətin yazdığı "Azərbaycan ədəbiyyatı tarixi" kitabında şifahi xalq ədəbiyyatı və onun ayrı-ayrı formaları ilə bağlı sistemli tədqiqatlar aparılmışdır. Tədqiqatçı xalq ədəbiyyatı nümunələri bayatılar, sayaçı sözlər, qoşmalar, gəraylılar, dastanlar, Novruz şərqiləri, manilər və s. formaları təhlil edərək onların zənginliyini üzə çıxarmağa çalışmışdır. Xalq ədəbiyyatını tədqiqatçı həm də yazılı ədəbiyyatın qaynağı kimi göstərməkdə tamamilə haqlı idi. Tədqiqatçı eyni zamanda, aşıq ədəbiyyatının Türkiyənin Anadolu bölgəsində də eyni dərəcədə mövcudluğunu, bir sıra xüsusiyyətləri ilə yaxın və əlaqəli olduğunu göstərmişdir. Onun qeydlərinə görə, əsasən Anadoluya köçən türk qəbilə və əşirətlərinin ən çox getdikləri yerlər Azərbaycan torpaqları olduğu üçün xalq şeiri Anadoluya da bu yolla keçmişdir [2, s. 85].

Türkiyə ədəbiyyatşünaslarının xüsusilə araşdırdıqları aşıqlar Aşıq Abbas Tufarqanlı, Aşıq Qurbani, Xəstə Qasım, Aşıq Ələsgər, eləcə də XX əsrin aşıqlarından olan Hüseyn Bozalqanlı, Mikayıl Azaflının yaradıcılığı daha çox diqqəti cəlb etmiş, tədqiqat əsərlərində onların yaradıcılığına üstünlük vermişlər. Aşıq Qurbani, Xəstə Qasım və Aşıq Abbas Tufarqanlının yaradıcılığında ən çox diqqət çəkən məqam həm də bu aşıqların yaradıcılığının Türkiyədə məşhur olması, qoşma və gəraylılarının geniş yayılmasıdır. Ümumiyyətlə, Azərbaycan aşıqlarının əsərləri Anadoluda da oxunmuş, aşıqların repertuarında xüsusi yer tutmuşdur. Bununla yanaşı, bu aşıqların Azərbaycan ədəbiyyatına məxsus olması həmişə etiraf edilmişdir. Özü də aşıqlarımız Türkiyə ədəbiyyatşünasları tərəfindən xalq şairləri adlandırılmışdır.

Azərbaycan aşıqları ilə bağlı ilk araşdırma aparanlardan biri görkəmli ədəbiyyatşünas alim Məhmət Fuad Köprülü olmuşdur. Onun Azərbaycan yazılı ədəbiyyatı ilə yanaşı, şifahi xalq ədəbiyyatı haqqında mövcud araşdırmaları, həm də tədqiqatçının Azərbaycan xalq ədəbiyyatı tədqiqatçısı olduğunu deməyə tamamilə əsas verir. Xüsusilə, "Kitabi Dədə Qorqud"

dastanı ilə bağlı apardığı araşdırmalar Qorqudşünaslığı zənginləşdirən tədqiqat əsərlərindəndir. Tədqiqatçı Azərbaycan aşıqlarının da yaradıcılığını yaxından izləmiş və "Azəri aşıqlarından Tufarqanlı Abbas" məqaləsində şairin həyat və yaradıcılığı ilə bağlı geniş məlumat vermişdir. Əhməd Cəfəroğlunun sahibi olduğu "Türk Amacı" dərgisində nəşr edilən bu məqalə həm Azərbaycanda, həm də Türkiyədə aparılan ilk araşdırmalardandır [5]. Buna qədər isə Tufarqanlı Abbas haqqında Əhməd Cəfəroğlunun məlumat xarakterli bir məqaləsi çap olunmuşdu [1, s. 97-104]. Tədqiqatçı Məhmət Fuad Köprülünün də istinad etdiyi mənbələrdən biri məhz bu məqalə olmuşdur.

Məhmət Fuad Köprülü aşığın həyatı haqqında məlumatların az olduğunu qeyd edərək çox qısa, lakin lazımi məlumatları diqqətə çatdırır. Məhmət Fuad Köprülünün məqaləsinə qədər aşığın həyat və yaradıcılığı haqqında dolğun tərcümeyi-hal yazılmamış, yaradıcılığı tam şəkildə araşdırılmamışdı. Tədqiqatçı aşıq haqqında yazırdı: "Azəri türklərinin ən məşhur xalq şairlərindən biridir. Xalq dilində "Tufarqan", "Duharkan" kimi tələffüz olunan Duhvarkan qəsəbəsindəndir. Bu qəsəbə Elxanilərin son dövrlərində Azərbaycanın Marağa əyalətinə tabe olan, əsasən bağçılıqla məşğul olan kiçik bir qəsəbə idi; əhalisinin ağbənizli və şafi məzhəbindən olduğunu Həmdullah Müstəvfi qeyd edir; o zaman ətrafındakı səkkiz kəndlə birlikdə yenə bu adda bir vilayət təşkil edir və Elxanilər divanına 23,600 dinar verirdi" [5, s. 3].

Maraqlıdır ki, tədqiqatçı bu mənbəni Gui Le Stranqenin "Nizhat-al-Qulub" [s. 87, GMS, XXIII, I] kitabından əldə etdiyini də qeyd edir. Bununla yanaşı bildirir ki, yazılı mənbələrdə aşığın həya-tına aid geniş məlumatlar yoxdur, yalnız İran və Qafqaz türkləri arasında onun həyatı ilə bağlı bu günə qədər danışılan xalq dastanı mövcuddur. Həmin dastanı Əhməd Cəfəroğlunun gəncəli bir türkdən eşidərək nəşr etdiyini bildirən Məhmət Fuad Köprülü dastanın iki variantının qısa məzmununu təqdim edir. İkinci variantın qısa və bir qədər fərqli olduğuna diqqət çəkir: "İkinci rəvayət çox qısa olmaqla yanaşı, nəticə etibarilə də birincidən fərqlidir. Quyuya atılan Abbasın orada ölməsi, o biri rəvayətlə üst-üstə düşmür. Bu rəvayətin sadəcə əskik deyil, hətta yanlış olduğu təxmin olunur; İlk rəvayətdə olduğu kimi Abbas quyudan, yəni ölümdən qurtulur. Bu nüans düzəldilərək, ikinci rəvayət rahatlıqla birinci rəvayətə əlavə oluna bilər. Mənzum parçalar birinci rəvayətdə 30-40 olduğu halda, ikincidə 3 parçadır. Əlimizdəki nəşrlərdə çoxlu səhvlərlə dolu olan bu parçalar, vəzn və forma baxımından Koroğlu, Aşıq Qərib, Aşıq Qurbani kimi xalq dastanlarından fərqsizdir" [5, s. 5].

Məhmət Fuad Köprülü çox qısa olaraq "Abbas Tufarqanlı" dastanı ilə adı çəkilən dastanlar arasında ortaq (quyudan qurtulma, hökmdarın məsələyə müdaxilə edərək onu sevgilisi ilə qovuşdurması və s.) ünsürlərin olduğu qənaətinə gəlir. Doğurdan da, məhəbbət dastanları arasında bu kimi ünsürlərin təkrarlandığını aydın şəkildə görmək olar.

Aşıq yaradıcılığı ilə bağlı davamlı araşdırmalar aparan tədqiqatçılar Saim Sakaoğlu, Əli Barat Alptəkin, Ənvər Uzun, Nail Tan, Əli Kafkasiyalının araşdırmalarında Azərbaycan aşıq sənətinin müxtəlif problemləri, ayrı-ayrı şəxsiyyətlərinin yaradıcılığı müxtəlif problemlər baxımından araşdırılır. Bununla bağlı iş iki istiqamətdə getmişdir; birincisi, Azərbaycan aşıqlarının qoşma və gəraylıları toplanaraq nəşr edilmiş, ikincisi, bu nümunələr əsasında elmi tədqiqat işləri yazılmışdır. Saim Sakaoğlu, Əli Barat Alptəkin və Əsma Şimşəyin birgə hazırlayıb tərtib etdikləri "Azərbaycan aşıqlarının keçmişdən bu günə adət ənənələri və nümunələri" adlı kitab nəşr edilmişdir [6].

Tədqiqatçı Ənvər Uzun isə Cənubi Azərbaycanın aşıq mühiti haqqında elmi araşdırma aparmışdır. Urmiyə, Qaradağ-Təbriz, Qaşqay, Sulduz, Zəncan, Xorasan aşıq mühitlərini təhlil edən Ənvər Uzun onların fərqli xüsusiyyətlərini elmi-nəzəri şəkildə təhlil etmişdir. Urmiyə

aşıq mühitini araşdırarkən belə bir nəticəyə gəlir ki, "Bu aşıq mühiti Azərbaycan aşıq mühiti ilə Türkiyə aşıq mühitləri arasında bir körpü rolu oynayır. Bu aşıqlar gəzərək, ya da otururaq çalırlar. Qısacası onlar Qars və İğdır aşıqlarının çalıb oxuma tərzləri ilə çox oxşayırlar" [9, s. 26]. Tədqiqatçı Azərbaycan aşıq sənətinin görkəmli tədqiqatçısı Məhərrəm Qasımlıya istinadən bildirir ki, Urmiyada orta əsrlərdən qalma bir adət mövcuddur. Belə ki, onlar XX əsrə qədər toy və təkkələrdə fəaliyyət göstərmişlər və onlara Yunis Əmrə, Xətai, Şeyx Vələd, Hacı Bektaş, Aşıq Qurbani, Füzuli, Nəsiminin önəmli təsiri olmuşdur.

Tədqiqatçı Qaradağ-Təbriz aşıq mühitini təhlil edərkən çox doğru olaraq, tarixi və mədəni baxımdan ona yaxın aşıq mühitlərinə də nəzər salır. Bu mühitə mənsub olan aşıqların sənətində üçlüyün – saz, balaban, dəfin xüsusi yeri olduğunu diqqətə çatdırır. Ənvər Uzun bu mühitə aid olan "Abbas Tufarqanlı", "Abbas və Gülgəz", "Xəstə Qasım" kimi dastanların repertuarlarda xüsusi yer tutduğunu nəzərə çatdıraraq yazır: "Qaradağ aşıq mühiti tarixi və mədəni baxımdan qədim və zənginliyi ilə diqqəti cəlb edir. Qaradağ və Göyçə aşıq mühitləri Azərbaycan aşıq sənətinin təmsilçiliyini etmiş və etməkdə də davam edir" [9, s. 27].

Ənvər Uzunun Sulduz, Qaşqay, Xorasan, Zəncan və b. aşıq mühitlərinin strukturu, xüsusiyyətləri, eləcə də onun nümayəndələri ilə bağlı araşdırmalarında aşıq sənətinin tarixi və bugünü öz əksini tapır.

Türkiyə tədqiqatçılarından Nail Tanın tədqiqatlarında da tez-tez Azərbaycan aşıq yaradıcılığına rast gəlmək mümkündür. Nail Tanın araşdırmalarında müqayisəli təhlillərə xüsusilə üstünlük verilir. Belə ki, tədqiqatçının Türkiyə və Azərbaycan xalq şeirinin müxtəlif problemləri müqayisəli şəkildə tədqiq edilir [7; 8].

Məlumdur ki, Azərbaycan aşıq şeirində "Bəyənməz" rədifli şeirlər başlıca yer tutur. Türkiyə aşıqlarının da yaradıcılığında bəyənməz rədifli şeirlərə rast gəlmək mümkündür. Nail Tan da qeyd edir ki, Türkiyə və Azərbaycan aşıqları "bəyənməz" rədifli saysız, tənqid-daşlama mövzulu dastan (bəzən yanıltmac başlıqlı) qoşma yazmışlar [8, s. 55]. Bunların arasından ən vacibini seçərək təhlil edən Nail Tan Kazak Abdal, Mühyiddin Abdal, Dəvəlili Seyrani, Aşıq Katibi, Aşıq Kərəm, Ziləli Talibi, Ərzurumlu Əmrah, Kağızmanlı Camal Hoca, Aşıq Valeh və b. qoşmalarına istinad edərək bildirir ki, illər keçdikcə bu rədifdə şeirlər daha da artır. Tədqiqatçının araşdırmalarına görə, bunlardan ən qədimi və məşhuru XVI-XVII əsrlərdə yaşayan Kazak Abdullanın "Ormanda böyüyən adam azğunu" misraları ilə başlayan şeiridir. Nail Tan tədqiqat işində şeiri tam şəkildə təhlilə cəlb edərək bildirir ki, o cüzi dəyişikliklərlə Mühyiddin Abdalın adı ilə əlaqələndirilmişdir. Çox sonralar isə bəzi dəyişikliklərlə Dəvəlili Aşıq Seyraninin adı ilə el arasında məşhurlaşmışdır:

Ormanda böyüyən adam azğunu,
Çarşıda bazarda insan bəyənməz.
Mədrəsə qaçqını softa pozğunu,
Salam vermək üçün kesan bəyənməz.
Elin qapısında qul qardaş olan,
Burnu sümüklü həm gözü yaş olan,
Bayramdan bayrama bir təraş olan,
Bərbərə gəlir də dükkan bəyənməz.
...Kazak Abdal söylər bu türlü sözü,
Yoğurt ayran ilə hallolmuş özü,
Köydən şəhrə gələn bir Köylü (türk) qızı,
İnci yaqut istər mərcan bəyənməz.

Kazak Abdalın "Bəyənməz" rədifli şeiri 8, Mühyiddin Abdalınkı 7, Dəvəlili Seyranininki 8, Katib Əlininki 5, Aşıq Kərəminki 5, Ziləli Talibinki 12, Ərzurumlu Əmrahınkı 3 və s. bəndlərdən ibarətdir. Lakin tədqiqatçının Aşıq Abbas Tufarqanlıdan gətirdiyi "Bəyənməz" rədifli qoşma 7 bənddən ibarətdir. Abbas Tufarqanlının qoşma-daşlaması eyni zamanda həm məzmununa, həm də sənətkarlığına görə fərqlənir. Onu da qeyd etmək lazımdır ki, qoşmalar adətən 3-5-7 bənddən ibarət olduğu halda bu qoşmanın 8, 12 bənddən ibarət olması bir qədər şübhə yaradır. Nail Tan Abbas Tufarqanlı qoşmasının fərqli olduğunu bildirərək ona yaxın olan Aşıq Valehin qoşmasını nümunə verir. Aşıq Abbas Tufarqanlıda:

Ay Həzarat, bir zaman (a) gəlibdi,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qaynananı bəyənməz.

...Adam var, dolanır səhranı, düzü,
Adam var, döşürər gülü, nərgizi,
Adam var, geyməyə tapammaz bezi,
Adam var, al geyər, şalı bəyənməz.

Adam var, əlinə verərsən güllər,
Adam var, gözünə çəkəsən millər,
Tufarqanlı Abbas başına küllər,
Nə günə qalmısa(n), qarı bəyənməz [8, s.67].

Aşıq Valehin də "Bəyənməz" rədifli qoşmasını tam şəkildə təqdim edən Nail Tanın müqayisəsinə görə, bu iki şeir əvvəlki şeirlərdən fərqliliyi və özünəməxsusluğu ilə seçilir. Lakin bu şairlər arasında müəyyən əlaqələrin olması ilə bağlı tədqiqatçı ancaq ehtimal irəli sürür. Azərbaycandakı aşıqlarla Osmanlıdakı aşıqların bir-birindən xəbərdar olub-olmaması ilə bağlı tədqiqatçı yazır: "Bunların arasında (Azərbaycandakı aşıqların – N.M.) ən məşhurları Aşıq Tufarqanlı Abbas (XVI-XVII əsr) və Aşıq Valehdir (XVIII əsr). Tufarqanlı Abbas XVI əsrin sonları ilə XVII əsrin əvvəllərində yaşamışdır. Coğrafi və texnoloji şərtlərə görə onun XVI əsr xalq şairi Kazak Abdal haqqında məlumatlı olması ehtimalı çox azdır. Ona görə onun qoşmasına Kazak Abdala nəzirə kimi yanaşmaq yanlışdır. Qoşmanın quruluşu da olduqca fərqlidir. Aşıq Valeh isə Tufarqanlı Abbasın şeirinə nəzirə yaza bilərdi" [8, s. 66]. Nail Tanın aşıq ədəbiyyatı ilə bağlı apardığı araşdırmalardan belə nəticəyə gəlmək olar ki, Türkiyə və Azərbaycan aşıq ədəbiyyatı mövzu, forma və növ baxımından bir-birinə yaxındır. Yunis Əmrə, Qaracaoğlan, Koroğlu, Kərəm, Qurbani Xəstə Qasım, Abbas Tufarqanlı, Aşıq Ələsgər, Aşıq Şənlik və başqalarını yaradıcılığı hər iki coğrafiyada xeyli dərəcədə məşhurdur.

Türkiyədə Azərbaycanın ayrı-ayrı aşıqlarının həyatı və yaradıcılığı ilə bağlı müəyyən araşdırmalar da aparılmışdır. XX əsrdə yazıb yaratmış Mikayıl Azaflının şeirləri Anadoluda daha çox oxunduğu üçün onun yaradıcılığı ilə bağlı da müəyyən tədqiqatlar aparılmışdır. Bu tədqiqat işlərindən Əli Kafkasiyalının "Mikayıl Azaflı, Hayatı-Sanatı-Eserleri", "İran Türkleri Aşık Mühitleri" adlı kitabları Azərbaycan aşıq mühiti və onun problemlərinə, ayrı-ayrı şəxsiyyətlərinin yaradıcılığına həsr edilmişdir. İlk dəfə olaraq tədqiqatçı Türkiyədə Cənubi Azərbaycandakı aşıq mühitinin problemlərini, inkişaf yolları və nümayəndələrinin yaradıcılığını təhlilə cəlb edir [8]. "Mikayıl Azaflı. Hayatı, Sanatı, Eserleri" (1996) araşdırması sanballı və tədqiqatının əhatəliliyi ilə fərqlənir. Belə ki, tədqiqatçı Mikayıl Azaflının həm həyatı, həm

də yaradıcılığını bütün xırdalıqları ilə təhlilə cəlb edir. Tədqiqatçı aşığın uşaqlıq, məktəb, gənclik illəri, məktəbdə oxuyarkən bilmədən mürəkkəbi Stalinin şəklinin üzərinə tökməsi və bu səbəbdən həbs edilməsi, buradan qaçaraq Qarabağda yerləşməsi, daha sonra yenidən həbs edilməsi, həbsdən çıxdıqdan sonra Gəncədəki aşıqlar dərnəyinə üzv seçilməsi, aşıq Mirzə Bayramovun şagirdi olması kimi məsələləri geniş bir şəkildə təhlilə cəlb edir. Bundan sonra onun yolu İkinci dünya müharibəsindən keçir, oradan qayıdaraq aşıqlığa başlayır.

Əli Kafkasiyalının araşdırması yalnız Mikayıl Azaflı ilə məhdudlaşmır, həm də Azərbaycan aşıq sənətinin xarakteri, inkişaf yolları haqqında sanballı tədqiqat əsəridir. Mikayıl Azaflının formalaşdığı mühit haqqında tədqiqatçı yazır: "Bu danılmaz faktdır ki, Azərbaycan aşıqlar və şairlər məmləkətidir. Demək olar ki, üç-dörd evdən birində saz səsi, şeir səsi gəlir. Azaflı Mikayılın səhnəyə çıxdığı Qazax-Şəmsəddin bölgəsi isə Borçalı, Göyçə, Şirvan kimi aşıq sənətinin diyarlarındandır. Belə bir mühitdə əlinə saz alıb meydana çıxmaq cürət tələb edir" [4, s. 29].

Tədqiqatçı Mikayıl Azaflı yaradıcılığını təhlil edərkən iki məsələyə diqqət çəkir; birincisi, onun şeirləri çap olunmadan xalq arasında sürətlə yayılırdı; ikincisi, şeirlərində milli ruh və türkçülük başlıca yer tuturdu. Tədqiqatçının şəxsən tanış olduğu Mikayıl Azaflı şeirlərində daima türk olduğunu qeyd edir və onu türkün dərdləri narahat edir. O, türk millətinə qarşı ürəyində olan sevginin yaradıcılığında ən qabarıq şəkildə üzə çıxdığını qeyd edir və aşığın:

"Türkəm, türkün balasıyam,
Hər dərdinə qalasıyam,
Yanarsa od alasıyam,
Söndürməz bu sellər məni,
Unutmasın ellər məni",

misralarını misal çəkərək onun xalq arasında geniş yayılması və variantlaşmasını təqdir edir. Tədqiqatçı bu vəziyyəti aşığın xalq arasında çox məşhur olması ilə əlaqələndirirdi.

Beləliklə, türk ədəbiyyatşünaslığında Azərbaycan aşıq sənəti və onun nümayəndələrinin yaradıcılığı haqqında bir çox tədqiqatların aparıldığını görmək olar. Bu araşdırmalarda türk ədəbiyyatşünasları həm bədii mətni təhlil edir, həm də Azərbaycan ədəbiyyatşünaslığındakı fikir və mülahizələrə münasibət bildirirdilər. Bu araşdırmalardan aydın olur ki, Türkiyə və Azərbaycan aşıqları arasında bir doğmalıq, yaxınlıq da mövcuddur.

ƏDƏBİYYAT

1. Caferoğlu A. Tufarganlı Abbas // Azerbaycan Yurt Bilgisi, 1932, № 1, s. 97-104.
2. Ertaylan İ.H. Azerbaycan Edebiyatı Tarihi. I-II c., Ankara: Akçağ Yayınları, 2013, 512 s.
3. Kafkasiyalı A. İran Türkleri Aşık Mühitleri//Türkiye, Milli folklor, Yıl 17, № 68, s. 110-126.
4. Kafkasiyalı A. Mikayıl Azaflı. Hayatı, Sanatı, Eserleri. Erzurum, 1996, 473 s.
5. Köprülü M.F. Azeri Aşıklarından Tufarganlı Abbas // Türk Amacı, 1942, № 1, s. 3-5.
6. Sakaoğlu S., Alptekin A.B., Şimşek E. Azerbaycan Aşıkları ve Halk Şairleri. I c., İstanbul, 1985, 264 s.
7. Tan N. Öz. Köz. Söz. Türk Halk Kültürü Araştırmaları. Ankara: Atalay Matbaası, 2014, 272 s.
8. Tan N. Türk Halk Edebiyatı Dedigin Bir Sarp Kale. Ankara: Atalay Matbaası, 2012, 304 s.
9. Uzun E. İran Türk Folkloru. Trabzon: Eser Ofset Matbaaçılık, 2007, 124 s.

AMEA Nizami adına Ədəbiyyat İnstitutu
E-mail: nurlana.gasimli@gmail.com

Nurlana Mustafayeva

STUDY OF AZERBAIJANI ASHIQ POETRY IN THE TURKISH LITERARY CRITICISM

The article analyzes the studies of Turkish literary critics about Azerbaijan Ashiq art. It is noted that comparative research is a major part of the studies of Turkish literary critics on Ashiq art.

New approaches to the problem in the scientific-theoretical works of Ismayil Hikmet, Mehmet Fuat Koprulu, Partav Naili Boratov, Enver Aslan, Ali Duymaz, Enver Uzun, Nail Tan, Ali Kafkasiyalı and other researchers had played a significant role in enriching Azerbaijani literary criticism. In these studies, Turkish literary critics analyze the literary texts and express their views on the ideas and considerations of the Azerbaijani literary criticism. It is clear from these studies that there is kinship, proximity between the Ashiqs of Turkey and Azerbaijan.

Keywords: *Ashiqs, literary criticism, Turkey, comparative research.*

Нурлана Мустафаева

ВОПРОСЫ ИССЛЕДОВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО АШУГСКОГО СТИХА В ТУРЕЦКОМ ЛИТЕРАТУРОВЕДЕНИИ

В статье анализируются исследования турецких литературоведов об азербайджанском ашугском творчестве. Отмечается что, в исследованиях турецких литературоведов об ашугском творчестве сравнительный анализ занимает основное место. В этом направлении в научно-теоретических произведениях Исмаил Хикмета, Мехмет Фуада Кепрюлю, Партав Наили Боратова, Энвер Аслана, Али Дуймаза, Энвер Узуна, Наиль Тана, Али Кавказского новый подход к проблеме сыграл определенную роль в обогащении азербайджанского литературоведения. В этих исследованиях турецкие литературоведы анализируют как художественный текст так и высказывают свои мнения на взгляды и суждения в азербайджанском литературоведении. Из этих исследований становится ясным что, существует некое родство, близость между турецкими и азербайджанскими ашугами.

Ключевые слова: *ашугское творчество, литературоведение, Турция, сравнительный анализ.*

(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: **İlkin variant 30.05.2019**
Son variant 28.08.2019

UOT 338:801.6; 398:82.0; 801.8

AYTƏN CƏFƏROVA

FOLKLOR MOTİVLƏRİ CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞI VƏ "MOLLA NƏSRƏDDİN" JURNALINDA MİLLİ OYANIŞA ÇAĞIRIŞ ÜSULU KİMİ

Hər hansı bir fikrin bədii şəklə düşməsi üçün folklor əvəzsiz mənbədir. Buna görə də folklor yazılı ədəbiyyat nümunələrinin əsasında dayanan ən gözəl qaynaqdır. Xalqın yaratdığı şifahi ədəbiyyat söz sənətinin başlanğıcı kimi qəbul edildiyindən dünyanın məşhur yazarları ən maraqlı əsərlərini yazarkən məhz bu yaradıcılığa müraciət etmişlər. Bu, Azərbaycan yazılı ədəbiyyatında da geniş şəkildə öz əksini tapmaqdadır. Hər zamanda olduğu kimi, elə XX yüzillikdə yazıçı və şairlər öz yaradıcılıqlarında milli ağız ədəbiyyatının geniş imkanlarından bacarıqla istifadə etmişlər. Həmin dövrün istedadlı yazarı ölməz Cəlil Məmmədquluzadə və onun qələm dostları da öz yaradıcılıqlarında şifahi ədəbiyyata müraciət etməyi böyük şövqlə davam etdirirdilər. Cəlil Məmmədquluzadə istər kiçik, istərsə də iri həcmli əsərlərində şifahi xalq ədəbiyyatından yaradıcı şəkildə faydalanmışdır. Elə ədibin təsis etdiyi Molla Nəsrəddin jurnalında da xalqı dirçəlişə çağırmaq üsulu kimi, yeri gəldikcə, folklor motivlərindən, xalq yaradıcılığı örnəklərindən istifadə edilir, xalqın yaratdığı bu örnəklər ustalıqla dövrün mühüm ictimai-siyasi hadisələri ilə uyğunlaşdırılırdı.

Açar sözlər: *xalq, folklor, ədib, bədii, ədəbiyyat, sənət, mənbə, əsər.*

Folklor yazılı ədəbiyyatın yaranması və inkişafı üçün əsas mənbələrdən biridir. Bütün dünya ölkələri yaradıcılarının ən yaxşı əsərləri xalqın kollektiv yaradıcılıq xəzinəsindən götürülmüşdür. Azərbaycan ədəbiyyatı çox qədim zamanlardan başlayaraq şifahi xalq ədəbiyyatı ilə bağlı inkişaf etmişdir. Xaqani, Nizami, Nəsimi, Xətai, Füzuli, Məsihi, Vaqif və başqalarının yaradıcılığında bunu aydın görürük. Bu böyük sənətkarlar əsərlərində təkcə qanadlı ifadələr, atalar sözlərini və məsəlləri işlətməklə kifayətlənməyib, ümumiyyətlə, xalq yaradıcılığının məzmunundan, onun dərin mənasından yeri gəldikcə peşəkarlıqla istifadə etmişdilər. XX əsrin əvvəllərində də tarixi-ictimai hadisələrlə əlaqədar xalq ədəbiyyatından istifadə də qüvvətlənir. Şifahi ədəbiyyatdan xalqı oyandırmaq, ayıltmaq məqsədilə də istifadə edilir.

Xalq yaradıcılığı ilə sıx əlaqənin xeyri, xalq təfəkküründün və ifadə tərzinin müsbət təsiri Azərbaycan tənqidi-realizm ədəbiyyatı nümayəndələrindən olan Cəlil Məmmədquluzadənin yaradıcılığı ilə də təsdiq olunur. O, bilavasitə xalq məsəlləri, atalar sözləri və rəvayətlər əsasında işlənmiş kiçik hekayələrində deyil, iri həcmli əsərlərində də xalq yaradıcılığından, dünyagörmüş adamların dilində gəzən, amma yazıya köçürülməmiş folklor nümunələrindən yaradıcılıqla istifadə etmiş, cilalayıb yazıya köçürmüş, onların poetik mənasını oxucuya daha dolğun və obrazlı şəkildə çatdırmağa müvəffəq olmuşdur. Həmin dövrdə xalq azadlığını hər şeydən üstün tutan Cəlil Məmmədquluzadə ilə yanaşı onun qələm dostları da öz doğma xalqını cəhalət girdabına qərq etmiş üsul-idarəni, rejimi, mənəvi buxovlanma səbəbkarlarını öz əsərlərində, məqalələrində ifşa etməkdən çəkinmirdilər. Bu mövqedə onlara yardımçı demokratik görüşlü Molla Nəsrəddin jurnalı idi.

1906-cı il aprel 7-də çıxan Molla Nəsrəddin jurnalının 1-ci nömrəsindəki başlıq – "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım" sərlövhəsi jurnalın proqramını təyin etdi. Böyük Mirzə Cəlil öz qələm dostları ilə birlikdə mollanəsrəddinçilər ictimai ədəbi hərəkatını yaratdı. Jurnalın hər səhifəsində xalqı cəhalətə sürükləyən nə varsa, Molla Nəsrəddinçilər tərəfindən tənqid olunmağa başladı. Hüququ əlindən alınmış, əsrlər boyu istismar və mövhumatın ağırlığı altında əzilən zəhmətkeş kütlələrin acınacaqlı taleyi "Molla Nəsrəddin" jurna-

lının hər sayında öz bədii əksini tapmışdır. Molla Nəsrəddinçilər xalqının acınacaqlı taleyini xalqa öz ana dilində çatdırmağın yolları kimi çox vaxt xalqın yaratdığı nümunələrdən istifadə etməyi məqsədəuyğun bilirdilər. "Molla Nəsrəddin" kasıbların, əlacsızların, köməyə ehtiyacı olanların həmdəmi və dostu idi. Mirzə Cəlil və onun qələm yoldaşları bu jurnalla əbədilik və bəşərilik qazandırmışdır. İstər Molla Nəsrəddin jurnalında, istərsə də digər yaradıcılıq yolunda Mirzə Cəlil öz xalqına incə mətləbləri çatdırmaq məqsədilə şifahi nümunələri, əsasən də atalar sözləri və məsəlləri əsas silah seçib. O düşünüb ki, kiçik forma ilə böyük məzmuna malik olan bu örnəklər əsas məqsəd və qayəni ifadə etmək baxımından olduqca böyük dəyərə malikdirlər. Bu janrdan istifadəni biz ədibin həm irihəcmli əsərlərində, həm hekayələrində, həm də məqalələrində görə bilirik. "Molla Nəsrəddin" jurnalının 1-ci nömrəsində sözün qüdrətinin atalar sözlərində necə canlı ifadə olunduğunu söyləyən ədib bu haqda belə yazır ki, dünyada hər kəs üçün sözdən böyük dəyər yoxdur. Zira ki, mal, mülk tələf olub gedir, amma söz qalır. Belə ki, keçmiş hükəmanın, şüəranın sözləri hələ də baqidir. Buna görə də türk hükəmalarının təcrübəli və işə yarar zərb-məsəllərindən "Atalar sözü" namilə bir neçəsini məcmuəmizdə yazdıq ki, qarələrimiz oxuyub lazımi yerdə onları dəsturül-əməl etsinlər [5, s. 6]. Burada verilmiş atalar sözlərinin xalqdakı variantının tamamilə əksinə verərək dövrünün hakim dairələrinin onun xalqına yaşatdığı və yaşatmaq istədiyi acınacaqlı həyatı kəskin şəkildə tənqid edir.

Prof. M.Cəlal və F.Hüseynovun birgə müəllifliyi ilə nəşr edilən "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyində "Molla Nəsrəddin" jurnalında istifadə edilən atalar sözü və məsəllərin qarşılıqlı müqayisəsi təqdim olunub. Müəlliflər maraqlı araşdırmalar apararaq yazırlar ki, atalar sözü və məsəllər "Molla Nəsrəddin"də çox zaman xalqda işləndiyi adi mənasından fərqli olaraq, daha dərin ictimai-siyasi məzmun kəsb edir, satirik mündəricə daşıyırdı [2, s. 20]. Məsələn: Xalqda: "Atı atın yanına bağlasalar, ya halın götürər, ya xasiyyətin" – "Molla Nəsrəddində": "Atı atın yanına bağlasan, xan görüb deyər, birini mənə ver". Xalqda: "Anlayanın qulu ol, anlamayanın ağası" – M.N. də: "Anlayana da qul ol, anlamayana da". Xalqda: "İzsizlik cəhalət gətirər". – M.N. "İşsizlik dövlətlilik açarıdır". Xalqda: "Bu günün işini sabaha qoyma". M.N. "Axşamın işini sabaha qoy, sabahın işini axşama". Xalqda: "Tısbağa qınından çıxdı, qınını bəyənmədi". M.N.: "Tısbağa qınından çıxdı, obrazovannı oldu". Xalqda: Çox oxuyan çox bilməz, çox gəzən çox bilər". M.N.: "Çox oxuyan çox bilməz, çox yatan çox bilər" və ya "Adam yata-yata alim olar". Xalqda: "Sayğılı baş salamat olar". M.N: "Yuxulu baş salamat olar". Xalqda: "Kora gecə-gündüz birdir". M.N. "Müsəlmana gecə-gündüz birdir". Bu nümunələrlə jurnalın yaradıcı heyəti böyük ictimai çatışmazlıqları bədii yumor vasitəsilə tənqid edirdilər.

Eləcə də "Molla Nəsrəddin"in 3 fevral 1907, 5-ci nömrəsində "Tapmaca" başlıqlı məqaləsi verilir. Bildiyimiz kimi, əlamətləri, xüsusiyyətləri, gözə çarpan cəhətlərinin bir və ya bir neçə cəhəti məcazi şəkildə ifadə edilməklə hər hansı əşyanın və ya nəzərdə tutulan məfhumun adı və mənası tapmacada rəmzi şəkildə verilir. Epik növün bu janrından Molla Nəsrəddində də istifadə edilir. Tapmaca olduğu kimi verilır, cavabı isə dövrün ictimai hadisələrinə uyğun olaraq açılır. Tapmacanın məzmunu xalqda olduğu kimi:

Üçü bizə yağıdır,
Üçü cənnət bağıdır.
Üçü yığıb toplasa,
Üçü vurub dağıdar.

Cavabı isə dövrə və hadisələrə uyğun olaraq təqdim olunur: "Üçü bizə yağıdır – Bunlar Təbrizdə üç nəfər məşrutəçilərdi: Mirzə Cavad, Mirzə Hüseyn və Mirzə Ələkbər. Bunlar bizə ondan ötrü yağıdır ki, gündə camaatı məscidə cəm eyləyib başlayırlar hürriyyət, mürriyyət sözləri ilə xalqın ağlını çaşdırmağa.

Üçü cənnət bağıdır – Bunlar da İmam Cümə, Fəxrül-üləma və Saidül-mülkdür.

Üçü yığıb toplasa – Bunlar da Məhv şəhərinin üç nəfər ağsaqqalıdır ki, hər il məscid və qəbiristan adına fəqir və füqəradan beş-altı yüz manat yığırlar və heç kəs də bilmir ki, pullar necə olur.

Üçü durub dağıdar – Bunlar da Gəncədə üç nəfər dua yazan molladır ki, bir müsəlmana rus həkimi dəva verəndə xəbərdar olub kəsirlər naxoşun başının üstünü və dava şüşələrini vurub dağıdırlar" [5, s. 134].

Jurnalın 36-cı nömrəsində "Lağlağı" imzasıyla verilmiş "Tərəkəmə" adlı məqalədə Qarabağ tərəkəmələrinin Azərbaycanın hər yerində olduqca fəal olduqları, yerli camaatın da hətta cörəyinə bais olduqları tənqid olunur. Əslində bu tənqid altında Qarabağ camaatının qabiliyyətli olduqları da vurğulanır: "Naxçıvanda iki mötəbər tacir varsa, biri qarabağlıdır", "Qubada iki mollanın biri qarabağlıdır, Dünyada nə qədər tar çalan və oxuyan var, qarabağlıdır, müəllim qarabağlı, injiner - qarabağlı". Xülasə, heç bir sənət yoxdur ki, ora qarabağlı özünü soxmamış olsun [5, s. 415]. Bu məqalədə Qarabağ tərəkəmələrinin Qafqazın çox yerində çadır qurub məskən saldıqlarını məqalə müəllifi belə təsvir edir: "Qafqazada hansı bir yolla gecə vaxtı keçəndə, yolun kənarında bir çoxlu çadır görəcəksən. Faytonçu faytonu saxlayır ki, atlar dinclərini alsınlar. Birdən çadırın içindən bir belə oxumaq səsi gəlir:

Nənəm, a narış qoyun,
Boynu bir qarış qoyun.
Çoban səndən küsübdür,
Südü ver, barış qoyun ".

Bəli, bütün bunlar hamısı Qarabağ tərəkəmələridir.

Öncə qeyd edək ki, Lağlağı imzası ilə jurnalda C.Məmmədquluzadənin özü ilə bərabər Ömər Faiq Nemanzadə də məqalələr təqdim edirdi. Burada verilmiş sayaçı sözünün – folklor nümunəsinin təqdimi ilə məqalə müəllifinin Azərbaycan folkloruna və onun tarixinə dərindən bələdliyi özünü göstərir. Sayaçı sözlər haqqında F.B.Köçərlinin maraqlı fikirləri də mövcuddur: "Zaqafqaziya tatarları (azərbaycanlıları) bu sözü nemət, yaxşılıq, xeyirxahlıq mənasında işlədirlər. Buradan da sayaçı nemət gətirən, bolluq gətirən mənasına gəlib çıxır. Bu, gəzən, səyyar, nəğməkar aşıq deyil, dərviş deyil, adi tərəkəmə köçəridir. Payızın axırında, qışda evləri gəzir, sərbəst şəkildə olan nəğmələrlə ev heyvanlarının xeyrini tərənnüm edir. Əvəzində o, yağ, pendir, un, buğda, düyü və s. alır. Bu mahnılarda heyvanlara məhəbbət ifadə olunur, onların özlərinə məxsus cəhətləri təsvir edilir, bol məhsul arzusu ifadə olunur" [6, s. 227].

Cəlil Məmmədquluzadə və digər Molla Nəsrəddinçilər əsas əlaməti fikrin sadəliyi, mənalılığı, eyni zamanda formaca yığcamlılığı olan atalar sözlərindən digər yaradıcılıqlarında da geniş istifadə etmişdilər. Məqalənin əvvəlində biz bu haqda müəyyən qədər söhbət açsaq da, Mirzə Cəlilin də öz hekayələrində bu hikmətli kəlamlardan olduqca geniş şəkildə istifadə etdiyini nəzərə alaraq bəzi fikirləri də bildirmək yerinə düşür. Öncə qeyd edək ki, Azərbaycan folklorşünaslığında atalar sözü və məsəllər folklorun xalqın həyat və məişəti, əmək fəaliyyəti ilə sıx bağlı olan, formaca kiçik, mənaca geniş epik janrı hesab edilir. Atalar sözü və məsəllərdə xalq hikməti, xalq zəkası, xalqın əsrlərdən bəri əldə etdiyi sınaq və təcrübələri ümumiləşdirilir. Və bu müdrik kəlamlardan istifadənin klassiklərdən irəli gələn ənənə olmasına

böyük hörmətlə yanaşaraq C.Məmmədquluzadə öz hekayələrinin ümumiləşmiş nəticəsini ifadə etmək baxımından bu nümunələrə tez-tez müraciət edir. Bəzi hekayələrində atalar sözlərini əvvəldə epiqraf kimi verir, bəzilərində isə hekayənin hər hansı məqamında istər obrazların səciyyəvi xüsusiyyətlərini, istərsə də hadisələrin təsvirini verəndə geniş istifadə etdiyini görürük. "Qəza müxbiri" hekayəsi bu baxımdan maraq doğurur. Hekayədə işlənmiş "Koxanı gör – kəndi çap" məsəli vasitəsilə kənd şurası sədri Əkbər Qurbanovun şura sədri seçilmək arzusunu gerçəkləşdirmək məqsədilə atdığı "işgüzar" addımları ifadə edir. Belə ki, hər kənddən özünə arxa-dayaq tapan Əkbər Qurbanov Kazım Məmmədoğlunun köməyi və verdiyi səslə kənd şurasının sədri olur. Və yazıçı Əkbər Qurbanovun Kazımın bu "yaxşılığını" unutmadığını söyləyir. Şura sədri seçilməkdə ona əsl dostluq qayğısı göstərən Kazımı ziyarət etməyin vacibliyini düşünür. Bu məqamda yazıçı obrazın "dost sevgisini" atalar sözləri ilə belə ifadə edir. "Kazım Məmməd oğlu kimi dostları bugünkü gündə yaddan çıxarmamaq, bivəfa olmamaq lazımdır. Atalar deyən kimi – "Yaxşılığa yaxşılıq mərd adamın işidir", "Qoy ovcuma, qoyum ovcuna", "Dostun səni aş ilə, sən onu bozbaş ilə" və qeyriləri... [4, s. 300].

Folklor bütün zamanlarda yazılı ədəbiyyatın qaynağı olmuşdur. Belə ki, nəsrin və şeirin poetikası, bədii əsərin ideya-məzmunu, fəlsəfi və estetik yönü tədqiq edildikcə sözlü kültürün nə qədər dərin təsir göstərdiyi aşkarlanmış olur. XX əsrin əsrin əvvəlində folklora qayıdışın əsasları qoyulmuşdu və bu baxımdan istər realistlər, istərsə də romantiklər bir sırada addımlayırdılar. "Füyuzat" jurnalı ətrafında birləşən milli romantizmin klassik nümunələrini yaradan H.Cavid, M.Hadi, A.Səhhət, S.Səlmasi, A.Divanbəyoğlu, A.Şaiq, C.Cabbarlı kimi sənətkarlarla bərabər M.Ə.Sabir, C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin, Ü.Hacıbəylinin fəaliyyətlərini də xüsusi qeyd etmək lazımdır. Bu klassiklərin xalq ədəbiyyatına münasibətləri, folklor nümunələrinin onların yaradıcılığında yeri məsələləri cəmiyyətdəki hər cür problemlərə münasibətlərində özünü göstərir. Xalqını siyasi, mənəvi azadlığa, təhsilə, maarifə, mədəniyyətə səsləyən, qadını fəal həyat mövqeyində görmək istəyən, dağıdıcı müharibələri pisləyən və s. mühüm problemlər, dərdlər realistləri və romantikləri eyni dərəcədə düşündürürdü [1, s. 349].

"Molla Nəsrəddin" ətrafında toplanan realist cərəyana məxsus sənətkarlar xalq ədəbiyyatından daha çox öz siyahi mövqelərini tendensiyalı, qabarıq, düşünülmüş bir biçimdə göstərmək üçün istifadə etdilər. Şifahi ədəbiyyat mövzunun, əsərin ideyasının, müəllif mətləbinin siyasi cəhətdən kəsərli təqdimində ən başlıca vasitə oldu. Xalq ədəbiyyatının bütün janrları – deyimlər, məsəllər, qaravəllilər, nağıl, dastan, lətifə, əfsanə və s. realistlərin nəsrində ictimai-siyasi çalarlarla işlənməyə başladı. Təbii ki, Molla Nəsrəddinçi yazıçılar daha çox şifahi xalq ədəbiyyatının tənqid, satira, yumor, ifşa ənənələrinə bağlı idilər [1, s. 349].

Bununla bərabər, Azərbaycan yazıçılarının əsərlərində rusların özbaşınalığı, yasavulların, kənd-xudaların, şarlatan mollaların, yerli ağaların satqınlığı, bəzi ziyalıların yarınmaçılığı və s. kimi məsələlər də tənqid edilirdi. Bu eybəcərliklərin folklor nümunələri ilə bədii əksi C.Məmmədquluzadə əsərlərində daha qabarıq şəkildə müşahidə olunur. Ədibin "Xanın təsbehi" hekayəsinə baxaq. Burada məhkəmə də, qəzavat da əslində özü olan Nəzərəli xanların soyğunçuluğunu, ədalətsiz divanlarını tənqid üçün C.Məmmədquluzadə şifahi xalq ədəbiyyatında geniş yayılmış (əsasən nağıllarda) qədim adətlərin birindən – "nişanə göndərməkdən" istifadə etmişdir [1, s. 350].

Molla Nəsrəddinçilər, xüsusən də C.Məmmədquluzadə folklordan öz əsərlərində iki istiqamətdə istifadə etmişdir: 1) Olduğu kimi. Ədib bu nümunələri əsərlərinə olduğu kimi

gətirir, süjet xəttində, motivlərdə əsaslı dəyişikliklər etmir. 2) Dəyişdirilərək. Hər bir yazıçı və şair düşüncə dünyasını, estetik üslubunu təyin etmək üçün folklor örnəklərinə müraciət edirlər ki, bu da mətnin alt qatında folklorun görünməsidir. Bu mexaniki müraciət C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları", "Şeir bülbülləri", "Xurcun və çemodan", "Batdağ", "Zarafat" və s. hekayələrində özünü göstərir [1, s. 356]. Yazıçı "Şeir bülbülləri"ndə "...öküz nə bilir gülün qədrini", "kürd nə bilir püstənin qədrini" məsəlləri vasitəsilə iranlının şeir kitabının qiymətini bilmədiyindən satması məqamını ifadə edir [4, s. 293]. Məlum olduğu kimi, bu "kəlamlar" "Zər qədrini zərgər bilər" və ya "Uzunqulaq nə bilir zəfəran nədir" kimi xalq məsəllərinin yazıçı tərəfindən dəyişdirilərək verilmiş variantlarıdır. Və ya hekayədə qəliz ərəb-fars kəlmələri ilə yazılmış qəzəli eşitməkdən yorulmuş qəhrəmanı o biri otaqdan eşitdiyi təmiz ana dilində söylənilən Azərbaycan xalq nağılı sözün əsl mənasında dincəldir. Bu məqam ədibin xalq yaradıcılığına olan sonsuz məhəbbətinin ifadə etmək baxımından olduqca maraqlıdır: "Ara qapı örtüldü və nağıl danışan Zeynəbin səsini daha eşitmədik. Və bizim otaqda bu dəqiqə elə bir sakitlik əməl gəldi və mənim qəlbimdə elə bir tutqunluq üz verdi ki, otağımızda yanan şamı daha gözüm görmürdü. Və bu qaranlığın içində bu dəmdə mənim üçün Azərbaycan şairi Yeldai də yox idi, Səqərül-Qadiri də qaranlığa batdı və hətta dostunun bülbüllərinin cəmi ərəbləşmiş şeirləri zülmətin tərkinə düşüb, məndən ötrü həmişəlik fotə getdilər. Ancaq bu dəmdə mənim üçün bircə işıq haman tək bir şamın işığı idi ki, oradan Zeynəb arvadın dilindən açıq və şirin Azərbaycan nağılını eşidirdim...". Bu hekayədə təmiz xalq ruhunda yaradılmış milli örnəklərdən birini – nağılı xatırlaması yazıçının öz ana dilinə olan sevgi və ehtiramını ifadə etmək baxımından da diqqətəlayiqdir.

Bir daha xatırladaq ki, C.Məmmədquluzadə şifahi xalq ənənəsinə dərindən bələd olan yazıçıdır. Ədibin yaradıcılığının müxtəlif məqamlarında folklordan bəhrələnmənin şahidi oluruq. Yazıçı milli folklorumuzu öz yaradıcılığına daşımaqla həm də onu qoruyub gələcək nəslə ötürmək kimi xidmətini də nümayiş etdirir. Bir sıra əsərlərində xalq tamaşalarının izləri də aydın görünməkdədir. Prof. T.Məmməd haqlı olaraq söyləyir ki, ədibin dramaturgiyası obraz, süjet, kompozisiya strukturu baxımından xalq oyun və tamaşaları ilə də sıx bağlıdır. Bu əlaqə böyük həcmli əsərlərində bir qədər dərinə hopmuş olsa da, kiçik həcmli dramlarında da: "Çay dəstgahı", "Kişmiş oyunu", "Lənət", "Lal", "Oyunbazlar", "Yığıncaq" kimi əsərlərində gözə çarpmaqdadır [7, s. 448].

C.Məmmədquluzadə əsərlərində lirik növün janrlarına da yeri gəldikcə müraciət edir. Bunu biz onun satirik şeirləri arasında yer alan "Lay-lay" [4, s. 616] adlı şeirində də müşahidə edirik. Dövrünün üsul-idarəsinin xalqına vurduğu ziyanı, həmvətənlərinin geriliyini, cahilliyini, fanatizmin dərin girdabına düşmüş xalqın gözünü açmaq üçün var qüvvəsi ilə çalışan C.Məmmədquluzadə bu daxili puçluğu, ictimai geriləməni yeri gəldikcə həm də milli mənəvi yaradıcılığa dayanaraq ifşa edir. Ədib lirik növün layla janrından istifadə edərək yazdığı şeirilə cəhalət beşiyində yatan müasirini oyatmağa çalışır. Burda da o öz fikrini, düşüncə dünyasını folklor janrı içərisində təqdim edərək cəmiyyətdəki eybəcərlikləri xalq dili, xalq dünyası ilə ifşa edir. Şeirə diqqət etsək, görərik ki, ədib "Bikar dolan küçələri vel kimi, Xəbər apar onabuna tel kimi"; "Bəxtini falçıdan etgilən tələb, Dərviş olsan, olar dəxi çox əcəb"; "Doldur qutulara çoxluca ilan, Müsəlman aləmin gəzgilən, dolan" misraları ilə həmin dövrün ictimai mənzərəsini təqdim edir və xalqın özünün yaratdığı yaradıcılıq nümunələrini üsul seçərək insanların həmin bataqlıqdan çıxarmağa çalışır.

Təhlillərdən, müqayisələrdən aydın olur ki, C.Məmmədquluzadə milli ruha, kökə bağlı bir sənətkardır. Dramaturqun öz əsərlərində folklordan bu dərəcədə bəhrələnməsi onun milli

ənənəni yaşatmaq istəyindən başqa, qarşısına qoyduğu fikirləri, xalqa arzularını daha aydın şəkildə çatdırmaq məqsədini də ifadə edir. Dövrünün çatışmalıqlarını folklor örnəkləri vasitəsilə bədii şəkildə ifadəsi etməsi C.Məmmədquluzadə yaradıcılığı üçün xarakterikdir. Bununla yanaşı ədibin təsis etdiyi Molla Nəsrəddin jurnalında fəaliyyət göstərən ziyalıların da yaradıcılığında folklor janrları ictimai ruh qazanmış və bu örnəklər həmin ziyalıların öz fikirlərini mətnin altında, xalq ruhu ilə ifadəsində ideoloji məqsədə xidmət etmişdir.

ƏDƏBİYYAT

1. Bayat F. Folklor dərsləri. Bakı: Elm və təhsil, 2012, 424 s.
2. Cəlal M., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1974, 392 s.
3. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981, 402 s.
4. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə. I c., Bakı: Öndər, 2004, 664 s.
5. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə. II c., Bakı: Öndər, 2004, 584 s.
6. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə, Bakı: Turan, 2002, 680 s.
7. Məmməd T. Cəlil Məmmədquluzadənin kiçik həcmli pyeslərində xalq oyun və tamaşa motivləri / "Ümumtürk kontekstində Qarabağ xalq oyunları və meydan tamaşaları" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, Zərdabi LTD MMC, 2014, 520 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: ceferli_ayten@mail.ru

Ayten Jafarova

FOLKLOR MOTIVES AS A WAY OF APPEAL TO NATIONAL REVIVAL IN JALIL MAMMADGULUZADEH'S CREATIVITY AND IN "MOLLA NASRADDIN" JOURNAL

Folklore is an indispensable source for any idea to get artistic shape. That is why folklore is the most wonderful source based on written literature. As the oral tradition of the people was accepted as the beginning of the word art, the best writers of the world appealed to this field to create their most interesting works. It is also widely reflected in Azerbaijani literature. As always, in the twentieth century writers and poets have used the vast potential of the abundance in national oral literature skillfully. The talented writer of this period the immortal Jalil Mammadguluzadeh and his pen friends, continued to appeal to oral literature with great enthusiasm. From time to time, Jalil Mammadguluzade has taken advantages from the oral folk literature, both in small and large-scale works creatively. As in the Molla Nasreddin journal founded by the writer, folklore motifs, folklore examples were used as a method of inviting people to revival, and the examples created by the people were masterfully matched with the most important socio-political events of the era.

Keywords: *people, folklore, writer, artistic, literature, art, source, works.*

Айтен Джафарова

ФОЛЬКЛОРНЫЕ МОТИВЫ КАК СПОСОБ ПРИЗЫВА К НАЦИОНАЛЬНОМУ ПРОБУЖДЕНИЮ В ТВОРЧЕСТВЕ ДЖАЛИЛА МАМЕДКУЛИЗАДЕ И ЖУРНАЛЕ «МОЛЛА НАСРЕДДИН»

Фольклор, является незаменимым источником для превращения в художественный образ какой-либо мысли. И по этой же причине фольклор – самый красивый источник, основанный на образцах письменной литературы. Поскольку устная литература, созданная народом, была воспринята как начало словесного искусства, лучшие писатели мира, при написании своих самых интересных произведений, обратились именно к этому творчеству. Это широко отражается и в Азербайджанской письменной литературе. Как всегда, в XX веке писатели и поэты в своем творчестве с большим мастерством воспользовались огромным потенциалом национальной устной литературы. Талантливый писатель этой эпохи, бессмертный Джалил Мамедкулизаде и его друзья в своем творчестве, с большим энтузиазмом, продолжали обращаться к устной литературе. Джалиль Мамедкулизаде, как в небольших, так и в крупных работах, творчески пользовался устной народной литературой. В журнале «Мулла Насреддин», учрежденном писателем, также как метод призыва народа к возрождению, использовались фольклорные мотивы, образцы народного творчества. Созданные народом эти образцы мастерски согласовывались с важными общественно-политическими событиями эпохи.

Ключевые слова: *народ, фольклор, писатель, художественный, литература, искусство, источник, произведение.*

(*Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir*)

Daxilolma tarixi: **İlkin variant 24.05.2019**
Son variant 02.09.2019

İNCƏSƏNƏT

UOT 792.03

ƏLİ QƏHRƏMANOV

RZA TƏHMASİB: MİLLİ TEATR VƏ KİNOMUZUN KORİFEY SƏNƏTKARI

Məqalədə görkəmli teatr və kino aktyoru, rejissor, respublikanın xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Rza Abbasqulu oğlu Təhmasibin həyat və yaradıcılığından bəhs olunur. O, mənalı və ibrətamiz ömründə klassik teatrımızın ən layiqli sənət nümunələrini yaratmaqla həm teatrda, həm də kinoda zəngin mənəviyyatlı obrazlarıyla tarixdə qalmışdır. "Ölülər" əsərində İsgəndər, "İblis", "Şeyx Sənan" əsərlərində İblis, Arif, Şeyx Sənan, "Ağa Məhəmməd şah Qacar"da Qacar, "Həyat"da Süleyman, "Yaşar"da İmamyar, "Lyubov Yarovaya"da Koşkin, "Eskadranın məhvi"ndə Strijin, "Qaçaqlar"da Karl Moor kimi yaratdığı obrazlar buna misal ola bilər. O, bu rollarıyla tamaşaçıların qəlbinə yol tapmış, "Ölülər", "Şeyx Sənan", "Sevil", "Özgə uşağı", "Madrid", "Vəfa", "Hacı Qara" kimi tamaşalar isə onun rejissorluq məharətinin ən layiqli nümunələrindən olmuşdur.

Görkəmli sənətkar milli kinomuzun tarixində də mühüm rol oynamış və "Səbuhi", "Arşın mal alan", "Bakının işıqları", "Mahnı belə yaranır", "Onu bağışlamaq olarmı?" filmlərinə də rejissorluq etmişdir. O, milli kinomuzun tarixində də əvəzolunmaz obrazlar yaratmış, "Fətəli xan" filmində Ağası xan, "Qanun naminə" filmində Qaloş rollarında da oynamışdır. Rza Təhmasib ömrünün son illərini pedaqoji fəaliyyətlə məşğul olmuş, Azərbaycanda yeni rejissor və aktyor nəslinin yetişməsində mühüm və əhəmiyyətli rol oynamışdır. Bütün bu məsələlər məqalədə geniş şəkildə öz əksini tapmışdır.

Açar sözlər: *Rza Təhmasib, aktyor, rejissor, teatr, kino, pedaqoq, Dövlət Mükafatı laureatı.*

Azərbaycan teatr sənətinin qüdrətli nümayəndələrindən biri, mənalı və ibrətamiz ömründə – həm teatrda, həm də kinoda onlarla obraz yaradan və zəngin mənəviyyatlı obrazlarıyla tamaşaçıların qəlbində isti yuva quran görkəmli pedaqoq Respublikanın xalq artisti, professor, Dövlət mükafatı laureatı Rza Abbasqulu oğlu Təhmasibin (1894-1980) 125 yaşı tamam oldu. Onun pedaqoq, teatr və kino ömrünü göz önünə gətirəndə fikrimizin fövqündə neçə-neçə obrazlar silsiləsi canlanır. Romantik, dramatik situasiyalı bu obrazlar dərin emosionallığı, yüksək intlektuallığı ilə fərqlənir. Bu qüdrətli sənətkarın yaratdığı ölməz surətlər tamaşaçıların qəlbini riqqətə gətirir, ona görünməmiş uğurlar qazandırır. Onun adı və sənəti Azərbaycan mədəniyyətinin tarixində dərin hörmətlə yad edilir.

Rza Abbasqulu oğlu Təhmasib 1894-cü ilin aprel ayının 20-də Naxçıvan şəhərində anadan olmuşdur. O, ilk təhsilini görkəmli Azərbaycan maarifçisi Məhəmməd Tağı Sidqinin "Məktəbi- tərbiyə" (Naxçıvan ziyalılarından Əziz Şərif, Ələkbər Qərib, Rza Təhmasib, Xəlil Hacılarov, Məhəmməd və Əli Xəlilovlar, Heydər Vəzirov, Əsəd Şeyxov, Məhəmməd Həsən və Rüfət Cəfərovlar, Hüseyn Cavid, Qasım Camalbəyov, Məhəmmədəli Sidqi, Rzaqulu Nəcəfov bu məktəbin ilk məzunlarından olmuşlar) məktəbində almışdır. Sənət aləminə maraq R. Təhmasibdə məktəbdə oxuduğu illərdən başlamışdır. Bu haqda görkəmli aktyor belə yazırdı: "1907-ci ildə həmin məktəbdə oxuyarkən Puşkinin ölümünə həsr olunmuş gecədə Qoqolun "Ölü canlar" əsərində Çiçikovun Nozdryovun evinə gəlməsi səhnəsini göstərirdik. Mən Çiçikov rolunu oynayırdım, özü də rusca. Bu mənim ilk rolum idi. Ümumiyyətlə, Naxçıvan mühitinin mənim yaradıcılıq həyatımda müstəsna rolu olub. Mən həmin illərdə Naxçıvanın həvəskar aktyorlar dərnəyində fəal iştirak edirdim. Rejissorumuz böyük istedad sahibi, komik aktyor Böyükxan Naxçıvanski idi" [4, s. 5].

Rza Təhmasib hələ ibtidai məktəbdə oxuduğu illərdə şeirə, sənətə, Azərbaycan, rus, dünya ədəbiyyatına maraq göstərir. Gənclik illərində Naxçıvanda, Tiflisdə və Bakıda təhsil aldığı vaxtlar isə o, dram dərnəklərində özünün səhnəyə olan həvəsini ləyaqətlə inkişaf etdirirdi. O günlər gənc Rzanın teatrı ziyadə bir məhəbbətlə sevdiyi hamıya məlum idi. Onun gələcəyə böyük ümidlər verən bir istedad sahibi olacağı da aşkarlanırdı.

1909-cu ilin iyun ayında Azərbaycanın böyük aktyoru Hüseyn Ərəblinski 12 nəfər artistlə Naxçıvana qastrola gəldiyi zaman o, burada yerli dram dərnəyinin üzvləri ilə birlikdə Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" əsərinin tamaşasını göstərir [1, s. 190]. Hüseyn Ərəblinski Naxçıvanda olduğu müddətdə yerli aktyorlarla, dram dərnəyinin üzvləri ilə söhbətlər aparır və onlara aktyorluq sənətinin rəngarəng sirlərini öyrədir. Onun böyük aktyorluq məktəbinin təsiri altında Rza Təhmasib, Həsən Səfərli, Rza İsfəndiyarlı, Mirhəsən Mirişli və bir çox başqaları əbədi olaraq həyatlarını teatra bağlayırlar.

XX əsrin 10-cu illərində Naxçıvanda teatr o qədər şöhrətlənir ki, məktəblərdə müsəlman qızları tərəfindən də tamaşalar hazırlanıb nümayiş etdirilirdi. İnqilabdan əvvəlki Azərbaycan teatrlarında aktrisalar yox idi. Qadın rollarını ya kişilər, ya da başqa millətlərdən olub, Azərbaycan dilini bilən aktrisalar ifa edirdilər. Buna görə də Naxçıvandakı qadın truppasının tamaşası böyük ictimai əhəmiyyətə malik idi. 1912-ci ilin fevralında Naxçıvan rus-müsəlman məktəbində müsəlman qızları tərəfindən qadınlara məxsus Z.Hacıbəyovun ruscadan tərcümə etdiyi Y.Şvartsın "Qırmızı araqçın" tamaşası [9], fevral ayının 1-də Z.Hacıbəyovun "Evliykən subay" operettası və Böyükxan Naxçıvanskinin nəzarəti altında Ə.Haqverdiyevin "Dağılan tifaq" faciəsi, "Kəbləyi Güzəməli" məzhəkəsi tamaşaya qoyulur. Həmin il N.Vəzirovun "Pəhləvani zəmanə" əsəri də yoxsul şagirdlərin xeyrinə olaraq göstərilir [1, s. 283]. Səhnə evlərdən gətirilmiş cecim, xalçalar, miz və səndəllər, lampa və şamdanlarla bəzədilir. Bu tamaşa haqqında H.Səfərli xatirələrində yazır: "Tamaşadan 182 manat 50 qəpik pul toplanıldı. Bu tamaşadan toplanılan pulu əvvəlki tamaşalardan toplanılan pulla müqayisə etdikdə tamaşaçıların da artdığı nəzərə çarpır" [7, s. 203].

1917-ci ilin axırlarında Rəşid bəy Əfəndiyev Naxçıvanda qızlar məktəbinin müdiri olarkən, həmin məktəbin müəlliməsi Nazlı xanım Nəcəfova və Rza Təhmasibin köməkliyi ilə məktəbli qızlardan ibarət dram dərnəyi təşkil edilir. Bu dərnəyin yaradılması o zaman cəhalətin qaranlıq yuvası olan Naxçıvanda görülməmiş tarixi bir hadisə idi. Bütün aktyorlar və qabaqcıl fikirli ziyalılar dram dərnəyinə kömək edirdilər. Məşqlər həm dram dərnəyində, həm də Nazlı xanımın mənzilində aparılırdı.

1917-ci ilin noyabr ayının 12-də yalnız qadınlar üçün Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası R.Təhmasibin rejissorluğu ilə tamaşaya qoyulur [3, s. 42]. Həmin tamaşanın iştirakçıları Nazlı xanım Nəcəfova (1890-1976) və Süsən xanım Səfərova qeyd edirdilər ki, tamaşa zamanı zal tamaşaçı qadınlarla dolu idi. Tamaşada iştirak edən həvəskarlar öz rollarını yaxşı oynayırdılar. Həmin bu qadınlar truppasına aktyorlar rəhbərlik edirdilər. Rolları aşağıdakı qadınlar və qızlar – Soltanbəy – Süsən Sultanova, Cahan xala – Gövhər Kəngərli, Süleyman – Asya Məmmədəliyeva, Vəli – Xanım Vəzirova, Gülçöhrə – Dilbər Sultanova, Telli – Fatma Şeyxova ifa edirdilər.

1915-ci ildə şair Əliqulu Nəcəfov (Qəmküsar), (1880-1919) Naxçıvana Mirzə Cəlilin həm yaxın dostu, həm də yaxın nümayəndəsi kimi gəlir və tamaşaya qoymaq üçün özü ilə bərabər "Ölülər" əsərini gətirir. Burada o, Rza Təhmasiblə birlikdə gənc teatr həvəskarlarını ətrafına toplayaraq "El güzgüsü" adlı bir dram cəmiyyəti təşkil edir. Müharibə şəraitində irticaçı qüvvələrin müxtəlif partiyalar adından çıxış etdiyi bir dövrdə "El güzgüsü" dram

cəmiyyəti siyasətdən kənarda qalmayıb, günün daha aktual və siyasi məsələlərini nümayiş etdirir. "Rüşdiyyə" məktəbinin müəllimləri də bu dram cəmiyyətində daha fəal iştirak edirdilər.

Naxçıvan teatrının ən maraqlı hadisələrindən biri də "El güzgüsü" dram cəmiyyəti tərəfindən C.Məmmədquluzadənin "Ölülər" komediyasının tamaşaya qoyulması idi. Çünki, islam dininin dərin kök saldığı, hacıların, kərbəlayıların, məşədilərin bütöv tiplərinin "qalereyasının" düzəldilməsi mümkün olan Naxçıvanda "Ölülər" komediyasının tamaşaya qoyulmasına böyük bir cəsarət lazım idi. Ə.Qəmküsar və R.Təhmasib Naxçıvanda olduğu müddətdə təşkil etdiyi "El güzgüsü" dram cəmiyyətinin üzvləri ilə birlikdə 1917-ci il may ayında ikinci dəfə C.Məmmədquluzadənin "Ölülər" pyesini, bunun ardınca M.F.Axundovun "Molla İbrahimxəlil-kimyagər", Ə.Haqverdiyevin "Bəxtsiz cavan", N.Vəzirovun "Müsibəti – Fəxrəddin" əsərlərini də tamaşaya qoyurlar.

"Ölülər" əsəri ikinci dəfə tamaşaya qoyularkən tamaşadan 726 manat 36 qəpik pul toplanır. Əliqulu Qəmküsar və Rza Təhmasibin rejissorluğu ilə "Ölülər" əsərinin Naxçıvanda tamaşaya qoyulması böyük bir əlamətdar hadisəyə çevrilir. Həmin tamaşada R.Təhmasibin yaratdığı İsgəndər obrazı öz dövrünün açıq fikirli adamı kimi son dərəcə qüvvətli idi [7, s. 195]. Tamaşada Əliqulu Qəmküsar – Şeyx Nəsrullah, Rza Təhmasib – İsgəndər, Həsən Səfərli – Hacı Həsən, Əli Xəlilov – Mir Bağır ağa, Rza İsfəndiyarlı – Şeyx Əhməd, M.H.Mirişli – Nazlı, Qurbanəli Abbasov – Kərbəlayi Fatma rollarında çıxış etmişdilər. "Ölülər" tamaşası o zamankı Naxçıvanın zülmətində parlayan işıq kimi təsirli çıxmışdı. Komediyanın tamaşaya qoyulması çox böyük bir tarixi hadisə idi. Lakin tamaşa mürtəce qüvvələri qəzəbləndirir. Ə.Qəmküsar və R.Təhmasib ruhanilərin təqiblərinə, hədəsinə və hücumlarına baxmayaraq M.Ə.Sabirin əsərlərindən də montajlar və meyxanalar hazırlayaraq səhnədə nümayiş etdirirdilər. 1917-ci ilin axırlarına kimi Əliqulu Qəmküsar və Rza Təhmasib tərəfindən müntəzəm sürətdə tamaşalar hazırlanırdı. 1917-ci ildə R.Təhmasib tərəfindən "Molla Cəbi" pyesi də tamaşaya qoyulur. M.Ə.Sabirin "Parta-part" adlı şeiri həmçinin bir neçə satirası da əsərə əlavə edilir, tamaşanın sonuna qədər hər pərdə arası şerlər oxunurdu.

R.Təhmasib və Ə.Qəmküsarın rəhbərliyi ilə "El güzgüsü" dram cəmiyyəti tərəfindən verilən tamaşalarda daşnakların, xan, bəy və ruhanilərin siyasətləri tənqid və ifşa olunurdu. Ona görə də onlar "El güzgüsü" dram cəmiyyətinə qarşı mübarizələrini davam etdirərək onu bağlamağa nail olurlar. Lakin teatrın bağlanması uzun sürmür. Bütün bu çətinliklərə baxmayaraq Naxçıvan "Rüşdiyyə" məktəb müəllimlərinin təşəbbüsü ilə 1917-ci ilin payızında həmin məktəbin nəzdində yeni bir dram cəmiyyəti təşkil edilir. Bu dram cəmiyyəti "İmdad" adlandırılır. Mübarizə günü-gündən qüvvətlənirdi. Zəhmətkeşlərin, kəndlilərin varlı təbəqələrə qarşı açıq çıxışları bu cəmiyyətin fəaliyyətinə istiqamət verirdi.

1918-ci ilin mart ayının 26-da Naxçıvanda "İmdad" cəmiyyəti tərəfindən "Ölülər" əsəri yenidən tamaşaya qoyulur. Tamaşadan sonra ruhanilərin təhriki ilə bir dəstə nadan "İmdad"ın əşyası saxlanılan otağın qapısını açaraq teatra aid bütün əşyalara od vurub yandırmış, stolun üstündə isə bir məktub qoyub getmişlər. Orada deyilir: "Bir daha "Ölülər" əsərini tamaşaya qoysanız, özünüzü ölmüş bilin!" [3, s. 41]. "İmdad" cəmiyyətinin çıxışları daşnakların törtöküntülərini bərk narahat etdiyindən bu cəmiyyəti dağıtmağa və tamaşaların göstərilməsinə mane olmağa başlayırlar. Onlar Kərim xana şikayət edirlər. Bu hadisədən sonra Naxçıvan şəhərinin hakimi Kərim xan "İmdad" dram cəmiyyətini bağlatmağa nail olur. Şəhər məktəbinin müəllimləri 1919-cu ildə "Ümid" adlı bir dram cəmiyyəti də təşkil edirlər. Bu dram cəmiyyəti iki tamaşa verə bilir. Bu tamaşalar Ü.Hacıbəyovun "Arşın mal alan" operettası və M.F.Axundovun "Hacı Qara" komediyaları idi [7, s. 208]. O dövrdə aktyorlar təqib olunur-

dular. Onlara tamaşa göstərməyə icazə vermirdilər. Buna görə də Naxçıvanın bir çox ziyalıları Əkbər Abbasov, Əkbər Namazov, Hacı Nəsirov, Teymur Qasımov, Rza Təhmasib, Əli Xəlilov, Rza İsfəndiyarlı, Həmid Mahmudov və başqaları zülm və zorakılığa dözə bilməyib Zaqafqaziyanın başqa şəhərlərinə köçüb gedirlər.

16 yaşında Tbilisidə "Müsəlman Artistləri İttifaqı"nın teatr truppasında fəaliyyətə başlayan R.Təhmasib 1920-ci illədək Tiflis, İrəvan, Naxçıvan teatrlarında aktyorluq və rejissorluq edir. 1920-ci ildən isə bu müqtədir sənətkarın yaradıcılığı Azərbaycan Dövlət Dram Teatrı ilə bağlı olmuşdur. O, burada 1920-ci ildən aktyor və rejissor, direktor və bədii rəhbər (1922-1924), 1937-1938-ci və 1953-1959-cu illərdə isə direktor kimi fəaliyyət göstərmişdir.

Aktyor kimi yaratdığı İsgəndər ("Ölülər"), İblis və Arif ("İblis"), Şeyx Sənan ("Şeyx Sənan"), Qacar ("Ağa Məhəmməd Şah Qacar"), Süleyman ("Həyat"), Koşkin ("Lyubov Yarovaya"), Karl Moor ("Qaçaqlar") kimi rollar klassik teatrımızın ən layiqli sənət nümunələrindən olmuşdur. Rza Təhmasib Cəfər Cabbarlının əsərlərini səhnəyə qoymuş, müxtəlif rolları ifa etmişdir. Aydın, Elxan, Balaş, Hacı Əhməd, İmamyar, general-qubernator kimi Cabbarlı personajlarını xüsusi istedadla səhnədə canlandırmışdır. C.Məmmədquluzadənin "Ölülər" əsəri onun rejissor kimi formalaşmasında mühüm və əhəmiyyətli rol oynamışdır. "Şeyx Sənan" (1931), "Sevil" (1934), "Özgə uşağı" (1936), "Madrid" (1938), "Vəfa" (1943), "Hacı Qara" (1958) kimi tamaşaları Rza Təhmasibin rejissorluq məharətinin ən layiqli nümunələri idi.

Rza Təhmasib Azərbaycan Dövlət Dram Teatrında çalışdığı müddətdə də Naxçıvan teatrı ilə yaradıcılıq əlaqəsi saxlamış, vaxtaşırı qastrola gəlmişlər. 1931-ci ildə Azərbaycan Dövlət Bədaye Teatrı Naxçıvana qastrola gəlir. Truppanın tərkibində Tuqanov, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Rza Təhmasib, Hidayətzadə, Mirzəağa Əliyev, Rza Darablı, Mərziyə xanım, Qəmər xanım, Rza Əfqanlı, Məcid Şamxalov, Məmmədli Vəlixanlı, Mustafa Mərdanov, Əli Qurbanov və başqaları var idi. Onların bu qastrol zamanı göstərdikləri "Hamlet", "Şeyx Sənan", "Dəli Knyaz", "Aydın", "1905-ci ildə", "Od gəlini" kimi tamaşalar hamını heyran qoymuşdu.

Cəfər Cabbarlı aktyor haqqında yazırdı: "Aktyor psixologiyanı gözəl bilməlidir. Yeni səhnə getdikcə zahiri gurultulardan, nümayişlərdən ayrılır. İnsanlığın daxili həyatına, onun mənəviyyatına, ruhuna girib, orada daimi bir hərəkətdə olan duyğular, çarpışmalar, mübarizələrlə uğraşır, bu gizli və rəngarəng həyatı bütün genişliyi ilə təhlil edib araya çıxarır. Aktyor bu mənəvi həyata yabançı qalmamalıdır" [2, s. 187]. C.Cabbarlının qeyd etdiyi kimi R.Təhmasib hər bir rolun şah damarını, həyat mayasını, fəlsəfi qayəsini tapmağı və inkişaf etdirməyi gözəl bacarırdı. Onun ifa etdiyi obrazlar çoxlu niyyətlərdə, əməllərdə, hərəkətlərdə təzahür tapırdı. O, bütün qüvvəsiylə Azərbaycan teatr sənətini inkişaf etdirməyə çalışırdı. Günəşin mülayim şüaları böyüdücü şüşədən keçərkən yandırmaq dərəcəsinə çatan kimi, Təhmasib yaradıcılığı da tamaşaçıların, sənətsevərlərin qəlbinə, şüuruna od salır. Bu odun gücündədir ki, Lunaçarskinin "Şahın bərbəri" əsərində adi bir rəiyyət olan Aristid haqqın adından danışır, ədalət mücahidinə, insan xilaskarına çevrilir.

Rza Təhmasib böyük miqyaslı, monumental yaradıcılığa malik idi. Lakin o eyni zamanda təfərrüat ustası idi. Kiçik bir əşyaya ani bir baxış, güclə seçilən və sezilən ifadə qüvvəsi kəsb edə bilirdi. Klşkinin tütün bükməyini və çəkməyini xatırlayın. Hacı Əhmədin çubuğunu, İmamyarın müştüyünü, yaxud dindirilərkən onun kibriti necə söndürdüyünü yada salın. Bu xırdalıqlar aktyor tərəfindən, əlbəttə, böyük məqsəd-xarakter yaratmaq üçün fikri, ideyanı əyaniləşdirmək xatirinə edilirdi. Görkəmli sənətkarın rejissorluq fəaliyyətinə gəlincə, onların

xüsusiyyətini, ləyaqətini, həyatiliyini görmək daha münasib idi. R.Təhmasib Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulmuş "Hacı Qara", "Madrid", "Özgə uşağı", "Sevil", "Almaz" kimi tamaşaların rejissoru olmuşdur.

R.Təhmasib 1937-ci ildə Moskvada S.Eynşteyn və M.Kedrov kimi görkəmli sənət xadimlərinin rəhbərliyi altında Ümumittifaq Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsini bitirmiş və elə həmin il "Azərbaycanfilm" studiyasında "Ordenli Azərbaycan" sənədli filmini çəkmişdir.

Rza Təhmasibin bədii kino sahəsində ilk rejissorluq işi 1941-ci ildə çəkilişinə başladığı və 1943-cü ildə tamamladığı "Səbuhi" filmidir. Ancaq onun kinoda rejissor kimi ən uğurlu işi "Arşın mal alan" filmi olmuşdur. Bu filmdə Ü.Hacıbəyovun fikrinə müvafiq səmimi lövhələrlə çəkilmiş, "Arşın mal alan" filmi kino xəzinəmizin ən parlaq incilərindəndir. R.Təhmasibin bu filmdə əsl sənət ustası kimi bütün fikir və bacarığı aktyor sənətinin parlamasına yönəldilmişdir. Hacıbəyovun təsvir etdiyi surətlər üçün münasib aktyorlar seçməklə rejissor filmin müvəffəqiyyətini daha da zinətləndirmişdir. O, filmdə Hacıbəyov əsərinin koloritini, sadə dilini, ruhundakı xəlqiliyi ustalıqla təcəssüm etdirə bilmişdir. Elə buna görə də film daim xarici ölkələrin ekranlarında da ardı-arası kəsilmədən nümayiş etdirilir. "Arşın mal alan" Rza Təhmasibin sənət bioqrafiyasına əlvanlıq, cazibədarlıq və zənginlik gətirmişdir. 1945-ci ildə kinorejissor Nikolay Leşşenko ilə birgə yaratdığı bu film SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Görkəmli sənətkar 1950-ci ildə A.Zarxi və M.Xeyfitslə birlikdə "Bakının işıqları", 1959-cu ildə Mikayıl Mikayılovla birlikdə "Mahnı belə yaranır" filmlərinə quruluş vermişdir. Kinoda ilk sərbəst rejissor işi isə 1959-cu ildə istehsal olunmuş "Onu bağışlamaq olarmı?" filmi olmuşdur. 1947-ci ildə istehsal olunmuş "Fətəli xan" filmində Ağası xan rolunu ifa etmişdir. Kinomuzda onun ən layiqli aktyor işi isə "Qanun naminə" filmində yaratdığı Qaloş obrazıdır. Bu obraz öz xarakterinə və ifa üslubuna görə kino tariximizin nadir qəhrəmanlarındandır. Bu yaradıcılıq uğurları Rza Təhmasibin bacarıqlı bir kino xadimi olduğunu xarakterizə edə bilər. Təhmasib tərcümə işi ilə də məşğul olmuşdur. O, K.Stanislavskinin "İncəsənət mənim həyatım", A.Ostrovskinin "Günahsız müqəssirlər", D.Furmanovun "Çapayev" əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Rza Təhmasib ömrünün son illərini pedaqoji fəaliyyətlə məşğul olmuş, Azərbaycanda yeni rejissor və aktyor nəslinin yetişməsində mühüm və əhəmiyyətli rol oynamışdır. Gənclik illərində o, Bakı Teatr Texnikumunda, 1946-cı ildən isə Azərbaycan Dövlət Teatr (İncəsənət) İnstitutunda pedaqoji fəaliyyət göstərmiş və professor kimi çalışmışdır. Bu görkəmli sənətkarın aktyorluq məharəti həm rejissorluq, həm də müəllimlik sahəsində ona gərək olur, böyük kömək göstərirdi. Özü aktyor olduğu üçün o, aktyorlarla işləməyi, onların dilini tapmağı yaxşı bacarırdı. O, aktyor sənətinin həm təcrübəsini, həm də nəzəriyyəsini mükəmməl bildiyi üçün gənc aktyorları gözəl tərbiyə edirdi. O yeni rejissor və aktyor nəslinin yetişməsində böyük xidmətlər göstərib. Onun yetirdiyi aktyorlardan bir çoxu dövlət mükafatına layiq görülmüş respublikanın adlı-sanlı sənətkarlarıdır.

Rza Təhmasibin həm teatr, həm kino, həm də pedaqoji sahədə çəkdiyi əmək göstərdiyi gərgin fəaliyyət öz səmərəsini vermişdir. O, Azərbaycanın teatr və kino sənətinin inkişafındakı xidmətlərinə görə 1946-cı ildə "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adı almış və SSRİ Dövlət Mükafatı laureatı olmuşdur. 1964-cü ildə "Azərbaycan SSR Xalq artisti" fəxri adına layiq görülmüş, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Tamaşaçılar, sənətsevərlər və müdrik xalqımız onun səmərəli fəaliyyətini yüksək qiy-

mətləndirmiş və hazırda da qiymətləndirir. Onun haqqında neçə-neçə monoqrafiya, dissertasiya yazılmış və yenə də yazılmaqdadır. Görkəmli sənətkarın həyat və fəaliyyətinin hər tərəfli, genişliyi ilə araşdırılıb gələcək nəsillərə ərməğan etmək isə bugünkü sənətşünasların vətəndaşlıq borcudur. Milli teatrımızın inkişafında bu sənət fədaisinin genişmiqyaslı rejissorluq, aktyorluq fəaliyyəti bütöv bir əsrin sənət tarixinin parlaq səhifələrini təşkil edir. Görkəmli sənətkar Rza Təhmasib 1980-cı ilin 14 fevralında Bakı şəhərində əbədiyyətə qovuşmuşdur. Qədirbilən xalqımız və onun yetirmələri bu görkəmli sənətkarı unutmur, həmişə fəxrlə onu yad edirlər.

ƏDƏBİYYAT

1. Azərbaycan teatrının salnaməsi: 2 cilddə. 1 c., Bakı: Azərnəşr, 1975, 584 s.
2. Cəfərov C. Azərbaycan Dram Teatrı (1873-1941). Bakı: Azərnəşr, 1959, 417 s.
3. Xəlilov Ə. Naxçıvan Teatrının tarixi. Bakı: ATC, 1964, 93 s.
4. Məmmədov C. Rza Təhmasib. Bakı: Azərnəşr, 1966, 295 s.
5. Naxçıvan Teatrının salnaməsi. Naxçıvan: Əcəmi, 2010, 739 s.
6. Təhmasib T. Rza Təhmasib. Bakı: MBM, 2005, 272 s.
7. "İncəsənət" almanaxı. Bakı: Elm, 1950, s. 194-219.
8. "Açıq söz" qəz., 1917, 2 iyun.
9. "Bakı" qəz., 1912, 16 fevral.

AMEA Naxçıvan Bölməsi
E-mail: a.qehremanov@yahoo.com

Ali Gahramanov

RZA TAHMASIB: CORYPHAEUS OF NATIONAL THEATER AND CINEMA

The article deals with life and creativity of prominent theater and film actor, director, People's Artist of the Republic, USSR State Prize laureate Rza Abbasgulu oglu Tahmasib. He survived in history and in the cinema as well as in his cinema-rich manners, creating the most desirable art examples of our classical theater in his meaningful and exemplary life. In the works of the Dead, Iblis, Arif, Sheikh Sanan, Agha Mohammedshah Gajar, Suleyman in "Life", Imamyar in "Yasar", "Koshkin in" Lyubov Yarovaya "in the works of Alexander, "Iblis" and Sheikh Sanan, An example of this is the image created by Strigin in the "Eskadra's Destruction" and by Karl Moor in the "Fugitives". In the "Oluler" works, Isgandar, "Iblis", In the works of Sheikh Sanan, Iblis, Arif, Sheikh Sanan, in Agha Mohammad shah Qajar, Qajar, in "Hayat" Suleyman, in "Yashar" İmamyar, here are some examples of Koschkin in "Lyubov Yarovaya", Strijin in "Eskadran's Destruction" and Karl Moor in "Qachaqlar". He played the role of spectators in these roles, and his performances, such as "Oluler", "Sheikh Sanan", "Sevil", "Ozge ushakh", "Madrid", "Vafa" and "Haji Kara", were one of the most successful examples of his directorial skill. The prominent artist has also played an important role in the history of our national cinema and has also directed films such as "Sabuhi", "Arishn mal alan", "Bakının ishıgları", "Mahnı bele yaranır", "Onu bagıshlamag olarmı?". He has also created an indispensable image in the history of our national cinema, playing Aghasi

khan in “Fatali khan” and “Galosh” in “Qanun namıne”. Rza Tahmasib has been engaged in pedagogical activity for the last years of her life, has played an important role in the development of a new director and actor generation in Azerbaijan. All these issues are widely reflected in the article.

Keywords: *Rza Tahmasib, actor, director, theater, film, educator, state prize laureate.*

Али Гахраманов

РЗА ТАХМАСИБ: КОРИФЕЙ НАЦИОНАЛЬНОГО ТЕАТРА И КИНО

Статья посвящена жизни и творчеству выдающегося актера театра и кино, режиссера, народного артиста республики, лауреата Государственной премии СССР Рза Аббасгулу оглу Тахмасибу. В своей содержательной и поучительной жизни он создал наиболее достойные образцы классического театра. Как в театре, так и в кино он вошел в историю с богатыми и нравственными образами. Примером могут послужить образ Искендера в «Мертвецы», «Иблис», Иблис, Ариф, Санан в повести «Шейх Санан», Гаджар в «Ага Мухаммедшах Гаджаре», Сулейман в «Хаям», Имамьяр в «Яшаре», Кошкин в «Любовь Яровой», Стрижин в «Разрушения эскадры» и Карл Моор в «Беглецах». Своими этими ролями он нашел путь в душу зрителей, а произведения «Мертвецы», «Шейх Санан», «Севиль», «Чужой ребенок», «Мадрид», «Вафа», «Гаджи Кара» являлись одним из лучших примеров его режиссерских навыков.

Выдающийся художник также сыграл важную роль в истории нашего национального кино и был режиссером фильмов «Сабухи», «Аршин мал алан», «Бакинские огни», «Так сочиняется песня», «Можно ли его простить?» Он также создал бесценные персонажи в истории нашего национального кино, сыграл роль Агаси хана в «Фатали хане», а в фильме «Именем закона» он также сыграл образ Галоша. В последние годы своей жизни Рза Тахмасиб занимался педагогической деятельностью, сыграл важную и значительную роль в развитии нового поколения режиссеров и актеров в Азербайджане. Все эти вопросы широко отражены в статье.

Ключевые слова: *Рза Тахмасиб, актер, режиссер, театр, кино, педагог, лауреат государственной премии.*

(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 04.06.2019
Son variant 16.09.2019

UOT 78.03

ƏLƏKBƏR QASIMOV

DÜNYAŞÖHRƏTLİ MAHNININ BƏXTƏVƏR BƏSTƏKARI

Məqalədə məşhur Azərbaycan bəstəkarlarından biri Qəmbər Hüseynlinin həyat və yaradıcılığı geniş işıqlandırılır. Onun kəşməkeşli həyat yolu təhlil edilərək əsərləri – mahnıları, operaları, simfonik və xalq çalğı alətləri orkestrləri üçün yazdığı musiqilər barədə söhbət açılır. Bəstəkara dünya şöhrəti qazandırmış "Cücələrim" mahnısının məxsusi yeri xüsusi vurğulanır.

Burada həmçinin Q.Hüseynlinin böyük təşkilatçılıq bacarığı, idarəetmə qabiliyyətinə də diqqət yetirilir. Bəstəkarın gənc musiqiçilərlə apardığı iş, onların istedadının üzə çıxarılmasına sərf etdiyi yorulmaz zəhmət xüsusi vurğulanır. Onun Azərbaycan musiqisinin inkişafı naminə verdiyi yaradıcı töhfələrdən, yüksək səviyyədə göstərdiyi xidmətlərdən və səmərəli pedaqoji fəaliyyətindən də ətraflı bəhs edilir.

Açar sözlər: *Qəmbər Hüseynli, bəstəkar, musiqi, mahnı, məktəb, ansambl, "Cücələrim".*

Qəmbər Hüseynli 16 aprel 1916-cı ildə Gəncədə dəmirçi Məşədi Muxtarın ailəsində anadan olub. 1925-ci ildə Gəncədəki birinci dərəcəli məktəbdə təhsil almağa başlayanda balaca Qəmbər artıq Seyid Əzim Şirvaninin, Abbas Səhhətin, Mirzə Ələkbər Sabirin bir çox şeirlərini əzbər bilirdi. Gəncənin musiqi mühiti, çal-çağır məclisləri, xüsusilə Qarabağ el şənlikləri və konsertlərə dəvət olunan görkəmli xalq sənətkarlarından Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Bülbül, Malıbəyli Həmid, Xan Şuşinski, Qurban Pirimov, Məşədi Cəmil Əmirov və başqalarının çıxışları musiqiyə sonsuz marağı olan balaca Qəmbərə böyük təsir göstərirdi. O dövrdə Gəncədə tez-tez aşıq musiqisi gecələri də təşkil olunurdu. Aşıq İslam Yusifov, Aşıq Əsəd, Hüseyn Bozalqanlı, Aşıq Nağı, Teymur Hüseynov, Aşıq Qədir və başqalarının sazlı-sözlü dünyası balaca Qəmbərin musiqi sənətinə olan marağını daha da artırırdı.

1927-ci ildə orta məktəbdə oxuya-oxuya Gəncə Orta İxtisas Musiqi Məktəbinin tar sinfinə qəbul olunur. Tarda yaxşı ifa etməyi mənimsəyir. 1929-cu ildə isə Gəncə Pedaqoji Texnikumuna daxil olur. Təhsil illərini sonralar Azərbaycanın böyük bəstəkarı olan Fikrət Əmirov və tarzən Zərif Qayıbovla birgə addımlayırdı. "Rast"ı, "Şur"u, "Zabul segahı"nı və başqa muğamları tarda məharətlə ifa edən gənc və istedadlı Q.Hüseynli hələ tələbə ikən aşıq və el havalarını toplayıb nota alırdı.

O dövrdə Gəncə Dövlət Dram Teatrının aktyoru, sonralar xalq artisti, milli teatrımızın və kinomuzun görkəmli sənətkarlarından olan Məmmədrza Şeyxzamanov İnşaat Texnikumunda dram dərnəyi yaratmışdı. Yeniyetmə Qəmbər bu dərnəyin fəal üzvü olmaqla yanaşı, hətta bir müddət sonra burada hazırlanan tamaşaların musiqi tərtibçisi də olmuşdur. 1932-ci ildə, bir təsadüf nəticəsində Q.Hüseynli Moskvadan Gəncəyə qastrol səfərinə gələn Şərq simfonik orkestrində baş tar çalan ifaçını əvəz etmişdir.

1934-cü ildə texnikumun tar sinfini fərqlənmə diplomu ilə bitirən Qəmbər pedaqoji kollektivin qərarı ilə təhsilini davam etdirmək üçün Bakıya göndərilir. Ona Bakı Orta İxtisas Musiqi Məktəbinin violonçel sinfində təhsil almaq təklif olunanda tərəddüd etmədən razılıq verir. İki il müddətində tanınmış musiqi pedaqoqu A.S.Şvartsın violonçel sinfində təhsil alır. Qərb ölkələrində geniş yayılan bu aləti fitri istedadı ilə "özününküləşdirməyi" bacarır.

Lakin Qəmbərin musiqi bəstələməyə olan hədsiz marağı onu bir an belə, rahat buraxmır. Bu cəhət o dövrdə məktəbin görkəmli musiqi pedaqoqlarının da diqqətindən yayınmır və nəhayət Qəmbəri bəstəkarlıq şöbəsinə keçirirlər. O, burada Q.Z.Buruşteynin sinfində təhsilini davam etdirir. Çox keçmir ki, Qəmbərin bəstəkarlıq üçün zəruri olan qabiliyyətləri özünü göstərir. O, görkəmli dramaturq Cəfər Cabbarlının sözlərinə "Tellər oynadı" romans-mahnısını bəstələyir. Bu gün də 80 ilə yaxın bir müddətdə dillərdən düşməyən bu gözəl vokal əsəri ilə gənc Qəmbər istedadlı bir bəstəkar olacağını təsdiqləyir [4].

1939-cu ildə Qəmbər Hüseynli milli musiqimizin beşiyi olan Şuşanın Musiqi Texnikumuna direktor vəzifəsinə göndərilir. O, burada cəmi bir il çalışsa da, əhəmiyyətli işlər görməyə müvəffəq olur.

Bir il sonra Qəmbər Hüseynlini yenidən Bakıya dəvət edirlər. Məhz bu zaman gənc bəstəkarın dahi Üzeyir Hacıbəyovla şəxsi tanışlığı gerçəkləşir. O, Dövlət Filarmoniyasının nəzdində fəaliyyət göstərən Azərbaycan Xalq Çalğı Alətləri Orkestrində dirijor köməkçisi vəzifəsində çalışmaqla yanaşı, Üzeyir bəyin tövsiyəsi ilə həmin illərdə yaranan "Sazçı qızlar" Ansamblının təşkilatçısı olmaqla, həm də bədii rəhbəri işləyir. Q.Hüseynli sazçı qızlardan ən fəalını – gənc Rəhilə Həsənovanı ansamblın konsertmeysteri təyin edir.

1943-cü ildə artıq məşhurlaşmış "Sazçı qızlar" Ansamblı İranda qastrol səfərində olur. Cənubi Azərbaycandakı soydaşlarımız ansamblın konsertlərini böyük sevgi və rəğbətlə qarşılayırlar. Bu səfərdən qayıdan Qəmbər Hüseynli çox keçmədən əsassız ittihamlarla 10 il müddətinə həbs cəzasına məhkum edilir. Lakin 4 ildən sonra – 1947-ci ildə həbsdən azad edilir və doğma şəhərinə qayıdır. Bir müddət Gəncə Dövlət Dram Teatrının musiqi hissə müdiri kimi çalışır və burada hazırlanan C.Cabbarlının "Almaz", Ə.Haqverdiyevin "Dağılan tifaq" tamaşalarına musiqilər bəstələyir. Sonra, 1938-ci ildən fəaliyyət göstərən Gəncə Dövlət Filarmoniyasına direktor təyin olunaraq burada çox səmərəli fəaliyyət göstərir. Məhz burada dünyaşöhrətli "Cücələrim" mahnısı yaranır. 1949-cu ildə bəstəkar Qəmbər Hüseynli şair Tofiq Mütəllibova bir musiqi dinlədir və ondan bu musiqiyə söz yazmasını xahiş edir. O dönəmlər uşaq şeirləri yazan Tofiq Mütəllibov musiqiyə söz yazır. Ancaq nədənsə bəstəkar gələcəkdə dünya miqyasına çıxacaq bu əsərini xeyli müddət gizli saxlayır. "Cücələrim" mahnısı – yazıldıqdan düz 6 il sonra məşhurlaşmışdır.

Mahnının ilk ifaçısı Arif Qazıyev olmuşdur. Bu gün məşhur rejissor, Muğam Teatrının direktoru və bədii rəhbəri, respublikanın əməkdar incəsənət xadimi, "Şöhrət" ordenli Arif Qazıyev həmin hadisəni belə xatırlayır: "Bəlkə də çoxları bilmir ki, "Cücələrim" mahnısının ilk ifaçısı mənəm. Rəhmətlik Qəmbər Hüseynli Gəncədə bizim bədii rəhbərimiz idi. O, "Cücələrim" mahnısını yazıb gətirmişdi və dedi ki, "Bakıya gedirik, gəlin xorla bunu oxuyaq". Qrupun solisti bir mən idim, bir də Münəvvər Seyfullayeva. Bakıya gəlib həmin mahnını filarmoniyada oxuduq. Mircəfər Bağırov da filarmoniyanın lojasında oturub tamaşa edirdi. Sonra "Vətən oğlu" mahnısını oxudum. Konsertdən sonra Bakı Mədəniyyət İdarəsinin müdiri Hökumə Sultanova gəlib məni Bağırovun yanına apardı. O da məni çox mülayim qarşıladı və əlini çiynimə qoyub dedi ki, "oğlum, çox yaxşı oxudun, istəyirsən sənin üçün şərait yaradım, qal, Bakıda oxu?" Sözün düzü, istəmədim. Gəncəyə qayıdandan üç gün sonra Bağırov mənə 4-5 yekə qutuda hədiyyələr göndərdi..."

Qəmbər Hüseynli 1951-ci ildə yenidən Bakıya qayıdıb A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinin bəstəkarlıq şöbəsinə daxil olaraq professor B.İ.Zeydmanın sinfində təhsilini davam etdirir. Eyni zamanda Azərbaycan Radio Verilişləri İdarəsinin orkestrində çalışır, "Sazçı qızlar" Ansamblını bərpa edir.

Gənc bəstəkar üç ildən sonra tanınmış şair Mirmehdi Seyidzadənin librettosu əsasında diplom işi kimi "Qızıl quş" operasını yazaraq, 1954-cü ildə Bakı Orta İxtisas Musiqi Məktəbini müvəffəqiyyətlə bitirir. Elə həmin ildə yaxın dostu, gənc şair Nəriman Həsənzadənin sözlərinə bəstələnən "Azərbaycan ordusu" marşı yaranır. Bu, sovet dövründə hələ mövcud olmayan milli orduya ithaf olunmuş ilk və yeganə musiqi əsəri olmuşdur.

Görkəmli bəstəkarın yaradıcılığında mahnı və romans janrları mühüm yer tutur. O, "Ay işığında", "Gecələr uzanaydı", "İlk məhəbbət", "Düşür yadıma", "Gülə-gülə", "Tel nazik", "Sənsən" "Ceyran", "Tellər oynadı", "İnsafsızsan sən yaman", "Qonşuda qız sevənin", "Bizə niyə gəlmirsən?", "Qoy dolanım başına", "Nə vaxta qaldı?" kimi mahnıların, həmçinin "Çeşmə başında", "Gəraylı", "Yar yanında günahkaram", "Xoş gəldin", "Saz çalan olsa", "Maral", "Qadan alım", "Yaz olur" və sair bu kimi aşıq mahnıları da bəstələmişdir. Burada maraqlı bir məqamı qeyd etmək yerinə düşər. Unudulmaz sənətkarın romans lirikasının zirvəsi sayılan "Ay işığında" əsərini müəllif qatarda, kupe pəncərəsindən süzülən Ay işığını seyr edərək bəstələmişdir.

Ancaq bəstəkarın mahnı çələngində öz təravəti, xalq təranələri ilə könüllər oxşayan, bütün dünyanı diyar-diyar dolaşan bir sənət incisi də var – "Cücələrim". Qəmbər Hüseynli deyəndə "Cücələrim", "Cücələrim"in sədası yayılanda isə Qəmbər Hüseynli yada düşür [6]. Bu gözəl musiqi incisini yaratmaq böyük sənət uğuru idi.

"Cücələrim" 1950-ci illərin ortalarından indiyə qədər dünyanın 100-dən çox xalqının dilinə tərcümə olunub. Dünyada "Cücələrim" qədər geniş yayılan, yüz milyonlarla uşaqların və böyüklərin – müxtəlif nəsillərdən olan adamların zövqünü oxşayan ikinci bir Azərbaycan mahnısı yoxdur. Sənətşünasların, musiqişünasların, sənət bilicilərinin yekdil rəyinə görə, indiyə kimi "Cücələrim" qədər öz müəllifini bütün dünyada tanıtdıran ikinci mahnı olmayıb.

"Cücələrim" mahnısına görə bəstəkar Qəmbər Hüseynlini o zamankı ali orqana – Mərkəzi Komitəyə çağırıb mühakimə edirlər:

- Bu "Cücələrim" nədir? Sən fəhlə sinfini qoyub cücələrə mahnı yazırsan. Bu, bizim ideologiyamıza ziddir.

Qəmbər Hüseynli də özünü itirmədən cavab verir:

Siz niyə dərd çəkirsiz? O cücələr böyüyüb toyuq olacaq, sonra yumurta qoyacaq, fəhlələr də yumurtadan yeyib qüvvətlənəcəklər və daha çox, daha yaxşı işləyəcəklər.

Bəstəkarın bu sözündən əsəbiləşib, onu həbs edirlər. Təbii ki, bu cəzanın əsas səbəbi Qəmbər Hüseynlinin mahnılarındakı türk üslubu idi.

Qəmbər Hüseynli həbsdə olanda Azərbaycandan bir qrup kino xadimi Fransaya səfərə gedir. Onları məşhur aktyor Çarli Çaplin qarşılayır. Qonaqların Azərbaycandan olduğunu öyrənəndə Çarli Çaplin royalın arxasına keçib "Cücələrim" mahnısını ifa edir. Sonra isə üzünü qonaqlara tutaraq deyir: "Demək siz bu məşhur melodiyanın vətənindənsiniz?! Məndən o bəxtəvər bəstəkara salam yetirin!" [1].

Bu mahnı sanki Azərbaycanın "vizit kartı"na çevrilib. 1955-ci ilin payızında sovet nümayəndə heyəti İsveçrədə qarşılanarkən qonaqları bir qrup İsveçrə məktəblisi "Cücələrim" mahnısının ifası ilə salamlayır. Bu, Azərbaycan musiqisinin sərhədləri aşması demək idi.

Bu məşhur mahnının şərəfinə Bakıda Respublika Pionerlər Sarayının nəzdində "Cücələrim" Mahnı və Rəqs Ansamblı yaradılmış, "Cücələrim" Ana və Uşaq Kafesi açılmış, Gəncədə "Bir mahnının tarixi" adlı muzey təsis olunmuşdur. "Cücələrim" ansamblı demək olar ki, 50 ilə yaxın bir müddətdə keçmiş SSRİ-nin bütün müttəfiq respublikalarında, dünyanın onlarla ölkəsində uğurlu qastrol səfərlərində olmuş, hər zaman böyük sevinc və rəğbətlə

qarşılanmışdır. Bu ansamblın şah mahnısı və rəqsi olan "Cücələrim" əsəri 1959-cu ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında (ongünlüyündə) səslənir. Mahnını solo olaraq ansamblın solisti, indi hamımızın yaxşı tanıdığımız aktrisa, respublikanın əməkdar artisti Suğra Bağırzadə oxuyur. Mahnı sevilərək və böyük rəğbətlə qarşılanır və tezliklə dillər əzbərinə çevrilir, sovetlər məkanını aşaraq bütün dünyaya yayılır. Hətta "Dünyanın ən yaxşı uşaq mahnıları" albomuna daxil edilir. "Cücələrim" "Soyuzmultfilm"in istehsalı olan 18 seriyalı məşhur "İndi dayan!" ("Ну, погоди!") cizgi filminin 6-cı seriyasında da, özü də Azərbaycan dilində səsləndirilmişdir.

Ömrünün son illərində "Simurq quşu" adlı opera üzərində yaradıcılıq işinə başlayan bəstəkar 1961-ci ilin əvvəllərindən onu yaxalayan ağır və üzücü xəstəlik ucbatından ikinci operasını tamamlaya bilməmişdir.

Simli kvartet, fortepiano üçün pyeslərin, dram tamaşalarına yazılmış musiqi və mahnıların, o cümlədən onlarla mahnı və romansın müəllifi olan Qəmbər Hüseynli "Şərəf nişanı" ordenilə təltif olunmuş, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1961-ci il 11 may tarixli Fərmanı ilə respublikanın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. Bu xoş xəbərdən üç ay keçməmiş dünyaşöhrətli mahnının bəxtəvər bəstəkarı haqq dünyasına qovuşmuşdur. Q.Hüseynli 1961-ci il iyul ayının 31-də, 45 yaşında, Bakıda vəfat etmiş, avqustun 3-də Gəncəyə gətirilən cənazəsi şəhər mərkəzindəki "Məktəblilər bağı"nda torpağa tapşırılmışdır.

Bəstəkarın ailəsində yolunu davam etdirən olmayıb. Oğlu Nəsimi mühəndisdir. Atası dünyasını dəyişəndə onun 3 yaşı olub. Ona görə də atasını daha çox dost-tanışların xatirəsi əsasında tanıyıb. "Atamı heç cür xatırlaya bilmirəm. Onun haqqında yalnız anamdan, qohumlarımdan, atamın dostlarından eşitmişəm" - deyə Nəsimi danışır:

Hamı deyir ki, atam çox mərd, özünə və ətrafdakılara qarşı tələbkar insan olub. O, heç vaxt quru şan-şöhrətə uyan adam olmayıb. Atam yazdığı əsərlərin ifaçılarına qarşı da çox tələbkar idi. O, həmişə deyirmiş: "Mən xalq musiqisini əsaslı surətdə öyrənməyincə böyük əsərlər yazmağa tələsməmişəm". Onun sənətə məsuliyyəti buradan qaynaqlanırdı. Atam həmişə istəyirdi ki, yazdıqları dinləyicilər tərəfindən bəyənilsin. Qəmbər Hüseynlinin əsərləri çoxdur. O, klassik və müasir şairlərin şeirlərinə əsərlər yazırdı. Atam "Qızıl quş" uşaq operettasını bitirə bilmədi. Bu, onun son əsəri oldu".

Bu ocaqda daha bir Qəmbər böyüyür. Deyəsən, bu balaca uşaq babasının yolunu, yarımçıq arzularını davam etdirəcək. Musiqiyə yaman həvəsi var. Lap babasının uşaqlığında olduğu kimi. Kim bilir, bəlkə vaxt olacaq böyük bəstəkarın yarımçıq əsərləri onun zəhməti sayəsində dolğunluq tapacaq. Çünki bu əsərlərə ürəyinin odunu, qəlbinin atəşini yalnız bu ocağın davamçısı verə bilər [2].

"Qəmbər Hüseynlinin 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 25 noyabr tarixli Sərəncamına [5] əsasən görkəmli bəstəkarın yubileyi paytaxt Bakıda, vətəni Gəncədə, həmçinin respublikanın bütün bölgələrində o cümlədən muxtar respublikamızda da təntənəli şəkildə qeyd olunmuşdur.

2016-cı il aprelin 15-də, Naxçıvan şəhərindəki Ümummilli liderimizin adını daşıyan sarayda "Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, AMEA Naxçıvan Bölməsi, MR Bəstəkarlar Təşkilatı, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Musiqi Kollecinin birgə təşkilatçılığı ilə görkəmli bəstəkarın 100 illiyinə həsr olunan "Azərbaycan musiqi mədəniyyətinin zənginləşməsində Qəmbər Hüseynlinin rolu" mövzusunda konfrans keçirilmişdir.

Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 25 noyabr 2015-ci ildə "Qəmbər Hüseynlinin 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Həmin Sərəncamdan irəli gələn vəzifələrin muxtar respublikada da həyata keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2 dekabr 2015-ci il tarixli Sərəncamla "Bəstəkar Qəmbər Hüseynlinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nı təsdiq edib. Tədbirlər planında "Azərbaycan musiqi mədəniyyətinin zənginləşməsində Qəmbər Hüseynlinin rolu" mövzusunda konfransın keçirilməsi də öz əksini tapıb. Tədbirdə AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov "Bəstəkar Qəmbər Hüseynlinin həyat və yaradıcılığı", Naxçıvan Musiqi Kollecinin direktoru Həsən Seyidov "Qəmbər Hüseynlinin Azərbaycan musiqisinin inkişafında rolu", Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri Yaşar Xəlilov "Qəmbər Hüseynlinin Azərbaycan peşəkar musiqisində tutduğu mövqe", Naxçıvan Dövlət Universitetinin müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova "Qəmbər Hüseynli yaradıcılığının ümumi xüsusiyyətləri" mövzularında məruzələrlə çıxış ediblər" (3). Sonda Naxçıvan Dövlət Filarmoniyası solistlərinin ifasında yubilyarın mahnıları səslənmişdir.

Azərbaycan musiqisinin görkəmli nümayəndələrindən olan, istedadlı və unudulmaz bəstəkarın adı Gəncə Orta İxtisas Musiqi Məktəbinin, həmçinin bu şəhərin küçələrindən birinin adında əbədiləşmişdir.

ƏDƏBİYYAT

1. Musiqi tariximizdən maraqlı hadisələr. modern.az; 19 oktyabr 2015-ci il.
2. Sərdarqızı T. Bir mahnıyla şöhrət qazanan bəstəkar // Mədəniyyət, 16 aprel 2010-cu il.
3. ameanb.nakhchivan.az/?p=918
4. https: // az.wikipedia.org/wiki/ Qəmbər Hüseynli
5. https: // president.az/articles/16887
6. Uşaq musiqi və incəsənət məktəblərinin tədris portalı.

AMEA Naxçıvan Bölməsinin
E-mail: elekber.q@mail.ru

Alakbar Gasimov

THE LUCKY COMPOSER OF THE WORLD-FAMOUS SONG

The paper comprehensively covers the life and work of Gambar Husseinli, one of the famous composers of Azerbaijan. His difficult life path is analyzed, his songs, operas, and music for orchestras, both symphonic and folk instruments, are described. The special place of the song "Jujalarim" which has brought world fame to the composer is particularly marked.

The author pays attention also to the great managerial and organizational abilities of G.Husseinli. His work with young composers, tireless work to identify their talent is particularly specified. The paper tells in detail about his creative contribution to the development of Azerbaijani music, about the merits at the highest level, about the fruitful pedagogical activity.

Keywords: *Gambar Husseinli, composer, music, song, school, ensemble, "Jujalarim".*

Алекбер Гасымов

СЧАСТЛИВЫЙ КОМПОЗИТОР ВСЕМИРНО ИЗВЕСТНОЙ ПЕСНИ

В статье всесторонне освещается жизнь и творчество одного из знаменитых композиторов Азербайджана Гамбара Гусейнли. Анализируется его трудный жизненный путь, рассказывается о его песнях, операх, о музыке, написанной для оркестров, как симфонического, так и народных инструментов. Особо подчеркивается специальное место песни «Джюджелерим», которая принесла мировую славу композитору.

Здесь также уделяется внимание большим управленческим и организаторским способностям Г.Гусейнли. Особо подчеркивается работа композитора с молодыми композиторами, его неутомимый труд по выявлению их таланта. Подробно рассказывается о его творческом вкладе в развитие азербайджанской музыки, о заслугах на высшем уровне, о плодотворной педагогической деятельности.

Ключевые слова: *Гамбар Гусейнли, композитор, музыка, песня, школа, ансамбль, «Джюджелерим».*

(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 08.07.2019
Son variant 06.09.2019

UOT 75

FİZZƏ QULİYEVA

ƏRTOĞROL CAVİDİN HƏYATI VƏ YARADICILIQ YOLU

Ərtoğrol Hüseyn oğlu Rasizadə 22 oktyabr 1919-cu ildə Bakı şəhərində anadan olub. 1941-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirdikdən sonra elə həmin il Bakı Konservatoriyasına daxil olur. Ərtoğrolun müəllimi – dahi bəstəkar, konservatoriyanın rektoru Üzeyir bəy onun bu sahədə fitri istedadı olduğunu qeyd etmişdi. Konservatoriyada oxuyarkən ölməz müğənnimiz Bülbül ilə Azərbaycanın bir sıra rayonlarına folklor materialları toplamaq üçün ekspedisiyalarda iştirak etmişdir. Ərtoğrol musiqini, şeiri, sənəti çox sevirdi və böyük həvəslə çalışırdı. O, dramaturgiya və poeziya sahəsində uğurlu əsərlər yaratmış, 200-dən çox el havalarını nota köçürmüş, aşıqlarımızın ifasında söylənən dastan və nağılların mətnlərini yazıya almış və onların əsasında gözəl əsərlər yaratmışdır. İlk böyük əsəri fortepiano üçün yazılmış "Doqquz variasiya"dır. Skripka ilə fortepiano üçün poema, şeirlərə romans və mahnılar bəstələmişdir. Böyük Vətən Müharibəsi başlanarkən "Cəbhədən məktub" simfonik balladasını və marşlar yazmışdır. Ərtoğrol Cavid rəsm çəkməyi çox sevərdi. O, atasına həsr etdiyi "Hüseyn Cavid", "Bethoven", "Şekspir", "Abbas Mirzə Şərifzadə İblis rolunda", "Abbas Mirzə Şərifzadə Şeyx Sənan rolunda" portretlərinin, həmçinin "Qızılgül" əsərlərinin müəllifidir. Sulu boya və qara qələm texnikasında işləyən Ərtoğrolun əsərləri kiçikölçülü olmasına baxmayaraq bədii, estetik baxımdan olduqca təsirlidir. 1942-ci ildə ordu sıralarına çağırılmış, "xalq düşməni"nin oğlu olduğu üçün, arxa cəbhədə fəhlə batalyonuna göndərilmişdir. Ağır xəstələnərək 1943-cü ildə Naxçıvanda vəfat etmişdir. Ərtoğrol Cavidin məzarı ölümündən 53 il sonra ulu öndərimiz Heydər Əliyevin göstərişi ilə Hüseyn Cavidin Naxçıvandakı məqbərəsinə köçürülmüşdür.

Ərtoğrol Cavid həmişə ailəsinə sədaqətini qoruyan, əzmlə, inadla çalışan, Vətənini, torpağını, böyüklərini sevən, onlara hörmət bəsləyən bir gənc obrazıdır. Biz onun simasında bir çox dəyərləri öyrənə bilərik. Əsl Azərbaycan vətəndaşı, əsl Azərbaycan gənci belə olur.

Açar sözlər: *Naxçıvan, Bakı, Ərtoğrol Cavid, yaradıcılıq, muzey, musiqi, rəsm, rəssam.*

Ərtoğrol Cavid 22 oktyabr 1919-cu ildə Bakıda böyük mütəfəkkir-şair Hüseyn Cavid Rasizadənin ailəsində doğulub. Şeirə, sənətə böyük sevgi bəsləyən anası Mişkinaz xanım və bacısı Turan xanım Hüseyn Cavid və Ərtoğrol Cavid irsinin qorunmasında, yaşadılmasında böyük xidmətlər göstəriblər. Özünü bütünlüklə incəsənətə, elmə həsr edən Ərtoğrol Cavid musiqini, rəsmi, elmi biliklərə yiyələnməyi, şeir yazmağı çox sevərdi. O, elə bir ailədə göz açıb böyümüşdü ki, bütün bu gözəllikləri sevməyə bilməzdi. Bu ilahi eşq onun qanında var idi. Kağız və qələm onun uşaqlıq dostu, ilk sevgisi, son nəfəsinə kimi sadiq qaldığı məhəbbəti idi.

Ərtoğrol Cavid Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsində təhsil almasına baxmayaraq gələcək planlarını, arzularını musiqiyə kökləmişdi. Məhz bu səbəbdən musiqi təhsili almaq üçün 1941-1942-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında oxuyur. Ərtoğrol Cavid bəstəkar olmaq istəyirdi. Özünün də dediyi kimi musiqi onun idealı idi. O, ömrünün son aylarında bu idealını belə təsvir edirdi: "...Vəziyyətimin bu qədər ağırlığına baxmayaraq gizli bir mənbə mənə daim qüvvət verir. Məni yaşadan bu qüvvə sarsılmaz iradə və möhkəm inamdı. Mən öz məqsədimə, idealıma çatacağam. O, musiqidi" [1]. 1937-ci ildə repressiyanın qurbanı olan atasının yoxluğu ailənin maddi vəziyyətini ağırlaşdırır və bu zillət onillərcə davam edir. Bütün çətinliklərə baxmayaraq musiqiyə hədsiz bağlılığı ona daim qüvvət verir, inamının sarsılmasına qoymur, daim yaratmağa ruhlandırırdı.

Ərtoğrol Cavid konservatoriyada Azərbaycan peşəkar musiqisinin banisi Üzeyir Hacıbəyovun sinfində oxuyurdu. İstedadı ilə diqqətini çəkən sevimli tələbəsinin parlaq gələcəyi olacağını Üzeyir bəy artıq çoxdan sezmişdi. Qısa sürən ömrə baxmayaraq Ərtoğrol Cavid

milli musiqi mədəniyyətimizin yeni yaradıcılıq nümunələri ilə zənginləşdirilməsində böyük rol oynayır. O, "9 Variasiya", skripka ilə fortepiano üçün "Poema", "Leylanın vəsfi" kimi romanslar, müharibə mövzusunda simfonik ballada və marşlar yaradır.

İncə zövqlü, həssas qəlbli Ərtoğrol ixtisas təhsilini musiqi sahəsində alsa da gözəl əl qabiliyyəti ilə də diqqət çəkirdi. O, xüsusi rəssamlıq təhsili almamışdı, qanında, canında dolaşan sənət sevgisi, böyük ilham mənbəyi gördüklərini, duyduqlarını kağıza, qələmə köçürməyə tələsdirirdi.

Qara qələmlə rəsm çəkməyi sevən Ərtoğrol ara-sıra kiçik ölçülü rəsmlər çəkir və şəxsi kolleksiyasında qoruyur. Ərtoğrol Cavidin yadigarı olan dəyərli rəsmlərindən bəziləri bacısı Turan Cavidin xüsusi qayğısı ilə qorunurdu. Rəsmlərin ölçüsü 35-21 sm ölçüsü arasında dəyişir və əksəriyyəti Bakıda olarkən 1935-1938-ci illərdə çəkilib.

Ərtoğrol Cavidin AMEA Hüseyn Cavidin Ev-Muzeyində qorunan rəsm əsərləri arasında portretlər diqqəti daha çox cəlb edir. O, sevdiyi insanların, xüsusilə burada dünya klassiklərinin surətlərini yaratmağa böyük maraq göstərirdi. Dünya şairlərinin, yazıçılarının ədəbi irsinə böyük maraq göstərən Ərtoğrol onları oxuyar və portretlərini çəkərdi. Həmin portretlər də məhz dünya klassiklərinin yaradıcılığına olan sevgisinin təzahürü idi. Muzeyin ekspozisiyasında, xüsusi guşələrdə sərgilənən, qorunan həmin əsərlər onun portret yaradıcılığına bəslədiyi böyük sevgisinin təzahürüdür. Buna baxmayaraq əsərlərindən "Qızılgül" rəsmi təbiətə, gülə həsr olunub [2]. O, bu əsəri sulu boya texnikasında işləmişdir.

Teatrı, tamaşalara baxmağı sevən Ərtoğrol Cavid yaradıcılığında bu aləmin də sehrinə düşmüş qələmini dramaturgiya sahəsində də sınamışdı. O, bu aləmin sehrinə hələ çoxdan atası Hüseyn Cavidin vasitəsilə düşmüşdü. Səhnəni hiss edən, duyan H.Cavidin şah əsərlərindən olan "İblis" pyesini təkcə ailəsi, Ərtoğrol Cavid yox, onu bütün xalqı sevmişdi. O, bu möhtəşəm əsərin sehrinə o qədər düşmüşdü ki, əsərlərindən birini məhz İblis obrazına həsr etmişdi. Hər kəs həyatda, düşüncəsində İblisi axtarır. Hüseyn Cavidin "İblis" pyesindən olan

"İblis nədir? Cümlə xəyanətlərə bais
Ya hər kəsə xain olan insan nədir? İblis!"

misraları Ərtoğrolu da düşündürməyə bilməzdi [10, s. 104]. 1934-cü ildə "Abbas Mirzə Şərifzadə İblis rolunda" əsərində o, görkəmli aktyor Abbas Mirzə Şərifzadənin simasında İblisin cizgilərini təsvir etmiş, əsər olduqca uğurlu alınmışdı [3]. Abbas Mirzə Şərifzadə İblis rolunun ilk və mahir ifaçılarından idi. "Ümumiyyətlə, mən teatrdan başqa bir şey bilmirəm" deyən sənətkar sonralar "ifşa edilmiş" Hüseyn Cavidin, Mikayıl Müşfiqin əsərlərini təbliğ etməkdə günahlandırılmış və represiyaya məruz qalmışdı. Ərtoğrol Cavidin Abbas Mirzə Şərifzadəyə xüsusi simpatiyası var idi, onun şəxsiyyətini, sənətini uca tuturdu. O, 1935-ci ildə rəsm əsərlərinin birində Abbas Mirzənin portretini Şeyx Sənan rolunda çıxış edərkən canlandırmışdı [4]. Abbas Mirzə itibaxışlı, xarakterli insan idi. Onun bu baxışları qarşısında davam gətirmək qeyri-mümkün idi. Gəncin diqqətini çəkən iti baxışlarda bir işıq var idi. Ərtoğrol həmin işığı sənətkarın gözlərində əks etdirməyi bacarmışdı. Əlbəttə belə əsərlər təsadüfən yaranmır. Güclü təəssürat, təsvir edən şəxsin emosiyaları əsas rol oynayır.

Qeyd etdiyimiz kimi, Ərtoğrol insan surətlərinin, sənət adamlarının təsvirinə xüsusi maraq göstərirdi. Dünya musiqisinin nəhənglərindən olan Lüdviq van Bethoven, ədəbiyyatsevərlərin sevimlisi Uilyam Şekspir də onun rəsmlərində əks olunmuş surətlər arasındadır [5; 6].

Ərtoğrol Cavidin əsərləri arasında Hüseyn Cavidin portreti də yer alır [7]. Atası Ərtoğrolun niskillərindən biri, ən başlıcası idi. Bir çoxlarının ürəyi kimi Ərtoğrolun da ürəyi dağlı idi. Hüseyn Cavid sürgün olunan vaxtları həsrətə sinə gərmək, atası ilə cizgilərin

vasitəsilə həmsöhbət olmaq üçün bu rəsmi işləyir. Rəsm digər əsərlərdən çox fərqlidir. Sanki Ərtoğrolun qələmi dəyişmişdi. Onun keçirdiyi hiss, həyəcan, dağlanmış ürəyinin iniltisi, bütün əzablar hamısı qələmin vasitəsilə kağızın üzərindəki cizgilərə hopmuşdu. Əsər olduqca həssaslıqla işlənib. Bunu duymamaq olmur.

Ərtoğrol Cavid həmçinin tədqiqatçı, istedadlı bərpaçı-mətnşünas, folklorçu kimi də özünü təsdiq etmişdir. O, digər tədqiqatçıların xalqın içərisindən topladığı nağıl, dastanlar, müxtəlif janrları əhatə edən aşıq poeziyası örnəkləri, bayatılar, laylalar, holavarlar, oxşamalar, xalq mahnıları, muğam mətnləri, oyun havaları, toy və yas mərasimləri və s. folklor-etnoqrafiya materiallarının bu və ya başqa məziyyətlərinə öz münasibətini bildirmişdir. Bütün bu məziyyətlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 2010-cu il tarixli 112 №-li qərarına əsasən nəşr olunmuş "Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" çoxcildliyində toplanmışdır [11].

Bütün gücünü, enerjisini yeni əsərlərinə, təhsilinə, işlərinə sərf edən bir vaxtda özünün də yazdığı kimi tale onu elə bir dərdə salır ki, bütün planları, arzuları alt-üst olur. Yad ellərdə acılara, zülmlərə düçar olan Ərtoğrol Cavid həyatın nə qədər insafsız olduğunu məhz xəstə yatağında duyur. Belə ki, o, atası kimi sürgün olunmasa da, konservatoriyanın tələbəsi olmasına baxmayaraq, əsgərliyə çağırılır, Gürcüstanda çox ağır tunel tikintisi işlərinə göndərilir [8, s. 85]. Burada ağır iş, zəif yemək onu taqətdən salır və ağır xəstəliyə – vərəmə tutulur. Xəstəxanalardan birinə qaldırılan Ərtoğrolun vəziyyəti heç də yüngülləşmir, yeganə seçim Vətənə, doğma torpağı, dədə-baba ocağı olan Naxçıvana geri dönmək olur. Naxçıvana gəlməyi, günlərini bu torpaqda gəzərək keçirməyi özü də çox arzulayırdı. Naxçıvana gəlmədən əvvəl o, 1943-cü il aprelin 26-da gizlincə, qələmini, kağızını gizlədərək Bülbül dayıya (məşhur müğənni) yazdığı ürək dağlayan məktubunda qələmə alır: "Mənim indiki planım Naxçıvana getməkdir. Orda hər bir şey var. Nənəmlə qonşu kəndlərə gedəcəyəm. Əgər səhhətim imkan versə, kabineti maraqlandıran materiallar toplayacam. Yanımda xeyli not və yazı kağızı var" [1]. Ərtoğrolu Naxçıvana Mişkinaz xanımın əmisi Məhəmməd kişi gətirir. Burada da günləri xoş keçmir [8, s. 67]. Amansız xəstəlik, insanların ona yanaşmaq qorxusu, ailəsinin yaşadığı ağır günlər, bunlar hamısı ürək dağlayırdı. Hər şey dəyişmişdi, artıq heç nə əvvəlki kimi deyildi. Hamı onu xalq düşməninin oğlu kimi tanıyır, yanına getməyə ehtiyat edirdi. Naxçıvanda günlərinin çoxu tənhalıq içində keçir, çay kənarında oturub tək-tənha fikir edir. Artıq həyat onu yorurdu, özünün də yazdığı kimi, həyat insanlardan da insafsızdır. Çox keçmir ki, istedadlı gənc bir gün gözlərini əbədi yumur.

Ərtoğrolun taleyi kimi dəfni də tükürpədici olur, bu sönük dəfn heç vaxt unudulmur. Naxçıvan Teatrının fəxri, rejissor, aktyor Miribrahim Həmzəyev 1943-cü ildə baş verən həmin hadisəni, o dəfn mərasimini ömrünün sonuna kimi unuda bilmir. İstiqanlı, xeyrə-şərə yarayan İ.Həmzəyev Hüseyn Cavidə pərəstiş edərdi. Bu vaxtsız ölüm bir çoxları kimi onu da çox sarsıdır.

İbrahim Həmzəyevin bu acı xatirəsini qələmə alan Q.Əlisaoğlu yazır: "...həmişəki kimi işdən çıxıb evə gedirdi-aramla, təmkinlə.

Qarşısına tabut aparan kiçik bir dəstə çıxdı, cəmi 5-6 qoca kişinin iştirakı ilə dəfn edilməyə aparılanın kimliyi ilə maraqlanmaya bilmədi, çünki Naxçıvanda ən kasıb, hətta kimsəsiz adamın da dəfnində tanış-biliş, qohum-qonşu əl ayaq yetirir, izdihamlı, müsəlmani bir dəfn mərasimi yaranır.

Bu kimsəsiz adamın dəfninə tamaşa üçün çoxları həyət qapısından boylanıb tezcə də başlarını geri çəkirdi. Aydınlıq üçün mərasim iştirakçılarına yaxınlaşıb qayğıkeşliklə soruşdu:

– Allah rəhmət eləsin. Kimdi?

Bu yerlərdə Miribrahimi tanımayan tapılmazdı. Ancaq bu dəfndə rəsmilərdən heç kəs iştirak etmirdi, Miri də rəsmi idi, ona görə də sual verilən qoca onun cəsarətinə təəccübləndi, ürəyindən hələ bir nida da qopdu: "deyərəm, indi sən də qaçarsan"

– Ərtoğroldu...Cavidin oğlu...

O, "Ərtoğrol" kəlməsini eşidib qulaqlarına inanmadı, dəfn mərasiminin bu saat orqan tərəfindən izləndiyini də başa düşdü, ürəyində fırtına qopdu:

"Cavidin oğlunu beləmi dəfn edərlər? Cavidin borcunu beləmi qaytararlar?"

Əzmkarlıqla yeriyib tabutun altına girdi, dəfnin sonuna kimi qocalara kömək göstərdi:- Cavid ruhu qarşısında borc qaytarırmış kimi" [9, s. 126-128].

Ərtoğrolun cənazəsini anası və bacısı görmədən torpağa tapşırılır. O vaxtlar onlara Bakıdan çıxmağa icazə verilmədiyindən əziz balasının yasına gedə bilməmişdi.

Ərtoğrol Cavid həmişə ailəsinə sədaqətini qoruyan, əzmlə, inadla çalışan, Vətənini, torpağını, böyüklərini sevən, onlara hörmət bəsləyən bir gənc obrazıdır. Biz onun simasında bir çox dəyərləri öyrənə bilərik. Əsl Azərbaycan vətəndaşı, əsl Azərbaycan gənci belə olur.

Ərtoğrol Cavid Azərbaycan xalqının qəlbində yaşayır. Onun zəngin irsi Azərbaycan mədəniyyətinin xəzinəsidir. Bu xəzinəni, dəyərləri qorumaq hər birimizin vətəndaşlıq borcudur.

ƏDƏBİYYAT

1. AMEA Hüseyn Cavidin Ev-Muzeyi. Ərtoğrol Cavidin Bülbülə məktubu. 26 aprel 1943-cü il.
2. AMEA Hüseyn Cavidin Ev-Muzeyi. İnv. № 757.
3. AMEA Hüseyn Cavidin Ev-Muzeyi. İnv. №2963.
4. AMEA Hüseyn Cavidin Ev-Muzeyi. İnv. № 456.
5. AMEA Hüseyn Cavidin Ev-Muzeyi. İnv. № 457.
6. AMEA Hüseyn Cavidin Ev-Muzeyi. İnv. № 458.
7. AMEA Hüseyn Cavidin EV-Muzeyi. İnv. № 459.
8. Əhmədli S. Hüseyn Cavidin ev muzeyi. Bakı: Şirvannəşr, 2009, 168 s.
9. Əlisaoğlu Q. Ömrün zirvəsi. Bakı: Araz, 2000, 193 s.
10. Hüseyn Cavid. Əsərləri: 5 cilddə. III c., Bakı: Lider, 2005, 304 s.
11. Məmmədova R. Azərbaycanın qeyri-maddi mədəni irsi və Ərtoğrol Cavid. 525-ci qəzet, 2018, 7 may.

AMEA Naxçıvan Bölməsi
E-mail: fizze25@mail.ru

Физза Гулиева

ЖИЗНЕННЫЙ И ТВОРЧЕСКИЙ ПУТЬ ЭРТОГРУЛА ДЖАВИДА

Эртогрол Джавид оглы Расизаде родился 22 октября 1919 года в Баку. Окончив в 1940 году Азербайджанский государственный педагогический университет, поступил в 1941 году в Бакинскую консерваторию. Его учитель – великий композитор, ректор

консерватории Узеир бей отметил, что он врожденный талант в этой области. Эртугрол работал с большим энтузиазмом. Во время пения в Консерватории наш бессмертный певец участвовал в экспедициях по сбору фольклора в нескольких регионах Азербайджана вместе с Бюльбюлем. Эртогрол любил музыку, поэзию, искусство и работал с большим энтузиазмом. Эртогрол создал успешные произведения в области драмы и поэзии, перевёл на ноты более 200 народных песен, записал дастаны и сказания со слов азербайджанских ашугов, и на их основе создал ряд своих произведений. Первое крупное произведение Эртогрола Джавида — «Девять вариаций» для фортепиано, посвящённое Гаджибекову. Помимо этого Эртогрол Джавид сочинил поэму для скрипки и фортепиано (1941), ряд романсов и песен. С началом Великой Отечественной войны написал симфоническую балладу «Письмо с фронта» и ряд маршов, 3 прелюдии, сонатину и др. Эртогрол Джавид любил писать картины. Он является автором портретов «Гусеин Джавид», «Бетховен», «Шекспир», «Аббасмирза Шарифзаде в роле Иблис», «Аббасмирза Шарифзаде в роле Шейх Санан», а также «Роза». Эртогрол работает в технике акварели и черного карандаша, хотя картины маленькие, но очень эффективна в художественном и эстетическом отношении. В 1942 году Эртогрол Джавид был призван в армию. Но поскольку он считался сыном «врага народа», то был отправлен в тыл, в рабочий батальон, где прокладывал железную дорогу. Будучи со слабой физической подготовкой, Эртогрол не был приспособлен к тяжелому труду и через некоторое время заболел туберкулёзом, с которым всеми силами пытался бороться. Однако, 14 ноября 1943 года, в возрасте 24 лет Эртогрол Джавид скончался в городе Нахчыване, родном городе своего отца. Через 53 года после кончины, в 1996 году могила Эртогрола Джавида по распоряжению президента Азербайджана Гейдара Алиева была перезахоронена в мавзолее Гусейна Джавида в Нахчыване. В 1942 году его призвали в армию и отправили в рабочий батальон в тылу за то, что он был сыном «народа врага». Там он серьезно заболел и умер в Нахчыване в 1943 году.

Эртогрол Джавид образ молодого человека всегда защищал свою верность семью и родину и ценил их. Мы можем узнать много ценностей в его личности. Он настоящий азербайджанский гражданин, настоящая азербайджанский молодежь.

Ключевые слова: *Нахчыван, Баку, Эртогрол Джавид, творчество, музей, музыка, картина, художник.*

Fizza Guliyeva

LIFE AND CREATIVE DEVELOPMENT OF ERTOGROL JAVID

Ertogrol Javid Rasizade was born on October 22, 1919 in Baku. After graduating from the Azerbaijan State Pedagogical Institute in 1941, he entered the Baku Conservatory that year. Uzeyir Hajibeyov was his teacher. His teacher - the great composer, the rector of the Conservatory, Uzeyir bey, noted that he was an innate talent in this area. While singing in the Conservatory, he participated in expeditions to gather folklore in several regions of Azerbaijan with our immortal singer Bulbul. Ertogrol loved music, poetry, art and worked with great enthusiasm. Ertogrol created successful works in the field of drama and poetry, transposed more than 200 folk music, wrote texts of the epos and tales and according them created beautiful

works. E.Javid`s first large work was "9 Lariasiya" composed for piano which was dedicated to Uzeyir Hajibeyov. He is author of novels and songs. When the Great Patriotic War started he composed symphonic ballad "A letter from a border" and matches. Ertogrol Javid loved to draw a picture. He is the author of "Hussein Javid", "Beethoven", "Shakespeare", "Abbasmirze Sharifzadeh in the role of Devil", "Abbasmirze Sharifzade in the role of Sheykh Sanan" portraits, as well as "Rose". Ertogrul works in watercolor and black pencil techniques, although very small, are very effective in artistic and aesthetic terms. He was called to the army in 1942 and was sent to the worker's battalion on the rear for being the son of the "people of the enemy". There he got seriously ill and died in Nakhchivan in 1943.

Ertogrol Javid is a young man who maintains his faithfulness to his family, who works hard and persistently, who loves his homeland, greats and respects them. We can learn many values in his face. This is a true Azerbaijani citizen, a true Azerbaijani youth.

Keywords: *Nakhchivan, Baku, Ertogrol Javid, creativity, museum, music, art work, artist.*

(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: **İkin variant 12.05.2019**
Son variant 01.08.2019

UOT 75

FATMA MƏMMƏDOVA

ÖMRÜNÜ NAXÇIVANA BAĞLAYAN SƏNƏTKARIN HƏYAT VƏ YARADICILIĞI

Azərbaycan Respublikasının Xalq rəssamı professor Hüseynqulu Əliyev ömrünün çox hissəsini doğma Naxçıvana həsr edib. Orta və Ali ixtisas təhsilini Bakıda alıb. Məqalədə, rəssamın həyat və yaradıcılığından söz açılır. O, sənətə gəlişini bir təsadüfə bağlayır. Yaradıcılığının əsas qayəsində realizm üstünlük təşkil edir. Hüseynqulu Əliyevin əsərlərinin əsası real həyatın təsviridir. Rəssamın realizmə münasibəti də özünəməxsusdur. Əbədi olanla müvəqqəti olanı qarşılaşdırmaq onun bir çox əsərlərində müşahidə olunur. Hüseynqulu Əliyev təsviri sənətin müxtəlif sahələrində - rəngkarlıq, qrafika, heykəltəraşlıq sahəsində yaratdığı orijinal əsərlərlə imzasını təsdiq edib. Hüseynqulu Əliyevin yaradıcılığında portret janrının rolundan, eləcə də portret ustalarından bəhs edilir. Bu janrda rəssamlar psixoloji rəsmin böyük ustaları kimi tanınırlar, onlar sanki öz modellərinin daxili dünyasına qapılırlar, onlar üçün narahat olurlar və müasirlərimizin dərin individual eyni zamanda tipik obrazlarını yaradırlar. Rəssamların portretlərində bir insanın görünüşü demək olar ki, həmişə mənəvi dünyasının nümayişi ilə ortaya çıxır. Rəssamların portretləri özünəməxsus bədii xüsusiyyətləri və obrazların psixoloji dərinliyi ilə seçilir. Hər portretə rəssam özünü qatır öz səxavətini, öz dünyəvi xeyirxahlığını. Hüseynqulu Əliyev uzun illər Naxçıvan Rəssamlar Birliyinin sədri olub. Yaradıcılığı yüksək dəyərləndirilən rəssam 1989-cu ildə Azərbaycan Respublikasının Əməkdar rəssamı, 2002-ci ildə Xalq rəssamı fəxri adına layiq görülüb. O, hal-hazırda Naxçıvan Dövlət Musiqili Dram Teatrında baş rəssam, NDU kafedra müdiri vəzifələrində işləməklə bərabər, şəhərin mərkəzində yerləşən emalatxanasında yaradıcılıq fəaliyyətini davam etdirir.

Açar sözlər: *monumental abidə, portret, büst, barelyef, rəssamlıqda məişət portreti, mənzərə, natürmort janrlarında monumental rəngkarlıq, illüstrasiya və teatr rəssamlığı.*

Hüseynqulu Əliyevi Naxçıvan ilə bağlayan qırılmaz incə tellər çoxdur. Bu məqamlar onun həyat və yaradıcılığında aydınlığı ilə müşahidə olunur. “Doğma xalqın həyatı vətən torpağı əsl ilham mənbəyidir” deyən görkəmli Azərbaycan rəssamı ölməz sənətkar Səttar Bəhlulzadənin bu sözləri Hüseynqulu Əliyevin həyat və yaradıcılığında da öz əksini tapmışdır. Vətəninə, elinə, obasına bağlı sənətkarın əsas ilham mənbəyi doğulduğu torpaq və bu yurdun insanları olub. Onun yaradıcılığının əsas mövzusu rəssamın öz dili ilə desək, mənim Naxçıvanımdır. Bu günə kimi öz doğma yurdunun təbiətini, insanlarını, güllərini, çiçəklərini, qəhrəmanlıq səhifələrini böyük sevgi ilə vəsf edən sənətkarın hər bir tablosu yurd sevgisinin bir parçasıdır. Azərbaycan təsviri sənətinin və heykəltəraşlığının inkişafında özünəməxsus mühüm xidmətləri olan görkəmli xalq rəssamı, professor Hüseynqulu Əliyev çoxcəhətli yaradıcılıq fəaliyyətinə malikdir. O, təsviri sənətin rəngkarlıq, qrafika, teatr rəssamlığı istiqamətlərində və heykəltəraşlıq sahələrində professional səviyyədə məşğul olur, öz sözünü deyə bilir. Əzim Əzimzadə adına Bakı Rəssamlıq məktəbində oxuyarkən (1971-1975) çəkdiyi peyzaj rəsmləri ilə yaradıcılığa başlayan Hüseynqulu Əliyev fərqli baxış bucağı və rəng seçimi ilə maraq doğuran gənc fırça sahibi kimi müəllimlərinin diqqətini cəlb etmişdir. 1977-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rəssamlıq şöbəsinə daxil olur [6]. Azərbaycan Dövlət incəsənət İnstitutunun dekorativ-tətbiqi sənət fakültəsində təhsil aldığı illərdə (1977-1982) isə o, bu böyük sənət ocağında ona dərs demiş Azərbaycanın görkəmli sənətkarlarından Lətif Kərimov, Toğrul Nərimanbəyov və Tokay Məmmədovdan rəssamlığın və heykəltəraşlıq sənətinin sirlərini daha dərindən öyrənmiş və yaradıcılıqla inkişaf etdirmişdir. Beləliklə, Hüseynqulu Əliyevin sənətində iki istiqamətin – rəssamlıq və heykəltəraşlığın əsası qoyulmuşdur. Təsviri sənətdə o, Toğrul Nərimanbəyov rəngkarlıq məktəbinə aid olub, bu əlvan rənglərin palitrasından ibarət olan sənət üslubunu yaradıcılıqla davam

etdirmək və yeni çalarlarla zənginləşdirməklə öz dəst-xəttini müəyyən etmişdir. Xalq rəssamı Hüseynqulu Əliyevin rəsm əsərlərində təsvir edilən nar dənələri və təbiət təsvirlərindən kompozisiya yaratmaq bacarığı ana xətləri ilə Toğrul Nərimanbəyov məktəbinin onun sənətində yaşayan izləridir. Lakin göründüyü kimi, dünya şöhrətli Azərbaycan rəssamı Toğrul Nərimanbəyovun bədii sənətində onun möhürünə, imzasına çevrilmiş nar kompozisiyaları serialı Hüseynqulu Əliyevin rəsmlərində nar dənələri fraqmentləri formatında davam etdirilmişdir [1]. Bundan başqa, böyük müəlliminin rəsm əsərlərindəki nar çiçəklərini Hüseynqulu Əliyev daha çox payız ləçəkləri ilə əvəz etmişdir. Mənsub olduğu məktəbin açıq parlaq rənglərini Hüseynqulu Əliyev ala tünd rəng çalarları ilə yeniləşdirmişdir. Hüseynqulu Əliyevin rəsmlərindəki ala və tünd rənglərin harmoniyası onun fikirlərini ifadə edən əsas bədii vasitələrdir. Doğrudur, rəssamın təsvirlərində ağ-ala, işıqlı rənglər tünd rənglərlə müqayisədə üstünlük təşkil edir və onun ifadə etmək istədiyi, almaq üçün səy göstərdiyi effekti mənalandırmaq baxımından daha funksionaldır. Bundan başqa, Hüseynqulu Əliyevin palitrasında tünd rənglər heç də qara rəng mənasını daşımır. O, tünd rəngin bənövşəyi, çəhrayı və s. çalarları ilə ala-açıq, açıq mavi rənglərin harmoniyası vasitəsilə kətan üzərində maraqlı, cəlbedici, fərqli və baxımlı mənzərələr, portretlər canlandırmağı bacarır. Bu fərqli və uğurlu rəng həlli Hüseynqulu Əliyevin demək olar ki, əksər rəsm əsərlərinin danışan dilidir. O, yalnız ciddi, sərt ictimai-siyasi mövzularda, məsələn soyqırım mövzusunda tuşla çəkdiyi rəsmlərdə tünd qara rənglərdən istifadə etməklə kifayətlənir. Qalan bütün hallarda Hüseynqulu Əliyevin fırçasında düşünülmüş tündvarı rənglər ciddilik, möhkəmlik, bütövlük effektləri yaradan fondan uzağa getmir. Yaradıcılığında sabitləşmiş rəng effektləri onun həmin rənglərin sintezinə meydan açan kompozisiya seçimini müəyyən edir. Fikrimcə, Hüseynqulu Əliyevin yaradıcılığında yazqabağı və qış ərəfəsi fəsillərinə həsr olunmuş fraqmentlərin, mənzərələrin kifayət qədər çox olması rəssamın sabitləşmiş rəng sistemi ilə təbiətin həmin çağlarının uyğunluğundan, harmoniyasından irəli gəlir. Nisbətən açıq rənglərdən, yasəmən effektlərindən o, əsasən natürmort yaradıcılığında bacarıqla istifadə edir. Bu məqamda o, rəsmlərində yaz fəslini, bahar əhval-ruhiyyəsini çox təbii və bənzərsiz şəkildə ifadə edə bilir. Beləliklə, xalq rəssamı Hüseynqulu Əliyevin palitrasında təbiətin gözəllikləri fərqli bir şəkildə təsvir olunur. Fikrimcə, seçilmiş rənglərin özünəməxsusluğu və onlardan yaradıcı istifadə Hüseynqulu Əliyevin fərdi üslubunu müəyyən edir. Fərqli üsluba malik olmaq isə incəsənətin bütün növlərində, o cümlədən də rəssamlıqda əsl sənətkar olmağın əsasını təşkil edir. Azərbaycan Respublikasının xalq rəssamı Hüseynqulu Əliyev ölkəmizin zəngin ənənələrə malik təsviri sənətində özünəməxsus yeri, mövqeyi və üslubu olan görkəmli sənət xadimlərindən biridir. Hüseynqulu Əliyevin mövzu dairəsi geniş və rəngarəngdir. O, siyasi portretlərdən tutmuş, dövlət müstəqilliyi ideallarına, Azərbaycan xalqının başına gətirilmiş soyqırım həqiqətlərinə, müasirlərimizin həyatına, təbiət mənzərələrinə qədər demək olar ki, xalqımız və ölkəmiz üçün əhəmiyyətli olan əsas mövzularda fırçasını böyük uğurla sınaqdan çıxarmışdır. Mövzusundan asılı olmayaraq Hüseynqulu Əliyevin bütün rəsmlərində, hətta portretlərində də müəyyən kompozisiya vardır. H.Əliyev teatr – dekor rəssamı, geyim eskizləri tərtibatçısı kimi də fəaliyyət göstərir[4]. Bütün hallarda o, insanı və təbiəti mühitinin səciyyəvi detalları və dinamikası ilə birlikdə təsvir edir.

Məşhur rəssam Leonardo da Vinçi deyirdi: “Rəsm çox geniş köklü mədəniyyət və metod üzərində inkişaf etməlidir. Elmsiz praktika üsulu ilə rəsm çəkəcəklərini zənn edənlər kompassız, sükansız gəminin sakinlərinə bənzəyirlər ki, onlar hara getdiklərini qəti olaraq bilməzlər”. Bəli rəssamlıq dərin sənətdir, bu isə ciddi təxəyyül, istedad, əmək, səbir və mütaliə tələb edir [2].

Xalq rəssamının mahir fırçası ilə yaratdığı "Ümummilli lider" portretində görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycan dövlətini dünyada tanıtmaq uğrunda apardığı mübarizə istedadla seçilmiş detallarla ifadə olunmuşdur. Başı üzərində dalğalanan dövlət bayrağımızın və addımlamaqda olan yer kürəsinin təsviri ümummilli liderin mübariz ruhunu və dünya şöhrətini çox dolğun şəkildə mənalandırır. "Akademik Zərifə xanım Əliyevanın portreti" adlı rəsm əsərində alim-ana təbəssümü ilə interyerdə yer almış tər çiçəklər birbirini tamamlayır. Cəlil Məmmədquluzadənin portretini Nəriman Nərimanovla birlikdə təqdim etmək şəxsiyyəti zəmanəsi və tarixi simaları ilə əlaqədə təsvir etmək baxımından mükəmməl alınmışdır. "Şair Elman Həbibin 60 illik yubileyinə həsr olunmuş portret" də istedadlı qələm sahibinin yazdığı kitabların onun yazı masasının dayaqları kimi təsvir edilməsi sənət dili ilə desək, düşünülmüş bir tapıntıdır. Bu rəsm əsəri dünyadan vaxtsız köçmüş şair Elman Həbibin obrazını çox dolğun və mənalı şəkildə ifadə edən orijinal portretdir. Sadə əmək adamı olan "Əli ustanın portreti" onun peşə-əmək mühiti ilə birlikdə təqdim olunur. Hətta ailə silsiləsindən olan "Həyat yoldaşım", "Mənim Leylam", "Qızımın portreti" rəsmlərində də kompozisiya əlamətləri ifadə edilmişdir. Maraqlıdır ki, Hüseynqulu Əliyev özünün avtoportretlərini də kompozisiya çərçivəsində çəkmişdir. Biz həmin avtoportretlərdə xalq rəssamını ailə üzvləri, nəvələri və sənət dostları ilə bir yerdə görürük. Kompozisiyalı rəsm əsərləri yaratmaq, portret rəsmlərində də səciyyəvi kompozisiya detalları əks etdirmək rəssamın təkcə həyatı, təbiəti və insanı təqdim etməklə qalmayıb, həm də hər dəfə yeni bir fikir ifadə etmək istedadını da nümayiş etdirir. Bu mənada Xalq rəssamı Hüseynqulu Əliyevin rəsm əsərləri, xüsusən də portret rəsmləri obrazın fərqli görünüşü ilə yanaşı, həm də onu tamamlayan fikir və mətləbləri, detalları və ideyaları da canlandırır.

Xalq rəssamının Azərbaycan romantizminin banisi Hüseyn Cavidə həsr etdiyi rəsm əsərini "Hüseyn Cavidin kompozisiyalı obrazı" adlandırması onun özünün də portret rəsmlərinin kompozisiya zəminində yaratdığının fərqində olduğunu göstərir. Fikrimizcə, müxtəlif janrlarda çəkilmiş rəsm əsərlərində kompozisiya yaratmaq istiqaməti Hüseynqulu Əliyev sənətinin fərdi özünəməxsusluğunun səciyyəvi xüsusiyyətlərindən biridir.

Xalq rəssamı Hüseynqulu Əliyevin mənzərə janrında çəkdiyi rəsm əsərləri də özünəməxsus rəng çalarlarına və kompozisiya elementlərinə görə təsviri sənətin fərqli təəssüratını yaradır. Peyzaj rəsmlərində müşahidə olunan əlavə bir cəhətdə rəssamın realist təsvirlərində romantika elementlərinin olmasıdır. Yağlı boya ilə çəkilmiş "Naxçıvanda bahar" rəsmində təbiət gözəlliklərinin fonda təsvir edilmiş qürurlu dağların timsalında canlandırılması, hətta yaşıl çəmənlikdə sanki yel qanadlı ağ atların diqqət mərkəzinə çəkilməsi cizgilərdəki reallıqlara romantik görkəm verir. Xalq rəssamının Azərbaycan Dövlət İncəsənət Universitetində diplom işi kimi təqdim etdiyi "Mənim Naxçıvanım" monumental barelyef tablosu rənglərin qamması ilə romantikasının üzvi sintezindən yoğurulmuş mənalı və qiymətli təsviri sənət nümunəsidir. "Babaların yolu", "Ağ at", "İpək yolu", "Kənd mənzərəsi" rəsmlərində də rənglər real təsvirləri, dağlar isə məğrurluq və qürurun romantikasını çox dolğun ifadə edən "Kənddə toy" tablosu isə süjetli rəsm əsəri kimi kənd toylarının görünüşünü, ritmini və romantikasını bütün təbiiliyi ilə əks etdirir [3]. Bu Azərbaycan kəndistanının toy ənənəsinin rənglərlə ifadə olunmuş orijinal tablosudur. Eynilə də "Bağda" tablosunu təbiiliyinə görə mahir fotoqrafın çəkdiyi fotodan seçmək çətindir.

Hüseynqulu Əliyevin böyük məharətlə yaratdığı "Göygöl" silsiləsi Azərbaycan təsviri sənətində realist-romantik rəssamlığın nadir nümunələri hesab edilməyə layiqdir. O, real gerçəklikdə təbiətdəki dörd fəslin də gözəlliklərini özündə əks etdirən Naxçıvan Göygölünün

timsalında kətan üzərində bütün rənglərin cazibədarlığını canlandırmağı bacarmışdır. Bu, Hüseynqulu Əliyevin fırçasının uğurlu nümunəsi olmaqdan başqa, ümumiyyətlə, rəng və torpaq ovqatı mənasında Azərbaycan təsviri sənətinin gömgöy, rəngbərəng Göy gölüdür.

Natürmort silsiləsi Hüseynqulu Əliyevin peyzaj rəsmlərinin üzvi tərkib hissəsidir. Natürmort rəsmlərindəki təsvirlər sanki onun çəkdiyi mənzərələrdən seçilib ayrılmış və bir qədər böyüdülmüş tablolardır. Bundan başqa, Hüseynqulu Əliyev natürmort əsərlərində də kompozisiyaya meylli sənətkar missiyasını həyata keçirir. "Dolça ilə natürmort", "Limonla güllər", "Şərab ilə balıq", "Alma ilə yasəmənlər", "Meyvələrlə qızılgüllər", "Küpə ilə natürmort", "Xalça ilə natürmort" və nəhayət, "Venera ilə natürmort" rəsmlərini və s. göstərmək olar. Hüseynqulu Əliyevin yaradıcılığında heykəltəraşlığın da özünəməxsus yeri vardır. Onun müəllifi olduğu "Koroğlu" heykəli milli azadlıq hərəkatı ərəfəsində (1988) Naxçıvan şəhərində ucaldılmış və xalqımızın dövlət müstəqilliyi uğrunda mübarizəsinə ton vermişdir. Hüseynqulu müəllimin yaratdığı böyük demokrat ədib Cəlil Məmmədquluzadənin ədəbiyyatımıza gətirdiyi "kiçik adam"ların – Məhəmmədhəsən əmi, Novruzəli, Usta Zeynal və başqalarının plastik heykəlləri həmin obrazların zahiri görkəmini və mənəvi aləmini aydın surətdə ifadə edir. Naxçıvan şəhərinin Şəhidlər xiyabanında 2014-cü ildə ucaldılan "Ana abidəsi" daşdan yonulmuş portret təsiri bağışlayır. Bu mənada Hüseynqulu Əliyev rəssam heykəltəraş qismində çıxış edir. Azərbaycan teatr rəssamlığının inkişafına da Hüseynqulu Əliyev məsuliyyətlə xidmət edir.

Onun Cəlil Məmmədquluzadənin "Ölülər" və "Dəli yığıncağı" tragikomediyalarına, Hüseyn Cavidin "Şeyx Sənan" və "Xəyyam" faciələrinə, Adil Babayevin "Koroğlunun Çənlibel səfəri" dramına çəkdiyi dekorasiyalar, hazırladığı geyim eskizlərinə baxıb tamaşanı görmədən də səhnəyə çıxarılan əsərin ideya məzmununu başa düşmək mümkündür. Son illərdə Hüseynqulu Əliyev karikatura yaradıcılığı ilə də ardıcıl surətdə məşğul olur. Cəlil Məmmədquluzadənin əsərlərinə çəkilmiş illüstrasiyalarla başlanan karikaturaçılıq genişlənərək "Molla Nəsrəddin" karikatura məktəbi ənənəsinin müasir dövrdəki uğurlu davamına çevrilmişdir. Fikrimcə peyzaj janrında çəkilmiş "Torpaq və adamla" tablosu xalq rəssamı Hüseynqulu Əliyevin sənətinin rənglərini və mahiyyətini tam şəkildə ifadə edən ümumiləşdirilmiş rəsm əsəridir. Naxçıvan diyarının gözəlliklərini ilhamla və istedadla rəsm etmişdir. Rəsm əsərlərində ifadə edilən qürurlu, ilhamlı adamlardan biri də Azərbaycan Respublikasının xalq rəssamı Hüseynqulu Əliyevin özüdür. Heykəltəraşlıq olaraq monumental, dəzgah (büst – portretlər, barelyef – pannolar), monumental – dekorativ heykəltəraşlıq növlərinə müraciət edərək dəyərli sənət nümunələri ərsəyə gətirib. H.Əliyevin heykəltəraşlıq nümunələri Naxçıvan şəhərinin və muxtar respublikanın bir neçə rayonlarının mənzərəli yerlərini bəzəyir, yerləşdiyi məkanın mahiyyətini açıqlayır. Naxçıvanın Koroğlu meydanındakı "Koroğlu" heykəli dinamik kompozisiyası ilə maraq doğurur. Tuncdan tökülmüş monumental abidə xalq qəhrəmanının əzəmətini nümayiş etdirir. Sənətkar Koroğlunu şahə qalxan Qıratın üstündə, döyüş zamanı, qələbə anında təsvir edib.

Şəhidlər xiyabanındakı "Ana abidəsi" professional işlənmə tərzi ilə diqqəti cəlb edir. Əsərdə şəhid övladının məzarını ziyarətə gəlmiş ana təsvir olunub. Onun üzündəki dərin hüznü, kədəri intibah dövrünün məşhur heykəltəraş və rəssamı olan Mikelancelo Bounarattinin "Pyeta" əsərindəki Məryəm ana obrazını psixoloji durumu ilə müqayisə etmək olar. Heykələ baxarkən tamaşaçının gözü qarşısında şəhid analarının ümumilləşdirilmiş obrazı canlanır [5].

ƏDƏBİYYAT

1. Həbibbəyli İ. Professional rəssam və mahir heykəltəraş. "Kaspi" qəz., 2019, 4 fevral.
2. İsmayılova N. Gənc rəssamların rənglər dünyası. "Şərq qapısı" qəz., 2015, 9 sentyabr.
3. Məmmədova L. Azərbaycan rəssamlıq sənətində portret janrının rolu və əhəmiyyəti // NDU-nun Elmi Əsərləri. Naxçıvan: Qeyrət, 2014, s. 169-173.
4. Sadıxova S. Xalq rəssamı Hüseynqulu Əliyev təsviri sənətin müxtəlif sahələrində özünü ustad sənətkar kimi təsdiqləyib. "Mədəniyyət" qəz., 2011, 25 may.
5. Şahbazova F. Hüseynqulu Əliyevin yaradıcılıq fəaliyyəti // NDU-nun Elmi Əsərləri, Naxçıvan: Qeyrət, 2018, s. 145-148.
6. https://az.wikipedia.org/wiki/Hüseynqulu_Əliyev

AMEA Naxçıvan Bölməsi
E-mail: fatma_sahbazova@hotmail.com

Fatma Mammadova

LIFE AND WORKS OF THE ARTIST WHO HAS CONNECTED HIS LIFE WITH NAKHCHIVAN

People's artist of the Republic of Azerbaijan professor Husseingulu Aliyev devoted much of his life to his native land, Nakhchivan. He received his early education in this village. He received his secondary and higher education in Baku. The artist's life and creativity are mentioned in the article. Being an artist is coincidence for him. Realism is prevalent in the main part of his creativity. The basis of Husseingulu Aliyev's works is a description of real life. The artist's attitude to realism is also peculiar. It is observed in many of his works to confront the eternal one with the temporary one. Husseingulu Aliyev is known for his works in various fields of fine art-painting, graphics, sculpture. Husseingulu Aliyev has touched upon the role of the genre of the portrait, as well as the Masters of the portrait in his works. In this genre, artists are known as the great masters of psychological painting, they literally plunge into the inner world of their models, they are anxious for them and create both individual and typical images of our contemporaries. In the portraits of artists, the appearance of a person is almost always displayed by the demonstration of his spiritual world. Portraits of artists are distinguished by their artistic features and psychological depth of images. The artist adds himself, his generosity, and his charity to each portrait. Husseingulu Aliyev has been chairman of the Artists' Union of Nakhchivan for many years. Highly valued artist was honored artist of the Republic of Azerbaijan in 1989 and people's artist of the Republic of Azerbaijan in 2002. He is currently working as a Senior Artist at the Nakhchivan State Musical Drama Theatre, occupant of the chair of NSU and continues his creative work at the studio located in the center of the city.

Keywords: *statuesque monument, portrait, bust, bas-relief, domestic portrait in paintings, landscape, monumental still life, illustration and theatre painting.*

Фатма Мамедова

ЖИЗНЬ И ТВОРЧЕСТВО ХУДОЖНИКА, СВЯЗАВШЕГО СВОЮ ЖИЗНЬ С НАХЧЫВАНОМ

Народный художник Азербайджанской Республики Гусейнкули Алиев большую часть своей жизни посвятил родному Нахчывану. Первоначальное образование он получил в родном селе Бист. Среднее и высшее образование – в городу Баку. В статье говорится о жизни и творчестве художника. Сам он свой приход в искусство называет случайностью. Среди главных направлений его творчества преобладает реализм. Основу произведений Гусейнкули Алиева составляет реальная жизнь. Отношение художника к реализму тоже является специфическим. Во многих его произведениях можно наблюдать сравнение вечного с временным. Гусейнкули Алиев сказал своё слово оригинальными произведениями в многих сферах изобразительного искусства – живописи, графике, скульптуре. В статье также говорится о роли портретного жанра в творчестве Гусйнкули Алиева, а также о портретистах. Художники этого жанра считаются большими мастерами психологического живописи, они будто бы погружаются во внутренний мир своих моделей, беспокоятся за них и создают глубокие индивидуальные, одновременно типичные образы современников. В портретах образ человека всегда выражается через его внутренний мир. Написанные художниками портреты отличаются своеобразными художественными особенностями и психологической глубиной образов. В каждый портрет автор вкладывает свою щедрость, свое доброжелательство. Гусейнкули Алиев долгие годы был председателем Нахчыванского Союза Художников. В 1989-м году он был удостоен звания Заслуженный художник Азербайджанской Республики, а в 2002-м году звания Народного художника. В настоящее время он работает главным художникам в Нахчыванском Государственном музыкально-драматическом театре. Наряду с этим продолжает свою творческую деятельность в своей мастерской, расположенной в центре города.

Ключевые слова: *монументальный памятник, портрет, бюст, барельеф, быт, пейзаж, в жанрах натюрморт, монументальная живопись, иллюстрация, театральная живопись.*

(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: **İlkin variant 01.05.2019**
Son variant 29.08.2019

UOT 78.03

NURAY BƏKTAŞİ

AZƏRBAYCANDA İLK MUSİQİŞÜNAS ŞƏFİYƏDDİN URMƏVİNİN YARADICILIĞI

Məqalədə azərbaycanlı ilk musiqişünas, bəstəkar, mahir ifaçı və pedaqoq Səfiyəddin Urməvinin həyat və yaradıcılığından bəhs olunur. Həmçinin Səfiyəddin Urməvinin böyük nailiyyəti, musiqi elminə gətirdiyi yeniliklər, "Sistemçilik" məktəbinin yaradıcısı, məşhur xəttat, "Ud" musiqi alətinin ifaçısı olması və iki yeni musiqi alətinin – Nüzhə (Əyləncə) və "Müğni" (Səvt verən) yaratması da vurğulanmışdır. Eyni zamanda Səfiyəddin Urməvinin iki məşhur əsərinin ("Risalei-Şərəfiyyə" və "Kitab-əl-Ədvar") Musiqi nəzəriyyəsi məsələlərinin yaranmasında mühüm rol oynaması və onların Şərq musiqi aləmində əsl inqilaba səbəb olması da geniş təhlil edilmişdir. Həmçinin Səfiyyəddin Urməvinin saray işləri ilə bərabər, musiqi ilə məşğuliyyətini davam etdirməsindən, yeri gəldikcə o, yaxın dostlarına "Ud" musiqi alətində ifa etməyin sirrini öyrətməsindən, dostlarından biri olan Bağdadın məşhur xanəndəsi Lizzəh xan öz mahnılarını onun müşayiəti ilə oxumasından bəhs olunmuşdur. Məqalədə eyni zamanda Azərbaycanda Səfiyəddin Urməvinin ənənələrini yaşadan və inkişaf etdirən davamçılarından da söhbət açılmışdır.

Açar sözlər: *Səfiyəddin Urməvi, Üzeyir Hacıbəyli, ifaçı, ud, "Risalei-Şərəfiyyə", "Kitab-əl-Ədvar".*

Qədim Şərq ənənələrinə görə, dövlətin nüfuzu, qüdrəti həm də onun musiqi mədəniyyəti ilə müəyyən olunurdu. Buna görə də dövlət xadimləri bu sahəyə xüsusi diqqət yetirirdilər. Bu ənənəyə hər zaman sadiq qalan Azərbaycan da ta qədimdən kamil musiqiçilərin vətəninə çevrilmiş, dünya mədəniyyətinə qiymətli töhfələr vermiş və görkəmli musiqiçilər bəxş etmişdir. Bu mənada Orta əsr Şərqində ən böyük musiqiçi və musiqişünasın kim olması barədə sual ortaya çıxır. Azərbaycan musiqi tarixində Şərq musiqi sistemini yaratmış musiqişünas, musiqi nəzəriyyəsinin bilicisi, bəstəkar, mahir ifaçı və pedaqoq Səfiyəddin Urməvinin adı hörmətlə çəkilir.

Qeyd edək ki, Urməvinin anadan olduğu tarix və yer böyük mübahisələrə səbəb olmuşdur. Adil əl-Bəkri Səfiyəddin Urməvinin anadan olduğu ili 1215, anadan olduğu yeri isə Bağdad, digər bir çox mənbələrdə 1216 və 1217-ci il göstərilir. Bir çox tədqiqatçılar Səfiyəddin Urməvini fars musiqiçisi və etnik cəhətdən də fars adlandırırlar [6, s. 227-229]. Musiqiçi alimin etnik mənşəyi ilə bağlı isə ən dəqiq məlumata ərəb alimi Abbas al-Azzavinin İraq ərazisindəki türkman musiqiçilərinə də yer verdiyi "Al-Musika-i Iraqiyye fiahtil – Mogul ve "Turkman" əsərində rast gəlinir. O, bu əsərdə Səfiyəddin Urməvinin adını türkman mənşəli musiqiçilərin adları ilə birlikdə çəkir [1, s. 22-34]. Bəzi tədqiqatçılar isə onu ərəb mənşəli hesab etsələr də fars mənşəli olmasını da inkar etmir. Lakin ən dəqiq məlumatlar elə ərəbdilli əsərlərdə qorunub saxlanılmışdır. Görkəmli ərəb alimi Hüsnü el-Hariri özünün "Al-Mevsuatü'l-Arabiyyə" adlı əsərində Səfiyəddin Urməvinin Azərbaycandan olduğunu yazır [7, s. 943-944]. Azərbaycan bəstəkarı və alimi Əfrasiyab Bədəlbəyli özünün maraqlı faktlarla zəngin olan "İzahlı monoqrafik lüğət" adlı əsərində Səfiyəddin Urməvinin həyat və yaradıcılığına böyük yer vermişdir. Bədəlbəyli nədənsə Urməvinin anadan olduğu ili 1230-cu il, anadan olduğu yeri Urmiya göstərmişdir [3, s. 8]. Urmiya şəhərində doğulduğunu və nəslinin bu şəhərdə yaşadığını bildirmək üçün Urməvi soyadını götürmüşdür [12].

Bizim fikrimizə görə Şərq dünyasının ən məşhur musiqiçi və musiqişünaslarından sayılan Səfi-əd-Din Əbdülmömin ibn Yusif ibn Faxir Urməvi Azərbaycanın qədim mədəniyyət

mərkəzi Urmiya şəhərində 1217-cı ildə anadan olmuşdur. Çünki, yuxarıda adları çəkilən müəlliflərin: Hüsnü el-Hariri, Əfrasiyab Bədəlbəyli və Əli Şamilin verdiyi məlumatlar da bizim fikrimizlə üst-üstə düşür. Gənc Urməvi musiqinin ecazkar gücünü, elmi hikmətini ilk bu torpaqda duyub. Təhsilini Urmiyada alan Səfiyəddin Urməvi burada da mədrəsəyə gedir və mədrəsədə oxuduğu dövrdə musiqinin əsasları ilə tanış olur. Burada o, bir neçə musiqi alətində çalmağı öyrənir. Lakin onun ən çox sevdiyi musiqi aləti ud olmuşdur. Ud çalmaq məharəti ilə müsəlman Şərqində məşhurlaşmışdır**.** Urmiyada mədrəsədə təhsilini bitirdikdən sonra Səfiyəddin Urməvi Bağdada köçərək bu şəhərdə təhsilini davam etdirmək qərarına gəlir. O dövrdə bütün Yaxın və Orta Şərqin elm və mədəniyyət mərkəzi sayılan Bağdad şəhərində müsəlman dünyasının ən görkəmli şəxsiyyətləri fəaliyyət göstərirdi. Bağdada gələn Səfiyəddin Urməvi dövrün ən məşhur universiteti sayılan "Müstənsəriyyə"də təhsilini davam etdirir. O, burada fəlsəfə, məntiq, tibb, astronomiya elmlərinə yiyələnir və müxtəlif dilləri mükəmməl öyrənir. Musiqi sənətini öyrənməkdə davam edən Səfiyəddin Urməvi xəttatlıqla da məşğul olur və böyük uğur qazanır. Həsən əl-Erbili yazırdı ki, "Mən onunla Təbriz şəhərində rastlaşdım və o, özü haqqında mənə belə dedi: Hələ uşaqkən Bağdada gəlmiş və "Müstənsəriyyə" universitetinə daxil olmuşam. Orada mühazirələr dinləmiş, ərəb dili və ədəbiyyatla məşğul olmuş, kamil xəttat kimi yetişmişəm. Özümü indi xəttatlıqda daha qabil hesab edirəm" [2]. Əvvəlcə o, musiqi sahəsində deyil, xəttat kimi şöhrət tapır və qısa müddət ərzində Bağdad xilafətinin dövlət başçısı xəlifə Əl-Müstəsimin saray katibliyinə dəvət alır və burada çalışmağa başlayır, saray kitabxanasının rəhbəri və baş xəttat təyin olunur. Akademik Teymur Bünyadov "Əsrlərin izi ilə" kitabında yazır ki, Səfiyəddin mədrəsədə təhsil aldığı illərdə özünün gözəl və aydın dəst-xətti ilə də hamını heyran qoyur [11]. Kitabların üzünü köçürmək və kitabxana rəhbərliyi Səfiyəddini musiqi təhsilini davam etdirməkdən yayındırmır, əksinə zəngin kitab xəzinəsində öz biliyini artırır. Saray işləri ilə bərabər o, musiqi ilə məşğuliyyətini davam etdirirdi. İmkan düşdükcə udda məşq edən Səfiyəddin təkcə yaxın dostlarına sirrini açmışdı. Dostlarından biri, Bağdadın məşhur xanəndəsi Lizzəh xan məşqlər zamanı öz mahnılarını Səfiyəddin Urməvinin müşayiəti ilə oxuyurdu. Onun sarayda çıxış etmək təklifini Səfiyəddin qəbul etmir və özünün peşəkar musiqiçi olmadığını bildirirdi. Bununla bərabər, Səfiyəddin bir neçə məşhur şeirə mahnı bəstələmişdi ki, onları da Lizzəh xan məmnuniyyətlə ifa edirdi. Lizzəh xan bir gün saraydakı məclisdə gözəl bir mahnı oxuyur. Xəlifə təəccüblə bu gözəl musiqini heç vaxt eşitmədiyini bildirir və onun müəllifi ilə maraqlanır. Xanəndə saray kitabxanasında xəttat işləyən Səfiyəddinlə olduğunu, onunla tez-tez görüşdüyündən, ondan musiqi dərsi aldığını söyləyir. Bundan sonra xəlifə Səfiyəddinin daim saray konsertlərində çıxış etməsini xahiş edir. Əksər tədbirlərdə ud ifaçısı kimi çıxış edən Səfiyəddin Urməvinin Ud çalmaq qabiliyyətindən Bağdadda rəvayətlər danışılırdı. Rəvayətlərin birinə görə, 40 gün susuz qalmış dəvə su hovuzundan su içməyə başlayanda Səfiyəddinin ud çaldığını eşitmiş və su içməyini dayandırmışdır. Hər dəfə musiqi dayananda dəvə su içir, musiqi səslənəndə isə diqqətlə qulaq asırdı. Musiqi bitəndən sonra dəvənin gözləri yaşlarmış. Digər bir rəvayətə görə, bir dəfə bağda Səfiyəddin şagirdlərinə ud çalmağı öyrədəndə budaqların birinə bülbül qonur və başlayır ud ifasına qulaq asmağa. İfa o dərəcədə onun xoşuna gəlir ki, bülbül qonur Səfiyəddinin yanına və onun müşayiəti ilə öz quş dilində mahnısını ifa edir. Çoxsaylı tələbələri olan Səfiyəddin qısa müddət ərzində kamil müəllim kimi məşhurlaşır [9, s. 30-31]. Dövrün bir çox musiqişünasları onun tələbələri olmuşlar. XIII əsrin sonu-XIV əsrin əvvəllərində fəaliyyət göstərmiş görkəmli Azərbaycan musiqişünası Əbdülqadir Marağai özünün "Məqasidül-əlhan" (Melodiyaların məqsədi) əsərində yazırdı ki, Əbdülmömin Səfiyəddin Urməvi bir çox görkəmli şəxsiyyətlərin müəllimi olmuşdur. Bunların arasında məşhur musiqiçilər

Şəms əd-Din Sührəvərdi, Əli Sitan, Həsən Zəfər, Hüsam əd-Din Qutluq Buğa və başqalarının adları çəkilir [8, s. 8].

Professor Zemfira Səfərova yazır ki, Səfiyəddin Urməvi iki yeni musiqi aləti yaratmışdı ki, onlar da udun təkmilləşdirilmiş variantları idi. "Nüzhə" (Əyləncə) musiqi aləti dördbucaq formada söyüd və sərv ağacından düzəldilmiş, gövdə və üzərinə taxılmış 81 simdən ibarət idi. Müasir arfa və kanona bənzəyirdi. Sırf muğam ifaları üçün nəzərdə tutulmuş ikinci "Müğni" (Sövt verən) musiqi aləti isə müasir rübaba bənzəyirdi və 33 simdən ibarət idi, lakin onun gövdəsi böyük idi və ərik ağacından düzəldilmişdi [9, s. 32-33].

Bütün bu söylənənlər Urməvinin təkcə ifaçılıq istedadını deyil, həm də ölməz sənətkarlıq ustalığının nəticəsidir. Urməvinin musiqişünaslıq fəaliyyəti hələ yetərincə tədqiq olunmayıb. Çox güman ki, Urməvinin musiqi nəzəriyyəsinə dair dəyərli əsərləri olub. Lakin hələlik onun iki məşhur əsəri bizə məlumdur. Onlardan biri "Risalei-Şərəfiyyə"(Musiqidə nisbətlər haqqında risalə) adlanır. Bu Urməvinin ilk musiqi əsəri kimi qəbul olunub. Səfiyəddinin ikinci əsəri isə "Kitab-əl-Ədvar" (Dövrlər kitabı)adı ilə məşhurdur.

Səfiyəddin Urməvi 1252-ci ildə "Kitab-əl-Ədvar" adlanan musiqi risaləsini tamamlayır. Əsər ərəb dilində yazılmış və on beş fəsildən ibarətdir. Musiqi nəzəriyyəsi məsələlərinin işıqlandırılmasına həsr olunmuş əsər Şərqdə musiqi aləmində əsl inqilaba səbəb oldu. İngilis alim Henri Corc Farmerin fikrincə, Şərq musiqisinin sistemini məhz Səfiyəddin Urməvi bu əsərində yaradıb [4, s. 65]. XIX əsrin ortalarınadək bütün ərəb, fars, türk dünyasının musiqişünas müəllifləri onun davamçıları olaraq Urməvinin yaratdığı sistemi tətbiq edirdilər. Bu alimlərdən biz Məhəmməd Curcani, Əbdülqadir Marağai, Qütbəddin Şirazi, Əbdürrəhman Cami, Mir Möhsün Nəvvab və XX əsrdə böyük alim və bəstəkar Üzeyir Hacıbəylini göstərə bilərik. Əsərin dəfələrlə üzü köçürüldüyündən onun nüsxələrinə dünyanın bütün yerlərində rast gəlmək olar. Əsərin ən zəngin tərtib edilmiş əlyazmaları London, İstanbul, Sankt-Peterburq və Nyu-Yorkun muzey və kitabxanalarında saxlanılır. Kitabın birinci fəsillərində müəllif Şərq musiqisinin qanunlarından xəbər verir, qısa tarixçəsini açıqlayır. Kitabın doqquzuncu fəslində Səfiyəddin Urməvi muğamlar barəsində məlumat verir. O, on iki muğamın adını çəkir və onları təsvir edir. Bunların sırasında "Üşşaq", "Nəva", "Əbu Salik" (Busalik), "Rast", "İraq", "İsfahani", "Zirafkənd", "Buzurq", "Zəngulə", "Rəhavi", "Hüseyni" və "Hicaz" muğamları xüsusi qeyd olunur. Əsərin on bir və on ikinci fəsillərində öz sevimli udunu təsvir edir. Musiqinin notlar vasitəsilə yazılmasına həsr olunan on beşinci fəsil kitabın ən vacib və orijinal fəslidir, musiqişünaslar üçün xüsusilə maraqlıdır.

Səfiyəddin Urməvi Şərq musiqisinin, ilk növbədə muğamların xüsusiyyətlərini nəzərə alaraq hərf-rəqəm notlar sistemini təklif etmişdir. "Əbcəd notuyla" musiqinin ən qədim melodiyalarını risalələrində yazıb yaşada bilmişdir. Ondan sonra gələn alimlər, ta XVI əsrə qədər bu not yazı sistemindən geniş istifadə etmişlər [13, s. 313]. Ərəblərə məxsus "Əbcəd" sisteminin tətbiq edilməsi hərflər səslərin yüksəkliyini, rəqəmlər isə uzunluğunu göstərirdi. Bu məqsədlə həmçinin müəyyən işarələrdən T, C, B hərflərdən istifadə olunurdu. Ladların adı, melodiyanın quruluşu rəqəmlərlə qeydə alınmışdı. Müasir Qərb not sistemi yarımtonlardan olan kiçik intervalların yazıya alınması və muğamın açıq duyulmayan, "gizli" səslərini ifa etməyə imkan vermir, Urməvinin sistemi isə buna imkan verirdi və məhz buna görə XIX əsrin sonlarına qədər tətbiq edilirdi.

Səfiyəddin Urməvinin əsərləri Şərq musiqi nəzəriyyəsinin inkişafında yeni dövr idi. O, musiqi elminə "Sistemçilik" məktəbinin yaradıcısı kimi də daxil olmuşdur. İngilis alimi Henri

Corc Farmer isə Səfiyəddini parlayan ulduzla müqayisə edib, onu "Sistemçilik məktəbinin" banisi adlandırmışdır [9, s. 40].

Urməvinin böyük nailiyyəti, ümumən Şərqin səs sisteminin qaydaya salınmasından ibarət olmuşdur. Onun "sistemi"nin əsasını təşkil edən on yeddi pilləli qamma əl Kindinin 12 tonlu xromatik qammasından, həm də əl-Fərabinin 22 tonlu qammasından fərqlənirdi. O, Şərq musiqisinin 12 muğam dairəsinin və 6 avazının səs qatarını diatonik qammanın çərçivəsində vermişdir.

Avropanın iki məşhur musiqişünası Rodolf D'Erlanje və Henri Corc Farmer bir-birlərindən xəbərsiz olaraq Urməvinin bir rübai üzərindəki not yazısını müasir not yazısına köçürmüş, yeddi yüz ildən bəri susan melodiyaları yenidən səslənmişdilər. Artıq VII-VIII əsrdir ki, Şərqin və Qərbin bir sıra alimləri böyük musiqişünas Səfiyəddin Urməvinin "Kitab-əl-Ədvar", eləcə də "Risalei-Şərəfiyyə" risaləsində verilən çox qiymətli, alimin özünün böyük həvəslə qeyd etdiyi "bir sıra şeylərə vaqif olurlar" və Urməvinin ölməz ənənələrini davam etdirirlər.

Məşhur Avropa alimi Rafael Georq Gizevetter Urməvini "Şərqin Zarlinosu" adlandırmış, böyük İngilis alimi Çarlz Hubert Pari Səfiyəddinin cədvəlini o vaxta qədər yaranmış cədvəllərin ən mükəmməli hesab etmişdir [10].

VII əsr sonra Üzeyir Hacıbəyli özünün "Azərbaycan xalq musiqisinin əsasları" kitabında yazırdı: "Yaxın Şərq xalqları musiqisinin nəzəri və əməli inkişafı tarixində başlıca yeri dünyada məşhur olan iki nəfər Azərbaycan alimi, nəzəriyyəçi, musiqişünas tutur: Səfiyəddin Ədbülmömin ibn Yusif əl-Urməvi (XIII əsr) və Əbdülqadir Marağai (XIV əsr)" [5, s. 14] . Üzeyir Hacıbəyli öz əsəri üzərində işləyərkən böyük miqdarda kitablar arasında məhz "Kitab-əl-Ədvar" ın xüsusi əhəmiyyət kəsb etdiyini seçmiş, əsərin foto surətini Nurosmaniyə kitabxanasından gətirdib araşdırmışdır. Məncə Üzeyir Hacıbəylinin yazdığı "Azərbaycan xalq musiqisinin əsasları" əsəri quruluşuna, üslubuna görə "Kitab-əl-Ədvar"a çox yaxındır. Xüsusilə də, böyük bəstəkar lad sistemini müasir Azərbaycan musiqi elminin tələblərinə cavab verən səviyyədə davam etdirmişdir. Ona görə də "Azərbaycan xalq musiqisinin əsasları"nı yeni dövrün risaləsi adlandırırlar.

Ümumiyyətlə, "Kitab-əl-Ədvar" və "Azərbaycan xalq musiqisinin əsasları" elmi əsərlərini tədqiq və təhlil etdikdə onlar arasında oxşarlıq olduğunu görürük. Hər iki əsərin – "Kitab-əl-Ədvar" və "Azərbaycan xalq musiqisinin əsasları" nın birinci fəsli səsə, onun əsas xüsusiyyətlərinə həsr edilir. Qeyd etmək lazımdır ki, Urməvinin elə "Şərəfiyyə" risaləsinin də ilk fəsli səsə həsr olunmuşdur. "Kitab-əl-Ədvar" da "Nəğamə" terminini səs və ton mənasında işlədərək onun müəyyən vaxt ərzində hansısa zillik və bəmlik səviyyəsində davam edən səs olduğunu və ona təbii meyl duyulduğunu göstərmişdir. Hər tonun zillik və bəmlik cəhətdən öz ekvivalenti vardır. Urməvi göstərirdi ki, "nəğamə"ni yalnız başqasıyla müqayisə etdikdə onun yüksəkliyi və aşağı olması barədə danışmaq olar. Həm də zil və bəm səslərin səbəblərini alim gərilmiş və ya gərilməmiş uzun, yoğun və ya qısa, nazik simlərlə bağlayırdı. Urməvi səsin musiqi və fiziki xüsusiyyətlərini şərh etmiş və bu barədə daha geniş "Şərəfiyyə" risaləsində danışmışdır. Üzeyir Hacıbəyli isə kitabının "Səs sistemi" hissəsində yazırdı ki, musiqişünasların rəyinə görə Şərq musiqisində (Azərbaycan musiqisi də buraya daxildir) bütöv və yarım tondan başqa 1/3 və 1/4 ton da vardır. Lakin o, qeyd edirdi ki, bu iddia ən kiçik intervalı yarım ton olan Azərbaycan xalq musiqisinə aid ola bilməz. Avropa musiqisində olduğu kimi, Azərbaycan musiqisində də oktava 7 diatonik və 12 xromatik pərdədən ibarətdir. Fərq ancaq temperasiya məsələsindədir.

Deməli, Azərbaycanda Səfiyəddin Urməvinin ənənələrini yaşadan və inkişaf etdirən davamçısı Üzeyir Hacıbəyli olmuşdur. Üzeyir Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları" əsərinin "Tarixi məlumat" hissəsində yazırdı: "Yaxın Şərq xalqlarının musiqi mədəniyyəti XIV əsrə doğru özünün yüksək səviyyəsinə çatmış və on iki sütunlu, altı bürclü "bina" (dəstgah) şəklində iftixarla ucalmış və onun zirvəsindən dünyanın bütün dörd tərəfi: Əndəlisdən Çinə və Orta Afrikadan Qafqaza qədər geniş bir mənzərə görünmüşdür… Musiqi binasının möhkəm təməlini təşkil edən 12 sütun 12 əsas muğamı və 6 bürc isə 6 avazatı təmsil edirdi" [5, s. 14].

Təqdir olunmalı cəhətdir ki, "Ünlü türk musiqiçisi Şükrulla Əhmədoğlu XV əsrdə Səfiyəddin Urməvinin "Kitab-əl-Ədvar" əsərini türk dilinə çevirmişdir. Sonra bu kitab fransız dilinə də çevrilmişdir [14].

Böyük sənətkar 1294-cü ildə Bağdaddakı borclular həbsxanasında dünyasını dəyişmişdir. Ondan sonra gələn Yaxın Şərq musiqişünasları Səfiyəddin Urməvinin nəzəriyyəsinin davamçısı olmuş, Avropa musiqiçiləri isə görkəmli musiqişünasın əsərlərindən yararlanmaqla yanaşı, onun nota köçürdüyü qədim musiqiləri səsləndirirlər.

ƏDƏBİYYAT

1. Abbas al-Azzavi. Al-Musika-i Iraqiyye fiahtil – Mogul ve-t Turkman. Bağdad, 1951, 346 s.
2. Bayramov N. Səfiəddin Urməvi haqqında araşdırma. "Ədəbiyyat və incəsənət" qəz., 1980, 5 sentyabr.
3. Bədəlbəyli Ə. // Elm və həyat, 1964, № 7.
4. Əhmədov S. Azərbaycan tarixindən yüz şəxsiyyət. Bakı: Ayna Mətbu Evi, 2006, 359 s.
5. Hacıbəyli Ü. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, 1989, 117 s.
6. Farmer H.C. Ərəb musiqisinin tarixi. London. 1929, 666 s.
7. Hüsnü el-Hariri. Al-Mevsuatü'l-Arabiyyə. 1 c., Dəməşq, 1998, 1056 s.
8. Marağai Ə. Məqasidül-əlhan. Tehran, 1968, 280 s.
9. Səfərova Z. Azərbaycanın musiqi elmi. Bakı: Azərnəşr, 2006, 544 s.
10. Səfərova Z. Səfiyəddin Urməvi və Üzeyir Hacıbəyov // Musiqi dünyası, 2005, № 1.
11. Sultanova M. Səfiyəddin Urməvi fenomeni. "Mədəniyyət" qəz., 2012, 18 yanvar.
12. Şamil Ə. Məşhur musiqiçi, musiqi tarixçisi Səfiyəddin Urməvi // Türk dünyasının məşhurları, 2010, № 16, 24 may.
13. Tərbiyyət M. Danişməndani-Azərbaycan. Bakı: Azərnəşr, 1987, 434 s.
14. https://az.wikipedia.org/wiki/Səfiəddin_Urməvi.

AMEA Naxçıvan Bölməsi
E-mail: bektashi.nuray@gmail.com

Nuray Bektashi

CREATIVE WORK OF SAFI AL-DIN AL-URMAWI, THE FIRST MUSICOLOGIST OF AZERBAIJAN

The article is about the life and creativity of Safiyaddin Urmavi, the first Azerbaijani musician, composer, skillful performer and pedagogue. It is also emphasized Safi al-Din al-

Urmawi's great success, his music innovations, being a creator of "Sistemcilik" school, famous calligrapher, excellent lute (Ud) player and creating two new musical instruments – Nuzha (Entertainment) and "Mugni" (Archulate). At the same time it is widely analyzed that, two famous works ("Risāla al-Sharafiyya" and "Kitab-al-Adwar") of Safi al-Din al-Urmawi played an important role in the formation of the music theory and they were real revolution in the Eastern musical world. It was also mentioned that Safi al-Din al-Urmawi both engaged in palace and continued his musical activity, he taught his close friends the secret of playing in the musical instrument "Lute" (Ud) and Lizzah Khan, one of his friends, who was a famous singer of Baghdad, sang his songs with him. At the same time it was noted Safi al-Din al-Urmawi's followers who preserved and developed his traditions in Azerbaijan.

Keywords: *Safi al-Din al-Urmawi, Uzayir Hajibayli, player, lute (ud), "Risāla al-Sharafiyya", "Kitab-al-Adwar".*

Нурай Бекташи

ТВОРЧЕСТВО САФИАДДИНА УРМАВИ, ПЕРВОГО МУЗЫКОВЕДА В АЗЕРБАЙДЖАНЕ

В статье рассматривается жизнь и творчество первого азербайджанского музыковеда, композитора, талантливого певца и педагога Сафиаддина Урмави. В ней также подчеркнуты великие достижения и инновации в области музыкальной науки Сафиаддина Урмави, создателя Системной школы, известного каллиграфа, исполнителя музыкального инструмента «уд» и создателя двух новых музыкальных инструментов «Нузха» (Развлечение) и «Мугни» (дающий звук) . В то же время две знаменитые работы Сафиаддина Урмави («Рисалей-Шарафия» и «Книга-аль-Адвар») сыграли важную роль в создании вопросов теории музыки и привели к подлинной революции в восточном музыкальном мире. Кроме того, Сафиаддин Урмави, наряду со своей дворцовой работой, продолжил свою музыкальную карьеру, он учил своих друзей секрету игры на музыкальном инструменте уд. Рассказывается, что известный певец Багдада Лиззах Хан исполнял свои песни в его сопровождении. В статье также говорится о последователях, которые сохраняют и развивают традиции Сафиаддина Урмави в Азербайджане.

Ключевые слова: *Сафиаддин Урмави, Узеир Гаджибейли, исполнитель, уд, «Рисалеи-Шарафийя», «Книга аль-Адвар».*

(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 18.06.2019
Son variant 28.08.2019

UOT 7.067:316.37

FƏRİDƏ ƏHMƏDOVA

XALQ RƏSSAMI HÜSEYNQULU ƏLİYEVİN RƏNGKARLIQ ƏSƏRLƏRİNDƏ JANR MÜXTƏLİFLİYİ

Xalq Rəssamı Hüseynqulu Əli oğlu Əliyevin yaradıcılıq yolu tədqiqi göstərir ki, o, fərqli janrda işlənmiş və müxtəlif mövzulara həsr olunmuş minlərlə əsərin müəllifidir. Naxçıvanda yaşayıb yaradan rəssamın gözəl rəng koloritinə məxsus rəngkarlıq əsərləri özünəməxsus üslub xüsusiyyəti ilə seçilmişdir. Rəssamın rəngkarlıq sahəsindəki yaradıcılıq fəaliyyətinə nəzər saldıqda isə boyakarlığın bütün janrlarına müraciət etdiyini görürük. Boyakarlıq və qrafika janrlarında – natürmort, mənzərə, portret, tematik şəkil və s. janrlarda əvəzolunmaz əsərlər yaratmışdır. Portret və mənzərələri digər janrlarda çəkilmiş əsərlərdən sayca üstünlük təşkil edir. Naxçıvan diyarında təsviri incəsənətin inkişafına verdiyi töhfələri ilə diqqət çəkən rəssamın yaradıcılıq yolu çoxşaxəlidir. Məhsuldar yaradıcılıq fəaliyyətinə malik rəssam çoxsaylı sərgilərin iştirakçısı olmuş, nəinki muxtar respublikamızı, həmçinin Azərbaycanı da xarici ölkələrdə təmsil etmişdir. Müxtəlif yaradıcılıq mükafatlarına layiq görülən rəssam 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar Rəssamı, 1999-cu ildə Azərbaycan Respublikasının Əməkdar rəssamı, 2002-ci ildə Xalq Rəssamı fəxri adları ilə təltif olunmuşdur.

Açar sözlər: *Naxçıvan, Hüseynqulu Əliyev, rəssam, yaradıcılıq, boyakarlıq, qrafika, natürmort, mənzərə, portret, janr.*

Azərbaycan Respublikasının Xalq rəssamı, Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rəssamı, professor Hüseynqulu Əli oğlu Əliyev Naxçıvanda yaşayıb yaradan gözəl rəng koloritinə məxsus rəngkarlıq əsərləri, möhtəşəm heykəltəraşlıq abidələri və yaddaqalan tamaşa eskizləri ilə müasir təsviri incəsənətimizdə özünəməxsus yer tutan ustad sənətkarlarımızdandır.

Hüseynqulu Əliyev 3 fevral 1949-cu ildə Ordubad rayonunun Bist kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1971-1975-ci illərdə Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbində təhsil almışdır. Naxçıvana qayıtdıqdan sonra Rəssamlar İttifaqının bədii fond müdiri vəzifəsində işləmişdir. Hüseynqulu Əliyev ali təhsilini davam etdirmək üçün 1977-ci ildə Mirzəağa Əliyev adına İncəsənət İnstitutuna qəbul olur. Bununla yanaşı Hüseynqulu Əliyev təhsil aldığı müddətdə (1977-1982-ci illər) "Sevil" kino-teatrında baş rəssam işləmişdir. Onun buradakı fəaliyyəti gələcəyin teatr rəssamı üçün böyük təcrübə idi. İnstitutu bitirdikdən sonra Hüseynqulu Əliyev Naxçıvana qayıdır və burada öz yaradıcılığını davam etdirir. O, 1982-ci ildə Naxçıvan Dövlət Rəsm Qalereyasında fond müdiri, 1989-cu ildən isə Naxçıvan Musiqili Dram Teatrında baş rəssam vəzifəsində çalışır [1, s. 5].

Rəssam öz yaradıcılığı ilə təsviri incəsənətimizin inkişafındakı göstərdiyi fəaliyyəti dövlət rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib. Belə ki, 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, 1999-cu ildə Azərbaycan Respublikasının Əməkdar rəssamı, 2002-ci ildə Xalq rəssamı fəxri adları ilə təltif olunmuşdur [2, s. 5].

Naxçıvanlı rəssam 2000-2011-ci illərdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri olmuşdur. Sədrlik etdiyi bu 11 il müddətində naxçıvanlı rəssamların əsərlərindən ibarət qarışıq və fərdi sərgiləri təşkil etmiş, respublikada və ölkədən kənarda keçirilən müxtəlif sərgi və müsabiqələrdə onların əsərlərinin iştirakını təşkil etmişdir [3, s. 1].

Hələ tələbə ikən Bakıda və bir çox ölkələrdə, Ukraynanın Kiyev, Xarkov şəhərlərində, Moskvada, Tiflisdə, sonralar isə Türkiyənin Ankara, Bursa, İstanbul, Qars, İqdır şəhərlərində,

İranda Xoy, Mahadan, Urmiya, Təbriz şəhərlərində, Türkmənistanda keçirilən sərgilərdə iştirak edən rəssamın rəngkarlıq sahəsindəki yaradıcılıq fəaliyyətinə nəzər saldıqda, onun demək olar ki, boyakarlığın bütün janrlarına müraciət etdiyinin şahidi oluruq. H.Əliyevi boyakarlıq və qrafika janrlarında – natürmort, mənzərə, portret və tematik şəkil janrında əvəzolunmaz əsərlər yaratmışdır. Portret və mənzərələri digər janrlarda çəkilmiş əsərlərdən sayca üstünlük təşkil edir. Onun özünəməxsus rəng koloriti, üslub xüsusiyyəti ilə seçilən rəngkarlıq nümunələri realist üslubda çəkilmişdir. Lakin, onun abstrakt üslubda çəkilmiş kompozisiyalarının da ideya, forma və rəng baxımından da öz yeri vardır. Onun portretlərindən "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun portreti", "Ümummilli lider Heydər Əliyevin portreti", "Çiçəklənən Azərbaycan", "Zərifə xanım Əliyeva", "Mənim Leylam", "Avtoportret", "Qardaşımın portreti", "Mənim dostlarım", "Bahar", "Rəssam Telman Abdinovun portreti" və s. əsərlərinin adını çəkmək olar. Rəssam portret əsərlərində konkret şəxslərin xarici oxşayışı və fərdi bənzəyiş əlamətlərini mühafizə edə bilmişdir [4]. Yaradıcılığında həm təntənəli, həm də kameral portretlər üstünlük təşkil edir. Ümumiyyətlə portret janrı rəssamlıq sənətinin mühüm janrlarındandır. Çünki portret əsərinin məzmununu insan surəti təşkil edir. Konkret adamın təsviri vasitəsilə rəssam öz müasirlərinin ən tipik və səciyyəvi xüsusiyyətlərini ümumiləşdirir. Portret əsərinin böyük ictimai və tərbiyəvi əhəmiyyəti vardır. Öz fəaliyyəti ilə xalqın rəğbətini qazanan görkəmli xadimlərin portretləri onların şəxsiyyəti və fəaliyyəti haqqında gələcək nəsillərdə canlı təsəvvür yaradır. Portret əsərləri təkcə görkəmli simalarda deyil, eyni zamanda müəllifi əhatə edən, onu maraqlandıran adamlara da həsr olunur. Hər hansı bir portretdə biz insanın təkraredilməz fərdi xassələri, sifətinin ifadəsi və cizgiləri vasitəsilə onun həyat tərzini, ictimai mühitdə tutduğu mövqeyini anlaya bilirik. Mənzərələrindən "Ordubad gölü", "Naxçıvan dağları", "İlan dağ", "Payız" kompozisiyalarından "Toy", "Yaranış", "Soyqırım", "Çağırış" və s. əsərləri, natürmortlardan "Yasəmənlər", "İnsan gözəlliyi incəsənətdə", "Çiçəklər" və s. əsərləri rəng, forma və ideya cəhətdən diqqətəlayiqdir. Onu da qeyd etmək olar ki, rəssamın yaradıcılığında dərin və konkret məna ifadə edən karikaturalara da rast gəlinir [5].

Hər bir rəssam kimi H.Əliyev də öz yaradıcılığında avtoportretə müraciət etmişdir. "Avtoportret" tablosununda rəssam özünü göy, qırmızı, ağ kontrast rəngli paltarda təsvir etmişdir. Kompozisiyada avtoportret sağ tərəfə doğru çəkilmişdir. Şəkilin sol tərəfindəki boşluqda çılpaq qadın fiquru çərçivəli tablo içində çəkilmişdir.

Rəssamlar əsərlərin bədii-emosional qüvvəsini artırmaq üçün ən güclü vasitə koloritdən istifadə edirlər. Məşhur rus rəssamı Repin koloriti musiqidə olan akkorda bənzətmişdir. Rəssamın bütün tablolarında koloritdən məharətlə istifadə edilmişdir. Şəkilin koloriti isti və soyuq rənglərin kontrastlığından ibarətdir. İsti və soyuq tonların həllinə görə iki hissəyə bölünmüşdür. Sol tərəfi əhatə edən isti rənglər sarı, qəhvəyi, qırmızıdır. Sağ tərəfin rənglərində daha çox göy rəngdən istifadə olunmuşdur. "Avtoportret" işlənmə üsuluna görə monumentallığı xatırladır. Əsər dəzgah boyakarlığı nümunəsidir. Ön planda təsvir edilmiş avtoportret profildən çəkilmişdir. Tabloda rəssam emalatxanadakı nyu janrında çəkdiyi tablosunun önündə duraraq özünün portret cizgilərini təsvir etmişdir. Əsərin sağ aşağı küncündə şəxsi imzasını vermişdir. Portret əsərində insanın başı, sifəti, yaxud döşə qədər və ayaqüstü fiqurası göstərilir. Konkret şəxsləri tək və ya ikilikdə təsvir edən portretlərlə bərabər, bir neçə şəxsin birgə portreti də mövcuddur. Avtoportret əsərləri içində "Mənim ailəm" tablosu bu cəhətdən maraqlı əsərlərindəndir. 1983-cü ildə işlənmiş əsər interyer fonunda təsvir edilmişdir. Yuxarı perspektivdən

çəkilmiş əsərdə həm xətti perspektiv, həm də fəza perspektivi mükəmməl həll olunmuşdur. Mürəkkəb kompozisiyalı əsərdə ailənin sakit, adi günlərindən biri əks olunmuşdur. Ailə üzvlərinin hər biri öz dünyasında düşüncəli, fikirli təsvir olunublar. Bir tərəfdən psixoloji əsər kimi də heyrətamizdir. Kompozisiyanın ön planında rəssam öz qızını təsvir edib. Tünd göy rəngli don geyinmiş qızı ailə üçün isti çay aparır. Kompozisiyanın ikinci planında masa arxasında rəssam özünü və ömür-gün yoldaşını təsvir etmişdir. Kiçik oğul övladını isə masanın üzərində təsvir etmişdir. Özünü ikinci planda təsvir edən rəssam qayğılı fikirlərlə ailənin başı üzərində dayanmışdır. Kompozisiyanın üçüncü planında interyerin divarları və divardan asılmış fotoşəkil verilmişdir. Fotoşəkildə ağsaqqal və ağbirçəyin fotoları verilmişdir. Əsərin koloritində daha çox soyuq rəng çalarları üstünlük təşkil edir. Yalnız otağın döşəməsi sarı və masa qırmızı oxra ilə boyanmışdır. Əsərin qalan elementləri, hissələri soyuq rəng çalarları ilə boyanmışdır. Baxmayaraq rəssamın paltarı isti qəhvəyidir, amma fonun təsirindən soyuqlaşmışdır. Əsər yağlı boya ilə kətan üzərində işlənmişdir. Əsərdə boyakarlığın portret janrından məharətlə istifadə olunmuşdur. 4 portretdən ikisi anfasdan, ikisi profildən çəkilmişdir.

Portret əsərlərindən "Nəvələrim" portret əsəri də maraqlıdır. Tablonun mərkəzində rəssam qız və oğlan nəvəsinin portretlərini vermişdir. Piano arxasında duran nəvələr soyuq çalarlarla dolu olan interyerdə isti rəng çalarları ilə verildiyindən adama uşaq hərarətini çatdırır. Pianonun üzərinə qoyulan güldandakı çiçəklər interyerdə bahar abu-havası, şən mühit yaratmışdır. Uşaqların təbəssümlü simaları soyuq otaq havasına hərarət bəxş etmişdir. Portret əsərlərindəki soyuq göy rəngli kolorit bu əsərində də ənənəvi olaraq saxlanmışdır. Əsərdə təsvir olunan əşyaların, geyimlərin interyer əşyalarının elementlərinin də fakturası mükəmməl həll olunmuşdur. Tabloda rəng həllini qırmızı rəng tamamlayır. Mərkəzdə təsvir olunmuş qızın qırmızı qış geyimi əsərin ən parlaq hissəsidir.

Hüseynqulu Əliyevin portret əsərləri sırasında yoldaşına həsr etdiyi "Məhbubənin portreti" rəng koloritinin parlaqlığı, işıq gücü ilə valehedicidir. Əsər dörd plandan ibarətdir. Ön planda heyva ağacının yoğun gövdəsi əyilərək arxa fona doğru uzanır. Heyva ağacının yaşılı gövdəsi və yarpaqları soyuq və isti rəng çalarları ilə həll olunmuşdur. İkinci planda yoldaşı Məhbubənin portretini işləmişdir. Portret monumental cizgilərlə həll olunmuşdur və sol tərəfdən işıqlandırılmışdır. İşığın gücü portretdə bir xətt üzərində cəmlənmişdir. Portret yumşaq və isti işıqlı rəng çalarlarından soyuq və yenə də yumşaq rəng çalarlarına keçidlə boyanmışdır. Tabloda rəng həllinə görə ən parlaq nöqtə qırmızı rəngli güldür. Qırmızı rəng az olmasına baxmayaraq tabloya canlılıq vermişdir. Rəssamın qırmızı rəngə müraciəti Tahir Salahovun Sərt üslubunu xatırladır. Tahir Salahov rəngkarlığında qırmızı rəng əsas rənglərdən biri olmuşdur. Portretdə yoldaşının gülər üzü, dodağındakı incə təbəssümü, qayğılı siması əsərdə başqa ab-hava yaratmışdır. Üçüncü planda yaşıl və göy çalarlarla soyuq və bir qədər də isti koloritdə heyva ağacının budaq fraqmenti işlənmişdir. Budaqların üzəri meyvələrlə doludur, bərəkətlidir. Əsərdə meyvəli ağacla insan ömrünün bar verdiyi yaşı uyğunlaşdırılmışdır. Əsərdə heyva ağacının təsvir edilməsi, qadının qısa qollu nazik geyimi, əlində tutduğu qırmızı həmişəbahar gülü yayın son günlərini xatırladır. Əsərin arxa fonu səmanın yaşıl və göy çalarları tonlarından ibarətdir. Səmanın yaşıllığı əsərin kolorit həllində əvəzolunmaz və gözoxşayandır. Rəssamlıq əsərlərində bədii formanın ən vacib, ən başlıca elementlərindən biri kompozisiyadır. Rəsm, işıq-kölgə, perspektiv, kolorit ilə yanaşı kompozisiya da konkret ideya məzmununu duyulan və qavranılan bədii obraz formasında əks etdirmək vasitəsidir. Rəssam müəyyən bir mövzu üzərində işlərkən, hər şeydən qabaq, öz ideyasını qabarıq ifadə

edən aydın süjet axtarır. Süjetin müəyyənləşdirilməsi kompozisiyanın ilk əsasının müəyyənləşdirilməsi deməkdir. Rəssam təsvir etmək istədiyi hadisəni obrazların mühit ilə vəhdəti kimi təsəvvür edir. Hər bir süjetin əsasını müəyyən bir dramatik hərəkət, nəqledici hadisə təşkil edir. Hadisənin inkişafında ən mühüm moment obrazların bir-birinə münasibəti, qarşılaşdırılması yolu ilə nəzərə çatdırılır. Məzmunun ifadə vasitəsi olan süjetin bünövrəsini rəssam hərəkətdə və mübarizədə olan insanların fəaliyyətində, daxili hiss və həyəcanlarında axtarıb tapmalıdır. Rəssamın əsas işə keçməzdən əvvəl ilk işi kompozisiyanın düzgün axtarılması olur. Kompozisiyalar həm təkfiqurlu, həm də çoxfiqurlu ola bilər. Təkfiqurlu kompozisiyalarla yanaşı çoxfiqurlu kompozisiyalara da müraciət edən rəssam yaradıcılığında bu cur əsərlərə rast gəlmək olur. 1980-ci illərdən sonra ölçüsü bir qədər böyük olan dəzgah boyakarlığına aid olan tablosunu yaradır. Əsərin adı da çox maraqlı və fərqlidir. Rəssam üçün ənənəvi olmasa da o başqa bir rəssamın "Ana-Vətən çağırır!" plakat başlığı altında əsərini milli çalarlarla yaratmaq qərarına gəlmişdir və çox da mükəmməl əsər alınmışdır. Monumental rəngkarlıq üslubunda çəkilmiş əsəri şərti olaraq üç plana ayırmaq olar. Ümumi olaraq kompozisiya qəhvəyi tonlarla çəkilmişdir. Qəhvəyi kolorit sadə zəhmətkeş insanların siması, psixologiyası, geyimləri və torpaqla ahəngdarlıq yaratmışdır. Ön plandakı insanlar kəndlilərdir. Rəssam kəndli simasını geyimlərin seçimində, insanların yorğunluğunda, qabarıq əllərdə və s. yarada bilmişdir. Təsvir olunan yeddi insan fiqurunun ikisi uşaq, ikisi yaşlı, üçü isə orta yaşlı kişilərdən ibarətdir. Bu tablo boyakarlıq əsəri olmasına baxmayaraq bütövlüyü bir qədər sovet dövrü plakatlarını xatırladır. İnsanların geyimlərindəki rənglər müxtəlif olmasına baxmayaraq daha çox qəhvəyi tonlarla diqqəti çəkir. Əsər yuxarı perspektivdən çəkilmişdir. Burada həm portret janrını, həm mənzərə janrını, həm də qrafik əsər nümunəsi görmək olur. Əsər mürəkkəb kompozisiyalı olmaqla yanaşı psixoloji əsərdir. Sadə zəhmətkeşlərin plakat önündə dayanıb fikirləşmələri əsərə baxan tamaşaçını da düşündürür. Bu da əbəs yerə deyil. Ana vətən hər kəsi düşündürməlidir. Əsərin ikinci planı sol tərəfdə insanlardan arxa hissəsində verilmiş divardan və üzərinə vurulmuş plakatdan ibarətdir. Qəhvəyi koloritli divarın üzərində ağ və qırmızı rəngli plakat əsərə dirilik, canlılıq verir. Əsərin üçüncü planında daşlı, təpəli hündür yamaclı dağ verilmişdir. Dağın ətəyində ağaclar, təpəsində isə Azərbaycan əsgərləri təsvir edilmişdir. Əsgərlərin əlində Azərbaycan bayrağı dalğalanır. Əsər üç hissəyə bölünməsinə baxmayaraq hər üçü arasında həm mövzu, ideya baxımından, həm də kolorit baxımından bağlılıq vardır. Uzaqda dayanmış əsgərlər vətənin keşiyini çəkənlərdir. Plakatdakı qadın sadə zəhmətkeşləri çağıraraq Ana vətənin keşiyinə səsləyir. Əsərin hər bir detalı yerli yerində tapılaraq kompozisiya həllini yaratmışdır.

Xalq rəssamı Hüseynqulu Əliyevin rəngkarlıq sahəsində müraciət etdiyi fərqli janrlar arasında mənzərə və portret daha aparıcı yer tutmuşdur. Naxçıvana, onun təbiətinə, görməli yerlərinə həsr etdiyi mənzərələrində Naxçıvan mövzusu daha qabarıq görünür. Bununla belə portret janrında çəkilmiş əsərlərinin təhlili göstərir ki, onun təsvir etdiyi surətlər yurdunun, elinin, obasının insanlarıdır. Hər iki janrda işlədiyi əsərlərindəki yaradıcılıq üslubu, rəng koloriti, bədii yanaşma tərzi rəssamın özünəməxsus yaradıcılıq ənənələrini də aydın göstərir.

ƏDƏBİYYAT

1. Əsgərova N. Hüseynqulu Əli oğlu Əliyev haqqında. "Şərq Qapısı" qəz., 2010, 22 oktyabr.
2. Əzimova S. 60 yaşın işığında xalq rəssamı Hüseynqulu Əliyev. "Şərq Qapısı" qəz., 2009, 4 fevral.

3. az.wikipediya.org/wiki/Hüseynqulu_Əliyev
4. İbrahimov R. Xalq rəssamı Hüseynqulu Əliyevin 70 illik yubileyi qeyd olunub. https://nuxcihan az/news cemiyyət/11440 xalq-əssamı-hüseyinqulu-əliyevin-70-illik yubleyi-qeyd olunub
5. Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyevin şəxsi arxivindən fotolar.

AMEA Naxçıvan Bölməsi
E-mail: frida.ahmedova@gmail.com

Farida Ahmadova

CREATIVE DEVELOPMENT OF PEOPLES ARTIST HUSEYNGULU ALIYEV

The article explores the creative way of people's Artist Huseyngulu Ali oglu Aliyev. Huseyngulu Aliyev is the author of thousands of works dedicated to different subjects and developed in a different genre. Paintings belonging to the painter's coloring artist, who lived and worked in Nakhchivan, were selected by his unique style. When we look at the artistic activity of the painter, we see that painting is appealing to all genres. He has created invaluable works in painting and graphic genres: still life, landscape, portrait, thematic painting and other genres. Portraits and landscapes are dominated by works of other genres. The creative way of the painter who draws attention to the development of the fine arts in Nakhchivan is very diverse. The artist, having productive creative activity, was a participant of numerous exhibitions, representing our autonomous republic, as well as Azerbaijan in foreign countries. He was awarded the Distinguished Artist of the Nakhchivan Autonomous Republic in 1988, Honored Artist of the Republic of Azerbaijan in 1999, and People's Artist of the Republic of Azerbaijan in 2002.

Keywords: *Nakhchivan, Huseyngulu Aliyev, artist, creativity, painting, graphics, still life, landscape, portrait, genre.*

Фарида Ахмедова

ТВОРЧЕСКИЙ ПУТЬ НАРОДНОГО ХУДОЖНИКА ГУСЕЙНГУЛУ АЛИЕВА

В статье рассматривается творческий путь народного художника Гусейнгулу Али оглы Алиева. Г.Алиев является автором тысяч работ, разработанных в различном жанре и посвященных разной тематике. Картины живописи с колоритом красок, принадлежавшие художнику, который жил и творил в Нахчыване, выделялись своеобразными стилевыми свойствами. Когда мы наблюдаем за художественным творчеством художника, мы замечаем, что в нем затрагиваются все жанры живописи. Он создал бесценные произведения в жанре живописи и графики – натюрморт, пейзаж, портрет, тематическая картина и другие. Количество портретов и пейзажей превышает нарисованные в других жанрах произведения. Творческий путь и заслуги художника в развитии изобразительного искусства в нахчыванском регионе многогранен. Художник, занимаясь продуктив-

ной творческой деятельностью, был участником многочисленных выставок, представлял не только нашу автономную республику, а также и Азербайджан в зарубежных странах. Он был награжден заслуженным художником Нахчыванской Автономной Республики в 1988 году, народным художником Азербайджанской Республики в 1999 году, а в 2002 году был удостоен почетного звания «Народный художник».

Ключевые слова: *Нахчыван, Гусейнгулу Алиев, художник, творчество, живопись, графика, натюрморт, пейзаж, портрет, жанр.*

(AMEA-nın müxbir üzvi Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 21.05.2019
Son variant 04.09.2019

İQTİSADİYYAT

UOT 33

ELTUN İBRAHİMOV

MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA BANK SİSTEMİNİN VƏZİYYƏTİ

Qəbul olunmuş faktdır ki, hər ölkənin maliyyə sisteminin düzgün formalaşdırılması onun əsas hissəsini təşkil edən və milli iqtisadiyyatın maraqlarına xidmət göstərən bank-kredit sisteminin təşəkkül tapması ilə mümkündür. Banklar muxtar respublikada kənd təsərrüfatının inkişafında fərqli xidmətlər həyata keçirir, sahibkarlara maddi-maliyyə dəstəyi göstərir, nağdsız ödənişlərlə bağlı çoxsaylı işləri icra edir, müəyyən olunmuş qaydalarla əmanətləri yerləşdirir, pul köçürmələrinin təşkil olunmasında (ölkədaxili və ölkəxarici) iştirak edir, xarici valyutalar üzrə əməliyyatları həyata keçirir və digər maliyyə əməliyyatlarını icra edirlər. Təhlillər göstərir ki, muxtar respublika müəyyən tabeçilik prinsipi altında bir növ özündə bank sistemi formalaşdırıbdır və Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan MR İdarəsinin nəzarəti altında bank fəaliyyəti təşkil edilir. Məqalədə muxtar respublikada müstəqillik dövründə bank sistemi, bank sektorunun quruluşu və bəzi xidmətlər barəsində məlumat verilir.

Açar sözlər: *bank sistemi, filial, bankomat, muxtar respublika, iqtisadi.*

Müasir kredit sistemi özündə əsas həlqələr olan-mərkəzi banklar (dövlət), banklar (kommersiya, ipoteka, əmanət, investisiya, ticarət) və qeyri-bank maliyyə kredit şirkətlərini (investisiya, sığorta, xeyriyyə fondları, ssuda əmanət assosiasiyaları və s.) birləşdirir. Əslində belə bir struktur daha çox İEÖ üçün xarakterikdir və digər dövlətlər öz kredit sistemlərini formalaşdırarkən əsasən ABŞ-nın təcrübəsinə əsaslanırlar. Qərbi Avropa ölkələrində daha çox bank və sığorta sistemi olsa da, Almaniyada bank sektoru kommersiya, əmanət, ipoteka banklarına, Fransada depozit kommersiya banklarına əsaslanır. Yaponiya isə öz kredit sistemini üçhəlqəli formaya uyğunlaşdırmaqla, daha çox əmanət və investisiya banklarına uyğun bank sektoru inkişaf etdirmişdir. İEOÖ-də və zəif inkişaf edən dövlətlərdə isə bu belə deyil. Bu ölkələrin əksəriyyətində bank sistemi ikihəlqəli prinsiplə xarakterizə olunur və gələcəkdə İEÖ-in kredit sistemlərinə yaxınlaşmağı qarşılarına məqsəd qoymuşdular [2, s. 55-56]. Qeyd elədiyimiz kimi ölkəmizdə bank sistemi ikipilləli olmaqla, dünya standartlarına uyğun, risklərə davamlı, sabit maliyyə göstəriciləri ilə xarakterizə olunmağı strateji hədəf kimi müəyyənləşdirmişdir. Hesab edirik ki, düzgün maliyyə siyasətinin həyata keçirilməsi gələcəkdə Qərb ölkələrinin təcrübəsindən yararlanmaqda fayda verəcəkdir.

Naxçıvan Muxtar Respublikasının da maliyyə sistemi haqqında danışarkən qeyd etmək lazımdır ki, əsas maliyyə fəaliyyəti ilə məşğul olan həlqələr muxtar respublikanın dövlət maliyyəsi və onun bank sistemidir. Lakin qeyd etmək lazımdır ki, bank sistemi muxtar respublikanın iqtisadi və sosial həyatında çox böyük imkanlara malikdir. Naxçıvan Muxtar Respublikasında bank sisteminin təşəkkül tapması 2000-ci illərdən başlayır və bugünkü günə qədər genişlənməkdə davam edir. Bank və bank mədəniyyətinin formalaşmasının ən yüksək dövrü 2005-2006-cı illərdən başlayır. Bu dövrlərdən başlayaraq bankların fəaliyyəti daha da genişlənmiş, respublika və regional səviyyəyə yüksəlmiş, onların göstərdikləri məhsul və xidmətlərin sayında və növündə ciddi dəyişikliklər baş vermişdir.

Təhlillərimiz onu deməyə imkan verir ki, muxtar respublikada banklar və onların göstərdikləri xidmətlər digər maliyyə qurumlarının həyata keçirdikləri işlərdən daha qabarıq nəzərə çarpır və böyük etibara malikdir. Digər maliyyə strukturlarına əhali arasında inam o qədər böyük deyil ki, banklara daha çoxdur. Muxtar respublikada elə bir insan tapmaq olmaz ki, onun bank fəaliyyəti və bankların rolu haqqında heç bir təsəvvürü olmasın. Banklar mövcud olduğu və genişləndikləri günlərdən bəri çoxlu xidmətlər göstərmiş, bir çox sosial, iqtisadi və məişət problemlərinin həll edilməsində əhaliyə köməklik göstərmişlər.

Naxçıvan Muxtar Respublikasının bank sistemi muxtar respublikanın Mərkəzi Bankından, bank və bank filiallarından, o cümlədən bank olmayan kredit təşkilatlarından ibarətdir. Mərkəzi Bankın Naxçıvan MR İdarəsi Azərbaycan Respublikası Mərkəzi Bankı ilə eyni funksiyaları və vəzifələri yerinə yetirir, Azərbaycan Respublikası Mərkəzi Bankına və Naxçıvan MR Ali Məclisinə hesabat verir.

Mərkəzi Bankın Naxçıvan MR İdarəsinin əsas vəzifələrindən biri Muxtar Respublikanın pul və maliyyə sistemində iqtisadi sabitliyi qoruyub saxlamaq olub, bunun üçün pul-kredit siyasətinin əsas istiqamətlərini işləyib hazırlayır. Bu istiqamətlər aşağıdakılardan ibarətdir:

1. Bank sistemində maliyyə sabitliyini qorumaq və bankların inkişafı üçün lazımı tədbirləri görmək;

2. Bankların regionlarda işinin yaxşı təşkil olunması, bank müştərilərinə göstərilən xidmətlərin genişləndirilməsi və bütün regionların, kəndlərin və qəsəbələrin bank sisteminə çıxış imkanlarının təşkil etmək;

3. Milli iqtisadiyyatın maliyyə dayanıqlılığının və beynəlxalq rəqabət qabiliyyətinin təmin olunması;

4. Makroiqtisadi tənzimlənməni həyata keçirmək;

5. Antiinflyasiya siyasətinin və ipoteka kreditləşməsi üzrə tədbirlərin davam etdirilməsi;

6. Nağdsız ödənişlərin aparılması qaydalarını müəyyən etmək, stimullaşdırmaq, kartlarla və elektron ödənişlər vasitəsilə aparılan ödəmə sistemlərini təkmilləşdirmək və s. [1, s. 4].

Naxçıvan Muxtar Respublikasının bank sisteminin fəaliyyətinə nəzər salsaq, tarazlığın mövcud olmasının şahidi olarıq. Belə ki, hər hansı bir əməliyyat və ya öhdəliyin həyata keçirilməsində konkret olaraq ixtisaslaşmış və ya inhisarlaşmış bank yoxdur. Bank əməliyyatların aparılmasında və kreditlərin verilməsində demək olar ki, bütün banklar və onların filialları məşğul olurlar. Banklardan fərqli olaraq, muxtar respublikada kredit təşkilatları ancaq kredit əməliyyatları həyata keçirir və qeyd olunan xarici valyuta, qiymətli kağızlar, qiymətli metallar, nağdsız ödənişlər üzrə hesablaşmalar və s. digər bank əməliyyatları ilə məşğul olmurlar. Aşağıdakı cədvəldə bank sisteminə və bankların sayına qısaca nəzər salaq.

Cədvəldən mövcud olan bank qurumlarının sayını aydın görmək olur. Qeyd etmək lazımdır ki, 2014-cü ildə fəaliyyət göstərmək üçün lisenziya alan bank və bank filiallarının sayında artım müşahidə edilmişdir. Belə ki, "Naxçıvan Bank" ASC-nin Naxçıvan şəhərində, Şərur və Culfa rayonlarında filialları fəaliyyətə başlamışdır. Bununla bərabər onların sayında 2015-2018-cı illərdə azalma müşahidə olunmuşdur. Bu onunla əlaqəlidir ki, bir kredit təşkilatının ("Naxçıvan-Kredit" Bank Olmayan Kredit Təşkilatı), bir şöbənin (Xalqbank), bir filialın (Bank of Azerbaijan) lisenziyaları əllərindən alınmışdır. Eyni zamanda son dövrlərdə bəzi kredit ittifaqları da bağlanmışdır.

Cədvəl 1

Naxçıvan MR-in bank sektoru haqqında məlumat

Müvafiq göstəricilər (bankların sayı üzrə)	**İ l l ə r ü z r ə**						
	2012	**2013**	**2014**	**2015**	**2016**	**2017**	**2018**
Naxçıvan MR-da fəaliyyət göstərmək üçün lisenziya alan bank və bank filialları, kredit təşkilatları, nümayəndəlik və ittifaqların sayı;	24	24	26	25	23	22	20
bank və filialların sayı;	15	15	17	17	17	17	17
bank olmayan kredit təşkilatlarının sayı	3	3	4	3	2	2	2
nümayəndəliklərin sayı;	1	1	1	1	0	0	0
kredit ittifaqlarının sayı;	5	5	4	4	4	3	1
əhalidən əmanətlərin cəlb edilməsi;	14	14	16	16	15	15	17
xarici valyuta əməliyyatlarının sayı;	15	15	18	18	17	17	17
Qiymətli metallarla əməliyyatların aparılması;	4	4	4	4	4	4	4
Qiymətli kağızlarla əməliyyatların aparılması;	2	2	2	2	2	2	2
Plastik kartlarla əməliyyatların aparılması;	15	15	17	17	15	15	17

Mənbə: Naxçıvan Muxtar Respublikası Mərkəzi Bankı.

Qeyd etmək lazımdır ki, bütün bu banklar filiallar və şöbələr Mərkəzi banka tabedir, onların fəaliyyəti Mərkəzi bankın həyata keçirdiyi pul kredit siyasəti və bank fəaliyyəti ilə bağlı olan qanunlar və normativ hüquqi sənədlər vasitəsilə tənzimlənir.

Mövcud bankların adlarına və filiallara gəldikdə isə, muxtar respublikada 2019-cu ilin əvvəlinə Mərkəzi Bankın Naxçıvan MR İdarəsi, Kapital Bank ASC Naxçıvan MR Baş İdarəsi və onun regionlarda 7 filialı, Naxçıvanbank ASC və onun rayonlarda 4 filialı, Beynəlxalq Bank ASC Naxçıvan filialı, Azər-Türk Bank ASC Naxçıvan filialı fəaliyyət göstərir. Bunlardan başqa Muxtar Respublikada bir bank şöbəsi (Rabitəbank ASC Naxçıvan filialı) də fəaliyyət göstərir ki, bu şöbə bank fəaliyyətinin hamısı da olmasa müəyyən qədərini həyata keçirir və kredit vermir. Bank olmayan kredit təşkilatları isə "Finca-Azerbaijan" Qeyri Bank Kredit Təşkilatı Naxçıvan filialı və "Aqrarkredit" SKT Naxçıvan filialıdır.

Muxtar respublikada bankların fəaliyyətinə nəzər salsaq, onların göstərmiş olduqları xidmətlər üzrə bütün sahələrdə dinamik yüksəlişin getdiyini görə bilərik. Belə ki, istər kredit qoyuluşunda, əmanətlərin valyutalar üzrə strukturunda, istər nağdsız hesablaşmalar, müştərilərin bank hesabları, ödəniş kartları, bankomatlar və POS-terminalların sayında, istərsə də vətəndaşların hesablarına daxil olan və çıxan vəsaitlərin məbləğində və bankların fəaliyyətinin digər nəticələrində illər üzrə dinamikanın yüksəlməsinin şahidi olarıq.

Mühüm xidmətlərdən biri kimi bankomatlar və post-terminalların tətbiq edilməsi Azərbaycanın digər regionlarından fərqli olaraq Naxçıvan MR-da nisbətən gec tətbiq edilməyə başlamışdır. Bank fəaliyyətində mövcud problemlərə baxmayaraq, bankomat və POS-terminalların sayında da dinamik inkişafın şahidi ola bilərik. Bu xidmət növlərinin müştərilər və əhalinin həyatında nə qədər mühüm rola malik olduğunu bilirik. Həm bankomatlar, həm də POS-terminallar əhalinin işini xeyli asanlaşdırır. 2009-cu ildən 2013-cü ilə qədər olan dövrə nəzər saldıqda, bankomatların və POS-terminalların sayında təxminən 2 dəfə artımı müşahidə edə bilərik.

Naxçıvan Muxtar Respublikasında son illər üçün POS-terminalların və bankomatların sayında ciddi artım müşahidə edilməkdədir. Bunu aşağıdakı cədvəldə nəzərdən keçirək:

Cədvəl 2

Naxçıvan Muxtar Respublikasında bankomat və pos-terminalların sayı

Tarix	Bankomatlar (cəmi)	O cümlədən		POS-terminalların cəmi	O cümlədən	
		Naxçıvan şəhəri	Rayon və kəndlər		Naxçıvan şəhəri	Rayon və kəndlər
2010	58	36	22	43	18	25
2011	71	42	29	76	42	34
2012	84	50	34	96	53	43
2013	92	53	39	248	142	106
2014	92	53	39	867	460	407
2015	98	55	43	1044	500	544
2016	99	56	43	1202	556	646
2017	104	57	47	1260	575	685
2018	111	57	54	1272	575	697

Qeyd: Naxçıvan Muxtar Respublikası Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi 2010-cü il və 2018-ci ili müqayisə etdikdə həm bankomatların, həmdə posterminalların sayında xeyli artım müşahidə olunmaqdadır. Təqdirəlayiq hal kimi qiymətləndirilməlidir ki, bu xidmət növlərinin sayında Naxçıvan şəhərində olduğu kimi rayon və kənd mərkəzlərində də artımlar mövcuddur. Hesab edilir ki, qarşıdakı illərdə bu rəqəm biraz da yüksələcəkdir. Təbii ki, bu amil regionlarda əhali və təsərrüfat subyektləri üçün olduqca əhəmiyyətlidir. Muxtar respublikada Mərkəzi Bank, Rabitəbankın Naxçıvan şöbəsi və bank olmayan kredit təşkilatlarını çıxmaq şərtilə digər bankların hamısı bankomat xidmətini göstərir. Ən çox bankomatları olan banklara Kapital Bank ASC, Beynəlxalq Bank ASC və Naxçıvan Bank ASC misal göstərmək olar. Naxçıvan MR-nın rayon və kəndlərində bankomat fəaliyyətini əsasən Kapital Bank və Beynəlxalq bank həyata keçirir. Bankomatlar vasitəsilə bankların müştəriləri və digər vətəndaşlar banklara getmədən əmək haqqı alır, istədikləri şəxslərə istədikləri vaxt pul göndərir, öz telefon və kommunal ödənişlərini edir və ya hesablarındakı vəsaitlərini nağd formada kartları vasitəsilə manat və dollar şəklində əldə edə bilirlər. Naxçıvan MR-da POS-terminal xidmətlərini də yuxarıda adları çəkilən banklar həyata keçiirlər.

Ölkəmizin iqtisadi həyatında, iqtisadi potensialın yüksəldilməsində göstərmiş olduğu xidmətlərə nəzər saldıqda, banklar tərəfindən bütün növ xidmətlərin həyata keçirilməsinə Naxçıvan Muxtar Respublikasında da şahidi ola bilərik. Bankların yerinə yetirdikləri ən böyük xidmətlərdən biri də muxtar respublika iqtisadiyyatının və ayrı-ayrı sahələrin kreditləşdirilməsidir. Bank şöbələrini çıxmaq şərtilə Naxçıvan MR-də fəaliyyət göstərən bütün banklar, onların filialları və kredit təşkilatları respublika əhalisinin və iqtisadiyyatının maliyyə vəsaitləri ilə təmin edilməsində böyük rol oynayır. Kredit qoyuluşu bankların fəaliyyətinin əsas hissəsini təşkil etməklə, bununla bank həm öz imkanlarını genişləndirir, mənfəətini artırır, həm də müxtəlif cür təsərrüfat subyektlərinə və əhaliyə pul yardımları göstərir.

Beləliklə, müstəqillik dövründə muxtar respublikada bank sisteminin qurulması və onların həyata keçirdiyi xidmətlər bir sıra mühüm xüsusiyyətlər ilə xarakterizə olunur:

– Mərkəzi Bank muxtar respublikada maliyyə sabitliyini qoruyan başlıca orqandır;

– Bank əməliyyatlarının aparılması ilə bütün banklar və filialları məşğul olurlar;

– Hal-hazırda dövlət proqramlarına uyğun olaraq bankların üzərinə böyük öhdəliklər düşür. Onlar iqtisadiyyatın bütün sahələrinə xidmət etməklə tərəflər arasında düzgün bazar münasibətlərinin qurulması üçün müəyyən öhdəçilik daşıyırlar.

ƏDƏBİYYAT

1. Bank statistik bülleten 12/2013. Mərkəzi Bank Naxçıvan MR idarəsi. Naxçıvan, 2013, 35 s.
2. Kaşıyeva F.Ş. Pul kredit Banklar. Bakı: İqtisad Universitet, 2011, 153 s.
3. Məmmədov S. Bank işi. Bakı: Ay-Ulduz, 1997, 376 s.
4. Heffernan Sh. Modern Banking. Chichester, United Kingdom, 2004, 736 p.
5. http://www.cbar.nakhchivan.az/

AMEA Naxçıvan Bölməsi
E-mail: eltunibrahimov@yahoo.com

Элтун Ибрагимов

БАНКОВСКАЯ СИСТЕМА НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ В ГОДЫ НЕЗАВИСИМОСТИ

Приемлемым фактом является то, что создание правильное формы финансовой системы каждой страны возможно при создании банковско-кредитной системы, которая является ее частью и служит национальной экономике. В автономной республике банки оказывают различные виды услуг по развитию сельского хозяйства, предоставляют предпринимателям материальную и финансовую поддержку, выполняют многочисленные обязанностей, связанных с безналичными расчетами, размещают депозиты по указанным правилам, участвуют в услугах по переводу денег (местных и зарубежных), осуществляют валютные операции и другие финансовые операции. Анализы что автономная республика сформировала свою банковскую систему на принципах определенного подчинения и деятельность банков организована под надзором Нахчыванской АР Отделение Центрального Банка Азербайджанской Республики. В статье представлена информация о банковской системе, структуре банковского сектора и некоторых услугах за годы независимости в автономной республике.

Ключевые слова: *банковская система, филиал, банкомат, автономная республика, экономическая.*

Eltun Ibrahimov

BANKING SYSTEM OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC IN THE YEARS OF INDEPENDENCE

It is an acceptable fact that making proper shape of every countrie`s financial system is possible with the creation of bank-credit system which constitutes the main part of it and serves national economy. In autonomous republic banks perform various types of services for agricultural development, provide owners with material and financial support, carry out multiple duties related to cashless payments, place deposits in specified rules, participate in money remittance services (local and overseas), execute foreign currency transactions and

other financial dealings. The analyses show that the autonomous republic has formed its banking system under the principles of certain subordination and the activities of banks are organized under the supervision of Nakhchivan AR Department of Central Bank of Azerbaijan Republic. The article deals with the information about banking system, banking sector and some services during independence years in autonomous republic.

Keywords: *banking system, branch, ATM, autonomous republic, economical.*

(İqtisad elmləri doktoru, professor Nazim Əhmədov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 22.05.2019
Son variant 30.08.2019

UOT 340.1; 321.01

HƏMDULLA MƏMMƏDOV

DÖVLƏT QULLUĞU DÖVLƏT İDARƏETMƏ MEXANİZMİNİN MÜHÜM ELEMENTİ KİMİ

Məqalədə dövlət qulluğu dövlət idarəetmə mexanizminin mühüm elementi olaraq araşdırılmışdır. Göstərilmişdir ki, dövlət qulluğu dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsində mühüm rol oynayır. Həmçinin dövlət qulluğunun cəmiyyətin siyasi sisteminin mühüm aktorlarından biri olan dövlətin idarəetməsindəki rolu, əhəmiyyəti qeyd olunmuşdur.

Dövlət qulluğu ilə bağlı müxtəlif yanaşmalar təhlil edilmişdir. Qeyd olunmuşdur ki, dövlət qulluğu demokratik siyasi sistemlərdə daha çox inkişaf edir. Belə ki, demokratik sistem dövlət qulluğunun öz funksiyalarını daha şəffaf şəkildə nümayiş etdirməyə, yeniliklərə açıq formada, dövlətin funksiyalarından çıxış edərək vətəndaşlara daha yaxın bir şəkildə xidmət etməyə imkan yaradır.

Dövlət qulluğunun cəmiyyətin siyasi sisteminin ən vacib ünsürü olan dövlətin funksiyalarının yerinə yetirilməsi prosesindəki iştirakının konstitusion əsaslarına toxunulmuş, Azərbaycan Respublikasının Konstitusiyasında dövlət qulluğunun konstitusional prinsiplərinin əsasları öyrənilmişdir.

Hazırkı sürətli inkişaf dövründə, bütün sferalarda baş verən yenilənmələrin, innovativ dəyişikliklərin dövlət qulluğuna təsiri məsələləri məqalədə öz əksini tapmışdır. Azərbaycanda dövlət qulluğu sisteminin müasir standartlar səviyyəsinə yüksəldilməsi istiqamətindəki addımların ardıcıl və sistemli xarakteri qeyd olunmuşdur.

Açar sözlər: *Dövlət, dövlət qulluğu, dövlət idarəetməsi, dövlətin funksiyaları, demokratiya, dövlət qulluğunda innovativlik, Azərbaycan, e-hökumət.*

Dövlət qulluğu dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Dövlət hakimiyyəti və idarəetmədə vacib rol oynamaqla dövlət qulluğu mühüm təsisat funksiyasına sahibdir.

Dövlət qulluğu dövlət, dövlət aparatı, dövlət idarəetməsi ilə qarşılıqlı əlaqədə olmaqla siyasi sistemdə özünəməxsus vəzifə icra edir.

Dövlət qulluğunun keyfiyyətli fəaliyyəti cəmiyyətdə dövlət və hakimiyyət haqqında təsəvvürlərin formalaşmasına böyük təsiri vardır. Bu mənada dövlət qulluğunun dövlətin məqsəd və funksiyalarının reallaşdırılmasındakı rolunun təkmilləşdirilməsi vacib əhəmiyyətə malikdir. Müasir dövrdə dövlət qulluğunun fəaliyyətinin həm təkmilləşdirilməsi, həm də bu sahədə yeniliklərin tətbiqi geniş vüsət almaqdadır. Dövlət qulluğu sahəsində tətbiq olunan yeniliklər bu sahənin cəmiyyətin müasir inkişaf ritmi ilə ayaqlaşmasını təmin etməklə, dövlət idarəetməsinin səmərəliliyini və eyni zamanda vətəndaş məmnuniyyətinə gətirib çıxarır.

Qeyd olunan məsələlər müasir mərhələdə dövlət qulluğunun aktual problemləri sırasındadır. Bu isə mövzunun aktuallığını şərtləndirməklə, onun elmi araşdırılması zərurətini doğurur.

Dövlət qulluğu dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsini təmin edir. Dövlət qulluğunun cəmiyyətin siyasi sisteminin mühüm aktorlarından biri olan dövlətin idarəetməsindəki rolu, əhəmiyyəti daim araşdırma predmeti olmuşdur. Bu mənada dövlət və idarəetmə ilə bağlı tədqiqatlarda dövlət qulluğu bu və ya digər şəkildə diqqət mərkəzində olmuşdur.

Dövlət qulluğu həm əmək fəaliyyətinin xüsusi növü, həm də dövlətin hüquqi mərkəzi kimi anlayışları özündə birləşdirir.

Belə ki, dövlət qulluğu dövlətin vəzifə və funksiyalarının dövlətin aparatı, habelə onun müəssisələrinin işçilərinin həyata keçirdiyi və işlər qarşılığında dövlət müavinəti əldə edilən əmək fəaliyyətinin növü olmaqla bərabər, dövlət qulluqçularının sahib olduğu hüquqi statusu

və vəziyyəti, işə qəbul olmaq şərtlərini və qaydaları təyin edən, vəzifədən doğan məsuliyyəti əks etdirən hüquqi normaların məcmusudur. Bu, dövlət qulluğunun hüquqi institutu olaraq nəzərdən keçirilməsini şərtləndirir.

Dövlət qulluğunun, xüsusilə də dövlət aparatında işləyən məmurların hüquqi vəziyyəti bir qayda olaraq inzibati hüquq normaları ilə tənzimlənir. Ona görə də dövlət qulluğu anlayışının seçimində üstünlük onun daha çox dövlətin hüquqi institutu kimi tanınmasına verilir. Bu fikri təsdiqləyən ən təsirli amil odur ki, hər hansı bir dövlətin bütün strukturlarının və orqanlarının fəaliyyəti qanunlar üzərində qurulur. Təbii ki, dövlət qulluğu institutu yalnız müvafiq hüquqi baza üzərində fəaliyyət göstərə bilər və bu institutun cəmiyyət üçün səmərəli olması mükəmməl qanunvericiliyin yaradılması ilə bilavasitə bağlıdır [11].

Müasir demokratik cəmiyyətlərdə dövlət qulluğunun aşağıdakı prinsipləri vardır: yetərlilik, karyera, təsnifatlandırma, bərabərlilik, təminat, tərəfsizlik, hüquqi tanınma, yetərli məvacib [14].

Dövlət qulluğu institutu dövlət və onun aparatının mahiyyətində özünü göstərən və təcrübədə realizəsi vasitəsilə təşkilatı və hüququ tənzimlənən müəyyən münasibətlər sistemidir [15].

Rus tədqiqatçı Manoxin V.M. dövlət qulluğu institutunu "dövlət qulluğunun təşkili prosesində və dövlət qulluqçusunun üzərinə qoyulmuş məsələləri həll edən zaman yaranan münasibətləri tənzimləyən hüquqi normaların məcmusu olaraq xarakterizə edir. Tədqiqatçı dövlət qulluğu institutunun tənzimlədiyi ictimai münasibətləri iki qrupa ayırır: birinci qrupa dövlət qulluğunun təşkili gedişində yaranan münasibətlər daxil edilir. Bura a) dövlət qulluğunda hər bir vəzifəyə hüquqi status müəyyən edilərkən yaranan münasibətlər, b) dövlət qulluğunda vəzifələrin tutulması üsulları müəyyən edilərkən və dövlət qulluğuna girməyin müxtəlif şərtləri və qaydaları təyin edilərkən yaranan münasibətlər; c) dövlət qulluğunun hazırlığı, seçilib yerləşdirilməsi və bu və ya başqa vəzifələrə işçilərin təyin olunması ilə əlaqədar yaranan münasibətlər; İkinciyə dövlət qulluğunu praktiki həyata keçirmək prosesində yaranan münasibətlər aid edilir. Bura a) dövlət qulluqçusunun vəzifə tutduğu dövlət təşkilatı daxilində fəaliyyəti prosesində yaranan münasibətlər; b) dövlət qulluqçusunun vəzifə tutduğu təşkilatdan kənar fəaliyyəti prosesində yaranan münasibətlər daxildir" [16, 25].

Müasir dövlət qulluğu hüquqi institutu "dövlət qulluğu sisteminin təşkili, dövlət qulluqçularının statusunun, təminatının və onun həyata keçmə prosedurası və dövlət qulluğunu keçmə prosesində yaranan münasibətlərin hüquqi normalar sistemi" [17, 16] kimi izah edilir.

Qeyd etmək lazımdır ki, dövlət qulluğu demokratik siyasi sistemlərdə daha çox inkişaf edir. Belə ki, demokratik sistem dövlət qulluğunun öz funksiyalarını daha şəffaf şəkildə nümayiş etdirməyə, yeniliklərə açıq formada, dövlətin funksiyalarından çıxış edərək vətəndaşlara daha yaxın bir şəkildə xidmət etməyə imkan yaradır.

Dövlət qulluğunun dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsindəki rolundan bəhs edərkən bu prosesdə dövlət qulluqçularının fəaliyyətinə də diqqət yetirilməsi vacibdir.

Dövlət qulluqçuları iqtisadi, sosial-mədəni və inzibati-siyasi sahələrdə idarəetməni həyata keçirir, dövlətçiliyin möhkəmləndirilməsi və cəmiyyətdə demokratiyaya və hüquqa əsaslanan islahatlar aparılması üçün fəaliyyət göstərirlər. Onlar cəmiyyətin inkişafı üçün zəruri olan əsasların yaradılmasını təmin edən sosial funksiyaları yerinə yetirirlər. Bu baxımdan onların fəaliyyətini peşəkarlıqla həyata keçirilən sosial fəaliyyət kimi də xarakterizə etmək olar. Səmərəli dövlət qulluğu mexanizmi sosial funksiyaların, dövlət xidmətlərinin peşəkar-

lıqla, şəffaflıqla, rahat və mədəni şəkildə təqdim olunması üçün dövlət qulluqçularının peşəkarlığının fasiləsiz artırılmasını da təmin edir. Bunun nəticəsində isə idarəetmə funksiyalarının ixtisaslaşdırılmış və inteqrasiya olunmuş formada peşəkar dövlət qulluqçuları tərəfindən həyata keçirilməsi təmin olunur [10, s. 7].

Dövlət qulluğunun mahiyyətindən çıxış edərək qeyd etmək olar ki, bu sahədə araşdırmalar mütləq şəkildə dövlət və onun funksiyaları ilə bağlılıq təşkil edir. Bu mənada dövlət qulluğu ilə bağlı araşdırmalar və təhlillər apararkən dövlətşünaslıq aspektindən yanaşmalar önə çıxır.

Nelidov N.K. "Dövlət qulluğunun hüquqi və siyasi əsasları"kitabında dövlət qulluğuna dövlətə və ya daha dəqiq dövlət orqanı ilə ona qulluq edən və onun iradəsini gerçəkliklə həyata keçirən şəxslər arasında münasibətlərin müəyyən hüquq normalarının məcmusu; Yanovski A. isə "dövlət vəzifəsinin icrası tapşırılan şəxsin dövlətə münasibəti" hesab edir [6].

Azərbaycan respublikasının qanunvericiliyində qeyd olunduğu kimi, dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir. Tədqiqatçı F.Babayevə görə, göstərilən bu anlayışla hüquqşünas alim N.M.Korkunovun dövlət qulluğu anlayışına verdiyi tərif öz yaxınlığı ilə seçilir. Tədqiqatçının fikrincə, dövlət qulluğu N.M.Korkunovun dediyi dövlət fəaliyyətinin müəyyən məsələlərinin həyata keçirilməsinə istiqamətlənmiş, dövlət adından yerinə yetirilməsi məcburi olan fəaliyyət kimi yox, elə dövlətin adından yerinə yetirilməli olan bütün məsələlərin həyata keçirilməsinə istiqamətləndirilmiş bir fəaliyyətdir. Yəni ki, dövlət qulluğu birbaşa dövlətlə vətəndaş arasında yaranan münasibətləri qaydaya salan bir hüquq sahəsidir [6]

Dövlət qulluğunun cəmiyyətin siyasi sisteminin ən vacib ünsürü olan dövlətin funksiyalarının yerinə yetirilməsi prosesindəki iştirakı konstitusion əsaslara malikdir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasında dövlət qulluğunun konstitusional prinsiplərinin əsasları əks olunmuşdur. Konstitusiyada Azərbaycan vətəndaşlarına dövlət idarəetməsində iştirak və qulluğuna qəbul hüququnu verən ayrıca maddə vardır: Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər [1].

Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər.

Politologiya elmində özünə müəyyən mövqe qazanmış siyasətin idarəetmədən ayrılması doktrinasında dövlət hakimiyyəti orqanının bir-birindən fərqli iki funksiyası qeyd olunur. Bunlar siyasi və idarəetmə funksiyalarıdır. Siyasi funksiya, dövlət aparatının və onun ayrı-ayrı hissələrinin fəaliyyətində ümumi istiqamətlər və konkret məqsədlərin müəyyən edilməsini şərtləndirir. İdarəetmə funksiyası isə qəbul olunmuş qərarların icrası ilə bağlıdır. Birinci funksiyanı siyasi vəzifə tutan şəxslər, ikinci funksiyanı inzibati vəzifə tutan peşəkarlar yerinə yetirir. Əgər hakimiyyətin dəyişərsə, birincilər dəyişilir, ikincilər isə peşəkarlardır, onlar fəaliyyətini davam etdirməlidirlər. Sözügedən doktrinaya görə siyasi rəhbərlərin dəyişməsi idarəetmə aparatının fəaliyyətinə təsir etməməlidir. Peşəkar idarəetmədən təşkil olunmuş dövlət aparatı bütün dövlətin həyat fəaliyyətini, səmərəliliyini təşkil edir. Ona görə dövlət aparatı vahiddir, bütövdür, vertikal üzrə subordinasiya, horizontal üzrə koordinasiya olunur.

Bu isə Q.V.Atamançukun dövlət qulluğuna verdiyi "dövlət orqanlarında təsis edilmiş dövlət vəzifələrinin bilavasitə icrası ilə dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsində vətəndaşların praktiki və peşəkar fəaliyyəti" anlayışa uyğun gəlir.

Dövlət hakimiyyəti və dövlət qulluğunun qarşılıqlı əlaqəsi konstitusiya və normativ-hüquqi aktlarda müəyyən edilir. Dövlət cəmiyyətin leqal və legitim hakimiyyəti olduğundan o öz məqsəd və funksiyalarını dövlət rəhbərliyində və dövlət idarəetməsi vasitəsilə həyata keçirir. Dövlət qulluğu dövlətin rəhbərlik-siyasi hissəsinə yox, idarəetmə hissəsinə aiddir. Dövlət rəhbərliyin siyasi vəzifələri tutan siyasi elita, idarəetməni isə onun əsas mexanizmi olan dövlət qulluğu vasitəsilə həyata keçirir. Bütün bunlar siyasi hakimiyyətin, dövlət idarəetməsinin və dövlət qulluğunun əlaqələrinin və qarşılıqlı təsirinin məntiqi nəticəsini göstərir. Odur ki, dövlət qulluğunun hakimiyyət sistemində yeri və rolundan asılı olaraq cəmiyyətin effektivliyi təmin olunur. Dövlət qulluğu dövlətin məqsəd və funksiyalarını həyata keçirmək üçün ona hakimiyyət (güc, məcburetmə, təhrik etmə, avtoritet) verilir və nəticədə dövlət-qulluq münasibətləri yaranır, dövlət bu münasibətlərin subyektinə çevrilir, iradı xüsusiyyətlər ön plana keçir, imperativlik yaranır, məcburetmə aparatı fəaliyyətə başlayır.

Beləliklə, dövlət qulluğu dövlət hakimiyyətini yerinə yetirən sosial-hüquqi və təşkilati institut olmaqla – dövlət hakimiyyətinin digər institutlarının formalaşması, realizəsi və təkmilləşdirilməsi mexanizmi kimi çıxış edir [13, s. 342].

Cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, dövlət idarəetməsi sahəsində, o cümlədən dövlət qulluğunda da inkişaf prosesləri daimi olaraq özünü göstərir. Xüsusilə hazırkı sürətli inkişaf dövründə, bütün sferalarda baş verən yenilənmələr, innovativ dəyişikliklər dövlət qulluğunda da hiss olunmaya bilməz.

Müasir dövrümüzdə dövlətlərin idarəetmə sistemində təzahür edən modernləşmə yeni idarəetmə modellərinin, müasir, vətəndaşa yönümlü, onu məmnun edən idarəetmənin qurulmasının zəruriliyini üzə çıxarmışdır. Subyektivliyin aradan qaldırılması üçün sərt reqlamentlərə əsaslanan ənənəvi modellərdən fərqli olaraq yeni idarəetmə modelləri bunun üçün şəffaflığın artırılmasını ön plana çəkir [9].

Dövlət qulluğu sistemində tətbiq edilən innovasiyalar birbaşa dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyinin yüksəlməsində öz əksini tapır. Səmərəlilik isə dövlət qurumunun işinin keyfiyyətini yüksəltməklə, eyni zamanda vətəndaşların daha keyfiyyətli xidmətlərlə təmin olunmasına gətirib çıxarır. Bu isə dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsinə xidmət edir.

Dövlət qulluğunun müasir inkişaf mərhələsinin mühüm göstəricilərindən biri də bu sahədə fəaliyyətin elektronlaşdırılmasıdır. Hazırda dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində dövlət xidmətlərinin elektronlaşdırılması təmin edilmişdir. Bu fəaliyyət özünü əsasən elektron hökumətin tətbiqi ilə göstərməkdədir.

Elektron hökumət (e-Government) müvafiq olaraq, hökumətin fəaliyyətinin əməliyyat və ya icra sahəsini əhatə edir və vətəndaşların müvafiq istiqamətdə dəqiq informasiyalar əldə etmələrini, əhali ilə hakimiyyət strukturları arasında qarşılıqlı fəaliyyət üçün şəraitin yaradılmasını təmin edir. Xüsusilə də, vətəndaş cəmiyyəti institutları və biznes ilə dövlət idarəçiliyi orqanları arasında dialoqun inkişaf etdirilməsi və təmasların sıxlaşdırılması elektron hökumət konsepsiyasının əsas prinsiplərindən biridir.[18, s. 29].

Azərbaycanda e-hökumətin əsası 2003-cü ildə qəbul edilmiş və ölkə Prezidentinin xüsusi sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya kommunikasiya texnologiyaları üzrə Milli Strategiyası (2003-2012-ci illər) ilə qoyulmuşdur.

Milli Strategiyanın əsas vəzifələri arasında elektron hökumətin yaradılması mühüm bənd kimi yer almışdır.

"Elektron Hökumət" – müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsinə şərait yaradır.

Azərbaycanda "elektron hökumət" layihəsinin məqsədləri Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən aşağıdakılar kimi müəyyənləşdirilmişdir:

– Dövlət orqanlarında müasir İKT-lərdən istifadənin genişləndirilməsi yolu ilə idarəetmə metodları və mexanizmlərinin inkişaf etdirilməsi;

– Dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması və şəffaflığın təmin edilməsi;

– Vətəndaşların ictimai qərarların qəbul edilməsi və vətəndaşların hökumət orqanları ilə əlaqələrinin daha sadə və müvafiq elektron üsullarla həyata keçirilməsində iştirakının təmin edilməsi.

Azərbaycanda elektron hökumətin texniki infrastrukturu Estoniya X-Road sistemi əsasında qurulmuşdur. X-Road sistemi dövlət qurumlarının informasiya sistemlərinin müstəqilliyini təmin edir və təhlükəsiz məlumat mübadiləsini təmin edir. Qeyd edək ki, X-Road elektron hökumət modelinə Azərbaycan və Estoniyadan başqa, Finlandiya da müraciət etmişdir [4].

Azərbaycanda dövlət qulluğunun müasir modelinin yaradılması sahəsində, həmçinin idarəetmədə innovasiyaların, İKT-nin bariz nümunəsi olaraq Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli Fərmanı ilə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması göstərilə bilər.

Dövlət Agentliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasında "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinin vahid şəkildə idarə edilməsini, xidmət mərkəzlərində fəaliyyət göstərən mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin aparılmasını, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır [8].

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında dövlət qulluğunun müasir standartlar səviyyəsində qurulması, bu sahədə innovasiyalar və İKT-nin tətbiqi ilə bağlı mühüm məqamlar yer almış və onların həyata keçirilməsi təmin edilməkdədir.

Ölkədə dövlət qulluğunun müasirləşdirilməsi istiqamətində 27 oktyabr 2018-ci il tarixdə imzalanmış Azərbaycan Respublikası Prezidenti tərəfindən "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" Fərman da mühüm əhəmiyyətə malikdir.

Qeyd edək ki, fərmanda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında kargüzarlığın aparılması işinin səmərəli təşkili üçün "Elektron sənəd dövriyyəsi sistemi" yaradılması, dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması sahəsində qabaqcıl beynəlxalq təcrübənin Azərbaycanda tətbiqi məsələləri yer alır.

Bütün bu və ya digər addımlar Azərbaycanda dövlət qulluğunun inkişafının mühüm

göstəriciləridir. Atılan addımlar, ölkədə e-hökumətin yaradılması dövlət qulluğunun müasir inkişaf mərhələsinin əsas əlamətlərindəndir. Qeyd edək ki, Azərbaycanda dövlət qulluğu müasir inkişaf mərhələsində mütəmadi olaraq beynəlxalq təcrübədən yararlanır. İnamla bildirmək olar ki, hazırda Azərbaycanın dövlət qulluğu öz müasir inkişaf səviyyəsi baxımından dünyanın aparıcı ölkələri ilə müqayisə oluna bilər. Hazırda Azərbaycan dövlət qulluğu sistemində tətbiq olunan bir sıra yeniliklər xarici ölkələr tərəfindən öyrənilir, nüfuzlu qurumlar tərəfindən təqdir edilir.

Konsaltinq və audit sahəsində peşəkar xidmətlər təklif edən beynəlxalq şirkətlər şəbəkəsi "Pricewaterhouse Coopers" (PwC) tərəfindən Bakı, Moskva, Madrid, San-Paulo, Berlin, London, Seul, Sidney, Amsterdam, Stokholm və digər şəhərlər üzrə "Dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi mərkəzinin müqayisəli təhlili" mövzusunda araşdırma aparılıb.

Araşdırmaya əsasən, dünyanın yalnız bir neçə şəhərində vətəndaşlar "bir pəncərə" sistemi ilə rahat şəkildə və vaxt itirmədən istədikləri sənədləri əldə edə bilirlər.

Dünyanın 18 iri şəhərlərində yerləşən və dövlət xidmətlərinin "bir pəncərə" prinsipi ilə göstərildiyi çoxfunksiyalı mərkəzlərin işi təhlil edilib. Qiymətləndirmə əsasən xidmətlərin sərfəliliyi, rahatlıq, növbələrin idarə olunması və əks-əlaqə üzrə aparılıb. Vətəndaşlarla dövlət qurumları arasında əlaqələri asanlaşdırmaq məqsədi ilə son vaxtlar Bakı, Moskva və San-Pauloda yaradılan xidmətlər digər ölkələrdəki analoji qurumlardan üstün olub.

Azərbaycanda yaradılmış "ASAN xidmət" dövlət tərəfindən təqdim edilən sənədlərin tez, rahat və keyfiyyətli formada vətəndaşlar tərəfindən alması baxımından daha yüksək dəyərləndirilib. Bundan başqa, qaynar xətt fəaliyyəti və vətəndaşların internet vasitəsi ilə müraciəti üzrə araşdırmada da "ASAN xidmət" digər ölkələrdə fəaliyyət göstərən "bir pəncərə" sistemlərindən öndə olub [3].

Bundan başqa, 26 iyun 2015-ci il tarixində Kolumbiyanın Medellin şəhərində Birləşmiş Millətlər Təşkilatının dövlət xidmətlərinin göstərilməsi sahəsində qaliblərin mükafatlandırılması mərasimində "ASAN xidmət" "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında ən yüksək 1-ci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunub. Forum vasitəsi ilə "ASAN xidmət" modelinin uğurlu təcrübəsinin dünyanın müxtəlif ölkələrində tətbiqi təşviq olunub [5].

Azərbaycanda dövlət qulluğu sisteminin müasir standartlar səviyyəsinə yüksəldilməsi istiqamətindəki addımlar ardıcıl və sistemli xarakter daşıyır. Dövlət tərəfindən bu istiqamətdə işlərin gələcəkdə daha da təkmilləşdirilməsi ilə məqsədilə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" qəbul edilmişdir. Strategiya 2019-2021-ci və 2022-2025-ci illəri əhatə edən iki fəaliyyət planından ibarətdir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 23 noyabr 2018-ci ildə sərəncamı ilə təsdiq edilmiş Strategiyada dövlət qulluğunun inkişafının perspektivləri, hədəfləri və bu hədəflərə çatmaq üçün orta və uzun müddəti əhatə edən çoxşaxəli, ardıcıl, mərhələli tədbirlər müəyyən edilmişdir.

Strategiyanın əsas məqsədi dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunu formalaşdırmaqla dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır [2].

Azərbaycanda dövlət qulluğunun müasir tələblər əsasında qurulması prosesində etika məsələləri də prioritet təşkil edir və bu sahədə standartlar təkmilləşdirilir.

Ümumilikdə, dövlət qulluqçuları üçün qüvvədə olan standartlara əlavə olaraq, dövlətin fəaliyyətinin həyata keçirilməsində məsuliyyət daşıyan hökumət üzvləri, nazirlər, hüquq-mühafizə orqanları, vergi və gömrük idarələri və s. kimi maraqlar toqquşması riskinin yüksək olduğu həssas sahələrdə işləyən müəyyən qruplar və ya peşələr üçün əlavə təlimatlar hazırlanmış, etik davranış qaydalarının nəşr olunması və bu qaydaların səmərəli bir şəkildə tətbiq olunması istiqamətində hüquqi çərçivə və güclü nəzarət mexanizmi formalaşdırılmışdır [12, s. 231].

Dövlət qulluğunun praktiki əhəmiyyəti onun dövlət idarəetmə mexanizminin tərkib hissəsi kimi həyata keçirdiyi funksiyasında özünü büruzə verir. Bu isə belə bir qənaətə gəlməyə əsas verir ki, dövlət qulluğu dövlət idarəetməsi ilə qarşılıqlı əlaqədə tədqiq edilməli və öyrənilməlidir. Dövlət qulluğu sahəsində atılan hər bir addımın son məqsədi dövlət idarəetməsinin təkmilləşdirilməsinə xidmət edir. Bu mənada dövlət qulluğu sahəsində çalışan kadrların peşəkarlığı, fəaliyyətlərində şəffaflığın təmin olunması dövlət idarəetməsində keyfiyyətin təmin olunması ilə nəticələnir. Bütün bunlar onu deməyə əsas verir ki, dövlət qulluğu dövlət orqanlarında idarəetmə fəaliyyətinin həyata keçirməsinin təminatçısı kimi çıxış edir. Dövlət adından həyata keçirilən fəaliyyət, problemlərin həlli və s. dövlət idarəetməsi və onu həyata keçirən dövlət qulluğu vasitəsilə yerinə yetirilir.

Dövlət qulluğunun müasir inkişaf mərhələsində sürətli yenilənmələr özünü göstərir. Cəmiyyət həyatının müxtəlif sferalarında baş verən yeniliklər, texnologiyaların inkişafı dövlət qulluğu sisteminin də bu dəyişikliklərə uyğunlaşdırılma zərurətini ortaya qoyur. Dövlət qulluğunun müasir tələblər səviyyəsində qurulması dövlət idarəetmə mexanizminin də təkmilləşdirilməsinə, çevikliyinin təmin olunması ilə nəticələnir. Bu zaman həm idarəetmənin keyfiyyəti artır, həm də idarəolunanların məmnunluğu təmin olunur. Dövlət qulluğunun müasir inkişaf mərhələsi bu sahədə kadrların peşəkarlıq səviyyəsinin artırılması ilə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə də xarakterizə olunur. Bütün bunlar dövlət qulluğu sisteminin müasir mərhələdə qarşısında duran vəzifələrin həyata keçirilməsi işində operativlik və keyfiyyət amilinin yüksəlməsi ilə nəticələnir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2017.
2 “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 23 noyabr 2018 https://president.az/articles/30842
3 “Azərbaycanda yaradılmış “ASAN xidmət” beynəlxalq şirkət tərəfindən yüksək dəyərləndirilib”.
https://azertag.az/xeber/ASAN_xidmet_beynelxalq_sirket_terefinden_yuksek_deyerlendirilib-884112
4. “Azərbaycanda elektron hökumət infrastrukturunun və elektron xidmətlərin monitorinqi və qiymətləndirməsi üzrə Hesabat” http://transparency. az/alac/files
5. “ASAN xidmət” BMT-nin mükafatı ilə təltif edildi https://asan.gov.az /az/ media/press-releases/asan-xidmet-bmt-nin-muekafati-ile-teltif-edildi
6. Babayev F. Dövlət qulluğu və Dövlətin demokratik əsasları. http://lawyers. az/post/-dovlet-qullugu-ve-dovletin-demokratik-esaslari

7. Elektron hökumət haqqında ümumi məlumat https://www.e-gov.az/az/content/read/2
8. Həsənov M. Azərbaycanda dövlət qulluğu sistemindəki islahatlar idarəetmədə mühüm yeniliklərə imza atılmasını şərtləndirib. https://azertag.az /xeber/Azerbaycanda_dovlet_qullugu_sistemindeki_ islahatlar_idareetmede_muhum_yeniliklere_imza_atilmasini_sertlendirib-1174192
9. Hüseynova N. İdarəetmədə müasir islahatların əsas istiqamətləri: şəffaflıq, asan xidmət, vətəndaş məmnunluğu. http://www.azerbaijan-news.az/view
10. Hüseynova N. Sosial dövlətdə idarəetmə və dövlət qulluğu: mahiyyət və məqsəd prizmasında. Azərbaycan. 7 iyun, 2016. s. 7. http://www.azerbaijan-news.az/view-98479/Sosial
11. Nəcəfova D. Dövlət qulluğu anlayışı və onun prinsipləri. http://az.strategiya.az/news.php?id=130857 Dövlət qulluğu anlayışı və onun prinsipləri
12. Rəhimli R. Dovlət qulluğunda etika və onun əsas komponentləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, Bakı, 2018, № 4 (64), s. 225-236.
13. Rzayev Ə.H. Dövlət hakimiyyəti: Konseptual təhlili və onun dövlət qulluğu institutu ilə qarşılıqlı əlaqəsi // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2011, № 2, s. 342.
14. Kamu hizmetine egemen olan ilkeler nelerdir? http://www. hukukitavsiyeler.com/2015/07/21/kamu-hizmetine-egemen-olan-ilkeler-nelerdir
15. Атаманчук Г.В. Сущность государственной службы. М., 2008, с. 312.
16. Манохин В.М. Советская государственная служба. М., 1966, с. 195.
17. Старилов Ю.Н. Институт государственной службы: содержание и структура // Го сударство и право, 1996, № 3, с. 16.
18. Bhatnagar S. E-Government: from Vision to Implementation, Sage Publications, New Delhi / Thousand Oaks. L., 2005. p. 29-30.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Hamdulla Mammadov

CIVIL SERVICE AS AN IMPORTANT ELEMENT OF PUBLIC ADMINISTRATION

In the article, civil service has been studied as an important element of the public administration mechanism. It has been shown that, civil service plays an important role in the implementation of the state's goals and functions. The role and importance of civil service in public administration was also highlighted. Various approaches to civil service have been analyzed. It was noted that, civil service is developing more in democratic political systems. Thus, the democratic system gives a chance to the public service to be more transparent, be open to innovations, and better serve citizens, through state functions.

The bases of constitutional principles of the civil service in the Constitution of the Republic of Azerbaijan and the role of civil service in the implementation of the state functions were studied.

In the period of rapid development, the impact of innovations in all spheres on civil

service has been presented in the article. The consistent and systematic character of the steps to develop civil service system to meet modern requirements in Azerbaijan has been mentioned.

Keywords: *State, civil service, public administration, state functions, civil service innovation, Azerbaijan, e-government.*

Гамдулла Мамедов

ГОСУДАРСТВЕННАЯ СЛУЖБА КАК ВАЖНЫЙ ЭЛЕМЕНТ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ

В данной статье государственная служба исследуется как важный элемент механизма государственного управления. Показано, что государственная служба играет важную роль в процессе претворения в жизнь целей и функций государства. А также подчеркнута роль и значение государственной службы в управлении государством, которое является одним из ключевых акторов политической системы общества.

В статье исследуются, связанные с государственной службой различные подходы. Отмечено, что государственная служба все больше развивается в демократических политических системах. Демократическая система создает условия государственной службе для более прозрачного демонстрирования своих функций, выступая с этих функций предоставлять гражданам службу в более совершенной форме.

Затронуты конституционные основы роли государственной службы, как важного элемента политической системы общества, в процессе претворения в жизнь функций государства, а также изучены основы конституциональных принципов государственной службы в Конституции Азербайджанской Республики.

В статье нашли отражение вопросы воздействия на государственную службу инновационных изменений, которые происходят в современную эпоху бурного развития.

Отмечен последовательный и системный характер шагов в направлении совершенствования системы государственной службы до уровня современных стандартов.

Ключевые слова: *Государства, государственная служба, государственное управление, государственные функции, инновации государственной службы, Азербайджан, электронное правительство.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 18.06.2019
Son variant 10.09.2019

UOT 328;342.5;351/354

SƏBUHİ MEHDİZADƏ

TULLANTILARIN İDARƏ EDİLMƏSİNDƏ DAVAMLI İNKİŞAF İNDİKATORLARININ ROLU

Məqalədə davamlı inkişaf konsepsiyasının əsas göstəriciləri və indikatorları, onların tullantıların idarə olunmasına təsiri, həmçinin davamlı inkişafın təmin olunmasında bərk məişət tullantılarının yaranmasının qarşısının alınması, onların düzgün idarə olunması və təkrar emalı məsələləri tədqiq edilir. Həmçinin məqalədə davamlı inkişafı səciyyələndirən, bu sahədə baş verən prosesləri təhlil edən, planlaşdırmanı və idarəetməni qiymətləndirən, fəaliyyətin effektivliyini yüksəldən indikatorların - enerjidən səmərəli istifadə, xammal qənaəti və tullantıların təkrar istifadəsi, qorunan ərazilərin mövcudluğu kimi göstəricilərin təhlili aparılır.

Qeyd olunur ki, bərk məişət tullantılarının idarə olunmasının davamlı inkişaf strategiyasının mühüm komponenti olmasının səbəbi onların artım tempinin getdikcə yüksəlməsi ilə əlaqədardır. Bərk məişət tullantılarının yaranması əhali artımı ilə, insanların həyat tərzinin dəyişməsi bağlı olmasına baxmayaraq müxtəlif ölkələrdə fərqli normalara malikdir. Normaların fərqli olması isə ölkələrdə bu sahədə aparılan siyasətin və tətbiq edilən müasir texnologiyaların məzmunundan birbaşa asılıdır.

Məhz bu baxımdan Azərbaycan Hökumətinin həyata keçirdiyi "Bərk məişət tullantılarının kompleks idarəçiliyi" layihəsi xüsusi vurğulanmalıdır. Bu layihənin mərhələli şəkildə həyata keçirilməsi ölkədə tullantıların idarəçiliyini təkmilləşdirməklə yanaşı davamlı inkişafın təmin olunmasına da əlverişli şərait yaratmışdır.

Açar sözlər: *davamlı inkişaf, davamlı inkişaf konsepsiyası, tullantılar, bərk məişət tullantıları.*

XX əsrin sonlarında dünyada baş verən mürəkkəb siyasi proseslər fonunda bəşəriyyətin gələcəyi ilə bağlı problemlərin daha da kəskinləşməsi qlobal səviyyədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri edirdi. Bu istiqamətdə atılmış ən mühüm addımlardan biri 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş ümumdünya sammiti idi. Məhz bu sammitdə qlobal ekoloji böhranın qarşısının alınması məqsədi ilə davamlı inkişaf konsepsiyası irəli sürüldü. Sammitin əsas sənədi sayılan "XXI əsrin gündəliyi"ndə bəşəriyyətin gələcəyi üçün təhdid yaradan əsas problemlər və onların həlli istiqamətində atılmalı olan addımların mahiyyəti, davamlı inkişaf konsepsiyasının əsas prinsipləri öz əksini tapmışdır.

Bu hadisədən sonra davamlı inkişaf konsepsiyasının təbliği, tətbiqi, göstəricilər sisteminin yaradılması, qiymətləndirilməsi, bu istiqamətlərdə ölkələrə texniki və institusional yardımların edilməsi məqsədilə BMT sisteminə daxil olan beynəlxalq təşkilatlar fəaliyyət göstərməyə başladı.

Davamlı inkişafı səciyyələndirən və bu istiqamətdə baş verən prosesləri təhlil etmək, onların planlaşdırılması və idarə edilməsini qiymətləndirmək, göstərilən fəaliyyətin effektivliyini yüksəltmək üçün xüsusi göstərici – indikatorlardan istifadə olunur. Beynəlxalq statistikada bu məqsədlər üçün bir neçə göstəricinin xüsusi əhəmiyyəti var. Bunlara enerjidən səmərəli istifadə, xammal qənaəti və tullantıların təkrar istifadəsi, qorunan ərazilərin mövcudluğu və bir sıra digər göstəricilər aid edilə bilər.

Tullantıların idarə edilməsində bu indikatorların özünəməxsus rolu vardır. Bu rol ilk növbədə daha az tullantıların yaranması ilə, daha sonra isə yaranmış tullantıların düzgün idarə olunması və ətraf mühitə dəyən zərərin azaldılması ilə bağlıdır. Bu prosesin daha dərin təhlil olunması üçün bu indikatorlara nəzər salaq.

Enerjinin istehsalı hazırkı dövrdə bir çox hallarda üzvü yanacağın yandırılması hesabına

gerçəkləşdirilir. Bu isə həm bərpa olunmayan təbii ehtiyatların istifadəsini artırmaq, həm də ətraf mühiti çirkləndirmək deməkdir. Elektrik istehsal edən istilik stansiyaları enerjini, əsasən, bərpa olunmayan təbii ehtiyatların yandırılması hesabına alırlar. Bu halda enerjidən səmərəli istifadə etmədikdə bir yandan da xammalın qeyri-səmərəli istifadəsi baş verir. Digər tərəfdən bu stansiyalarda, hətta ən müasir texnologiyalar istifadə edildiyi halda da ətraf mühitə külli miqdarda istixana effekti törədən qazlar buraxılır. Bu tullantıların atmosferə atılması həm lokal miqyasda ekoloji vəziyyəti gərginləşdirir, həm də qlobal problem olan iqlim dəyişiklikləri prosesinə təsir göstərir.

Davamlı inkişafın indikatorları dedikdə iqtisadiyyatın, sosial sferanın və ətraf mühitin vəziyyətinin dəyişməsini xarakterizə edən meyarlar və göstəricilər nəzərdə tutulur. İndikatorlar davamlı inkişaf məqsədlərinə nail olunması vəziyyətini və istifadə edilən resursların səmərəliliyini qiymətləndirməyə imkan verir. Davamlı inkişaf indikatorlarının hazırlanması BMT, Dünya Bankı, İƏİT, Avropa Birliyi, Ətraf mühit problemləri üzrə Elmi Komitə (SCOPE) və digər beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir (6).

İndikatorları hər biri davamlı inkişafın ayrı-ayrı aspektlərini xarakterizə edən ekoloji, iqtisadi, sosial indikatorlar sisteminə və sosial-iqtisadi inkişafın davamlılığının səviyyəsini təyin edən inteqral indikatorlara ayırmaq olar.

BMT-nin davamlı inkişaf üzrə komissiyası aşağıdakı indikatorları 4 əsas qrupa bölmüşdür:

Davamlı inkişafın sosial aspektlərini göstərən indikatorlar;

Davamlı inkişafın iqtisadi aspektlərini xarakterizə edən indikatorlar;

Davamlı inkişafın ekoloji aspektlərini ifadə edən indikatorlar (buraya hidrosferin, qurunun, atmosferin, digər təbii resursların, həmçinin tullantıların xarakterisitkaları da daxildir);

Davamlı inkişafın institusional aspektlərini xarakterizə edən indikatorlar (planlaşdırma və idarəetmə, elmi tədqiqatlar, beynəlxalq hüquqi mexanizmlər, informasiya təminatı, əsas əhali qruplarının rolunun gücləndirilməsi) (9).

İndikatorlar məqsədlərinə görə 3 istiqamətə ayrılır:

1. aparıcı qüvvə indikatorları – davamlı inkişafa təsir edən insan fəaliyyətini, proses və göstəriciləri xarakterizə edir;

2. vəziyyət indikatorları – davamlı inkişafın müxtəlif aspektlərinin hazırkı vəziyyətini xarakterizə edir;

3. reaksiya indikatorları – davamlı inkişafda mövcud vəziyyətin dəyişdirilməsi üçün seçimin və yaxud digər reaksiya üsulunun reallaşdırılmasına imkan verir (6).

Dünya Bankının da davamlı inkişafla bağlı özünəməxsus indikatorlar sistemi mövcuddur. Dünya Bankı hər il BMT tərəfindən davamlı inkişaf məqsədlərinə nail olunması ilə bağlı qoyulmuş hədəflərin yerinə yetirilməsi haqqında hesabatlar hazırlayır. Bu hesabatlarda təhlil edərkən göstəricilərin 6 qrupda qruplaşdırıldığını müəyyən etmək olar: ümumi, əhali, ətraf mühit, iqtisadiyyat, dövlət, bazarlar.

Ümumi indikatorlara əhali (sayı), ərazi (sahəsi) və ümumi daxili məhsul (həcmi) aid edilir. 2000-ci ildən etibarən Dünya Bankı dünyanın inkişaf göstəriciləri ilə bağlı "Yaşıl məlumat kitabçası" nəşr edir (4, 63).

Bərk məişət tullantılarının idarə olunması problemlərinin davamlı inkişaf strategiyasının mühüm komponentidir. Bunun səbəbi isə bərk məişət tullantılarının artım tempinin ildə-ilə artmasıdır. Bunu əsasən əhalinin artımı ilə, daha çox isə insanların həyat tərzinin

dəyişməsi ilə bağlayırlar. Lakin bərk məişət tullantılarının yaranması normaları müxtəlif ölkələrdə bir-birindən fərqlənir. Dünyanın aparıcı ölkələrində bu göstərici bir il üçün ABŞ-da 700 kq, Avropanın inkişaf etmiş ölkələrində 300-417 kq, Rusiyada 260 kq təşkil edir (5, s. 47-49).

Davamlı inkişafda tullantıların idarə olunması ilə bağlı prioritetləri aşağıdakı kimi sıralamaq olar:

– Tullantıların kəmiyyətinin azaldılması;
– Tullantıların tərkibində zərərli maddələrin həcmini azaltmaq;
– Utilizasiya;
– Təkrar istifadə;
– Resiklinq (dövriliyin təmin olunması); (2, 38-45)
– Tullantıların komponentlərinin kompostlanması; (4, 63)
– Ekoloji təmiz təkrar emal;
– Ekoloji təmiz ləğvetmə (tullantıların təkrar emalından sonra qalan qalıqların).

Davamlı inkişaf strategiyası tullantıların zərərsizləşdirilməsi üçün bütün metodlardan istifadəni nəzərdə tutur. Bununla bağlı olaraq dövlət siyasəti prioritet istiqamətləri müəyyən etməlidir. Bərk məişət tullantılarının zərərsizləşdirilməsinin 30 dan artıq metoduna rast gəlmək mümkündür ki, bunlardan 4-ü daha geniş istifadə edilir: zibilxanalarda basdırılma (poliqonlarda), yandırılma, resiklinq (dövriliyin təmin olunması) və kompostlama (3, s. 76-86).

Dünyada bərk məişət tullantılarını hələ də zibilxanalara (poliqonlara) daşıyırlar. Avropa statistikasına görə orta hesabla bərk məişət tullantılarının 40%-i poliqonlara daşınır, 20%-i yandırılır, 23%-i təkrar emal edilir, 17%-i kompostlanır (8, 3).

Azərbaycanda tullantıların əmələ gəlməsi ilə bağlı mövcud olan proqnostik göstəricilər davamlı inkişafın indikatorlarının təhlili baxımından olduqca əhəmiyyətlidir:

Mənbə: Azərbaycan Respublikası Bərk Tullantıların Tam İdarə Edilməsi Layihəsi, Bakı, 2012

Göstəricilər	Vahid	2020	2025	2030	2031
Məişət və Qeydi-Məişət Tullantılarının (MQMT) əmələ gəlməsi	ton/il	1.255.287	1.341.013	1.427.653	1.445.213
Məişət və Qeydi-Məişət Tullantılarının (MQMT) əmələ gəlməsi	m^3/il	5.730.880	6.122.255	6.517.800	6.597.969
Küçələrin süpürülməsi nəticəsində tullantıların (KT) əmələ gəlməsi	ton/il	478.062	510.710	543.706	550.394
Küçələrin süpürülməsi nəticəsində tullantıların (KT) əmələ gəlməsi	m^3/il	869.204	928.564	988.557	1.000.716
Həyət tullantılarının (HT) əmələ gəlməsi	ton/il	382.724	408.861	435.276	440.630
Həyət tullantılarının (HT) əmələ gəlməsi	m^3/il	5.467.483	5.840.870	6.218.235	6.294.719
Ümumi Bərk Məişət Tullantılarının (BMT) əmələ gəlməsi	ton/il	2.116.073	2.260.584	2.406.635	2.436.237
Ümumi Bərk Məişət Tullantılarının (BMT) əmələ gəlməsi ilə bağlı proqnoz	m^3/il	12.067.567	12.891.689	13.724.592	13.893.404
Tullantıların Əmələ gəlmə Normaları					
Orta MQMT – şəhər	kq/adambaşı/gün	0.91	0.91	0.91	0.91
Orta KT – şəhər	kq/adambaşı/gün	0.35	0.35	0.35	0.35
Orta HT – şəhər	kq/adambaşı/gün	0.28	0.28	0.28	0.28
Orta ümumi BMT – şəhər	kq/adambaşı/gün	1.54	1.54	1.54	1.54


Davamlı inkişaf naminə tullantıların idarə olunması baxımından onların formalaşması mənbələrinin müəyyən edilməsi olduqca mühüm əhəmiyyət daşıyır. İstehsalat və məişət tullantıları haqqında Azərbaycan Respublikasının qanununda tullantıları xarakterinə görə bir neçə təsnifatı göstərilir. Bunlardan birincisi istehsal və istehlakla bağlı təsnifatdır: buraya iki tullantı növünü aid etmək olar: istehsalat tullantıları və məişət tullantıları (şəkil 1).

Qanuna əsasən istehsalat tullantıları dedikdə istehsal, yaxud işlərin (xidmətlərin) yerinə yetirilməsi prosesində əmələ gələn və ilkin istehlak xüsusiyyətlərini tam və ya qismən itirən xammal, material, maddə, yarımfabrikat, əşya və digər məhsulların qalıqları, habelə istehsal obyekti olmayan və öz istifadə olunma xüsusiyyətlərinə görə texnoloji prosesə daxil olmayan, yenidən əmələ gələn eyni mənşəli əşya və maddələr nəzərdə tutulur.

Məişət tullantıları (bərk məişət tullantıları) isə əhalinin həyat fəaliyyəti nəticəsində yaşayış yerlərində əmələ gələn əşyalar, maddələr və materiallardır.

Ətraf mühitə və insanların yaşam mühitinə, sağlamlığına təsiri nöqteyi-nəzərindən təhlükəli və təhlükəsiz tullantılar mövcuddur:

Təhlükəli tullantılar – tərkibində təhlükəli xüsusiyyətlərə malik partlayıcı, yanma qabiliyyətli, oksidləşdirici, toksiki, infeksion, korroziya təsirinə malik və ekotoksiki maddələr olan, əhalinin sağlamlığı və ətraf mühit ucun bilavasitə və ya potensial təhlükə yaradan tullantılar, təhlükəsiz tullantılar isə ətraf mühitə bilavasitə təhlükəli təsir göstərməyən tullantılardır.



Təkrar istehsalının mümkünlüyü nöqteyi-nəzərindən təkrar xammal və yarasız tullantılar: təkrar xammal – texniki və ya texnoloji imkanlar, həmçinin iqtisadi səmərəlilik nəzərə alınmaqla təsərrüfat fəaliyyətində təkrar istifadə oluna bilən tullantılar; yararsız tullantılar – istifadə olunma xüsusiyyətləri məhdud olan, təkrar istifadəsi iqtisadi baxımdan səmərəli olmayan tullantılar nəzərdə tutulur.

Məişət tullantılarının təsnifatı



İnkişaf etmiş ölkələrdə, o cümlədən Azərbaycanda məişət tullantılarının emalı, ətraf mühitə təsirinin öyrənilməsi və optimallaşdınlması, poliqon texnologiyasının tətbiqi, tullantıların texnoloji və ekoloji qiymətləndirilməsi, təkrar emalı, xammal kimi istifadə olunma potensialı olduqca aktual məsələdir. Dünya əhalisinin fasiləsiz olaraq artması və nəticədə məişət tullantılarının ətraf təbii mühitə kortəbii və ya düşünülmüş şəkildə atılması, onların qiymətləndirilməsini və təbiətə zərər gətirməyəcək şəkildə kompleks emalı məsələsini daha da aktual edir. Hal-hazırda tullantıların (istehsal, tibbi, radioaktiv, tikinti və s.), xüsusilə məişət tullantılarının düzgün iqtisadi qiymətləndirilməsi, ekoloji tarazlıq nəzərə alınaraq idarə edilməsi ciddi ekoloji problemlər arasındadır və beynəlxalq səviyyədə bu məsələyə baxılır. Əgər düzgün şəkildə səmərəliliyi dəyərləndirilərsə, məişət tullantıları həm xammal kimi qiymətləndirilərək iqtisadi inkişafa səbəb olar həm də ətraf təbii mühiti tullantının yaratdığı dönülməz ekoloji kadastrlardan (basdırılma zamanı torpaqlar məhv olur, təbiətdə yığılaraq epidemik xəstəliklər çoxalır, sulara atılaraq hidrosferdə canlıların ölümünə səbəb olur, kortəbii yandırılaraq dioksin maddəsinin ətraf təbii mühitə yayılmasına səbəb olur və s.) qismən də olsa qoruyar. Bu kimi səbəblərdən məişət tullantılarının qiymətləndirilməsi, kompleks emalının tətbiqi, emalı metodlarının innovativ üsullarının kəşfi, tətbiqi, tullantıların idarə edilməsinin nəinki inkişaf etmiş, həmçinin inkişafda olan ölkələrdə təşkili yalnız ətraf təbii mühitə və ya ölkənin inkişafı üçün deyil, canlı orqanizmlər o cümlədən insanların sağlamlığı üçün mütləqdir və bu baxımdan mühüm əhəmiyyət kəsb edir

Məlumdur ki, məişət tullantıları (bərk məişət tullantıları və məişət-fekal suları) ictimai fəaliyyətdə əmələ gələn, iqtisadi dəyəri yüksək olan, lakin ətraf mühitdə yığılarsa ciddi təhlükələr doğuran, məişətdə yararsız hesab edilən artıq maddələrdir. Məişət tullantıları bir tərəfdən insan sağlamlığına zərəri olmaqla yanaşı təbii mühiti çirkləndirir, amma sənaye üçün də güclü xammal resursudur. Bu o deməkdir ki, texnoloji və ekoloji olaraq düzgün qiymətləndirilərsə təbii sərvətlərə, onların çıxarılmasına, istismara sərf olunan enerjiyə qənaət olunar və gələcək nəsillərə daha sağlam təbiət bəxş edilər.

Tullantıların xüsusiyyətlərindən faydalanılaraq içindəki komponentlərin fiziki, kimyəvi və ya biokimyəvi üsullarla başqa məhsullara və ya enerjiyə çevrilməsinə tullantıların emalı deyilir. Məlumdur ki, şüşə, plastik, kağız/karton, metal kimi ekoloji-iqtisadi dəyərləndirilə bilən maddələr müəyyən fiziki, kimyəvi emaldan sonra xam maddəyə və ya yeni bir maddəyə çevrilə bilər. Təkrar emal metodu maddəyə görə müxtəlif tətbiq oluna bilər. Təbiidir ki, məişət tullantılarının emalının ətraf təbii mühitə təsiri istənilən halda müsbətdir, çünki həm iqtisadi həm ekoloji baxımdan çox sərfəli tullantıların qiymətləndirilməsi metodudur.

Tullantıların idarə edilməsinin iyerarxiyası




Tullantıların, o cümlədən məişət tullantılarının təkrar emalı nəticəsində təbii qaynaqlarımız qorunur, enerji qənaəti təmin edilir, iqtisadiyyata qatqı təmin edilir, zibilliyə gedən tullantı miqdarı azalır və gələcəyə sərmayə edilir.

Ətraf mühit üçün qorxulu təhlükə olan məişət yağları hal hazırda saflaşdırma və regenerasiya metodları ilə emal olunur ki, bunun ətraf təbii mühitə təsiri yox səviyyəsinə düşür.

Azərbaycanda məişət tullantılarının emalı mövzusunda müəyyən tədbirlər görülür və gələcəyi parlaqdır. Şüşə, kağız, karton, plastik və metal kimi tullantılar xüsusilə zibil tökmə ərazilərindən və küçə kollektorlar vasitəsilə küçələrdən toplanır və xam maddə qaynağı olaraq müxtəlif sektorlarda istifadə edilir.

Bərk məişət tullantılarının idarə olunması sxemi:



Bilindiyi kimi insanlar həyatlarını davam etdirmək və həyat standartlarını yüksəltmək üçün davamlı istehsal və istehlak edərlər. İstehsal və istehlak mərhələsində tullantı və artıqlar ortaya çıxır. Çıxan tullantıların çoxunun iqtisadi dəyəri yüksəkdir. Ancaq bunların bir çoxunun

birbaşa və ya alternativ məhsul olaraq istifadə etmədən əvvəl fiziki kimyəvi və ya bioloji əməliyyatlardan keçirilməsi lazımdır. Saflaşdırma əməliyyatı sonunda əldə edilən məhsullar, birbaşa istifadə edildiyi kimi alternativ məhsul olaraq da qiymətləndirilir.

Ümumiyyətlə məişət tullantılarının emalı sektoru çox yeni olmasına baxmayaraq yüzlərlə adam bu sektorda işləyərək ölkə iqtisadiyyatına əlavə dəyər verirlər. Digər tərəfdən tullantı və artıqlar qaynaqlanan ətraf mühit problemlərinin həllinə də öz töhfəsini verir. Tullantı yağların təkrar emalı, bu yağların təbiətə zərər verməsini önləyərək, gələcək nəsillər üçün təmiz bir dünya vəd etməyə imkan verir.

Təkcə məişət tullantıları deyil, digər tullantıların da emal məsələsinə dünya səviyyəsində baxılır və onların ətraf mühitə vura biləcək ziyan beynəlxalq şəkildə başa düşülsün deyə hər maddənin, məhsulun özünün təkrar emal kodu vardır və bu məhsulun üzərində göstərilir.

Məişət tullantılarını emal edərək, bir çox vəsaiti təkrar qazanmaq mümkündür. Yenidən işlənməsi ən asan vəsaitlər olan dəmir və polad dünyada ən çox təkrar emal olunan tullantılardır. Alüminium dəfələrlə təkrar emal oluna bilən və hətta hər dəfəsində xüsusiyyətlərini itirməyən bir material olaraq diqqət çəkir.

Tullantıların emalının ətraf mühitə təsiri olduqca müsbətdir. Kağızı emal edərək, kağızdan kağız düzəldilir, beləliklə kağız istehsalı üçün ağac seqmentini azaldıb, meşələrin yox olmasının qarşısını almaq mümkündür. Plastik materialları təkrar emal edərək neft istehlakını önləmək olar.

Təbii resurslar dünya əhalisinin artması və istehlak vərdişlərinin dəyişməsi səbəbi ilə hər keçən gün azalır. Bu səbəblə resurs istehlakını azaltmaq, qiymətləndirilən xüsusiyyətli tullantıları emal edərək təbii resursları məhsuldar istifadə etmək lazımdır. Ona görə də məişət tullantılarının emalı təbii sərvətlərin qorunması və səmərəli istifadə edilməsi üçün son dərəcə əhəmiyyətli bir əməliyyatdır.

Sağlam olmağın əsas təməli sağlam ətraf təbii mühit və orada yaşamaqdır. Azərbaycan Respublikasının Konstitusiyasının 39-cu maddəsi insanların sağlam mühitdə yaşamaq hüququndan bəhs edir:

Maddə 39. Sağlam ətraf mühitdə yaşamaq hüququ

I. Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır(10).

İstehlak tullantıları, tullantıların dövriyyəsi yəni, əmələ gəldiyi andan utilizasiya (zərərsizləşdirmə) mərhələsinə qədər ətraf mühit və insanlarla birbaşa və ya dolayı yolla da olsa müəyyən qarşılıqlı təsirdədir. Bu təsirlərin müsbət yönümlü olması üçün, təkrar emal prosesinin düzgün getməsi vacib, mühüm məsələdir. Belə ki, təkrar emal oluna bilən kommunal tullantılardan yeni xam maddə əldə etmək üçün əsas məsələ, bu tullantıların mənbədə düzgün çeşidlənmiş və "təmiz" (məsələn, kağız ilə yağın eyni yerə atılmaması kimi) yığılması mütləqdir. Çünki, təmiz şəkildə olmazsa emal prosesindən sonra əmələ gələn maddənin keyfiyyəti zəif olur.

Təkrar emalın Azərbaycandakı tətbiqi əsasən zibilin yığılması, zavodda çeşidlənməsi, yandırılma və poliqonda basdırılmadan ibarətdir. Bu sahədə təcrübələri əsasən alman texnologiyasına uyğunlaşdırılması ətraf təbii mühitə təsiri optimallaşdırır. Emal prosesi ilə tullantı problemindən birdəfəlik qurtulmaq mümkün olmasa da, ətraf təbii mühitin yaxşılaşdırılmasında mühüm rol oynayır. İstehlak və istehsal tullantılarının emal nəticəsində yenidən istifadəsi həm təbii sərvətləri qoruyur, həm də enerjiyə qənaət edir. Məsələn, bioqazın alınması.

Kağız istehsalı üçün ağaclar kəsilir, şüşə istehsalı üçün daş və qum istifadə edilir, paket ya da qablaşdırma istehsalı üçün yenə təbii resurslardan faydalanılır və hər istehsal nəticəsində

təbii ehtiyatlar azalır. Məhz bunu nəzərə alan ölkə və istehsalçılar, istehlakçılar təbii sərvətlərin kortəbii istismarının qarşısını almaq, irəlidə yaşana biləcək enerji böhranlarının qarşısını almaq üçün tullantıları təkrar emal etməyə çalışır, müxtəlif üsullar axtarır və inkişaf etdirirlər.

Azərbaycanda və digər ölkələrdə təkrar emalın tətbiqi təbiətin ancaq bir neçə əsrdə hətta bir neçə minillikdə tamamilə yox edə bildiyi tullantıların təbiətə buraxılmasının, yığılmasının qarşısını alır.

Tullantıların bir küncə atılıb çürüməyə tərk edilməsi yerinə iqtisadiyyata xeyir verməsini təmin edən təkrar emalın təbiətə verdiyi müsbət təsirlər olduqca əvəzsizdir.

Bərk məişət tullantılarının müasir standartlara uyğun idarə edilməsi məsələsinin kompleks şəkildə həll edilməsi məqsədi ilə 20 may 2009-cu il tarixində Azərbaycan Hökuməti tərəfindən İqtisadi İnkişaf Nazirliyi və Dünya Bankı arasında kredit sazişi imzalanmış və onun əsasında maliyyələşdirilmiş "Bərk məişət tullantılarının kompleks idarəçiliyi" layihəsi həyata keçirilmişdir. Layihə 5 il idarə icra edilmiş və aşağıdakı komponentlərdən ibarət olmuşdur:

1. Layihənin institusional islahat, potensialın artırılması və layihənin idarə olunması;
2. Balaxanı poliqonunun bərpası, təkmilləşdirilməsi və idarə edilməsi;
3. Digər qeyri-qanuni poliqonların bağlanması və idarə edilməsi;
4. Tullantıların toplanması üçün avadanlıqların təchizi;
5. Layihədən sonrakı investisiyaların Texniki Hazırlığı.

Məişət tullantılarının, buraya bərk istehlak tullantıları o cümlədən məişət-fekal suları aiddir, düzgün şəkildə çeşidlənməsi, iqtisadi-ekoloji və texnoloji qiymətləndirilməsi, emalı, təkrar istifadəsi yaranan tullantıları azaldaraq ekoloji bizneslə məşğul olan sahibkarlara sərfəli ekoloji bazar formalaşdırmaqla kifayətlənməyib, kommunal tullantıların ətraf mühitdə yığılaraq pis təsirlər əmələ gətirməsinin qarşısını alır. Bu isə həm ekoloji həm də iqtisadi səmərəli haldır. Qlobal istiləşmə əmələ gətirən metan qazı əgər əvvəl sənaye müəssisələrindən, nəqliyyatdan atılırdısa, indi bərk məişət tullantılarının Azərbaycan timsalında bölgələrdə, iri şəhərlərimizdə düzgün tullantı idarə edilməsi qurulmadığından küçələrdə toplanan tullantıların çürüməsindən əmələ gəlir. Bundan əlavə, təbii sərvətlərin istismarı azaldığından, torpaqlara da qənaət olunur. Həmçinin tullantılar ekoloji mədəniyyətsiz şəkildə dənizlərə, meşələrə yəni bir sözlə insanın istifadə (şüursuz şəkildə) etdiyi hər yerdə, gələcək nəsilləri düşünülməyən hərəkətləri sayəsində nəinki digər insanlara o cümlədən biotaya, faunaya (buna sübut polietilen sellofanlardan ölən heyvanları göstərmək olar) zərər vurmuş olur.

Ümumiyyətlə məişət tullantılarının emalı prosesi təkrar emal oluna bilən tullantıların əmələ gəldiyi mənbədə çeşidlənmiş şəkildə toplanması, texnoloji, ekoloji metodlarla emalının tətbiqi, başqa maddəyə və enerjiyə çevrilməsidir və bu proseslərdə müəyyən mənada ətraf təbii mühitə təsirlər baş verir.

Dünyada insan əhalisinin artması, istehsal texnologiyasının yayılması, hazır yemək istehlak vərdişinin sürətlə yayılması, qida mühafizə prinsiplərinin bilinməməsi, qida gigiyenası çatışmazlıqları, israf və s. səbəblərlə hər gün minlərlə ton tullantı meydana gəlir və bu tullantıların böyük bir qismini məişət tullantıları təşkil edir. Sürətlə bir şəkildə artan tullantıların nizamlı bir şəkildə sağlamlığa zərər vermədən yığılması, toplanması və yox edilməsi ya da emal prosesi isə təkrar istifadəyə verilməsi ətraf mühitin çirklənməsinin qarşısının alınması və cəmiyyət sağlamlığı baxımından böyük əhəmiyyət kəsb edir. Kommunal tullantıları fiziki baxımdan çox miqdarda zibil yığınlarının meydana gətirməsi və estetik görünüşün pozulması, kimyəvi baxımdan su sızıntıları ilə torpaq, su çirkliliyinə səbəb olması, belə zərərli maddələrin bitki və qida maddələrinə keçməsi və mikrobioloji baxımdan təmasla insan sağlamlığının

pozulmasına, yoluxucu xəstəliklərin yayılması, ətrafda pis qoxuların yayılması, ağcaqanad, siçan və s. həşəratların çoxalması kimi ətrafa mənfi təsirləri vardır. Tullantıların emalının müasir tətbiqləri ətraf təbii mühitin yaxşılaşdırılmasında mühüm, əvəzsiz rol oynayır. Evlərdə istehlak tullantılar ayrı-ayrı qablarda şüşə, plastik, kağız, tənəkə kimi təsnif edilərək nizamlı və sağlam bir şəkildə toplanıb depolanmaqla təkrar emala verilsə, tullantıların düzgün idarə edilməsinə qatqı təmin edilmiş olmaqla birlikdə ölkə iqtisadiyyatına və cəmiyyətin sağlamlığına da bilavasitə olaraq fayda təmin edilmiş olar.

Beləliklə belə qənaətə gəlmək olar ki, davamlı inkişafın təmin olunmasında tullantıların idarə olunması xüsusi rol oynayır. Davamlı inkişafda tullantıların idarə olunmasında əsas yanaşma onların təkrar emalı, tullantıların ətraf mühitə vurduğu ziyanın minimuma endirilməsi, o cümlədən daha az tullantılı texnologiyaların yaradılmasından və tətbiq edilməsindən ibarətdir. Bu məqsədlə dünyada və ölkəmizdə müxtəlif layihələr icra olunmaqdadır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2017
2. Букринская Э., Мясникова Л. Логистическое обеспечение рециклинга ТБО в мегаполисе // РИСК: Ресурсы. Информация. Снабжение. Конкуренция. 4’2006, с. 38-45.
3. Костовецкий В. П. Система обеспечения обращения с отходами потребления в Мос ковском регионе // Управление твердыми бытовыми отходами в Московском регионе сегодня и завтра: Материалы 1-го научно-методического семинара / Московский общ. научный фонд. Москва, 1999, с.76-86.
4. Кузьменкова А. М. Использование компостов из твердых бытовых отходов. Москва: Россельхозиздат, 1976, 63 с.
5. Chilton M., “WTE Worldwide”, Waste Management World, Nov-Dec 2008, 47-49, 2008.
6. Indicators of Sustainable Development, UN Department for Policy Coordination and Sustainable Development, December, 1994.
7. Indicators of Sustainable Development: Guidelines and Methodologies. Third edition. October 2007. United Nations, 2007. 99 p. URL: http://www.un.org/esa/sustdev/natlinfo/indicators/guidelines.pdf (27.09.2017).
8. Municipal Waste // Eurostat News Release, 2010, 3 p. (http://ec.europa.eu/eurostat).
9. The Genuine Progress Indicator. A Tool for Sustainable Development / Dr. John Talberth, Clifford Cobb and Noah Slattery, Oakland, CA 94612, 2006, p. 31.
10. The Little Green Data Book 2006. Word Bank, Washington DC, 2006, p. 256.
11. http://eco.gov.az/az/1178-tullantilarin-idare-olunmasi

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
E-mail: sabuhibmw@yaho.co.uk

Sabuhi Mehdizade

THE ROLE OF SUSTAINABLE DEVELOPMENT INDICATORS IN WASTE MANAGEMENT

The article examines key indicators of sustainable development concept, their impact on waste management, as well as the issues relating to prevention, proper management and

recycling of solid waste in ensuring sustainable development. The article also analyzes the indicators such asefficient use of energy, resource saving, waste recycling and availability of protected areas, that characterize sustainable development, analyze the processes taking place in this area, evaluate planning and management, and increase the efficiency of performance.

It is noted that the reason why solid waste management is an important component of sustainable development strategy is due to the gradual increase in their growth rates. Despite the solid household waste is associated with population growth and changing people's lifestyles, they have different norms in different countries. The differences in the norms directly depend on the concept of policy in the countries and modern technologies used in this area.

In this regard, the project "Integrated Solid Waste Management" which is implemented by the Government of Azerbaijan should be emphasized. The gradual implementation of this project has not only improved waste management in the country, but has also created favorable conditions for sustainable development.

Keywords: *Sustainable development, the concept of sustainable development, waste, solid waste.*

Сабухи Мехтизаде

РОЛЬ ИНДИКАТОРОВ УСТОЙЧИВОГО РАЗВИТИЯ В УПРАВЛЕНИИ ОТХОДАМИ

В данной статье исследуются основные показатели и индикаторы концепции устойчивого развития, влияние их на управление отходами, а также вопросы предотвращения образования твердых бытовых отходов, их правильного управления и переработки с целью обеспечения устойчивого развития. В статье также исследуются такие индикаторы и их показатели, как эффективное использование энергии, экономия сырья и повторное использование отходов, наличие охраняемых территорий, характеризующие устойчивое развитие, анализирующие происходящие в данной области процессы, оценивающие планирование и управление, повышающие эффективность деятельности.

В статье отмечается, что причина, по которой управление твердыми бытовыми отходами является важным компонентом стратегии устойчивого развития, связана с постепенным увеличением их темпов роста. Несмотря на то, что образование твердых бытовых отходов связано с ростом населения, а также с изменением их жизненных условий, в различных странах ему присущи разные нормы. Различия в нормах же напрямую зависят от политики стран в этой области и используемых современных технологий.

Ключевые слова: *устойчивое развитие, концепция устойчивого развития, отходы, твердые бытовые отходы.*

(AMEA-nın həqiqi üzvü Urxan Ələkbərov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: **İlkin variant 23.06.2019**
Son variant 11.09.2019

YUBİLEYLƏR

GÖRKƏMLİ ALİM, BACARIQLI ELM TƏŞKİLATÇISI

Görkəmli alim, Azərbaycan elm və təhsil sahələrinin nüfuzlu nümayəndələrindən biri, Azərbaycan MEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Fəxrəddin Səfərlinin 70 yaşı tamam olur.

Fəxrəddin Səfərli Azərbaycan tarix elmini və təhsilini yorulmaz fəaliyyəti ilə daim zənginləşdirən məhsuldar elm adamı, bacarıqlı elm təşkilatçısı, təcrübəli təhsil nümayəndəsi kimi böyük hörmət və nüfuz qazanmışdır. O, Azərbaycan tarixinin müxtəlif problemlərinə, xüsusilə epiqrafika sahəsinə aid neçə-neçə sanballı əsər yazmış, tariximizin çox çətin sahəsi olan daş kitabələrin tədqiq edilməsinə layiqli töhfəsini vermişdir. Azərbaycan tarix elmində bu sahə ilə məşğul olan tədqiqatçılar o qədər də çox deyildir... F.Səfərli bu çətin sahənin mükəmməl bilicisidir.

1949-cu il sentyabrın 29-da Naxçıvan Muxtar Respublikasının Cəhri kəndində (indiki Babək rayonu) anadan olan Fəxrəddin Səfərli 1966-cı ildə kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının tarix ixtisasına daxil olur. 1971-ci ildə həmin ixtisası müvəffəqiyyətlə bitirən Fəxrəddin müəllim doğulduğu Cəhri kənd orta məktəbində tarix müəllimi kimi pedaqoji fəaliyyətə başlayır və 1979-cu ilə qədər burada özünü bacarıqlı müəllim, tədris etdiyi fənni mükəmməl bilən, onu şagirdlərə sevdirməyi bacaran pedaqoq və tərbiyəçi kimi təsdiq edir.

Müəllim işlədiyi dövrdə o, özünü savadlı müəllim, kamil pedaqoq kimi göstərdiyindən şagird və müəllimlərin, valideynlərin dərin hörmətini qazanır. O, yenilikçi və novator müəllim kimi məktəb kollektivinin sevimlisinə çevrilir. Lakin tarix elminə sonsuz marağı onu tədqiqatçılığa, elm dalınca getməyə həvəsləndirir. Elə bu maraq onu Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Elmi Mərkəzinə gətirir. Vaxtı ilə tələbə kimi oxuduğu binada indi Elmi Mərkəz yerləşirdi. Sanki doğma divarlar, otaqlar da onu elmə həvəsləndirirdi. Elmi Mərkəzin də gənc tədqiqatçılara böyük ehtiyacı var idi.

Elmi fəaliyyətə başlayan Fəxrəddin müəllim Azərbaycan tarixinin çox vacib və köməkçi bir sahəsini – epiqrafikanı seçir. "Kitabə" mənasını verən epiqrafikaya tariximizin böyük ehtiyacı var idi. Naxçıvan şəhərində, muxtar respublika ərazisindəki onlarla tarix və mədəniyyət abidələri üzərindəki, unudulmuş orta əsr qəbiristanlıqlarındakı kitabələr tədqiqatçılarını gözləyirdi. Azərbaycan tarixinə və tarixi abidələrimizə maraq onu Azərbaycan Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun "Arxeologiya və Etnoqrafiya" bölməsinə aparıb çıxarmışdır. O, burada dissertant olmuş, Naxçıvanın epiqrafik abidələrinin tədqiqinə başlamışdır.

Fəxrəddin Səfərli "Naxçıvan MSSR-in ərəb-fars dilli kitabələri tarix-mədəniyyət abidələri kimi (XVI-XIX əsrlər)" mövzusunu namizədlik dissertasiyası seçir. Muxtar respublika ərazisindəki ərəb-fars dilli kitabələri qeydə alır, estamplarını götürür, mətnlərini oxuyaraq tərcümə edir, tədqiq etməyə başlayır. Apardığı elmi araşdırmaları yekunlaşdıraraq 1987-ci ildə uğurla dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi alır. Naxçıvan Elmi Mərkəzində kiçik elmi işçi kimi fəaliyyətə başlayan Fəxrəddin müəllim böyük elmi işçi, "Arxeologiya və etnoqrafiya" şöbəsinin müdiri vəzifəsinə yüksəlir.

Təcrübəsi artan, fəaliyyət dairəsi genişlənən Fəxrəddin müəllim Naxçıvan Muxtar

Respublikasının müsəlman epiqrafikası abidələrinin əksəriyyətini qeydə alır, onları Azərbaycanın Orta əsrlər dövrü tarix və mədəniyyətinin mənbəyi kimi tədqiq edir, çoxlu görkəmli şəxsiyyəti adlarını, qəbirlərinin yerini, vəfat tarixini, bir sıra yaşayış məskənlərinin dövrünü müəyyən edir. Ərazidəki kitabələrin çoxu məhz onun tədqiqatları ilə ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilir. O, Naxçıvan bölgəsinin epiqrafikasına aid "Ordubad şəhərinin epiqrafik abidələri", "Culfa bölgəsinin epiqrafik abidələri", "Naxçıvan şəhərinin epiqrafik abidələri", "Эпиграфические памятники Нахчывана", "Epiqrafika", "Müsəlman kitabələri tarix-mədəniyyət abidələri kimi", "Azərbaycan tarixi dərslərində epiqrafik materiallardan istifadə" və s. kimi monoqrafiya, kitab, dərslik, tədris və metodik vəsaitləri hazırlayıb nəşr etdirir. Müəllifin "Naxçıvan epiqrafik abidələrində görkəmli şəxsiyyətlər" monoqrafiyasında Naxçıvan Muxtar Respublikası ərazisindəki epiqrafik abidələrin məlumatları əsasında orta əsrlər zamanı Azərbaycan dövlətlərinə rəhbərlik etmiş 10 hökmdar və 97 nəfər görkəmli dövlət xadimi, alim, sənətkar və b. haqqında geniş məlumatlar verilmiş, onların fəaliyyətlərindən bəhs edilmişdir. Bütün bunlar Fəxrəddin müəllimi respublikamızda görkəmli epiqrafist alim kimi tanıtmışdır.

Fəxrəddin müəllimin fəaliyyətində Naxçıvan Dövlət Universitetində çalışdığı illər mühüm yer tutur. 1995-ci ildə NDU-da müəllim kimi fəaliyyət göstərən F.Səfərli, sonradan "Azərbaycan tarixi" kafedrasının professoru, 2002-2007-ci illərdə isə Universitet Həmkarlar İttifaqı Komitəsinin sədri olmuşdur. NDU-nun nüfuzlu ali məktəbə çevrilməsində, onun maddi-texniki bazasının möhkəmləndirilməsində, yüksək ixtisaslı kadrların hazırlanmasında, əməkdaşların sosial vəziyyətlərinin yaxşılaşdırılmasında Fəxrəddin Səfərlinin müstəsna əməyi olmuşdur. Həmin illərdə Naxçıvan Dövlət Universiteti Azərbaycan ali təhsil müəssisələri arasında bir çox parametrlərə görə birinci yerə çıxmışdır. 2006-cı ilin elmi-tədqiqat işlərinin nəticələrinə görə NDU Elmi Şurasının qərarı ilə "İlin alimi" adına layiq görülmüşdür.

Fəxrəddin müəllimin elmi-tədqiqat sahəsi çox genişdir. Elmi yaradıcılığa, araşdırmalara başlayan və elmlər namizədi elmi dərəcəsi alan F.Səfərli, sonradan daha aktual problemləri tədqiq etməyə, Azərbaycan tarixinin sovet dövründə yasaq edilmiş problemlərini araşdırmağa başladı.

Onun "Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər" mövzusundakı doktorluq dissertasiyası Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq maddi-mədəniyyət nümunələri, orta əsr qaynaqları, epiqrafik faktlar əsasında müsəlman ruhanilərinin, Naxçıvanda fəaliyyət göstərən sosial-siyasi və ideoloji mərkəzlərin (xanəgahların, ziyarətgahların, məscidlərin, mədrəsələrin) ölkənin həyatında rolu və mövqeyi məsələsi tədqiq olunmuşdur. Bununla bağlı müəllifin üç monoqrafiyası – "Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər", "Naxçıvanda sufiliklər bağlı mərkəzlər", "Orta əsrlər zamanı Naxçıvanın sosial-siyasi həyatında dini mərkəzlərin rolu" və çoxsaylı elmi məqalələri çap edilmişdir. Bu əsərlərdə sufizmin mənşəyi, təşəkkülü, yayılması, mərkəzləri və sufi şeyxləri haqqında, o cümlədən Şeyx Əbu Səid, Şeyx Hacı Lələ Məlik, Şeyx Hacı Hilalullah, Əmir xəlifə, Nemətullah Naxçıvani, qadın sufilər və başqaları haqqında əhatəli, dolğun məlumatlar verilmişdir. İlk dəfə olaraq Naxçıvanın məscid və ziyarətgahları ümumiləşdirilərək hər biri haqqında yığcam bəhs edilmişdir. Müəllif Naxçıvanda məktəb və mədrəsələrin fəaliyyəti ilə bağlı qeyd edir ki, Naxçıvanın geostrateji mövqeyi və onun Xilafətin Bizansa qarşı mübarizəsinin əsas dayaq nöqtələrindən biri olmasını nəzərə alaraq, ərəblər bu ölkədə elmin, təhsilin inkişafına şərait yaratmış və kömək etmişlər. F.Səfərlinin bu araşdırmalarına hələ vaxtilə akademiklər Z.Bünyadov, İ.Həbibbəyli, N.Vəlixanlı, AMEA-nın müxbir üzvləri M.Nemət və Q.Qədirzadə çox yüksək qiymət vermişlər: "F.Səfərli

özünü mükəmməl və ciddi tədqiqatçı kimi göstərmişdir (Z.Bünyadov); "Fəxrəddin Səfərlini digər epiqrafist alimlərdən fərqləndirən cəhət onun tədqiqatlarında problemlərə olan kompleks münasibətdir" (İ.Həbibbəyli); "Vaxtilə Naxçıvanda fəaliyyət göstərib dövlətlərinin məşhurlarına çevrilsələr də, heç bir qaynaqda adları qalmayan ruhanilərin fəaliyyətlərinin işıqlandırılması, onların cəmiyyətdə rolları və mövqelərinin aydınlaşdırılması tədqiqatçının maraqlı məqamlarındandır. Müxtəlif ərazilərdəki ziyarətgahların fəaliyyətlərini öyrənməklə Naxçıvanın Azərbaycanın sosial-siyasi və ideoloji mərkəzlərindən biri olduğunu sübuta yetirmişdir" (N.Vəlixanlı); "Kitabələrə və digər tarixi mənbələrə əsasən müəllifin orta əsrlərdə Naxçıvan bölgəsində fəaliyyət göstərmiş Qələndəriyyə, Hürufilik, Bektaşilik, Səfəviyyə, Nöqtəviyyə və digər sufi cəmiyyətlərinin və mərkəzlərinin fəaliyyətindən bəhs etməsi, bunları genişliyi ilə dövriyyəyə gətirməsi onun yetkin tədqiqatçılıq bacarığı ilə bağlıdır" (M.Nemət); "Fəxrəddin Səfərli ciddi və geniş diapazona malik tədqiqatçı, xeyirxah söz və əməl sahibi, Vətənə, xalqa sədaqət, milli-mənəvi dəyərlərə bağlılıq nümunəsidir" (Q.Qədirzadə) və b.

F.Səfərlinin 2007-ci ildən sonrakı dövr elmi fəaliyyəti AMEA Naxçıvan Bölməsi və onun Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu ilə bağlı olmuşdur. O, 2007-ci ilin oktyabrından həmin instituta direktor seçilmiş, bütün fəaliyyətini institutun rol və mövqeyinin möhkəmləndirilməsi, kadr potensialının artırılması və elmi fəaliyyətinin gücləndirilməsinə sərf etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli Sərəncamı ilə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin qeydə alınması və pasportlaşdırılması bir vəzifə olaraq qarşıya qoyulmuşdu. F.Səfərlinin rəhbərliyi ilə institut əməkdaşları iki il ərzində 1200-dən çox tarix və mədəniyyət abidələrini aşkar etmiş, qeydə almış və pasportlaşdırmışdır. Bu tarix və mədəniyyət abidələrindən 600-ə yaxını dünya və ölkə əhəmiyyətli abidələrdir. Həmin abidələr əsasında "Naxçıvan abidələri ensiklopediyası" hazırlanıb iki dildə (Azərbaycan və ingilis) beş min tirajla nəşr edildi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvan abidələrindən bəhs edərkən demişdir: "Naxçıvanın ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir..."

Tarix və mədəniyyətə, tarixi abidələrə, milli-mənəvi dəyərlərə bağlılıq Fəxrəddin müəllimin elmi fəaliyyətində mühüm yer tutur. Onun "Duaların allaha çatdığı yer – Əshabi-Kəhf", "Əshabi-Kəhf ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi", "Naxçıvanın məscid və ziyarətgahları", "Naxçıvan imamzadələri", "Naxçıvan türbələri", "Naxçıvan türk-islam mədəniyyəti abidələri", "Naxçıvan xalçaçılığı: tarixdə və günümüzdə", "Qazançı körpüsü" kimi əsərləri bilavasitə tarix və mədəniyyət abidələrimizi tanıtmaq istiqamətində atılmış çox böyük uğurlu addımdır. Məlum olduğu kimi, Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilmişdi. Fəxrəddin Səfərli bununla əlaqədar monoqrafiya hazırlamış və burada Naxçıvanın türk-islam mədəniyyəti abidələrindən olan məscidlər, mədrəsələr, türbələr, imamzadələr, körpülər, karvansaralar, qalalar, hamamlar, mülki tikintilər, buzxanalar və bu abidələri inşa edən memarlar haqqında məlumatlar vermiş, təhlillər və ümumiləşdirmələr aparmışdır. Müəllifin "Tarixi mənbələrdə Nuh peyğəmbər" kitabı böyük maraq doğurmuşdur. Kitabda Naxçıvanda Nuh peyğəmbərlə əlaqədar yaranmış şifahi xalq ədəbiyyatı nümunələrindən olan miflər, əfsanə və rəvayətlər, inamlar, bayatılar, yer-yurd adları, deyimlər, qaynaqlarda Nuh peyğəmbər və Naxçıvanla bağlılığı haqqında məlumatlar, tədqiqatlar yer almışdır. Elmi dəyərinə görə kitabın müəllifi – Fəxrəddin Səfərli Naxçıvan Muxtar Respublikası Ali Məc-

lisinin Sədri Vasif Talıbov tərəfindən mükafata layiq görülmüşdür. AMEA-nın müxbir üzvü V.Baxşəliyevin təbirincə desək, F.Səfərlinin araşdırmaları, daş kitabələrin oxunması tariximizin qaranlıq səhifələrinə işıq saldığı kimi, abidələrimizin də simasına nur çiləmişdir.

Fəxrəddin müəllim daha çox Azərbaycan tarixinin Orta əsrlər dövrünün mükəmməl tədqiqatçısı olsa da, o, tariximizin digər dövrləri və problemləri ilə də bağlı tədqiqatlar aparmış, əsərlər ortaya qoymuşdur. Belə problemlərdən biri də məkrli düşmənlərimiz, onların haqsız və məqsədli iddialarıdır. Erməni millətçiləri Naxçıvanla bağlı ərazi iddiaları irəli sürür və bunu bölgədə erməni qəbir abidələrinin üstünlük təşkil etməsi ilə əlaqələndirirlər. Bu uydurma iddialara laqeyd qala bilməyən müəllifin "Qondarma erməni soyqırımı və tarixi həqiqətlər" kitabında ermənilərin Naxçıvana köçürülməsi, müsəlman epiqrafikası abidələrinin məlumatları əsasında ərazilərin Azərbaycan xalqına məxsusluğu, erməni iddialarının əsassızlığı sübuta yetirilir, maddi-mədəniyyət nümunələrinə qarşı erməni vandalizmi ifşa olunur.

AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin elmi yaradıcılığının və ictimai fəaliyyətinin əsas mahiyyətini azərbaycançılıq və milli dövlətçilik təlimi təşkil edir. Ulu öndər Heydər Əliyev haqqında qələmə aldığı "Heydər Əliyev irsi – əbədiyaşar təlim" monoqrafiyasında Ulu Öndərin nəzəri irsinin ölkəmizin gələcək uğurlarının əsasını təşkil etməsi əsaslandırılmış və bu təlimə dönə-dönə müraciət edilməsinin zəruriliyi göstərilmişdir. Əsərdə görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyinin hər iki dövrünə, həyat və fəaliyyətinin müxtəlif məqamlarına diqqət yetirilmiş, dahi şəxsiyyətin milli-mənəvi dəyərlərimizə göstərdiyi qayğı, Naxçıvan Muxtar Respublikasının erməni işğalından xilas edilməsindəki tarixi rolu, Naxçıvan dövr fəaliyyəti təhlil edilmiş, əhəmiyyətli ümumiləşdirmələr aparılmışdır.

AMEA Naxçıvan Bölməsində bir sıra ümumiləşdirici və fundamental əsərlərin, xəritələrin, ensiklopediyaların hazırlanmasında Fəxrəddin Səfərlinin böyük əməyi olmuşdur. Onun bilavasitə iştirakı və müəllifliyi ilə iki cildlik "Naxçıvan ensiklopediyası", "Naxçıvan abidələri ensiklopediyası", "Naxçıvan tarixi atlası", "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlası", üç cildlik "Naxçıvan tarixi" əsərləri hazırlanmış və nəşr edilmişdir.

F.Səfərli Azərbaycan tarix elmində öz sözünü deyən yaradıcı və məhsuldar tədqiqatçı alimdir. O, 600-ə yaxın elmi və elmi-kütləvi əsərin müəllifidir. Bunlardan 12-si monoqrafiya, 3-ü kitab, 5-i kitabça, 2-si dərslik, 2-si metodik vəsait, 2-si tərtibat, 300-dən çoxu isə elmi məqalələrdir. Onun tədqiqatları Rusiya, Bolqarıstan, Türkiyə, İran, Ukrayna və başqa xarici ölkələrdə nəşr edilmişdir.

Alim dövlətçiliyimizin qorunmasında və möhkəmləndirilməsində vətəndaş qeyrəti göstərən və irəlidə gedən ziyalılarımızdandır. Onun fəaliyyəti xalqına, dövlətinə sədaqət nümunəsi, vətənpərvərliyi isə gənclərə örnəkdir.

Fəxrəddin Səfərli ölkəmizin, eləcə də muxtar respublikamızın ictimai-siyasi həyatında yaxından iştirak edir. O, IV və V çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, "Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsinin" sədri seçilib. Elmi fəaliyyəti və tədqiqatçılıq bacarığı, kadr hazırlığındakı rolu nəzərə alınaraq 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilib, 2010-cu ildə professor elmi adına layiq görülüb.

AMEA-nın müxbir üzvü F.Səfərlinin elmi fəaliyyətinə və xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Əməkdar elm xadimi" fəxri adına, ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illiyi münasibəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Xatirə Qızıl medalına, AMEA Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülüb.

Fəxrəddin Səfərli yüksək əxlaqı və insani keyfiyyətləri ilə də onu tanıyanların, işlədiyi kollektivin, yetirmələrinin dərin hörmətini qazanmışdır.

Əziz Fəxrəddin müəllim! 70 yaş insan ömrünün ən müdrik çağıdır. Bu müdriklik dönəmində Sizə uzun ömür, can sağlığı və Azərbaycanın daha da inkişafı və çiçəklənməsi naminə davamlı uğurlar arzulayırıq!

İsmayıl Hacıyev,
Azərbaycan Milli Elmlər Akademiyası
Naxçıvan Bölməsinin sədri, akademik

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi elmi keyfiyyət kriterilərinə cavab verən orijinal elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.
3. Məqalənin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Məqalələr AMEA-nın həqiqi və müxbir üzvləri və ya redaksiya heyətinin üzvlərindən biri tərəfindən təqdim edilməlidir.
6. Məqalələr üç dildə – Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi və hər xülasədə açar sözlər verilməlidir.
7. Məqalənin mətni jurnalın redaksiyasına fərdi kompyuterdə, A4 formatlı ağ kağızda, "12" ölçülü hərflərlə, səhifənin parametrləri yuxarıdan 2 sm, aşağı dan 2 sm; soldan 3 sm, sağdan 1 sm məsafə ilə, sətirdən-sətrə "defislə" keçmədən, sətir aralığı 1,5 interval olmaq şərti ilə rus və azərbaycan dilində Times New Roman şriftində yazılaraq, 1 nüsxədə çap edilərək, disketlə birlikdə jurnalın məsul katibinə təqdim edilir. Mətnin daxilində olan şəkil və cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin sağ küncündə "12" ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı yazılır.
9. Aşağıda işlədiyi təşkilatın adı və müəllifin E-mail adresi, "12" ölçülü adi və kiçik hərflərlə yazılır (məs.: AMEA Naxçıvan Bölməsi; E-mail: ada.nat.res@mail.ru). Daha sonra 1 sətir boş buraxılmaqla aşağıdan "12" ölçülü böyük hərflərlə məqalənin adı çap edilir. Sonra məqalənin yazıldığı dildə "10" ölçülü hərflərlə, kursivlə xülasə və açar sözlər yazılır.
10. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl "12" ölçülü hərflərlə, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. "Ədəbiyyat" sözü səhifənin ortasında qalın və böyük hərflərlə yazılır. Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə verilir. Məs.:

Kitablar:

Qasımov V.İ. Qədim abidələr. Bakı: İşıq, 1992, 321 s.

Kitab məqalələri:

Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91.

Jurnal məqalələri:

Baxşəliyev V.B., Quliyev Ə.A. Gəmiqaya təsvirlərində yazı elementləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 74-79.

11. Məqalənin xülasəsində müəllifin adı və soyadı "12" ölçülü kiçik, qalın hərflərlə; mövzunun adı böyük, qalın hərflərlə; xülasənin özü isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir.
12. Məqalədəki istinadlar mətnin içərisində verilməlidir. Məs.: [4, s. 15]
13. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-7 səhifədən çox olmamalıdır.
14. Məqaləyə müəlliflər haqqında məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, alimlik dərəcəsi və elmi adı, ünvanı, E-mail adresi, iş və ev telefonları) mütləq əlavə olunmalıdır.

QEYD: AMEA Naxçıvan Bölməsinin "Elmi əsərlər" jurnalına təqdim olunan məqalələrin sayının çoxluğunu və "Tusi" nəşriyyatının imkanlarının məhdudluğunu nəzərə alaraq bir nömrədə hər müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.

INFORMATION FOR AUTHORS

1. The main purpose of this journal is to publish original scientific papers that meet the criteria ofscientific quality.
2. The journal publishes compact and perfectly edited scientific papers, which are the results of new research and have not been published in other publications previously.
3. The number of collaborators exceeding three is undesirable.
4. The author is directly responsible for the quality of papers and the accuracy of the facts presented.
5. The papers must be submitted by full members and corresponding members of ANAS or one of the Editorial Board members.
6. The papers can be published in three languages – Azerbaijani, Russian and English. In addition to the language in which a paper is written, an abstract should be provided in two other languages and keywords should be pointed.
7. A paper text is submitted to the editor-in-chief of the journal along with an electronic copy, it must be printed on a personal computer, on white A4 paper, in Times New Roman font, font size "12", page parameters 2 cm above, 2 cm below, 1 cm on the left, 1 cm on the right, without hy-phenation, in 1.5 interval, and in one of the languages mentioned above. Margins for figures and tables inside the text should be 3.7 cm left and right.
8. The name and surname of the author (authors) are indicated in bold and capital letters in the right corner of the page, font size "12".
9. The organization name and the author's e-mail address are written below in lowercase letters, the font size is "12" (for example: Nakhchivan branch of ANAS; E-mail: ada.nat.res@mail.ru). ada.nat.res@mail.ru). Below, after one blank line, the title of the paper is indicated in capital letters, font size "12". Then there is abstract including keywords in the language of the paper, font size "12", italics.
10. Reference should be made to scientific sources on the subject, the list of references should be given before the abstract, in accordance with the encoding rules, in alphabetical order, the font size "12'. The word "references" in the middle of the page is highlighted in bold and in capital letters. References are in lowercase letters in the language in which this edition has been published. Eg.:

Books:

Gasymov V.I. Ancient monuments. Baku: Light, 1992, 321 p.

Book papers:

Habibbeyli I.A. Science and culture in Nakhchivan / Nakhchivan in the history of Azerbaijan. Baku: Science, 1996, p. 73-91.

Journal Articles:

Bakhshaliev V.B., Guliev A.A. Writing elements in the drawings of Gemigaya // Proceedings of the Nakhchivan Branch of ANAS, 2005, №. 1, p. 74-79.

11. The author's name and surname in the abstract are indicated in lowercase letters in bold font, size "12"; the title of the paper is capitalized in bold; and the abstract itself is in lowercase letters. The abstract should correspond to the full content of the paper; the results are to be given in detail.
12. Links in the paper should be in the text. Eg.: [4, p. 415].
13. The total amount of a paper including graphic materials, photographs, tables, formulas, refeences, and reviews should not exceed 5-7 pages.
14. Authors' data must be specified additionally (last name, first name, patronymic, place of work, position, degree and academic title, address, email address, work and home phone numbers).
15. A paper's code based on UDC should be indicated on the left.

NOTE: Taking into account the large number of papers submitted to the "Scientific works" journal of the Nakhchivan section of ANAS, and the limited capabilities of the "Tusi" publishing house, it is assumed that only one paper of each author will be published in one issue.

К СВЕДЕНИЮ АВТОРОВ

1. Основной целью журнала является публикация оригинальных научных статей, соотвствующих критериям научного качества.
2. Журнал публикует компактные и в совершенстве отредактированные научные статьи, являющиеся результатами новых исследований и не опубликованные ранее в других изданиях.
3. Нежелательно, чтобы число соавторов превышало три.
4. Автор несет прямую ответственность за качество статей, достоверность представленных в них фактов.
5. Статьи должны быть представлены действительными членами и членами-корреспондентами НАНА или одним из членов Редколлегии.
6. Статьи могут быть напечатаны на трех языках – азербайджанском, русском и английском. В дополнение к языку, на котором написана статья, следует предоставить резюме на двух других языках и указать ключевые слова.
7. Текст статьи представляется ответственному редактору журнала вместе с электронной копией, он должен быть напечатан на персональном компьютере, на белой бумаге формата А4, шрифтом Times New Roman, размер шрифта «12», параметры страницы 2 см вверху, 2 см внизу, 1 см слева, 1 см справа, без переносов, с интервалом 1,5, на одном из вышеуказанных языков. Поля для рисунков и таблиц внутри текста должны быть по 3,7 см слева и справа.
8. В правом углу страницы имя и фамилия автора (авторов) указываются жирным шрифтом и заглавными буквами, размер шрифта «12».
9. Название организации и адрес электронной почты автора ниже пишутся обычными строчными буквами, размер шрифта «12» (например: Нахчыванский филиал НАНА; E-mail: ada.nat.res@mail.ru). Ниже после одной пустой строки указывается название статьи заглавными буквами, размер шрифта «12». Затем приводится резюме с ключевыми словами на языке статьи, размер шрифта «12», курсив.
10. Следует указать ссылки на научные источники по данному предмету, список использованной литературы указывается перед резюме, в соответствии с правилами кодировки, в алфавитном порядке, размер шрифта «12». Слово «литература» в середине страницы выделено жирным шрифтом и заглавными буквами. Список литературы приводится строчными буквами на том языке, на котором вышло издание. Напр.:

Книги:

Гасымов В.И. Древние памятники. Баку: Свет, 1992, 321 с.

Статьи книги:

Хабиббейли И.А. Наука и культура в Нахчыване / Нахчыван в истории Азербайджана. Баку: Наука, 1996, с. 73-91.

Журнальные статьи:

Бахшалиев В.Б., Гулиев А.А. Элементы письменности в рисунках Гемикая // Извстия Нахчыванского Отделения НАНА, 2005, № 1, с. 74-79.

11. В резюме имя и фамилия автора указываются строчными буквами жирным шрифтом размером «12»; название статьи – заглавными буквами жирным шрифтом; а само резюме – строчными буквами. Резюме должно соответствовать полному содержанию статьи, полученные результаты приводятся подробно.
12. Ссылки в статье должны быть в тексте. Напр.: [4, с. 15].
13. Общий объем статьи, включая графические материалы, фотографии, таблицы, формулы, список литературы и отзывы, не должен превышать 5-7 страниц.
14. Данные об авторах обязательно указываются дополнительно (фамилия, имя, отчество, место работы, должность, степень и научное звание, адрес, адрес электронной почты, рабочие и домашние телефоны).
15. Код статьи на основе УДК следует указывать слева.

ПРИМЕЧАНИЕ: Принимая во внимание большое количество статей, представленных в журнал «Научные труды» Нахчыванского отдела НАНА, и ограниченные возможности издательства «Туси», предполагается, что только одна статья каждого автора будет опубликована в одном номере.

AMEA Naxçıvan Bölməsinin elmi nəşri
№ 3 (57)

Baş redaktor: *Zülfiyyə Məmmədli*
Redaktor: *Sara Cəfərova*
Korrektor: *Yelena Muxtarova*
Operatorlar: *İlhamə Əliyeva,*
Aynur Təhməzova,
Taleh Maxsudov

Yığılmağa verilmişdir: 02.09.2019
Çapa imzalanmışdır: 20.09.2019
Kağız formatı: 70 x 108 1/16
18,6 çap vərəqi. 298 səhifə
Sifariş № 132. Tiraj: 200

AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.
Ünvan: *Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.*
E-mail: tusinesr@gmail.com

ELMİ ƏSƏRLƏR • SCIENTIFIC WORKS • НАУЧНЫЕ ТРУДЫ